ŞƏMİSTAN NƏZİRLİ

# *GENERAL ƏLİ AĞA ŞIXLİNSKİ VƏ SİLAHDAŞLARI*

## HƏRB TARİXİNDƏN ARAŞDIRMALAR

Bakı – 2012

**Elmi məsləhətçi:** **Mehman Süleymanov**
*hərb elmləri doktoru, polkovnik*

**Şəmistan NƏZİRLİ**
**"GENERAL ƏLİ AĞA ŞIXLİNSKİ VƏ SİLAHDAŞLARI"**

Hərb tarixi və generallarımız haqqında silsilə əsərlər müəllifi, tədqiqatçı-jurnalist Şəmistan Nəzirlinin adı Azərbaycan oxucularına yaxşı məlumdur. Onun "Güllələnmiş Azərbaycan generalları", "Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbov", "İyirminci ildə Qarabağ döyüşləri", "General Yadigarov qardaşları", "Cümhuriyyət generalları" və başqa əsərləri tarixi sənədlər əsasında yazılıb.

Şəmistan Nəzirli oxucuların görüşünə yeni bir əsərlə gəlib. İllərlə həyat və fəaliyyətini öyrəndiyi böyük sərkərdə Əli ağa Şıxlinskinin hərbiçi nəsli haqqında kitabını oxuculara təqdim edir. Əsərdə generalın həyat yoldaşı ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanım, artilleriya generalı Səməd bəy Mehmandarov, ilk admiral İbrahim bəy Aslanbəyov, unudulmuş topoqraf-general İbrahim ağa Vəkilov və süvari generalı Yaqub Quliyev haqqında tədqiqatları da oxuculara təqdim olunur.

© Ş.Nəzirli

*Hər fərdin bioqrafiyası olduğu kimi, hər nəslin də özünə məxsus bioqrafiyası var. Bu bioqrafiyalar müxtəlif şəraitdən, müxtəlif tarixi dövrlərdən keçdiyi üçün müxtəlifdir. İnsanların taleyi olduğu kimi, nəsillərin də taleyi var. Bu taleləri sonradan pisləmək, yaxud dəyişdirmək olmaz. Onların üstündən xətt də çəkmək olmaz. Onları necə varsa, eləcə də qəbul etmək lazımdır. Əgər sonradan gələnlər özlərindən əvvəlkiləri inkar etsələr, onu yoxa çıxartmağa çalışsalar, tarixin mərhələlərində bir boşluq əmələ gələr.*

***İsmayıl ŞIXLI***
***xalq yazıçısı***

*Bizim keçmişdə də ordu yaratmaq sahəsində böyük ənənələrimiz olub. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.*

***Heydər ƏLİYEV***

*General İsmayıl bəy Qutqaşınlı, Cəfərqulu ağa Bakıxanov, Əli ağa Şıxlinski, Səməd bəy Mehmandarov, İbrahim ağa Vəkilov… eh, nə qədər! Adları itənlərimiz, şöhrəti unudulanlarımız haqqında kim danışacaq? Nə vaxt danışacaq, nə vaxt yazacaq? Balaca xalqıq, böyük hərb tariximiz var…*

*Bütün yazıçıları bir yerə yığın, hərb tariximizdən yazın. Bu bizim qürur hissimizdi, onu əlimizdən almaq olmaz.*

***Xalq şairi Nəriman HƏSƏNZADƏ***
***"Nabat xalanın çörəyi" povesti,***
***1986-cı il, səh.138***

# HƏRB TARİXİNƏ HƏSR OLUNMUŞ ÖMÜR

Mən Şəmistan Nəzirlini qiyabi olaraq çoxdan tanıyırdım. Onun adına ilk dəfə Çita şəhərində hərbi xidmətdə olarkən rast gəlmişdim. Həmin vaxt vətəndən uzaq olmağıma baxmayaraq çalışırdım ki, əlaqələrimi itirməyim və mənim yanıma gələn dost-tanışlarım həmişə mənə Azərbaycan dilində xalqımızın tarixinə və mədəniyyətinə aid kitab və jurnallar gətirərdilər. Çitadakı xidmətim zamanı Azərbaycandan aldığım kitabların arasında "Azərbaycan generalları" kitabını da gördüm. Bu kitab mənim üçün son dərəcə böyük maraq kəsb etdi. Doğrusunu deyim ki, mən ilk dəfə Azərbaycan xalqının bu qədər general övladlarına malik olması barədə məlumatla bu kitabla rastlaşdım. Təbii olaraq kitabın müəllifinin kim olduğu ilə maraqlandım. Həmin kitabın müəllifi, bildiyiniz kimi, hazırda Müdafiə Nazirliyində Hərbi-Elmi Mərkəzin baş elmi işçisi, polkovnik-leytenant Şəmistan Nəzirlidir.

Keçən əsrin doxsanıncı illərində Azərbaycanda məlum proseslər başlayanda mən də könüllü olaraq vətənimə döndüm və xidmətimi Azərbaycanda davam etdirməyi qərara aldım. Mənə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yeni qurulan ordu üçün hərbi nizamnamələrin hazırlanması, Azərbaycan hərb tarixinin araşdırılması və onun yeni ordunun şəxsi heyətinə çatdırılması kimi vəzifələr həvalə olundu. Hərbi nizamnamələrin hazırlanması işi elə bir xüsusi çətinlik təşkil etməsə də, Azərbaycanın hərb tarixinin araşdırılması vəzifəsi bu işi bilən mütəxəssislər olmadan mümkün deyildi. Yadımdadır ki, biz Elmlər Akademiyasına müraciət etdik. Təbii olaraq orada belə mütəxəssislərin olmadığı cavabı ilə rastlaşdıq. Mənə təklif olundu ki, Şəmistan

Nəzirlini bu işə cəlb edək. Mən onunla tanış deyildim. Ancaq adını eşidəndə xatırladım ki, bu adam mənim hələ Çita şəhərində əsərini sevə-sevə oxuduğum "Azərbaycan generalları" kitabının müəllifidir. Ona da sevindim ki, indi onunla tanış olmaq imkanım olacaqdı.

Bu hadisə 1992-ci ilin isti yay günlərində olmuşdu. Şəmistan Nəzirlini biz evdə tapa bilmədik. O, Mərdəkandakı istirahət evlərindən birində öz yaradıcılığı ilə məşğul idi. İstefada olan polkovnik Mustafa Məhərrəmovla bərabər onun yanına getdik. Tanış olduqdan sonra gəlişimizin məqsədini açıqladıq. Şəmistan əvvəlcə razı olmadı. Bildirdi ki, geniş yaradıcılıq planları var və işləri çoxdur. Biz söylədik ki, məqsədimiz elə onun yaradıcılıq fəaliyyətinə qayğı və şərait yaratmaq, üzə çıxardıqlarını ordunun şəxsi heyətinə çatdırmaqdır. Bir xeyli söhbət etdik, fikirlərimizi bölüşdük. İlk görüşümüz zamanı Şəmistan müsbət cavab verməsə də mən şübhə etmirdim ki, bizim təklifimizə o biganə qalmayacaqdır. Çünki ömrünü əcdadlarımızın hərb tarixinə həsr etmiş bir insan həmin tarixi həsrətlə gözləyən Milli Ordudan kənarda qala bilməzdi. Qalmadı da. Biz bunun üçün də ona minnətdar olmalıyıq. Onu da yaxşı bilirdik ki, Şəmistan Nəzirlinin həyatının hər anı bizim üçün qiymətli olan tariximizin bağlı qalmış səhifələrinin açılmasıdır. Ona görə onun səmərəli fəaliyyəti üçün mümkün olan şəraiti yaratmağa çalışırdıq. Qısa müddət ərzində o çox məhsuldar işlədi. "Qoridən gələn qatar", "Cümhuriyyət generalları", "Qacarlar", "Tam artilleriya generalı Səməd bəy Mehmandarov", "Yaddaşlarda yaşayan Vurğun", "Arxivlərin sirri açılır", "Topoqraf-general İbrahim ağa Vəkilov", "Qarxunlu Əşrəf bəy", "General Yadigarov qardaşları", "Güllələnmiş Azərbaycan generalları" və s. kimi kitabları yazıb nəşr etdirdi.

1999-cu ildə müdafiə naziri Gürcüstanda səfərdə olarkən qarşılıqlı fəaliyyət barədə müəyyən razılaşmalar əldə edilmişdi. Həmin razılaşmanın nəticəsi kimi Şəmistan Nəzirli bir müddət Gürcüstan arxivlərində araşdırmalar apardı və bu araşdırmala-

rın nəticəsi kimi xalqımızın daha on bir generalının adını və fəaliyyətini üzə çıxardı. Şəmistan Nəzirlinin bu istiqamətdəki uğurlu fəaliyyəti indi də davam etməkdədir.

Müdafiə nazirliyinin orqanı olan "Hərbi bilik" jurnalının yaradılmasında da Şəmistan Nəzirlinin xeyli zəhməti var. Doxsan üçüncü ildə ilk dəfə onun təşəbbüsü ilə bu jurnal yenidən nəşr olundu. O, iyirmi-otuzuncu illərdə Azərbaycanın hərbi qəzet və jurnalları haqqında xeyli materiallar araşdırıb üzə çıxartmışdır. Elə jurnalın 1993-cü ildə çap olunan ilk nömrəsində də "Hərbi bilik" jurnalının ilk redaktorları və general Əli ağa Şıxlinski barəsində onun yazıları var idi. O vaxtdan indiyə kimi Şəmistan Nəzirli "Hərbi bilik" jurnalının daimi müəlliflərindən biri olaraq qalmaqdadır.

Şəmistan Nəzirli son dərəcə zəhmətkeş bir tədqiqatçıdır. Zəhmətkeş olduğu qədər də sadə, gülərüz, vətənpərvər bir şəxsdir. Ömrünü həsr etdiyi mövzular elə onun vətənə bağlılığının bir nümunəsidir. Özü də Şəmistan elə bir mövzunun araşdırıcısıdır ki, onun qələmindən çıxan hər bir sətir xalqımızın qəhrəmanlıq tarixinin canlandırılması və gənclərimizin də bu qəhrəmanlıq ənənələri üzərində tərbiyə edilməsi üçün misilsiz əhəmiyyətə malikdir. Milli hərbiçilərimizin xatirələrinin əbədiləşdirilməsi üçün həmişə narahat bir ömür keçirir. Yadınıza salın general Ə.Şıxlinskinin "Xatirələrim"in çapı ilə bağlı onun 1984-cü ilin zəhmətini…

1993-cü ilin mart ayında Şəmistan təklif etdi ki, Əli ağa Şıxlinskinin anadan olmasının 130 illiyini qeyd edək. Bu tarixə çox az vaxt qalmışdı. Buna baxmayaraq, Şəmistanın səyləri ilə biz lazım olan işləri görə bildik və Əli ağa Şıxlinskinin anadan olma tarixini onun Yasamal qəbiristanlığındakı qəbri üzərində qeyd etdik. Rəhmətlik xalq yazıçısı İsmayıl Şıxlı və başqa xadimlərimiz bu tədbirdə iştirak etdilər. Həmin vaxtdan başlayaraq Əli ağa Şıxlinskinin anadan olma günü hər il onun qəbri üzərində qeyd edilir.

İstiqlal küçəsində tam artilleriya generalı Səməd bəy Mehmandarovun yaşamış olduğu evin divarında onun xatirə lövhəsinin vurulmasında da Şəmistanın böyük zəhməti vardır. Onun gördüyü işləri qısa bir zaman içərisində sadalayıb qurtarmaq mümkün deyil. Çox sevindiricidir ki, bu fəaliyyətini davam etdirmək üçün Şəmistanın hələ böyük imkanları vardır. İndi o ömrünün müdriklik və məhsuldar çağlarını keçirir və şübhə etmirik ki, yaxın gələcəkdə Şəmistanın yeni-yeni araşdırmalarının soraqlarını eşidəcəyik.

Şəmistanın yaradıcılığına qısa nəzər salmaqla əminliklə söyləmək olar ki, o, ömrünü əbəs yerə keçirməmişdir. Şəmistan qəhrəmanlıq tariximizi üzə çıxarmaqla vətənimizə və özünə bir tarix yaratmışdır. Bu tarixin yeni səhifələrini yazmaqda mən ona böyük uğurlar arzu edirəm.

Bu gün o, oxucuların görüşünə yeni bir əsərlə gəlib. Şəmistan illərlə həyat və fəaliyyətini öyrəndiyi böyük sərkərdə ***Əli ağa Şıxlinski və onun silahdaşları haqqında yeni kitabını oxuculara təqdim edir. Əsərdə generalın həyat yoldaşı ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanım, unudulmuş topoqraf-general İbrahim ağa Vəkilov, Səməd bəy Mehmandarov, ilk azərbaycanlı admiral İbrahim bəy Aslanbəyov, Port-Arturun azərbaycanlı qəhrəmanları və süvari generalı Yaqub Quliyev*** haqqında tədqiqatları da oxuculara ilk dəfə təqdim olunur.

***Çingiz MƏMMƏDOV,***
***general-leytenant***

# ALİM-GENERAL

***General Əli ağa Şıxlinski ilə yaxından tanış olanlar, onun maraqlı söhbətlərinə qulaq asanlar bilirlər ki, bu təvazökar və səmimi insan nə qədər ağıllı və ibrətli bir şəxs idi.***

***Heydər HÜSEYNOV***
***(1908-1950)***
***filosof-alim***

***Yaxşı adamların əməllərinin bizə nə qədər fayda gətirdiyini yadına sal...! Onda başa düşərsən ki, onların xatirəsi də özləri qədər əzizdir.***

***Seneka Lutsi ANNEY***
***(e.ə.4–ə.65)***
***Roma filosofu***

Fitri istedada malik olan tam artilleriya generalı Əli ağa Şıxlinski bütün varlığı ilə sevdiyi Azərbaycan xalqına ömrünün sonunadək sədaqətlə xidmət etmişdir. Hərbi fəaliyyətində araşdırmalar apardıqda onun bir çox sahələrdə ilkin şəxs olduğunun şahidi oluruq. Yalnız general kimi vəzifəsini bitmiş hesab etməyən bu məşhur sərkərdə həm də hərb elminin görkəmli alim idi. Hələ əsrin əvvəllərində hərbi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilən "Şıxlinski üçbucağı"ndan təkcə Rusiyada deyil, Fransa, Avstriya, Norveç, İsveçrə və başqa ölkələrin artilleriya məktəblərində dərslik kimi istifadə olunmuşdur.

Əli ağa Şıxlinski "Üçbucağı"nda artilleriya tarixində ilk dəfə topların gözlə görünməyən hədəfə atəş açmaq texnikasını işləyib

hazırlamış və topların təkmilləşdirilməsi işinə bir sıra dəyərli yeniliklər gətirmişdir. Hərb elminin mütəxəssisləri bu gün də etiraf edirlər ki, general Şıxlinski qeyri-adi fəaliyyəti ilə fərqlənmiş nadir hərbi mütəxəssislərdəndir. O, yeganə azərbaycanlıdır ki, ilk dəfə Fransanın generallara məxsus fəxri "Legion ordeni" və zabitlərə verilən "Legion xaçı" ilə təltif edilmişdir. Əli ağa Şıxlinski generallar arasında ən yaxşı hərb alimi, alimlər arasında ən məşhur artilleriya generalı idi.

Arxiv sənədlərindən məlum olur ki, general Əli ağa Şıxlinski 1939-cu ildən sonra alim Heydər Hüseynovla müntəzəm elmi yaradıcılıq əlaqəsi saxlamışdır. Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivindən aşkar etdiyimiz 1940-cı il 15 iyul tarixli məktub da general tərəfindən alimə ünvanlanmışdır. İri ölçülü kağızlarda yazılmış iyirmi səhifəlik məktub-müraciətində general Əli ağa Şıxlinski alimə 852 sözün izahını və düzəlişlərini yazıb göndərmişdi. Məktubdan məlum olur ki, 1939-cu ildə Heydər Hüseynovun redaktorluğu ilə nəşr olunmuş "Rusca-azərbaycanca lüğət"i mütaliə etdikdən sonra general bu ağır zəhməti çəkmişdir. General "Qeydləri"nin müqəddiməsində yazır: "Redaksiyanın çağırışına əməl edərək, lüğətdə mənim rast gəldiyim səhvlər haqqında bəzi mülahizələrimi təqdim edirəm.

Ümumiyyətlə lüğət çox gözəldir. Hər bir sözü ayrılıqda deyil, bütün cümlənin ümumi mənasını tərcümə etmək üçün, tərcüməçilərə kömək edəcək frazeologiya xüsusilə yaxşıdır".

Ümumi müddəalarında isə Əli ağa Şıxlinski belə qərara gəlir ki, lüğətin əsas çatışmayan cəhəti onun qısa olmasıdır.

"Lüğətdə çox yerdə əsas sözlər buraxılmış, ancaq onların törəmə sözləri verilmişdir.

Bizim dilimizi ona yad olan söz düzəltmələrindən təmizləmək lazımdır. Əgər başqa dillərə məxsus sözlərdən istifadə etmək ehtiyacı varsa, onda törəmə sözlər bizim dilimizin qanunlarına uyğun olmalıdır. Bu, hər şeydən əvvəl, isimlərdən sifət əmələ gəlmə hallarına aiddir. Məsələn: *a v t o m a t* yazmaq olar və yazmaq da lazımdır. Ancaq *a v t o m a t i k* – olmaz, artıqdır. *H ə r b* sözü isə dilimizə çoxdan qəbul edilmişdir, onu saxlamaq, *h ə r b i* sözünü

isə atmaq lazımdır. Azərbaycan xalq dilinin zəngin xəzinəsində rus və Avropa sözlərinin qarışığı kimi işlətmək də məqsədəuyğundur. Məsələn: a x ı n t ı (*cərəyan*), s a x l a n c (*ehtiyat*), d ö v r ç a ğ  d ö n ü m ü (*dövr*), d ü z g ü (*quruluş*), b i l g i (*nəzəriyyə*) və s.".

Təvazökar general məktubunun sonunda yazır: "Əgər Siz təqdim olunmuş materialın heç olmasa kiçik bir hissəsindən istifadə edə bilərsinizsə, onda mən özümü çox xoşbəxt sanaram. Sevinərəm ki, mən də öz balımın kiçik bir damlasını Sizin gözəl arı pətəyinizə əlavə etmişəm".

General Əli ağa Şıxlinskinin bu iradlarını məmnuniyyətlə qəbul edən alim Heydər Hüseynov cavab məktubunda yazır ki, lüğətin gələcək nəşrində sizin elmi zəhmətinizdən mütləq istifadə olunacaq. Alim bunun üçün generala sətir haqqı da göndərmişdir.

Akademik Əliheydər Orucov "Əli ağa Şıxlinskinin bir əlyazması haqqında" adlı məqaləsində haqlı olaraq belə qənaətə gəlir ki, generalın alim Heydər Hüseynova göndərdiyi "Qeydləri" lüğətçilik, xüsusən də termin yaradıcılığı baxımından çox faydalıdır. İndiyə qədər hərbi mütəxəssis kimi tanınan Əli ağa Şıxlinskinin dil, lüğətçilik, terminologiya məsələlərilə maraqlanması faktının özü səciyyəvi haldır. (Bax: "Terminologiya məsələləri" kitabı, Bakı, 1987, səh.12).

General Əli ağa Şıxlinski lüğətçiliklə 1940-cı ildənmi məşğul olmağa başlamışdır? Xeyr! Onun şəxsi arxivində mühafizə olunan "Zabitin dəftəri"ndəki qeydlərindən məlum olur ki, o, hələ gənc zabit ikən hərb elmi ilə, dilçilik və hərbi lüğətlə, terminologiya ilə maraqlanmış və bu sahədə gərgin axtarışlar aparmışdır. Uzun illər – 1879-cu ildən 1917-ci ilədək həyatının çox hissəsini Azərbaycandan uzaqlarda, yüksək hərbi dairələrdə, özgə məmləkətdə və başqa dil mühitində yaşamasına baxmayaraq, general milli varlığını, ana dilini qoruyub saxlaya bilmişdir. Orada Azərbaycan dilində mətbuatın və nəşriyyatın olmaması üzündən "Rusca-türkcə qısa hərbi lüğət"ini 1926-cı ildə Bakıda üç əlifbada

– rus, ərəb və latın əlifbası ilə nəşr etdirə bilmişdir. Bununla da ilk dəfə Azərbaycanda hərbi lüğətin yaradıcısı olmuşdur. Məhz bu əvəzsiz xidmətinə görə general Əli ağa Şıxlinski SSRİ Hərbi İnqilab Şurasının 1928-ci il 23 fevral tarixli qərarı ilə Fəxri Fərmanla təltif olunmuşdur. Şıxlinskinin lüğəti hərbi nizamnamələrin, hərbi elmi ədəbiyyatın Azərbaycan dilinə tərcümə olunmasında böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda hərbi məktəblərdə, yenicə yaranmış orduda xidmət edən azərbaycanlı əsgər və zabitlər bu lüğətdən qiymətli vəsait kimi istifadə etmişlər.

Həmin kitabın elmi terminoloji əhəmiyyətini maraqlı faktlarla araşdıran filologiya elmləri namizədi A.Hacıyeva yazır: "Əli ağa Şıxlinskinin lüğəti geniş dil materialının dərin təhlilinin nəticəsi idi.

Azərbaycan dilinin lüğət tərkibini geniş əhatə etməsi xalq dilinə məxsus söz və ifadələrdən yerli-yerində, səmərəli istifadə olunması, bir çox unudulmuş və az işlənən sözlərə yenidən termin kimi həyat vəsiqəsi verilməsi baxımından Ə.Şıxlinski lüğəti o dövrdə nəşr edilən lüğətlərin hamısından fərqlənir. … Azərbaycan dilində hərbi terminologiyanın olmaması bu işdə böyük çətinlik törədirdi. Əli ağa Şıxlinskinin lüğətinin nəşri ilə həmin çətinlik, demək olar ki, aradan qaldırıldı".

General Şıxlinskinin 1926-cı ildə nəşr etdirdiyi 280 səhifəlik "Rusca-türkcə qısa hərbi lüğət" elmi əsəri xüsusi dəyərə malikdir. Həmin lüğətin misilsiz elmi əhəmiyyətindən danışan görkəmli filosof-alim Heydər Hüseynov yazır:

"...Kitabın əvvəlində general Əli ağa Şıxlinski lüğət tərtib edərkən yeddi əsas qəbul etdiyini göstərir: 1) Yad sözlərin yerinə bacardıqca, türk-Azərbaycan sözləri qoyulubdur. 2) El arasında işlənən türkləşmiş ərəb və fars sözləri buraxılmayıbdır: bu dürlü sözlər, onlar elə birmənalı türk sözlərinin yanında dırnaqlar arasında yazılıbdır; məsələn: ç a ğ (*vaxt, zaman*). 3) Türkcəyə qarışmış bəzi ərəb sözləri türkcə deyilişinə uyğun yazılıbdır; məsələn: q a l a (*qələ* yerinə), s a h a t (*saət* yerinə). 4) Kökləri ərəbcədən

olan sözlərin deyilişləri türkcəyə uyğunlaşdırılıbdır; məsələn, v ə q t l ə r, t ə b i b l ə r, v ə z i f ə l i (*evqat, ətibba, müəzzəf* yerinə) və sairə…”.

Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Əliheydər Orucovun “Ə.Şıxlinskinin bir əlyazması haqqında” məqaləsindən:

“Yaşının ötməsinə, səhhətinin pozulmasına baxmayaraq, general Əli ağa Şıxlinski həyatının son günlərinə qədər dilimizin vəziyyəti, terminologiya, orfoqrafiya, lüğətçilik məsələləri ilə maraqlanırdı. Onu tez-tez Lüğətlər İnstitutunda, həmin institutun direktoru Heydər Hüseynovun yanında görmək olardı. Heydər Hüseynov Əli ağa Şıxlinskiyə dərin hörmət və həssas münasibət bəslərdi. İnstitutun hazırladığı lüğətlərlə onu tanış edər və bu barədə fikrini bilmək istərdi. Onun 1940-cı ildə akademik Heydər Hüseynova 49 səhifədən ibarət göndərdiyi “Qeydlər”dən göründüyü kimi, ana dili ilə bərabər, klassik ədəbiyyatımızı, xüsusən, folklorumuzu çox gözəl bilirmiş. Əli ağa Şıxlinski indi ədəbi dildə işlənməyən, buna görə də müasir lüğətlərə düşməmiş, amma bəzi dialekt və şivələrimizdə işlənməkdə davam edən sözləri yada salmaqla onların yazılı dilə (lüğətlərə) keçirilməsini məqsədəuyğun hesab edir. Bu baxımdan onun özünün yeni söz və formalar yaratmaq təşəbbüsü təqdirəlayiqdir. Bugünkü şəraitdə daha böyük əhəmiyyət qazanmış bu məsələ, görünür, hələ o zaman Əli ağa Şıxlinskini düşündürmüş və fürsətdən istifadə edərək, yazdığı “Qeydlər” vasitəsilə fikrini lüğətçilərin nəzərinə çatdırmışdır”.

O vaxtdan illər keçdi. General Əli ağa Şıxlinskinin ilk vəsait olan hərbi lüğəti bir daha işıq üzü görmədi. Totalitar sovet rejimi azərbaycanlı generalın elmindən bəhrələnməyi öz millətinə yasaq etdi. Az tirajla nəşr olunmuş bu kitabın nadir nüsxələri qalıb. Bu gün zaman, dövr dəyişib. Yeni yaranan ordumuz üçün həmin lüğətin əhəmiyyəti, şübhəsiz ki, əvəzsiz olardı. Ona görə də nəşriyyatlarımız böyük hərb alimi Şıxlinskinin lüğətinin yeni nəşri barədə təşəbbüs göstərməlidir.

# MİLLİ ORDU QURUCULUĞUNDA

Əlli ildən çox nizami orduda qüsursuz xidmət edən Əli ağa Şıxlinski həmişə birincilər sırasında olmuşdur. O, beş müharibənin şahidi, dördüncünün iştirakçısı olub: 1900-1901-ci illərdə Çin hərbi yürüşündə (tarixə "Boksyor üsyanı" kimi düşüb), 1904-1905-ci illərdə Port-Artur, 1914-cü il Cahan müharibəsində, 1918-1920-ci illərdə isə torpaqlarımızın bütövlüyü uğrunda daşnak Ermənistanına qarşı döyüşüb. Böyük Vətən müharibəsinin şahidi olan qoca general yenə də fəaliyyətini dayandırmamışdır. O, "Xatirələrim" kimi qiymətli hərbi memuarını diktə edib yazdırmışdır. Bu, Azərbaycan hərb tarixində ilk və yeganə hərbi memuardır. İnqilabdan əvvəl və inqilabdan sonrakı dövrlərlə məşğul olan hərb elminin elə bir alimi yoxdur ki, həmin kitabdan qidalanmasın, bir qiymətli mənbə kimi ondan istifadə etməsin.

Görkəmli sərkərdə Əli ağa Şıxlinskinin xalqımız üçün ən böyük xidmətlərindən biri də 1917-ci ilin noyabrında olmuşdur. Həmin ayın on beşində Qafqaza qayıdan Şıxlinski ilk dəfə Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaratmışdır. Bununla da o, Milli Azərbaycan Ordusunun təməl daşını qoymuşdur. Bu barədə general "Xatirələrim" hərbi memuarında daha dəqiq məlumat verir:

"Tiflisə qayıtdıqda, müvəqqəti olaraq mənə korpus komandanlığı həvalə olduğu barədə əmri oxudum. Öz xalqımın, baş verə biləcək xarici təzyiqlərdən və daxili qarışıqlıqlardan özünü qorumasına xidmət etmək arzusu ilə korpus təşkil etməyi qət edib, Tiflisdə öz qərargahımı düzəltməyə başladım...[1]

Dekabrın otuz birində mən öz qərargahımın ilk heyəti ilə Gəncəyə getdim ki, orada hissələrin təşkil edilməsilə məşğul olum. Korpus hissələrinin təşkilində böyük əngəllərə rast gəlirdik".

---

[1] Qərargah Tiflisdəki "London" mehmanxanasının birinci mərtəbəsində yerləşirdi. İkimərtəbəli mülk indi də qalır. Bu sətirlərin müəllifi 1999-cu ilin aprel ayında Tbilisidə yaradıcılıq ezamiyyətində olanda həmin binanı axtarıb tapmışdı – ***Ş.N.***

"Açıq söz" qəzeti 1918-ci il 7 yanvar tarixli nömrəsində nizami müsəlman əsgəri qüvvələrinin yaranması haqqında belə bir xəbər yaymışdı:

"Yanvarın üçündə Mərkəzi Müsəlman Zaqafqaziya Komitəsinin üzvü, Mərkəzi Komitə sədri Fətəli xan Xoyski müsəlman əsgəri dəstələri təşkilatı haqqında məruzədə bulunmuşdur. Məruzədən anlaşıldığına görə 1917-ci il dekabrın on birində Zaqafqaziya Komissarlığı Zaqafqaziya müsəlmanlarından nizami ordu təşkil etməsi qətnaməsini çıxarmışdır. Nizami ordu üçün lazımi qədər könüllü cəm edilməsi Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsinə həvalə edilmişdir. Nizami ordu təşkil edildikdən sonra müsəlmanlardan alınan əsgəri verginin ləğv edilməsi haqqında Zaqafqaziya Komissarlığı tərəfindən dekret veriləcəkdir. Zaqafqaziya Komissarlığının qətnaməsinə əsasən dekabrın on doqquzunda beşinci və yeddinci Qafqaziya nişançı firqələrindən ibarət olan altıncı ordu korpusunun Müsəlman Nizami ordusu ilə əvəz edilməsi haqqında Qafqaziya cəbhəsi qoşunlarının baş komandanı tərəfindən "Əmrnamə" verilmişdir. Həmin əsgər dəstələrini milliləşdirmək işlərinin nəzarəti general Əli ağa Şıxlinskiyə həvalə edilmişdir.

General Şıxlinski öz vəzifəsinin ifasına başlamışdır".

1918-ci il fevralın iyirmisində general Əli ağa Şıxlinski Gəncədə yeni yaratdığı Milli Azərbaycan Korpusunun əsgərləri qarşısında çıxış edərək demişdir: "Azərbaycanlılar həmişəlik yadda saxlamalıdırlar ki, doğma ordu xeyriyyə evi deyildir və ondan ötrü mövcud deyil ki, hər bir azərbaycanlı orada özünə xeyirli olan yeri tutsun. O, Vətənin dayağıdır və ora ölkənin ən yaxşı qüvvələri daxil olmalıdır.

Özünün xırda şəxsi maraqlarını doğma diyarın və öz xalqının maraqlarından üstün tutan adamların qiyməti çox deyil və ordu təəssüf etmədən onlarla vidalaşır. Özlərini düşünən mənasız adamlar ordunun işini artırmasınlar. Belə insanların heç bir dövlət xidmətində faydası olmayacaq".

General Əli ağa Şıxlinski bu vətənpərvər çıxışını Gəncədə praporşiklər məktəbinin birinci buraxılışı münasibətilə söyləmişdir. Bu şənlikdə Qafqaz Ordusunun baş komandanı Nuru Paşa, atası Hacı Əhməd, xalq təhsil naziri Nəsib bəy Usubbəyov, daxili işlər nazirinin vəkili Mehdi bəy Hacınski, sosial-təminat naziri Musa bəy Rəfibəyov, Gəncə qubernatoru, general İbrahim ağa Vəkilov və başqa dövlət xadimləri iştirak edirlər.

Elçi adlı müəllif 1918-ci il noyabrın 7 və 8-də "Azərbaycan" qəzetində (rus dilində) yazır ki, ertəsi gün Bakıdan gəlmiş qonaqlar və demək olar ki, bütün şəhər əhalisi hərbi meydana yollandılar. Meydanda təlim üçün əvvəlcədən səngərlər, yarğanlar və cürbəcür maneələr hazırlanmışdı. Hamı özünün Milli bayramına, Türk-Azərbaycan zabitlərinin ilk buraxılışına tamaşa etməyə gəlmişdi. Ətrafda bayram əhvali-ruhiyyəsi var idi.

Əlahiddə Azərbaycan korpusunun komandanı general Əli ağa Şıxlinski ətrafdakılarla birgə səflə düzülmüş yunkerlərə yaxınlaşıb salamlaşdı. General Əli ağa Paşanın mehriban "salamına" birdən-birə səkkiz yüz gəncin ağzından gurultulu "salam" cavabı çıxdı. Sonra proqram üzrə təlim sınaqları keçirilməsinə başlandı.

1918-1920-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin təşkilində Əli ağa Şıxlinskinin müstəsna rolu olmuşdur. Doğma xalqın nizami ordusunu yaratmaq istəyən general uzun illik hərbi təcrübəsindən gecə-gündüz istifadə edirdi. Yetmiş ildən çox Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində "tamamilə məxfidir" qrifi ilə saxlanan qiymətli bir sənəd bunu bir daha təsdiq edir. Milli Azərbaycan korpusunun komandiri general Əli ağa Şıxlinski 1918-ci il dekabrın 13-də Gəncədən göndərdiyi "Məlumat"ında yeni Azərbaycan Ordusunun layihəsini hazırlamışdı.

General yazırdı: "Azərbaycanın müstəqil respublika elan edilməsi mənə may ayının 27-də qəzetlərdən aydın oldu.

Mən mayın 28-də yeni dövlətin hərb nazirliyinin layihəsini artıq hazırlamışdım; layihənin arxasında izahedici qeyd olan müfəssəl sxem əlavə edilmişdir".

Vəziyyətlə əlaqədar Əli ağa Şıxlinski layihəsində təklif edir ki, vaxtilə türk zabitlərinin köməyi ilə yaradılmış hərbi korpus ləğv edilsin. Müharibə şəraitində bu azlıq təşkil edir. "Əvəzində diviziyalar təşkil edilsin. Onlar da hərb nazirinə və onun köməkçisinə tabe olunsun".

Gözəl təlim və tərbiyə almış, Mancuriyada müvəffəqiyyətlə döyüşən, yüksək döyüş qabiliyyətli Yapon ordusunun korpus təşkilatı haqqında təsəvvürü belə yox idi.

Şıxlinski layihədə incə bir mətləbə də toxunmuşdu. May ayında ilk müstəqil Azərbaycan hökuməti yarananda hərb naziri doktor Xosrov bəy Sultanov təyin edilmişdi. O da mülki şəxs idi.

Xosrov bəy türk zabitlərinin köməyi ilə ordunun təşkilində bəzi təxirəsalınmaz işlər görsə də, bu, ölkədəki ağır vəziyyəti yüngülləşdirmədi. Azərbaycanın həm daxilindəki, həm də qonşuluğundakı amansız düşmənə qarşı güclü ordu yaratmaq vacib idi. Təhlükə o qədər artmışdı ki, ölkənin qərb rayonlarında hərbi vəziyyət elan olunmuşdu. Belə şəraitdə mülki şəxsin hərb naziri olmasını peşəkar hərbiçi olan Əli ağa Şıxlinski məsləhət bilmirdi. Ona görə də haqlı olaraq yazırdı ki, hərb naziri – əgər o, mülki şəxsdirsə – onda o özünün yanında səlahiyyətli şəxslərin çox kiçik sayından hərbi şura yaratmaq və qoşunların təlim və tərbiyəsinə bilavasitə nəzarət etmək üçün köməkçi təyin etməlidir.

Mətndən o da məlum olur ki, general Əli ağa Şıxlinski layihəni artıq ikinci, bəlkə də üçüncü dəfə hökumətin ünvanına göndərmişdir.

"Hökumət Gəncə şəhərinə köçən kimi (iyun ayının əvvəlində) mənim layihəm hərb nazirliyi müəssisələrinin müfəssəl sxemi şəklində Nazirlər Sovetinin sədrinə təqdim edilmişdir.

Ehtimal edilirdi ki, hökumətə tam məlumatı, yəqin ki, Nazirlər Sovetinin müvafiq iclasına dəvət ediləcək korpus komandiri şəxsən özü təqdim edəcək.

Lakin mən heç bir yerə dəvət edilməmişəm və layihə haqqında heç bir xəbərdarlıq almamışam. Güman edirəm ki, layihə heç

müzakirə edilməmişdir. Çünki Bakı quberniyasının bolşeviklərdən təmizlənməsi və bunun üçün lazım olan xarici kömək ilə əlaqədar olaraq yaranmış xüsusi şəraitə görə hökumət hərb naziri təyin etməkdən imtina etmişdir”.

Nəhayət, hökumətin əmrilə 1918-ci il dekabrın 25-də tam artilleriya generalı Səməd bəy Mehmandarov hərb naziri oldu və həmin gün yanıqlı bəyanatla xalqa müraciət etdi. Dekabrın 29-da isə general-leytenant Əli ağa Şıxlinski hərb nazirinin müavini təyin edildi.

* * *

“...Əli ağa Şıxlinski Cümhuriyyət dövründə Səməd bəyin müavini olmaqla bərabər həm də onun sağ əli idi. Səməd bəy Ə.Şıxlinskinin işıqlı zəkasını, hərbçilik istedadını və nəhayət, insani keyfiyyətlərini yüksək qiymətləndirirdi. Səməd bəy Ə.Şıxlinskinin bilik və təcrübəsindən özü bəhrələndiyi kimi, ordu quruculuğunda da ondan geniş istifadə edilirdi. Ordu quruculuğu prosesinin elmi-praktik biliklər tələb edən məsələlərinin həlli əsasən Ə.Şıxlinskiyə həvalə edilirdi və həmin məsələlərin keyfiyyətlə həll ediləcəyinə də Səməd bəydə heç vaxt şübhə olmazdı. Səməd bəy insani qısqanclıqdan həmişə uzaq olmuşdu və vaxtilə rastlaşdığı bir çox hərbiçilərdən fərqli olaraq o, Ə.Şıxlinski kimi bir hərbiçi ilə birgə xidmət etməyi nəinki karyerasına təhlükə saymamış, əksinə, onun nazir müavini olmasını təkidlə Cümhuriyyət hökuməti qarşısında qaldırmışdı. Səməd bəy bilirdi ki, Ə.Şıxlinski bütünlükdə Nazirliyin yükünü öz üzərinə götürməyə qadir olan bir şəxsdir və onun xidmət başında olması xalqına yalnız fayda verə bilər. Nazirlikdə olmadığı vaxtlarda da Səməd bəy nazir vəzifəsinin icrasını Ə.Şıxlinskiyə həvalə edərdi. Cümhuriyyət dövründə hərbi nazirin vəzifəsini digər generallar da icra etmişlər. Ancaq bu o zaman olurdu ki, həm Mehmandarov, həm də Ə.Şıxlinski xidməti ezamiyyətdə olurdular.

***General Ə.Şıxlinskinin Cümhuriyyət ordusunun təşkilində çox böyük xidmətləri vardır. Onun komandanlığı altında yara-***

***dılmış Müsəlman korpusunun və Azərbaycan korpusunun tarixinə toxunmadan qeyd etmək lazımdır ki, ilk milli peşəkar milli hərbi məktəbin təşkili də əslində Ə.Şıxlinskinin adı ilə bağlanmalıdır.*** Gəncədə açılan bu məktəbin – Milli hərbiyyə məktəbinin işə başlaması çox vaxt tarixi ədəbiyyatda türk hərbiçilərinin fəaliyyəti ilə bağlanılır. Sözsüz ki, Milli hərbiyyə məktəbinin fəaliyyətə başlamasında, ilk milli hərbi kadrların hazırlanmasında türk hərbiçilərinin böyük zəhmətini qiymətləndirməmək olmaz. ***Ancaq ədalət naminə o da bildirilməlidir ki, Milli hərbiyyə məktəbinin əsası Ə.Şıxlinski tərəfindən qoyulmuşdur. Bu məktəbin təşkili üçün Ə.Şıxlinski Müsəlman korpusunun komandiri kimi 1918-ci ilin əvvəllərində əmr vermişdi.*** Məktəb Bakıda açılmalı idi. Sonradan Bakıda hərbi şəraitin mürəkkəbləşməsi üzündən onun Gəncədə təşkili qərara alındı". (M.Süleymanov. "Mehmandarov" kitabı, Bakı, 2000, səh.167)

## PORT-ARTURUN AZƏRBAYCANLI QƏHRƏMANLARI

***Zaqafqaziya müsəlmanlarının başçısı Şeyxülislam Əbdülsəlam Axundzadə Rusiya-Yaponiya müharibəsinin başlanması ilə xalqa xüsusi bir müraciətnamə ünvanladı. Orada müsəlmanların xəyanətkar yaponlara qarşı müharibədə iştirak etməyə hazır olduqları göstərilirdi.***

***Azərbaycan burjuaziyası müharibə fonduna çoxlu vəsait verdi. Bakı bələdiyyə idarəsi müharibə fonduna 15 min manat, Gəncə şəhər duması 2 min manat. Neft sənayeçilərinin qurultay şurası 150 min manat, Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev, Musa Nağıyev və başqa iri kapitalistlər 10 min manatdan çox pul vermişdilər. Müharibə fonduna vəsait toplanmasında varlılarla bərabər məmurlar, mürtəce zabitlər də can-başla iştirak edirdilər. Azərbaycan bəy-mülkədar dairələrindən çıxan bir sıra azərbaycanlı zabitlər də Port-Arturun müdafiəçiləri sırasında idi.***

**"Azərbaycan tarixi", II cild,**
**1964-cü il nəşri, səh.548**

1904-1905-ci illərdə Uzaq Şərqdə Port-Artur qalası uğrunda döyüşlərin iştirakçısı iki sərkərdənin – Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarovun olduğu oxuculara məlumdur. Təəssüf ki, onların da həmin illərdəki döyüş yolları indiyədək xalqımıza çatdırılmamışdır. Hərb tariximizin bu açılmamış səhifələrində arxiv sənədləri əsasında tədqiqat aparanda məlum oldu ki,

indiyədək adı və xidməti unudulmuş tam süvari generalı Hüseyn xan Naxçıvanski, şahzadə-general Əmirkazım Mirzə Qacar, Əsəd bəy Talışxanov, Şahzadə-podyesaul (kazak qoşunlarında kapitan) Feyzulla Mirzə Qacar, Şahzadə-podpolkovnik Əliqulu Mirzə Qacar, polkovnik İlyas bəy Ağalarov, ştabs-kapitan Gəray bəy Vəkilov, xounjuy (kazak rotasında ilk zabit rütbəsi) Əbdürrəhman Qurbanov, Cəlaləddin Musayev, poruçik Ağababa Sadıqov, podporuçik Zülfüqar bəy Bağırbəyov və başqaları Port-Artur müharibəsində mərdliklə vuruşmuşlar.

* * *

Gecə keçirdi, istirahət etməyə hazırlaşırdım. Birdən telefon zəng çaldı. "Belə bivaxt, kimdi görəsən?" – fikirləşib dəstəyi qaldırdım. Zərif səsli bir qadın üzürxahlıq edib:

– Mənə filankəs lazımdır, – dedi.

– Mənəm, eşidirəm sizi...

– Gec olduğu üçün bağışlayın, sizi narahat edən Qalina Semyonovna Səfərovadır. Telefonunuzun nömrəsini indicə çətinliklə öyrənə bildim. Tərtib etdiyiniz general Əli ağa Şıxlinskinin "Xatirələrim" kitabını mən maraqla oxudum. Bilirsiniz, sizi niyə narahat elədim? Bizdə 1905-ci ildə nəşr olunmuş "Niva" jurnalı saxlanılır. Orda Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov haqqında yazılar var, şəkilləri də dərc olunub. Amma nədənsə Şıxlinski kitabına yazdığınız "İzahlar və qeydlər" bölməsində bu barədə oxuculara heç bir məlumat verməmsiniz.

– Qalina Semyonovna, – dedim, – mənim o mənbədən xəbərim yoxdur. Çox sağ olun ki, bu barədə məlumat verdiniz. Günü sabah kitabxanaya gedib...

– Kitabxanaya niyə? – Qalina Semyonovna etiraz etdi, – məmnuniyyətlə jurnalı müvəqqəti istifadə üçün sizə verə bilərəm.

Ertəsi gün Q.Səfərovanın Şors küçəsindəki mənzilində görüşüb jurnalı birgə vərəqlədik.

"Niva" jurnalı 1905-ci il dördüncü nömrəsinin yetmişinci səhifəsində Əli ağa Şıxlinskini altı nəfər döyüşçü – zabit və iki qadınla birgə çəkilmiş fotoşəklini dərc edib. Şəkilaltı yazıda oxuyuruq:

"Port-Artur müdafiəsinin igid artilleriya komandiri Əli ağa Şıxlinski Syuşin kəndinin yaxınlığındakı Drakonovıy Xrebet dağına atəş açaraq yaponların hücumunu dəf etmişdir. Podpolkovnik Əli ağa Şıxlinski göstərdiyi rəşadətə görə "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsinə təqdim edilmişdir.

Şəkildə ortada artilleriya komandiri Əli ağa Şıxlinski, zabit Mixaylov, Şişkin, Karamışev, Qyunter, Şuleykin və başqaları".

Üçüncü istehkamda olan bir hadisəni illər keçəndən sonra Əli ağa Şıxlinski belə xatırlamışdır:

"Tamamilə açıqda duran toplarımın atəşi, hücum edən yapon piyada qoşununu geriyə oturtdu. Atışma səsini eşidən polkovnik Mehmandarov general Nadeinin yeraltı qazmasından çıxaraq yanıma gəldi. Fikirləşdim ki, ehtiyatsızlığıma görə hirslənəcəkdir. Vəziyyətlə tanış olduqdan sonra dedi:

– Yaxşı eləmisiniz. Birinci batareyanın bir vzvodunu da sizə köməyə göndərirəm.

Mehmandarov tədbir və sərəncamları bəyəndiyini söyləyib, öz məntəqəsinə qayıtdı. Bu əməliyyata görə mən, köhnə orduda qəhrəmanlıq ordeni olan Georgi Pobedonosets ordeninə təqdim edildim".

Jurnalın həmin səhifəsində həmyerlimiz Səməd bəy Mehmandarovun da şəkli verilib. Haqqında isə belə bir məlumat yazılıb:

"Yeddinci Şərqi-Sibir artilleriya briqadasının general-mayoru Səməd bəy Sadıq bəy oğlu Mehmandarov Port-Artur müdafiəsindəki qəhrəmanlığına görə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunub".

"Niva"nın yetmiş birinci səhifəsində gözəl, zərif naxışlarla işlənmiş bir buynuz şəkli də verilib. Port-Artur döyüşlərinin komandanı general Anatoli Mixayloviç Stesselə Zaqatala şəhər cəmiyyəti tərəfindən hədiyyə olunan bu buynuz gümüşlə işlənib. Şəklin altında oxuyuruq: "Zaqatala şəhər sakinlərindən general-adyutant A.M.Stesselə dağ keçisi buynuzunu hədiyyə edirik".

"Niva" jurnalı təkcə birillik nömrələrində Azərbaycan xalqının müharibəyə könüllü ianə toplaması haqqında və Qafqaz sü-

vari briqadasının tərkibində vuruşan oğullarımızın qəhrəmanlığı barədə az da olsa məlumatlar verir. Onu da xatırladaq ki, Port-Arturda Ə.Şıxlinski və S.Menmandarovdan başqa yapon samuraylarına qarşı döyüşən həmyerlimiz Əsəd bəy Talışxanov, Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, qvardiya polkovniki Kərim bəy Novruzov, polkovnik Davud bəy Yadigarov, Gəray bəy Vəkilov, poruçik Ağababa Sadıqov və hələ adını bilmədiyimiz onlarca Azərbaycan oğlu mərdliklə vuruşmuşlar.

Dövrdən, quruluşdan asılı olmayaraq oğullar həmişə Vətənin əsgərləridirlər. Vətən nə vaxt təhlükə qarşısında olarsa, igidlər bir səslə silaha sarılmağa hazırdılar. İyirminci əsr tarixə "nəfəsindən" barıt püskürəndə, eloğullarımız da bir səslə ayağa qalxıb Vətənin müdafiəsinə gediblər.

XIX əsrin ortalarında Qarabağ igidlərinin, Şirvan alayının, Kəngərli döyüşçülərinin, Qazax süvari dəstələrinin yadellilərə qarşı qeyri-adi qəhrəmanlıqlarının şahidi olan xalqımızın böyük mütəfəkkir oğlu M.F.Axundov fəxrlə deyirdi: "Doğmamış Qafqazda analar qorxaq".

Hələ bir xeyri əvvəl (1828-ci ildə) məşhur rus tarixçisi, general Platon Zubov "Gürcüstan və Qafqaz haqqında altı məktub" əsərində yazırdı:

"Müsəlman süvari alayları haqqında mühakimə yürütmək üçün onları döyüşdə görmək lazımdır: bunlar şimşəyi xatırladır, bunlar qəzəblənmiş allahın birdən-birə içərisinə düşərək ölüm və dəhşət saçan oduna bənzəyirdi. Müsəlman alaylarının gözlərim önündə törətdikləri igidlik xariqələrini hələ də heyrətlə yad edirəm... Onlar silahdan çox böyük bir məharətlə istifadə edərək, qorxmaz və cəsur süvari kimi döyüşürdülər".

Əgər oxucu Aleksandr Stepanovun "Port-Artur", Trofim Barisovun "Portarturçular" romanlarını mütaliə edərsə, onda görər ki, 1904-cü il dekabrın on altısında komandan Stessel qalanı yaponlara danışıqsız təslim etmək istəyəndə polkovnik S.Mehmandarov və onun zabit heyəti etiraz edərək necə əsəbiləşmişdilər. Səməd bəy Mehmandarov və onun zabit heyəti inad edirdilər ki,

qalanı son nəfəsə qədər müdafiə etmək lazımdır. Heç kəs biabırçı vəziyyətdə Rusiyaya qayıtmaq istəmirdi.

"– Kapitan, sizin kimi zabitlərə orduda qulluq etmək yaramaz! – Mehmandarov onun üstünə qışqırdı. – Siz bizim adımızı korlayırsınız, – deyib yumruğunu havada oynatdı.

– Əlahəzrət, xahiş edirəm, məni təhqirlərdən qoruyasınız, – kapitan Vamenzon1 hirsindən pörtmüş halda general Stesselə müraciət etdi.

– Hər şeydən qabaq sakit olmaq lazımdır, cənablar! Polkovnik Mehmandarov, sizi qayda-qanuna riayət etməyə dəvət edirəm.

Qızğın mübahisələr başlandı, zabitlər iki hissəyə bölündülər: bir neçəsi kapitan Vamenzonu, qalanları isə polkovnik Mehmandarovu müdafiə edirdilər" (A.Stepanov. "Port-Artur", səh.777-778).

* * *

1904-cü il yanvarın 26-da Rusiya-Yaponiya müharibəsi başlananda polkovnik Hüseyn xan Naxçıvanski əksəriyyəti qafqazlılardan təşkil olunmuş ikinci Dağıstan süvari alayına komandanlıq edirdi. Hüseyn xanın alayı 1905-ci il yanvarın 14-də Lanlunqou kəndi uğrunda ağır döyüşlər aparmışdır. Bir neçə gün kəndi ala bilməyən döyüşçülər mahir komandirin hərbi fəndi ilə dan üzü hücuma keçərək sürətli zərbə ilə yaponları kənddən vurub çıxartmışlar. Bu güclü döyüş səhnəsi məşhur rəssam V.V.Mazurovskinin yağlı boya ilə işlədiyi rəsmdə əbədiləşmişdir. Əsərdə alay döyüşçülərin qızğın həmləsi və süvari polkovniki Hüseyn xan Naxçıvanskinin obrazı ön planda ustalıqla işlənmişdir.

Məşhur rus jurnalisti A.Kvitka Port-Arturda müharibə başlananda könüllü cəbhəyə getmiş və döyüşlərdə jurnalist-zabit

[1] A.N.Vamenzon (1866–?) – artilleriya kapitanı, 22-ci batareyanın komandiri. Əsgərlərlə vəhşi rəftarı ilə fərqlənən pis rəftarlı komandir. Port-arturçu L.V.Kabelyaski məlumat verir ki, müharibədən sonra Rusiyaya qayıdan Vamenzon əsgərlərin ondan alacağı intiqamdan qorxaraq familiyasını dəyişib, Vadin eləmişdi ("Lit. qazeta", 1959-cu il, 27 oktyabr)

kimi iştirak etmişdir. Müharibə gedə-gedə "Zabaykalye kazak zabitinin gündəliyi" adlı maraqlı bir əsər yazmışdır. 1908-ci ildə Sankt-Peterburqda nəşr etdirdiyi həmin kitabda igid eloğlumuz polkovnik Hüseyn xan Naxçıvanski haqqında da maraqlı səhifələr var.

**Səhifə 181-də:** "Axşamüstü Bensixuda süvari qvardiyası Hüseyn xan Naxçıvanskinin təşkil etdiyi ikinci Dağıstan alayı gözlənilir. Alay qafqazlılardan və süvari qvardiyasında xidmət edən seçmə zabitlərdən təşkil olunmuşdu.

...Avanqard tağımının ardınca yüzlərcə adam, polk komandiri, onların da ardınca uca bir ağacın zirvəsində polkovnik Xan Naxçıvanskiyə məxsus qızılı aypara nişanları dalğalanan dəstə göründü.

Alay cərgələnmiş tağımlarla kolon boyu uzanırdı. Biz isə Xanın zabitlərindəki atlara həsədlə baxırdıq. Mən axşam saat onda Hüseyn xanı general Lyubavinin yanına ötürüb, evimə qayıtdım".

**Səhifə 245-də:** "Dağıstanlıların komandiri Hüseyn xan Naxçıvanski, podpolkovnik Byuntiq və knyaz Tumakov həyətinə daxil olanda səhər saat on bir olardı. Onlar mənimlə nahar etməyə qaldılar... Hüseyn xanın əsgər və komandirləri döyüşlərdə hamıdan seçilirdi. Onları bir şeyə qınamaq olardı, o da həddindən artıq cəsur olmalarında..."

**Səhifə 361-də:** "Polkovnik Xan Naxçıvanskinin Qafqaz-kazak briqadasının cəsurları üç yapon nəqliyyatını məhv etmişlər..."

İgid həmyerlimiz, polkovnik Hüseyn xan Naxçıvanski yaponlara qarşı apardığı döyüş məharətinə görə "Müqəddəs Georgi" və dördüncü dərəcəli, bantlı, üstü yazılı qızıl silahla – "Müqəddəs Vladimir" və "İgidliyə görə" ordenləri ilə təltif olunmuşdur.

Rusiya-Yaponiya müharibəsindəki sərkərdəlik fəaliyyətinə görə Hüseyn xan Kərbalı xan oğlu Naxçıvanskiyə 1907-ci il martın 31-də general-mayor rütbəsi verilmişdir.

## General Səməd bəy Mehmandarov Port-Artur döyüşlərində

***Port-Arturun müdafiəsi zamanı göstərdiyi döyüş xidmətlərinə görə Səməd bəy Mehmandarov bir neçə döyüş ordeni və qızıl silahla təltif edildi, general-mayor rütbəsi aldı. General Səməd bəy Mehmandarovla bir yerdə xidmət edən və onu şəxsən tanıyan zabitlərin onun sarsılmaz soyuqqanlılığı və misilsiz rəşadəti haqqında böyük rəğbətlə danışırdılar.***

***1904-cü il dekabrın 16-da Port-Artur qalasının hərbi şurası danışıqsız təslim olmağa səs verdikdə, general Səməd bəy Mehmandarov və onun igid zabit heyəti buna qarşı qəti olaraq etiraz etdilər.***

***"1904-1905-ci illərdə Rusiya-Yaponiya müharibəsinin salnaməsi"ndən***

1904-cü ildə Rusiya-Yaponiya müharibəsi başlananda Səməd bəy Mehmandarovun qırx səkkiz yaşı vardı. Yelizaveta Nikolayevna ilə evlənmələrinin bir ili tamam olmamışdı. Yelizaveta Kiyev qadın gimnaziyasını bitirmişdi. Port-Artur hərbi səhra xəstəxanasında şəfqət bacısı işləyirdi. Səməd bəy kimi o da zadəgan nəslindən idi. İyirmi bir yaşlı Yelizaveta, elə bil anadan olandan səbir dərsi keçmişdi. O, nə ağır hərb işinə, nə də yaralı əsgərlərə qarşı laqeyd deyildi. Zadəganlara məxsus sadəliklə Yelizaveta əsgərlərlə çox mehriban davranırdı. Yaralıları müalicə edib, savadsız olanların ailəsinə məktub yazır, müharibə çətinliyinə səbirlə, dəyanətlə dözürdü.

Bir dəfə Səməd bəy ona deyir:

– Komandanlıqdan sənin Peterburqa qayıtmağına icazə almışam. Hazırlıq gör, sabah, ya da birisi gün səni yola salacam.

Ərinin üzünə şax baxan Yelizaveta:

– Səməd bəy, – demişdi, – ölkədə müharibə gedirsə, səncə, əsgərin yeri harada olmalıdır?

– Əlbəttə, cəbhədə!

– Bax, mən də cəbhədəyəm, yoxsa məni qadın görüb əsgər olmağıma şübhə edirsən?!

– Axı, sən ana olmağa...

– Bir də bu söhbətə qayıtmayaq. Söz verirsən... Bu mövzudan vaz keç, əzizim! Sənsiz mənə Peterburq yox, heç Paris də lazım deyil.

Bu, ərinə, Vətəninə sadiq bir qadının açıq ürək söhbəti idi.

Yanvarın iyirmi altısında gecə yaponlar rusların Port-Artur limanında dayanan eskadrasına hücum edib "Retvizan", "Sesareviç" zirehli gəmilərini və "Pallada" kreyserini yandırdılar. Müharibə başlandı. Səhərisi Səməd bəy Mehmandarovu yeddinci Şərqi-Sibir atıcı topçu divizionunun komandiri təyin edirlər. Bu, quru qoşunlarının komandanı, general-mayor Roman Kondratenkonun əmri idi. Roman İsidoroviç Mehmandarovun döyüşdə dəyanətinə, komandirlik bacarığına yaxşı bələd idi. Məhz ona görə də Səməd bəyi Şərq cəbhəsinin rəisi təyin etdi. Bura Port-Artur müdafiəsində ən mühüm cəbhə hesab olunurdu. Yaponlar ən güclü qüvvəni də buraya yeritmişdilər. Onlar şiddətli həmlələr edir və arasıkəsilmədən bombalar yağdırırdılar. Polkovnik Səməd bəy Mehmandarov komandan Kondratenkonun ən yaxın köməkçilərindən biri idi. Topçuların əməliyyatına bacarıqla rəhbərlik edən Mehmandarov qala mühasirədə olanda həmişə ön mövqelərdə və çox təhlükəli yerlərdə sərrast atəşlə samurayların hücumunu dəf edirdi.

* * *

Port-Artur müharibəsinin başlanmasından yüz bir il keçir. Bu müddətdə rus dilində minlərlə ədəbi-bədii, elmi və publisistik əsərlər nəşr olunub. Xüsusilə, 1905-1910-cu illərdə bu mövzuda çoxlu gündəlik və xatirələr yazılmışdır. 1906-cı ildə nəşr olunmuş P.Larenkonun "Port-Arturun əzablı günləri" kitabı da bu

qəbildəndir. Burada sərkərdə eloğlumuz Səməd bəy Mehmandarovun təkcə döyüş qabiliyyəti deyil, həm də şəxsiyyət kimi dönməzliyi, böyüklüyü şahidlərin dili ilə verilib. İlk dəfə Azərbaycan oxucularına təqdim etdiyimiz gündəlikdən parçaları oxuyanda istər-istəməz həmyerlimizə görə iftixar hissi keçirirsən.

**Həmin kitabın "Noyabr hücumları" fəslində, səhifə 494-də:**

*"Hələ avqust bombardmanı zamanı yaponlar hiss edirlər ki, hardansa, arxadakı fortlar xəttindən onları dəqiq atəşə tutublar. Polkovnik Mehmandarovun komandası altında olan yeddinci Şərqi-Sibir artilleriya divizionu (yəni səhra artilleriyası) həmləyə məruz qalmış istehkam xəttinin sağ cinahının arxasında örtülü mövqeləri tutaraq müdafiəyə böyük kömək göstərirdi. Çünki qala artilleriyası hələ bombardmanın ilk günlərində çox zərər çəkmişdi. Polkovnik Səməd bəy Mehmandarovun səhra artilleriyası ən fədakar həmlələri belə dəf edərək yaxınlıqda olan yapon batareyaları ilə son dərəcə müvəffəqiyyətlə vuruşurdu".*

**Səhifə 597-də:**

*"S. daxil oldu. O, söhbət edirdi ki, ön həmlənin topçularından polkovnik Mehmandarov (sağ cinahın bütün artilleriya üzrə komandiri) və podpolkovnik Stolnikov öz şəxsi təhlükələrinə qəribə nifrətlə yanaşırlar; bombardman vaxtı batareyalarda elə gəzirdilər ki, elə bil partlayan mərmiləri görmürlər. Belə ki, onlar bu hərəkətləri ilə yerdə qalanları da ruhlandırırdılar. Onların birincisi qafqazlılara məxsus cəngavər kimi (Səməd bəy Mehmandarov –* ***Ş.N.****), ikincisi isə taleyinə sədaqətlə itaət edən dindar adamlar kimi davranırdılar.*

*Burada – səhra artilleriyasının öhdəsinə başlıca olaraq həmləni və şrapnellə, kartecla düşmən kolonlarını məhv etmək məsələsi düşür. Qala topları çox ziyan çəkdiklərindən, səhra artilleriyası isə tez-tez yerini dəyişdiyindən onlarla mübarizə aparmaq yaponlar üçün çətin idi. O isə zərbələri elə hey endirirdi".*

**Səhifə 606-da (11-24 dekabr):**

*"Yaralı zabitlərlə apardığım söhbətlərdən polkovnik Mehmandarov haqqında bəzi şeyləri öyrəndim. O, cəsur, özünü çox sevən, tabeliyində olanlara tam ciddiyyəti ilə yanaşan bir adam idi. Onları məcbur edirdi ki, şəxsi mərdlikləri ilə hamıya nümunə olmağı bacarsınlar. Təbiətən*

*coşqun, hərarətli olan bu adam sözünü çox kəskin deyirdi. Polkovnik Mehmandarov deyirdi ki, yalnız şücaət göstərməyi bacaran, ağıllı, özünü sevən adamları qiymətləndirir; karyeraçı zabitlərinsə ən böyük arzusu – həyatlarını qoruyub saxlamaq və heç bir xidmət göstərmədən ordenlər almaqdır".*

**Səhifə 630-da (17-30 dekabr):**

*"Üçüncü fortun məğlubiyyəti bizim artilleriyanın vəziyyətinə pis təsir göstərdimi? – sualına polkovnik Mehmandarov belə cavab verdi ki, o, vəziyyətdə bir ağırlaşma görmür. Artilleriya şəraitinin pisləşməsinə üçüncü fortun heç bir mənfi təsiri yoxdur.*

*Yalnız general A.V.Fok özünü birbaşa cavabdan qaçıraraq, ümumi nəticəsi olmayan bir yığın söz dedi".*

**Səhifə 643-də (18-31 dekabr):**

*"Kimsə döyüş meydanından belə bir xəbər gətirdi ki, bu gün general Fokla polkovnik Mehmandarov arasında ciddi mübahisə olub. Fok sübut etməyə çalışırdı ki, qala artıq dözməyəcək; Mehmandarov isə sübut edirdi ki, ayrı-ayrı istehkamların məhvi hələ qalanın sonu çatdığına sübut deyil, çünki müdafiənin ikinci xəttindən də müqavimət göstərmək olar.*

*Döyüş meydanında isə tək-tək atırdılar. Qaranlıqdır. Üçüncü fort istiqamətində, bəzən də qayalıqdan qırmızı fənərlər görünürdü. Deyirlər ki, bu fənərlər bizim sanitarlara sarğı məntəqəsini nişan verir.*

*Bərk yorğunluq hiss edirəm, ona görə də indi uzanıb yatacağam".*

**Səhifə 690-da (23 dekabr–5 yanvar):**

*"S. mənə xəbər verdi ki, dünən yapon artilleriyasının rəisi qərargahı ilə birgə qalaya gəlmişdi və qalanın sağ cinahının artilleriya rəisini, polkovnik Mehmandarovu (mühasirə zamanı general-mayor olmuşdu)*[1] *axtarırdı. Səməd bəy Mehmandarov faktiki olaraq avqust ayının ortalarında bütün artilleriyaya rəhbərlik edirdi.*

---

[1] Port-Artur döyüşlərindəki xidmətlərinə görə Səməd bəy Mehmandarova 1904-cü il oktyabrın 22-də general-mayor rütbəsi verilmişdir. Səməd bəy həm də 4-cü dərəcəli "Müqəddəs Georgi", birinci dərəcəli "Müqəddəs Stanislav" ordenləri və brilyantla bəzədilmiş qızıl dəstəkli qılıncla təltif edilmişdir – ***Ş.N.***

*Görüş zamanı o belə bir söz işlətdi: "Hörmətli qonaqlar yəqin səhv salıblar. Onlar çox güman ki, qala artilleriyasının rəisi, general Belini görmək istəyirdilər. Lakin qonaqlar cavab verdilər ki, məhz mübarizə aparmaqda böyük əziyyət çəkdikləri, özlərinə möhtərəm rəqib saydıqları adamla – Mehmandarovla tanış olmaq onlar üçün çox maraqlıdır. Onlar general Mehmandarovun şaninə çoxlu tərifli sözlər, komplimentlər dedilər; etiraf etdilər ki, Port-Artur yaxınlığında yapon artilleriyasının verdiyi itki olduqca çoxdur. İyirmi beş minə kimi adam tələf olub, çoxlu yapon silahı məhv edilib, həmçinin Port-Arturda mərmilərin çatışmazlığı onların məsələsini yüngülləşdirib.*

*General Mehmandarov əsirliyə yolu düşdü… o, vicdanına and içib "evə" gedənlərin ən qəddar düşməni olacağını bildirdi.*

*Gündüz saat on ikidir. Yaralıların yanında idim. Hər yerdə eyni söz-söhbət – qalanın təhvil verilməsindən və əsirlikdən gedirdi".*

**Səhifə 752-də (3-16 yanvar):**

*"Hakimiyyətin ələ keçirilməsi" haqqında müxtəlif fikirlər söylənirdi. Məsələn, həmişə döyüş mövqelərinin sağ cinahında olan F. və Ş. qeyd etdilər ki, guya mövqelərdə olarkən necə olubsa, onların yanında polkovnik (indi general) Mehmandarov da söhbət əsasında bu mövzu haqda öz fikrini bildirmişdi: "Hakimiyyəti ələ keçirmək" nə deməkdir? Mən bunu başa düşmürəm. Əgər mən komendant olsaydım və vəzifəmin öhdəsindən az da olsa gələ bilsəydim, mənim qanuni hakimiyyətimi görüm əlimdən kim ala bilərdi?! Əgər elə adam tapılsaydı mən deyərdim: Əlahəzrət, nə qədər ki, kimin əsl komendant olduğunu ayırd etməmişik, bu yerdən heç yana tərpənən deyilik… Bu ilin sonu nə qədər axmaq nəticələr versəydi belə, məni bu yolda niyyətimdən heç bir şey döndərə bilməzdi".*

Həmişə ön cəbhədə olan Səməd bəy Mehmandarovun Port-Artur döyüşlərində xüsusi xidmətləri olmuşdur. Yaxşı ki, onun müasiri olan rus jurnalistləri Səməd bəyin döyüş fəaliyyətini qələmə almışlar.

Jurnalist E.K.Nojin Port-Arturda çıxan "Novıy kray" qəzetinin xüsusi müxbiri olmuşdur. Odlu cəbhələri gəzən jurnalist maraqlı gündəliklər müəllifidir. Qeydlərindən aydın olur ki, o, general eloğlumuz Səməd bəy Mehmandarovla həmişə ön xətdə görü-

şərmiş. Rus jurnalisti azərbaycanlı sərkərdənin vətəni Qafqaz üçün darıxmasının da şahidi olub.

"...Blindaja girdim. General Nadein həmişəki kimi sakitdir. Onun qərargah rəisi Stepanov yorğundur. Burada bir neçə zabit var. Polkovnik Mehmandarov da buradadır. Biz həmişəki kimi çox səmimi görüşdük. Mehmandarov heyranlıqla vətəni Qafqazı yad edirdi:

– Qafqaz çox yaxşıdır, çox gözəldir! – deyirdi. – Təbiət hər şeyin keyfiyyətinə zəmanət verərək ona öz möhrünü vurmuşdur. Amma bədbəxtlik ondadır ki, bəzən daş lazım olan yerdə bir dənə də daş tapmazsan, lazım olmayan yerdə isə sayı-hesabı yoxdur. Su lazım olan yerdə su olmur, ehtiyac olmayan yerdə dərya qədərdir. – Ani olaraq dayanan Mehmandarov sözünə davam etdi: – Bəs İslam? Yaxşı nə varsa – onu sonrakı həyatın verəcəyini vəd edir. Hər şey çox yaxşıdır, amma bizə cənnətdə yeddi mələk boyun olublar, yeddisinin də gözü girdə. Sizcə, bu nə olan işdir? Peşmançılıq deyilmi? Bilirsinizmi, mən indi heç nə istəmirəm – nə cənnəti, nə də mələkləri. Mən yalnız azca istirahət istəyirəm.

Ətrafda hər yanda mərmilər partlayırdı. Onların ikisi blindajın tavanına düşdü. Zabitlər qorxu hissi ilə ayağa durdular. İgid polkovnik Mehmandarov isə heç tövrünü belə pozmadı. Onun iri, ağıllı gözlərində zərrəcə qorxu hissi yox idi".

Səməd bəy Mehmandarovun ən təhlükəli döyüşdə belə özünü itirmədiyinin şahidi olan onun silahdaşı Əli ağa Şıxlinski yazır ki, oktyabrın on dördündə – qala topa tutulan zaman Səməd bəy Mehmandarov mənim mövqeyimə gəldi. Həmin mövqe yaponlar tərəfindən on bir düyməli topdan, otuz yeddi millimetrlik xırda dəniz topuna qədər müxtəlif toplarla atəşə tutulmuşdur. Həm də, bu mövqe yaponların tüfəng və pulemyot atəşi altında idi. Bu zaman Mehmandarovun yaxınlığında altı düyməlik mərmi partladı və yerdən qalxan qara palçıq onun üstünü buladı, amma yaralanmadı.

Mehmandarov buna əsla əhəmiyyət verməyərək, böyük soyuqqanlıqla cibindən ağ dəsmalını çıxarıb, gözəl təzə paltosunun üzərinə sıçrayan palçığı silməyə başladı.

* * *

Dekabrın ilk günlərində qalaya iki ağır zərbə vurdular. Rusların inadlı müqavimətinə baxmayaraq, onlar qalanın bir neçə mühüm fortlarını tutdular. İkinci ağır zərbə isə 1904-cü il dekabrın ikisində oldu. Komandan general Roman Kondratenko qəhrəmanlıqla həlak oldu. Əvəzində iradəcə zəif olan general-leytenant Aleksandr Fok komandan təyin edildi. On altı gün sonra yaponlar qalanın taleyini həll edən Drakonovıy Xrebet dağını ələ keçirdilər. Port-Arturun qorxaq və istedadsız komendantı general Anatoli Stessel qalanı dərhal düşmənə təslim etmək üçün hərbi şuranın iclasını çağırdı. Şurada iştirak edən bəzi komandirlər general Stesselin təklifinə şərik oldular. Lakin general-mayor Səməd bəy Mehmandarov, polkovnik Semyonov və bir qrup mərd zabitlər təslim olmağa qəti etiraz etdilər. Döyüşkən zabitlər inad edirdilər ki, güclü yapon ordusunu geri oturtmağa hələ qüvvələri çatar. ***General Mehmandarov başda olmaqla onlar deyirdilər ki, qala hələ özünü saxlamağa qadirdir, nə qədər ki, mərmi var, toplardan atəş yağdıracağıq. Nə qədər ki, patron var, tüfənglərdən atəş açacağıq. Mərmi və patron qurtardıqda isə süngü ilə döyüşəcəyik.***

Lakin cəsarətsiz general Stessel mərd zabitləri eşitmədi, silahı yerə qoymağı qarnizona əmr etdi. Sonralar Rusiyaya qayıdanda general Stessel qala müdafiəçilərinin tələbi ilə Port-Arturu tələsik təslim etdiyinə görə hərbi məhkəməyə verildi.[1]

[1] 1907-ci il noyabrın 27-də Peterburqda başlayan hərbi məhkəmədə general Səməd bəy Mehmandarov şahid kimi iştirak etmişdir. O, Port-Arturu düşmənə vaxtından əvvəl təslim edən general A.M.Stesseli, Foku, Reysi və Smirnovu əsaslı faktlarla günahlandırmışdır. Sonuncu üç nəfərin fəaliyyətində guya cinayət tərkibi olmadığına görə məhkəmə onlara bəraət vermişdir. General-leytenant A.M.Stesselə isə prokuror güllələnmə tələb etmiş, lakin çar İkinci Nikolayın məsləhəti ilə (o, çarın qohumu idi) ona on il həbs cəzası kəsilmişdir. Cəmisi beş ay Petropavlovsk qalasında dustaq saxlanan general Stesselin guya səhhəti ağır olduğuna görə çarın mərhəməti ilə əfv olunmuşdur. Məhkəmə bir neçə ay davam etmişdir – ***Ş.N.***

General-mayor Səməd bəy Mehmandarov və onun zabit dostları qala təslim edildikdən sonra da hərbi anda sadiq qalaraq başqa əsgər və zabitlər üçün nümunə göstərdilər. Yaponların şərtlərinə görə, əsgərlər hərbi əsir alınır, zabitlər isə Yaponiyaya qarşı bir daha müharibədə iştirak etməyəcəkləri barədə yazılı iltizam verəndən sonra Rusiyaya qayıda bilərdilər. General Stesselin ətrafındakı mürtəce fikirli bir qrup zabit dillərindən belə bir iltizam verdilər. Lakin xalqımızın igid oğlu Səməd bəy Mehmandarov zabit şərəfini təhqir edən belə bir alçaq vəddən boyun qaçırdı. Bir daha Yaponiyaya qarşı müharibədə iştirak etməyəcəyi barədə iltizam vermədiyinə görə general-mayor Səməd bəy Mehmandarov əsir alınıb Yaponiyanın Naqoya şəhərinə göndərildi. O, 1905-ci il avqustun 23-də Amerikanın Portsmut şəhərində sülh müqaviləsi bağlanandan sonra Rusiyaya qayıda bildi.

Üç yüz otuz iki günlük məşhur Port-Artur qalasının müdafiəsi general Səməd bəy Mehmandarovun taleyinə belə qismət oldu.

* * *

Aleksandr Stepanovun "Port-Artur", P.Larenkonun "Port-Arturun əzablı günləri" və Trofim Borisovun "Portarturçular" romanlarında bir azərbaycanlı soyadına da rast gəldik – poruçik Sadıqov. Bu əsərlərdə poruçik Sadıqovun əzablı döyüş yolu yazıçılar tərəfindən maraqla izlənilir. Hətta P.Larenkonun 1906-cı ildə Peterburqda nəşr olunmuş "Port-Arturun əzablı günləri" sənədli əsərində (II cilddə) yaralanmış poruçik Sadıqovun hospitalda müalicə olunduğu vaxtda iki dəfə fotoşəkli də dərc olunub. Döyüşlərdə mətanət və mərdliklə vuruşan poruçik Sadıqov qəhrəmanlıqla həlak olub. Poruçik Sadıqov kimdir?

Bu barədə "Kommunist" qəzetinin 1984-cü il doqquz sentyabr tarixli sayında dərc edilən yazımdan sonra respublikanın ayrı-ayrı bölgələrindən çoxlu məktub aldım. Xeyli adam poruçik Sadıqovun onun qohumu olduğunu yazırdı. Lakin sabirabadlı Böyükağa Sadıqovun gətirdiyi faktlar, sənədlər və fotoşəkillər sübut elədi ki, poruçik Ağababa Hacıbaba oğlu Sadıqov onun

əmisidir. Poruçik Ağababa Sadıqov 1875-ci ildə Şamaxının Ərdəbilli məhəlləsində ziyalı ailəsində anadan olub. Atası Hacıbabanın Peterburq və Moskvada ipək dükanı varmış. 1903-cü ilin əvvəllərində igid poruçik Ağababa Peterburqdakı Mixaylov topçuluq məktəbini bitirib. 1905-ci ilin əvvəllərində igid poruçik Ağababa Sadıqovun həlak olması haqqında qara kağız da alınıb.

Port-Artur döyüşçüləri haqqında inqilaba qədər onlarca əsər yazılıb. Kabardin və çeçen igidlərinin Port-Arturdakı döyüş fəaliyyəti haqqında Əhmədxan Naloyevin "Dan üzünün atlıları" tarixi romanı, Vikenti Veresayevin "Yapon müharibəsi haqqında hekayətlər" silsiləsi, yazıçının irihəcmli gündəlik və yol qeydləri, Sergey Senskinin "Susima", N.A.Levitskinin "1904-1905-ci illərdə Rusiya-Yaponiya müharibəsi" maraqla oxunan əsərlərdəndir. Bunların hamısında eloğullarımızın qəhrəmanlığı haqqında az-çox məlumat verilir.

"Niva" jurnalının 1905-ci il iyirmi beşinci sayının 496-cı səhifəsində bir həmyerlimizin də adına və fotoşəklinə rast gəldim. Onun haqqında ancaq bu sözlər yazılırdı: "Otuz üçüncü Şərqi-Sibir atıcı alayının poruçiki Zülfüqar Mirzə Ələkbər oğlu Bağırbəyov fevral döyüşlərində igidliklə vuruşub kontuziya oldu".

Adından, atasının adından və soyadından poruçik Zülfüqar Bağırbəyovun azərbaycanlı olması şübhəsizdir. Düşünürdüm. Görəsən, Uzaq Şərq sərhədləri uğrunda igidliklə vuruşan poruçik Zülfüqar Bağırbəyovun qohum-qardaşından sağ qalanı varmı? Doxsan ildən çoxdu bu tərlan baxışlı igid həmyerlimizin fotoşəkli "Niva" jurnalının səhifəsində saralıb solur.

Taleyin qismətinə min şükür ki, axtarışlarım bəhrə verdi. Sevindim ki, uzun illərdən sonra igid həmyerlimizin unudulmuş adı, xidməti xalqımıza bəlli oldu.

1987-ci ildə İçərişəhərdə yaşayan səksən iki yaşlı bir ağsaqqalla görüşdüm. Məhəmməd Cavad oğlu Bağırov bildirdi ki, "Niva" jurnalından şəklini götürdüyünüz poruçik Zülfüqar Mirzə Ələkbər oğlu Bağırbəyov mənim doğma əmimdir. Əmim Zülfüqar 1874-cü ildə Şuşada anadan olub. Port-Artur döyüşlərindən sağ-

salamat qayıdan əmim Novobəyazid süvari alayında ştabs-kapitan rütbəsində xidmət edib. 1912-ci ildən 1914-cü ilədək Bakı şəhərində hərbi komendant işləyib, rütbəsi mayor idi, Birinci Dünya müharibəsi illərində Avstriya və Rumıniya cəbhəsində döyüşlərdə iştirak edib.

Zülfüqar bəyin müasiri, Azərbaycan Cümhuriyyətinin liderlərindən biri Nağı bəy Şeyxzamanlı Türkiyədə nəşr etdirdiyi "Xatirələrim" kitabında yazır ki, Zülfüqar bəy Bağırbəylinin Birinci Dünya müharibəsində, 1915-ci ildə Qafqaz cəbhəsində ucqar Olti qəzasında məchul bir güllə ilə vurulduğunu ailəsinə xəbər verdilər. Sonralar məlum oldu ki, Zülfüqar bəy bir erməni tərəfindən vurulmuşdur. Ancaq rus komandanlığı tərəfindən qatil axtarılmamış və cinayət "məchul güllə ilə törədilmiş" – deyə ört-basdır edilmişdir.

* * *

Böyük türk dünyasının nüfuzlu orqanı "Tərcüman" qəzeti Port-Artur müharibəsinin gedişatını müntəzəm izləmiş və öz səhifələrində orduda qəhrəmanlıqla döyüşən, dini müsəlman olan əsgər və zabitlərin fəaliyyətindən xəbərlər dərc etmişdir.

Qəzet 11 iyun 1904-cü ildə "Müxtəlif xəbərlər" rubrikasında yazırdı: "İstehkamçı – kapitan İlyas bəy Ağalarov yeni podpolkovnik rütbəsi alaraq Uzaq Şərq döyüşlərinə yola düşür. Məşhur bəy nəslinin nümayəndəsi İlyas bəy Ağalarov əla hərbi təhsil almaqla elektrotexnika sahəsində də görkəmli mütəxəssis olmuşdur. Onun orduda keçən hərbi xidməti, həyatı və rütbəsi Rusiyada yaşayan hər bir müsəlman əhlində iftixar hissi doğurur".

Gürcüstan Mərkəzi Dövlət Arxivində İlyas bəy Allahyar bəy oğlu Ağalarova məxsus azsaylı sənədlərdən məlum olur ki, o, Port-Artur döyüşlərindən sağ-salamat qayıtmışdır. Sonralar ikinci Qafqaz istehkamçı batalyonun komandiri olan polkovnik İlyas bəy Ağalarov 1860-cı il iyunun 7-də Gəncədə nüfuzlu bəy ailəsində dünyaya gəlib.

Sənədlər göstərir ki, İlyas bəy İkinci Moskva hərbi gimnaziyasında və Pavlov hərbi məktəbində təhsil alıb. Hərbi xidmətə 1879-cu il aprelin 26-da başlayıb. 1887-ci il avqustun 8-də podporuçik, 1885-ci il avqustun 8-də poruçik, 1894-cü il avqustun 1-də ştabs-kapitan, 1898-ci il avqustun 1-də kapitan, 1904-cü il iyunun 26-da podpolkovnik, 1910-cu il dekabrın 6-da isə polkovnik rütbəsi ilə təltif olunub.

Polkovnik İlyas bəy Ağalarovun Port-Artur döyüşlərində və nizami ordudakı nümunəvi xidmətləri 1901-ci ildə ikinci dərəcəli "Müqəddəs Stanislav", 1905-ci ildə ikinci dərəcəli "Müqəddəs Anna", yenə həmin ili dördüncü dərəcəli "Müqəddəs Anna" (bant və qılıncla birgə ordenlərinə layiq görülmüşdür.

1913-cü il martın on səkkizində polkovnik İlyas bəy qəfil mərmi partlayışından həlak olub. Bu sərkərdə eloğlumuzun məzarı hazırda Gəncədə İmamzadə məscidinin həyətindədir. Məzarın mərmər başdaşında solmaqda olan "Qvardiya polkovniki İlyas bəy Ağalarov" sözlərini oxuyanda unudulmuş igidin xatirəsi qəlbimi göynətdi. İllərin tufanı mərmər qəbir daşından onun sonuncu izini də silib aparır… Sərkərdəlik fəaliyyəti lazımınca öyrənilməmiş və hərb tariximizin heç bir səhifəsində indiyədək adı çəkilməyən belə igidlərimizi düşünəndə: "Hər bir insanın içərisində onunla birgə doğulan və ölən kainat var. Hər bir başdaşı altında bütöv bir dünya tarixi yatır" – deyimini xatırlamaya bilmirsən.

İstər-istəməz dahi Nizami Gəncəvinin:

*Gəl, gör kiminkidir bu çökmüş məzar?*
*Yıxılmış baş daşı, göyərmiş otlar.*
*Mən torpaqda yatan bir mirvariyəm.*
*Qaldırsan görərsən sən tək diriyəm.*
*Batıb gedən bilmə sən hər gedəni,*
*Məni görməsən də, görürəm səni. –*

misraları yada düşür.

"Tərcüman" qəzeti 1904-cü il noyabrın 5-də "Müsəlmanlar Port-Arturda" adlı xəbərində yazırdı: "Mancuriya ordusunun sıralarında və həmçinin Port-Artur döyüşlərinin qəhrəman müdafiəçiləri arasında azsaylı müsəlmanlar da şərəflə vuruşurlar. Redaksiyanın aldığı məktubdan aydın olur ki, yeddinci Şərqi-Sibir artilleriya divizionunun rəisi, general-mayor Səməd bəy Sadıq bəy oğlu Mehmandarov Qarabağ bəylərindəndir. Qala artilleriyasının xəzinədarı isə Litva müsəlmanlarından olan Ədhəm bəy Muxranskidir. Şimali Qafqazdan olan artilleriya poruçiki Y.İ.Dudarov isə avqust hücumlarının birində mərd zabit kimi şərəflə vuruşaraq həlak olmuşdur. Allah ona rəhmət eləsin. Amin!"

## General Əli ağa Şıxlinski Port-Artur döyüşlərində

***Azərbaycanlılar birinci dəfə deyil ki, vuruş meydanlarında yaponlarla qarşı-qarşıya gəlirlər. Mən Port-Artur uğrunda gedən döyüşlərdə fərqlənmiş məşhur topçu Əli ağa Şıxlinskinin adını çəkə bilərəm. Bu ad rus hərbi elmi tarixində şöhrət qazanmışdır.***

***Səməd VURĞUN,***
***Xalq şairi***

Port-Artur döyüşlərinin qala müdafiəsi zamanı düşmən həmlələrinin dönə-dönə dəf edilməsində top artilleriyasının mahir ustası Əli ağa Şıxlinskinin döyüş xidmətləri misilsizdir. Onun 1904-1905-ci illərdəki hərbi rəşadəti bütün Rusiyaya yayılmışdı. Qısa müddətdə qəhrəmanlığı altı ordenə layiq görülən, rütbəsi kapitandan podpolkovnikə yüksələn Şıxlinski haqlı olaraq "Xatirələrim"də yazır ki, Port-Artur epopeyasının iştirakçısı olduğumu

həmişə iftixarla yad edirəm. 1905-ci il aprelin 1-də "Tərcüman" qəzetinin "Müxtəlif xəbərlər" rubrikasında oxuyuruq:

"Dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasının kapitanı Əli ağa Şıxlinski oktyabrın yeddisindən noyabrın on doqquzunadək Port-Arturda yaponların basqınını dəf etməkdə fərqləndiyi üçün ali ehtiramla – "İgidliyə görə" medalı və üstü yazılı Qızıl qılıncla təltif olunub".

Həmin döyüşlərin iştirakçısı 1906-cı ildə "Port-Arturun əzablı günləri" adlı ikicildlik monumental əsərin müəllifi P.Larenko yazır ki, ***Laperov dağında batareya komandiri kapitan Əli ağa İsmayıl ağa oğlu Şıxlinski ağır yaralanmışdır. Bütün qafqazlılar kimi cəsur olan komandir Kinjo döyüşlərində, "Zelyonnı" və "Volçye" dağları vuruşmalarında əsl qəhrəman kimi iştirak etdi.*** Avqustun əvvəllərində öz batareyası ilə "Vısokaya qora"da, avqustun onundan isə daima Laperov dağında döyüşlərdə olmuşdur. Elə buradan da girəcək yerlərini və istehkamları atəşə tutub həmlə kolonnalarını dəf edərək düşmənin səhra artilleriyası ilə inamlı döyüşlər aparırdı.

Port-Artur qalası təslim olandan sonra müharibədə iştirak etməmək şərtilə yaponlar podpolkovnik Əli ağa Şıxlinskini ağır yaralı kimi vətənə göndərdilər. Vətəndə yaraları gözlənildiyindən də tez sağaldığından, o yenidən Mancuriya ordusuna göndərilməyi xahiş etdi. Lakin onu buraxmadılar.

Müharibədən sonra Rusiyaya qayıtmağını və yenidən cəbhəyə getmək istədiyini Əli ağa Şıxlinski "Xatirələrim" hərbi memuarında daha dəqiq təsvir edir. O yazır: "Mayın ikinci yarısında mən Peterburqa gedib böyük knyaza təqdim olundum və Mancuriya ordusuna qayıtmaq istədiyimi ona söylədim. O, məndən soruşdu:

– Siz oraya necə gedə bilərsiniz?

Onda mən hospitalımızdan aldığım şəhadətnaməni ona göstərdim. Şəhadətnamədə yazılmışdır ki, yapon tibb komissiyası məni hərbi qulluğa yararsız hesab edərək dilimdən iltizam almadan vətənimə qayıtmağa icazə vermişdir.

– Beləliklə, – dedim, – hazırkı müharibədə iştirak etməyə tam ixtiyarım var. Rusiyaya qayıtmağımın səbəbi ancaq budur, yoxsa müdafiədə iştirak etmiş o biri əsgərlərin taleyinə şərik olardım.

Bu sözləri deyərkən ağlıma gəldi ki, mənim bu fikrim yaponlarla vuruşmamaq üçün dillərindən kağız verərək vətənlərinə qayıdan zabitlərə qarşı bir ittiham kimi düşünülə bilər, odur ki, əlavə edib dedim:

– Orada zabitlərin arasında iki rəy var idi: bir qismi deyirdi ki, bizim böyük təcrübəmiz var, buna görə də vətənə gedib orada Mancuriya ordusuna göndərilmək üçün yeni qüvvələr hazırlamaqla fayda verə bilərik. O biri hissə isə (o cümlədən mən) başqa cür düşünürdük. Bu zabitlərin fikrincə ordu ancaq qismən səfərbərliyə alınmışdır, vətəndə zabitimiz çoxdur, odur ki, orada bizim köməyimizə heç bir ehtiyac yoxdur. Buna görə də, əsgərlərin taleyinə şərik olmaq lazımdır. Belə ki, dilimdən yaponlara heç bir iltizam vermədən evimə qayıtdım. İndi Sizdən xahiş edirəm ki, məni müharibəyə göndərəsiniz.

Sergey Mixayloviç əlilə işarə edərək dedi:

– Müharibədə nələr çəkdiyiniz yetər, buraxmaram".

1905-ci il aprelin 5-də yapon tibb komissiyasının verdiyi arayış generalın arxivində indi də saxlanılır. Onun mətni belədir:

"Arayış doqquz saylı ehtiyat səhra hospitalından dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasının kapitanı Şıxlinskiyə verilir. Ondan ötrü ki, onun yapon tibb komissiyası tərəfindən hərbi xidmətə yararlı olmadığı (Əli ağa Şıxlinski sol qıçından yaralandığı üçün yapon həkimi arayışı belə yazmışdı – ***Ş.N.***) müəyyənləşdirilib. O, Rusiyaya buraxılır".

Yapon tibb komissiyasının onu hərbi qulluğa yararsız hesab etməsinə baxmayaraq, dilindən yazılı iltizam verməyən Əli ağa Şıxlinski Vətənə qayıdandan sonra yenidən yaponlarla döyüşmək üçün Mancuriya müharibəsində iştirak etmək arzusunda olduğunu bildirir. Lakin topçu general-müfəttişi knyaz Sergey Mixayloviç "Port-Arturda çəkdiyiniz yetər, buraxmaram" – deyir və onun yenidən cəbhəyə qayıtmasına qıymır.

Onun Port-Arturdakı nümunəvi döyüş xidmətləri "İgidliyə görə" sözlərlə yazılmış qılıncla, dördüncü dərəcəli "Müqəddəs Anna" ordeninə əlavə olaraq qızıl qılınc nişanı, qılınc və bantlı "Müqəddəs Vladimir" ordeni, üzərində "İgidliyə görə" sözləri yazılmış qızıl silah və məşhur "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsinə layiq görülmüşdür.

Azərbaycan Tarixi Muzeyində generalın şəxsi əşyaları arasında 1908-ci il martın 5-də imperator tərəfindən təsdiq olunmuş "Port-Artur qalasının müdafiəçisi döş nişanı" saxlanılır. Onu Əli ağa Şıxlinskinin ünvanına keçmiş Kvantun vilayətinin və Port-Artur şəhər sovetinin sədri podpolkovnik İ.A.Verşinin göndərib:

***"Çox möhtərəm və aziz Port-Artur silahdaşım***
***Əli ağa Şıxlinskiyə***
***Keçmiş Kvantun vilayətinin Triryan hissəsi üzrə***
***komissarı və keçmiş Port-Artur şəhər***
***sovetinin sədri A.Verşinindən***

**Ordu və donanmaya əmr**

***Qarnizonun mərdliyi və mətinliyi ilə bütün dünyanın təəccübünə səbəb olmuş Port-Arturun qəhrəmancasına müdafiəsi, qalanın qəflətən rüsvayçılıqla təslim edilməsi ilə kəsildi.***

***Ali məhkəmə qalanın verilməsinin müqəssirini yerindəcə cəzalandıraraq, igid qarnizonun unudulmaz hünərlərinin doğruluğunu tam əzəməti ilə bərpa etdi.***

***Port-Arturun cəsur müdafiəçiləri! Uzaq Şərqdə bizim istinadgahımızın müdafiəsi zamanı göstərdiyiniz fədakarcasına qəhrəmanlıq və anda sədaqətinizlə Siz ölməz şöhrət qazandınız və rus ordusunun hünər salnaməsinə yeni parlaq səhifələr yazdınız.***

***Qədirbilən Rusiya Sizin ilə fəxr edir və Siz onun qarşısında borcunuzu unutmadığınız kimi, o da Sizin hünərinizi yaddan çıxarmayacaq.***

***Əslini İmperator həzrətləri öz əli ilə yazmışdır:***
***II Nikolay, Çarskoye-Selo şəhəri".***

* * *

Port-Artur döyüşlərinin şahidi, yazıçı Aleksandr Stepanovun "Port-Artur" və "Zvonaryovlar ailəsi" romanları tarixi əsər kimi ədəbiyyatın qızıl fonduna daxil olmuşdur. İndiyədək on doqquz dəfə nəşr olunan romanın tirajı milyonu keçmişdir. İngilis, fransız, macar, yapon və başqa dillərə də tərcümə olunan belə bir məşhur əsərin səhifələrində (271, 350, 353 və s.) kapitan Əli ağa Şıxlinskinin qəhrəmanlıq fəaliyyəti öz əksini tapmışdır.

"...İrman ədəb-ərkanla təzim edib çevrildi və otağı tərk etdi. Diviziya rəisinin yanından çıxandan sonra İrman cəld xəstəlik haqqında raport və komandan Kondratenkoya müfəssəl məktub yazdı. Sonra isə məktubu Əli ağa Şıxlinskiyə verdi və dərhal generalın yanına getməsini əmr etdi. İrman kapitana xeyir-dua verib dedi:

– Sizdən çox şey asılıdır, Əli ağa.

– Narahat olmayın, Vladimir Aleksandroviç. Əli ağa hələ indiyə kimi heç kəsin etimadını yerə salmayıb, ömründə satqınlıq eləməyib. Əgər general Fok yeddinci diviziyanın yaponların zərbəsi altına salmaq istəyirsə, o, buna nail ola bilməyəcək. Onun kələyini kəsmək və general Kondratenkoya kömək etmək üçün bütün qüvvəmi əsirgəməyəcəyəm, – bunu deyib, Əli ağa Şıxlinski sıçrayıb ata mindi və dördnala çaparaq ordan uzaqlaşdı..."

Keçmiş SSRİ xalqlarının bir neçə dilinə tərcümə olunan bu qiymətli roman, təəssüf ki, hələ də Azərbaycan mütərcimini gözləyir. Romanda təkcə kapitan Əli ağa Şıxlinskinin yox, həm də general Səməd bəy Mehmandarovun, poruçik Sadıqovun fəaliyyətini oxuduqca fəxr etməyə bilmirsən.

"...Praporşik çadırdan çıxıb öz komandasının qərar tutduğu yerə tərəf getdi. Yolda Əli ağa Şıxlinski də ona qoşuldu. İrmanın tapşırığı ilə o, batareyaya baş çəkməli və indiki mövqelərindən getmək üçün onları xəbərdar etməli idi.

– Necə, artilleriya da bu sahəni tərk edir? – deyə Zvonaryov təəccübləndi.

– Fok əmr verib ki, bütün topları yığışdırmalı, mühəndislər isə səngərdən sipərləri söküb, materiallarından başqa sahələrində istifadə etməlidir.

– Qısası, Kondratenkoya boş yer verilir ki, orada hər şeydən əvvəl yeni istehkam düzəltsin.

– Ehtimal ki, yaponlar istehkamları sökdüyümüzü görüb bizdən qabaq hücuma keçsinlər.

– Bu barədə təcili generalı xəbərdar etmək lazımdır, – Zvonaryov qərara gəldi və geri – Semyonovun qərargahına qayıtmaq istədi, lakin kapitan Əli ağa Şıxlinski təklif etdi ki, ora şəxsən özü getsin.

– Çox da narahat olmayın. Mənim briqada komandirim polkovnik İrman qərara gəlib ki, sağ cinahdakı batareyaları Fokun əmrinin əksinə olaraq hələlik yerində saxlamaq lazımdır. Mən şəxsən polkovnik Mehmandarovla görüşəcəm. Biz onunla köhnə dostlarıq, bir-birimizi yek kəlmədən başa düşərik. Fok necə əmr verirsə versin, mənim zabiti olduğum podpolkovnik Laperovun batareyası Kondratenkonun diviziyasının polkunu köməksiz qoyub getməyəcək, – Şıxlinski coşqun halda dilləndi. – Romanovskinin sağdakı batareyasından iyirmi altıncı polkun qərargahınadək cəmi üç-dörd verstdir, mən yarım saata ora çatıb lazım olan hər şeyi deyərəm. Siz isə birbaşa Yençeyevskinin yanına gedin".

Əli ağa Şıxlinskinin döyüş məharətini gözləri ilə görən ikinci rus yazıçısı Trofim Borisov olmuşdur. Uzaq Şərq həyatından maraqlı, elmi və bədii əsərlər yazan T.Borisov sonu faciə ilə bitən Rusiya-Yaponiya müharibəsi haqqında 1959-cu ildə Vladivostokda "Portarturçular" adlı sanballı bir roman nəşr etdirmişdir. Müəllif sıravi əsgərlərin və zabitlərin döyüş yolunu özünəməxsus ustalıqla ön plana çəkir. Böyük hərarətlə, məhəbbətlə xalqımızın mərd oğulları Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov haqqında söhbət açır. İlk gündən Şıxlinskinin batareyasında döyüşən podporuçik Trofim Borisov onun qəhrəmanlığını, xarakter və xasiyyətini daha dəqiq işıqlandırmışdır.

"Səhər saat onda batareyanın baş zabiti kapitan Əli ağa Şıxlinski kazarmaya gəldi. Onun iri uzunsov sifətinə bir qədər sivri burnu daha ciddi görkəm verirdi. Sıx bığları qalın idi, başının tükləri qabaqdan azca seyrəlmişdir. Çatma qaşları bir qədər yuxarı dartılmışdır. Qonur gözlərində sevinc işığı vardı. Balaca ağ əllərinin ağ barmaqlarını arxasında tutmuşdu. Əli ağa Şıxlinski hamı ilə görüşəndən sonra orduya təzəcə çağırılmışların adlarını oxudu:

– Antonov Valentin Pavloviç.

– Mən, – deyə o, cavab verdi.

– Sən az savadlısan?

Əsgər dolaşıq sözlərlə nəsə dedi. Kapitan, Morozovu çağırdı:

– Sənin də savadın yoxdur, bu necə olur? Böyük şəhərdən gəlibsən, amma heç bir təhsilin yoxdur. – Sonra üzünü divizionun əsgərlərinə tutub: – Siz niyə oxumayıbsınız?

Bu iradlardan sonra Morozovun sifətinə yüngül qızartı çökdü.

Kapitan Əli ağa Şıxlinski sıranın önündən keçib, əlində yeni çağırılmışların siyahısı olsa da, gülümsəyə-gülümsəyə, bir-bir onların soyadını, adını, atasının adını çəkdi.

– Ancaq biz izləyir və fikirləşirdik ki, sibirlilər bizim inamımızı doğruldacaqlar… Pribaltika quberniyalarındakı və Mərkəzi Rusiyadakı savadsızlıq orada da hökm sürür. Yaxşı deyil, artilleriyaçı mükəmməl biliyə malik olmalıdır. – Kapitan Şıxlinskinin sifətinə bir ciddilik çökdü. Gicgahı tarıma çəkildi, ancaq gözlərində bayaqkı təbəssüm işartısı qalırdı. Təzə çağırılanlarla söhbət edə-edə onlara göstəriş verirdi: – Başını düz tut, sağ çiynini əymə, – deyə kapitan, Pudovnikə müraciət etdi. – Sən məhkəmə palatasında çoxmu işləyibsən?

– İki il?

– Bəs ona kimi harada işləyibsən?

– Prikazçik işləmişəm. Ancaq mənim əsas işim balıqçılıqdır.

– Sənin xəttin yaxşıdırmı?

– Mirzəliyi istəmirəm, zati-aliləri…

– Baxarıq. Bəs mirzəliyə kimi təyin edək? Özün görürsən, yazılarımızı yazmağa mirzə də lazımdır… Abramoviç Moisey İosifoviç! Sən usta-çilingərsən?..

"Yaddaşa bax, yaddaş belə olar, siyahını bircə dəfə oxuyan kimi hamının ad və soyadını, atasının adını necə də dəqiq yadında saxladı", – Pudovkin fikrə getdi".

Port-Arturdakı oktyabr döyüşlərində Əli ağa Şıxlinskinin qəhrəmanlığını əyani əks etdirən tarixi sənədlər də az deyil. 1905-ci ildə çap olunmuş "Yaponlarla müharibənin salnaməsi" almanaxının səksən birinci nömrəsinin min beş yüz yetmiş yeddinci səhifəsində bu barədə oxuyuruq:

"Müqəddəs Georgi" ordenli süvari dumasının təqdimatına əsasən Əlahəzrət imperator – 1905-ci il oktyabrın 3-də böyük hörmət göstərərək, Port-Arturun müdafiəsində şücaəti ilə fərqlənmiş, 1904-cü il oktyabrın 13-dən 17-dək üç saylı istehkamı və bu istehkamın digər qurğularını artilleriya briqadasının podpolkovniki Əli ağa Şıxlinskini dördüncü dərəcəli şəhid və müzəffər Georgi ordeni ilə təltif etmişdir. Podpolkovnik Əli ağa Şıxlinski bu döyüşdə böyük şücaət göstərmiş, ixtiyarında olan yarımbatareyanın nişançıları həlak olduğundan çox vaxt topları şəxsən özü tuşlayaraq düşmən artilleriyasını dəfələrlə susmağa məcbur etmiş və adı çəkilən istehkamlara yaxınlaşmağa can atan yapon piyadalarını qeyri-adi cəsarətlə geri oturtmuşdur…"

* * *

**Şahzadə Bəhmən Mirzə Qacarın** 1905-ci ildə Port-Artur döyüşlərində igidliklə həlak olmuş podpolkovnik oğlu Əliqulu Mirzə hərbdə və fotoqrafiya sənəti sahəsində qeyri-adi istedada malik idi. O, Tiflisdəki Kadet korpusunu bitirdikdən sonra Vladiqafqazda və Oryol şəhərində yerləşən əlli birinci Çerniqov alayında xidmət etmiş, 1903-cü ildə Yeletsdəki əlli ikinci Nejinski alayına dəyişdirilmişdir. Port-Artur döyüşlərində həlak olan podpolkovnik Əliqulu Mirzə Qacar döyüş xidmətlərinə görə "Müqəddəs Stanislav" ordenilə təltif olunmuşdur.

Bu barədə "Tərcüman" qəzeti 1905-ci il 18 fevral tarixli sayında yazırdı: "Qızıl Xaç Cəmiyyətinin əlahəzrət himayəçisi Məlakə imperator Mariya Fyodorovna Qızıl Xaç hesabına mərhum podpolkovnik, şahzadə Əliqulu Mirzə Qacarın cənazəsini Qafqaza, Yevlax stansiyasına qədər aparılmasını lazım bilmişdir".

Uzaq Port-Arturda gedən ağır döyüşlərdə minlərlə əsgər və zabit həlak oldu. Onların hamısına öz doğma torpağında uyumaq qismət olmadı. Vətəninə, Bərdənin İmamzadə qəbiristanlığındakı məqbərədə dəfn olunmaq şərəfi Əliqulu Mirzə Qacara ona görə qismət oldu ki, şahzadə nəslindən idi. Səksən ildən çox sovetlərin tənqid atəşinə tutduğu imperator II Nikolay nüfuzlu nəsillərə belə ehtiram göstərirdi.

Şahzadə-podpolkovnik Əliqulu Mirzə Qacar 1854-cü ildə Qarabağın Şuşa şəhərində anadan olmuşdur.

İllər keçir, eloğullarımızın Rusiya-Yaponiya müharibəsindəki hünərlərini əks etdirən sənədlər müxtəlif arxivlərdə tədqiq olunmamış qalır. Açılmayan qovluqlar öz yazıçısını, tədqiqatçısını gözləyir.

Unutmaq lazım deyil ki, hərb tarixində misilsiz xidmətlərinə görə "Artilleriyanın allahı" sayılan alim-general Əli ağa Şıxlinski fəxrlə yazırdı ki, Port-Artur epopeyasının iştirakçısı olduğumu həmişə iftixarla yad edirəm.

* * *

**Dost sözü: –** Əziz Şəmistan, "Port-Arturun azərbaycanlı qəhrəmanları" oçerkini birnəfəsə oxudum. Sənin yazıçı-jurnalist qeyrətinə heyrət etdim. Arxivlərin kəsif qoxulu tozunu udaraq belə gözəl tədqiqatı ərsəyə gətirdiyinə görə sənə "sağ ol" deyir və ürəyimdə təsis etdiyim qeyrət ordeni ilə təltif edirəm.

Öpürəm, bağrıma basıram. Sən xalqımızı nə qədər böyük məhəbbətlə sevirsən.

***yazıçı qardaşın Əmir Mustafayev,***
***"Azərbaycan" qəzetinin Baş redaktoru,***
***20 dekabr 2001-ci il***

# Tarixi romanlar müəllifi Aleksandr Nikolayeviç Stepanovun (1892-1965) "Zvonaryovlar ailəsi" romanından kiçik bir parça[1]

...Bu yaxınlarda general Əli ağa Şıxlinski burada olmuşdu. Siz onu Port-Arturdan tanımalısınız. İndi o, böyük knyaz Sergey Mixayloviçin sərəncamındadır.

– Şıxlinski yaxşı yadımdadır. Orada kapitan idi. Ayaqlarından ağır yaralanmışdı, odur ki, yaponlar onu Rusiyaya buraxmışdılar. Generallığında rast gəlməmişəm. Bu müddətdə dəyişib-dəyişmədiyini deyə bilmərəm, – Boreyko cavab verdi.

Koçarovski rişxəndlə:

– Sizcə, belə çıxır ki, o da başqa generallar kimi ağıl sarıdan geriləyib? – dedi.

– Zati-aliləri, rəyindən daşındırmağa cürət etmərəm.

– Əhsən Şıxlinskiyə, əzmkar, başbilən adamdır, həm də böyük diplomat, knyaz kimi dərəbəylə dil tapa bilib. Hə, Şıxlinski deyirdi ki, Ali komandanın qərargahı nəzdində komandanlığın gücləndirmə vasitəsi olası fövqəlağır artilleriya yaratmaq istəyirlər.

Boreyko:

– Yəni almanların qırx santimetr ölçülü, dəmiryol platformalarında gəzdirilən topları kimi? Belələrini Novogeorgiyevsk ətrafında uzaqdan-uzağa görmüşdüm. Özü də ən yaxşı istehkamlarımızı necə alt-üst elədiklərinin şahidi olmuşdum, – dedi.

– Yox, tam eyni deyil! Qərb cəbhəsində bizim müttəfiqciyəzlər olmazınca güclü toplar tətbiq etmişlər, on iki düymlü qaubitsa da, uzaqvuran toplar da. Bizlərdə də nəhəng toplardan ibarət bir sıra divizionlar yaradılır...

---

1 A.Stepanovun romanından bu parçanı kitaba ona görə əlavə etdik ki, general Əliağa Şıxlinskinin Birinci Dünya müharibəsindəki fövqəladə igidliyi burada (Bax: "Zvonaryovlar ailəsi" (rusca), II kitab, Moskva, 1963-cü il nəşri) işıqlandırılır – ***Ş.N.***

...Əli ağa Şıxlinskidən bu barədə eşidən kimi, sizin batareyanız yadıma düşdü...

...Bir neçə gündən sonra batareya şose yolu ilə irəliləyərkən, Koçarovski ilə rastlaşdı. Generalı iki zabit də müşayiət edirdi. Boreyko əvvəl onları tanıya bilmədi.

Kapitan "farağat" əmri verib atını Koçarovskiyə sarı sürdü. General yanındakı atlıya işarə etdi və Boreyko Əli ağa Şıxlinskini tanıdı.

– Əli ağa! – sevincindən qışqıran Boreyko tez də özünü ələ alıb əlavə etdi: – Zati-aliləri!

– Köhnə dostlar üçün mən həmişəki kimi Əli ağayam. Xahiş edirəm, elə belə də deyəsiniz.

Batareya gecələmək üçün düşərgə salanda, hər iki general yenə də Boreykoya baş çəkdilər. Boreyko Novogeorgiyevsk hadisələrini ətraflı danışdı. Şıxlinski qulaq kəsilib bloknotunda nə isə yazırdı.

– Bütün danışdıqlarınız olduqca ibrətamizdir. Qalaların ömrü ötüb keçməsi barədə qənaətim təsdiqlənir. Komandanlığa da beləcə çatdıracağam, – deyə Şıxlinski öz mülahizələrinə yekun vurdu...

* * *

...Boreyko öz zabit və əsgərləri ilə gəlib çıxdı. Qərargaha yalnız zabitlər yollandı. General Əli ağa Şıxlinski onları dostcasına, köhnə portarturlu silahdaşları kimi qarşıladı, hansı batareyada xidmət etmək istədiklərini soruşdu. Boreyko dilləndi:

– Ən ümdəsi, xahiş edirik, bizi ayırmayasınız, hamınızı zabitli-əsgərli bir batareyaya göndərəsiniz.

– Neynək, bu yaxşı olar, – general ümid verdi.

– Həm də ən böyük topları olan batareyaya, – kapitan sözünə davam etdi.

– Deməli, sizi təşkil olunan "Vikkers" topları batareyalarına yollayacağıq, orada avadanlıq qəlizdən qəliz, atəşaçma, səhihləşdirmə qaydaları isə hələ pis işlənmişdir. Qoşqu yalnız mexa-

nikidir. Sizin topçular batareyanın özülünü təşkil edəsidir. Həm də batareyanın sərəncamına hidrogenlə qalxan aerostat da verilir. Uçuculuq peşəsinə də bələd olmaq gərəkdir. Bu iş üçün zabitlərdən birini ayırın...

...Moskva xəfiyyələri heç də mürgü vurmurdu, yeni təşkil edilən hissələrdə siyasi cəhətdən etibarsız əsgərlərin çox olduğunu bilib gözlənilmədən Boreykonun batareyasına soxuldular. Kapitan bu barədə Zuyevə xəbər verməyə macal tapdı, yasaq ədəbiyyatı cəld seyfdə gizlətdilər. Batareyanı ələk-vələk edən jandarmların əli boşa çıxdı. Hirsdən boğula-boğula Əli ağa Şıxlinskinin yanına gedib şikayətləndilər. General onlara... o batareyanın ərazisindən tezcə mürəxxəs olmağı təklif etdi.

– Bizim gördüyümüz bütün əməliyyat tamamilə məxfidir, odur ki, burnunuzu buraya soxmaq rəva deyil. Bir də gözümə dəysəniz, alman casusları kimi tutduracağam, – deyə general Şıxlinski çaşbaş qalan jandarmların köpünü yatırtdı.

Bir neçə gündən sonra ucqar barıt anbarının gözətçi məntəqəsində keşikçi – Boreyko batareyasının topçusu – gecə vaxtı anbarın yanından keçən əsgəri güllə ilə vurmuşdu. İstintaq başlandı...

...Hamıya məlum oldu ki, barıt anbarı yanında vurulan jandarm agenti imiş.

...Başqa batareyaların döyüşçülərindən Lejnyev casus "yığışdırılan" günü qonşu xutorda keçirilən əsgər məşvərətindən də xəbər tutmuşdu. Jandarm agenti bu yığıncağa gələndə əsgərlər duyuq düşür. Bütün "qiyamçı" çıxışları, bolşeviklərin soldatlara müraciətnaməsi, soldatların oradaca tərtib etdiyi cavabı dinləməyə casusa imkan verirlər... O da ağzını açıb qulaq kəsilir, taxt-taca, əlahəzrət çara sədaqətlə xidmət etdiyinə görə sinəsinə taxılacaq ordeni, vəzifəsinin böyüdülməsini, mükafat-filanı xəyalına gətirirdi... Natiqlərin adlarını, üsyankar sözlərini yadda saxlamağa çalışırdı. Xəbəri yox idi ki, əsgərlər sıxlaşıb onu araya almışlar. Haçandan-haçana, yığıncaq qurtarandan sonra əsgərlərin lal-dinməz, tərs baxışlarından sivrişib çıxa bilməyəndə

ürəyinə bəd güman damdı. Dağılışan soldatlara qoşulmaqdan başqa əlacı qalmadı. Bilirdi ki, yol barıt anbarının yanından keçir. Əsgərlər də bunu bilirdi. Odur ki, yaxa qurtarmağa can atan casus əl-qol ata-ata, qaça-qaça haray salanda onu tutub saxlayan olmadı. Güllə səsləndi, əlləri zalı qalan kölgə tirtap yerə bərələndi. Əsgərlər tələsik öz batareyalarına yönəldilər.

Jandarmlar çox baş sındırsalar da, casusu dübbədüz qarovulçunun üstünə gətirənin kim olduğunu yəqin edə bilmədilər. Buna baxmayaraq, batareyadan az qala on əsgərin həbs olunmasını qət etdilər. Yalnız istintaqın dayandırılmasını tələb edən general Şıxlinskinin işə qarışması topçuların başının üstünü alan bəlanı sovuşdurub onları xilas etdi...

O, "qətl haqqında iş"in göndərildiyi jandarm idarəsində:

– Mən bu əsgərləri tanıyıram, – deyə həyan çıxdı. – Hələ Port-Artur vaxtlarından, komandirləri də, özləri də əla, etibarı əsgərlərdir. Onlar həbs olunsa, mən batareyanın vaxtında döyüş hazırlığını təmin edə bilməyəcəyəm.

Şıxlinski jandarmların onun nəzarətində olan işlərə qarışmasına qarşı qəti etirazını bildirdi.

– Başa düşün, axı mənim sərəncamıma ən yeni sistemli tolar tapşırılıb. Siz isə bir ucdan bağışlayın, bu gicbəsərləri çuğulçuluq etməyə göndərirsiniz. Cənablar, məni xəfiyyələrdən uzaq tutun. Əks təqdirdə onları öz ərazimdə görsəm, hissədən qovmalı olacağam.

Beləliklə, bu "arxa" hücumu da dəf olundu.

Zaman ötdü, yeni – 1916-cı il gəldi. Yazda bütün cəbhə boyu almanlara qarşı aparılası hücumdan söz-söhbət yayıldı. Əlahiddə ağır artilleriyanın təşkilini tezliklə qurtarmaq lazım idi. İndən belə jandarm böhtanlarına məhəl qoyan olmadı. İş yoluna düşdü.

...Vyazma səfərlərinin birində Vaya Şıxlinski ilə tanış oldu. Onlar hələ Port-Arturda rastlaşsa da o vaxt Əli ağa yeniyetmə qıza diqqət yetirməmişdi. Şıxlinskinin həyat yoldaşı Nigar xanım[1]... Tiflisdə "Müqəddəs Bina" İnstitutunu bitirmişdi...

[1] A.Stepanovun romanında səhvən "Tamara xanım" deyilir – ***Ş.N.***

...Divizion gəlib çıxanda Boreyko öz batareyaları üçün tapşırıq almaq məqsədilə Birinci Qvardiya korpusunun qərargahına yollandı. Qərargahda iki-üç gün ərzində alman müdafiəsini cəbhə boyu altı verst geninə darmadağın etməyi lazım bildilər. Boreyko çarəsiz qaldı. Reynin nüfuzuna istinad edərək topların bu vurhavura tab gətirməyəcəyini, qərargah tapşırığının baş tutmayacağını bildirdi. Qərargah işçiləri təəccübləndi:

– Siz də bu işin öhdəsindən gələ bilmirsinizsə, bəs onda alman müdafiəsini kim dağıdasıdır?

Xoşbəxtlikdən, qərargaha general Əli ağa Şıxlinski gəldi. O, dərhal işdən agah olub günü sabah bu barədə sanballı rəy hazırlamağa söz verdi.

...General qərargahın hərbi əməliyyat şöbəsinə baş çəkib alman istehkam xətlərinin düzümü-biçimi haqqında əldə olan materialları araşdırmağa başladı. Alman istehkamlarının aerofotoşəkillərinə Əli ağa xüsusi diqqət yetirdi. Şəkillər o qədər də yararlı-karlı olmadığından general sabaha özü təyyarə ilə kəşfiyyata çıxmaq fikrinə düşdü.

General Şıxlinskinin bu fikri qərargahı heyrətə gətirdi. Hələ generalların yavaş uçan, gücsüz-təpərsiz, köhnəlmiş təyyarələrdə uçmağı görünməmişdi, o təyyarələr ki, fransızlar, ingilislər rus ordusu üçün üçqat baha qiymətə satıb calayırdılar. Di gəl, rus təyyarəçiləri, "uçan tabut" adlandırdığı bu aeroplanlarda daha iti, daha uca uçan, daha möhkəm və çevik olan "yunkers"lərə üstün gəlməyə nail olurdular.

Şıxlinskini "ağılsız" niyyətindən daşındırmağa çalışırdılar.

O isə qara gözləri parlaya-parlaya gülümsünürdü:

– Xeyr, cənablar, səhv edirsiniz. Təyyarələr yeni imkanlar açır: havadan döyüş meydanının nəhəng bir mənzərəsini müşahidə etmək olur. Mən şəxsən hücuma keçəcəyimiz üçün sahəni uçub dolanacağam, – deyə general qətiyyətlə bildirdi.

Boreyko generalı yanlayıb onu da təyyarə səfərinə aparmağını xahiş etdi. Şıxlinski razı olmadı.

– Canım, mənim öz çəkim yeddi puddan on girvənkə az olar-olmaz, siz də, maşallah, geriyə qalmazsınız. İkimizi birdən qaldırmaq hər təyyarənin xörəyi deyil, ya da benzini az götürəsi olacaq, onda da sahəni dolanıb əməlli-başlı nəzərdən keçirə bilməyəcəyik.

Qərara gəldilər ki, Boreyko general qayıdandan sonra uçsun, Şıxlinskinin aldığı məlumatı tamamlayıb dəqiqləşdirsin.

Kəşfiyyat uçuşunu səhər tezdən aparmağı qət etdilər, günəş şərq tərəfdən boylananda düşmən istehkamlarını daha yaxşı görüb seçmək olardı.

Hələlik Əli ağa Boreyko ilə topların bərbad halda olduğunu öz gözüylə görmək üçün batareyaya yollandı.

– Bizim müttəfiqlərimiz az aşın duzu deyillər ha! Əlinə keçən dəmir-dümürü üçqat qiymətə sırıdıqları bəs deyil, hələ naşükür deyə qınayırlar da. Ali komandanın qərargahında da əcnəbilər meydan sulayırlar. Bütün əməliyyat planları müttəfiqlərin komandanlığı ilə razılaşdırılır. Daha doğrusu, onlar bizə buyurur, biz də əməl etməyə can atırıq.

Bizim hücumumuz fransızlar üçün Verdenin qurtuluşu oldu, yoxsa almanların əlinə keçəcəkdi. İtalyan ordusunu Kaporetto ətrafında darmadağın olunmaqdan xilas edən də bizlərik. Avstriyalılar çoxdan Venesiyada oturası, italyanlar isə oyundan kənar qalasıydı. Bir sözlə, biz hamını qanımızın bahasına xilas edirik, – Şıxlinski yana-yana danışırdı.

– Bütün bunlara bais ən əvvəl çar hökumətidir. Yapon müharibəsindən sonra inqilabı boğmaq üçün nə qədər ağır borclara düşdü. İndi o borcları əsgər qanımızla ödəyirik, – qanıqara Boreyko gözünü generala dikmişdi.

– Paho, Boris Dmitriyeviç, deyəsən siz də azad fikirlilərdənsiniz! – zarafatla dillənən Şıxlinski dostunu qıyqacı süzdü. Podpolkovnik sözün altında qalmadı:

– Port-Arturdan sonra hamımız azadfikirli olmuşuq, Əli ağa. Siz özünüz də. Amma mən düşündüyümü deyirəm, sizsə, hələlik susursunuz.

General dostcasına tövsiyə verirmiş kimi, yaxud tabeliyində olanı qınayırmış kimi dilləndi:

– Hələ ki, hər ikimiz dilimizi uzatmasaq yaxşıdır. Əli ağada general təkəbbüründən əsər-əlamət yox idi... Şıxlinski hərbi akademiyanı bitirməsə də, fitri zəkası, praktik fəhmi topçuluq məsələlərində ona böyük nüfuz qazandırmışdı.

Şıxlinski hünərvərliyi dillərdə dastan olmuşdu. Odur ki, onun top hədəflərini müəyyənləşdirmək üçün təyyarə ilə havaya qalxıb artilleriya kəşfiyyatı aparmaq arzusu Boreykonu heç də təəccübləndirmədi.

Ertəsi günü, dan yeri ağaran kimi Şıxlinski və Boreyko hərbi uçarlığa gəldilər. Qırıcı təyyarə sayılan, sürəti saatda üç yüz kilometrə çatan "Nyupor"da uçmağı rəva bilmişdilər. Uçuşun ən yüksək həddi dörd kilometrə yaxın idi. Silah-sursat propellerin tuşundan atəş açan pulemyot, bir neçə bombadan ibarət idi. Əli ağa pilotun arxasındakı kabinəyə özünü birtəhər pərçim etdi. Aşağıları müşahidə etmək üçün təyyarənin yan tərəfindən boylanmaq lazım gəlirdi. Alatoranlı sübh çağı idi. Ağaran duman zolaqları torpağın əyrisini-düzünü gizlədirdi. Təyyarə çəpəki dolaylarla yavaş-yavaş yüksəkliyə varırdı. Tezliklə o, durbinlə də çətin sezilən xırda qara nöqtəyə döndü. Lazımi yüksəkliyə qalxandan sonra pilot təyyarəni düşmən mövqeləri səmtinə yönəltdi. Alman istehkamları üzərinə yetər-yetməz neçə-neçə zenit topları onlara atəş yağdırdı. Təyyarənin yan-yörəsində tez-tez mərmi partlayışları bulud-bulud ağardı. Boreyko durbinlə təyyarəni diqqətlə izlədərək dilləndi:

– Ətrafında dəqiqə başı mərmi partlaya-partlaya yerüstü hədəfləri ayırd eləmək çətindən çətindir.

Təyyarəni izləyən pilotlar o qədər də nigarançılıq keçirmirdilər.

– Zenit topundan təyyarəni vurmaq ehtimalı cüzidir. Daha qorxulusu alman yunkerlərinin havada görünməsidir. Onlar bizimkilərdən həm sürətli, həm çevikdir. Əlbəttə ki, asanlıqla təyyarəmizi haqlayıb vura bilərlər.

Budur, üfüqdə güclə sezilən nöqtə peyda oldu. Təyyarəçilər dərhal təşvişə düşdü.

– İki “Yunker” bizim “Nyupor”un yolunu kəsdirməyə cumub. Tez qayıtmaq lazımdır!

Boreyko durbinlə Əli ağanın hələ də davam edən uçuşunu izləyirdi. Təyyarə birdən-birə geriyə dönüb başıaşağı şütüməyə başlasa da, düşmən onu haqlayırdı. Yerdəkilər ürəyi üzülə-üzülə havada baş verənlərə baxırdı. Qəfildən yaxınlıqda dabanbasma top gurultuları ucaldı, “Yunker”lərin ətrafında sıx-sıx mərmi partlayışları tüstüləndi. “Yunker” enməkdən əl çəkib biryolluğa bir neçə qəlpə saçan bomba yağdırdı. Bombalar yerə qonmağa üz qoyan “Nyupor”un yaxınlığında partladı.

Uçuşdan sonra nəfəsini dərən Şıxlinski təyyarədən gördüklərini xəritədə qeyd etməyə başladı.

– Təyyarədən müşahidə aparmaq çətindir. Çox şeyi görə bilmədim. Xülasə, almanların üç müdafiə xətti var. Biri çay boyu uzanır, oradan altı cərgə tikanlı məftil çəkilmiş, bir verst aralı – ikinci xətdir, dörd cərgə məftili var, yəqin bu xətt nisbətən zəifdir. Onların da arxasınca, üç verst aralı, daha bir xətt də keçir, çox möhkəmdir, on cərgə məftillə çəpərlənmiş, istehkam nöqtələri də əsaslı-köklüdür. Belə bir tilsimi qırıb keçmək asan deyil. Ağır toplarımız yalnız ön xətti, uzaqbaşı ikinci xətti dağıda bilər, üçüncüyə isə mərmiləri çatmayacaq. Hərbi sursat da, əlbəttə, olduqca çox sərf olunacaq. Hava kəşfiyyatının məlumatını yerüstü kəşfiyyatla səhihləşdirib tamamlamaq lazımdır. Onu da deyim ki, bu sahədə alman mövqelərinə doğru qoşun axışmaqdadır. Cəbhə arxasında stansiyalar eşelonlarla doludur. Yəqin ki, düşmən məhz bu sahədə zərbə vuracağımızı gözləyir.

...Boreyko alman batareyalarının mövqeyi barədə məlumatı xeyli dəqiqləşdirməyə nail oldu...

– ...Bizdə min iki yüz iri çeşidli mərmi var. Olan-qalan hərbi sursatımızdır. Özü də toplarımız yalnız yüz atıma tab gətirə bilər. Deməli, toplarımız atəş açarkən dəvamət həddini haqlayacaqlar. Ən başlıcası isə odur ki, bunca bol mərmi işlətsək də al-

manların güman ki, tək-tük atəş nöqtələri salamat qalacaq, hücum edən hissələrimiz olmazınca tələfata uğrayacaqlar, – Boreyko xəbərdarlıq edirdi.

Şıxlinski:

– Bəs bu açıq-aydın həqiqəti generalların başlarına necə yeridəsən? – dedi.

– Qvardiya dəstəsinin qərargahına gedək, necə olursa olsun qərargah rəisi... Qraf İqnatyevlə görüşək. Olsun ki, o bizi başa düşər, alayları hücuma atıb bada verməz.

Şıxlinski şübhə ilə:

– Heç yerdə qərargahdakı qədər hamı şan-şöhrətə can atıb tələfatı vecinə almayan yoxdur, – dedi, – iyulun on beşində general Bezobrazovun ad günüdür. Adətən onu çar özü təbrik edir. Odur ki, əlahəzrətin təbrikini rəşadətli çar qvardiyasının zəfər xəbəri ilə qeyd etməyə can atırlar, – Əli ağa acı-acı gülümsədi.

– Bu lap dəhşətdir! – Boreyko qəzəbləndi.

– Rasputinçilikdən betər! Eh, ürəyimə damıb ki, dul qalanların göz yaşları yerdə qalmayacaq!

* * *

...Ertədən Şıxlinski, Reyn və Boreyko Zuyevin müşayiəti ilə Rojitse stansiyasının yaxınlığında, müdafiənin ön xəttindən on beş kilometr aralı yerləşən qvardiya qərargahına yollandılar...

Boreyko təklifini bildirdi:

– Hücumu avqustun birinədək təxirə salmalı, azı iki min ağır mərmi daşıyıb gətirməli, bu sahədə əlavə olaraq iki-üç güclü top divizionu cəmləşdirməliyik.

Bezobrazov:

– Ali komandanlıq qərargahının razılığı olmadan bu iş mümkün deyil.

Şıxlinski yığıncaqda Ali qərargah nümayəndəsi olduğundan ona Mogilyova, qərargah yerləşdiyi yerə dərhal yollanmaq, məsələni orada təcili surətdə aydınlaşdırmaq həvalə edildi...

...Batareyada Varya yenicə Ali qərargahdan qayıdan Şıxlinski ilə rastlaşdı. General qaşqabaqlı idi, dinib-danışmırdı. Hətta Varya ilə dilucu soyuqca salamlaşdı. Zvonaryova – Şıxlinskinin darıldığını duyub batareyada bir yeni xəbər eşitsin deyə topçuların yanına getdi. Bloxinin qanı qara idi. O, yuxarıdakıların ucbatından, heç bir lüzum olmadan böyük qırğın verəcəyinə əmin idi.

– Nə olaydı, soldatlar durub dirənəydi ki, hücuma qalxmırıq, vəssalam! Di gəl, orduda hələ də buyruğa baş əyirlər, illah ki, qvardiya ola, – deyə o, ucadan düşünüb daşınırdı. – General Şıxlinski də qayıtdı, qərargahın hökmünü xəbər verdi – nəyin bahasına olursa olsun, nemesin üstünə hücum etməliyik, hökmən də iyulun on beşində, müqəddəs Vladimir günündə...

Sən demə, Qrişka Rasputin[1] özü həmin günü təyin eləyibmiş... Onun da ki sözü qeybdəndir... Guya tanrıya dua oxuyub yatanda yuxusunda Kiyev knyazı Vladimir həzrətlərini görübmüş... Odur ki, yuxunu peyğəmbərlik kimi, günü də tanrının işarəsi kimi yozublar... Çar hökumətini kökündən baltalamaq gərəkdir, onda belə işlər baş verməz...

---

[1] Rasputin Qriqori Yefimoviç (1872-1916) – Tobolsk quberniyasında kəndli idi, "Xlıstlar" sektasına başçılıq edirdi. Tobolsk yepiskopu Varnava vasitəsilə saray əyanları sırasına daxil olmuş və "peyğəmbər loğman" kimi çarın adamlarına qeyri-məhdud təsirə malik olmuşdu. Çarın arvadı Aleksandra Fyoderovnanın mistik əhvali-ruhiyyəsinə və onun vasitəsilə II Nikolaya təsir göstərəcək dövlət işlərinin həllinə qarışırdı. "Rasputinçilik" saray mühitinin və çar Rusiyanın bütün idarə orqanlarının kəskin böhran vəziyyətinin parlaq ifadəsi idi. 1916-cı ilin dekabrında böyük knyaz Dmitri Pavloviç Romanov, V.M.Purişkeviç və knyaz F.F.Yusupov tərəfindən öldürülmüşdür.

Qriqori Rasputin qeyri-sağlam əməllərini uzaqdan-uzağa da olsa müşahidə edən general Əli ağa Şıxlinski onu "Xatirələrim" əsərində (1984-cü il, səh.170) yada salıb yazırdı: "1916-cı ilin dekabr ayında Petroqradda Rasputin öldürüldü. Bu hadisə bütün Rusiyanı hərəkətə gətirdi. Saray dairələrində himayə edilən bu fırıldaqçı və yaramaz dövlət işlərinə o dərəcədə nüfuz etməyə başlamışdı ki, hətta nazirləri təyin edirdi, işdən götürürdü" – ***Ş.N.***

...Müşavirədə topçular hər batareyanın atəş hədəflərini müəyyənləşdirdilər... Uzaqvuran topları cəbhənin ön xəttinə yaxınlaşdırmağı qət etdilər. Bu düşmənin arxa tərəfini atəşə tutmağa imkan yaratsa da, batareyaların özlərini belə almanların ağır-yüngül toplarının zərbəsi altında qoyacaqdı.

– Bizi hazırlayıcı top atəşini açar-açmaz vura bilərlər, toplarımız isə nadir dəyərlidir, – deyə həmin batareyaların komandirləri etiraz edirdilər.

General Şıxlinski istehza ilə:

– Onda nadir eksponatlarınızı muzeyə aparın, – dedi.

* * *

...Boreyko Mogilyov şəhərinə, general Əli ağa Şıxlinskinin görüşünə yollandı. Onun dediklərini dinləyən general hiddətləndi:

– Bunların işindən baş açmaq olmur! Elə bil almanlarla yox, öz rus soldatlarımızla vuruşuruq, yaxşıların yaxşısını tutub dama basırlar! Tam Georgi kavaleri Bloxinı! Əzazilliyə bax! Bəs... döyüşən-vuruşan kim olacaq? Bəlkə cənab jandarm polkovnikinin özü? Onda elə indidən məğlubiyyətə qol çəkmək olar!..

Otaqda əsəbi halda var-gəl edən general Boreykoya söylədi ki, əsgər Lepenyovun ölüm xəbəri uydurmadır, o, sağdır, Jitomir həbsxanasında ağzıbirdə saxlanılır.

– Bütün bunlar jandarm fitnə-fəsadıdır, – general əlinin hərəkətlərilə sanki sözlərinə qüvvət verirdi. – Rəsmən soldatın həlak olduğunu bəyan elədilər, indi də hər dəqiqə onunla haqq-hesabı çürüdə bilərlər. Öz özlərinin əl-qolunu açmışlar!

– Kimdən eşitmisiniz? – Boreyko həm təəccüblənir, həm də sevinirdi.

– Qərargahın baş prokurorundan. O, özü Berdiçevdə olmuş, Lepenyovu gözüylə görmüşdür... Yeri gəlmişkən, o fırıldaqçı Xatovla bağlı əhvalatı sizə çoxdan danışmaq istəyirdim. Bilirsinizmi, axır ki, onun izinə düşdüm. Daha doğrusu, onunla qaladan qaçan dəftərxana məmurunu axtarıb tapdılar. Nə olsa yaxşıdı – hər şeyi boynuna aldı. Siz haqlı çıxdınız: onlar qaladan nəhəng

məbləğ aparıbmış, əlbəttə, xəzinəyə təhvil vermək niyyətilə yox. Amma son anda Xatov nədənsə bütün pulları çırpışdırmaqdan çəkinib. Bic vələddüzna! Fikirləşib ki, yarısını təhvil verib yarısını da mənimsəmək daha yaxşı olar. Oğurluqda günahlandırmazlar, bəlkə hələ "hünərinə" görə bir orden də verərlər. Hesabını düz tutubmuş. O düşündüyü kimi oldu. İstədim açım sandığı, töküm pambığı. Qoydular ki! Küy qaldırdılar: "Nə danışırsınız! Zabiti rüsvay eləmək istəyirsinizmi?" Ört-basdır elədilər...

...Əli ağa Şıxlinskini dilə tutub Brusilovun qəbuluna getməyə vadar edən Boreyko yol boyu generala Bloxinin günahsız olduğundan, düzlüyündən, həm Port-Arturda, həm indiki müharibədə göstərdiyi hünərdən vəcdlə danışdı.

Brusilovun qəbulunda bir qədər gözləməli oldular. Yavər hansı məsələ üçün gəldiklərini soruşanda Şıxlinski sərt tərzlə Brusilova gəlişlərini çatdırmağı əmr etdi. Adyutant içəriyə keçdi, tezliklə Şıxlinski ilə Boreyko Brusilovun kabinetinə daxil oldular. Əli ağa mətləbi qısaca söylədi.

– Demək, bizim qanunpərəstlər yenə hoqqa çıxarıblar. – Aleksey Brusilov prokuroru və hərbi məhkəmə sədrini yanına çağırmağı əmr etdi.

Məhkəmə sədri başladı ittihamnaməni çözələməyə.

– Kəsə söyləyin, – general Brusilov hərbi hakimi tələsdirdi, sonra: – Demək, siz dörd Georgi xaçı olan, cəbhəçi zabitin dar ağacından asılmasına fərman vermisiniz? Mən sizi düzmü başa düşmüşəm?

– Məhkəmənin hökmü belədir, – hakim təsdiq etdi.

– Siz, prokuror, bu hökmə etiraz etmədinizmi?

– Xeyr! – deyə prokuror-polkovnik kəkələdi.

– Onda etirazı mən özüm edərəm! Hökmü təsdiqləmirəm. İşin əməlli-başlı araşdırılmasını lazım bilirəm. Cənablar, özünüz düşünün görün, adamın müqəssirliyini bircə həftəyə yəqinləşdirib ölümə məhkum etmək olarmı? Siz hətta onun komandirini dinləməyi rəva bilməmisiniz. O isə Bloxinə parlaq

xasiyyətnamə verir. Polkovnikə deyin ki, onu vəzifədən azad edirəm. Belə getsə o mənim ən yaxşı əsgərlərimi, zabitlərimi bir-bir asdırar! Mən sizi daha yubatmıram, cənablar!

Əli ağa Şıxlinski:

– Zati-aliləri, icazə verin, biz də gedək, – dedi.

– Xeyr, Əli ağa, sizi də, polkovnik Boreykonu da elə-belə buraxan deyiləm. Buyurun, qəlyanaltı edək.

* * *

...Üç gün sonra Petroqrada Boreyko və həbsdən azad edilən Zuyev gəlib çıxdılar. Mogilyovdan, Ali komandanın qərargahından Əli ağa Şıxlinski də onlarla idi. Çiyinlərində tam[1] artilleriya generalı poqonları parlayırdı. Əli ağa 10-cu ordunun komandanı vəzifəsinə təyin olunduğunu söylədi...

## *Əli ağa Şıxlinskinin xatirələrindən:*

***1914-1918-ci illər müharibəsi dövründə mən birinci dərəcəli Stanislav ordeni, qılıncla birinci dərəcəli Anna ordeni, qılıncla ikinci dərəcəli Vladimir ordeni (bu, gənc bir general üçün çox yüksək bir mükafat idi) təltif edilib, general-leytenant rütbəsini aldım.***

***Mənim üçün xidmət xoşbəxtliklə keçmişdir. Yaponiya müharibəsindən başlamış, ordudan getdiyim künə qədər mən heç bir müvəffəqiyyətsizliyə uğramadım. Mən rusların "gözəl doğulma, xoşbəxt doğul" qədim atalar sözünü dəfələrlə özümdə sınamı-***

[1] İnqilabdan əvvəl çar ordusunda cəmi dörd general rütbəsi olub. Ardıcıllıq belə idi: general-mayor, general-leytenant, general və general-feldmarşal. Zabit heyətində generalları tam general adlandırırdılar (indiki general-polkovnik rütbəsinə bərabərdir). Fərəhləndirici haldır ki, inqilabdan əvvəl xalqımızın üç oğlu tam general kimi yüksək rütbəyə layiq görülüblər. Onlar Hüseyn xan Naxçıvanski, Əliağa Şıxlinski və Səməd bəy Mehmandarovdur. Hərbi hissələrin növünə görə isə generalları *infanteriyadan, artilleriyadan, kavaleriyadan* kimi sözlər əlavə etməklə ayırırdılar – **Ş.N.**

*şam. Doğrudan da həm xidmət sahəsində, həm də şəxsi həyatımda xoşbəxtlik məndən heç bir vaxt uzaq olmamışdır. Mən heç bir vaxt mənsəb ardınca düşməmişəm, mənsəb özü mənim ardınca gəlmişdir. Hətta, demək olar ki, mənsəb özü mənə doğru yüyürmüşdür. Bunu isbat etmək üçün belə bir misal göstərə bilərəm.*

*Mən Ali baş komandan yanında tapşırıq generalı olduğum zaman Saray naziri qraf Frederiks mənə göndərdiyi rəsmi bir kağızda yazmışdı ki, əlahəzrət yanında xidmət edən bir şəxs olduğum üçün məiyyət generalları ilə bərabər mən də, əlahəzrətə raport vermək və ya poçta və teleqrafla məlumat vermək hüququna malikəm. Lakin bu böyük hüquqdan bir dəfə də olsun istifadə etməmişdim, çünki bütün binagüzarlıqları qərargah rəisi edir və padşaha yalnız cəbhədə olan işlərdən və öz binagüzarlıqları barəsində məlumat verirdi; şəxsən verəcəyim raport və məlumat ümumi işə heç bir xeyir vermədən, yalnız şəxsən mənim irəli çəkilməyimə səbəb ola bilərdi. Buna görə də qəsdən və qəti surətdə padşaha raport verməkdən boyun qaçırırdım.*

*Saray nazirinin mənə göndərmiş olduğu həmin kağızı dörd qat büküb gizlətmişdim. 1916-cı ildə oktyabr ayında cəbhədə olduğum zaman mən bu kağızı qəza rəisi olan qardaşım oğluna verdim. Bilirdim ki, o bununla fəxr edəcək. O mənim padşaha tez-tezmi raport verdiyimi soruşdu.*

*– Heç bir dəfə də raport verməmişəm, – deyə cavab verərək səbəbini izah etdim.*

*O, təəssüf etdi. Bununla belə o, həmin kağızı saxlayıb öz dostlarına göstərir və əmisinin bu qədər etibarlı bir adam olması ilə öyünərək deyirdi:*

*– Bütün ləyaqətlərinə baxmayaraq, mənim əmim çox qəribə adamdır. Təsəvvür edin ki, o bu hüquqdan bircə dəfə də olsun istifadə etməmişdir.*

*Bir misal da göstərəcəm. Qərargahın növbətçi generalı general Kondzerovski və onun sağ əli olan polkovnik Balaşov yaman qanun güdən idilər və rütbəvermə qaydalarına çox ciddi əməl edirdilər. İvan Balaşov mənim fəaliyyətimi çox faydalı görüb*

*məni təşviq etmək üçün təklif etmişdi ki, məni padşahın məiyyətinə daxil etsinlər.*

*Bu təklifdən xəbər tutan kimi xahiş etdim ki, məni bu fəxri işdən azad etsin, çünki məndən məiyyət generalı olmaz, mən müharibə meydanında iş görən sadə bir adamam, sarayda işim yoxdur.*

*Mən Balaşova dedim:*

*– İvan Stepanoviç, mənə olan diqqətinizə qarşı təşəkkür edirəm, ancaq öz planınızı həyata keçirməyin.*

*Mənim heç bir vaxt mənsəb dalınca düşmədiyimi, ən başlıcası, irəli getmək üçün heç kəsin ayağından çəkmədiyimi və heç bir intriqaya girmədiyimi anlamaq üçün bu iki misal kifayətdir. Buna görə də mən öz keçmişimə təmiz bir vicdanla və müasirlərimin üzünə tam cəsarətlə baxıram.*

**Müstəqil Azərbaycanın yaşaması üçün 1920-ci ilin dəhşətli mart günlərində mənfur daşnakların torpağımıza təcavüz etməsi Milli Azərbaycan ordusunun hər bir əsgərini təpədən dırnağacan silahlandırdı. Qısa bir müddətdə (martın 22-dən aprelin 3-nə kimi) xəyanətkar daşnak süvari dəstələrini darmadağın edən Azərbaycanın əsgər və zabitləri füsunkar Qarabağı düşməndən geri aldı. İlyarımlıq fəaliyyətində qəhrəman Azərbaycan ordusunun üçüncü yürüşü də zəfərlə başa çatdı.**

**"İyirminci ildə Qarabağ döyüşləri" sənədli povestində tam artilleriya generalları Səməd bəy Mehmandarovun, Əli ağa Şıxlinskinin, general-mayor Həbib bəy Səlimovun, Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov və polkovnik Bəhram bəy Nəbibəyovun unudulmaz xidmətləri yeni arxiv sənədləri əsasında möhtərəm oxuculara təqdim olunur.**

# İYİRMİNCİ İLDƏ QARABAĞ DÖYÜŞLƏRİ
## (Sənədli povest)

***1920-ci il martın iyirmi ikisində, Novruz bayramı gecəsi Qarabağ vilayətinin dağ yerlərində məskun ermənilər qiyam edərək "Əsgəran keçidi"ni tutdular. Bu səbəbdən də Əsgəran cəbhəsinə mirliva Həbib bəy Səlimovun komandanlığı ilə qüvvətli bir ordu yeridildi. Aprelin üçündə Azərbaycan ordusu ermənilərə qarşı qüvvətli bir hücum etdi. Əcəba, hansı azərbaycanlı o məsud günü xatırlamır?! Ordunun qalibiyyət və intizamı, mənəviyyatı təsvirolunmaz dərəcədə fövqəladə idi. Xarici aləm az bir müddət ərzində vəsaitsizlik içində bu qədər müntəzəm təşkilata malik bir əsgəri qüvvə vücuda gətirdiyimizə heyran qalmışdı. Əhalidən bir çoxu duyduğu həyəcandan ağlayırdı.***

***O gün Azərbaycanın ən şanlı, ən bəxtiyar günü idi.***

***Polkovnik İsrafil bəy İsrafilbəyov,***
***(25.01.1893 – iyul, 1945),***
***"Milli Azərbaycan hərəkatı" kitabından***

Hərbiyyə naziri Səməd bəy Mehmandarov Əsgəran cəbhəsinə gəlmişdi. Ön cəbhədə ölüm-dirim savaşında vuruşan əsgərləri təbrik edir, onların qələbəsinə uşaq kimi sevinirdi. Ordu yaranan gündən üç böyük qələbəsi olmuşdu.

1919-cu ilin ilk günlərində Zəngəzur erməniləri İrəvan daşnaklarının köməyi ilə qəzanı Azərbaycandan ayırıb Ararat respublikasına birləşdirmək üçün azərbaycanlıları qovur və kəndləri yandırırdılar. Üstəlik də elan eləmişdilər ki, Azərbaycan hökumətini tanımaq istəmirlər. Yanvar ayında general-mayor Cavad bəy Şıxlinskinin komandanlığı ilə Zəngəzura əsgəri qüvvə yeridildi. Onun komandanlığı ilə piyada diviziyası bir aydan çox

inadlı döyüşlər aparıb ermənilərin möhkəmləndirilmiş son sığınacağı olan Dığ kəndini də ələ keçirdilər. Zəngəzur qəzası yenidən Azərbaycan ərazisində qaldı.

İkinci qələbə həmin ilin iyul ayında olmuşdu. Muğanda və Lənkəranda Azərbaycan milli hakimiyyətini tanımaq istəməyən malakan və rus-erməni qüvvələri ordumuzun gücü ilə darmadağın edilmişdi.

Bu gün nazir Səməd bəy Mehmandarovun təbrikə gəldiyi üçüncü qələbə idi. 1920-ci il martın iyirmi ikisində Novruz bayramı gecəsi ermənilər qiyam edib Əsgəran keçidini zəbt etdilər. Qiyama İrəvandan gələn daşnak generalı Dro Kanyan başçılıq edirdi.

Azərbaycan Cümhuriyyətinin müdafiə nazirliyi Qarabağı düşməndən xilas etmək üçün fövqəladə tədbir hazırladı. Nazir Səməd bəy Mehmandarovun əmrilə Əsgəran cəbhəsinə qüvvə ayrıldı. Martın iyirmi üçündə Azərbaycan ordusunun əsas hissəsi – iyirmi minə qədər əsgər və zabiti cəbhəyə göndərildi. O cümlədən üçüncü Gəncə, beşinci Bakı, birinci Cavanşir, ikinci Quba polkları general-mayor Həbib bəy Səlimovun komandanlığı ilə Yuxarı Qarabağa yola düşdü. Qızğın döyüşlər on iki gün ara vermədi. Azərbaycanın cəsur əsgər və zabitləri ana torpağın hər qarışı uğrunda mərdliklə vuruşaraq Şuşa qalasına daxil oldular.

Sonuncu iki qələbə Milli ordumuzun ən cəsur generallarından biri Həbib bəy Səlimovun mahir komandanlığı ilə qazanılmışdı. Əslində altmış dörd yaşlı hərbiyyə nazirini həyəcana gətirən və Qarabağa təbrikə aparan da general Həbib bəyin aprelin səkkizində göndərdiyi raport idi. Cəmisi bir səhifəlik raportu dönə-dönə oxuyan nazir bir neçə yerdə işarələr qoydu, ürəyində "afərin" sözünü təkrar etdi. Səməd bəy istər general, istərsə də nazir olanda da özünü həmişə sıravi əsgər, döyüşçü sanırdı. Neçə-neçə müharibənin iştirakçısı kimi o yaxşı bilirdi ki, komandanın əsgərləri döyüş meydanında təbrik etməsi nə deməkdir. Ona görə də müavini Əli ağa Şıxlinskiyə:

– Əmr hazırlayın, əvəzində nazir vəzifəsində sən qalırsan, – dedi. – Mən sabah tezdən Qarabağa döyüşçüləri təbrik etməyə gedirəm. Ancaq, Əli ağa, bu raportda Həbib bəyin "günümüzün qəhrəmanı" – deyə təriflədiyi Nəbibəyovu nədənsə xatırlaya bilmirəm.

Azacıq eyhamla gülümsünən Əli ağa Şıxlinski:

– Yadınızdadırmı, – dedi, – keçən ilin iyun ayında Siz bir neçə gün Yevlaxda olanda yenə nazir əvəzi məni təyin etmişdiniz. Onda birinci Cavanşir piyada alayının kapitanı Vahid bəy Nəbibəyov raport yazıb hərbi xidmətdən azad olunmasını xahiş etmişdi. O, raportunda belə bir cümlə işlətmişdi: "Səhhətim və şərait mənə respublika hökumətinə xidmət etməyə imkan vermir". Mən də məhz bu cümlədən qəzəblənib Azərbaycan zabitinin ləyaqətini, şərəf və şanını yüksək tutmadığına görə yanıma çağırıb onu danladım, xidmətdən azad etməklə həbs edilməsi barədə əmr verdim. Bir neçə gündən sonra Siz qayıdıb onun qanının arasına girdiniz.

Səməd bəy Mehmandarov pensnesini silə-silə gülümsündü.

– Hə, yadıma düşdü. Əzizim, indi bildim: ağır təbiətli, uca boy…

– Bəli, sizin nəzərinizdə ağır təbiətli, mənim fikrimcə, tənbəl və bir az da yaşı ötmüş zabit-kapitan Vahid bəy Nəbibəyovdur. Həbib bəyin "günümüzün qəhrəmanı" dediyi isə onun kiçik qardaşı podpolkovnik Bəhram bəy Nəbibəyovdur. Bəhram bəy Dünya müharibəsində də yaxşı döyüş yolu keçib. Buyurun. Xidmət dəftərçəsini istəmisiniz, gətirmişəm. Tanış ola bilərsiniz.

– Verin baxım.

Nazir podpolkovnik Bəhram bəy Nəbibəyovun çox da böyük olmayan, cəmi səkkiz səhifəlik şəxsi xidmət dəftərçəsinin ilk səhifəsini açıb dayandı.

– Əliağa, – dedi, – unutmamış onu da deyim ki, kapitan Vahid bəy mənim yanıma gəldi, belə raport yazmaqda səhv etdiyini boynuna aldı. Hiss elədim ki, uzun müddət milis dəstəsində xidmət etdiyinə görə hərbi nizamnaməni o qədər də dərindən

bilmir. Bildirdi ki, işlətdiyi cümlədə heç bir qərəzli məqsədi olmayıb. Ona inandım. Mən də şəxsən sənin, general Şıxlinskinin nüfuzunun qorunmasına ehtiramla yanaşmaq şərtilə kapitan Nəbibəyovun raportunun üstünə "mən ona verdiyim cəzanı bağışlayıram" – cümləsini dərkənar qoydum. Məsuliyyəti öz üzərimə götürüb onu orduya yenidən qaytardım. Deyirsən podpolkovnik Bəhram bəy onun kiçik qardaşıdır, lap yaxşı.

– Səməd bəy, bu onun kimi astagəl zabitlərdən deyil. Bəhram bəy od parçasıdır. Nəbibəyovlardan bizim orduda dörd qardaş olmalıdır. Vahid bəy, Bəhram bəy, Zahid bəy, Hüseyn bəy... yox, beş nəfərdir, bir də Məmməd bəy.

Nazir:

– Əli ağa, nə yaxşı da yadında qalıb, əhsən sənə və yaddaşına, dostum.

– Bilirsən, 1918-ci ilin noyabr-dekabr aylarında Tiflisdə Müsəlman korpusunu təşkil edəndə Nəbibəyov qardaşlarını orduya mən qəbul eləmişdim. Onda qərargahım Veriyski körpüsünün yanındakı "London" mehmanxanasının birinci mərtəbəsində yerləşirdi. Düzü, ona görə yadımda qalıb ki, bunların çox maraqlı, dünyagörüşlü ataları var. Oğlanları ilə Qasım bəy özü də gəlmişdi. Türkmənistanda general Kuropatkinin qərargahında Şərq dilləri üzrə tərcüməçi olub. İndi istefadadır. Mirzə Fətəli Axundovla dostluğundan danışırdı.

– Demək, Bəhram bəy 1884-cü il dekabrın altısında Şəkidə bəy ailəsində anadan olub. Sonra Kutaisi realnı məktəbini və 1904-cü ildə, sentyabrın ikisində Peterburqdakı Konstantin Artilleriya məktəbini birinci dərəcəli diplomla bitirib. – Nazir dayanıb pensnesinin üstündən müavininə baxdı, fəxrlə: – Oho, nə yaxşı... bizim məktəbi bitirib ki, bir yuvadan pərvazlanmışıq… Görürsən, Əli ağa, Konstantin məktəbinin artilleristlərini?..

– Səməd bəy, əsgər komandirinə, zabit generalına oxşamalıdır. Komandir döyüşkəndirsə, əsgəri də ona oxşayar, zabit zəifdirsə, əsgəri də əfəldir. Zərbi məsələ dönmüş bu müdrik kəlamlar sizə məxsusdur. Amma xalqımızda belə bir məsəl də

var: alma kökündən gen düşməz. Mən inanıram ki, podpolkovnik Bəhram bəy sizin layiqli davamçınızdır.

– Demək istəyirsən ki, Bəhram bəy xidmətdə mənə oxşayıb? – deyən nazirin sevincdən gözləri parıldadı.

Əli ağa Şıxlinski ciddi general zəhmilə:

– Mən hələ 1918-ci ilin iyun-iyul aylarında onun Hövsan və Nobel çənləri ətrafındakı bolşevik-daşnaklara qarşı apardığı döyüşlərin şahidi olmuşam. Bəhram bəy çox qoçaq və bilikli zabitdir. Onunla fəxr etməyə dəyər. Dəli Qazar kimi generalı mühasirəyə salıb məhv etməsinə şəxsən mən şəkk-şübhə etmirəm. Belə qoçaq, hərbi işə böyük məhəbbəti olan zabitin yeri akademiyadır.

– Mən də bu fikirdəyəm. Ancaq hanı hərbi akademiya? Rusiyaya yollar bağlı, özümüzdə isə yox, ölkəmiz də müharibə vəziyyətində... – deyən nazir yenidən Bəhram bəyin sənədlərinə göz gəzdirdikcə baxışları canlanır, üzündə sevinc görünürdü: – Qafqaz Əlahiddə Ordusundakı iyirminci artilleriya briqadasında podporuçik, 1909-cu il, sentyabrın yeddisində poruçik, 1912-ci ildə üçüncü batareyanın komandiri. Sonra Əlahiddə Qafqaz ordusunda artilleriya rəisinin müavini vəzifəsində çalışıb. Müharibəni axıra qədər Qafqaz cəbhəsində keçirib.

– Təltiflərini axtarırsınız? O biri səhifənin arxasındadır, – deyə Əli ağa Şıxlinski şəhadət barmağını irəli uzadıb göstərdi.

– Aha, budur, – deyə Mehmandarovun iti nəzərləri kağızın üzərində gəzindi. – "Müqəddəs Stanislav" ordeninin üçüncü dərəcəsi və "Müqəddəs Anna" ordeni[1]. Amma sonuncunun dərəcəsi göstərilməyib. Eybi yoxdur, hər şey aydındır. Siz doğru buyurursunuz, Əli ağa. Belə peşəkar zabitlərimiz çoxdur. Onlar akademik hərbi təhsil ala bilsəydilər, ordumuzun gücü birə-beş artardı. Nə fayda, hələlik buna imkan yoxdur.

---

[1] Polkovnik Bəhram bəy Qasım bəy oğlu Nəbibəyovun 1916-cı ilə qədər "Hərbi-xidmət siyahısı"nın surətini 1999-cu ildə Rusiya Dövlət Hərbi Tarix Arxivindən nəvəsi Bəhram Aslan oğlu Sultanov gətirtdi. Bu xidmət üçün ona təşəkkürümüzü bildiririk – ***Ş.N.***

## Polkovnik Bəhram bəyin igidliyi

Raportun son cümlələri nazir Mehmandarovda xüsusi maraq oyatmışdı. General Həbib bəy Səlimov yazırdı ki, Zati-Aliniz tərəfindən yaradılan şanlı qoşunlarımız köhnə, döyüşlərdə bərkimiş hissələrə məxsus şücaətlə vuruşurdular.

Döyüşün qəhrəmanları bunlar idi: şığıyaraq Daşkənd yüksəkliyini ələ keçirən qubalılar və bir neçə erməni basqınına baxmayaraq bir an da sarsılmayan və üzərinə düşən hər mərmiyə görə dərhal cavab atəşi açan podpolkovnik Bəhram bəy Nəbibəyovun dördüncü dağ batareyası.

Yol boyu qələbənin havası ilə öz-özünə danışan, ilk baxışdan qaraqabaq nazirin ürəyi işıqlı arzularla dolu idi. Oğlu qədər sevdiyi, istedadlı komandir Həbib bəy Səlimovun uğurları ona elə bil qanad taxmışdı. Üstəlik də Həbib bəy kimi qoçaq generalın Nəbibəyovun haqqında göndərdiyi raport ona sonsuz sevinc bəxş eləmişdi.

İnişil (1918-ci il, dekabrın 5-də) yenicə təşkil olunan Azərbaycan ordusunun hissələrinə baxış keçirən hərbiyyə naziri Səməd bəy Mehmandarov Tərtərdə yerləşən Dağ batareyasının əsgər və zabitlərindən tam razı qalmışdı. Nazir səkkiz saylı əmrində qeyd edirdi ki, yoxlanış zamanı batareya komandiri Bəhram bəy Nəbibəyovun əsgərləri məndə xoş təəssürat yaratdı. Hiss olunur ki, batareya komandiri zabitlərlə birlikdə qüsurları aradan qaldırmağı bacarır. Komandir Nəbibəyovun qısa müddətdə etdikləri mənə qəti inam verir ki, ən yaxın vaxtda bu batareyanı daha yüksək səviyyədə görəcəyəm. Onun azsaylı zabitlərinə və komandir Nəbibəyova yorulmaz zəhmətlərinə görə təşəkkür edirəm.

"Deməli, Həbib bəyin raportundan belə məlum olur ki, daşnak Dəli Qazarın dəstəsini bizim Dəli Bəhram bəy Nəbibəyovun batareyası mühasirəyə salıb məhv edib. Yaxşıdır, çox yaxşıdır", – deyə öz-özünə danışan nazir podpolkoviklə generalın döyüş dostluğundan qürrələnirdi. – Qələbə, ancaq və ancaq döyüş vax-

tı əmr verənlə icraçının başa düşməsi sayəsində qazanılır. Nə yaxşı, Nəbibəyov haqqında inişilki raportu yazanda zəndim məni aldatmayıb… Elə biri Baş Qərargah rəisi onda, dolayısı da olsa, mənə işarə verdi ki, Bəhram bəy yaxşı komandirdir. Amma çox çılğındır, bəzi məsələlərdə özünü cilovlaya bilmir...

– Komandir cəld və çılğın olmasa, əvvəla, əsgərlər onu saymaz. İkincisi də, döyüş vaxtı özü zorla yeriyən komandirin əsgərləri yerindən qalxana kimi düşmən onları haqlayıb məhv edər, – cavabını vermişdi nazir Mehmandarov.

Mehmandarov Milli Orduda hərbiyyə naziri vəzifəsində xidmətdə olandan ilk dəfə idi ki, təzə mundirini geyinmişdi. Təmtəraqlı geyimin o qədər də aludəsi olmayan nazir bu dəfə akselbant və venzili[1] də taxmışdı. Yaxasında isə bircə orden vardı: Cahan savaşında hər sərkərdənin ala bilmədiyi "Ağ qartal" ordeni. O, 1915-ci ildə alman generalı Makenzenin sürətli döyüş əməliyyatı planlarını puça çıxartdığına görə bu ali ordenlə təltif olunmuşdu.

## Qəhrəman alay

Avtomobilin şeypuru təhlükə görmüş qaz kimi həyəcanlı gəlirdi. Qışlanın qabağında toplaşmış zabit və əsgərlər naziri tanıyıb "urra" deyə qışqırdılar.

Bəhram bəy irəli yeridi. Sərt səslə "sıraya düzülün" komandası verdi. Zabitlər qabaqda, əsgərlər də onlardan sonra nizami qıvraqlıqla sıraya düzüldülər. Bəhram bəy sıra qabağında vüqarla dayanıb ahəngdar səslə komanda verdi:

– Alay, sağa – dön! Düzlən, düzlən, deyirəm, arxada səs var…

Alay bir nəfər vücud kimi sağa dönüb farağat dayandı. Maşından üç nəfər düşdü. Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov, Qarabağ ərazi qoşunlarının komandanı general-mayor Həbib bəy Səlimov və hərbiyyə naziri, tam artilleriya ge-

[1] *Akselbant, venzel* – imperiya ordusunda zabitlərin çiyinlərinə və döşlərinə taxdıqları zərli, hörmə qaytan – ***Ş.N.***

neralı Səməd bəy Mehmandarov. Nazirin iti qartal baxışları nizami qaydada düzülən əsgərlərə zillənmişdi.

– Cənab hərbiyyə naziri, tam artilleriya generalı, Sizin gəlişiniz münasibətilə döyüşən ordunun üçüncü artilleriya batareyasının zabit və əsgər heyəti sıraya düzülmüşdür. Batareya komandiri, podpolkovnik Bəhram bəy Nəbibəyov.

Nazir Səməd bəy Mehmandarov gur və məğrur səslə:

– Azad, mənim Vətənimin qəhrəman əsgərləri, – deyib bir neçə addım irəli yeridi, Bəhram bəyin əlini sıxdı: – Mərhəba, alayına da, özünə də. Sizin döyüşdə göstərdiyiniz qeyri-adi qəhrəmanlıqlar artıq Azərbaycanın hər yerində iftixarla söylənir. Komandanınız general Həbib bəy Səlimov da buradadır. Əmr edirəm! Üçüncü artilleriya batareyasının hər bir əsgər və zabit heyəti döyüşdə göstərdiyi igidliyə görə təltif olunsun. Komandiriniz Bəhram bəyi isə təbrik edə bilərsiniz. O, daha podpolkovnik yox, polkovnikdir…

Batareya üç dəfə "urra, urra, urra" deyə komandirini alqışladı.

Nazir birdən sərt hərəkətlə yerində dikəlib, pəncələri üstə qalxdı.

– Mərhəba, yenə mərhəba, mənim Vətənimin xilaskarları!

Batareyanın əsgər və zabitlərindən dalğa-dalğa çıxan səs Qarabağ dağlarında əks-səda verdi. Onlar bir nəfər kimi avazla: "Azərbaycan xalqına xidmət edirik!" – cavabını verdilər. Hərbiyyə naziri sıra qarşısında var-gəl edib, tən ortada dayandı.

– Biz bu gün səhər Şuşada bir yığıncaq keçirdik. Mən orada da qoşunlarımızı təbrik etdim. Əvvəlcədən əmr vermişdim ki, sizin batareyanı oraya gətirməsinlər. Sonra Bakıdan çıxanda öz-özlüyümdə belə qərara gəldim ki, sizi öz yerinizdə, döyüş bölgənizdə təbrik edim. Siz buna layiqsiniz, bu hörmət və ehtiramı qəhrəmanlığınızla qazanmısınız. Bəli, Dəli Qazar kimi generalı məhv edib, süvarisini də pərən-pərən salan üçüncü Artilleriya batareyası Azərbaycan bayrağını ilk dəfə Qarabağda dalğalandırdı. Martın iyirmi ikisindən iyirmi üçünə keçən gecə saat üç radələrində düşmən ilk dəfə güclü qüvvə ilə burdan, Əsgərandan

baş qaldırıb. Bizim əlli nəfər əsgərimizin bir neçəsini məhv edib və əsir alıb. Siz də ilk dəfə düşmənin burnunu Əsgəranda ovub, öz silahdaşlarımızın qanını yerdə qoymadınız.

Qəhrəman əsgərlər! Mən şəxsən Almaniya cəbhəsində bir çox döyüşlərdə oldum. Fəqət, sizin qədər qəhrəman əsgərlərə nadir hallarda təsadüf etmişəm. Siz mənim ümidlərimi qüvvətləndirdiniz. Siz canınızla gənc Azərbaycan ordusunun namusunu layiqincə müdafiə etdiniz. Eşq olsun siz və sizə döşlərindən süd verən analara!

Əsgərlər sevimli komandanlarını "yaşasın Azərbaycan!" sözlərilə alqışladılar.

Ürəyini boşaldan nazir xeyli sakitləşdi. Yaşının çox olmasına baxmayaraq o, özünü rahat və gümrah hiss edirdi. Sıradakı əsgər və zabitlərə yaxınlaşır, həmsöhbət olur və hal-əhval tuturdu. Mehmandarov cavan, sir-sifətdən göyçək zabiti göstərib nəsə soruşdu. General Həbib bəyin işarəsilə həmin zabit addımlarla qabağa çıxıb dedi:

– Möhtərəm Səməd paşa, mən Qafqaz İslam ordusundan könüllü olaraq Sizdə yardımçı qaldım. Çünki dilimiz bir, inancımız bir, tariximiz də birdir. Azərbaycan həm sizin, həm də bizim vətəndir.

– İsminiz nədir? – nazir maraqla soruşdu.

– Əfv edin, günahkar bəndəyəm. Unutdum, daha doğrusu, şaşırdım. İsmim: yarbay İsmayıl Həqqi əfəndidir.

General Həbib bəy Səlimov nazirə bir az yaxınlaşıb əlavə etdi:

– Cənab nazir, yarbay əfəndi yaxşı şərqilər qoşur. Döyüşlərarası fasilədə əsgərlər üçün tarixdən, ədəbiyyatdan, fəlsəfədən maraqlı söhbətlər eləyir. Hər gün də yarım saat özü yazdığı marşları əzbərlədir.

Nazir səmimiyyətlə:

– Afərin, – dedi, – bu da gərəkdir. Çox gərəkdir. Yüzillik rus hakimiyyətindən azad olunmuş türk xalqlarına xatırlatmaq lazımdır ki, biz həmişə boyunduruq altında olmamışıq. Hətta, Avropa və Asiyaya öz tələblərimizi diktə etmişik... Xalq özünün

ümumdünya tarixinin səhifələrində yazılmış şanlı, mübariz keçmişini bilməlidir. Əgər düşmənə qalib gəlmək istəyirsənsə, xalqda sağlam milli hissləri oyatmalısan. Cənab yarbay, evlisinizmi?

– Xeyr, hələ subayam.

– Nə oldu, briqada komandanı Həbib bəy subay, diviziya komandiri Cavad bəy subay, batareya komandiri Bəhram bəy subay, siz də subay… Canım, atın bu subaylığın daşını...

İsmayıl Həqqi əfəndi:

– Möhtərəm paşam, – dedi, – məstəvsiz gavurların axırına çıxaq, sonrasına…

Nazir general Həbib bəydən soruşdu:

– Yarbay İsmayıl Həqqi əfəndi harada yaşayır. Bakıda?

– Xeyr, cənab nazir, Şəkini özünə vətən kimi qəbul edib. Bu da, bilirsiniz, kimə görədir? O, Bəhram bəyin çox yaxın dostudur.

– Çox əla, çox pakizə, – deyib nazir dübarə sorğu-suala başladı:

– Yarbay İsmayıl Həqqi əfəndi, cəlallı İstanbul üçün darıxmırsınız ki?

– Xeyr, mən öz Vətənim Azərbaycandayam. Mən Qeysər şəhərində dünyaya gəldim. İstanbulda az, lap az yaşamışam. Qafqazda çox yerlərdə oldum. Dərbənddə, Teymurxan-Şurada, Axtıda, hətta İmam Şamilin köyünə də getdim. Amma oralarda bənd almadım. Çünki oralarda İslama, müqəddəs dinimizə, hörmət görmədim, orda şişpapaq bolşeviklər yabançı təbliğatlar aparırlar. Ötən il dostum Bəhram bəy məni Şəkiyə qonaq apardı. Şəkini Vətən kimi, Bəhram bəyi qardaş qədər sevdim, yenə sevəcəm. Oradan ev də aldım.

Nazir soruşdu:

– Şarkılarından birini oxuyarmısan?

– Baş üstə, icazə verin... Mən oxuyan kimi bütün batareya mənə qoşulacaq.

*Biz əsgəriz – azəriyiz*
*Aləmdə ürfanlıyız.*
*Uca Qafqaz vətənimiz,*
*Qan axıdar məcfərimiz,*

*Pək şanlıyız!*
*Ata-ana əkbərimiz,*
*Allah, Allah rəhbərimiz,*
*Yaşa, yaşa sərdarımız,*
*Qan axıdar xəncərimiz*
*Pək şanlıyız!*
*Düşmənləri qəhr ediriz,*
*Ordusunu məhv ediriz,*
*Aslan kibi cəng edəriz,*
*Biz bir tabur aslanlarız.*
*Mərdanlarız!*

## Düşmən təslim olmayanda

Mehmandarovun gəlişinə yığışanlar çəkilib getdilər. Otaqda nazirdən başqa üç nəfər qalmışdı: qubernator Xosrov bəy Sultanov, general Həbib bəy Səlimov və polkovnik Bəhram bəy Nəbibəyov. Nazir qonaq üçün ayrılmış otağın bürkülü havasından darıxdı. Üzürxahlıq edib yan otağa keçdi. Bir azdan ev qiyafəsində qayıdıb:

– Qafqazda, hər yer gözəldir! – dedi. – Amma mənim Vətənim, dədə-baba torpağım Qarabağın füsunkar təbiətinin tayı-bərabəri yoxdur. Əlli ilə yaxın ondan cismən ayrılsam da, ruhən həmişə qarabağlı olmuşam. Uzaq Şərqdə, Port-Arturda və Varşavada olanda da həmişə onu xatırlayıb, istəmişəm. Dünyada heç nəyi – nə var-dövləti, nə cənnəti, nə də onun mələklərini istəməmişəm. Ən böyük arzum istefaya çıxıb ömrümün axırına kimi Şuşada yaşamaq olub. Atam rəhmətlik bu şəhəri övladı qədər sevərdi. – Üzünü qubernator Xosrov bəyə tutub: – Sənə qibtə eləyirəm, – dedi, – qardaşım! Bilirəm ki, bu namərd daşnakların öhdəsindən Qarabağ general-qubernatoru kimi bircə sən gələ bilirsən. Çünki sən, üzünə demək olmasın, hünər, əməl, iş adamısan. Nə isə, bu təhlükədən də sovuşduq…

Mehmandarov bu tərifləri Xosrov bəy haqqında nahaq yerə demirdi. Ötən ilin yayında Qarabağda hay-küy qaldıran daşnakları yenə Xosrov bəy diz çökdürmüş və onları silah gücünə Azərbaycan hökumətini tanımağa məcbur etmişdir. Hətta Şuşadakı gizli daşnak komitəsinin üzvlərini qovub ərazidən çıxartmışdı. Əllərindən bir iş gəlməyən daşnaklar bolşevik əhvali-ruhiyyəli müsəlmanların köməyilə səs yaymışdılar ki, hərbiyyə naziri Xosrov bəyi geri çağıracaq. Bu şayiələri kəsmək üçün Üzeyir bəy Hacıbəyli "Azərbaycan" qəzetində (24 iyun 1919-cu il) yazırdı:

"Həqiqətən, Xosrov bəy Qarabağ üçün ən münasib bir rəisdir. Qarabağ həyatına tamamilə aşna olan bu zat sağlam bir vücuda malik olan kimi, sağlam və salamat politika yeridən və təht idarəsinə tapşırılmış olan ümum mənafeyini xüsusi surətdə nəzərdə tutan bir zatdır. Ermənilər Qarabağda qəsdən süni iğtişaşlar çıxarmaqla Qarabağ general-qubernatorunu baş komandanlıq gözündə ləkələmək istəyirlər. Əgər Qarabağ müsəlmanları arasında böyük və layiqli bir nüfuza malik olan və erməni cəmaəti tərəfindən dəxi möhtərəm sayılan Xosrov bəy Qarabağın hökuməti başında olmasa idi, burası Azərbaycanın cənnəti hesab olunan bu yer çoxdan bəri cəhənnəmə dönüb qətli-qital ocağı olmuşdu".

Dəmir çarpayıda mütəkkəyə dirsəklənən nazir astadan yorğun-yorğun danışırdı. Onun səsindəki yaşlı adamlara məxsus kövrəklik həmsöhbətlərinin diqqətindən yayınmamışdı.

– Altmış dörd yaşım var, – deyirdi general, – xoşbəxtəm ki, ömrümün sonunda bir əsgər kimi vətənimə gərək oldum. – Sonra birdən nəyisə xatırlamış kimi oldu. – Balam, elə təkcə mən danışıram... Bəs siz? Mən Bakıdan sizi eşitməyə gəlmişəm. Bayaq Əsgərandan qayıdanda Həbib bəydən soruşdum ki, Dəli Qazar əməliyyatı necə olub, təfsilatı ilə bir danış görüm. O da cavab verdi ki, həmin əməliyyatı polkovnik Bəhram bəy aparıb, o da Sizə danışacaq. Hə, Bəhram bəy eşidirik səni.

Ayaq üstə dayanan Bəhram bəy gözləmədiyi sualdan qıpqırmızı oldu.

Nazir:

– Danış, – dedi, – burda çəkinməyin yeri deyil. Bu qələbənin, əgər belə demək mümkünsə, qəhrəmanı sənin batareyandır.

General Həbib bəy dostunun sıxıldığını görüb onun köməyinə gəldi:

– Daşbaşı yüksəkliyi uğrunda döyüşlərdə artilleriyanı susduran Bəhram bəy əvvəlcə məni hövsələdən çıxarmışdı. Yavərim tez-tez xatırladırdı ki, Bəhram bəy deyir tələsməsin. Dəli Qazarsa elə hey irəliləyirdi. Onu da deyim ki, Bəhram bəy batareyasını çox böyük məharətlə meşənin ətəyində gizlətmişdi. Sanki, düşmən qarşısında heç nə yox idi. Dəli Qazarın süvari dəstəsi də inamla irəliləyirdi. Bəhram bəy susur, düşmən irəliləyir, dözmək olmur, az qala, ürəyim partlayırdı. Nəhayət, dözməyib bunların mövqeyinə gəldim. Mənə işarə verdi ki, narahat olmayın. Kəşfiyyat xəbər gətirib ki, ermənilərin toplarının əksəriyyəti sıradan çıxıb, atmır. Biclik eləyib yararsız topları da özlərilə gətirirlər. Necə deyərlər, bizə "xox" gəlirlər. Təxminən səkkiz-on dəqiqə keçdi. Bax, indi vaxtdır, – deyib Bəhram bəy var səs ilə komanda verdi: "İrəli, mənim tərlanlarım, irəli anamız Azərbaycan uğurunda!"

Döyüşə bir qasırğa kimi başlayan batareya güllə yağışı altında düşmən üstünə şığıdı. Heç yarım saat çəkmədi erməni süvarisi yavaş-yavaş geri çəkilməyə məcbur oldu. Quba batalyonunun bir rotası və Zaqatala alayının xeyli hissəsi düşmənə yandan və arxadan göz açmağa imkan vermədi. Dəli Qazarın süvarilərindən otuz-otuz beş adam ancaq qaçıb canını qurtara bildi. Ortada beş-altı nəfərlə sağ qalmış Dəli Qazar yaralı heyvan kimi bağırırdı. Bəhram bəyin səsini eşidib daha da qəzəbləndi.

Nazir maraqlandı:

– Necə, danışırdılar. Yəqin ki, rusca?..

– Yox, əksər sözləri Bəhram bəy o itin öz dilində deyirdi. Düzü, çoxunu başa düşə bilmirdim. Bir onu gördüm ki, insanın tələyə düşməsi necə də böyük fəlakət imiş. Eşitmişdim ki, suda

boğulan saman çöpünə əl atar. Bax, elə bir vəziyyətdə idi erməni generalı.

Nazir cəld bir hərəkətlə başını qaldırıb:

– Axı, nə deyirdin, Bəhram bəy, sən ona?..

– Kutaisi realni məktəbində oxuyanda onların dilini öyrənmişdim. Əvvəla, mən ona təklif elədim ki, təslim olsun, uşaqlara da tapşırdım ki, hələ atmayın. Onu diri tutmaq istəyirəm. Gördüm ipə-sapa yatmır. Yalandan dedim ki, zavallı, sənin əsgərlərinlə əvvəlcədən danışıb, səni satın almışam. Səni özününkülər satıb. Təslim olmalısan…

General Həbib bəy Səlimov:

– Cənab nazir, eynilə bir teatr səhnəsi…

Nazir:

– Dayan, dayan, – dedi Həbib bəy, – qoy özü danışsın.

Bəhram bəy davam elədi:

– Dedim, təslim olmursansa, onda belə çıxır ki, müsəlman əsgərinin gülləsilə ölməyə özün özünü məhkum eləmisən.

– Gözəl demisən, əhsən sənə. Bax, görürsünüzmü peşəkar hərbiçi olmaq budur. Bu əclafın döyüş ruhu varmış. Qəsbkarlıq iştahı da varmış, amma döyüş qabiliyyəti yoxmuş. Yalançı general olduğunu dar macalda büruzə verib. Heç bir xidməti olmadan aldığı general rütbəsi onu iştahlandırıb ölümə gətirib. Belə adamdan yalnız döyüşçü kimi istifadə etmək olardı. Hə, maraqlıdır, sonra nə oldu?

Bəhram bəy:

– Dəli Qazar yalvarırdı ki, icazə verin çıxıb gedim. Dilcana, bir də Qarabağda görünsəm, atama lənət. Uşaq aldadır... Gəldim Həbib bəyin yanına. Soruşdum ki, nə etməliyəm, əsgərlərim də qanına susayıblar, öldürmək istəyirlər. O da yek kəlmə ilə cavab verdi: susdurun!

Biz də tapşırığa əməl elədik.

Səməd bəy Mehmandarov:

– Düz eləmisiniz, – dedi. – Düşmən təslim olmadıqda onu məhv edərlər.

## General Səməd bəy narahatdır…

Qapı astadan döyüldü. Səməd bəy "buyurun" deyənə kimi, qapıya yaxın olan polkovnik Bəhram bəy irəli yeridi. Qapıda mehriban üzlü, qıvraq geyimli bir gənc zabit "çay hazırdır, icazə verin gətirim" – deyib əli podnoslu içəri keçdi. Divara söykədilmiş çox da böyük olmayan stolu nazirin çarpayısına yaxınlaşdırdı. Səməd bəy mütəkkəni kənara qoyub, çarpayıda oturdu. Çay gətirən gənc zabit dərhal dabansız ev ayaqqabılarını cütləyib onun ayaqlarının yanına qoydu. Səməd bəy mehribanlıqla zirək zabitə baxıb üzərində "afərin" dedi. Üzü pörtmüş gənc zabit stəkanlara çay süzüb, stolun qırağındakı çaynikin üstünə qalın dəsmal sərdi. Ayaqlarını cütləyib, yaraşıqlı vücudunu şax tutdu. "İcazə verin, mürəxxəs olum". Nazir hələ də xoş təbəssümlə onun hərəkətlərini izləyirdi.

General Həbib bəy:

– Azadsan, – dedi, – amma uzaq getmə…

Gənc zabit çıxan kimi Səməd bəy onun davranışını, səliqəli geyimini və əsl zabit yaraşığını təriflədi.

– Bəzi rus şovinistləri təkidlə deyirlər ki, siz müsəlmanlardan hərbiçi olmaz. Buyursun baxsın, belə yaraşıqlı zabiti rus ordusunda çıraqla da axtarsan tapmazsan. İlyarımlıq fəaliyyəti dövründə ordumuzda qabiliyyətli zabit yetişibsə, rus ordusu kimi üç yüz il yaşı olsaydı, gör nələrə qadir olardıq. – O, dərindən köks ötürdü. – Qoyurlar ki, yağlı tikə olan Azərbaycana hərə bir caynaq atır. Denikin rədd olub getdi. İndi də bu bic bolşeviklər cənuba qoşun yeritmək həsrətilə minbir oyundan çıxırlar. Dağıstanda, Şimali Qafqazda kazaklarla dağlıların arasına təfriqə salıb toqquşdurdular. Bu bilirsiniz, "ayır-buyur" siyasətinin ən bariz nümunəsidir.

– Səməd bəy, Sizcə, Denikin yenidən Qafqazda peyda ola bilərmi? – qubernator Xosrov bəy Sultanov çəp gözlərlə[1] Səməd bəyə baxıb soruşdu.

[1] 1917-ci ildə Bakıda məşhur bir ağanın qoçusu ilə mübahisədən sonra bir-birinə güllə atıblar. Qoçu Xosrov bəy Sultanova sol gözündən xətər yetirib. Bundan sonra gözü çəp qalıb – ***Ş.N.***

– Yox, heç vaxt! Bolşeviklər artıq onun mahnısını oxudular... Denikinin işi bitdi. – Üzündə təbəssüm yox olan nazir Səməd bəy sonra nifrət hissiylə əlavə elədi: – Bolşeviklər elə toxumdur ki, onlar hara yerisələr, yüz il orda ot bitməz. Bu saat Volqa boyunda və Sibirdə vətəndaş müharibəsi aparan Kolçak cənablarını da belə bir tale gözləyir.

– Əsir aldığımız ermənilər deyirlər ki, sizə qarşı ağqvardiyaçı Denikinlə birləşmək istədik, baş tutmadı, – deyə polkovnik Bəhram bəy Nəbibəyov söhbətə qoşuldu. – Gec-tez bolşeviklərlə əlbir olub, Azərbaycan adlı müstəqil respublikaya divan tutacağıq. Keşişkənd uğrunda qanlı döyüşlər gedəndə ermənilərin çoxusu sərxoş idi. Podpolkovnik Rəfibəyovun və polkovnik Levestamın əsir götürdüyü ermənilər də bu barədə çox sayaqladılar.

Səməd bəy Mehmandarov:

– Bolşeviklər Bakıda yaşayıb işləyən rus fəhlələri və müsəlman bolşevikləri arasında güclü təbliğat aparıb. Azərbaycan milli hökumətinə və bu hökuməti istəyənlərdə nifrət hissi yaratmağa çalışırlar. Bu gün də içimizdən təmizləyə bilmədiyimiz agent və şpionların sayəsində. Bir həftə əvvəl Gəncədə agent Smıslovun təxribatçı qrupunu həbs etdik. Bu dəstədə kimlər vardı? Bakıda Baş Qərargahda çalışan – adını çəkmək istəmirəm – bir nəfərin zövcəsi Nelli Çernışova, Stanislav Zuber və başqaları – hamısı bizim əleyhimizə işləyib. Görünür, bizim əks-kəşfiyyat və daxili orqanlar zəif fəaliyyət göstərir, mürgüləyirlər… Mənim aldığım məlumata görə bolşeviklər Ermənistanda başqa cür təbliğat aparır. Onlar ermənilərə canıyananlıqla bildiriblər ki, siz nə Azərbaycansınız, nə də Gürcüstan. Siz İran, Türkiyə və Azərbaycan kimi müsəlman ölkələri arasında boğulursunuz. Biz sizə Türkiyə və Azərbaycandan torpaq qopartmaqla ərazinizi böyüdüb tam dövlət müstəqilliyinizə zəmanət veririk. Görürsünüzmü, bolşeviklər özlərinin ikiüzlü, xəbis siyasətlərilə Şimali Qafqazı və Dağıstan dağlılarını fəth edib, indi də murdar əllərini bizə – cənuba tərəf uzadırlar.

General Həbib bəy Səlimov ikrah hissi ilə:

– Rusların bu ikiüzlü siyasəti bizi təngə gətirib, – dedi. – Siz ötən həftə Gəncədə olanda, müavininiz general Əli ağa Şıxlinskiyə ermənilərin Qarabağdan qovub çıxartmaqla arxayınlaşmamaq barəsində bir məlumat göndərmişdim. Yəqin ki, Sizə çatdırıb. Şuşa və Xankəndi Cavanşir alayının, Quba alayının, bir də Tatar süvari alayının sayını artırmaq şərtilə, qvardiyanın da sayını çoxaltmalıyıq. Çünki, əsir alınan ermənilər desə də, deməsə də daşnaklar Qarabağ iştahı ilə yaşayırlar. Mənim zənnimcə, onlar mütləq bolşeviklərlə birləşib, məhz, Qarabağa hücum edəcəklər.

Yorğun və əsəbi Səməd bəy Mehmandarov:

– Məncə, – dedi, – hələlik Şəki və Ərəş alaylarını da burda saxlamalıyıq. Polkovnik Seyfulla Qacarın alayını isə Qazaxa göndərin. Ordan da həyəcanlı xəbərlər gəlir. Əmir xan Xoyskinin məlumatına görə sərhəd kəndi Kəmərliyə və Tatlıya ermənilər hücuma hazırlaşırlar.

Dostları gedəndən sonra Səməd bəy yata bilmədi. Yuxusu ərşə çəkilmiş nazir oturduğu yerdə xeyli fikrə getdi. Gərgin düşüncələr onu ağır məngənə kimi sıxırdı. Günorta üstü polkovnik Bəhram bəyin batareyasında olan şən əhvali-ruhiyyəsindən elə bil onu illər ayırmışdı. Dirsəyini mütəkkəyə söykədi, göz qapaqlarını yumdu ki, bəlkə yuxuya gedə, mümkün olmadı. Həyəcandan boynunun damarları, əlləri titrəyirdi. Durub pəncərənin qabağına gəldi. Aşağılarda, Ərimgəldi təpəsindəki evlərdə təkəm-seyrək işıqlar yanırdı. Uzaqdan qəfil güllə səsi eşidildi. İtlər dərhal ağız-ağıza verib hürüşdülər. Səməd bəy pəncərəyə yanaşı durub dədə-baba Mehmandarovlar mülkünə baxmaq istədi. Heç nə görə bilmədi. Birdən xatırladı ki, o tamam başqa səmtlərdir. "Sabah mütləq ora gedəcəm, – fikirləşdi. – Mütləq, yoxsa atam Sadıq bəyin, babam Qatırçı Muradın ruhu məndən inciyər. Ya qismət, bir də nə vaxt gələcəm, Şuşaya, Allah bilir…" Fikir-xəyal ona aman vermirdi. "İllah ki, bolşeviklərin Azərbaycana soxulmaq iddiası. Dünyanın işinə bax ki, Bakıda yaşayan rus fəhlələri özlərini şəhərin mütləq sahibi kimi aparırlar. Onla-

rın hamısına malçişka Əliheydər dil verir. Cəfər Babayev kimisini Qusara göndərib alayda bolşevik təbliğatı apartdırır. Kimin fitvası ilə? – Mikoyan kimi daşnakın. Niyə bolşeviklər bu millətə sərbəst, müstəqil yaşamağı günah hesab edir? Qayıdan kimi belələrini həbs elətdirib, ciddi rejim altında saxlamaq barədə sərəncam verməliyəm. Yoxsa… Əliheydər kimi bolşeviklər rus fəhlələrini öyrətməklə, özümüzün bəzi nadanlarımızı da başdan çıxarır. Bu da fitilə od vurmaq kimi bir şeydir. Mübarizə aparmalıyıq. Kim gəlir gəlsin, qabağına silahla çıxmalıyıq. Döyüşməliyik, vəssəlam!"

Orta boylu, ağ saçlı, ağ saqqallı, səsində və sifətində hərbiçi zəhmi olan altmış dörd yaşlı general Səməd bəy Mehmandarov gecənin dan qaranlığında xalqının taleyini fikirləşməkdən yumağa dönmüşdü. Qəzəb və hiddət hissi onu boğurdu.

İki addımlıqdakı Köçərli məhəlləsində xoruzlar səs-səsə verdi. Bikef nazir gözucu stolun üstündəki zəncirli saatına baxdı. Gözlərinə inanmadı, pensnesini taxıb təəccüblə dodaqlarını bir-birinə sıxdı. Saat dördə on dəqiqə qalırdı. Canı ağrıyan, narahat Səməd bəy çarpayısına tərəf getdi…

## GENERALA ALİM QAYĞISI

***Əli ağa Şıxlinski taktika sahəsində dərin nəzəri, əməli bilikli sayca çox olmayan artilleristlərdən biri olub. O, hərb elmini təcrübədə tətbiq etmək sahəsində nadir bir istedada malik idi. Əli ağanın qəhrəmanlığı öz vətəninin şərəf və azadlığını müdafiə edən hər bir şəxs üçün nümunə olmalıdır.***

***Hərb elmləri doktoru,***
***professor, general-mayor,***
***Dövlət mükafatı laureatı***
***Yevgeni Barsukov***

***Əli ağada general təkəbbüründən əsər-əlamət yox idi. General Şıxlinski hərbi akademiyanı bitirməsə də, fitri zəkası, praktik fəhmi artilleriya elmində ona böyük nüfuz qazandırmışdı. General Əli ağa Şıxlinski hünərvərliyi dillərdə dastan olmuşdu.***

***Aleksandr Stepanovun***
***"Zvonaryovlar ailəsi" romanından***

Şöhrətli sərkərdəmiz Əli ağa Hacı İsmayıl ağa oğlu Şıxlinskidən danışanda filosof-alim Heydər Hüseynovun xidmətlərini unutmaq haqsızlıq olardı. Generalın "Xatirələrim" kitabının yazılmasında ən müstəsna rolu olan ilkin şəxs Azərbaycan Elmlər Akademiyasının akademiki Heydər Hüseynovdur.

Bu "Xatirələr" Azərbaycan tarixində yeganə və ilk hərbi memuardır. Düzdür, yetmiş-səksəninci illərdə bəzi veteranlar Böyük Vətən müharibəsi haqqında xatirələrini qələmə aldılar. Lakin heç biri general Əli ağa Şıxlinskinin əsərinin səviyyəsinə çat-

madı. İstər faktların zənginliyi, istər mövzu baxımından, istərsə də yazı dilinin şirinliyinə görə əsər özünə geniş oxucu marağı qazandırmışdır. Yalnız mərhum polkovnik Baxış Mehdiyevin 223-cü Azərbaycan atıcı diviziyası haqqında yazdığı "Xatirələrim" kitabını haradasa general Əli ağa Şıxlinskinin hərbi memuarı ilə yanaşı qoymaq olar.

1944-cü ildə akademik Heydər Hüseynov general Əli ağa Şıxlinskinin xatirələrini iki dildə – rus və Azərbaycan dillərində 7500 nüsxə tirajla nəşr etdirdi. Təəssüf ki, amansız ölüm görkəmli generalımıza xatirələrini kitab şəklində görməyə imkan vermədi. Kitab generalın ölümündən doqquz ay sonra – 1944-cü ilin may ayında nəşr olundu. Bu qiymətli kitaba hərb elminin böyük alimi professor, general-mayor Yevgeni Barsukov çox dəyərli ön söz yazmışdır. Əlbəttə, bu da akademik Heydər Hüseynovun xidmətidir. Maraqlı burasıdır ki, general Əli ağa Şıxlinskinin şəxsiyyəti və döyüş qəhrəmanlığı ilə fəxr edən Heydər Hüseynov general Barsukovun həmin məqaləsini (1 ç.v. həcmində) yenə iki dildə ayrıca kitabça şəklində "Əli ağa Şıxlinski" adı ilə nəşr etdirmişdir. Bundan başqa alim Heydər Hüseynov həmin illərdə Rusiyanın görkəmli sərkərdələrinə, vaxtı ilə Əli ağa Şıxlinski ilə birgə çalışıb işləyənlərin xatirələrini istəmişdir.

Məhz Heydər Hüseynovun təşəbbüsü ilə 1945-ci ildə (№3) Moskvada çıxan "İstoriçeski jurnal"ın üçüncü nömrəsində professor Arkadi Lavroviç Sidorovun generalın kitabı haqqında "Ə.Şıxlinski. Mənim xatirələrim" adlı elmi məqaləsi dərc olunmuşdur.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin professoru A.L.Sidorov bu qiymətli kitabın hərbiçilər və tarixçi alimlər üçün ən yaxşı məxəz olmasından bəhs edərək yazır: "General Əli ağa Şıxlinskinin xatirələri inqilabdan sonra da öz əlaqəsini Vətəndən və ordudan kəsməyən şəxslər tərəfindən yazılmış qiymətli tarixi sənədlərdən biridir. Buna görə də Şıxlinskinin xatirələri, ordunun tarixini öyrənmək üçün xüsusi bir məxəz kimi qiymətlidir.

Rusiya-Yaponiya müharibəsi haqqındakı fəslin tarixçilər üçün əhəmiyyəti daha böyükdür. Məşhur artilleriyaçı Əli ağa Şıxlinskinin adı artilleriya elmində həmişə hörmətlə çəkilib və gələcək illərdə də çəkiləcəkdir".

Məhz bundan sonra generalın xatirələri İttifaq miqyasında daha çox şöhrət qazanmışdır. Baş Artilleriya marşalı Nikolay Yakovlev, general-polkovnik Mixail Parseqov, Birinci Dünya müharibəsi illərində general Şıxlinskinin tabeliyində hərbi xidmətdə olan ordu generalı Pavel Lebedev və başqaları bu qiymətli kitabdan bir nüsxə onlar üçün göndərməyi Heydər Hüseynovdan xahiş etmişlər.

1945-ci il aprelin 20-də professor general-mayor Yevgeni Barsukov akademik Heydər Hüseynova göndərdiyi məktubunda yazırdı: "Sizdən artıq dərəcədə xahiş edirəm general Əli ağa Şıxlinskinin "Xatirələrim"dən heç olmasa iki nüsxə də əlavə göndərəsiniz. Mənim xahişimi rədd etməyin. Baş Qərargahda yoldaşlar məndən çox-çox rica edirlər, çünki biz artilleristlərə, ilk növbədə artilleriyamızın şanlı tarixini öyrənmək üçün general Əli ağa Şıxlinskinin kitabı əvəzsiz vəsaitdir".

1945-ci il aprelin iyirmi altısında isə artilleriya general polkovniki Mixail Parseqov SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının direktoruna yazırdı: "Hörmətli direktor, bu gün SSRİ EA Tarix İnstitutunun nəşri olan "İstoriçeskiy jurnal"ın üçüncü nömrəsini "Tənqid və biblioqrafiya" bölməsində Moskva Dövlət Universitetinin professoru Arkadi Sidorovun "Əli ağa Şıxlinski. Mənim xatirələrim" resenziyasını oxudum. Giriş sözü Dövlət mükafatı laureatı, hərb elmləri doktoru Y.Z.Barsukovundur.

Məlum olduğu kimi, Əli ağa Şıxlinski qocaman artilleriya (topçu) generalıdır, onun böyük mübariz həyat təcrübəsi var. İlk dəfə mən bu general barədə iyirmi il bundan əvvəl eşitmişəm, o vaxt mən hələ Qızıl Ordu artilleriyasının təkmilləşmə kursunda dinləyici idim.

Artıq dərəcədə Sizdən təvəqqe edirəm, xahişimi rədd etməyib mənə general Əli ağa Şıxlinskinin "Mənim xatirələrim" əsərinin bir nüsxəsini göndərəsiniz. Çünki biz artilleristlərə ilk növbədə

artilleriyamızın tarixini bilmək üçün hər bir hərbiçinin stolüstü kitabıdır".

Generalın döyüş yolunu, şəxsiyyətini, ədəbi-bədii yaradıcılığını, ən başlıcası onu tarixi şəxsiyyət kimi qiymətləndirən ***alim Heydər Hüseynov yazırdı: "General Əli ağa Şıxlinski ilə yaxından tanış olanlar, onun maraqlı söhbətlərinə qulaq asanlar bilirlər ki, bu təvazökar və səmimi insan nə qədər ağıllı və ibrətli bir şəxs idi"***.

## MİLLİ HƏRBİ LÜĞƏTİMİZİN BANİSİ

***"Əli ağa Şıxlinski üçbucağı" təkcə rus artilleriyasında deyil, Fransa, İsveçrə, Norveç və Avstriya artilleriyasında da böyük şöhrət qazanmışdır.***

***Prof. V.Bertels,***
***1912-ci il, Varşava***

Fitri istedada malik olan tam artilleriya generalı Əli ağa Şıxlinski bütün varlığı ilə sevdiyi Azərbaycan xalqına ömrünün sonunadək sədaqətlə xidmət etmişdir. Hərbi fəaliyyətində araşdırmalar aparıldıqda onun bir çox sahələrdə ilkin şəxs olduğunun şahidi oluruq. Yalnız general kimi vəzifəsini bitmiş hesab etməyən bu məşhur sərkərdə həm də hərb elminin görkəmli alimi idi. Hələ ötən əsrin əvvəllərində hərbi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilən "Şıxlinski üçbucağı"ndan təkcə Rusiyada deyil, Fransa, Avstriya, Norveç, İsveçrə və başqa ölkələrin artilleriya məktəblərində də dərslik kimi istifadə olunmuşdur.

Əli ağa Şıxlinski "Üçbucağı"nda artilleriya tarixində ilk dəfə topların gözlə görünməyən hədəfə atəş açmaq texnikasını işləyib hazırlamış və topların təkmilləşdirilməsi işinə bir sıra dəyərli yeniliklər gətirmişdir. Hərb elminin mütəxəssisləri bu gün də etiraf edirlər ki, general Şıxlinski qeyri-adi fəaliyyəti ilə fərqlənmiş

nadir hərbi mütəxəssislərdəndir. O, yeganə azərbaycanlıdır ki, ilk dəfə Fransanın generallara məxsus fəxri "Legion ordeni" və zabitlərə verilən "Legion xaçı" ilə təltif edilmişdir. Əli ağa Şıxlinski generallar arasında ən yaxşı hərb alimi, alimlər arasında ən məşhur artilleriya generalı idi.

Arxiv sənədlərindən məlum olur ki, general Əli ağa Şıxlinski 1939-cu ildən sonra alim Heydər Hüseynovla müntəzəm elmi yaradıcılıq əlaqəsi saxlamışdır. Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivindən aşkar etdiyimiz 1940-cı il 15 iyul tarixli məktub da general tərəfindən alimə ünvanlanmışdır. İriölçülü kağızlarda yazılmış iyirmi səhifəlik məktub-müraciətində general Əli ağa Şıxlinski alimə 852 sözün izahını və düzəlişlərini yazıb göndərmişdir. Məktubdan məlum olur ki, general bu ağır zəhməti 1939-cu ildə Heydər Hüseynovun redaktorluğu ilə nəşr olunmuş "Rusca-azərbaycanca lüğət"i mütaliə etdikdən sonra çəkmişdir. General "Qeydlər"inin müqəddiməsində yazır: "Redaksiyanın çağırışına əməl edərək, lüğətdə mənim rast gəldiyim səhvlər haqqında bəzi mülahizələrimi təqdim edirəm.

Ümumiyyətlə, lüğət çox gözəldir. Hər bir sözü ayrılıqda deyil, bütün cümlənin ümumi mənasını tərcümə etmək üçün tərcüməçilərə kömək edəcək frazeologiya xüsusilə yaxşıdır".

Ümumi müddəalarında isə Əli ağa Şıxlinski belə qərara gəlir ki, lüğətin əsas çatışmayan cəhəti onun qısa olmasıdır: "Lüğətdə çox yerdə əsas sözlər buraxılmış, ancaq onların törəmə sözləri verilmişdir.

Bizim dilimizi ona yad olan söz düzəltmələrindən təmizləmək lazımdır. Əgər başqa dillərə məxsus sözlərdən istifadə etmək ehtiyacı varsa, onda törəmə sözlər bizim dilimizin qanunlarına uyğun olmalıdır. Bu, hər şeydən əvvəl, isimlərdən sifət əmələ gəlmə hallarına aiddir. Məsələn: a v t o m a t yazmaq olar və yazmaq da lazımdır. Ancaq a v t o m a t i k – olmaz, artıqdır. *Hərb* sözü dilimizə çoxdan qəbul edilmişdir, onu saxlamaq, *hərbi* sözünü isə atmaq lazımdır. Azərbaycan xalq dilinin xəzinəsindən rus və Avropa sözlərinin qarşılığı kimi işlətmək də məqsədəuyğundur.

Məsələn: a x ı n t ı (*cərəyan*), s a x l a n c (*ehtiyat*), d ö v r ç a ğ d ö n ü m ü (*dövr*), d ü z g ü (*quruluş*), b i l g i (*nəzəriyyə*) və s.".

Təvazökar general məktubunun sonunda yazır: "Əgər Siz təqdim olunmuş materialın heç olmasa kiçik bir hissəsindən istifadə edə bilərsinizsə, onda mən özümü çox xoşbəxt sanaram. Sevinərəm ki, mən də öz balımın kiçik bir damlasını Sizin gözəl arı pətəyinizə əlavə etmişəm".

General Əli ağa Şıxlinskinin bu iradlarını məmnuniyyətlə qəbul edən alim Heydər Hüseynov cavab məktubunda yazır ki, lüğətin gələcək nəşrində Sizin elmi zəhmətinizdən mütləq istifadə olunacaq. Alim bunun üçün generala sətir haqqı da göndərmişdi.

Akademik Əliheydər Orucov "Əli ağa Şıxlinskinin bir əlyazması haqqında" adlı məqaləsində haqlı olaraq belə qənaətə gəlir ki, generalın alim Heydər Hüseynova göndərdiyi "Qeydlər"i lüğətçilik, xüsusən də termin yaradıcılığı baxımından çox faydalıdır. İndiyə qədər hərbi mütəxəssis kimi tanınan Əli ağa Şıxlinskinin dil, lüğətçilik, terminologiya məsələlərilə maraqlanması faktının özü səciyyəvi haldır. (Bax: "Terminologiya məsələləri", Bakı, 1987, səh.12) General Əli ağa Şıxlinski lüğətçiliklə 1940-cı ildənmi məşğul olmağa başlamışdır? Xeyr!

Onun şəxsi arxivində mühafizə olunan "Zabitin dəftəri"ndəki qeydlərindən məlum olur ki, o, hələ gənc zabit ikən hərb elmi ilə, dilçilik və hərbi lüğətlə, terminologiya ilə maraqlanmış və bu sahədə gərgin axtarışlar aparmışdır. Uzun illər – 1879-cu ildən 1917-ci ilədək həyatının çox hissəsini Azərbaycandan uzaqlarda, yüksək hərbi dairələrdə, özgə məmləkətdə və başqa dil mühitində yaşamasına baxmayaraq general milli varlığını, doğma dilini qoruyub saxlaya bilmişdir. Orada Azərbaycan dilində mətbuatın və nəşriyyatın olmaması üzündən "Rusca-türkcə qısa hərbi lüğəti"ni 1926-cı ildə Bakıda üç əlifbada – rus, ərəb və latın əlifbası ilə nəşr etdirə bilmişdir. Bununla da ilk dəfə Azərbaycanda hərbi lüğətin yaradıcısı olmuşdur. Məhz bu əvəzsiz xidmətinə görə general Əli ağa Şıxlinski SSRİ Hərbi İnqilab Şurasının 1928-ci

il 23 fevral tarixli qərarı ilə Fəxri Fərmanla təltif olunmuşdur. Şıxlinskinin lüğəti hərbi nizamnamələrin, hərbi elmi ədəbiyyatın Azərbaycan dilinə tərcümə olunmasında böyük əhəmiyyət kəsb etmişdir. Eyni zamanda hərbi məktəblərdə, yenicə yaranmış orduda xidmət edən azərbaycanlı əsgər və zabitlər bu lüğətdən qiymətli vəsait kimi istifadə etmişlər.

Həmin kitabın elmi terminoloji əhəmiyyətini maraqlı faktlarla araşdıran filologiya elmləri namizədi A.Hacıyeva yazır: "General Əli ağa Şıxlinskinin lüğəti geniş dil materialının dərin təhlilinin nəticəsi idi.

Azərbaycan dilinin lüğət tərkibini geniş əhatə etməsi, xalq dilinə məxsus söz və ifadələrdən yerli-yerində səmərəli istifadə olunması, bir çox unudulmuş və azişlənən sözlərə yenidən termin kimi həyat vəsiqəsi verilməsi baxımından Ə.Şıxlinskinin lüğəti o dövrdə nəşr edilən lüğətlərin hamısından fərqlənir. Azərbaycan dilində hərbi terminologiyanın olmaması bu işdə böyük çətinlik törədirdi. Əli ağa Şıxlinskinin zəngin lüğətinin nəşri ilə həmin çətinlik, demək olar ki, aradan qaldırıldı".

General Şıxlinskinin lüğətinin misilsiz elmi əhəmiyyətindən danışan görkəmli filosof-alim Heydər Hüseynov yazır:

"Kitabın əvvəlində general Əli ağa Şıxlinski lüğət tərtib edərkən yeddi əsas qəbul etdiyini göstərir: 1) Yad sözlərin yerinə bacardıqca, türk-Azərbaycan sözləri qoyulubdur. 2) El arasında işlənən türkləşmiş ərəb və fars sözləri buraxılmayıbdır: bu dürlü sözlər, onlar elə bir mənalı türk sözlərinin yanında dırnaqlar arasında yazılıbdır; Məsələn: ç a ğ (*vaxt, zaman*). 3) Türkcəyə qarışmış bəzi ərəb sözləri türkcə deyilişinə uyğun yazılıbdır. Məsələn: q a l a (*qələ* yerinə), s a h a t (*saət* yerinə). 4) Kökləri ərəbcədən olan sözlərin deyilişləri türkcəyə uyğunlaşdırılıbdır; məsələn: v ə q t l ə r, t ə b i b l ə r, v ə z i f ə l i (*ovqat, ətibba, müəzzəf* yerinə) və sairə".

Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Əliheydər Orucovun "Ə.Şıxlinskinin bir əlyazması haqqında" məqaləsindən: "Yaşının ötməsinə, səhhətinin pozulmasına

baxmayaraq general Əli ağa Şıxlinski həyatının son günlərinə qədər dilimizin vəziyyəti, terminologiya, orfoqrafiya, lüğətçilik məsələləri ilə maraqlanırdı. Onu tez-tez Lüğətlər İnstitutunda, həmin institutun direktoru Heydər Hüseynovun yanında görmək olardı. Heydər Hüseynov Əli ağa Şıxlinskiyə dərin hörmət və həssas münasibət bəslərdi. Onun 1940-cı ildə akademik Heydər Hüseynova 49 səhifədən ibarət göndərdiyi "Qeydlər"dən göründüyü kimi, ana dili ilə bərabər, klassik ədəbiyyatımızı, xüsusən folklorumuzu çox gözəl bilirmiş. Əli ağa Şıxlinski indi ədəbi dildə işlənməyən, buna görə də müasir lüğətlərə düşməmiş, amma bəzi dialekt və şivələrimizdə işlənməkdə davam edən sözləri yada salmaqla onların yazılı dilə (lüğətlərə) keçirilməsini məqsədəuyğun hesab edir. Bu baxımdan onun özünün yeni söz və formalar yaratmaq təşəbbüsü təqdirəlayiqdir. Bugünkü şəraitdə daha böyük əhəmiyyət qazanmış bu məsələ, görünür, hələ o zaman general Əli ağa Şıxlinskini düşündürmüş və fürsətdən istifadə edərək, yazdığı "Qeydlər" vasitəsi ilə fikrini lüğətçilərin nəzərinə çatdırmışdır".

O vaxtdan illər keçdi. General Əli ağa Şıxlinskinin ilk vəsait olan hərbi lüğəti bir daha işıq üzü görmədi. Totalitar sovet rejimi azərbaycanlı generalın elmindən bəhrələnməyi öz millətinə yasaq etdi. Az tirajla nəşr olunmuş bu kitabın nadir nüsxələri qalıb. Bu gün zaman, dövr dəyişib. Yeni yaranan ordumuz üçün həmin lüğətin təkrar nəşri, şübhəsiz ki, çox vacibdir.

Alim Heydər Hüseynov general Şıxlinskinin ölümündən sonra da onun xidmətlərinin unutmamış, xatirəsini əziz saxlamışdır. O, respublika mərkəzi mətbuatında generalın ömür və döyüş yolundan bəhs edən rus və Azərbaycan dillərində silsilə məqalələr dərc etdirmişdir: "Bakinski raboçi" (18 avqust 1944-cü il), "Kommunist" qəzeti (18 mart 1944-cü il), "Azərbaycan EA Xəbərləri" (№8, 1945-ci il, səh.87-94), "Kommunist" qəzeti (18 avqust 1945-ci il), "Ədəbiyyat qəzeti" (5 avqust 1945-ci il), "Azərbaycan" (Cənubi Azərbaycan Demokrat firqəsinin orqanı, 1946-cı il, №8,

səh.14-15), "Kommunist" qəzeti (18 avqust 1946-cı il), "İzv. Az. FAN" (1944-cü il, №9, səh.78-83).

Görkəmli ədəbiyyatşünas-alim Məmməd Arif 1965-ci ildə "Heydər Hüseynov" adlı məqaləsində yazır: "Çap olunan şey qalacaqdır" – sözlərini təkrar edən Heydər Hüseynov nəşriyyat işinə xüsusi əhəmiyyət verirdi. O, yeni çıxan kitabı əlinə götürüb iftixarla deyərdi: "Tərcümədə respublikalar arasında biz qabaqda gedirik. Bax, bu Üzeyir bəy Hacıbəyovun "Azərbaycan musiqisinin əsasları" əsəridir; xalq musiqisi haqqında misilsiz kitabdır. Bəs general Əli ağa Şıxlinskinin xatirələrini oxumusunuzmu?.. Oxuyun görün, orda nələr var, şöhrətli bir insanın döyüş və ömür yolu başdan-başa tarixdir".

Bütün bunları tədqiq edən, nəşri üçün ürəkdən sevinən, generalın elmi fəaliyyəti ilə iftixar edən alim Heydər Hüseynov yazırdı: "Əli ağa Şıxlinski dünyada şöhrət qazanmış artilleriya elmi sahəsindəki kəşfləri və fəaliyyəti ilə yanaşı olaraq, dil və ədəbiyyat məsələləri ilə də yaxından məşğul olurdu. O, uzun illər Rusiyada qulluq etsə də Azərbaycan dilini mükəmməl bilirdi. İslah, ifadə quruluşu, yeni söz yaradıcılığı ilə ciddi məşğul olmuşdur".

Çoxları indiyədək bilmir ki, general həm də güclü poeziya həvəskarı idi. Onun özünün yazdığı bir sıra şeirləri, bədii tərcümələri və məktubları alim Heydər Hüseynovun şəxsi fondunda saxlanılır. Generalın 1904-cü ildən qeydlər apardığı "Zabitin dəftəri" də alimin fondunda saxlanılır. General iftixarla yazır ki, mən klassik şairlərimiz Molla Vəli Vidadinin, Mustafa ağa Arif Şıxlinskinin və Mirzə Məhəmməd Qayıbzadənin nəslinə məxsusam. Anam Şahyəmən xanım Molla Vəli Vidadinin qız nəvəsidir.

Alim Heydər Hüseynov 1945-ci il aprelin 20-də general Şıxlinskinin qayını doktor Bahadır bəy Qayıbovun tibbi-ictimai fəaliyyətinin 40 illiyi münasibəti ilə təbrik məktubunda yazırdı: "Mən burada Sizin Vətən və elm qarşısındakı daha böyük xidmətinizi qeyd etmək istəyirəm. Siz və Sizin həyat yoldaşınız

məşhur hərbi xadim və alim, keçmiş ordunun generalı, Azərbaycan xalqının sadiq oğlu Əli ağa Şıxlinskinin həyatının son illərini qayğı və diqqətlə əhatə etmiş və bəzəmisiniz".

Doktor Bahadır bəy Qayıbov isə 1946-cı il 30 sentyabr tarixli məktubunda yazırdı:

"***Hörmətli Heydər Nəcəfoğlu!***

Əlbəttə, Sizin unudulmaz Əli ağa və Nigar bacı haqqında yazılarınız həmişə çox uğurlu alınır. Bəli, onları unutmaq olmaz! Onların hər ikisi öz vətəni Azərbaycanı və xalqını səmimiqəlbdən sevirdilər. Onlar yalnız təhsil aldığı rus dilini deyil, öz doğma ana dillərini də əla bilirdilər.

Heç vaxt unutmaram ki, onların hər ikisinə şəxsən ana dilində təhsil verən, həmçinin Tiflisdə və Qoridə Müəllimlər Seminariyasında yüzlərcə azərbaycanlı uşağını oxudan rəhmətlik atam Mirzə Hüseyn əfəndi Qayıbzadə səbəbkardır. Rəhmətlik Nigar bacım atamdan daha çox şey əxz etmişdir; o, yetkinliyində, nəinki İran klassikləri Sədi, Firdovsi, Hafiz, Cami, türk Məhəmməd Fizuli, Molla Pənah Vaqif və başqalarını oxumuş, həmçinin klassik şairlərimiz Xaqani, Nizami, Əlişir Nəvaini mütaliə etmiş, ərəb dilini öyrənmiş və ərəb ədəbiyyatı ilə də yaxından tanış idi.

Heyf ki, Siz onunla tanış deyildiniz. O, həqiqətən rus dili bir yana, Azərbaycan və fars ədəbiyyatının bilicisi idi.

***Hörmətlə Sizin dostunuz:***
***Bahadır bəy Qayıbov***"

* * *

## Solmayan şöhrət və əbədi məhəbbət

1943-cü il avqustun 18-də indiki Musa Nağıyev adına xəstəxanada kardiosklerozdan vəfat edən general Əli ağa Şıxlinskinin dəfn mərasimini filosof-alim Heydər Hüseynovun özü təşkil etdi. Generalla heç bir qohumluğu olmayan alimin Ə.Şıx-

linski şəxsiyyətinə, onun sərkərdəlik fəaliyyətinə, xüsusilə, lüğətçilik sahəsindəki elmi-publisistik yaradıcılığına böyük rəğbəti vardı.

Dəfn mərasimini Bakı Hərbi Qarnizonundan çağırılmış alay orkestrlə müşayiət etdi. Qəbri üstündə topdan və avtomatlardan yaylım atəşi atıldı. "Artilleriyanın allahı"nı görkəmli sərkərdələrə məxsus hərbi qaydada torpağa tapşırdılar. Heydər Hüseynovun özü, generalın yetirmələri və qohumları son vida nitqi söylədilər.

Tam artilleriya generalı Əli ağa Hacı İsmayıl ağa oğlu Şıxlinskinin adı və hərbi quruculuq tariximizdəki misilsiz xidmətləri bu gün də unudulmamışdır. İndi Bakıda, Gəncədə, İmişli və Qazax rayonlarında abad küçələr onun adını daşıyır. Respublika Nazirlər Sovetinin 1990-cı il 28 iyul tarixli qərarı ilə Sabirabad rayonundakı altı saylı pambıqçılıq kolxozuna və Bakının yeddinci mikrorayonundakı 135 saylı orta məktəbə general Əli ağa Şıxlinskinin adı verilmişdir. Vaxtilə yaşadığı Cəfər Cabbarlı küçəsindəki binaya xatirə-barelyefi vurulmuşdur.

1990-cı il iyulun 23-də isə Respublika Prezidentinin fərmanı ilə ali məktəb tələbələri üçün xüsusi "general Əli ağa Şıxlinski" təqaüdü təsis edildi.

Qazax Xeyriyyə Cəmiyyəti cəbhə bölgəsində və orduda fəallıq göstərən əsgər və zabitlər üçün "General Əli ağa Şıxlinski mükafatı" təsis edib. Hər il general Əli ağa Şıxlinskinin doğum və vəfatı günü qeyd olunur. Fəaliyyəti və şəxsiyyəti haqqında kitablar və çoxlu məqalələr yazılır, xatirə günü keçirilir.

Vətənin, doğma Azərbaycanın şərəf və azadlığı yolunda igid bir sərkərdə kimi danılmaz xidmətləri olan tam artilleriya generalı Əli ağa Şıxlinski doğma xalqının ehtiramına tam mənada layiq şəxsiyyətdir.

# YADLARIN ETİRAFI

***General Əli ağa Şıxlinskinin adı daima böyük nüfuza və rəğbətə malik olmuşdur. O, təkcə rus topçularına deyil, Avstriya və Fransa ordusunun geniş dairələrində də çox yaxşı tanınmışdı və son dərəcə məşhurlaşmışdı.***

***General-mayor,***
***hərb elmləri doktoru, professor***
***Yevgeni Barsukov***

İllər keçəcək, zaman, dövr dəyişəcək, amma məşhur sərkərdəmiz Əli ağa Şıxlinskinin hərbi-elmi fəaliyyətinə, sərkərdəlik bacarığına münasibət dəyişməyəcək… yeni gələn nəsil onun hərbi biliyindən bəhrələnəcək, döyüş yolu ilə fəxr edəcək.

Vaxtilə Əli ağa Şıxlinskinin müasiri olan minlərlə rus generalı nizami orduda xidmət edir və müxtəlif hərbi-elmi mərkəzlərdə çalışırdı. Hər birinin də özünə görə bacarığı və xidməti vardı. Amma heç bir rus və ya qeyri millətdən olan oğula "artilleriyanın allahı" kimi fəxri ad almaq qismət olmadı. Bu şöhrət çələngi ancaq bizim eloğlumuzun – Əli ağa Şıxlinskinin çiyinlərinə qondu. Nizami ordu generalı Əli ağa Şıxlinski hərb elminin alimi kimi qeyri-adi bacarığa malik şəxsiyyət idi. 1912-ci ildə "Şıxlinski üçbucağı" Varşavada nəşr olunanda eloğlumuzun şöhrəti Avstriya, Fransa, Norveç və başqa ölkələrin sərhədlərini aşdı. Həmin ili Artilleriya Zabitləri məktəbinə birinci müavin təyin edilən Şıxlinskiyə dünyanın adlı-sanlı topçuları təbrik teleqramı göndərdilər. Fransa Topçu Zabitləri Məktəbinin rəisi, general-mayor Nolle iftixarla yazırdı:

***"Rus topçu məktəbinin ikinci şefi (məktəb müdirinin müavini ikinci rəhbər hesab olunurdu – Ş.N.) təyin edilməyinizi eşitdim. Sizin simanızda rus artilleriyasını təbrik edirəm".***

Rusiya Baş Qərargah Akademiyasının professoru, general-mayor A.A.Neznamov isə yazırdı:

"***Sizi və rus artilleriyasını təbrik edirəm***".

Yalnız bir şəxsin timsalında bütöv bir ölkənin artilleriya heyətini təbrik etmək… əlbəttə, o şəxsin – Əli ağa Şıxlinskinin böyüklüyündən, dahiliyindən başqa bir şey deyildi. Üstəlik də yad məmləkətdə, xristian dünyasında tək bir Türk-Azərbaycan oğlu Əli ağa Şıxlinskinin danılmaz, parlaq qələbəsi idi.

Bu günlərimizdə isə tarixin olduğu kimi yazıldığı bir vaxtda rus tarixçisi B.Semyannikov ulu babamız Şıxlinskinin doxsan il əvvəlki parlaq qələbəsini etiraf etmişdir. Onun "Rusiya generalı, Azərbaycan oğlu" məqaləsinin "Voennıe znaniya" jurnalında (1995-ci il, noyabr) dərc olunması oxucuda təəccüb hissi doğurmamalıdır. Əksinə, iftixar və sevincə səbəb olmalıdır.

B.Semyannikovun məqaləsi Əli ağa Şıxlinskinin hərbi fəaliyyətinin 1917-ci ilə qədərki dövrünü qısaca əhatə edir. Bu da təbii haldır. Əlbəttə, rus tarixçisi eloğlumuzun Milli Azərbaycan ordusunun yaradılması kimi misilsiz fəaliyyətindən bixəbərdir. Üstəlik də general Əli ağa Şıxlinski ömrünün sonuna kimi (1943) milli Azərbaycan diviziyalarının təşkilində, Azərbaycanda ilk dəfə "Hərbi bilik" jurnalının, Hərbi-Elmi Cəmiyyətin, hərbi lüğətin, hərbi nizamnamələrin yazılması və tərcüməsində əvəzsiz əmək sərf etmişdir.

Bütün bunların tədqiq olunması bu gün Azərbaycan hərb tarixçilərinin vəzifə borcudur.

Rus tarixçisi B.Semyannikovun yığcam yazılmış oxunaqlı məqaləsində hər şey olduğu kimi tədqiq olunmuşdur. Hətta bizə məlum olmayan bir neçə fakt yenilik oldu: 1912-ci ildə Peterburqda "Artilleriya Zabitləri Məktəbinin jurnalı"nın ilk dəfə Əli ağa Şıxlinskinin təşəbbüsü ilə buraxılması, 1917-ci il aprelin 2-də Əli ağa Şıxlinskinin general-leytenant rütbəsi alması və s. faktlar Azərbaycan oxucusu üçün yenilikdir.

Yalnız bir fakt da rus tarixçisi B.Semyannikov səhvə yol vermişdir. O da Əli ağa Şıxlinskinin təvəllüd tarixinin 1866-cı il kimi göstərilməsidir. Bu, əlbəttə, o qədər də qeyri-adi səhv deyil.

Zənnimizcə, tarixçi B.Semyannikovun məqaləsində gedən təvəllüd yanlışlığı olsa-olsa mətbəə səhvi ola bilər. Şübhəsiz ki, bu fakt tarixçi B.Semyannikovun məqaləsinin istər elmi, istərsə də publisistik dəyərini azaltmır. Azərbaycan hərb tarixi üçün qiymətli odur ki, bizim xalqın görkəmli oğlunun xidmətini yadlar da etiraf edirlər.

* * *

Ümumiyyətlə götürdükdə, general Əli ağa Şıxlinskinin təvəllüd tarixi yalnız bir mənbədə səhv göstərilib. Generalın vəfatından bir il sonra 1944-cü ildə nəşr olunmuş "Xatirələrim" kitabında onun təvəllüd tarixi 23 aprel 1863-cü il göstərilib. Üzdə olan bu səhv faktla hamı Əli ağa Şıxlinskinin ad və xatirə gününü qeyd edir. Amma arxivlərdə saxlanan rəsmi sənədlər bunu inkar edir.

Unutmamalıyıq ki, generalın "Xatirələrim" kitabı ölümündən doqquz ay sonra nəşr olunub. İndi generalın şəxsi əşyaları arasında saxlanan 1943-cü ilin iyun və avqust ayına məxsus sənədlərdə kiminsə tərəfindən edilən saxtakarlıqlar aydınca görünür.

Generalın təvəllüdündə yalnız 23 aprel doğum günü olduğu kimi saxlanılıb. Anadan olma ili isə qara mürəkkəblə düzəldilib. 1865-ci il 1863-cü illə əvəz olunmuşdur.

Bəs general Əli ağa Şıxlinskiyə məxsus sənədlərdə bu saxtakarlığı kim eləmişdir? Mərkəzi Dövlət Tarix Muzeyində saxlanan sənədlərdə generalın qaynı Bahadır Qayıbovun arvadı, milliyyətcə erməni olan Varvara Minayevanın elədiyi məlum olur. Tamamilə generala məxsus olmayan xətlə Əli ağa Şıxlinskinin adından Varvara özünə vərəsəlik yazıb. Həmin saxta sənədləri Oktyabr rayon Hərbi Komissarlığının dördüncü şöbə rəisi Tumanyan və Bakı şəhər dördüncü milis şöbəsinin "məsul şəxsi Kerimaryuk" imzalayıb təsdiq etmiş və çox pis oxunan möhür vurmuşlar.

Şübhəsiz ki, generalın ölümündən sonra da vərəsə kimi Varvara Minayeva fərdi təqaüd (ayda 500 manat) almaq üçün belə bir saxtakarlığa əl atmışdır.

General Əli ağa Şıxlinskiyə məxsus sənədlərdən məlum olur ki, həmin günlərdə o, Semaşko adına xəstəxanada son günlərini yaşayırdı.

Erməni Varvara Minayevanın saxtakarlığını sübut etmək üçün Sankt-Peterburq, Moskva və Çarskoye-Seloda saxlanan rəsmi arxiv sənədlərinə müraciət edək.

Sankt-Peterburqdakı Artilleriya Muzeyinin Arxivində saxlanan sənəddə general Əli ağa Şıxlinski öz dəsti-xətti ilə "1865-ci il aprelin 23-də anadan olmuşam" sözlərini yazıb.

1914-cü ildə Çarskoye-Selo şəhərində özünün qol çəkib təsdiq etdiyi "Hərbi xidmət kitabçası"nda oxuyuruq: "1865-ci il aprelin 23-də Yelizavetpol quberniyası, Qazax qəzasının Qazaxlı kəndində ağalıq nəslində anadan olmuşam".

Həmin sənədin on birinci səhifəsində isə yazır: "1909-cu il oktyabrın 27-də, 44 yaşında Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbovun qızı – dul qadın Nigar xanım Palovandova ilə qanuni evlənmişəm. Uşaqlarımız yoxdur. Hər ikimiz İslam dininə etiqad edirik".

Generalın 1944-cü ildə çıxan "Xatirələrim" kitabında isə saxta düzəliş edilərək "46 yaşında" yazılıb.

Bu sətirlərin müəllifi 1984-cü ildə Sankt-Peterburqda və Çarskoye-Seloda yaradıcılıq ezamiyyətində olarkən general Əli ağa Şıxlinskiyə məxsus "Hərbi xidmət kitabçası"nın kserosurətini çıxardıb gətirmişdir. Həmin qiymətli sənəd şəxsi arxivimdə saxlanılır.

Onu da xatırladım ki, həmin sənədin bir surəti də Rusiya Mərkəzi Dövlət Hərbi Tarix Arxivində mühafizə olunur. (*Bax:* F.H/k, iş 109, vərəq 1.)

***1920-ci il Bakıda 28 aprel çevrilişinin səhəri bolşevik çekistləri həbs etdikləri hərbiyyə naziri Səməd bəy Mehmandarova və müavini Əli ağa Şıxlinskiyə belə bir sualla müraciət etmişlər:***

***– Hansı partiyanın və ya inqilabın mənafeyini müdafiə edirsiniz?***

***General Səməd bəy Mehmandarovun cavabı: "Bütün ömrüm boyu mən, hər cür siyasətdən uzaq olmuşam".***

***General Əli ağa Şıxlinskinin cavabı: "Hər bir inqilaba əks-inqilab kimi yanaşıram, heç vaxt belə şeylərə qoşulmamışam, qoşulmazdım da…".***

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivində saxlanan həmin dindirilmə sənədində:

– Neçə yaşınız var? Harada yaşayırsınız? – sualına general Əli ağa Şıxlinski belə cavab vermişdir:

– Əlli beş yaşım var. 1865-ci ildə anadan olmuşam. Nikolayev küçəsində (indiki İstiqlal küçəsi – ***Ş.N.***) beş saylı evin üçüncü mənzilində yaşayıram.

Rus hərb tarixçisi K.A.Zalesskinin 2003-cü ildə "Birinci Dünya müharibəsində kim kim olub" irihəcmli (893 səh.) ensiklopedik əsəri Moskvada nəşr olunub. Həmin kitabın 675 və 676-cı səhifələrində general Əli ağa Şıxlinski haqqında geniş məlumat verilir. Orada da generalın doğum təvəllüdü 23 aprel 1865-ci il göstərilir.

## Azərbaycan oğlu, Rusiya generalı

Rus ordusunun görkəmli artilleriyaçılarından biri Əli ağa İsmayıl ağa oğlu Şıxlinski 1865-ci ildə Yelizavetpol quberniyası, Qazax qəzasının Qazaxlı kəndində qədim nəsildən olan ailədə anadan olmuşdur. Gələcək artilleriyaçının atası İsmayıl ağa cəsur döyüşçü kimi tanınırdı və ailə ənənəsinə görə, oğul da həyatını hərbi xidmətə həsr etməli idi.

Oğlan 1876-cı ilin avqustunda Tiflis hərbi gimnaziyasının birinci sinfinə daxil olmuş, oranı – artıq kadet korpusuna çevrilmiş gimnaziyanı 1883-cü ildə birinci şagird kimi bitirmişdi. Sonra öz təhsilini Sankt-Peterburqda, Mixaylovski Artilleriya Məktəbində davam etdirmişdi. O, orda da nəinki bacarıqlı şagird kimi, həm də əla süvari və gimnast kimi müvəffəqiyyət qazanmışdı. Yunkerin müvəffəqiyyətləri diqqətdən kənarda qalmamış, təhsilin

başlamasından 7 ay sonra o, unter-zabit olmuş, 1885-ci il oktyabrın 13-də isə portupey-yunkerliyə layiq görülmüşdü. Gələcək alimin müəllimləri məşhur artilleriyaçılar N.L.Kirpiçev, N.V.Maiyevski, A.V.Qadolin idi. Əli ağa onlardan bütün yaxşı cəhətləri mənimsəmişdi. Çılğın gənc həmçinin kütləvi mühazirələr və məruzələrdə iştirak etmiş, digər hərbi məktəblərin kurslarını dinləmişdi.

1886-cı il avqustun 11-də Əli ağa Şıxlinski məktəbi podporuçik rütbəsi almaqla birinci dərəcə ilə bitirdi. Xidmətinin birinci ilindəcə öz ilk pedaqoji təcrübəsini qazandı: artilleriya briqadasının tədris komandasının müəllimi, sonra isə briqada komandasının rəisi oldu. O, özünü parlaq artilleriya bilicisi, yaxşı təşkilatçı, bacarıqlı müəllim və tərbiyəçi kimi göstərmişdi. 1900-cü ildə kapitan Şıxlinski Şərqi Sibirə dəyişdirilməsi xahişi ilə müraciət etdi. Onu Əlahiddə Zabaykalye artilleriya divizionunun batareya baş zabiti vəzifəsinə təyin etdilər, bundan başqa, Artilleriya Toplantısı Komitəsinin sədri kimi, o, dəfələrlə batareya və divizion komandirlərinin səlahiyyətlərini icra etmişdi.

1904-cü il mayın əvvəllərində batareya yaponlara qarşı yürüşə çıxdı. Rusiya-Yaponiya müharibəsində Şıxlinski Port-Artur müdafiəsinin qəhrəmanı kimi məşhurlaşdı. Qalanın müdafiəsinin ən mühüm sahələrində olan Şıxlinski yaponların hücumlarının qarşısının alınmasında yarımbatareyanın atəşi ilə düşmənə böyük zərbə vuraraq fəal iştirak etmişdi. Tanınmış hərbi tarixçi, general-mayor İ.Krupçenko sonralar yazırdı: “Yapon hücumlarının dəf edilməsində rus artilleriyaçıları böyük rol oynayırdılar. Onlar cəsarətlə topları qabağa çəkərək dəqiq nişangahla birbaşa karteçlə yaponlara böyük zərbə yetirirdilər”. Şıxlinski onların arasında idi. O, döyüşlərdə örtülü və açıq mövqelərdən artilleriya atəşi aparır, qorxmadan topları düz nişangahla atmaq üçün qabağa çəkirdi. Qəhrəmanlığına görə onu “Müqəddəs Georgi Pobedonosets” ordeni təqdim etdilər. Sonralar Şıxlinski yazırdı: “Mən həmişə Port-Artur epopeyasının iştirakçısı olduğumu fəxrlə xatırlayıram”. Yeri gəlmişkən, əgər Siz A.N.Stepanovun

məşhur "Port-Artur" romanını oxumuşsunuzsa, onda yəqin ki, əsərin səhifələrində şöhrətli rus artilleriyaçısı ilə rastlaşmısınız".

Əli ağa 1906-cı ildə artıq podpolkovnik kimi, Artilleriya Zabitləri Məktəbinə (indiki Mərkəzi Artilleriya Zabitləri kursları) oxumağa getməyə nail oldu və oranı fərqlənmə ilə qurtardı. İlk əvvəl onu artilleriya briqadasına ezam etdilər, lakin tezliklə məktəbə qayıtdı. Müəllimlər əsasən, Artilleriya Akademiyasının təcrübəli və istedadlı, bir ildən az olmayaraq batareyalara ezam edilmiş məzunlarından seçilirdi. Şıxlinski isə hələ təcrübəsi və müvafiq akademik təhsili olmadan bütün müəllimlərdən ən bilikli̇si hesab olunmuşdu. Biliklərə yorulmaz yanğı, fasiləsiz özünətəhsil və hərbi təcrübə – ona kömək edən bunlar idi.

Artilleriya zabitləri məktəbində Şıxlinski özünü qabaqcıl ideyaları təcrübədə tətbiq edən yenilikçi zabit kimi göstərirdi. Xidmətdə fərqləndiyinə görə, ona vaxtından əvvəl polkovnik rütbəsi verildi. O, 1912-ci ildə aeroplanların tətbiqi təcrübələrinin (hərbi aviasiyanın inkişafına təkan verən çox maraqlı təcrübələrin) işlənməsi üzrə komissiyanın üzvü, bir ildən sonra isə məktəb rəisinin köməkçisi (müavin – ***Ş.N.***) oldu. Tezliklə, "Artilleriya Zabitləri Məktəbinin xəbərləri" jurnalı çıxmağa başladı. Jurnalın səhifələrində generalın özü də çıxış edirdi.

1913-cü ildə məktəb Şıxlinskinin təklifi ilə bəndlənmiş aerostatdan atəşin, müşahidə və hədəfin kəşfiyyatı üzrə təcrübələrə, həmçinin, aerostata və təyyarələrə atəşin əsas müddəalarının işlənib hazırlanmasına başladı. Bu məsələ üzərində Əli ağa artıq çoxdan işləyirdi. Hələ 1911-ci ildə, məktəbdə hava hədəfinə atəşin qaydaları məsələsi müzakirə olunarkən, alim hesabı (baxmayaraq ki, həmin dövrdə təyyarələr yalnız saatda 60 verst uçurdular) saatda 180 verstlə uçacaq təyyarələr üzrə aparmağı təklif etmişdi. Artıq o vaxt Şıxlinski aviasiya və hava hücumundan müdafiənin perspektivini düzgün başa düşmüşdü.

Alim quru qoşunları artilleriyasının inkişafı üçün də çox işlər görmüşdür: O, alaylara artilleriya hissələrinin daxil edilməsinə nail oldu. Doğrudur, bu yalnız 1924-cü ildə Qızıl Orduda həyata

keçirildi və özünü tamamilə doğrultdu. Artilleriya atəşi təcrübəsinə daxil edilən mühüm yenilik "Şıxlinski üçbucağı" adlanan hədəf göstərməsinin rasional üsulu oldu. Bu üsul ilkin olaraq batareyaları elə tuşlayır ki, seçilmiş oriyentirdən yayınan, istənilən nöqtədə görünən hədəflər asanlıqla, müəyyən düzəlişlərin köməyi ilə ilkin tuşlama əsasında artilleriyanın atəşinin altına düşə bilər. Bu, batareyanı vaxtında hədəfə tuşlamaq imkanı verirdi.

Birinci Dünya müharibəsinin əvvəllərində Şıxlinski gəmilərdən alman desantçılarının çıxarılması ehtimalına qarşı Petroqrad artilleriyasının rəisi təyin edildi. O, şəxsən müdafiə xətti üzrə bütün cəbhəni gəzmiş, batareya qurğularının yerini və atəş mövqelərinin qurulması qaydasını müəyyənləşdirmişdir. O, aeroplanlardan müdafiəyə böyük diqqət yetirmişdir. Onun təşəbbüsü ilə Petroqradın ətrafında general Rozenberqin sistemi əsasında xüsusi platformalarda 1900-cü il nümunəli, 3 düymlü tezatan top qurğuları ilə təyyarə əleyhinə müdafiə təşkil edildi.

Tezliklə Şıxlinskinin Şimal-Qərb cəbhəsinin artilleriya müfəttişi vəzifəsinə keçirdilər. Orada general tapşırıqların yerinə yetirilməsində artilleriya qruplarına şəxsən rəhbərlik etmiş, geniş miqyasda artilleriya hazırlığı həyata keçirilmişdir. Öz nəzəri işləmələrini döyüşün aparılması təcrübəsilə əlaqələndirərək yaradıcılıqla istifadə edir, hərb elmini yeni töhfələrlə zənginləşdirirdi. O, tezliklə çəpərləmə (maneə) atəşi aparılması üçün təlimat işləyib hazırladı.

1917-ci il aprelin 2-də Ə.Şıxlinski general-leytenant oldu. O, sentyabrda Ümumqoşun 10-cu ordusuna komandanlıq etdi ki, bu da onun hərbi istedada malik olmasının bir daha təsdiqi idi. Yeri gəlmişkən, bu barədə A.N.Stepanovun "Zvonaryevlər ailəsi" romanında oxuya bilərik.

General Oktyabr inqilabının qəbul etmiş və alqışlamışdı. Nəhəng hərbi mütəxəssis, artilleriya işinin parlaq bilicisi kimi, o, Qızıl Ordunun quruculuğuna öz bilik və təcrübəsini həvəslə verirdi. Ə.Şıxlinski FKQO ali hərbi-tədris müəssisələrində müəllim

olmuş, Azərbaycanda Qızıl Ordu hissələrinin formalaşmasına köməklik etmişdir. Əsas fəaliyyətindən başqa çoxlu hərbi əsərləri Azərbaycan dilinə çevirmişdir. Respublikada Milli komandan kadrlarının hazırlanması üzrə Şıxlinskinin işini M.Frunze yüksək qiymətləndirmişdir.

Səhhətinə görə 1929-cu ildə Əli ağa Şıxlinski Qızıl Ordu sıralarından tərxis olmağa məcbur oldu. Lakin hərbi-elmi fəaliyyətini dayandırmadı. "Mənim xatirələrim" kitabı üzərində işləməyə başladı. Bu əsər indiyə qədər tarixçilər üçün rus ordusunun keçmişi haqqında öz hərbi dəyərini itirməmişdir.

Döyüşçü-alim, beynəlmiləlçi və vətənpərvər 1943-cü il avqustun 18-də vəfat etmiş, Bakıda dəfn olunmuşdur. Onun kitabları döyüşçü borcuna və Vətəninə sadiqliyinə ən yaxşı abidəsi olmuşdur.

## "HEÇ KİM GÜLLƏLƏNMƏSİN..."
**(*Bunu Nəriman Nərimanov qəti şəkildə tələb etdi*)**

***Azərbaycanı başdan-başa qarət edirlər, sağa və sola güllələyirlər.***

***İşlərlə tanış olduqdan sonra, mən İnqilab Komitəsinin Rəyasət Heyətinin iclasını təyin etdim və o zaman faktiki olaraq hər şeyi idarə edən Semyon Pankratovu dəvət etdim. Mən belə bir məsələ qoydum ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kim güllələnməsin.***

***Mirzə Davud Hüseynov və Əliheydər Qarayev bunun əleyhinə çıxdılar. Beləliklə, hər şey əvvəlki kimi davam edirdi...***

***Bütün bunların müəllifi, onlardan daha ağıllı olduğu üçün A.Mikoyan sayılır. Çevriliş baş verdikdən sonra A.Mikoyan dedi: "Biz Nərimanovu İnqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o çox da öz nüfuzundan istifadə edə bilməsin, o bizim təsirimiz altında olsun".***

***Nəriman Nərimanov.***
***"Ucqarlarda inqilabımızın tarixinə dair"***
***(İ.V.Stalinə məktub) kitabı, səh.17-26.***

Nahardan bir az keçmiş Azərbaycan Xalq Komissarı Sovetinin Sədri Nəriman Nərimanovun qəbuluna XI Ordu Siyasi İdarəsinin xüsusi şöbə rəisi Semyon Pankratov gəldi. Bozüzlü qovluğu açıb böyük bir siyahını sədrin stolun üstünə qoydu. Nərimanov: "Bu nə siyahıdır?" – soruşanda Pankratov: – Bunlar, –

dedi, – fəhlə və kəndli düşmənlərinin ad və sayıdır. Tanış ola bilərsiniz, hər biri dindirilib, onlardan izahat alınıb. Sübut olunub ki, bunların hamısı güllələnməlidir.

Siyahını vərəqləyən İnqilab Komitəsinin Sədri təəccüblə yenidən birinci səhifədəki Adjibekov Uzeir bek Abdulquseyn oğlunun adını bərkdən oxuyub, əsəbi halda dedi:

– Hacıbəyov soyadını düz yazmamasınız. Baxıram, burda nə az, nə də çox – 99 azərbaycanlı ziyalısının və hərbçilərinin qətlinə fərman vermisiniz. Axı, bunlar nəyə görə, hansı əməllərinə görə güllələnməlidirlər?! Bu qədər də xalq düşməni olar?

Pankratov etiraz etdi:

– Hələ bunlar hamısı deyil. Yaxın günlərdə daha böyük siyahı olacaq. Samur körpüsündə, Biləcəridə qabağımıza çıxıb bizə güllə atanları da həbs etmişik. İndi onların dindirilmə istintaqı gedir. Bu 99 nəfərin dindirilmə protokolları bizim idarədədir. Onları gətirmədim, ağır yükdür. Ancaq təsdiq olunmuş siyahını sizə təqdim etmişəm.

– Yoldaş xüsusi şöbə rəisi, mən sizdən yenə soruşuram: bu 99 adamın günahı nədir?

Yerində dikələn Pankratov həyasızcasına dedi:

– Axı, mən sizə dedim ki, onlar burjuydurlar… Yoldaş Nərimanov, siz məhz kimi soruşursunuz?

– Elə birinci şəxsi Hacıbəyovu, ya da general Mehmandarovu, Şıxlinskini, Xosrov bəy Sultanovu, Mahmudbəyov qardaşlarını, hansı birini deyim?..

– Generallar müsavat vaxtı, hərbi nazirliyə rəhbərlik edəndə bizə, Rusiyaya qarşı silah qaldırıblar. Bakıda fəaliyyətdə olan bizim kommunistləri həbs ediblər. Hacıbəyov isə yazdığı felyetonlarında biz rusları lağa qoyub. Mənə qəzet gətirdilər, oxuyub tərcümə etdilər. Hacıbəyovun orada çoxlu məqaləsi dərc olunub. Rusiyadakı bolşevik hökumətini ələ salıb gülür. O yazır ki, Lenin hökuməti ilə keçmiş Nikolay hökuməti arasında heç bir təfavüt yoxdur. İkisi də bir benzin qırağıdır. Mən qəlbən rusun düşmə-

niyəm. Türkçülüyə rəğbətim isə əbədidir. Yoldaş Nərimanov, o, hətta Azərbaycanın sadiq bolşeviki Əliheydər Qarayev yoldaşı da lağa qoyur.

– Siz bilirsinizmi felyeton janrı nədir, necə yazılır? Felyeton ona görə yazılır ki, insanın qüsurunu üzünə desin, səhvi olan adamı düz yola qaytarsın. Görünür, yoldaş Qarayevin də haradasa səhvi olub. Burda cinayət tərkibli heç nə yoxdur. Yoldaş Hacıbəyov sağlam ruhlu ziyalıdır. Mən onu yaxşı tanıyıram. O ki qaldı generallara, onlar hərbi nazir və müavin vəzifəsinə ona görə qoyulmuşlar ki, Vətəni qorusunlar. Bu, onların vəzifə, vətəndaşlıq borcu idi. Onlar qaçaq-quldur deyildilər…

– Hansı vətəni?.. Bu generallar bizim Azərbaycanda qurduğumuz bolşevik hökumətini sevmirlər. Dindirilmə vaxtı bunu özləri etiraf etdilər. Məsələn, general Şıxlinski "Hansı siyasi partiyanın və ya inqilabın mənafeyini müdafiə edirsiniz?" sualına cavab verdi ki, hər bir inqilaba əks inqilab kimi yanaşıram, heç vaxt belə şeylərə qoşulmamışam, keçmişdə də qoşulmazdım… Onun naziri Mehmandarov isə həmin suala belə cavab verdi: "Bütün ömrüm boyu mən hər cür siyasətdən uzaq olmuşam". Görürsünüzmü, yoldaş Nərimanov, hər ikisi bizim inqilabı təhqir edir, zəhmətimizi qiymətləndirmir. Bizim gətirdiyimiz azadlığı…

Nəriman Nərimanov:

– Bir dəqiqə dayanın. Onlar düz fikirləşir və düz də cavab veriblər, – dedi. – Ona görə ki, onlar hərbiçidirlər. Axı, bunu siz bilməlisiniz. Hərbiçi, poqon gəzdirən şəxs heç bir cəmiyyətin, partiyanın üzvü ola bilməz. Bu barədə hərbi nizamnamədə xüsusi qeyd olunub. Mənə verilən məlumata görə siz keçmişdə hərbi dəniz qüvvələrində xidmətdə olmusunuz. Matrossunuz. Elədir?

Pankratov şəstlə:

– Bəli, – deyə cavab verdi. – Odessada xidmətdə olmuşam…

Dərhal susdu. Az qaldı desin ki, ağqvardiyaçıyam. Çünki Qırmızı orduya gələnə qədər həmişə, hər yerdə ağqvardiyaçı olma-

ğı ilə fəxr edirdi. Ağqvardiyaçılar Rusiya ərazisindən qovulandan sonra o, fürsət tapıb bolşevik ordusuna soxulmuşdu. Bunu orduda çox az adam bilirdi.

– Semyon Andreyeviç, sizin generallar haqqında dediyiniz iradlar həqiqətdən çox ara söhbətlərinə oxşayır. Daha doğrusu, qarayaxmadır, – deyən Nərimanov az qaldı soruşsun ki, sən hansı yuvanın quşusan?

– Siz bilirsinizmi, iki il əvvəl Azərbaycan adlı məmləkəti daşnaklardan qoruyan elə bu generallar olublar? Əgər ayyarım bundan əvvəl gələn bolşevik hökuməti bu qədər ziyalının və hərbiçinin qətlinə fərman verirsə, özü də dəlilsiz-sübutsuz, onda bizim fəhlə-kəndli hökuməti xalqın məhəbbətini necə qazana bilər? Məlum olur ki, mən Azərbaycana gələnə qədər də xeyli adamı güllələmisiniz. Ona görə də mən belə bir ciddi məsələ qoydum ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kim güllələnməsin.

– Onda Azərbaycanda bolşevik hökumətini qurmaq bizə çox çətin olacaq, yoldaş Nərimanov.

– Biz Sovet hökumətini qanla, silahla yox, təbliğatla, xalqa yeni hökumətin nüfuzunu başa salmaqla qura bilərik. Respublikada elə bir vəziyyət yaratmalıyıq ki, hakimiyyət süngü ilə deyil, kütlələrin şüurluğu ilə müdafiə olunsun. Sizdən soruşuram, mən rayonlarda səfərdə olanda on iki azərbaycanlı generalını və hərbçilərini nəyə görə, hansı əsasla güllələmisiniz?!

– Yoldaş Nərimanov, mən onları özbaşına güllələməmişəm. Bu generallar yoldaş Orconikidze və Mikoyan yoldaşın əmri ilə güllələnib. Sanksiyanı da onlar verib. Mən əmri yerinə yetirmişəm. Sizə qədər bu stolda onlar əyləşirdi. Əmri də onlar verdi. Hər ikisi mənə başa saldılar ki, biz Dərbənddə dayananda həmin generallar bolşevik əks-təbliğatı aparıblar. Bakıda və Azərbaycanda bolşevikləri həbs edib güllələyiblər.

– Bu yersiz qətlləri törətməklə siz fəhlə və kəndlinin də ürəyinə qorxu xofu salırsınız. ona görə də balaca fürsət tapan kimi ziyalılarımız qaçıb İrana, Türkiyə və Almaniyaya mühacirətə gedir.

Bəs biz kimlərlə işləyəcəyik?.. Təkcə Gəncə üsyanının deyil, Zaqatala, Qarabağ, Tərtər və Dəvəçi üsyanlarının ölkəni ağzına almasının səbəblərini də burda axtarmaq lazımdır. Bakıda oturub qiymətli oğulları həbs etməkdənsə qəzalara gedib camaatın dərd-sərinə qalmaq lazımdır.

Nərimanov masanın üstündəki qovluqlardan birini açıb dörd-beş vərəqdən ibarət məktubu tapdı. İki gün əvvəl aldığı məktubun üstünə dərkənar qoymuşdu: yoxlayıb, dəqiqləşdirməli.

– Semyon Aleksandroviç, – dedi, – onsuz da sizi çağırtdıracaqdım, yaxşı oldu özünüz gəldiniz. Bu günlərdə siz və işçiləriniz Təzəpir məscidi yanında yaşayan Tacir Hacı Qədirin evində olmusunuz?

– Bəli, – Pankratov cavab verdi.

– Hacının mənzilinə getməkdə məqsədiniz nə idi?

– Əvvəla, mən oraya öz işçilərimlə getməmişdim. Bakı Komitəsinin katibi Sərkis Danilyanın və Qarayev yoldaşın mənə qoşduğu adamlarla getmişdim. Yeddi-səkkiz nəfər idik. Kapitan Kornev, Bakı fəhlə-kəndli klubunun müdiri Tevosyan, sıravi əsgər Yemelyanov, Nikolay Unanyan və mən. Danilyan yoldaş bizə tapşırıq vermişdi ki, Hacı Qədirin və o ərazidə yaşayan müsavat dövründə vəzifədə olan varlı adamların evində vəzndən yüngül, çəkidən ağır nə varsa, alıb gətirin. Danilyan bizə varlı adamların siyahısını da vermişdi.

Nərimanov Hacının məktubu Pankratova göstərib dedi:

– Hacı Qədir mənə göndərdiyi məktubda onun təhqir və qarət olduğunu yazır.

– Bizə demişdilər ki, onun çoxlu qızılı var. Əvvəlcə Hacı boynuna almadı, qızılım-zadım yoxdu, – dedi, – kasıb adamam. Onda evi axtarmalı olduq. Aynabəndin döşəməsində ağzı təzəcə sementlənmiş quyu aşkar etdik. Hacı müqavimət göstərmək istədi. Nikolay Unanyan silahı göstərib, kənara çəkilməsini əmr etdi. Quyudan böyük bir küp çıxdı. Onun içində 22 pud zinət

şeyləri, on pud qızıl və gümüş pullar həmçinin çoxlu brilyant və qiymətli daş-qaş vardı.

– Hamısını götürdünüz?

– Bəli, üstəlik də on yeddi iriölçülü xalçaları da alıb gətirdik.

– Bu məktubda göstərilir ki, sizin dəstə həmin gün Təzəpir məscidi ərazisindəki əhalidən dörd min xalı-xalça götürüb.

– Doğrudur, o xalçaların hamısı da valyutaya gedən mallardır.

Nərimanov hirslə:

– Sizcə, bu soyğunçuluq və qarət deyilmi? – dedi. – Belə məlum olur ki, Qırmızı ordunun "Talan həftəsi" hələ də davam edir. Müsadirə olunan bu qiymətli mallar indi haradadır, maraqlanmısınızmı, xüsusi şöbə rəisi?..

– Xeyr, maraqlanmamışam. Biz o əşyaların hamısını sənədləşdirib Sərkis Danilyan yoldaşa təhvil verdik.

– Amma mən maraqlanmışam. Bilirsiniz hardadır, o xalı-xalçalar, o zinət şeyləri vaqonlara yüklənib Moskva və İrəvana göndərilib. Azərbaycan xalqının qiymətli sərvətini respublikadan çıxarmağa heç kimin ixtiyarı yoxdur. Belə biabırçılıqlara son qoymaqdansa, siz həbslərlə, güllələnmələrlə məşğul olursunuz.

Pankratov dinmədi. Müqəvva kimi susub, heç bir əsaslı cavab verə bilmədi.

Nərimanov onun potaş sifətinə, bulanıq gözlərinə diqqətlə baxdı. Ona bir şey başa sala bildiyini az qala üz-gözündən oxumaq istədi. Amma o canilərə məxsus küt sifətdə rəhm görmədi. Ona görə də nifrətlə:

– Yaxşı, – dedi, – gedə bilərsiniz. Qoyun siyahı məndə qalsın. Bir daha baxıb, tanış olaram.

Semyon Pankratov gedən kimi Nərimanov köməkçisi Nurməmməd Şahsuvarovu (1881-1958) yanına çağırıb belə bir sərəncam verdi:

– Bu namərd əqidə dostlarının yanına çatmamış mənim adımdan həbsxana rəisinə bir əmr hazırla. Qoy 99 nəfərin hamısını azadlığa buraxsın. Rəsmi məktub da hazırlayın İnqilab Komitəsinin adından, özümü də həbsxana rəisi ilə telefonla calaşdır.

Həbs olunanlardan iki nəfəri general Səməd bəy Mehmandarovu və general Əli ağa Şıxlinskini mənim yanıma gətirsinlər. Pankratova da xəbər verin ki, hər iki generalın dindirilmə protokollarını gətirib gəlsin.

* * *

Bir xeyli sonra sənədlərlə qayıdan Pankratovu Nərimanov dərhal qəbul etmədi. Köməkçisinə dedi:

– Protokolları və sənədləri ondan al gətir, qoy özü hələ gözləsin, bir azdan çağıraram.

Generalların hər biri haqqında on beş-iyirmi səhifəlik “Həbs vərəqəsi” tərtib olunmuşdu. Bir neçə rus və erməni bolşeviki dindirilmədə onların əleyhinə ifadələr vermişdi. Nərimanov 717 nömrəli protokolu açıb oxuyanda donub qaldı. Buradakı azərbaycanlı rotmistrinin imzası ona daha ağır təsir etdi. Təəssüf hissilə başını yırğalayıb öz-özünə dedi: “Ay namərd İlyas bəy, kimi kimə satırsan? Vaxtilə adı-sanı ilə rus ordusunda şöhrət tapmış dindaşın olan sərkərdələrimizimi? Anam Həlimə haqlı deyərdi ki, oğul, hər çiy süd əmənə inanma, insanın naxələfliyi onun bəy və ya rəiyyət olmasına dəlalət eləmir. “Kotanı bərkdə, igidi yaman gündə sınarlar” – deyib babalar. Bu dindirənlərin A.Qubin, Boris Qluxaryev, Semyon Pankratov olmalarını başa düşürəm. Bəs səni – ziyalı nəslin bəy balasını, rotmistri necə anlayaq?! Ay namərd, gör nə ifadə vermisən: “General Səməd bəy Mehmandarov nazir olanda fəhlə və kəndliyə düşmən gözü ilə baxırdı. O, müsavat hökumətinin bu vəzifəyə təyin etdiyi əlaltısı idi. Bolşevik hökumətinə nifrət edirdi. İnqilabımızı, Qırmızı ordunu sevməyən qatı müsavatçıdır. Qoca general Səməd bəy Mehmandarov Qırmızı ordunun bəzən düçar olduğu məğlubiyyətdən çox razı qalardı. General Əli ağa Şıxlinskinin isə Denikin ordusuna rəğbəti vardı”.

İki saatdan çox sənədlərlə tanış olan Nərimanov heç kəsi qəbul etmədi. Xeyli fikirli dayanıb daş kimi hərəkətsiz qaldı. Otaqda yalnız bircə səs sükutu pozur – divar saatı aramsız tıqqıl-

dayırdı. O gözləmədiyi müdhiş bir çətinliklə üzbəüz durduğunu yaxşı dərk edirdi. Yuxudan yarımçıq oyanıb, yatağından durmağa taqəti olmayan adamlar kimi halsız idi. Başında dumanlı xatirələr cövlan edirdi. Qəlbinə dolan kəskin nifrət duyğusu ilə qarşısındakı sənədlərə indi ötəri baxırdı. Çox sevdiyi general eloğlularının əleyhinə yazılmış qarayaxma sətirlər gözlərini yandırırdı. Bayaqdan yarıaçıq qapıda dayanan köməkçi Nurməmməd məhəbbətlə ona baxırdı. Qayğıkeşliklə:

– Narahat oldum, yoldaş Nərimanov, – dedi, – yorulmadınız?..

Sədr köməkçisinin sualını cavabsız qoyub:

– Burax, gəlsin, – dedi, – onu…

İçəri girən Pankratov çox bikef idi. Hiss olunurdu ki, sədrin onu bu qədər gözlətməyi xətrinə dəymişdi.

– Yoldaş Pankratov, söhbətimiz bir növ istintaqsayağı olacaq. Mən sizin və Qubin familiyalı işçinizin dindirilmə protokolları ilə tanış oldum. Dəqiqlik naminə sizdən bəzi faktları bilmək istərdim. Bax, elə götürək general Əli ağa Şıxlinski barədə yazılanları. Siz burada göstərirsiniz ki, Əli ağa Şıxlinski ağqvardiyaçı general Denikinlə əlaqə yaradıb, Qırmızı ordunun məğlubiyyətinə sevinib və Qırmızı orduya qarşı hərbi qüvvələri indi də səfərbər edir. Bu faktlar hardandır və nə dərəcədə doğrudur?

– Bu faktları bizə agentimiz verib.

– Axı, burada agentin yox, xüsusi şöbənin böyük hərbi müstəntiqi Qubinin imzası qoyulub. Siz bu sənədi oxumusunuzmu?

– Yox, oxumamışam.

– Bəs dindirilmə protokolunun üstündə sizin dərkənarınız var. "Həbs olunsun və cəzalandırılsın" yazmısınız.

– Mən əməkdaşlarıma özüm qədər inanıram.

– Necə inanırsınız ki, protokolu oxumadan az qala ölüm hökmünə qol çəkirsiniz. Görkəmli generalın taleyinə belə etinasız yanaşmaq nə dərəcədə doğrudur?

– İşimin çoxluğundan vaxt tapıb oxuya bilməmişəm.

– Onda mən oxuyum, siz də eşidin. "Tamamilə məxfidir". Tam artilleriya generalı, hazırda Azərbaycan Sovet Sosialist Res-

publikasının Hərbi-Dəniz Komissarının müavini Əli ağa Şıxlinski təqsirli bilinir:

1. Ondan ötrü ki, 1917-1918-ci illərdə Əli ağa Şıxlinski hərbi hissələr təşkil etmiş və Sovet hökumətinə qarşı ən fəal iştirakçı olmuşdur.

2. 1920-ci ildə Qızıl Ordu əleyhinə Azərbaycandakı bütün hərbi qüvvələri səfərbər etmişdir. 27 aprel çevrilişindən sonra Gəncəyə qaçmağa imkan tapmamışdır.

3. Fürsətdən istifadə edərək Hərbi-Dəniz Komissarının etibarını qazanmış və onun müavini olmuşdur. Bu vəzifədə olarkən fəhlə-kəndli hökumətinin Gəncədə və Gürcüstanda olan düşmənləri ilə gizli əlaqə saxlamışdır.

4. Sovet hökumətinə rəğbəti olan Azərbaycan zabitlərinin hamısını həbs etdirmişdir.

5. Azərbaycanda Sovet hökumətinin qələbəsindən sonra Könüllü Denikin ordusu ilə əlaqələri haqqında çox mühüm sənədləri mayın 15-17-də məhv etmişdir.

6. Mayın 25-də Gəncədə olan üsyan haqqında onun xəbəri olmuş və təşkilatçıları ilə əlaqə yaratmışdır.

***XI Ordunun xüsusi şöbəsinin böyük***
***hərbi müstəntiqi A.Qubin".***

Ürəkağrısı ilə köksünü ötürən Nərimanov dedi:

– Altı bəndin hamısının iftira olduğu məlumdur. Mən bunlar barədə daxili işlər naziri Həmid Sultanov və Hərbi-Dəniz Komissarı Çingiz İldırımla məsləhətləşdim. Sizin əməkdaşınız A.Qubinin yazdıqlarının yalan olduğunu onlar da təsdiq etdilər. Digər bir sənəddə oxuyuruq ki, Gəncə üsyanı vaxtı general Şıxlinski Bakıda olub. Bunu keçmiş birinci Gəncə süvari diviziyasının qərargah rəisi polkovnik Vasili Sokolovdan aldığınız dindirilmə protokolunda açıq-aydın yazmısınız.

Gəlin həmin protokolla tanış olaq: "On birinci ordunun xüsusi şöbə müstəntiqi A.Qubin Gəncə üsyanının iştirakçısı və ağq-

vardiyaçı generalla yaxın münasibətinə görə ittiham olunan müttəhim Vasili Nikolayeviç Sokolovun dindirilmə protokolundan çıxarış:

***S u a l:*** Nə vaxt və kiminlə general Cavad Şıxlinski teleqraf xətti və telefonla neçə dəfə, nə barədə danışmışdır?

***C a v a b:*** Sovet hökumətinin ilk günləri Hərbi-Dəniz Qüvvələrinin xalq komissarı yoldaş Çingiz İldırım general Cavad Şıxlinskini telefona çağırdı. Orduda qalıb xidmət edib-etməyəcəyi fikrini soruşdu. Cavad bu təklifə cavab vermək üçün Əli ağa Şıxlinskidən məsləhət almaq istəyini bildirdi. Çingiz İldırım dedi ki, general Əli ağa Şıxlinski yanımdadır. Və dəstəyi ona verdi. Əli ağa Şıxlinski Cavada dedi: "Çevriliş qansız başa çatmışdır, vəziyyət əladır. Mən qulluq edirəm".

Bundan sonra Əli ağa Şıxlinski dəstəyi Çingiz İldırıma qaytarmışdır. Cavad da Çingiz İldırıma Sovet hökumətində hərbi qulluqda qalacağını və xidmət edəcəyini bildirmişdir.

Bütün bu söhbət Cavad Şıxlinski tərəfindən mənə deyilmiş və mən də bu izahatımda olduğu kimi çatdırıram. Cavadın Çingiz İldırımla gürcü zabitlərinin həbsi ilə bağlı telefon söhbəti də olmuşdu. Mayın iyirmisinə kimi (nə qədər ki, Gəncə şəhərindəki qarnizonun rəisi vəzifəsindən çıxarılmamışdı) özünün baş yavəri rotmistr Əhməd bəy Əfəndiyev Musabəyovu beş dəfə Əli ağa Şıxlinskini telefona çağırmaq üçün teleqrafa göndərmişdi. Danışığın baş tutub-tutmaması haqqında mən heç nə bilmirəm.

***S u a l:*** Hesab edirsiniz ki, Əfəndiyev, Əli ağa Şıxlinski ilə Cavad Şıxlinskinin adından danışmışdır? Üsyanın gedişi vaxtı Cavadın bu üsyanda təşkilatçı və iştirakçı olması mümkündürmü?

***C a v a b:*** Üsyanın baş tutmasını Cavad çox istəyirdi. Mən belə fikirləşirəm ki, əlbəttə, üsyanın başında duran adam onun qələbə ilə nəticələnməsini arzulayar.

***S u a l:*** Üsyanın başında kimlər dururdu?

***C a v a b:*** Mayın 15-də və 20-də Azərbaycan diviziyasının zabitlərinin vəzifədən çıxarılıb əvəzində rus sovet zabitlərinin təyin olunması yalnız Azərbaycan zabit heyətinin deyil, Gəncə

əhalisinə də bərk toxunmuşdu. Bu təyinatı milli zabitlər özlərinə təhqir bilirdilər. Bu xüsusilə, general Cavad Şıxlinskini, general Məhəmməd Mirzə Qacarı, polkovnik Cahangir bəy Kazımbəyovu və başqalarını bərk əsəbiləşdirmişdi. Səhv etmirəmsə, üsyana da bunlar rəhbərlik edirdilər. Bu dəyişiklikdən sonra onlar özlərinə yer tapa bilmirdilər.

***S u a l:*** Üsyan vaxtı general Səməd ağa Mehmandarov və Əli ağa Şıxlinski Gəncəyə gəlmişdilər?

***C a v a b:*** Xeyr, mən o vaxtlar Gəncədə idim. Onları orada görməmişəm.

***S u a l:*** Bəs niyə Cavad məhz general Əli ağa Şıxlinski ilə məsləhətləşir və tez-tez onu telefona çağırırdı?

***C a v a b:*** Axı, general Əli ağa Şıxlinski onun doğma əmisidir. Cavad ona ata kimi hörmət edirdi. Əvvəllər də həmişə ağsaqqal kimi onunla məsləhətləşirdi. Mən Azərbaycan ordusuna qulluğa gələndən belə məsləhətləşmənin dönə-dönə şahidi olmuşam. Mənim yadımdadır ki, Cavadın kiçik qardaşı, polkovnik Rüstəm bəy Şıxlinski də əmisi general Əli ağa Şıxlinskidən məsləhət alardı.

***S u a l:*** O qardaşdan danışmayın, sizdən onun barəsində soruşmuram. Polkovnik Rüstəm bəy adlı şəxs daha yoxdur. O, Bakıda Sovet hökumətinin düşməni kimi güllələnib".

Nərimanov oxumağına ara verib dayandı, diqqətlə Semyon Pankratova baxıb soruşdu:

– Polkovnik Rüstəm bəyi nəyə görə güllələmisiniz?

Pankratov soyuqqanlılıqla cavab verdi:

– O, komandanlıq etdiyi ikinci artilleriya divizionu ilə Biləcəridə qarşımıza çıxmışdı. Bizə qarşı vuruşurdu. Onu dördüncü şöbənin müstəntiqi kapitan Akopcanov və Troyan həbs edib iyunun 11-də güllələyiblər. Bizdən xəbərsiz…

Nərimanov:

– Davam edək, – dedi. – Daha sonra müstəntiq Qubin polkovnik Sokolovdan soruşur:

– Siz general Səməd bəy Mehmandarov və Əli ağa Şıxlinski ilə yaxından tanışsınız?

***C a v a b:*** Cahan müharibəsi illərində general Səməd bəy Mehmandarovun korpusunda xidmət etmişəm. Ordan tanışlığımız vardı. 1920-ci ilin fevral ayında mənzil məsələsinə görə raport yazmışdım. Çağırıb vəziyyətimi soruşdu. Ailəmin Tiflisdə yaşadığını biləndə kömək eləməyə söz verdi. Əli ağa Şıxlinski ilə dəfələrlə görüşüb söhbət etmişəm. Gəncəyə gələndə həmişə qardaşı oğlu Cavad Şıxlinskinin evində qalardı. Gəncədəki Azərbaycan praporşiklər məktəbini yoxlamağa və buraxılışına gələrdi.

***S u a l:*** Üsyan vaxtı harada xidmət edirdiniz?

***C a v a b:*** Sovet ordusu Gəncəyə gələndən üç-dörd gün sonra general Vodopyanovun ikinci süvari korpusunun qərargahında xidmət edirdim.

***S u a l:*** Nə vaxt həbs olunmusunuz?

***C a v a b:*** İyunun 25-də həbs olunmuşam. Qırmızı ordu gələnə qədər Gəncədəki Birinci Azərbaycan süvari diviziyasında qərargah rəisi idim. Cavad Şıxlinski ilə birgə xidmət etdiyimə görə həbs olunmuşam.

***S u a l:*** Günahınızı boynunuza alırsınızmı və niyə məhz Azərbaycan ordusuna xidmətə gəlmisiniz?

***C a v a b:*** İmperiya ordusu dağılandan sonra bir çox hərbçilər kimi mən də işsiz qaldım. Ailəm ehtiyac içində idi. 1918-ci ildə Gəncəyə gəlib raport yazdım. Dərhal qəbul etdilər.

***S u a l:*** Siz Azərbaycan ordusunda xidmət edəndə ağqvardiyaçı general Denikinlə neçə dəfə görüşmüsünüz? Söhbətiniz hansı mövzuda olub?

***C a v a b:*** Mən heç vaxt Denikinlə görüşməmişəm. Söhbətimiz də olmayıb.

***S u a l:*** Yox, görüşmüsünüz. Polkovnik Sokolov, istintaqa yalan məlumat verirsiniz. Suala düzgün cavab verin. General Mehmandarov və Şıxlinski sizi ona görə qulluğa götürüblər ki, general Denikinin Bakıya girməsi haqqında danışıqları siz aparasınız. Rus olduğunuza görə sizdən istifadə ediblər. Hətta, ağqvardiyaçı general Vladimir İrmanovun Kutaisi şəhərindən Mehmanda-

rov və Şıxlinskiyə 31 mart 1920-ci ildə göndərdiyi surğuclu məxfi məktubu siz gətirmisiniz. Həmin məktub sizin seyfdə saxlanılıb.

***C a v a b:*** Ağqvardiyaçı general İrmanovdan gələn məktubu mən oxumuşam. Onu mənə Cavad Şıxlinski verdi. Oxu, – dedi, – gör əmimə İrmanov nə yazır. O da sənin kimi iş axtarır. Oxudum. Məndən alıb yavəri Əfəndiyevə verdi: – Qoy seyfində qalsın, gələndə əmimə verərik.

Mənim seyfimdə belə məktub olmayıb. Əslində belə məktub qərargah rəisinin seyfində saxlanılmalıdır. Cavad onu mənə vermədi. Görünür rus olduğuma görə etibar etmədi. Siz deyirsiniz ki, Azərbaycan generalları Denikinin Bakıya gəlməsini istəyiblər. Əksinə, hər ikisi – həm Şıxlinski, həm də Mehmandarov ağqvardiyaçı Denikinə nifrət edirdilər. Hələ mənim bildiyimə görə Mehmandarov Azərbaycan parlamentində çıxış edib deyib ki, Denikin məni keçmiş rus ordusundan yaxşı tanıyır. O heç vaxt mənim komandanlıq etdiyim ordunun üstünə yeriməyə cəsarət eləməz. Elə də oldu, tarixin gedişatı bunu sübut elədi.

***S u a l:*** Yaxşı, general İrmanovun məktubunu siz oxumusunuz, nə yazırdı?

***C a v a b:*** Əvvəla, general İrmanov Port-Artur və Cahan müharibəsi illərində hər iki Azərbaycan generalları ilə çiyin-çiyinə vuruşub. Bunu məktubunda da yazırdı. Qısa bir tanışlıqdan sonra yazıb yalvarır ki, işsizəm, Azərbaycan ordusunda vicdanla xidmət etməyə hazıram. Lap kiçik vəzifə də olsa işləyərəm. Ailəm çox böyük maddi ehtiyac içindədir.

Məktubda general Denikini və general Şkuronu söyür, onlarla mübahisə edib işdən çıxdığını yazır. Bir müddət Şkuronun Kuban ordusunda xidmət etməsini, ac-yalavac, ordunun dağılıb stanitsalarına getməsini, Denikinlə siyasi baxışlarının barışmaması haqqında qısaca qeyd edir. Məktubda siyasi məzmunda heç nə yox idi. Hətta, qızlarından və həyat yoldaşından salam söyləyir. Görünür, ailəvi yaxın olublar.

## AZƏRBAYCANA ETİBAR OLUNMUR

***Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo və Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır… Onlar həmişə Əliheydər Qarayevi irəli çəkirlər, onu isə bütün Azərbaycan hər cəhətdən satqın adam kimi tanıyır. Azərbaycanda namuslu türk işçiləri partiyanın bu üzvlərinin simasında RKP MK tərəfindən Azərbaycana olan belə etinasızlığı heç vaxt yaddan çıxarmayacaqlar.***

***Nəriman Nərimanov***
***1924-cü il, 27 may, Moskva.***

1920-ci il iyunun 29-da müstəntiq A.Qubin təxribatçılıqda günahlandırılan rotmistr İlyas Əliqulu oğlu Şahtaxtinskinin dindirilmə protokolundan (iş №717) çıxarış:

General Əli ağa Şıxlinskini Azərbaycan Ordu Qərargahında xidmət eləyəndən tanıyıram. ***Onun Sovet hökumətinə münasibəti barədə deyə bilərəm ki, o, heç də bundan razı deyildi. Əksinə, bu qoca general Qırmızı ordunun bəzən düçar olduğu məğlubiyyətdən razı qalırdı.*** Şıxlinskinin Könüllü orduya rəğbəti vardı. Bolşevik terroristləri Könüllü ordunun nümayəndələrinə mərmi atdıqlarına görə tutulan zaman Əli ağa Şıxlinski sevinc və məmnunluqla yavəri kapitan Stanislav Mixayloviç Çayevskiyə deyib: "Siz bu əclafları artıq həbs etmisiniz. Çox yaxşıdır". Bu sözlərini mən özüm eşitmişəm. Qırmızı ordu Dərbənddə olarkən Azərbaycan ordusunun qərargah komandiri Qədimova silahı təmizləyib həmişə qərargahda olmaq və heç yerə getməmək əmrini vermişdi. General Şıxlinski bu əmri verməyin səbəbini Qırmızı ordunun yaxınlaşmasını və bu səbəbdən də bolşeviklərin Bakıya girə bilməsi təhlükəsi ilə izah edirdi.

1920-ci il təxminən aprelin 15-də mən Qarabağ ordusunun Şuşadakı qərargahında ezamiyyətdə idim. Bu zaman müvəqqəti hərbi nazir vəzifəsini icra edən general Əli ağa Şıxlinskidən general Həbib bəy Səlimovun adına şifrəli teleqram gəldi. O, Quba və Tatar süvari alayları vəziyyətinin ciddi olmasını nəzərə alaraq göndərilməsini tələb edirdi. Bu teleqramın şifrəsini mən açdım. General Səlimov alayları göndərdi və cavab verdi ki, Azərbaycan iki cəbhədə vuruşa bilməz. General Əli ağa Şıxlinskinin Sovet hökumətində yaxşı xidməti barədə heç nə deyə bilmirəm. Ona görə ki, bu vaxtlarda mən həbsdə olmuşam.

**İmzaladı:** **İlyas Şahtaxtinski**
**İş icraçısı:**

* * *

Canüzücü, yalan və iftiralarla dolu protokolları oxuyub qurtardıqdan sonra Nəriman Nərimanov xüsusi şöbə rəisi Semyon Pankratovu vəzifəsindən azad etdi. Şübhəsiz ki, bu qədər cinayətindən sonra onun özü güllələnməyə məhkum olundu. Bu barədə 1920-ci il mayın 30-da menşevik Gürcüstanında dərc olunan "Грузия" qəzeti daha dəqiq məlumat verir. Qəzet yazır: "Fövqəladə komissiya qırğına ehtiyatla başlamışdır, lakin sonradan sərt şəkildə fəaliyyət göstərərək ucdantutma həbslər etdi. Komissiya xüsusi ilə matros Pankratovun rəhbərliyi altında "daha müvəffəqiyyətlə" işləmişdir. Lakin Nərimanovun Bakıya gəlişindən sonra Semyon Pankratov aradan götürüldü".

Azərbaycana "azadlıq" gətirən XI Ordu 79 nəfər hərbçimizi 1920-ci il iyunun 6-da həbs edib, Nargin adasında, məhz matros Semyon Pankratovun sərəncamı ilə güllələmişdir. Onların arasında Gəncə general-qubernatoru Xudadat bəy Rəfibəyov, general Əbdülhəmid bəy Qaytabaşı, podpolkovnik İsmayıl xan Ziyadxanov, general İbrahim ağa Usubov, general Əmir Kazım Qacar, Bakı şəhər Polis İdarəsinin rəisi Quda Qudiyev, milyonçu

Murtuza Muxtarov, general Məhəmməd Mirzə Qacar, general-leytenant Məmməd bəy Sulkeviç, general Həbib bəy Səlimov, İsgəndər bəy Seyfulin və başqa Azərbaycan ziyalıları vardı.

* * *

Nərimanov nə qədər yorğun olsa da, indi başından bir fikri qova bilmirdi. Bu qırğınlardan sonra qalan iki generalımızı necə qorumalı?..

Köməkçisi Nurməmmədi çağırıb bir fincan çay istədi.

– Başım bərk ağrıyır, – dedi, sonra generalların harada olmasını soruşdu.

Şahsuvarov dedi:

– Onların üst-başı pis gündə idi. Neçə günlük türmə həyatından çox sınıxıblar. Belə görkəmdə özləri də sizin qəbulunuza gəlmək istəmədilər. Bilirdim ki, Pankratovla söhbətiniz uzun çəkəcək. Evlərinə göndərdim. Amma, yoldaş Nərimanov, etibarlı bir nəfər mənə zəng edib xəbər verdi ki, generalları izləyirlər. Deyəsən başlarında yenə qovğa var.

– Mənim adımdan daxili işlər komissarı Həmid Sultanova zəng elə, hər ikisinin Nikolayev küçəsindəki mənzilinə gözətçi qoysun. Özün də get, onlara baş çək, həm də xəbər ver ki, səhər saat onda onları gözləyəcəm.

Həmid Sultanov, Muxtar Hacıyev, Çingiz İldırım və bəzi yaxın adamlar, Nərimanovun Azərbaycana gəlməsinə sevinənlər ona bildirmişdilər ki, gələn Qırmızı ordunun sıralarında çoxlu sayda daşnak əsgəri və zabiti var. Onlar da havadarları Levon Mirzoyana, Anastas Mikoyana, Sərkis Danilyana, Serqo Orconikidzeyə arxalanıb minbir fəndlə, yerli-yersiz burjuy, müsavatçı damğası ilə Azərbaycanın oğul və qızlarını həbs edir və güllələyirlər. Xüsusilə Gəncə üsyanından sonra azərbaycanlılara düşmən gözü ilə baxırlar.

1920-ci il aprelin 27-də yeni gələn bolşevik hökuməti Çingiz İldırımı Hərbiyyə və Bəhriyyə Komissarı vəzifəsinə təyin etdi. Aprelin 30-da səkkiz saylı əmrlə o, özünə müavin general Əli

ağa Şıxlinskini götürdü. Çingiz İldırımın sənəti inşaat mühəndisi olduğuna görə hərb işini o qədər də yaxşı bilmirdi. Sonralar Ə.Şıxlinski xatirələrində yazırdı: "Komissar mənim yanıma gəlib, onun müavini vəzifəsini qəbul etməyimi təklif etdi. Mən razı oldum. Onda o, gülümsəyərək mənim poqonlarımı göstərib dedi:

– Bunları çıxarmaq lazımdır.

Mən belə cavab verdim:

– Madam ki, mən sizinlə işləməyə razılıq verirəm, bu o deməkdir ki, məndə hər şeydən əvvəl daxili bir dəyişiklik əmələ gəlir; bu isə, əlbəttə, zahiri əlamətdən daha əhəmiyyətlidir (Ə.Şıxlinski. "Xatirələrim", Bakı, 1984, səh.191).

İki ay yeddi gün Hərbi-Dəniz Komissarı vəzifəsində işləyən Çingiz İldırım gördü ki, bolşeviklər keçmiş milli ordunun əsgər və zabitlərini məhv edib dağıdırlar. Onda hərbi müşavirədə sərt şəkildə bolşevik rəhbərlərinə bildirdi ki, siz açıq-açığına bizim ordunu dağıdırsınız. Niyə və niyə görə, səbəbi məlum deyil. Axı, aprelin 27-də biz kommunistlər Azərbaycan Parlamentinin fövqəladə iclasına qərar təqdim etmişdik: səs çoxluğu ilə qəbul edilən səkkiz şərtin birinci bəndində "***Sovet hakimiyyətinin idarə etdiyi Azərbaycanın tam müstəqilliyi qorunub saxlanılacaqdır***", yeddinci bəndində isə "***Azərbaycan ordusu olduğu kimi qalacaq***". Bu gün ordunu dağıdan, zabitlərimizi güllələyən yoldaşlar bu vədi, bu bəndləri niyə unudublar? Sizin ordunu qırıbçatmağınız Azərbaycan xalqının, Azərbaycan bolşeviklərinin arasında bərk narazılıq yaradır. Xalq bolşevik hökumətinə inamını itirir. Əgər belə davam edərsə, mən bu vəzifədən istefa verəcəm.

İyulun 4-də elə həmin müşavirədə Çingiz İldırımı etibarsız komissar kimi vəzifəsindən çıxartdılar. Əvəzində rusların sadiq bolşeviki, onların marağını sadiq qul kimi həyata keçirən Əliheydər Qarayevi iyulun 26-da Azərbaycan Hərbi-Dəniz Komissarı təyin etdilər. Əliheydər Qarayevin təyinatından bir az sonra müavin Əli ağa Şıxlinski də istefa verdi. Əli ağa Şıxlinski bilirdi ki, Əliheydər Qarayevin hərbi-dəniz işlərindən zərrəcə başı çıx-

mır. Deyilən məsləhəti də eşitmək istəmir. Hətta, həmin vaxtlarda Azərbaycan ziyalıları Qarayevə qəddarlığına görə istehza ilə "səfeh malçişka" ayaması vermişdilər.

Əliheydər Qarayevin təyinatından sonra Azərbaycanda qarətlər, sərxoş rus və erməni əsgərlərinin özbaşınalığı, sürgünlər, güllələnmələr daha da artdı.

Əliheydər Qarayevin həmin illərdəki fəaliyyətinin şahidi olan, 1939-cu ildə kommunist rejimindən idarə etdiyi təyyarə ilə birgə qaçıb canını qurtaran təyyarəçi-zabit Məmməd Altunbəy Türkiyədə qələmə aldığı "Azadlığa uçan türk" kitabında Əliheydər Qarayevin qəddarlığı haqqında yazır:

"Gəncə basqınından sonra yeni gələn bolşeviklərin ən yaxın adamı olmuş Əliheydər Qarayev öz millətinə ermənidən və rusdan daha çox zülm etmişdi. Ruslar bir sıra azərbaycanlıların öldürülməsində, sürgün və həbs edilməsində məhz Əliheydər Qarayevin köməyindən istifadə etmişlər. Hətta, iş o yerə çatmışdı ki, Gəncədə bir-birinə qarğış edənlər "Əliheydər Qarayevin qəzəbinə gələsən" deyərdilər. Əliheydər Qarayev çox zalım, qəddar bolşevik nökəri və amansız bir adam idi".

Nərimanov heç vaxt gözləmədiyi, ağlına belə gətirmədiyi vəziyyətə düşmüşdü. Neyləməli, indiki vəziyyətdə bu iki generalı necə qorumalı sualı ona rahatlıq vermirdi. Dərdini deməyə sirdaş, sadiq dost axtarırdı. Kiminləsə dərdləşmək, ürəyini boşaldıb məsləhət almaq istəyirdi. Uzun götür-qoydan sonra qəti qərara gəldi: "Yox, bu qarışıq vaxtda onları Bakıda qorumaq mümkün olmayacaq".

* * *

Səhəri gün tezdən onları qəbul edib xeyli söhbət elədi. Respublikada bugünkü vəziyyətin çətinliyindən danışdı. Haqsız həbs olunanlardan, özbaşınalığın baş alıb getməsindən, mərkəz Moskvanın onu bir xeyli gec göndərməsindən təəssüfləndiyini bildirdi.

Ağsaqqal kimi hörmətlə ilk dəfə Səməd bəy Mehmandarova müraciət etdi:

– Səməd bəy, Gəncə hadisəsindən sonra hiss edirdim ki, qəzalarda vəziyyət o qədər də yaxşı deyil. Yerlərdən çoxlu şikayətlər gəlirdi. Şikayətlərin hamısı da Qırmızı ordunun yerli əhali ilə pis davranışı barədə idi. Məktublardan bir neçəsini yerində yoxlamaq üçün xüsusi komissiya ilə bölgələrə səfər etdim. Yevlaxda, Şəkidə, Zaqatala və başqa yerlərdə Qırmızı ordunun əsgər və zabitlərinin özbaşınalığını bəzi yüksək rütbəlilər adi hal kimi qəbul edir. Mən bunlara dözməyib onları tənbeh edir və cəzalandırırdım. Ordan birbaşa sizin ata-baba vətənimiz Şuşaya gəldim. İnanın, orada vəziyyəti lap acınacaqlı gördüm. Ona görə də götürüb mərkəzə şikayət xarakterli belə bir teleqram vurdum: "Respublikanın kəndlərinə səfərim zamanı mənə kütləvi şikayətlər daxil oldu və indi də bunlar davam edir. Kəndlilər şikayət edirlər ki, inqilab komitələri, ərzaq agentləri və XI Ordu hissələrinin nümayəndələri tərəfindən onların sonuncu tikə çörəyi əllərindən alınır. Mən hesab edirəm ki, bu, inqilab komitələrinin öz işlərinə laqeyd və öz vəzifələrinə cinayətkarcasına yanaşması deməkdir. Bu irad XI Ordu hissələrinə aiddir və qısa müddətdə bu biabırçılığa son qoyulmalıdır".

Moskvada Azərbaycanın səlahiyyətli müvəkkili Behbud bəy Şahtaxtinski bizim şikayət xarakterli daha bir məktubumuzu RSFR XKS Sədri V.İ.Leninə çatdırıb. Orda da XI Ordunun qüvvəsi ilə Ermənistan sərhədindəki müsəlman əhalisinin tərk-silah edilməsini, daşnak hücumlarının təhlükəsi qarşısında qoymasını yazmışıq. Yazmışıq ki, "müsəlman əhalisi tərk-silah edilir, daşnakların silahlı dəstələri isə müsəlman kəndlərini amansızcasına qılıncdan keçirir və məhv edirlər. Kəndlilər bağlarını, əkinlərini və avadanlıqlarını ataraq dağlara qaçır. Müsəlman əhalisi daimi müsadirələrə və xüsusilə də mənzillərin kommunallaşdırılmasına görə ümidsizliyə qapanırlar. Çünki bu axırıncı xalqın məişət tərzinə və şəraitə tamamilə əksdir. Buna əsrlərlə davam edən adət-ənənələrin ağır təhqiri kimi baxılır.

…Qızıl Ordu əvvəlcə özünü yaxşı aparırdı, indi isə özünü irticaçı kimi göstərir. Yerlərdən sarsıdıcı məlumatlar alınır. İş o yerə çatıb ki, qızlar və qadınlar açıq şəkildə zorlanır. Öz çörəyi ilə dolanan Azərbaycan indi çörəksiz qalıb" (B.Rəfiyev. "Aysberqin sualtı hissəsi", Bakı, 1995, səh.14).

Bunların başında gələn komandirlər və rəhbərlər yerlərdəki inqilab komitələrinə elə bir səlahiyyət veriblər ki, Azərbaycan hökuməti ilə qətiyyən hesablaşmır, ordu hissələrinin komandirləri müstəmləkəçilik siyasəti yeridirlər. Şuşada olanda "ordu klubu" deyilən bir binaya baş çəkdim. Nə görsəm yaxşıdır? Kef məclisinin şahidi oldum. Qarabağ xanı Mehdiqulu xanın mülkünün böyük zalında xalı-xalçanın üstündə əyləşən sərxoş zabitlər erməni qadınları ilə musiqi dinləyir, rəqs edib, çalıb-oynayırlar.

Nərimanov danışdıqca Səməd bəy son dəfə gördüyü Şuşadakı dədə-baba mülkünü xatirində canlandırırdı. Ürək eləyib soruşa bilmirdi ki, bizim Mehmandarovlar mülkünə baş çəkdinizmi? Ehtiyat elədi, qorxdu ki, "sizin mülkü də əsgərlər üçün kazarma eləyiblər" cavabını eşidər. İndi dağlar mələyi Şuşanın istilaçı əsgərlər tərəfindən nə kökə düşdüyünü xəyalında canlandıran Səməd bəy az qala sarsılırdı. Nərimanov Əli ağaya nəyisə izah edirdi. Onların söhbətindən heç nə eşitməyən Səməd bəy öz aləmində idi. Lənkərandan iki-üç günlüyə Şuşaya gələndə atası Sadıq bəy həmişə balaca Səməd bəyi də özü ilə gətirərdi. Əlindən tutub enişli-yoxuşlu şəhərdə gəzdikcə bir-bir məhəllələri, əzəmətli mülkləri ona göstərib deyərdi: "Oğlum, bura Köçərli məhəlləsidir, bu, Vəzirovların evidir, bura Xan qızı Natəvanın mülküdür. Bura isə qırx ildən çox Qarabağ xanı olan İbrahimxəlil xanın sarayıdır. Oğlum, bunlarda yaşayanların hamısı sənin yaxın-uzaq qohumlarındır".

Xəyallardan ayılan Səməd bəy: "Yaxşı ki, sədrdən mülkümüzün nə kökdə olduğunu soruşmadım, birdən deyərdi ki, mülkümüzü əsgərlər at tövləsi eləyiblər. O da mənə bir dərd olardı", – düşündü.

Nərimanov bolşeviklərin güllələdiyi on iki Azərbaycan generalının dadına çata bilməməsinə heyfsilənib dedi ki, onların hər birini yaxşı tanıyırdı. Səməd bəy başını qaldırıb ilk dəfə onun üzünə baxdı. Kövrək, hüznlü səslə:

– Heç bilirsinizmi, general Əbdülhəmid bəy Qaytabaşının neçə yaşı vardı? – soruşdu, özü də təəssüflə: – Otuz dörd, – cavabını verdi. – Çox istedadlı cavan bir sərkərdəni Azərbaycan xalqı itirdi. Otuz doqquz yaşı tamam olmamış general Həbib bəy Səlimov isə heç evlənməmişdi. Hər dəfə ona ata ərkilə deyəndə ki, "niyə evlənmirsən, ömür-gün keçir, oğul..." – bircə cavabı olardı: "Səməd bəy, qoy dünyamız düzəlsin, sonra…". Bu da düzələn dünyanın sonu... – deyib göz yaşını ağ dəsmalına hopdurdu.

Nəriman Nərimanov:

– Əli ağa, – dedi, – sizi hansı günahınıza görə ittiham etdiklərindən xəbəriniz var? Matros Semyon Pankratov o qədər qara yaxıb ki, guya ağqvardiyaçı Denikini Azərbaycana çağıran Siz olmusunuz. Həbs olunma sənədlərinizdə o qədər cəfəngiyat yazılmışdı ki…

Sədr sözünü bitirməmiş çılğın təbiətli Əli ağa Şıxlinski soruşdu:

– Ay Nəriman, niyə bizə başağrısı verirlər. Siz Azərbaycana gələnə qədər bizi üç dəfə həbs ediblər. Qoy güllələsinlər, canımız qurtarsın. Nə qədər bitli-sirkəli türmələrdə çürümək olar?

Nərimanov günahkar adamlar kimi:

– Əli ağa, – dedi, – görünür, sən özünü qiymətləndirə bilmirsən. Axı, səni hamı "rus artilleriyasının allahı" adlandırır. Biz onu da başa düşməliyik ki, bizim xalq üçün bir generalı yetişdirməyə əlli il vaxt lazımdır! Bəs onda niyə biz öz generallarımızı güllələməliyik?

Sonra Səməd bəyə müraciətlə:

– Özünüz, – dedi, – bu saat respublikadakı vəziyyəti bilirsiniz, hazırkı vəziyyətə ziyalılarımızın, əsgər və zabitlərimizin əleyhinə qəsd-qərəzlik var. Mən bunu sizdən gizlətmirəm. Ona görə belə qərara gəlmişəm ki, sizi birilliyə, burda sabitlik olana kimi, Moskvaya, Lenin yoldaşın sərəncamına göndərim. Əgər

razısınızsa… Hərçənd, burada daha çox lazımsınız. Yenə deyirəm, vəziyyət belə tələb edir. Başqa çarəmiz yoxdu.

Azərbaycan İnqilab Komitəsinin Sədri Nəriman Nərimanov onların razılığını alandan sonra V.İ.Leninə yazdığı məktub və keşikçi dəstəsilə ayrıca vaqonda hər iki generalı Moskvaya göndərdi. Nərimanov məktubunda yazırdı:

"Əziz Vladimir İliç!

Gəncə üsyanı zamanı köhnə Azərbaycan ordusunun bütün zabitləri həbsə alınmışdır. Bu məktubu Sizə təqdim edən məşhur generallar – Mehmandarov və Şıxlinski də onların arasında idi. Diqqətli yoxlama nəticəsində məlum oldu ki, bu generalların üsyanla əlaqəsi olmamışdır. Lakin mövqeyimiz sakitləşənə kimi və ümumi işimizə kömək məqsədilə biz hər halda bu qərara gəldik ki, onları qərargahda işləmək üçün Sizin sərəncamınıza göndərək, çünki onlar hərbi mütəxəssis olmaq etibarı ilə əvəzsizdirlər. Onlardan biri – Şıxlinski Nikolay ordusunda "artilleriyanın allahı" sayılırdı. Polşa cəbhəsi qurtarana qədər qoy onlar Moskvada işləsinlər. Sonra Sizdən xahiş edəcəyəm ki, bizim əsgəri hissələrimizi təşkil etmək üçün onları buraya göndərəsiniz. Bu müddətdə onların qayğısına qalmaq lazımdır.

***Kommunist salamı ilə: N.Nərimanov***
***01 avqust 1920-ci il***".

Qayğıkeş Nəriman Nərimanov hər iki generala iyulun 31-də öz imzası ilə belə bir vəsiqə də vermişdir:

"Bu vəsiqəni təqdim edən Əli ağa Şıxlinski yoldaş Azərbaycan İnqilab Komitəsi tərəfindən gələcəkdə döyüş cəbhəsinə yola düşmək üçün Moskvaya – RSFR İnqilabı Hərbi Şurasının sərəncamına göndərilir.

Bütün hərbi və mülkü idarələr, ayrı-ayrı şəxslər yol boyu Əli ağa Şıxlinski yoldaşa mənzil başına maneəsiz çatmağa və ona qanuni kömək göstərməyə çağırılır.

Əli ağa Şıxlinski yoldaşda olan əşyalar və ərzaq məhsulları müsadirə və rekvizisiya oluna bilməz.

***Azərbaycan İnqilab Komitəsinin Sədri***
***Nəriman Nərimanov***

***İdarəsi işləri rəisi ............ imza***".

Bu minvalla hər iki general Azərbaycanda olan daşnak-bolşevik təhlükəsindən xilas oldular. Onlar bir il iki ay Moskvada yaşayıb, Ali Topçuluq Məktəbində müəllim işlədilər.

1921-ci il noyabrın 18-də hər iki generalı Nəriman Nərimanov xahiş və minnətlə Bakıya qaytara bildi.

* * *

***Bəli, istəyirsiniz adınız baqi qalsın, tək özünüz üçün, öz nəfsiniz üçün yaşamayınız, ümumi və müştərək məqsədə çalışınız.***

***Nəriman Nərimanov***

Nəriman Nərimanov yalnız bu iki məşhur generallımızı bolşevik qətlindən xilas etməmişdir. Az müddət Azərbaycan Respublikası Xalq Komissarları Sovetinin sədri olanda general Firidun bəy Vəzirovu, general-qubernator Xosrov bəy Sultanovu, polkovnik Gəray bəy Vəkilovu və onlarca hərbçini, ziyalını güllələnməkdən xilas etmişdir.

1920-ci il bolşevik-daşnak işğalından sonra Bakıda qalmağa ehtiyat edən Məmməd Əmin Rəsulzadə Lahıca getdi. Həmin il may ayının 16-da Moskvadan Bakıya gələn Nəriman Nərimanov M.Ə.Rəsulzadənin də bolşevik-daşnak təhlükəsindən xilas olması üçün təşəbbüs göstərmişdir. Məmməd Əmin Rəsulzadə "Stalinlə ixtilal xatirələri" əsərində (səh.23) bu qayğını etiraf etmişdir. O yazır: "Kommunist" qəzetinin 1920-ci il iyun ayı nüsxəsində Azərbaycan Sovet hökumətinin sədri doktor Nəriman Nərimanovun imzası ilə ilk səhifədə rəsmi bir məlumat vardı:

***"Məmməd Əmin Rəsulzadəni vilayətlərdə hər cür təhlükədən qorumaq məqsədilə Sovet hökuməti onun paytaxta gətirilməsinə qərar vermişdir. Burada isə həyatı əmniyyət (qorunması) altındadır, əhalinin bu xüsusda əmin olmasını və həyəcana düşməməsini tövsiyə edirik"***.

Həmin kitabın 24-cü səhifəsində yenə Məmməd Əmin Rəsulzadə yazır: ***"...Başda doktor Nəriman olmaqla, Sovet Azərbaycanının bütün nüfuzlu şəxsləri "Məmməd Əminin başından bir tük belə əskik olmamalıdır!"*** – demişdi.

Həmin dövrdə Nəriman Nərimanov ziyalılarımıza da qayğısını əsirgəməmişdir. Məşhur alim-ədəbiyyatşünas Salman Mümtazın qızı Şəhla xanım atası ilə bağlı şahidi olduğu əhvalat haqqında yazır:

"1920-ci ilin əvvəllərində atama yaxın bir dostu deyib ki, Biləcəridə kimdəsə nadir bir əlyazması var. Atam tələsik evə xəbər verib gedib. O, vağzala gələndə qatar tərpənib. Yüyürüb bir əlilə vaqonun dəstəyindən tutub. İkinci əli dəstəyə çatmayıb və qatar onu sürüyüb. Camaat xəbər tutub qatarı saxlatdırır.

Fayton səsi gələndə darvazaya yaxınlaşdım. Gördüm ki, atamın paltarı cırılıb. Tozun içindədir. Onu faytondan bir neçə nəfər qucağında düşürüb evə gətirdi. Bir aydan çox yataqda qaldı. Sonra çətinliklə gəzdi.

1921-ci ildə yenə Biləcəriyə əlyazmaların dalınca gedəndə isə atam yatalaq xəstəliyinə tutulmuşdu. ***Bunu eşidən Nəriman Nərimanov bizə gəlmişdi. O gedəndən sonra atama baxmaq üçün həkim təhkim etdi, evimizdə vanna otağı düzəltməklə yanaşı, telefon da çəkdirdi. Nərimanov işinin çoxluğundan atamın yanına gələ bilmirdisə də, hər gün telefonla atamdan xəbər tuturdu. Nəriman Nərimanov atamı "Şərqin ədəbiyyat açarı" adlandırmışdı*** (Şəhla xanım Mümtazzadə, "Xatirə" məqaləsi, "Ədəbiyyat və incəsənət" qəzeti, 30 noyabr 1974-cü il).

***Görədil Hərbi İstirahət evi***
***18 yanvar 2012-ci il***

# VƏTƏNİ CANDAN ƏZİZ TUTAN GENERAL
**(Sənədli hekayə)**

***Azərbaycan nişançı firqəsi gəncdir. Azərbaycan qızıl əsgərlərinin keçmiş təcrübəsi azdır. Ona görə də onlar öz hərbi biliklərini artırmaq üçün daha çox çalışmalıdırlar. Onların hərb zamanında döyüşkən olacaqlarına tam əminəm. Azərbaycan qızıl əsgərinə səmimi salamlar!***

***Bakı, 1925-ci il 18 aprel***
***Mixail Frunze***

1925-ci il aprelin 16-da SSRİ Hərbi və Dəniz İşləri Xalq Komissarı M.V.Frunze ikinci dəfə Azərbaycana gəldi. Qarnizon qoşunları Salyan kazarmaları önündə ona təqdim olundu. General Əli ağa Şıxlinski Azərbaycan komanda heyəti məktəbinin rəis müavini vəzifəsində idi. Komissar generalla köhnə tanış kimi (onlar 1916-cı ildə Qərb cəbhəsində tanış olmuşdular) səmimiyyətlə görüşdü və xahiş etdi ki, indi keçiriləcək müxtəsər təlim vaxtı onunla azərbaycanlı əsgərlər arasında tərcüməçi olsun. Azərbaycanlı əsgər və zabitlərin hərbi işə marağını, hərbi biliyini yoxlamaq üçün Mixail Frunze əvvəlcə sadə suallar verirdi. Cavablardan razı qalan komandan suallarını getdikcə mürəkkəbləşdirirdi. Üz-gözündən hiss olunurdu ki, topçuların həm təlim, həm də taktiki biliyi onu qane edir. Xoş əhvali-ruhiyyə ilə şən-şən gülümsünən komandan aradabir onlarla zarafatlaşırdı: “Nişanlın varmı, ona məktub yazırsanmı? Çalış, Azərbaycan gözəlinin gözünü yolda qoyma. Sən Vətəni, torpağı, ana-bacına görə qoruyursan, yoxsa sevgilin üçün?” – suallarına aldığı cavablara bəzən qəhqəhə çəkib gülürdü.

Arabir də Türk-Qırğız dilində bildiyi sözləri işlədirdi: "Siz cigidsiniz, cigid qorxmaz!" – deyəndə topçu əsgərlər arasında pıçhapıç düşürdü. Onların narahatlıqdan xilas etmək naminə Frunze özü haqqında fəxrlə deyirdi: "Mənim əsl-nəcabətim Bessarabiyadandır. Orada da qonum-qonşumuz türklər və qırğızlar idi. Ötən il Türkiyədə olanda türkcə danışdığımı eşidənlər deyirdilər: Ələdüşməz qırmızı rus-türküdür bu!" Əli ağanın sevinci Frunzeninkindən qat-qat artıq idi. Zarafat deyildi, komandan nə əsgərlərdə, nə də bir zabitdə qüsur olduğunu demədi, halbuki qüsur vardı, istəsə deyərdi. Xırda-para qüsuru görürdüsə, üstünü vurmurdu. Şıxlinski özü də hiss edirdi ki, komandan gəncləri orduya həvəsləndirir. Topçulara kağızsız qısa nitq söyləyən Frunze sonda fəxrlə qeyd etdi ki, Azərbaycan diviziyasının əldə etdiyi müvəffəqiyyətlər xüsusilə gözə çarpır. Bu diviziyada nizami duruş və hərbi təlim tamamilə təqdirəlayiqdir. Sizin pis əsgər, zəif zabit olmağa haqqınız yoxdur. Çünki sizin xalqa, sizə örnək olan general Səməd bəy Mehmandarov və Əli ağa Şıxlinski kimi şöhrətli sərkərdələriniz var. Çox sağ olun ki, onların adına layiq xidmət edir və onların yaxşı davamçılarısınız.

Təlimdən sonra Frunze general Əli ağa Şıxlinskidən soruşdu:

– Siz nə fikirdəsiniz, batalyonlarda top tətbiq etməyə dəyərmi?

– Əlbəttə, dəyər, – cavabını verdi general.

Mixail Frunze:

– Bununla biz piyadanın yükünü artırmış olarıqmı?

– Yox, artırmırıq, çünki qoşunda top, cibdə qızıl kimi bir şeydir: o nə qədər çox olsa, sahibinin ruhu da o qədər yüksək və özü də o qədər ürəkli olar. Başqa cür desək, orduda top nə qədər çox olsa, o qədər cürətlə hücum edər. Bir də ki, Mixail Vasilyeviç, – deyə general izahını davam etdi, – "batalyon topları" sözü düzgün olmaz, çünki orada minaatanlar və əldə sürülən kiçik toplar da olacaq ki, bunlar əsl toplar deyil, onların yalnız surroqatlarıdır. Batalyonlara verilən minaatanları və kiçik topları top deyil, batalyonun atəş vasitələri adlandırmaq lazımdır.

– Çox gözəl, çox yaxşı təkliflərdir, yoldaş general! – deyə ürəkdən səmimiyyətini bildirən M.V.Frunze: – Mən həmişə demişəm və yenə də deyirəm, Azərbaycanda general Şıxlinski üçün fəaliyyət sahəsi çox dardır. Sizin də, general Səməd bəy Mehmandarovun da iş yeri Moskvadır. Axı, sizlər vaxtilə ordulara komandanlıq etmisiniz. 1921-ci ildə yoldaş Nərimanovun təkidli tələbi olmasaydı, Sizi Azərbaycana qaytarmayacaqdıq… Yaxşı, nə üçün Moskvaya qayıdıb orada işləməyə, bizə kömək etməyə razılıq vermirsiniz?

General Əli ağa Şıxlinski:

– Əvvəla, arvadım xəstədir, yaş ötüb kövrəlib, qohum-əqrəbadan ayrılmaq istəmir, – dedi. – Elə mən özüm də... – "Qocalmışam" sözünü dilinə gətirə bilmədi. – 1916-cı ilə baxmayın, onda cavan idim. Vaxtilə rütubətli çəmənlərdə, su dolu səngərlərdə o qədər qalmışam ki, indi məndə şiddətli yel ağrıları baş qaldırıb. Bu vəziyyətdə qorxuram ki, vicdanla işləyə bilməyəm. Sizin dəvətinizi topçu müfəttişi, keçmiş şagirdim Mixail Mixayloviç Ratkeviç mənə çatdırıb. Çox sağ olun ki, unutmamısınız. Yalnız səhhətimə və ailə vəziyyətimə görə dəvətinizi qəbul edə bilmirəm…

Mixail Frunze əlini generalın çiyninə toxundurub:

– Söz verirəm ki, Sizə çətin və məsuliyyətli iş tapşırmayacağıq. Mənzil və təqaüdlə də təmin edərik, sakitcə yaşayacaqsınız. Hərdənbir məsləhət üçün Sizə müraciət edəcəyik. Buna ehtiyacımız var.

Əli ağa Şıxlinski fikirli-fikirli dedi:

– Mixail Vasilyeviç, axı Moskvada daha yaxşı hərbi mütəxəssislər var. Elə götürək mənim dostlarım general Aleksey Brusilovu, Yevgeni Barsukovu, bir də son vaxtları Voroşilov soyadlı generalı çox tərifləyirlər.

Frunze ehtiyatla ətrafına boylandı. Onlar əsgər və zabitlərin yığışdığı gur yerdən xeyli aralanmışdılar. Şıxlinski neçə dəfə ayaq saxlayıb geri dönmək istədisə hiss elədi ki, narkom nə dayanmaq, nə də geri qayıtmaq istəmir. Yanğı ilə danışa-danışa,

asta-asta hey irəliləyirdilər. Onlar qarnizonun qərb tərəfinə doğru gedirdilər. Sonuncu qazarmanı keçib, geniş təlim-məşq meydanına çıxdılar. Yenicə susan Frunze dərdli adamlar kimi dərindən nəfəs aldı. Onun sifətində əzab nişanələri vardı. Topçularla görüşdəki şən-şux Frunzedən əsər-əlamət yox idi.

– Əli ağa, – dedi, – sizin dostunuz general Brusilov qocalıb, xəstəhaldır. Karlovı-Varıya istirahətə, müalicəyə getdi. Düzü, indiki hakimiyyətin də ona münasibəti sən deyən yaxşı deyil. Belə ağıllı, bilikli, mərd bir generalı qəbul etmək istəmirlər, köhnəliyin qalığı deyə ona hədyanla baxırlar. Məhz ona olan pis münasibət onu ruhdan salıb qocaltdı. Ona görə də başını götürüb müalicə adı ilə aradan çıxdı və düz də elədi. Yevgeni Barsukov isə bildiyiniz kimi, sırf hərbi nəzəriyyəçidir, kəsəsi, elm xadimidir. Praktik işlərdə məharəti yoxdur. Adını çəkdiyiniz Voroşilovda isə mən yaltaqlıqdan başqa heç nə görmürəm. Nə hərb elmində, nə də taktiki təcrübədə onun bacarığı yoxdur. Siz allah, məni bağışlayın, açıq danışdığım üçün…

– Sizi başa düşürəm, Mixail Vasilyeviç, düz sözə nə deyəsən. Mənə Voroşilovla nə işləmək, nə də tanışlıq qismət olmayıb.

Mixail Frunze dərhal dedi:

– Yaxşı ki, qismət olmayıb. Bilirsiniz, bu saat Qızıl Ordu deyilən təşkilatda vəziyyət necədir? İndiki halda bu ordu döyüş qabiliyyətini tamamilə itirib, pərakəndə intizamsız quldur dəstəsini xatırladır. İnanın, mən sizə bu sözləri Baş Hərbi İdarənin başçısı kimi deyirəm. Sizi Dünya müharibəsindən yaxşı tanıdığıma görə ürəyimdəkiləri açıb söyləyirəm. Yeni qurulan hökumətə belə ordu yaramır. Hakimiyyət orduya baxmır, yuxarı eşelon siyasi çəkişmələrlə məşğuldur.

– Mixail Vasilyeviç, yaxşı hərbi kadrların əksəriyyəti mənə çatan məlumata görə mühacirətə gedib. Onları çox nahaq buraxıblar.

Frunze:

– Buraxmaq yox, qovdular… Dərd burasındadır ki, 1918-1920-ci illərdə burada qalan bacarıqlı hərbi kadrların da əksəriyyəti

güllələndi, ya da bu saat türmələrdə çürüyürlər. Eloğlumuz Hüseyn xan Naxçıvanski yadınızdadırmı?

– Əlbəttə, əlbəttə, çox böyük sərkərdə idi. Heyf ondan. Deyirlər Hüseyn xan güllələnəndən sonra ailəsi xaricə mühacirətə gedib.

– Hüseyn xanı 1919-cu ildə "çarın qohumusan, ona məktub yazmısan ki, hakimiyyətdən imtina etmə" faktını bəhanə gətirib güllələdilər. Eləcə də süvari generalı Aleksey Kaledini, qardaşı general Vasili Maksimoviçi, Kolçakı isə İrkutskda güllələdilər. Denikini ölkədən didərgin saldılar. General Dmitri Baqrationu, Eris xan Əliyevi və onlarca belələrini Leninə sui-qəsddən sonra güllələdilər. İndi Qızıl Ordu deyilən qurum fakt başsızdır. Ordu keçmiş praporşik və podpraporşiklərin ümidinə qalıb.

Əli ağa Şıxlinski onun səmimiyyətinə bir tərəfdən inanır, o biri tərəfdən qəlbinin dərinliyində şübhə onu boğurdu. O da ürəyindəkiləri, Sovet hökuməti dövrünün beş ilində şahidi olduğu ədalətsizlikləri danışıb yüngülləşmək istəyirdi. Amma ehtiyat edirdi…

Frunze papirosunu atıb ayağı ilə əzdi:

– Siz də, – dedi, – görürəm ki, balaca respublika olsanız da vəziyyət ordu barədə pis deyil. İki gündür gəzib görürəm. Mənim bildiyimə görə çar və müsavat dövrünün zabitlərini, hətta sıravi əsgərlərini də orduda saxlamısınız. Çox da yaxşı eləmisiniz. Bu, yəqin ki, Səməd bəyin və Sizin təşəbbüsünüzdür. Bizdə isə deyirlər ki, fəhlə-kəndli gəncləri orduya çağırın, qoy onlar komandanlıq etsinlər. Axı, istər kəndlinin, istərsə də fəhlənin peşəkar hərbçi kimi yetişməsinə bir qərinə vaxt gərəkdir. Əvvəla, onların əksəriyyəti sırf savadsızdır. Belə olan halda savadsız adamı komandir qoymaq olarmı?! Əlbət ki, yox!

– Mixail Vasilyeviç, bizdə hələ bundan qat-qat yaxşı ola bilərdi. Keçmiş Az.ÇK-nın sədri, namərd Semyon Pankratov olmasaydı. O, bizə, bizim orduya çox ağır zərbələr vurdu. İyirminci ildə yüzlərlə, minlərlə əsgər və zabitlərimizi, qabaqcıl ziyalılarımızı güllələtdi, didərgin saldı, Sibirə göndərdi. Müsavat generalı kimi yalnız Səməd bəylə mən qalmışam. Ona da Nəriman

Nərimanov səbəbkar oldu. Düz üç dəfə bizi həbs etdi, sorğu-sual, min cür baş ağrısı. Bircə ona şükür etdik ki, anamız namaz üstə imiş, rəhmətlik Nəriman tez xəbər tutub bizi xilas etdi.

Qaça-qaça gələn cavan bir kapitan onların beş-altı addımlığında dayandı:

– İcazə verin, yoldaş komandan, məruzə edim. Bizim komandir Sizi nahara dəvət edir.

Bikef Mixail Frunze:

– Gedin, biz də indi gələrik, – deyib üzünü yenidən Əli ağaya tutdu. – Mən buradan başqa respublikalara da gedəcəyəm. Səfərim bir aya qədər davam edəcək. Xahiş edirəm, bu müddətdə götür-qoy edəsiniz. Moskvaya qayıdanda bu məsələ barədə yenə düşünməli olacağam.

– Fikirləşərəm, bəlkə, bir çıxış yolu tapdım. Hələlik söz vermirəm…

Frunze gülə-gülə:

– Siz evdəki "generalla" oturub yaxşı-yaxşı düşünüb bir qərara gəlin. Mən öz adımdan da xanımınıza cansağlığı arzu edirəm. Ümidim var ki, Moskvada yenidən görüşəcəyik… – dedi.

Təəssüf ki, həmin il oktyabrın otuz birində komandan M.V.Frunze qəflətən müəmmalı şəkildə vəfat etdi. Cərrahiyyə əməliyyatı aparan Mərkəzi Komitənin həkimi, milliyyətcə erməni Poqosyants bicliklə məhz Frunzenin bədəninin tab gətirmədiyi anesteziya1 tətbiq etmişdi. Komandan cərrahiyyə stolunda keçindi. Bu ölümün qəsdən edildiyini dəqiqləşdirən Frunzenin arvadı Sofiya Alekseyevna intihar etdi. Yazıçı Boris Plinyak bu faciədən otuzuncu illərdə "Söndürülməmiş ay dastanı" əsərini yazdı. Həmin povest ona baha başa gəldi. Onu 1937-ci ildə güllələdilər. General Əli ağa Şıxlinski isə ömrünün axırına kimi (1943-cü il avqustun 18-i) candan əziz bildiyi vətəni Azərbaycanda qalıb işlədi.

[1] Anesteziya – keyləşmə

# DİLÇİ – ALİM – GENERAL

Məşhur generalımız Əli ağa Şıxlinski hərb elmi ilə müntəzəm məşğul olan yeganə sərkərdəmizdir. O, ötən əsrin sonlarından başlayaraq Rusiyada dərc olunan müxtəlif qəzetlərdə, "Artilleriya Zabitləri Məktəbinin xəbərləri"[1] jurnalında hərbi elmi-publisistik məqalələrlə çıxış etmişdir. 1910-1914-cü illərdə Luqa şəhərində nəşr olunmuş "Səhra toplarının cəbhədə işlədilməsi", "Divizion miqyasında topçu manevrlərin təşkili üçün təlimat", "Topçu zabitləri məktəbində Əli ağa Şıxlinski tərəfindən oxunmuş mühazirələrin xülasəsi", "Öz qoşunlarının başı üstündən top atışı haqqında" kitabları Port-Artur qəhrəmanı Əli ağa Şıxlinskiyə şan-şöhrət gətirmişdir.

1918-1920-ci illərdə və sovetlər dövründə də general Əli ağa Şıxlinski hərbi elmi mövzusunda silsilə məqalələrin və hərbi kitabların müəllifi olmuşdur. Onun 1926-cı ildə "Azərbaycan hərbi redaksiyası" tərəfindən nəşr olunmuş 300 səhifəlik "Rusca-türkcə qısa hərbi lüğət"i hərbi nizamnamələrin, hərbi elmi ədəbiyyatın tərcümə olunmasında böyük əhəmiyyət kəsb etmişdir. Nadir nüsxəyə çevrilən lüğət bu gün də misilsiz dəyərə malikdir.

1920-ci ildə onun təşəbbüsü ilə yaranan Bakı qarnizonunun Hərbi Elmi Cəmiyyəti, "Hərbi bilik" jurnalı və "Hərbi" nəşriyyat bizə "Əli ağa Şıxlinski Azərbaycanda hərb elminin banisidir" deməyə haqq verir – sovetlər dövründə onun XI Orduda məcburi xidmət etməsi, bolşeviklərin ona çar və müsavat generalı kimi mənfi münasibətləri onun əlyazmalarında, müasirlərinin xatirələrində açıq-aydın bilinir. Totalitar rejimin "gözükölgəli" etdiyi general Əli ağa Şıxlinski ona görə də bu illərdə bütün gücünü, biliyini hərb elmi ilə məşğul olmağa daha çox sərf etmişdir.

[1] Bu hərbi jurnal 1912-ci ildə Əli ağa Şıxlinskinin təşəbbüsü ilə Sankt-Peterburqda nəşr olunmuşdur – ***Ş.N.***

Onun "Hərbi bilik" jurnalında və "Kommunist", "Bakinski raboçi" qəzetlərində "Gələcək müharibədə toplar", "Topların piyada və süvarilərlə qarşılıqlı əməliyyatı", "Topların dağlıq yerlərdə atəş xüsusiyyəti haqqında", "Alay topları haqqında" silsilə məqalələri dərc olunmuşdur.

Bu günlərdə "Kommunist" qəzetinin 1926-cı il fevral ayı nömrələrini vərəqləyərkən məşhur sərkərdəmizin indiyədək bizə məlum olmayan dəyərli bir məqaləsinə rast gəldik. "Darılmaq istəməz" adlı məqalə tam artilleriya generalı Əli ağa Şıxlinski bu gün də vacib olan dilimizin saflığından, istər danışığımızda, istərsə də yazılarımızda türkləşməni, türk hərbi istilahlarını daha vacib bilir.

O yazır: "Dili türkləşdirmək istəyənlər Azərbaycanın uca dağlarında, dərin dərələrində yaşayan kəndlərə, yenə kəndlərə getməlidirlər. Şəhərlərdə türk sözü qalmamışdır. Onların yerlərini ərəb, fars, rus sözləri tutmuşdur. Xüsusən, hərbi istilahlar üçün kəndə üz çevirməlidirlər. Çünki topoqrafiya istilahlar və hər dürlü silaha aid sözlər orada işlənir. Şəhərdə isə işlənən sözlərin çoxu dükan-bazar, arşın-girvənkəyə aiddir. Biz kəndlərimizdə saxlanmış sözləri tapmalı, yığmalı və yaşatmalıyıq. Unudulmuş türk sözləri yalnız danışmaq üçün deyil, ən gərəkli kitablarımıza yazılmalıdır ki, bu sözləri öyrənmək oxuyanların yarağı olsun".

General Əli ağa Şıxlinskinin səksən altı il əvvəl qələmə aldığı "Darılmaq istəməz" məqaləsinin üslubuna, cümlə quruluşuna toxunmadan təqdim edirəm.

## DARILMAQ İSTƏMƏZ

"Müvəqqəti topçu təlimnaməsi"nin (atış qaydalarının) tərcüməsi Səttarov yoldaşı çox acıtmışdır ("Kommunist", №81). Yoldaşın tənqidi kəskin, fəqət büsbütün haqsızdır. Məqalə yeni araya çıxmış təlimnaməni görməyən gənc topçularımızın ürəklərini qopara bilər. Buna görə də cavab verməyi özümə borc bildim.

Azərbaycan Xalq Maarif Komissarlığı yanında düzəlmiş "İslahat" komisyonu dilimizdən yad sözlərin çıxarılmasını və yerlərinə mümkün olduqca türk sözlərin qoyulmasını qərara almışdır. Hərbi nəşriyyat komisyonu da bu yol ilə getməyə çalışır. Əlbəttə, yanlışımız olmaya bilməz. Yanlışsız kim işləyə bilər? Təlimnamə müvəqqətidir. Bir ya iki ildən sonra dəyişdiriləcəkdir. O vaxtadək komandalarımızın sınağı (təcrübəsi) və yazıçılarımızın tənqidlə yanlışlarımızı düzəldə biləriz, fəqət tənqidi də bilikli adamlar etməlidirlər. Bir çoxları hər il istilah dəyişdirilməyəcəyini söyləyə bilərlər. Ancaq öz dilini ədəbiyyat və elmi uydurmaq üçün uzun-uzun illər çalışmalı və götürülmüş münasibətsiz sözlər daha uyarları ilə dəyişməlidir. Tərcümə etdiyimiz rus təlimnamələrində də 200 ildən artıq işlənən islahatların çoxu inqilabdan sonra dəyişdirilmişdir. Bəzi istilahlar 1922-ci ildən indiyədək 2-3 dəfə dəyişdirilmişdir. İndi Səttarov yoldaşın anlamadığı və tənqid etdiyi sözlərə keçəlim. Təlimnamədə yazılmış:

1) "**Gecikdirənli və gecikdirənsiz – toqquşmalı tapası və həmçinin ölçülməli tapası olan qumbara".** Bunun tərcüməsi belədir:

"Граната с взрывателями с замедлением и без замедления, а также с дистанционной трубкой".

Bunlar topçu istilahlarıdır. Kim olursa olsun, topçuluq işi ilə tanış deyilsə, bu istilahları anlamaz.

2) ***"Danə"*** fars sözüdür. Və əsl mənası "taxıl toxumu"dur. Osmanlı türkləri bu sözü (400-500 il bundan əvvəl) "atdığına" uyduranda topun gülləsi yumru və bütün idi. Bu güllələrə rusca "*qranata*" deyil, "*yadro*" deyilir. İndiki top gülləsinin içi barıtı ilə doldurulmuş...[1] yenə ona *qumbara* deyilir. Osmanlılar əski adı "*danəni*" – yeni gülləyə də qoymuşlarsa, bizə bu, əl verməz.

3) ***Təpə.*** İnsan və heyvan bədəninin yuxarısına, dağın başına.

Hər bir şeyin yuxarı ucuna və bir də kiçik dağa deyilir. Təpəyə rusca bir neçə məna verilə bilər. (*Temya*) – xolma, verşina. *Təpə*,

[1] İllərin sarılıb-solmuş sətirlərində bu cümləni oxumaq mümkün olmadı – ***Ş.N.***

yaxud *tipa* şüşənin ağzını qapayan tıxaca deyilir ki, ruscası "propka"dır. (Şəmsəddin Samini sözlüyünün 370-878-ci səhifələrinə baxın)[1]. Topçuluqda *təpə* top gülləsinin ağzına burulan və yeri gələndə onun iç barıtına od verən alətə deyilir ki, ruscası "trupka"dır. Bununla *təpə* ilə *tipa*-nın arasında böyük fərq vardır.

4) ***Mərmi*** ərəb sözüdür. Mənası da "atılan şey" deməkdir. "Roma" – atdı, tulladı; "atdıq" isə türk sözüdür: "atdıqdan" yaranıb. Dilimizin qanuni üzrə uydurulmuş sözüdür ki, mənası mərmidir. "Atdıq" istilahının doğruluğunu göstərmək üçün iki cümlə alalım: "Atdığınız nədir?" – Qumbaradır. Qonşu batareyanın atdığı nədir? – Şrapnerdir".

5) Rusca (*vzrıvatel*) və ya (*udarnaya trubka*) dəniləni. Osmanlılar "*musadəməli*" yerinə biz türk sözü "*toqquşmalı*" işlədirik.

6) ***"Təyyarə",*** osmanlılar *uçar* şeyə deyirlər. *Ucaya* təyyarə deyirlər. Maarif komissarlığının istilahlar komisyonu və hərbi nəşriyyat komisyonunun qəbul etdiyi üsula görə bütün Avropa və Amerikada işlənən texniki istilahlar – məsələn: *aeroplan, avtomobil, lokomotiv* və sonra türkcəyə çevrilməlidir. Fəqət rusun (*letçik*)inə – "*uçucu*" və (*samolet*)una – "*uçqaç*" deməyi biz "*təyyarə*" və "*təyyar*"dan daha yaxşı sanırıq.

7) ***Şöbə*** ərəb sözüdür və əsl mənası türkcə – "*butaq*"dır. (Osmanlı ləhcəsində "dal", "budaq", Ş.Sami sözlüyünün 778-ci səhifəsinə baxın). Ruscada (*otdel*) sözünün əsl mənası ayrılmış şişin adıdır. Türkcə "*butaq-butaq ayrılmaq*" təbiri çox işlənir. Ərəbcə "*şöbə*" deməkdən isə öz dilimizcə "*butaq*" deyə bilərik.

8) ***Nişangah*** fars sözüdür. Əsl mənası "nişan qoyulan yer"dir. Türkiyə ordusu Azərbaycana gəlincəyə qədər heç kəs top və tüfəngi nişana doğrultmaq üçün olan alətə nişangah deməzdi. Deyilməməlidir də, çünki bu, yanlış bir istilahdır.

---

[1] Şəmsəddin Sami (1850-1904) – məşhur türk leksikoqrafı və yazıçısı. Şərqdə altıcildlik "Qamus ül-əlam" ensiklopediyasını, ikicildlik "Qamusi-fransəvi" və yenə ikicildlik "Qamusi-türki" kimi qiymətli türk dillərinin izahlı lüğətinin müəllifidir. Şəmsəddin Saminin əsərlərində Azərbaycana dair məlumatlar vardır. Onun "Dəmirçi Gavə" pyesi 1920-ci il aprel çevrilişindən əvvəl Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur – ***Ş.N.***

*Nişangah* yerinə biz "*tuşlamağ*" yazdıq. Fəqət bu söz Səttarov yoldaşı çox acıtmışdır. Və öylə acıtmışdır ki, özü də bizim ağır günahlarımıza uğradan sözündən yeni söz çıxarmışdır (*düzümləmə*). "Tuşlamağ"ı biz "tuşlama" sözündən düzəltdik. "*Tuşlama*" isə "*navodka*", "*priselivanie*" sözlərinə ən yaxın türk sözüdür.

9) **Tuşlama** – yəni *tuş qoyma, quş tutma*. "Tuş" isə "muzey" sözü, yaxud bəzi qəzalarda işlənən sözlərdən deyildir.

Azərbaycanın Qazax, Gəncə, Ağdam, Cəbrayıl və başqa qəzalarında, Gürcüstanın Borçalı, Sığnaq qəzalarında, Ermənistanın İrəvan, Yeni Bəyazid, Sürməli və başqa qəzalarında bu söz bəllidir. "Tuş" sözü yalnız Zaqafqaziya "muzeylərində" deyil, başqa türk ölkələrində də işlənir. Cığatay ləhcəsində: "*tuş*" – *tərəf, səmt* deməkdir: "*Tuşlamağ*", "*tuşlamaq*", "*duşlatmaq*" – "*qarşı-qarşıya gəlmək*". "*Hər tuşda*" – *hər səmtdə* deməkdir. "*Tuş çağı*" – *günorta*, yəni *gün baş üstündə olan çağ* deməkdir.

Qırğız ləhcəsində: "*Tuşda*" – *qarşıda*. "*Tuşuna*" – *üz-üzə*. "*Tuşçu*" – *qarşılayıcı* deməkdir.

Başqırd ləhcəsində: "*Tuşyanı*" – "*günorta səmti*" deməkdir.

Altay ləhcəsində: "*Tuşdamaq*" *qarşılamaq, qabaq-qabağa* deməkdir.

Səttarov yoldaş tuşlamaq yerinə düzənəmək deyir. Türk dilində belə söz yoxdur, ola da bilməz.

"*Düzən*" əsl türk sözüdür, mənası da ərəbcə *tərtib, nizam* (Ş.Sami, 626-cı səhifə), rusca isə "*poryadok*"dur. Səttarov yoldaş göstərdiyi "*qayda*" (*pravilo*) deməkdir.

Səttarov yoldaşın arzusu çox böyükdür. Onu yaratmaq mümkün deyildir. Yoldaş Səttarov kənddən yeni gələn əsgərlərin və bütün xalqın topçu təlimnaməsini görən kimi anlamasını istəyir. Bütün xalqa bu heç lazım deyildir. Topçu əsgərlərinə də bu təlimnaməyə öncə komandanlar ağızdan və göstərişlə öyrədirlər.

Ancaq bundan sonra istilahları öyrənmiş savadlı əsgərlər təlimnaməni özləri oxuyub anlaya bilərlər. Yalnız Azərbaycanda deyil, bütün ölkələrdə bu böylədir.

Elm, fənn və sənət kitablarını anlamaq üçün ya bir işlə tanış olmaq və ya bir öyrədiciyə müraciət etmək lazımdır. Əsgərlərə o komandanları öyrədir.

Yeni çıxmış təlimnamənin istilahlarına alışanadək komandanlarımız da bir qədər çətinlik çəkəcəklər. Fəqət bu çətinlik iki-üç həftədən artıq sürməyəcəkdir.

Səkkiz il bundan əvvəl Azərbaycana gələn türk ordusu içimizə bir neçə ərəbcədən alınmış hərbi istilahlar atıb getmişdir. Nədən isə biz bu yad sözləri atmaq istəmirik. Bizə deyirlər ki, eşidilməmiş türk sözlərini ortalığa çıxarmayın. Fəqət, Türkiyə ordusu gəlməmiş ərəbcə hərbi istilahlar hansı Azərbaycanın qəzalarında eşidilmirdi?

Dili türkləşdirmək istəyənlər Azərbaycanın uca dağlarında, dərin dərələrində yaşayan kəndlərə, yenə kəndlərə getməlidirlər, şəhərlərdə türk sözü qalmamışdır. Onların yerlərini ərəb, fars, rus sözləri tutmuşdur. Xüsusən, hərbi istilahlar üçün kəndə üz çevirməlidirlər. Çünki topoqrafiya istilahları və hər dürlü silaha aid sözlər orada işlənir. Şəhərdə isə işlənən sözlərin çoxu dükan-bazar, arşın-girvənkəyə aiddir. Biz kəndlərimizdə saxlanmış sözləri tapmalı, yığmalı və yaşatmalıyıq. Unudulmuş türk sözləri yalnız danışmaq üçün deyil, ən gərəkli kitablarımıza yazılmalıdır ki, bu sözləri öyrənmək oxuyanların yarağı olsun.

*Danə, mərmi, təyyarə, şöbə, nişan alma, tərtib* və bunlar kimi ərəb və ya fars sözlərini öyrənə bilən türklər *qumbara, atdıq, uçqaç, budaq, tuşlama, düzən* və bu kimi türk sözlərini də öyrənə bilməzlərmi? (***Əli ağa Şıxlinski, "Kommunist" qəzeti, №38-39, 14-15 fevral 1926-cı il).***

# İLK HƏRBİ MEMUARIMIZ

***General Əli ağa Şıxlinski içərisindən çıxmış olduğu Azərbaycan xalqına bütün varlığı ilə sadiq olub, onu sonsuz dərəcədə sevib. Əli ağa Şıxlinskinin "Xatirələrim"i son dərəcə maraqlı və ibrətlidir. Bunu bütün vətənimizin geniş oxucu dairələrinə tövsiyə etməli, ordunun komanda heyəti onunla tanış olmalı, topçular isə öyrənməlidirlər.***

***Əli ağanın aldığı hərbi tərbiyə, təhsil, orduda xidməti, şanlı döyüş fəaliyyəti və keçdiyi yol elə bir həyat nümunəsidir ki, öz Vətəninin şərəf və namusunu, azadlıq və istiqlaliyyətini qorumaq kimi müqəddəs bir vəzifəyə layiq olmaq istəyən hər bir kəs ondan nümunə götürməlidir.***

***Yevgeni Barsukov,***
***general-mayor, hərb elmləri doktoru,***
***professor, Dövlət mükafatı laureatı***

Durğunluq dediyimiz illərdə şöhrətli sərkərdəmiz Əli ağa Şıxlinskinin "Xatirələrim" hərbi memuarına izahlar və qeydlər fəsli əlavə etməklə yenidən nəşrə hazırladım (1982-1984). Kitabı hansı nəşriyyata təqdim edirdimsə, bir-iki aydan sonra özümə qaytarırdılar ki, çar və müsavat generalı olub, nəşr edə bilmərik. Nəhayət, mərhum xalq yazıçımız İsmayıl Şıxlıya müraciət etdim. Daha doğrusu, ondan kömək istədim. Qovluğu götürüb İsmayıl müəllimlə birgə nəşriyyata getdik. Mübahisələr, yersiz iradlar başlandı, nə başlandı…

Vüqarla əyləşib, səbirlə bu nadanları dinləyən İsmayıl Şıxlının əvəzinə mən əsəbiləşirdim. Yerimdə otura bilmirdim. Onun səbrinə heyran qalmışdım. Dinib cavab vermək istəyirdim. Düzü, İsmayıl müəllimdən çəkinirdim. O biri tərəfdən də burdakıların hamısı məndən yaşca çox böyük idi.

Qocalar o qədər "alovlu" danışırdılar ki, biri asqırdı, biri öskürürdü, üçüncüsünün səsi xırıldayanda İsmayıl Şıxlı eynilə qəhrəmanı Cahandar ağa sayağı sərt səslə:

– Qurtardınız? – dedi. – Sizin üçünüzə bircə sualım var: bu kitabı 1944-cü ildə hamımızın yaxşı tanıdığı filosof-alim Heydər Hüseynov yazdırıb, cəmisi yeddi min nüsxə nəşr etdirib. Elə bir vaxtda ki, Mircəfər Bağırovun qılıncının dalı da kəsirdi, qabağı da. Təbiidir ki, Stalin də hakimiyyətdə idi. İndi deyin görüm, Siz ağıllısınız, vətənpərvərsiniz, yoxsa Heydər Hüseynov? Nə deyirsiniz?.. Aparaq bu kitabı rusca, ermənicə çap etdirək? Öz nəşriyyatımız, öz dilimiz ola-ola…

Üçlərdən heç biri dinmədi. Otağa ağır, çox ağır bir sükut çökmüşdü. Mən fəxrlə, həm də böyük qürur hissi ilə döyüşdən qalib çıxmış sərkərdə – kişi kimi əyləşən İsmayıl Şıxlıya baxdım. Baxırdım və düşünürdüm ki, ürəyi, varlığı Azərbaycan üçün yanıb-yaxılan İsmayıl Şıxlılar niyə azdır… Amma ötəri də olsa gördüm ki, əzəmətli İsmayıl Şıxlının yaraşıqlı üzünün əti əsəbdən titrədi. O, şümşad barmaqları ilə eynəyini düzəldib:

– Gedək, Şəmistan, – deyib ayağa durdu. Bir-iki addım atar-atmaz başda əyləşən qoca yumşaq səslə:

– İsmayıl, qoy qovluq qalsın, baxarıq, yuxarılarla məsləhətləşərik, – dedi.

İsmayıl müəllim sərt hərəkətlə geriyə dönüb:

– Yuxarıları bəhanə gətirməyin, – dedi. – Siz kitabı plana salın, yuxarılarla özüm danışaram…

1984-cü ildə general Əli ağa Şıxlinskinin "Xatirələrim" kitabı uzun əziyyətdən və mübahisələrdən sonra "Azərnəşr"də rus və Azərbaycan dillərində altmış min tirajla nəşr olundu.

Yeni nəşr olunmuş "Xatirələrim" kitabından üç nüsxəni Moskvaya, Hərbi Sovet Ensiklopediyasının Baş redaksiyasına göndərdim. Əlavə məktub yazıb, baş redaksiyaya iradlarımı da bildirdim ki, rus general-mayorları və polkovnikləri haqqında ensiklopediyanızda məqalələr var. Amma general-leytenant Səməd bəy Mehmandarov, nə də Əli ağa Şıxlinski haqqında sətir

belə yoxdur. Bunu necə başa düşək? Nə üçün belə şöhrətli generalların haqqında səkkiz cildlik "Hərbi Sovet Ensiklopediyası"nda qısaca bir məqalə verilməyib. Əgər general Şıxlinski haqqında məlumatınız yoxdursa, onun haqqında yazıb sizə bildirirəm. Həm də generalın kitabından üç nüsxə Sizə göndərirəm, oradan daha geniş məlumat ala bilərsiniz.

Düz bir aydan sonra "Hərbi memuar ədəbiyyatı" redaksiyasının Baş redaktoru V.Makeyevdən cavab məktubu aldım. O yazırdı ki, məktubunuzu və general-leytenant Əli ağa Şıxlinskinin kitablarını aldıq. Generalın kitabını rəy üçün SSRİ Müdafiə Nazirliyinin Hərbi Tarix İnstitutuna göndərdik. Yaxın günlərdə onlardan aldığımız rəyi sizə bildirəcəyik.

Nəhayət, 1986-cı il iyulun 26-da "Hərbi" nəşriyyatdan sevindirici cavab aldım. Bu dəfə "Hərbi memuar ədəbiyyatı" redaksiyasının Baş redaktor əvəzi A.Kryukov yazırdı ki, general-leytenant Əli ağa Şıxlinskinin kitabını redaksiyada oxuduq və onun yenidən çapını hərbi-tarixçi alimlərlə məsləhətləşdik. Kitab onların da çox xoşuna gəldi, institut əməkdaşları "Xatirələrim" kitabının çox qiymətli olmasını xüsusi qeyd etdilər. Lakin kitabın yenidən çap olunması üçün azı beş il növbəyə durmaq lazımdır.

Baş redaktor A.Kryukov mənə göndərdiyi cavabında M.V.Frunze adına Hərbi Akademiyanın Hərb sənəti tarixi kafedrasının baş müəllimi, polkovnik L.Zaytsevin general-leytenant Şıxlinski kitabının yeni nəşri üçün yazdığı rəyi də göndərmişdi.

Düzü, rəyi oxudum, fərəhdən heyrətə gəldim. Ona görə ki, polkovnik L.Zaytsev böyük bir ürəklə və hərarətlə yazdığı altısəhifəlik makina yazısında Əli ağa Şıxlinskini xalqının həqiqi qəhrəmanı, alovlu vətənpərvəri adlandırırdı. Port-Artur, Birinci Dünya müharibəsindəki və artilleriya sahəsindəki misilsiz xidmətlərini xüsusi qeyd edirdi. Kitabın yenidən çapına tam məsuliyyətlə redaktor kimi cavabdeh olduğunu bildirirdi. Təəssüflənirdi ki, nə üçün kitab respublikamızda çox az – cəmisi 30 min (ruscası) tirajla nəşr olunub. Bunları ona görə qeyd edirəm ki, "Azərnəşr"də mənim kitaba yazdığım izahlar və qeydlər fəs-

lində məhz bu sözləri “xalqımızın qəhrəman oğlu, igid general”ı ixtisar etmişdilər.

Əlavə olaraq polkovnik L.Zaytsev bildirirdi ki, “Birinci Dünya müharibəsi” adlı irihəcmli xatirələr, reportajlar, oçerk və sənədlər məcmuəsini nəşrə hazırlayırıq. Sizin göndərdiyiniz general Əli ağa Şıxlinski kitabından “1916-cı ilin yayında Qərb cəbhəsində” fəslini bütövlükdə mən həmin məcmuəyə daxil etdim. Kitab 1989-cu ilin tematik planına daxil edilib.

Həmin ili 607 səhifəlik məcmuədə Əli ağa Şıxlinskinin xatirələrindən bir parça bu kitabda dərc olundu. Lakin sovet hakimiyyəti dağıldığına görə generalın kitabı Moskvada işıq üzü görmədi…

M.V.Frunze adına Hərbi Akademiyanın hərb sənəti tarixi kafedrasının baş müəllimi, polkovnik L.Zaytsevin şöhrətli generalımız Əli ağa Şıxlinskinin kitabı haqqında 1986-cı il iyun 3-də yazdığı rəyin oxucuların xoşuna gələcəyinə əminəm. Ona görə də möhtərəm oxuculara təqdim edirəm.

## Əli ağa Şıxlinskinin “Mənim xatirələrim” kitabı haqqında rəy

Ədəbiyyatın spesifik sahəsini özündə təmsil edən hərbi memuarlar, Silahlı Qüvvələrin əsgərlərinin, xüsusilə böyüməkdə olan gənc nəslin, keçmişdə baş vermiş hadisələri daha dərindən öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir.

Keçilən çətin yollar, çox ağır sınaqlar haqqında danışarkən, keçmiş tarixi hadisələrin, xüsusilə müharibə kimi hadisələrin məzmununu və mənasını şərh edən memuarların müəllifləri keçmişin həqiqi mənzərəsini yaratmağa kömək edir, keçmiş ilə bugünkü gün arasına körpü yaradır, gənclərdə öz vətənləri uğrunda iftixar hissini inkişaf etdirir, onları yeni qəhrəmanlıq işlərinə çağırır.

Hərbi memuarlar kütlələrin siyasi tərbiyəsi və tarixi maariflənməsi sahəsində mühüm əhəmiyyət kəsb edir. Böyük elmi dərketmə və tərbiyəvi əhəmiyyətə malik olmaqla, memuarlar faşizmin və imperializmin müdafiəçiləri ilə, hərb tarixinin burjua saxtakarlıqları ilə mübarizədə mühüm ideya silahıdır.

Ölkəmizdə nəşr edilən və oxucu kütləsinə çatdırılan hərbi memuarların sayı daim artır. Lakin, bir qayda olaraq, son illərdə nəşr edilən memuarların əksəriyyəti Böyük Vətən müharibəsi haqqındadır. Vətəndaş müharibəsi tarixi ilə, inqilaba qədər baş vermiş hərbi hadisələr ilə bağlı xatirələr çox az hallarda nəşr edilir. Bu, o qədər də təəccüblü hal deyildir. İllər keçir və keçmiş tarixi hadisələrin şahidlərinin sayı günü-gündən azalır. Ona görə də bu cür memuarlar nadir tapılan kitablara çevrilir.

Bizim vətənimizin daha uzaq keçmişinə həsr edilmiş bu cür əsərlərin az tapılması ilə əlaqədar olaraq nəşriyyatlar, o cümlədən hərbi nəşriyyat özünün tarixi-idraki qiymətini saxlamış, kitabxana rəflərində və kitab mağazalarında çox çətin tapılan, keçmişdə nəşr olunmuş hərbi memuarları təkrarən nəşr etməyə məcburdurlar.

Oxucular və tədqiqatçılar üçün böyük marağa səbəb olan bu cür əsərlərdən biri də general Əli ağa Şıxlinskinin 1942-ci ildə yazdığı, 1944-cü ildə Bakı şəhərində nəşr olunmuş və həmin nəşriyyat – "Azərnəşr" tərəfindən 1984-cü ildə, cəmi 30 min nüsxə tirajla yenidən çap edilmiş "Mənim xatirələrim" kitabıdır.

Əli ağa Şıxlinski öz xatirələrini Böyük Vətən müharibəsi günlərində yaratmışdır. Əsəri tamamlayarkən o yazır: "Mən Azərbaycan xalqının qardaş xalqları ilə çiyin-çiyinə öz vətənini qoruduğunu və bizim ölkəni əsarət altına almağa çalışan faşist dəstələrinə məhvedici zərbələr vurduğunu düşündükcə qürur hissi keçirirəm. Mən tamamilə əminəm ki, dahi Stalinin rəhbərliyi altında Qələbə bizim olacaqdır. Əgər gənc nəsil, o cümlədən də zabitlər, mənim xatirələrimdə düşmən ilə əzəmətli döyüşdə onlara kömək edə bilən bəzi məlumatlar əldə edə bilsələr, mən özümü xoşbəxt sanaram" (səh.187).

Bu sözlərdə Vətənin qorunmasını özünün müqəddəs borcu hesab edən, öz ölkəsinin əsl vətənpərvərlərinin surəti dəqiq təsvir edilir.

Bu sözlər Rusiya-Yaponiya və Birinci Dünya müharibəsində həqiqi qəhrəmanlıq göstərmiş, rus ordusunun general-leytenant rütbəsini qazanmış və ədalətli inqilab mübarizəsinə qalxmış öz xalqının tərəfini saxlamış şəxs tərəfindən yazılmışdır.

Qeyri-adi topçu Əli ağa Hacı İsmayıl oğlu Şıxlinskinin adı həm keçmiş rus ordusunda, həm də Rusiyanın xaricində məşhur idi.

Bu haqda SSRİ dövlət mükafatı laureatı, hərb elmləri doktoru, professor Y.Z.Barsukovun, rus ordusunun artilleriyasında birgə xidmətdə şəxsən tanıdığı Şıxlinskinin kitabına yazdığı müqəddimədə tam doğruluqla məlumat verilmişdir.

Barsukov yazır: "Bu maraqlı kitabın müəllifinin adı daima böyük nüfuza və rəğbətə malik olmuşdur, o, təkcə rus topçularına deyil, rus ordusunun keçmiş dairələrində çox yaxşı tanınmışdı və son dərəcə məşhurlaşmışdı. Onu 1904-1905-ci illər Rusiya-Yaponiya müharibəsi, 1914-1918-ci illər Dünya müharibəsi iştirakçıları, xüsusilə Ə.Şıxlinskinin qəhrəmanlıq göstərdiyi məşhur Port-Artur epopeyasının iştirakçıları yaxşı tanıyırdılar" (səh.3). Topçu Şıxlinskinin nüfuzunun beynəlxalq aləmdə də tanınması, onun 1912-ci ildə Fransa hökumətinin Fəxri "Legion ordeni" və "Legion xaçı" ilə təltif olunması bir daha təsdiq edirlər.

Azərbaycan xalqının şanlı oğlu general Əli ağa Şıxlinskinin xatirələri – onun özünün məktəb skamyasından başlayaraq, ordu komandanı vəzifəsi ilə başa çatan, müxtəlif hadisələrilə zəngin, peşəkar hərbçi həyatını təsvir edən sadə, başa düşülən maraqlı üslubda yazılmış avtobioqrafik əsərdir.

General Əli ağa Şıxlinskinin ömür yolunda onun qeyri-adi şəxsiyyət olduğunu təsdiq edən çoxlu dəlillər var. Onlardan bir neçəsini misal gətirək. O, gimnaziyada oxumağa başlayarkən ikiillik kursu yeddi ay ərzində başa çatdırmışdır. Tiflis hərbi gimnaziyasını tamamlayarkən bütün fənlərdən əla qiymət almışdır. O, 1886-cı ildə Mixaylov adına topçuluq məktəbini qur-

taran ən yaxşı üç tələbədən biri olmuş və hətta məktəbdə oxuyarkən əldə etdiyi müvəffəqiyyətlərə görə pul mükafatı və qızıl saat da almışdır. Məktəbdə oxumaq ilə yanaşı, o, müstəqil olaraq məktəb proqramına daxil olmayan ehtimal nəzəriyyəsini də öyrənmişdir. Mühəndislər Akademiyasında oxunan məruzələri, Baş Qərargahın Akademiyasında general M.İ.Draqomirovun məruzələrini dinləyirdi.

Məktəbi qurtardıqdan sonra podporuçik Əli ağa Şıxlinski 39-cu topçu briqadasında xidmət edir və əla xidmətinə görə ona iki orden verilir. 1904-1905-ci illərdə onun Rusiya-Yaponiya müharibəsindəki iştirakı, birinci minomyot yaradanlardan biri, məşhur rus topçusu, kapitan Qobyato ilə birlikdə döyüşlərdən başlamışdı.

General Əli ağa Şıxlinski mühasirəyə alınmış Port-Artur döyüşlərində fərqləndi. O, bu döyüşlərdə o zaman üçün yenilik sayılan, artilleriya toplarından şrapnellə "kombinasiya edilmiş atəş" üsulunu ixtira işləyib hazırladı və geniş tətbiq etdi. Elə orada da yaralanmışdı. Port-Artur təslim edildikdən sonra Şıxlinski yaponlara qarşı gələcək döyüşlərdə iştirak etməmək haqqında yazılı iltizamnamə vermədi və Rusiyaya gəldikdən sonra o, yenidən Mancuriyaya cəbhəyə getmək xahişi ilə müraciət etdi. Rusiya-Yaponiya döyüşlərində iştirakına görə o, altı mükafat və polkovnik-leytenant rütbəsi aldı.

Rusiya-Yaponiya və Birinci Dünya müharibəsi arasında olan müddətdə Şıxlinski Artilleriya Zabitləri Məktəbində işləyərək, general-mayor rütbəsini aldı. Həmin vaxt o, polkovnik rütbəsindən general rütbəsinə qədər cəmi 4 il xidmət etmişdi, halbuki, adətən bu müddət 10 il, xüsusi fərqlənmələr üçün isə 8 il davam edir. Əli ağa Şıxlinski müharibə getməyən ölkədə çox qısa müddətdə general-mayor rütbəsini qeyri-adi hərbi biliyinə və bacarığına görə almışdır. Bu zaman Əli ağa Şıxlinski öz qoşunlarının başı üstündən atış və təyyarələrə atəşaçma üsulu daxil edilməklə, artilleriyanın atışı və döyüşdə tətbiq məsələləri ilə bağlı bir sıra kitabçalar, təlimatlar, konspektlər yazdı. Məşhur "Şıxlinski üçbucağı"ndan Fransa, Avstriya, Norveç və digər ölkələrin topçuları tərəfindən istifadə edilirdi. Əli ağa Şıxlinski

döyüşlərdə artilleriyanın piyadanı müşayiət etməsi məsələsini də qaldırdı ki, bu ideya da alay və tabor artilleriyasının yaranmasına səbəb oldu.

Birinci Dünya müharibəsi illərində general Əli ağa Şıxlinski fəaliyyətdə olan rus ordusunda Peterburqun (Petroqradın) müdafiə artilleriyasının rəisi, 5-ci ordunun, Şərq-Sibir cəbhəsinin artilleriya inspektoru (indiki komandan), 10-cu ordunun komandanı kimi yüksək vəzifələri daşımışdı. O, dəfələrlə mükafata layiq görülmüş, general-leytenant rütbəsini almışdı.

Çar hökuməti devrildikdən və hakimiyyətə müvəqqəti hökumət gəldikdən sonra Şıxlinski orduda xidmət etməyi davam etdirdi. O, Minsk milisinin birinci rəisi M.V.Mixaylovun[1] üzv olduğu Minsk ilə sıx əlaqədə işləməli oldu. M.V.Mixaylov ilə onun arasında səmimi münasibət yaranmışdı.

Qeyd etmək lazımdır ki, Şıxlinski öz xatirələrində, o zamankı məşhur siyasi və hərb xadimləri ilə görüşləri haqqında yazır və onların haqqında bəzən çox qısa, lakin dəqiq xarakteristika verirdi.

1917-ci ilin noyabrında Şıxlinski səhhətinə görə ordudan azad olunmağa və Bakıya qayıtmağa məcbur oldu. 1920-ci ildə Qafqazda bir sıra əksinqilabi çıxışlar baş verdiyi zaman Bakı İnqilab Komitəsinin sədri general Şıxlinski və general Mehmandarovu, onlardan mərkəzi hərbi aparatda, dəyərli hərbi mütəxəssis kimi istifadə etmək üçün Moskvaya, Leninin yanına göndərmək qərarına gəldi. Əli ağa Şıxlinski Ali Artilleriya Məktəbində müəllim və Artilleriya Nizamnamə Komissiyasının tərkibində işləyirdi.

1921-ci ildə o, Bakıya qayıtdı və Bakı qarnizonunun hərbi-elmi cəmiyyətində sədr müavini vəzifəsini tutdu. 1921-1929-cu illər o, artilleriyanın döyüşdə tətbiqi məsələləri haqqında çoxlu çıxışlar etmiş, qarnizonun topçularının praktik hazırlıqları ilə məşğul olmuşdu. General Əli ağa Şıxlinski Azərbaycanda, onun fəaliyyətini yüksək qiymətləndirən M.V.Frunzenin qarşısında Qızıl Orduda alay və tabor artilleriyasının yaradılması məsələsini qaldırmışdı.

---

[1] Görkəmli sərkərdə və dövlət xadimi M.F.Frunzenin (1885-1925) inqilabdan əvvəlki gizli imzasıdır – ***Ş.N.***

1929-cu ildən sonra Şıxlinskinin səhhəti birdən-birə pisləşdi, onun görmə və eşitmə qabiliyyəti zəiflədi. O, 1943-cü ildə vəfat etdi. Ölümündən qabaq diktə etdiyi "Mənim xatirələrim" kitabı bütün həyatı boyu qulluq etdiyi rus ordusunun artilleriya tarixinə general Əli ağa Şıxlinskinin son əmanəti oldu.

Kitab sadə, asan, anlaşılan dildə yazılmış və rahat oxunur. Ayrı-ayrı stilistik nöqsanlar kitabdan alınan ümumi təsəvvürü korlamır, elə bil ki, onlar təsvir edilən hadisələrin zamanı ilə bugünkü gün arasında olan fərqi göstərir.

Oxucu üçün əhəmiyyətə malik olmayan bəzi şəkilləri kitabdan xaric etmək olar. Bizim fikrimizə görə, Əli ağa Şıxlinskinin həyat yoldaşının şəkillərindən birinin, generallardan S.S.Mehmandarovun, N.Q.Stoletovun, A.A.Brusilovun portretlərinin bu kitabdan çıxarılması yaxşı olardı.

**NƏTİCƏ:** Məzmununa, tarixi əhəmiyyətinə, faktiki materialların bolluğuna, rus ordusunun, xüsusilə onun artilleriyasının döyüş fəaliyyətinin və həyatının geniş işıqlandırılmasına görə general Əli ağa Şıxlinskinin "Mənim xatirələrim" kitabı yenidən nəşr edilməyə layiqdir.

## SANKT-PETERBURQDA İYİRMİ İKİ GÜN

***Əli ağa Şıxlinski heç bir zaman mənsəb dalınca düşməmişdir, onun heç bir himayəçisi olmamışdır. Xidmətdə irəli getmək üçün o, heç bir intriqaya əl atmamışdır: mənsəb özü onun ayağına gəlmiş və o, köhnə ordunun topçuluğunda yüksək vəzifə qazanmışsa, bu cəhətdən tamamilə özünə borcludur.***

*Yevgeni Barsukov*
*Dövlət mükafatı laureatı,*
*general-mayor,*
*hərb elmləri doktoru, professor*

Leninqradın həmişə gur olan Sadovaya küçəsində qədim bir bina var. Məşhur rus yazıçısı Saltıkov-Şedrinin adını daşıyan kütləvi kitabxana burada yerləşir. Məni bu kitabxanaya məşhur general Əli ağa Şıxlinskinin inqilabdan əvvəl çıxmış kitabı və Peterburq jurnallarında dərc olunmuş məqalələri ilə tanış olmaq arzusu gətirmişdi.

Axtarışa "Rus jurnalı şöbəsi"ndən başladım. 1912-ci ildən fəaliyyətə başlayan "Artilleriya Zabitləri Məktəbinin xəbərləri" jurnalının elə üçüncü nömrəsində Əli ağa Şıxlinskinin "Öz qoşunlarının başı üstündən top atəşi" adlı iri məqaləsi dərc olunub. Rusiya-Yaponiya müharibəsindən sonra bu atəş üsulu müxtəlif fikirlərə səbəb olubmuş. Bir çoxları deyirmiş ki, hücum edən piyada qoşununu himayə etmək üçün bəzən onun başı üstündən atmaq lazımdır. Ali rütbəli zabitlərin bir qismi bu atəş üsulunun öz qoşunlarına zərər verəcəyindən ehtiyat edir, daha doğrusu, ondan istifadə etmək istəmirdilər.

Polkovnik Əli ağa Şıxlinski isə bu məqaləsində hesablama və sxemlərlə sübut edirdi ki, bu üsul, qoşunlar düzəngahda dayanıb hədəfə ancaq yüz sajen qalanda qorxuludur. "Bu məsafəyə qədər, heç bir şeydən ehtiyat etmədən atəş açmaq olar. Düşmən üzü bizə tərəf olan yamacı tutduqda, bu məsafə otuz-otuz beş sajen azalır. Düşmən bizimlə üzbəüz olan başqa bir yamacı tutduqda isə biz hücum edən hissəmizi süngü vuruşması başlayana qədər top atəşi ilə himayə edib qoruya bilərik". Həmin jurnalın 1914-cü il fevral (22) nömrəsində "V.İ." imzalı bir müəllif bu üsula yüksək qiymət verərək artilleristlərə tövsiyə edir ki, Port-Artur döyüşlərinin iştirakçısı Şıxlinskinin toxunduğu bu məsələni dərindən öyrənsinlər…

Bu yeniliyə dönə-dönə qayıdan jurnal özünün "Redaksiyadan" adlı qeydlərində göstərir ki, Şıxlinskinin məqaləsi topçu qoşun komandirlərinin görüşlərində böyük və əsaslı dəyişiklik yaratdı.

General Əli ağa Şıxlinski 1942-ci ildə qələmə aldığı "Xatirələrim" adlı hərbi memuarında bu barədə yazır: "Hələ 1924-cü

ildə Qızıl Ordu məcmuələrinin birində bu məsələyə istinad edilmişdir. Bu cür atəşdən qorxan skeptiklər[1], şübhəsiz ki, indi də vardır".

İllərin zərrəcə saraldıb-soldura bilmədiyi jurnalı yenidən vərəqləyirəm. Yüksək keyfiyyətli kağızda çap olunmuş məqalələrlə, ölkənin ayrı-ayrı hərbi dairələrində qulluq edən artilleriyaçılar haqqında verilən xəbərlərlə yanaşı Şıxlinskinin müxtəlif şəkillərinə də rast gəldim. Onun ordugahda məşq zamanı, tələbə və zabit heyətilə birgə təsvir olunmuş şəkillərini nə şəxsi arxivində, nə də qohumlarında görmüşdüm.

Jurnalın 1914-cü il fevral nömrəsində "1913-cü ildə artilleriya zabitləri məktəbinin yerinə yetirdiyi kursun hesabatı" verilib. Qırx iki səhifəlik hesabat yeddi fəsildən və bir epiloqdan ibarətdir. Onu artilleriya zabitləri məktəbinin rəisi, artilleriya generalı Aleksandr Nikolayeviç Sinitsın, məktəbin rəis müavini general-mayor Əli ağa Şıxlinski və Sergeyev, hərbi təlim meydanının rəisi podpolkovnik İvanov imzalayıblar.

Jurnalın səhifələrindən öyrənirəm ki, 1913-cü ilin payızında artilleriya zabitləri məktəbinin rəisi, tam artilleriya-generalı A.N.Sinitsın qocalığına görə istefaya çıxır. Jurnal bu münasibətlə Sinitsının portretini ikinci səhifədə dərc edir, haqqında böyük bir yazı verir. Əli ağa Şıxlinskinin bu münasibətlə yazdığı iki bənd şeir də dərc olunur.

## General-leytenant A.N.Sinitsına həsr olunur

*Yorulmaq bilmədən sən uzun illər.*
*Öz ağır topuna sükançı oldun.*
*Hər dəfə əmrinlə birləşdi əllər,*
*Bir ailə kimi sənin mərd ordun.*

*Toplardır əbədi məktəbimiz də;*
*Siz onun atası, tarix yazanı.*

---

[1] S k e p t i k – hər şeyə şübhə ilə baxan adam.

*Ürəkdən salamlar göndərib sizə,*
*Hörmətlə önündə baş əyir hamı…*

*13 dekabr 1913-cü il*
*Çarskoye-Selo*

A.N.Sinitsın istefaya çıxdıqdan sonra düz bir il (1913-cü ilin payızından 1914-cü ilin oktyabr ayına kimi – ***Ş.N.***) artilleriya zabitləri məktəbinin rəisi vəzifəsini general-mayor Əli ağa Şıxlinski aparmışdır. 1914-cü ilin oktyabr nömrəsində jurnal "Redaksiyadan" adlı məqaləsində yazır:

"Artilleriya zabitləri məktəbinin rəisi vəzifəsini ifa edən general-mayor Əli ağa Şıxlinski hazırkı müharibənin iştirakçılarına məktubla müraciət edərək döyüşçülərin, artilleriyanın fəaliyyəti barədə bildiklərini təfsilatı ilə yazmalarını və lazım olan ünvana göndərmələrini xahiş etmişdir".

1914-cü ilin dekabr nömrəsində jurnal məktəbin qırxsəhifəlik illik hesabatını dərc edib. Həmin hesabatı da məktəbin rəisi vəzifəsini ifa edən general-mayor Əli ağa Şıxlinski və Sergeyev, hərbi təlim meydanının rəisi podpolkovnik İvanov hazırlayıblar.

Çox keçmir ki, yuxarı dairələrdə, baş topçuluq idarəsində məktəbə təzə rəis təyin olunması məsələsi müzakirə olunur. Böyük knyaz bu vəzifəyə general-leytenant Qaitinovu məsləhət görür. Lakin o, bu işə hazır olmadığını bildirir.

Böyük knyaz cavabında deyir:

– Mən sizi ancaq birilliyə təyin edirəm. 1914-cü ildə orduda islahat aparmaq üçün böyük proqram həyata keçiriləcək, onda siz Odessa hərbi dairəsinin topçu rəisi vəzifəsinə təyin olunacaqsınız. Məktəbə rəhbərlik isə Şıxlinskiyə tapşırılacaq. Şıxlinski məktəb müdiri müavini vəzifəsində az işlədiyinə görə hazırda hərbi məsləhətçilərimi razılığa gətirə bilmirəm.

General-leytenant Qaitinov soruşur:

– Bəs bu bir ilin ərzində mən nə edə bilərəm, əlahəzrət?

– Sizin işi yaxşı bilən Şıxlinski kimi köməkçiniz olacaqdır.

– Onda icazə verin, əvvəlcə onunla danışım.

– Danışın…

* * *

"Məni telefona çağırdılar. Gəldim. Həyəcanlı bir səs eşidildi:

– Salam, Əli ağa, sizinlə danışan Qaitinovdur.

– Salam, Valeri Mixayloviç, mənə aid qulluğunuz?

– Mən əlahəzrətin kabinetindən danışıram. Mənə təklif etdilər ki, sizin məktəbdə rəis işləyim. Sizdən çox xahiş edirəm ki, saat beşdə ordu və donanmanın klubuna gələsiniz. Həm bir yerdə yemək yeyək, həm də məsləhətləşək.

Mən oraya getdim. Qaitinov rəhbərliyi öz üzərinə götürdü, mənim isə məşğələləri aparmağıma razı olub-olmadığımı soruşdu. Razılıq verdim. – Təşəkkür edirəm, – dedi…

Yeni rəis general-leytenant Qaitinov daima auditoriyalara baş çəkir, baş qərargah zabitlərinin rəhbərliyi altında mühazirə və taktiki məşğələlərə gəlir, lakin bu məşğələlərin gedişatına qarışmır, bunların hamısını öz müavininə (Şıxlinskiyə – ***Ş.N.***) tapşırırdı".

Bu kiçik epizod "Xatirələrim" kitabındandır. Şıxlinskini dəmir yaddaşı çox şeyi olduğu kimi hifz edib saxlamışdır. Məsələn, vaxtilə (1907-ci ildə) məktəbin rəisi onu İkinci Konstantin topçu məktəbinə batareya komandirliyi vəzifəsinə namizəd göstərəndə Baş Topçu İdarəsinin rəisi general Kuzmin Karavayev gözlənilən təklifi rədd edərək demişdir ki, bu vəzifəyə "tatar" (*azərbaycanlı* – ***Ş.N.***) yox, rus tapmaq lazımdır.

Bütün bunlara baxmayaraq, çar hökuməti, çar ordu heyəti general Əli ağa Şıxlinskinin əvəzsiz xidmətinə laqeyd qala bilməmişdi…

1912-ci ildə artilleriya məktəbinə müavin təyin edilən Şıxlinskinin müvəffəqiyyətinə sevinənlər az deyildilər. Ona Rusiyanın, hətta xarici ölkələrin adlı-sanlı topçuları təbrik teleqramları göndərmişlər. Baş Qərargah Akademiyasının professoru **general-mayor A.A.Neznamov** yazırdı: *"Sizi və rus artilleriyasını təbrik edirəm!"*

**Fransa topçu zabitləri məktəbinin müdiri Nolle** isə ürək sözlərini belə ifadə eləmişdi: *"Rus topçu məktəbinin ikinci şefi* (məktəb müdirinin müavini ikinci rəhbər hesab olunurdu – ***Ş.N.***) *təyin edilməyinizi eşitdim. Sizin simanızda rus artilleriyasını təbrik edirəm!"*

Jurnalın nömrələrini vərəqlədikcə məlum olur ki, əsrin əvvəllərində "Şıxlinski üçbucağı" adlı hərbi nəzəriyyə müəllifinə böyük şöhrət gətiribmiş. Bu nəzəriyyə təkcə Rusiyada dərc olunan hərbi dərsliklərə salınıb istifadə olunmurdu. Ədəbiyyatlardan məlum olur ki, "Şıxlinski üçbucağı" Fransa və Avstriyada da geniş yayılıbmış. Məsələn, Fransa topçu divizionunun komandiri mayor Laver Şıxlinski ilə söhbətlərindən birində demişdir: *"Fransaya elm üçün çox əhəmiyyətli olan xeyli material aparıram. Bunun üçün sizə minnətdaram"*.

1913-cü ilin yayında general Joffre fransız ordusunun on yeddi nəfərlik zabit heyəti ilə Rusiyaya gəlir. Onlar bir neçə gün artilleriya zabitləri məktəbinin proqramı ilə maraqlanırlar.

Fransızlar qısalüləli topdan örtülü atəş üsulu ilə bir komandirin rəhbərliyi altında batareyadan necə atəş açıldığını göstərməyi xahiş edirlər. Bütün atəş üsulunun təşkilinə komandirlik Əli ağa Şıxlinskiyə həvalə olunur. General Şıxlinskinin təşkil etdiyi dəqiq atəş üsulu və qısalüləli ağır top atışı fransızları heyrətdə qoyur. Onlar qısalüləli atəş üsulunu (o vaxta qədər fransızlarda qısalüləli top atəşindən istifadə olunmurmuş – ***Ş.N.***) özlərində tətbiq etməyi elə oradaca qət edirdilər.

Bir il sonra Rusiyaya gələn Fransa prezidenti Paunkare Raymon rus artilleriyaçıların general Joffreyə və onun heyətinə göstərdikləri hörmət müqabilində mükafatlar gətirir. Bu mükafatların arasında generallara məxsus cəmi iki fəxri – "Legion ordeni" də vardı. Onun biri süvari generalı Bezobrazova, ikincisi ilə Əli ağa Şıxlinskiyə təqdim olunur.

Əli ağa Şıxlinskinin hərbi və pedaqoji fəaliyyəti ilə yaxından tanış olduqda bu mahir sərkərdənin misilsiz istedadına qibtə etməyə bilmirsən.

1897-ci ildə gənc Əli ağa Şıxlinski ilə söhbət edən iyirminci topçu briqadasının baş həkimi Zelenski ondan soruşur ki, belə bir istedadınız olduğu halda niyə akademiyaya getmədiniz?

Əli ağa Şıxlinski isə cavabında "iş belə gətirdi" – təvazökarlıqla cavab verir. Bu görüşdə iştirak edən general Baumqarten də söhbətə qoşulur: "Akademiyanı neyləyir, akademiya onun başıdır".

Doğrudan da keçmiş rus ordusunda ikinci elə bir şəxs yoxdur ki, qeyri millətdən ola-ola, ali hərbi təhsil almadan qısa bir vaxtda dörd il otuz altı gündən sonra növbədənkənar general-mayor rütbəsinə yüksəlsin.

Əli ağa Şıxlinski hərbi xidmətdə belə tez, həm də böyük sürətlə irəliləməsinin ilkin səbəbini Rusiya-Yaponiya müharibəsinin iştirakçısı olmasında, bir də Topçu Zabitləri Məktəbindəki hərbi-pedaqoji fəaliyyətində görürdü.

Əli ağa Şıxlinskinin 1908-ci il noyabrın 26-dan 1914-cü il iyulun 8-dək topçu zabitləri məktəbində olan elmi-pedaqoji fəaliyyəti çox yüksək qiymətləndirilmişdir. O, üçüncü dərəcəli "Müqəddəs Vladimir", eləcə də fransızların zabitlərə məxsus fəxri "Legion ordeni"nə layiq görülmüşdür.

"Artilleriya Zabitləri Məktəbinin xəbərləri" jurnalının səhifələri, orada verilmiş ayrı-ayrı elanlar təsdiq edir ki, Əli ağa Şıxlinski məktəbdə qoşun bölmələrində və Peterburqun müxtəlif elmi yığıncaqlarında hərbi mövzuda silsilə mühazirələr oxumuşdur. Bu mühazirələr Baş Qərargahın əmrilə kitabça şəklində çap olunmuşdur. Onun "Divizion miqyasında topçu manevrlərinin təşkili üçün təlimat", "Dağ və səhra artilleriyası üçün məsələ və misallar məcmuəsi" *(1913-cü ildən 1916-cı ilədək üç dəfə təkrar nəşr olunub – **Ş.N.**)*, "Səhra toplarının cəbhədə işlədilməsi" və "Topçu zabitləri məktəbində podpolkovnik Şıxlinski tərəfindən oxunmuş mühazirələrin xülasəsi" kimi sanballı kitabları çap olunmuşdur. Xüsusilə, sonuncu kitab topçular arasında çox böyük şöhrət qazanmışdır. Onu da deyək ki, artilleriya zabitləri məktəbinin mətbəəsində çap olunan bu kitab məktəbə xeyli mədaxil gətirir. Həmin gəlirdən Əli ağa Şıxlinskiyə qızıl pulla 500 manat müəllif haqqı verilir…

Bizə Əli ağa Şıxlinskinin indiyədək bircə kitabı məlumdur. O da 1944-cü ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı tərəfindən rus və Azərbaycan dillərində çap olunmuş "Xatirələrim"dir. Vəssalam. Bəs, yuxarıda adlarını çəkdiyimiz kitabların taleyi nə yerdədir, harada, kimdə, necə saxlanılır? Bax, bu suallara cavab tapmaq lazımdır.

## Kitab axtarışında

Anketlərin ağ səhifəsini doldurmaqdan yorulurdum. Dalbadal general Əli ağa Şıxlinskinin kitablarını sifariş verirdim. Səhərisi cavabı üçün gələndə eyni sözləri oxuyurdum. "Belə kitab yoxdur. Mənbəni dəqiqləşdirin".

Məni təəccüb bürümüşdü. Axı, müəllif özü yazır ki, belə bir kitabım çıxıb. Onu da bildirim ki, Əli ağa Şıxlinski "Xatirələrim" hərbi memuarını ancaq yaddaşına güvənib yazmışdır. Özü də yetmiş səkkiz yaşında! "Xatirələrim"i yenidən çapa hazırlayanda düzü şübhələndim: axı ola bilməz ki, bu yaşda adam bu qədər faktı yadında saxlaya, rəqəmləri, tarixi hadisələri dəqiq deyə bilə. Ona görə də kitabda adı çəkilən şəxsiyyətlərin familiya və rütbəsini, ayrı-ayrı hadisələri bir daha hərbi ensiklopediya ilə yoxlayıb tutuşdurdum. Zərrəcə səhv tapa bilmədim. Ona görə də mən general Əli ağa Şıxlinskinin yazdığı hər bir fakta tam inamla yanaşırdım. Altıncı günü anketimə baxan növbətçi qız dedi ki, sizi biblioqrafiya fondunun baş mühafizəçisi çağırır. Dəftər-qələmimi yığışdırıb onun yanına getdim. O, məni "hücumla" qarşıladı:

– Hələ sizin kimi inad adama rast gəlməmişəm. Bütün azərbaycanlılar belədirlər?

– Xeyr, – dedim, – əlimizdə əsaslı fakt olmasa, biz heç vaxt yersiz inad göstərmərik.

– Axı, sizə dönə-dönə deyirlər ki, belə bir kitab yoxdur, siz isə yenə də yazırsınız. Heç olmasa, anketlərə heyfiniz gəlsin. Özünüz fikirləşin, olmayan şeyi sizə haradan və necə verə bilərik?

Mən yenə də əl çəkmədim:

– Siz inanın, – dedim, – artıq on beş ilə yaxındır ki, Şıxlinskinin həyat və fəaliyyəti ilə məşğul oluram. Onun rus və Azərbaycan dilində xatirələrini çapa hazırlamışam. Yazdığı yüzlərlə faktı dönə-dönə yoxlamışam, bir işıq ucu qədər yanlışlıq görməmişəm. O, özü yazır ki, 1910-cu ildə Luqa şəhərində belə bir kitabım çıxıb. Özünüz fikirləşin, bundan sonra mən neyləməliyəm?

– Bilmirəm, cavan oğlan, – dedi, – onun haqqında bizdə bircə kitab var. O da Sabir İbrahimovun "General Əli ağa Şıxlinski" monoqrafiyasıdır. Sizi qane edirmi? Böyük Vətən müharibəsi illərində Luqa şəhəri faşistlər tərəfindən dağıdılmışdır. Bəlkə, kitab o vaxt məhv olub, bizə gəlib çatmayıb?

Kor-peşman qayıdıb oxu zalına gəldim, buraxılış vərəqəsi almaq üçün. Qəfildən ağlıma bir fikir gəldi. Təzə anket götürüb doldurdum. Kataloqda inqilabdan əvvəl Luqada nə qədər artilleriyaya aid kitab və kitabça çıxıbsa, sifariş verdim. Yarım saatlıq fasilədən sonra stolunun üstündə ondan çox kitab vardı. Bir-bir vərəqləyib onların axırıncı səhifəsində verilən elanları oxudum. Üz qabığı qalın, həcmcə o qədər də böyük olmayan, 1911-ci ildə çap olunmuş "Artilleriya Zabitlər Məktəbinin anbarına satış üçün qəbul olunmuş kitablar". Yeddinci kitab Əli ağa Şıxlinskinin "Səhra toplarının cəbhədə işlədilməsi" əsəri idi. Sevindiyimdən gözlərimə inanmadım. Dönə-dönə baxdım. Açıq-aydın yazılmışdır: "Şıxlinski Ə. 1910-cu il, qiyməti 70 qəp. Luqa şəhəri, V.M.Kuroçkinin yeni mətbəəsində çap olunub". Ayağa qalxdım. Növbətçi qızın yanına gedib yazını ona göstərdim. Oradan birbaşa fondun baş mühafizəçisinin yanına qaçdım.

– Baxın, baxın…

Baş mühafizəçi məni sakitləşdirdi:

– Özünüzə gəlin, qoyun əməlli-başlı baxım. – O, eynəyi çıxarır, oxuyur, özü də bərkdən: "Ə.Şıxlinski". Bəli, biz təslim olduq, cavan oğlan, indi bildim haradadır. Nina Qriqoryevna, – deyə yaxınlıqdakı bir qadını səslədi. – Bir baxın, bu azərbaycanlı bizi təslim etdi. Demək, belə bir kitab varmış.

Nina Qriqoryevna:

– Bu kitab olsa hərbi dərsliklər şöbəsində olacaq, – dedi. – Sifarişi təzələyin…

* * *

Artıq bir həftədir ki, Sankt-Peterburq bəyaz havasına oxşar binada məni bir yazı stolu gözləyir. Beş, ya da on dəqiqə, lap uzağı iyirmicə dəqiqə geciksəm, gərək kiminsə durmağını gözləyəm. Nahara qədər də öz "isti yuvasını" tərk edən adam çox çətin tapılar. Ona görə də səhər saat doqquz tamamda kitabxananın qarşısında olmağa adət eləmişəm.

Mənə müvəqqəti verilmiş vəsiqəmi təqdim edib soruşuram:

– Zəhmət olmasa, K-9178 nömrəli sifarişi yoxlayın.

– Sizin istədiyiniz kitab tapılıb, amma bir qədər gözləməli olacaqsınız…

– Yəni nə qədər?

– Dəqiq deyə bilmirəm… Bəlkə bir gün, bəlkə üç gün, bəlkə bir həftə… Ona görə də hər gün gəlib yoxlamalısınız.

* * *

Sankt-Peterburq ətrafındakı iki şəhər Əli ağa Şıxlinskinin hərbi fəaliyyəti ilə bağlı olub. Onlardan biri Luqa, digəri isə Çarskoye-Selo (indiki Puşkin şəhəri – ***Ş.N.***) şəhəridir. Əli ağa Şıxlinski xatirələrində bu yerləri böyük məhəbbətlə yad edir. İnqilabdan əvvəl artilleriya zabitlər məktəbi Çarskoye-Seloda, bütün Avropada ən nümunəvi hərbi təlim meydanı isə Luqa düzənliyində yerləşirmiş. Ona görə də fürsətdən istifadə edib Çarskoye-Seloya getmək – Şıxlinskinin yaşayıb-işlədiyi şəhəri görmək arzusu məni rahat buraxmırdı…

## Azərbaycanlı, yoxsa polyak?

İstirahət günü olduğundan Lisey-muzeyə baxmağa gələnlər daha çox idi. Hava dumanlı və yağışlı olsa da, böyük növbə var idi. Şəhərin qədim və zəngin tikililəri, təkrarsız gözəlliyi – sarı

xəzəlli cökə xiyabanları, uzaqdakı dumanlı meşələr, "Səssiz" gölün cilvələnən ləpələri doğrudan da insanı valeh edir.

Yanımda dayanan eynəkli kişi əlindəki qəzeti büküb gileylənməyə başladı:

– Başa düşmürəm ki, bu boyda binaya niyə az adam buraxırlar. Ötən il də burada olmuşam, onda belə deyildi.

– Əgər ötən il olmusunuzsa, bu il nəyinizə gərəkdir? – deyə mən söhbətə qoşuldum.

– Elə deməyin. Gərək tarixə dönə-dönə baş çəkəsən… Bağışlayın, hardansınız?

– Azərbaycandanam…

– Mən də Tambovdanam. Gəlin tanış olaq: biologiya elmləri namizədiyəm.

Mən də özümü təqdim etdim. Buraya nə məqsədlə gəldiyimi dedim. O, tələsik soruşdu:

– Yaxşı, ay dost, bir dayan, lisey hara, Azərbaycan hara? Məgər burada azərbaycanlılar da oxuyub?

– Düzü, bu haqda heç nə bilmirəm. Amma bir faktı dəqiq bilirəm ki, xalqımızın general oğlu Əli ağa Şıxlinski burada, keçmiş Çarskoye-Seloda xidmət edib. Mən onun sorağı ilə gəlmişəm. Vaxtdan istifadə edib Lisey-muzeyə də baxmaq istədim.

Nikolay Xaritonoviç heyrət və təəccüblə:

– Məgər general Şıxlinski sizin xalqın oğludur?

– Bəli, necə məgər?

– O ki polyakdır.

Mən acı-acı gülümsünürəm. Eyni zamanda fikirləşirəm ki, bunun günahı özümüzdədi. Biz xalqımızın şöhrətli oğlunu yaxşı tanımırıq. Üstəlik bəzi qələm sahiblərimiz yerli-yersiz ona çar generalı damğası vurublar. Elə burda, bu dar macalda, necə deyərlər, dəridən-qabaqdan çıxıb müsahibimi başa salıram ki, o, polyak deyil, azərbaycanlıdır.

**Mən ona Dövlət mükafatı laureatı, general-mayor, hərb elmləri doktoru, professor Yevgeni Zaxaroviç Barsukovun sözlərini xatırladıram:**

***"Əli ağa Şıxlinski içərisindən çıxmış olduğu Azərbaycan xalqına bütün varlığı ilə sadiq olub, onu sonsuz dərəcədə sevib, eyni zamanda bütün Rusiyanın və bütün Sovetlər ölkəsinin də qızğın bir vətənpərvəri kimi həmişə Vətən yolunda canından keçməyə hazır idi"***.

Nikolay Xaritonoviç:

– Oxumuşam, – deyir, – onun haqqında. Mən bioloq olsam da, tarixlə maraqlanıram. Lovğalıq olmasın, az-az tarixi roman və yaxud elmi-tarixi əsər olar ki, oxumamış olam. Aleksandr Steponovun "Port-Artur"u, "Zvonaryovlar ailəsi" romanları stolüstü kitablarımdır. Orada kapitan Şıxlinski, general Şıxlinski qoçaq adam kimi təsvir olunur, fəxr etməyə dəyər. Təsəvvür edin ki, çar, Port-Arturda uduzan rus generallarını – Stesseli, Foku, Smirnovu və başqalarını məhkəməyə verdi. Şıxlinskini isə əksinə (1906-cı ildə – ***Ş.N.***), məşhur Georgi ordeni ilə təltif etdi.

– Azərbaycanlı general Şıxlinski (qəsdən "azərbaycanlı" sözünü tez-tez işlədirəm ki, həmsöhbətimin yadında yaxşı qalsın, bundan sonra heç vaxt çaşmasın – ***Ş.N.***) öz xatirələrini yazıb. Heç şübhəsiz ki, oxumamısınız.

– Xeyr, oxumamışam. Nəsə rast gəlməyib.

– Bizim Azərbaycanda nəşr olunub. Hökmən göndərərəm…

– Yadıma düşdü, – deyə Nikolay Xaritonoviç sevinclə bildirir. – Onun familiyasına "Rus artilleriyası Birinci Dünya müharibəsində" adlı kitabda da rast gəlmişəm. Amma yenə deyirəm, mən bu günədək onu polyak bilmişəm. İndi siz deyirsiniz azərbaycanlıdır. Bunu sübut edən əsaslı bir faktı varmı?

İlişmişdim, özü də möhkəmcə. Yaxşı ki, əl çamadanımda Əli ağa Şıxlinskiyə, onun həyat yoldaşı Nigar xanıma aid materialları, fotoşəkilləri özümlə gətirmişdim.

– Lisey-muzeydən çıxanda hara gedəcəksiniz? – soruşdum.

– Sankt-Peterburqa, orda qalıram, "Sovetski" mehmanxanasında.

– Nə xoş təsadüf, mən də orda qalıram, on üçüncü mərtəbə, on doqquzuncu otaq. Axşam qonağımızsınız, ətraflı söhbət edərik…

* * *

Sankt-Peterburqda ən çox sevindiyim 1984-cü ilin bir oktyabr günü oldu. İntizarında olduğum kitab, nəhayət, tapıldı. "Səhra toplarının cəbhədə işlədilməsi", müəllifi polkovnik Şıxlinski, Luqa şəhəri, 1910-cu il.

Artilleriyanın, xüsusən Rusiya-Yaponiya müharibəsində, səhra artilleriyasında döyüşdə istifadə olunması qaydaları konkret şəkildə işlənib hazırlanmış və elmi cəhətdən əsaslandırılmışdır. Kitab altı fəsildən ibarətdir.

Bu uğurlu gündə V.Bertelsin 1912-ci ildə Varşavada çap etdirdiyi "Quru qala qoşunları və ağır səhra artilleriyası tərəfindən atəş açılmasında artilleriya cihazlarından istifadə edilməsi haqqında məlumatlar" kitabını əldə edib, hər ikisinin surətini çıxartdırdım. V.Bertels kitabının ikinci hissəsində polkovnik Şıxlinski "Üçbucağı"nın artilleriyada böyük, əvəzsiz əhəmiyyətindən bəhs edir: "Artilleriya atəşinin aparılmasında "Şıxlinski üçbucağı" böyük rol oynamışdır. "Üçbucağın" ətraflı şəhəri və yazılışı ilk dəfə 1912-ci ildə çap olunmuşdur.

"Şıxlinski üçbucağı" təkcə rus artilleriyasında deyil, Fransa, İsveçrə, Norveç və Avstriya artilleriyasında da böyük şöhrət qazanmışdır".

## ÖMRÜN SON GÜNLƏRİ
**(Sənədli hekayə)**

***Təbiət Əli ağaya böyük bir ağıl, müstəsna bir qabiliyyət və hərbi istedad, mərdlik və nəcib sifətlər, Vətən müdafiəsi üçün çox faydalı olan fəaliyyət ehtirası ilə dolu coşqun bir enerji vermişdir.***

***Yevgeni Barsukov,***
***artilleriya generalı, professor***
***General Əli ağa Şıxlinskinin***
***1943-cü ildə çəkilmiş son fotoşəkli***

Görünür qismətdi, bəlkə də bu, taleyin hökmüdür. Hər nədirsə, əlli beş il bundan əvvəl görülən iş Azərbaycanımızın hərb tarixinə əvəzsiz töhfədir. Əgər 1942-ci ildə məşhur filosof-alim Heydər Hüseynov ömrünün son illərində dünyaşöhrətli sərkərdəmiz Əli ağa Şıxlinski ilə görüşməsəydi, Azərbaycan hərb memuarının təməl daşını qoyan "Xatirələrim" kitabı da yaranmayacaqdı. Generalın xatirələri ölümündən bir il sonra 1944-cü ildə cəmi yeddi min beş yüz tirajla nəşr olundu. Nadir nüsxəyə dönən bu qiymətli kitab 80-ci illərdə tapılmadı. Bu dövrdən başlayaraq hərb tariximizə general Əli ağa Şıxlinski xatirələrinə oxucu "aclığı" güclənmişdir.

Şəmistan Nəzirli, mərhum xalq yazıçısı İsmayıl Şıxlının qayğısı ilə generalın aydan arı-sudan duru xatirələrini 1984-cü ildə kütləvi tirajla (60 min) yenidən Azərbaycan və rus dilində nəşr etdirdi. Kitabı izahlar, qeydlər və əlavələrlə nəşr etdirən Şəmistan Nəzirli topladığı yeni faktlar əsasında "Ömrün son günləri" adlı sənədli hekayə yazıb.

* * *

General qocalmışdı, elə qocalmışdı ki, nə gözü əməlli-başlı görürdü, nə də qulağı eşidirdi, yerişi də o yeriş deyildi. At belində, piyada cəbhələr gəzən, batalyonlara, alaylara, orduya sərkərdəlik edən generalın indi tərpənməyə halı qalmamışdı. Dövlətin ona verdiyi bir neçə otaqdan özü üçün ancaq birini saxlamışdı. Onda da təktənha yaşayırdı. Oğulsuz-qızsız, nəvəsiz-nəticəsiz. Tale onu bu nemətdən məhrum etmişdi. Həyat onun üçün hələ adiləşməmişdi. Nikbin baxışı, əzəmətli vüqarı, yaşamaq ehtirası və dərin ağılı tam üstündə idi. Kim onu küçədə, bayırda görürdüsə, fəxrlə tanımayana göstərirdi: "Port-Artur qəhrəmanı, "artilleriyanın allahı" Əli ağa Şıxlinski!". Bu adı 1906-cı ildə qazanmışdı. Hər yerdə onu belə nişan verirdilər.

…İndi uzaqlarda toplar dinir, tüfənglər atılır, insanlar qırılır, kəndlər, şəhərlər dağılırdı. Onun topçuluq və artilleriya haqqındakı təklifləri bu müharibədə də əsgərlərimizin köməyinə gəlirdi. Rus topçuluq elmindəki kəşflərindən, xüsusən "Şıxlinski üçbucağı"ndan və "Şıxlinski formulu"ndan geniş istifadə olunurdu. General isə dəmir darvaza arxasında saxlanan pələng kimi tək-tənha qalmışdı. Yetmiş səkkiz illik ömür yolunda general yaşamağına, dünyaya gəlməsinə zərrəcə heyfsilənmirdi. Keçmişdən söhbət düşəndə o, fəxrlə deyirdi:

– …Mən öz keçmişimə sakit bir vicdanla nəzər salır və müasirlərimin gözlərinə cürətlə baxıram. – Stola söykənib qalın bığlarını eşər, xeyli sükut etdikdən sonra gülümsünən general: – Bu günlər də bizim ömrümüzün qocalıq çağına düşdü, – deyərdi.

Altmış ildən çox nümunəvi hərbi qulluğu ona şan-şöhrət gətirmişdi. Uzaq Şərqdəki xidməti, Rusiya-Yaponiya və Birinci Dünya müharibələrində, 1918-1920-ci illər də Milli Ordudakı misilsiz fəaliyyəti bütün hərbiçilərə nümunə göstərilirdi.

Bunların hamısı Vətənin azadlığı naminə görülən ən xeyirxah, yaddançıxmaz xidmətlər idi. General xidmət illərini xatırlayanda qəlbi nurla dolur, gözünə işıq gəlir. Bu anlarda sanki uzaqlarda atılan qələbə soraqlı topların səsini belə eşidirdi.

Onu yalnız tənhalıq sıxırdı. Bu anlarda dünyada ən çox sevdiyi bir adamla səssizcə danışmaq ona təsəlli verirdi. Bu adam şəkil olub, divardan asılmışdı. Düz on iki ildən çox idi şəklə dönən insan onun pıçıltılarına cavab vermirdi. Onunla danışanda generalın səsi boş otaqda əks-səda verib özünə qayıdırdı.

O, özü kimi qoca kresloda sakitcə əyləşmişdi. Ötən günləri qovub xəyalından, yaddaşından silmək istəyirdi. Keçmişə qayıtmaq istər-istəməz əziz Nigarını xatırlamaq demək idi. O, bunsuz keçinə bilmirdi. Bu, mümkün də deyildi. Bütün xidməti boyu Nigar onunla qoşa addımlamışdı. Saysız-hesabsız əsgərlərə zərif əllərilə şəfa verib həyata qaytarmışdı.

Otaq buz kimi soymuşdu. Bakıya qatı duman gəlmişdi. Gözəgörünməz çisəkdən nəmlənmiş asfalt parıldayırdı. Küçələrdən gediş-gəliş kəsilmişdi. Cəbhə həyatı keçirən şəhər sanki köçmüşdü. Bayaqdan pəncərə ağzında quruyan generalın yadına Sovet Məlumat Bürosunun hər saat radio ilə verilən xəbərləri düşdü. Yaxasından gödəkcəsinin cibinə sallanan qədim saatın zəncirini çəkib onu işığa tutdu. Səkkizə beş dəqiqə qalırdı. Küçədə telefon dirəyindən asılmış reproduktorun altına xeyli adam yığışmışdı. General pəncərəyə yaxın oturub, buradan aydın eşidilən cəbhə xəbərlərini dinlədi.

…Bu gün Qızıl Ordu hissələrimiz Stalinqrad ətrafı döyüşlərdə faşist generalı Fridrix Paulyusun və Feldmarşal Fon Manşteynin ordusunu darmadağın etmişdir. Xilaskar Qızıl Ordu hissələri müvəffəqiyyətlə hücumu davam etdirir…

İndi qələbə tam bizimlədir. Quduz qəsbkarın yuvası dağılacaq…

Daha heç nəyi eşitməyən general evin içində sürətli addımlarla gəzinirdi. Qalın cod bığları sevincdən titrəyirdi. Sevincini bölüşməyə adam axtarırdı. Geriyə dönüb şəklə baxa-baxa:

– Gözün aydın, Nigarım, Vətən oğulları qırdı düşmənin belini.

Şair Vidadinin nəvəsi olan general bütün həyatı boyu bir neçə şeir yazmışdı. Həmin şeirlər iyirmi iki il bir yastığa baş qoyduğu

ömür-gün yoldaşı Nigara həsr olunmuşdu. İndi ona elə gəlirdi ki, qulağı da eşidir, gözü də görür.

Radioda son xəbərlərin oxunuşu qurtardı. Azacıq zəfər marşından sonra diktor:

– Şair Səməd Vurğun mikrofon qarşısındadır, – dedi.

Gur, alovlu şair səsi şəhərə yayıldı:

*Ay ellər, obalar, gözünüz aydın!*
*Düşmənin səfləri pozulur bu gün!*
*Bizim qoç igidlər nərə çəkdikcə,*
*Zalımın məzarı qazılır bu gün!*

Qapı döyüldü. O, cəld irəliyə doğru getdi. Fikirləşdi ki, yəqin qonşum Bahadurla Varvaradır, gəzməkdən qayıdırlar. Fikrindən keçdi ki, bu qələbə münasibətilə hər ikisini öpsün. Soruşmadan qapını açdı. Cavan, yad bir adamı qapıda görüb özünü itirən kimi oldu.

Gecdən-gec:

– Kimi istəyirsiniz? – həyəcanla soruşdu.

Qapıda dayanan cavan oğlan dedi:

– General Əli ağa Şıxlinski sizsinizmi?

– Bəli, buyurun içəri keçin.

Qonaq irəli bir addım atıb əl uzatdı:

– Akademiyanın elmi işçisiyəm. Məni vitse-prezident Heydər Hüseynov Sizin yanınıza göndərib. Tapşırıb ki, xatirələrinizi yazmaqda Sizə kömək edim.

– Yaxşı eləyib gəlmisən, oğul! Düzü, mənim üçün çox çətindir. Belə ki, əllərim əsir, gözüm pis görür, qulaqlarım da yaxşı eşitmir. Ancaq hafizəm, yaddaşım hələ qalıb. Hər bir hadisəni, əhvalatı gününə, hətta saatına qədər də xatırlayıram. – Sonra buz kimi soyuq, kimsəsiz otağı göstərdi. – Nə bilim, bu şəraitdə mümkündürmü?..

Səhərisi akademik Heydər Hüseynovun özü qoca generalın görüşünə gəldi. Görkəmli alim qarşısında dayanan ucaboy, enli-

kürək generala heyranlıqla baxırdı. Sanki onun sağlığına inana bilmirdi. Professor Barsukovun kitablarında Əli ağa Şıxlinskinin adına dönə-dönə rast gələndən sonra şəxsən alim özü elmi işçi Avedyayevi məcbur eləmişdi ki, qapı-qapı gəzməli olsa da, generalı tapmalıdır.

Alimlə general üzbəüz oturdu. Ötəri də olsa, evə göz gəzdirən alim, burada kitablardan və qədim mebeldən başqa qiymətli heç nə görmədi.

Ağzı yarıaçıq qalan şkafdan bir dəst general mundiri asılmışdı. General əli əsə-əsə stolun üstündəki solğun gülün əyilmiş budağını düzəltdi. Qonaq titrək səslə:

– Yoldaş general, – dedi, – bizim akademiya general-professor Yevgeni Barsukovun yenicə nəşr olunmuş əsərlərini alıb. Professor dördcildlik "Rus artilleriyası Birinci Dünya müharibəsində" əsərində Sizin yalnız rus topçuları arasında deyil, həm də rus ordusunun geniş dairəsində hörmət və nüfuzunuzu, Port-Artur epopeyasında son dərəcə böyük şöhrətinizi məhəbbətlə, ehtiramla xatırlayır.

Bayaqdan susan, qonağını dinləyən general təvazökarlıqla:

– Hə, – dedi, – az-çox cavanlıqda vətən qarşısında xidmətimiz olub. Yevgeni Zaxaroviçlə təxminən iyirmi il birgə qulluq etmişik. Topçu Zabitləri Məktəbində, Luqa şəhərində, topçu general müfəttişliyində işləmişik.

Heydər Hüseynov onu tapdığına uşaq kimi sevinirdi. Fikrində, ürəyində özünü danlayırdı ki, xalqımızın belə şöhrətli oğulları çoxdur. Amma biz onları itirib-axtarmırıq. Bu gün görkəmli rus professoru onun əvəzsiz xidmətini nahaqdan xatırlamır. Özü də bir-iki yerdə yox... Düz qırx bir dəfə öz elmi əsərində onun hərbi üçbucağından, Birinci Dünya müharibəsindəki fəaliyyətindən ağız dolusu danışır.

O, özü ilə gətirdiyi kitabı stolun üstünə qoydu. Səhifələrin arasında qoyulan nazik kağız parçalarını götürüb dedi:

– İcazənizlə, bir epizod oxuyum, yəqin ki, Sizin üçün maraqlı olacaq.

– Buyurun, – ağır eşidən general stulunu bir az da yaxına çəkdi. Damarı çıxmış iri əllərini dizləri üstünə qoydu. – Məmnuniyyətlə qulaq asıram.

– "General Əli ağa Şıxlinski 1916-cı ildə Krevo yaxınlığında alman mövqelərinin yarılması əməliyyatına, Qərb cəbhəsinin onuncu ordu cəbhəsində 1917-ci il iyul əməliyyatının topçuluq cəhətindən hazırlanmasına rəhbərlik etmişdir. Əli ağa Şıxlinskini həmişə ön mövqelərdə görmək olardı. O, topçu hissələrinin yerlərini yoxlayır, topları daha düzgün yerləşdirmək üçün göstərişlər verir, onların döyüş əməliyyatlarını izləyir və rəhbərlik edirdi".

Heydər Hüseynov səhifəni axıra qədər oxuyub vərəqi çevirdi. Sakitcə oturub onu dinləyən generala baxdı. O, keçmişdən gələn şan-şöhrətinə diqqətlə qulaq asırdı. Dumanlaşmış eynəyini çıxardıb ehmallıca sildi. İri sifətindəki batıq ordları həyəcandan titrədi.

– Bu səhifədə isə Sizin onuncu ordunun komandanı olan vaxt yazdığınız bir raportun mətni verilib.

– Maraqlıdır, mən yüzlərlə raport yazmışam. Görəsən, hansı əməliyyatdır ki, bir tarixi fakt kimi hətta kitaba belə düşüb? Oğul, zəhmətdən keçib, rica edirəm, onu da oxuyun, – general nəzakətlə xahiş etdi.

– "Topçu hazırlığı başlandı. Müharibənin üç ili ərzində mən topçuların bu qədər gözəl bir əməliyyatını görməmişdim. Qoşunların ruhu yüksəlməyə başladı. Hətta topçulara çox böyük tələblər verən piyada da razı qalmışdı. Otuz səkkizinci korpusda piyadalar hazırlığı tamamilə bitmiş hesab edib, hətta onu davam etdirmək təklifindən əl çəkdi… hissələr hücuma keçdilər, onlar təntənə ilə yürüyərək düşmənin iki-üç sıra səngərini aşıb, onun batareyalarına çatdılar, düşmən toplarının nişangahlarını götürüb gətirdilər"…

– Hə, yadıma gəldi, – deyib, general sinədolusu nəfəs aldı. – Çox sağ ol, oğlum…

– Hələ qurtarmamışam, yoldaş general, – deyib Heydər Hüseynov yenidən oxumağa başladı. O, generalı sevindirdiyinə özü də hədsiz dərəcədə şad olmuşdu.

– Əli ağa çox tələbkar və zabitəli komandir olmaqla bərabər, eyni zamanda ədalətli, xeyirxah, özünə tabe olanların qeydinə qalan bir adam idi. Onlar Əli ağaya hörmət edər və onu son dərəcə sevərdilər…

– Bəsdi, oğul, bəsdi, – deyib general alimin biləyindən tutdu. – Dosta üzgörənlik eləyib Yevgeni Zaxaroviç, məni lap çox tərifləyib.

– Zənnimizcə, elə xidmətiniz müqabilində də Yevgeni Zaxaroviç tərif yazıb. Amma Siz, nədənsə, elə tərifdən qaçırsınız.

– Axı, ay oğul, biz o işləri tərif naminə görməmişik. Bu, hər birimizin borcu idi, onu da pis-yaxşı yerinə yetirdik.

– Yoldaş general, borca qalanda… – susdu, cəsarət eləməyib elə-belə kitabı vərəqlədi.

– Hə, buyur, oğul, nəsə sözlü adama oxşayırsan, de, utanıb çəkinmə…

– Sizdən bir təvəqqem var, amma gərək yox deməyəsiniz…

– Oğul, bir de görüm əlimdən gələn işdimi, – və kövrək-kövrək: – Məgər bu əldən-ayaqdan düşmüş qoca da kiminsə işinə yarıyar?

– Yaxşı olar ki, Siz də xatirələrinizi yazasınız. Sizin xatirələr bu gün faşizmə qarşı ölüm-dirim mübarizəsi aparan əsgər və zabitlərimiz üçün ən gözəl töhfə olardı.

General kitabı əlinə alıb, eynəyini gözünə taxdı. Kitabın ilk səhifəsinə elə-belə göz gəzdirib:

– Ay oğul, – dedi, – dünən Sizin bir elmi işçiniz də gəlmişdi, ona da dedim. Bu, elə çətin işdi ki, tək mən öhdəsindən gələ bilmərəm. Belə ki, lap uşaqlıqdan hərbi işə olan marağım, hərbi gimnaziyada, Peterburqdakı Mixaylovski Topçuluq Məktəbində oxumağım, hamısı... Rusiya-Yaponiya müharibəsindəki xidmətim, Cahan müharibəsində və inqilab illərində olan bütün hadisələr təfərrüatı ilə yaddaşımda qalıb. Bu, görünür, ömrümdə bir

dəfə də olsun araq içməməyimdən, ət yeməməyimdən irəli gəlir. Ümumiyyətlə, uşaqlıqdan məndə qumara və insana məxsus olmayan əyləncələrə qarşı nifrət var. Boş vaxtımı at sürməkdə, kitab mütaliəsində keçirmişəm. Bəlkə ona görə də yaddaşdan yaxşıyam. Amma qulaqlarım və gözlərim mənə vəfasızlıq edir. Bu da görünür qocalıqdandır. Axı, zarafat deyil, bu yolu mən ötən əsrin ortalarından gəlirəm.

Alim sevinclə:

– Eybi yoxdur, yoldaş general, – dedi. Generalın xatirələrini yazmağa razılıq verməyi onun hədsiz sevincinə səbəb oldu. – Mən Sizə köməkçi verərəm. Hiss eləyirəm nasazsınız, əgər etiraz etməsəniz, Sizə bir nömrəli xəstəxanada otaq ayırardıq. Orada həm müalicə olunardınız, həm də xatirələrinizi diktə edərdiniz. O adam gecə-gündüz sizinlə bir otaqda yaşayacaq.

– Mən etiraz etmirəm, – deyə general qocalara məxsus xoş təbəssümlə gülümsündü. – Onsuz da evdə tək-tənha darıxıram. Həkimlər mütaliəni də mənə çox gördülər. Amma bir şeyi də demək istəyirəm. Sizin o alim yoldaşın günahı nədi, sapsağlam ola-ola xəstə…

– Siz onun üçün narahat olmayın. O özü buna ürəkdən razıdır. Başa düşür ki, bu xatirələrin hər bir epizodu xalqın azadlığı yolunda əzab-əziyyətlərə dözən, odlu səngərlərdə "Vətən uğrunda!" deyib hücuma keçən əsgər və zabitlərə hava, su qədər gərəklidir.

– Mən hazıram, – general ürəkdən razılıq verdi. Gur səslə: – Bir şərtlə ki, lap uşaqlıqdan başlayacağam. Çünki uşaqlığım mənim üçün çox əzizdir, – dedi. – Sizə onu da xatırladım ki, kiçik bir mülkədar olan atam İsmayıl ağa Əli Qazax oğlu Şıxlinski, əsli 1537-ci ildən başlayan igid bir nəslə mənsub olub. Bizim ulu babamız Ağdolaq Məmmədağa Qazax qəzasında igidliyi ilə ad-san qazanıbmış. Onun iki oğlu olub. Böyük oğlu Şıxı çox ağıllı və sakit, kiçiyi Əli Qazax isə çox igid, amma dəlisov bir adam imiş. Mən Əli Qazaxın nəslindənəm. Əvvəllər ikisi də Qazaxlı kəndində yaşayıblar. Şıxının övladları artıb böyüyəndə görünür,

torpaq sahəsi azlıq edib. Ona görə də onlar bir qədər də qərbə köçüb – biri Sınıq körpünün yanında, o biri də Kürün sahilində kənd salıblar. İndiki Şıxlı kəndləri mənim ulu babamın adını daşıyır.

– Eşitdiyimə görə, Sizin böyük şair Molla Vəli Vidadiyə də qohumluğunuz çatır?

– Çatır, oğul, – general fəxrlə izah etdi. – Mənim anam Şahyəmən xanım Vidadinin dost-doğma nəvəsidir. O dövrün iki məşhur şairi də bizim nəslin yetişdirməsidir. Kazım ağa Salik və Mustafa ağa Arif Şıxlinskilər eşitmisənmi?

– Bəli, ədəbiyyat tarixində belə şairlər var. Amma heyf ki, çox az şeirləri bizə gəlib çatıb. O da Firidun bəy Köçərlinin xidməti sayəsində...

Alim hiss edirdi ki, danışmaq, o illəri xatırlamaq general üçün çətin də olsa xoşdur. Səhhəti ona imkan vermirdi. Həyəcanlanmış general durub rəfdən qalın bir kitab gətirdi. Vərəqləyib istədiyi səhifəni tapdı. Kresloda əyləşib dərindən nəfəs aldı.

– Rəhmətlik Firidun bəy Köçərli gör nə qədər cünglərdə, boğçalarda itib-batmaqda olan Azərbaycan şairlərinin şeirlərini üzə çıxartdı. Yəqin ki, bu kitabı oxumusunuz. Görürsünüzmü, Kazım ağa Salikin, Mustafa ağa Arifin neçə şeiri verilib. Ömrünü Rusiyada sürgündə keçirən mayor Mustafa ağa da bizim nəslə mənsubdur. Mustafa ağa ilə Kazım ağa, deyilənə görə, qardaş, ya da əmioğlu olublar. Diqqət elə gör, qürbətdə Qazaxı xatırlayan Mustafa ağa Arif Salikə nə yazır:

*Bilməm nə oldu bizim Qazax, Şəmsəddin,*
*Gəlmədi onlardan bir xəbər, yəqin.*
*Qəzayi-ilahi bu imiş həmin,*
*Getdi əldən o dövranlar, ağlaram!*

...Söhbət elə şirinləşdi ki, qonaq getməyi, general isə xəstəliyini unutmuşdu. Sanki onlar bir-birini neçə illər idi tanıyıb sevirdi. Alim ürəyində deyirdi: "Hər xalqın təlxəyi də var, məşhur

sərkərdəsi də... Ağıllı xalq, şübhəsiz ki, sərkərdəsi ilə fəxr edir. Biz isə belə sərkərdəni itirib-axtarmırıq. Vaxtilə ”rus artilleriyasının allahı” sayılan, xalqımızın hərb tarixinə şanlı səhifə yaza biləcək insan Cəfər Cabbarlı adına küçənin on dörd nömrəli evində tək-tənha ölümünü gözləyir”.

– Bəs hərbçi necə? Nəslinizdə Sizdən əvvəl hərbçi olubmu?

– Bizim nəsil cəngavərliyi, tündməcazlığı ilə tanınıb. Ona görə də bizi qəzada “dəliqazaxlı” adlandırıblar.

Əli Qazaxoğlu nəslində birinci savadlı adam mənim atam olub. O, 1804-cü ildə Rusiya-İran müharibəsində süvari dəstənin tərkibində vuruşmuşdur. Atam İsmayıl ağa döyüşdə xüsusi ilə fərqlənən, təltif olunanlar sırasında olub.

Şıxlinskilər nəslində Avropa üsulu ilə tam təhsilli birinci adam isə mən olmuşam.

Atam rus dilini bilməsə də, görünür ona böyük hüsn-rəğbəti olub. Məndən iyirmi beş yaş böyük qardaşımı çar konvoyuna göndərib. Qardaşım atamdan aldığı maddi yardımla özünə müəllim tutub rus dilini öyrənir. Üç ildən sonra zabitliyə imtahan verib, süvari zabiti adını alır.

Mənə isə Avropa üsulunda hərbi təhsil vermək atamın ən böyük arzusu idi. Ona görə də məni götürüb özü ilə Tiflisə apardı. Anamın əmisi oğlu o vaxt çox məşhur olan, savadlı, bir çox azərbaycanlıların təhsil almasına yaxından kömək edən Mirzə Hüseyn əfəndi Qayıbzadəyə tapşırdı. Bundan sonrakı bütün fəaliyyətim üçün həm müəllimim, həm də qayınatam Mirzə Hüseynə borcluyam.

General susdu. Gödək saqqalını, qalın bığını fikirli-fikirli sığalladı. Qonağın sorğu-sualı onu həyatının ilk gənclik çağına qaytardığından ürəyindəki, qəlbindəki nisgili də tərpətmişdi. Görüşdüyü saysız-hesabsız əsgərləri, dostları, tanışları, hamısını elə bil qonaq özü ilə gətirmişdi. “Qayınatam” deyəndə istər-istəməz, Nigarını xatırladı. Başını söykənəcəyə dirədi. Dünyanın ağrısı-acısı köksünü didirdi.

– Hə, oğul, deyəsən kitabın bir fəslini yazıb bitirdik.

Alim onun bərk yorulduğunu görüb ayağa durdu. Sağollaşıb ayrıldı. Söhbətdən sonra xeyli vaxt özünə gələ bilməyən general nahar etməyi də unutmuşdu. O, fikrə getdi. Ötən günlər onu bərk yaxalamışdı. Diqqəti məchul bir nöqtədə ilişib qalan ev sahibi fikrən hadisələri ilbəil bir-birinin yanına düzürdü.

…1908-ci il, iyirmi beş noyabr. Çarskoye-Seloda "Müqəddəs Georgi Pobedonosets" ordeni günü bayram edilirdi. Podpolkovnik Şıxlinskiyə əla xidmətlərinə görə polkovnik rütbəsi verilirdi. O, on illik xidməti borcunu üç ildə yerinə yetirmişdi. Bu barədə yuxarı dairələrdə də, orduda da çox nadir bir hadisə kimi danışılırdı. Sülh vaxtı bu, ağlasığmaz təltifat idi.

Əli ağanı məşhur Şipka qəhrəmanı, piyada generalı Nikolay Qriqoryeviç Stoletova burada təqdim etdilər. Hərbi sovetin üzvü N.Q.Stoletov çatılmış qaşları altından iri mavi gözlərini Əli ağaya dikib, təmiz Azərbaycan dilində dedi:

– Tanışlığımıza çox məmnunam, cənab polkovnik.

Əli ağa donub qaldı. Ona elə gəldi ki, qulağı səsə düşüb. Generalın qarşısında hərbi qaydada farağat dayanıb təəccüblə:

– Mən də həmçinin… – səsi qırıldı.

– Qulluğunuz necə keçir, füsunkar Qafqaz üçün darıxmırsınızmı?

– İşin çoxluğu bəzən buna imkan vermir. Lakin vətən həmişə vətən olaraq qalır. Məgər onun üçün darıxmamaq olarmı?

– Çoxdanmı ayrılmısınız Qafqazdan?

– Artıq səkkiz il keçir, cənab general. İcazənizlə, soruşmaq istərdim, əgər sirr deyilsə, bizim dili belə təmiz kimdən öyrənmisiniz?

General gülümsünüb ərklə əlini Əli ağanın çiyninə qoydu:

– Bu dili mən sizinkilərdən öyrənəndə, yəqin ki, sən onda uşaq idin. 1860-cı ildə Tiflisdə hərbi xidmətdə olmuşam. Sevastopol kompaniyasından sonra mənə ştabs-kapitan rütbəsi verib, Qafqaz ordusunun baş qərargahına göndərdilər. Orda cavan bir azərbaycanlı ilə tanış oldum. Bu adam ərəb, fars dilində yaxşı təhsilə malik olsa da, rus dilini çox zəif bilirdi. Bu dilə isə güclü marağı var idi. Biz onunla dostlaşdıq, belə qərara gəldik ki, mən

ona rusca, o da mənə azərbaycanca dərs keçsin. Azərbaycan dilini bilməyən adam Qafqazda çətin hərəkət edə bilər. Bunu Martınov qülləsinin günahsız qurbanı, böyük şair Lermontov da etiraf etmişdir. Onu da deyim ki, Sizin Azərbaycan dili bir neçə dəfə Şibka döyüşlərində də köməyimə çatıb. Son həmlələrin birində əsir aldığımız məşhur türk sərkərdəsi Hacı Osman Paşanı mən azərbaycanca danışdıranda onun gözü kəlləsinə çıxdı. Dodaqaltı deyinib, hirslə gözlərini üzümə bərəltdi:

– Gavura satılan qafqazlı, – deyə məni təhqir etdi.

– Lütfən deyin, cənab general, o dərs aldığınız adamın adını xatırlamırsınız ki…

– Əlbəttə, xatırlayıram, Mirzə Hüseyn əfəndi, – general ani olaraq fikrə getdi.

Əli ağa Şıxlinski dərhal sevinclə soruşdu:

– Qaibzadə, eləmi?

– Bəli, məgər Siz də onu tanıyırsınız?

– Necə tanımayım. Hüseyn əfəndi mənim anamın doğmaca əmisi oğludur. Həm də mənim qayınatamdır. Mən də ondan dərs alıb bu rütbəyə çatmışam.

– Görürsünüz, tanış çıxdıq. Bu, çox yaxşı oldu. Axtarılsa, siz qafqazlılar hamınız bir-birinizə qohumsunuz. Vaxtınız olanda bizə buyurun, cənab polkovnik, Sizi Qafqaz çayına qonaq edərik.

– Cənab general, icazə versəydiniz, mən də Sizi keçmiş dostunuzun qızı Nigar xanımın bişirdiyi Qafqaz plovuna dəvət edərdim…

– Böyük məmnuniyyətlə…

Əli ağa Şıxlinski Uzaq Şərqdəki xidmət illərini, Çinə səfərini, Rusiya-Yaponiya və Birinci Dünya müharibəsindəki iştirakını, Azərbaycanda xidmətini, Nəriman Nərimanov, general Səməd bəy Mehmandarov, Məmməd bəy Sulkeviç, Həbib bəy Səlimov, Mixail Frunze, Əbdülhəmid bəy Qaytabaşı kimi dövlət xadimi və məşhur sərkərdələrlə görüşlərini xatırlayır, titrək qələmi ilə xırdaca qeydlər edirdi.

O gündən unudulmuş qoca generala fərdi təqaüd kəsildi. Həkimlər həyəcanlanmamağı tapşırırdılarsa da, bu, mümkün ol-

murdu. Daim ön xətlərdə, müharibə meydanlarında döyüş əməliyyatlarının mahir sərkərdəsi həyəcansız danışa bilmirdi.

1943-cü ilin aprelində kitabın son səhifələrini diktə edən general vətəndaşlıq borcunu xatırlayaraq deyirdi: "İçərisindən çıxdığım xalqıma və onun özü üçün seçmiş olduğu hökumətə həmişə sədaqətlə xidmət etmişəm, edirəm və edəcəyəm".

Bütün varlığı ilə xalqını sonsuz ehtiramla sevən generala nə kitabının çıxması, nə də xalqımızın cahanşümul qələbəsini görmək qismət oldu. Gələcək nəsillərə onun böyük bir əmanəti qaldı. İbrətamiz həyat yolunu, hərbi xidmətini ayna kimi göstərən məşhur "Xatirələrim" kitabı ölümündən bir il sonra işıq üzü gördü. Topçu hissələri ilə tankların açıq üsulu kimi ağıllı təklifləri düşməni məhv etməkdə döyüşçülərimizin köməyinə gəldi.

Dövlət mükafatı laureatı, hərbi elmlər doktoru, artilleriya taktikası professoru Yevgeni Zaxaroviç Barsukov kitaba yazdığı müqəddimədə bunu bir daha təsdiq edirdi:

"Qızıl Ordunun artilleriyası özünün möhtəşəm qüvvəsini yaradarkən təkcə bu günün nailiyyətlərindən istifadə etməmiş, təkcə gələcəyə baxmamış, eyni zamanda keçmişdən bütün faydalı və lazım olanları da götürmüşdü. O, köhnə rus ordusunda olan ən yaxşı döyüş ənənələrini mənimsəmişdir.

Döyüş ənənələri və köhnə rus artilleriyasında yaxşı nə vardısa, hamısı general-leytenant Əli ağa Şıxlinski ilə əlaqədardır".

1944-cü ildə isə professor respublika Elmlər Akademiyasına göndərdiyi məktubda yazırdı:

"Hörmətli yoldaş Hüseynov! Əli ağa Şıxlinskinin kitabından altı nüsxə göndərdiyiniz üçün səmimi-qəlbdən təşəkkür edirəm. Həmin kitabları marşal Voronova, Yakovleva, Proçkoya, Xoxlov və Samsonov yoldaşlara vermişəm.

Bundan əlavə, əgər mümkünsə, SSRİ EA Tarix İnstitutunun direktoru, akademik Qrekova, bizim şanlı Qızıl Ordunun komandanlığının Əli ağa Şıxlinskinin "Xatirələrim" kitabı ilə maraqlanan bəzi üzvlərinə verməkdən ötrü daha altı nüsxə göndərməyinizi Sizdən xahiş edirəm".

# GENERAL ƏLİ AĞA ŞIXLİNSKİNİN MÜDRİK FİKİRLƏRİNDƏN

– Adi bir insan özünü dahi hesab edərsə, demək, o, ən küt bir adamdır.

– İnsan nə mələkdir, nə də heyvan; ansaq özünü mələk hesab edəndə heyvan vəziyyətinə düşür.

* * *

1920-ci ildə iyirmi səkkiz aprel çevrilişinin səhəri həbs olunan general Əli ağa Şıxlinskiyə bolşevik çekisti belə bir sual vermişdir:

– Hansı siyasi partiyanın və ya inqilabın mənafeyini müdafiə edirsiniz?

General Əli ağa Şıxlinskinin cavabı:

– Hər bir inqilaba əks-inqilab kimi yanaşıram. Heç vaxt belə şeylərə qoşulmamışam, qoşulmazdım da… Mən hərbçiyəm...

* * *

1919-cu il fevralın iyirmisində general Əli ağa Şıxlinski Gəncədə yeni yaranan Azərbaycan ordusunun əsgərləri qarşısında çıxış edərək demişdir:

– Azərbaycanlılar həmişəlik yadda saxlamalıdırlar ki, doğma ordu xeyriyyə evi deyildir və ondan ötrü mövcud deyil ki, hər bir azərbaycanlı orada özünə xeyirli olan yeri tutsun. Ordu Vətənin dayağıdır və ora ölkənin ən yaxşı qüvvələri daxil olmalıdır.

Özünün xırda şəxsi maraqlarını doğma diyarın və öz xalqının maraqlarından üstün tutan adamların qiyməti çox deyil və ordu təəssüf etmədən onlarla vidalaşır. Özlərini düşünən mənasız adamlar ordunun işini artırmasınlar. Belə insanların heç bir dövlət xidmətində faydası olmayacaq.

* * *

İyirminci ilin Aprel çevrilişi günlərində Müsavat hökumətinin daxili işlər nazirinin müavini Şəfi bəy Rüstəmbəyov Əli ağa Şıxlinskidən soruşmuşdur:

– Hə, cənab general, qaçmırsınızmı?

– Öz vətənimdən niyə qaçım ki?

– Sizi öldürərlər.

Ağırtəbiətli general təmkinini pozmadan cavab vermişdir:

– Gələnlər ağıllı adamlar olsalar, məni öldürməzlər, çünki mən onların işlərinə yararam. Axmaqlardan isə, heç yerdə canını qurtara bilməzsən. Buna görə də Vətənimin adama ehtiyacı olduğu bir zamanda, mən onu qoyub heç yerə getmərəm.

## Tərəzinizi dibindən çıxardan oğullar

1880-ci ildə Tiflis kadet korpusunda təhsil alan kursant Əli ağa Şıxlinski bir gün dostları ilə şəhərə gəzməyə çıxır. Kursantlar güclərini sınamaq üçün güc tərəzisinə yaxınlaşırlar. Hamı bir-bir öz gücünü göstərir. Əli ağaya da təklif edirlər. O deyir ki, gəlsəniz mən bunu divardan tamam qopardım (o vaxtlar güc sınanan tərəzi yumruqla vurulmurdu. Divara bərkidilirdi, güc sınayanlar onu özlərinə tərəf dartırdı).

Yoldaşları deyir:

– Əli ağa, zarafat eləmə, altıya, yeddiyə qədər çəkə bilsən, qalibsən.

Tərəziçi:

– Bala, əvvəl çək, sonra öyün, – deyib ona kinayə ilə baxır.

Əli ağa var qüvvəsi ilə elə çəkir ki, güc sınanan tərəzi divardan yerli-dibli qopur.

Tərəziçi:

– Bala, – deyir, – sən doğrudan da güclü imişsən, bu güclə öyünməyə haqqın var. Beşə qədər çəkənə altı manat düşür. Sən isə onu yerli-dibli qopartdın. Al, mükafatın on manatdır.

Əli ağa:

– Mənə on manat lazım deyil. Mən istədim biləsiniz ki, tərəzinizi dibindən çıxardan oğullar da var, – deyə cavab verir.

* * *

**Müdrik general Əli ağa Şıxlinski** 1919-cu ildə xarici ölkələrə təhsil almağa gedən gənclər qarşısında çıxış edərək demişdir:

– Vətənə məhəbbət ailə və məktəbdən başlayır.

* * *

1942-ci ildə **general Əli ağa Şıxlinskiyə** xatirələrini yazmağı təklif edən **filosof-alim Heydər Hüseynova** general demişdir:

– Mənim hərbi xidmətim xoşbəxtliklə keçmişdir. Kursant vaxtımdan ta ordudan istefaya getdiyim günə qədər heç bir müvəffəqiyyətsizliyə uğramamışam. Gəhgir at kimi gənclik ehtirası ilə həmişə irəliyə atılaraq, həyatda öz yerimi tapa bilmişəm. Rusların "gözəl doğulma, xoşbəxt doğul" qədim atalar sözünü dəfələrlə özümdə sınamışam. Həm hərbi xidmətdə, həm də şəxsi həyatımda xoşbəxtlik məndən heç vaxt uzaq olmamışdır. Mən heç vaxt mənsəb dalınca düşməmişəm, mənsəb özü mənim ardımca gəlmişdir. Hətta demək olar ki, mənsəb özü mənə doğru yüyürmüşdür. **Ona görə mən öz keçmişimə təmiz bir vicdanla və müasirlərimin üzünə tam cəsarətlə baxıram.**

***Heydər Hüseynovun həyat yoldaşı Talə xanım xatırlayırdı:***

– 1940-cı ildə Mərkəzi Komitəyə çağırılan Heydərdən soruşublar ki, nə üçün çar və müsavat generalı Əli ağa Şıxlinski haqqında çox yazırsınız?

Heydər bu suala çox sərt cavab vermişdir:

– Bəs nə üçün rus alimləri Suvorov və Kutuzov haqqında daha çox yazırlar?..

Bizim ailədə generaldan iki gümüş qaşıq – yemək və çay qaşığı saxlanılır. Onların tutacağında çalkeçirli (Venzelli) generalın ad və soyadının baş hərfləri yazılıb: "Ə.Ş.". Bunları general Əli ağa Şıxlinski özü Heydərə hədiyyə verib.

## Azərbaycan korpusu komandirinin məlumatı

***№ 67, 13 dekabr 1918-ci il, Gəncə şəhəri***

Azərbaycanın müstəqil respublika elan edilməsi mənə may ayının 27-də qəzetlərdən aydın oldu.

Mən mayın 28-də yeni dövlətin hərb nazirliyinin layihəsini artıq hazırlamışdım; layihə arxasında izahedici qeyd olan müfəssəl sxem əlavə edilmişdi.

Bu layihədə, ümumi şəkildə aşağıdakılar deyilirdi:

I. Hərb nazirliyinin idarə və müəssisələri ordunun təşkilat, tədris, tərbiyə və təminatı üçün heç bir şeyi əsirgəməməlidir.

Aşağıdakıların təşkil edilməsi zəruridir:

1) nazirliyin dəftərxanası;

2) Ali Baş Qərargahın idarəsi (elə özü də baş qərargah);

3) intendantlıq;

4) artilleriya idarəsi;

5) qoşunların yerləşdirilməsi təminatı üzrə şöbə ilə hərbi texniki idarə;

6) məhkəmə və sanitar qüvvələri və sairə.

Bundan başqa hərb naziri – əgər o, mülki şəxsdirsə – onda o, özünün yanında səlahiyyətli şəxslərin çox kiçik sayından hərbi şura yaratmalı və qoşunların təlim və tərbiyəsinə bilavasitə nəzarət etmək üçün köməkçi təyin etməlidir.

Artıq məsul vəzifələrə mənə şəxsən tanış olan şəxslər təyin edilmişlər. Yeri gəlmişkən, dəftərxana rəisi vəzifəsinə Koll dəvət edilmiş və o da tam razılıq vermişdir. Rus hərb nazirliyinin dəftərxanasında uzun müddət xidmət etmiş və bu müəssisənin iş fəaliyyəti ilə əla tanış olan Genşelman müşavir vəzifəsinə təyin edilmişdir.

II. Şöbə rəislərinin hamısı çox yüksək maaş alan əlahiddə korpusun iri qərargahları və idarələri ləğv edilsin və hərb nazirliyi-

nin idarə və müəssisələrinin qurulmasında həmin rütbəli şəxslərdən istifadə edilsin.

Diviziyalar bilavasitə hərb nazirinə və ya onun köməkçisinə tabe edilsin. Gözəl təlim və tərbiyə almış, Mancuriyada müvəffəqiyyətlə döyüşən, yüksək döyüş qabiliyyətli yapon ordusunun korpus təşkilatı haqqında təsəvvürü belə yox idi.

Bundan başqa heç bir hərbi-dairə idarəsi nəzərdə tutulmurdu.

Hərb nazirliyinin idarə və müəssisələri öz növbələrində gənc və son dərəcə kiçik olan dövlətin vasitələri və onun qoşunlarının sayına müvafiq olaraq – ziyalı qüvvələrə artıq dərəcədə qənaətlə yanaşmağı təşkil etməlidirlər.

III. Bu əsas layihə ilə yanaşı olaraq mən başqa ehtimalı da nəzərdə tuturdum:

1) Hərb naziri (onda bu vəzifəyə mülki şəxs təyin edilmişdi) onun korpus komandirinə verəcəyi tapşırıqlar müqabilində özünün şəxsi yazışması üçün çox az sayda yavərlər və kargüzarlar ştatı alır.

2) Əlahiddə korpus idarəsi demək olar ki, qalır, gənclərin hərbi qulluğa səfərbərliyi və qoşunların yerləşməsinin təminatı üzrə olan orqanlarla tamamlanır.

3) Korpus komandiri hökumətin müzakirə etdiyi hərbi məsələlərin hamısında nazir ilə bərabər səs hüququna malikdir.

IV. Birinci layihə (qismən və 2-ci ehtimal şübhəsiz olaraq aşağıdakı faydaları verə bilərdi):

1) bizdə həddən artıq az olan, zabit və hərbi məmurların, xüsusilə Ali Baş Qərargahın zabitlərinin və hərbi mühəndislərin ziyalı qüvvələrin qənaət edilməsi;

2) çoxlu pul qənaəti;

3) idarənin bəsitləşməsi, belə ki, müasir şəraitdə qətiyyən lazım olmayan bir instansiya azalacaqdır.

V. Hökumət Gəncə şəhərinə köçən kimi (iyun ayının əvvəlində) mənim layihəm hərb nazirliyi müəssisələrinin müfəssəl sxemi şəklində Nazirlər Sovetinin sədrinə təqdim edilmişdir.

Ehtimal edilirdi ki, hökumətə tam məlumatı, yəqin ki, Nazirlər Sovetinin müvafiq iclasına dəvət ediləcək korpus komandiri şəxsən özü təqdim edəcək. Lakin mən heç bir yerə dəvət edilməmişəm və layihə haqqında heç bir xəbərdarlıq almamışam. Güman edirəm ki, layihə heç müzakirə edilməmişdir, çünki Bakı quberniyasının bolşeviklərdən təmizlənməsi və bunun üçün lazım olan xarici kömək ilə əlaqədar olaraq yaranmış xüsusi şəraitə görə hökumət hərb naziri təyin etməkdən imtina etmişdir.

Mən bu sadə məsələnin üstündə ona görə çox dayanıram ki, mən çox zəif olduğuma görə bizim hamımızın həyəcanına səbəb olan mövzu haqqında qəti danışa bilmirəm və şəxsən məlumat vermək imkanından məhrumam.

VI. Bizdə hərb nazirliyinin yaradılması və yuxarıda göstərdiyim prinsiplərin Siz cənab zat-ali …….. bəyənəcəyinə tam əmin olaraq aşağıdakı vəsatətləri edirəm:

1) Azərbaycanın korpus qərargahı dərhal ləğv edilsin;

2) Onun şəxsi heyətindən qalan və onun təşkili üçün dəvət olunmuş şəxslərdən hərb nazirliyinin idarə və müəssisələrinin yaradılmasında istifadə edilsin.

***general-leytenant***
***Əli ağa Şıxlinski***

## Vahid türk terminologiyası üzrə nəticə

Türk xalqları üçün hərbi terminologiyanın birləşdirilməsi, aşağıdakı iki əsasa görə əhəmiyyətli sayıla bilər:

1) Hərbi terminologiyada müxtəlif fikir ayrılığı nə qədər az olarsa, ordu üçün o qədər yaxşıdır.

2) Terminologiyanın birləşdirilməsi türk dilinə daxil olmuş xarici sözlərin hamısının da olmasa, çoxunun (əsas etibarilə ərəb və fars sözlərinin) əvəz edilməsi üçün lazım olan miqdarda əsl türk sözlərini toplamaq imkanını verə bilər. Xarici sözlərin axını,

bu və ya digər dərəcədə unudulmuş, ya da ki, türk mənşəli müxtəlif xalqların saymadıqları ana sözlərinin ədəbi türk dilindən "qovub" çıxarmışlar.

Bir çox əsl türk sözləri var ki, onlar Azərbaycanda çox geniş işləndiyi halda, Tatarıstanda, Özbəkistanda və sair yerlərdə işlənmir və əksinə, o respublikalarda işlənən sözlər Azərbaycanda işlənmir.

Vahid türk hərbi terminologiyasının praktik olaraq həyata keçirilməsi üçün aşağıdakıları etmək olar:

1. Marağı olan respublikaların nümayəndələrindən ibarət komissiya təşkil etmək. Komissiyaya rus və türk dillərinin (öz xalqlarının ləhcəsini) mükəmməl bilən və hərbi işlə əsaslı surətdə tanış olan şəxslər daxil olmalıdır.

Komissiyanın yeri Bakı şəhərində müəyyən edilməlidir, çünki şəhər həm coğrafi mövqeyinə görə uyğun gəlir, həm də orada komissiyanın kooptasiya edə bilən, türk dilini yaxşı bilən şəxslər çoxdu. Komissiyanın tərkibinə daxil edilmiş şəxslərin sayı az olmalıdır.

2. Terminoloji lüğətin tərtib edilməsi üçün komissiya Orduda qəbul edilmiş terminlər məcmuəsini vermək lazımdır. Məcmuə təcili surətdə Moskvada hazırlanmalıdır. Məcmuəyə köhnə hərbi terminlər (avanqard, aryerqard, zastava və s.) kimi tarixi əhəmiyyəti olan və bugünkü gündə də öz əhəmiyyətini itirməmiş köhnə hərbi məcmuələrdə saxlanmış sözləri də daxil etmək lazımdır.

3. Komissiya öz işində həddən artıq ehtiyatlı olmalıdır, heç bir dilə üstünlük verməməlidir ki, heç bir şübhə, narazılıq yaranmasın.

Xalqların siyasi həyatında dil çox böyük əhəmiyyətə malikdir. Bunu Fridrix Engels aşağıdakı sözlərlə çox əla ifadə etmişdir: "Dövlətlərin təbii sərhədləri dil və simpatiyalar ilə müəyyən edilir".

Komissiya bütün türk xalqları üçün absolyut vahid terminlərin yaranmasına çalışmalıdır.

Əgər onlardan hər biri, digərindən xarici sözləri və ya boş söz yerlərini əvəz etmək üçün əsil türk sözü qəbul edərsə – bu əsas hal kimi qəbul edilməməlidir – və yaxud öz sözünün əvəzinə daha münasib əsil türk sözü seçərsə, bu kifayətdir. Bu hallar vacib deyildirlər, söz seçmək, səs çoxluğundan asılı olmayaraq könüllüdür.

Azərbaycan Hərbi Redaksiya Nəşriyyat Komitəsinin və Azərbaycan SSR-in Maarif Xalq Komissarlığının Elmi-terminoloji Komissiyasının təqdir etmiş, mənim tərtib etdiyim "Qısa hərbi lüğət" türk hərbi terminologiyasının birləşdirilməsi komissiyasının işi üçün kifayət qədər material verə bilər.

***Azərbaycan Redaksiya-Nəşriyyat***
***Komissiyasının Sədri***
***Əli ağa Şıxlinski***
***2 iyun 1925-ci il***

* * *

***Əlahiddə Azərbaycan Korpusunun komandiri general-leytenant Əli ağa Şıxlinski Hərbi nazirin müavini təyin edilməsi haqqında Səməd bəy Sadıq bəy Mehmandarovun Fətəli xan Xoyskiyə***

**Təqrir**

**№799, Gəncə** **25 noyabr 1918-ci il**

Müsəlman hərbiçiləri arasında ziyalı zümrənin kasadlığını nəzərə alaraq general-leytenant Əli ağa Şıxlinskinin təqririni təqdim etməklə, mən, onun Hərbi nazirin müavini təyin edilməsi barədə vəsatət verirəm. Bu vəsatət bir də o mülahizədən doğur ki, mənə yaxın zamanlarda müxtəlif hissə, idarə və anbarları yoxlamaq üçün tez-tez getməli olacağam, buna görə də Yelizavetpolda (Gəncədə – ***Ş.N.***) müavinin olması zəruridir. Bundan

başqa, general Əli ağa Şıxlinskiyə mən bütün texniki və hərbi tədris müəssisələrinə rəhbərliyi həvalə etmək fikrindəyəm.

***Tam artilleriya generalı:*** ***Səməd bəy Mehmandarov***
***Baş Qərargahın rəisi,***
***polkovnik:*** ***Həbib bəy Səlimov***

* * *

**Azərbaycan Redaksiya-Nəşriyyat Komissarlığının**
**Sədri Əli ağa Şıxlinskiyə**

***NKP yanında Elmi Türk***
***Terminologiyasının tərtib***
***edilməsi komissiyası***
***20 avqust 1925-ci il***

Sizin 2 iyun 1925-ci il sorğunuza cavab olaraq Elmi-Türk Terminologiyasının Komissiyası bildirir ki, SSRİ -də vahid terminologiyanın tərtib edilməsi siyasi məsələ olduğu üçün, bu məsələyə dair Komissiyanın fikir söyləməyə hüququ yoxdur. Yalnız onu əlavə edə bilərik ki, Komissiyanın razılığı ilə Əli ağa Şıxlinski ASSR üçün üç min sözdən ibarət olan Hərbi Lüğət tərtib edilmişdir, lakin o hələ çapdan çıxmamışdır.

Komissiyanın sədri – imza

Katib – imza

Əsli ilə düzdür: Az. MİK-in iş icraçısı – imza və tanış olub: Əli ağa Şıxlinski.[1]

* * *

[1] General Əli ağa Şıxlinskinin tərtib etdiyi 280 səhifəlik "Rusca-türkcə qısa hərbi lüğət" əsəri 1926-cı ildə "Azərbaycan hərb redaksiyası" tərəfindən Bakıda nəşr olundu. Həmin əsərə görə Əli ağa Şıxlinski SSRİ Hərbi İnqilab Şurasının 1928-ci il 23 fevral tarixli qərarı ilə Fəxri Fərmanla təltif edilmişdir – ***Ş.N.***

***Çox hörmətli və əziz Əli ağa!***

Mən bu gün keçmiş rus ordusunda öz xidmət yoldaşım və dostum kimi tam artilleriya generalı Səməd bəy Mehmandarova məktub yazmışam. Əli ağa, eyni duyğularla Sizə də məktub yazıram. Habelə mənə Azərbaycan Cümhuriyyəti qoşunlarında hər hansı bir vəzifə verilməsi xahişi ilə müraciət edirəm. Mən könüllü ağqvardiya Ordusunda Kazak briqadası komandiri kimi kiçik bir vəzifə tuturdum. Sonra qısa müddətdə Kuban ordusu qərargahı yanında tapşırıq generalı oldum.

Ailəmin yaşayışını təmin edə bilməkdən ötrü istənilən vəzifəyə qane olacağam. Siz məni tanıyırsınız. Mən istənilən vəzifədə Azərbaycan Cümhuriyyətinə faydalı olacağam. Xidməti (hərbi) sədaqət andı içməyə hazıram. Arvadım və uşaqlarım – qızlarım Vera və Nadejda Sizə, Əli ağa və Nigar xanıma səmimi salamlarını göndərirlər.

***Sizə səmimi sədaqət və səmimi hörmətlə***
***V.İrmanovlar ailəsi.***
***31 mart 1918-ci il Kutaisi şəhəri*** [1]

* * *

1914-cü il sentyabrın 8-də general-mayor Əli ağa Şıxlinskinin Baş Artilleriya İdarəsinə ərzindən:

"Uçan aparatlarla mübarizədən ötrü, ordumuzu xüsusi səhra topları ilə təchizin təxirəsalınmaz zəruriliyi məni əlbəəl, uçan aparatlara atəş açmaq üçün 3 düymli toplarla silahlanmış 4 top avtomobil batareyasının yaradılması barədə vəsatət qaldırmağa sövq edir. Deyilən batareyanın formalaşdırılmasının və ona ko-

[1] İrmanov Vladimir Aleksandroviç (18.10.1852-27.04.1931) – tam artilleriya generalı. Port-Artur və Birinci Dünya müharibəsində Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarovla çiyin-çiyinə döyüşlər aparmışdır. Oktyabr inqilabından sonra ağqvardiyaçıların könüllü ordusunda birinci Qafqaz-kazak korpusunun komandanı olmuşdur. Ağqvardiyaçıların məğlubiyyətindən sonra Yuqoslaviyaya mühacirətə getmiş, 1931-ci ildə Novisad şəhərində vəfat etmişdir. – ***Ş.N.***

mandanlığın qvardiya ştabs-kapitanı Tarnovskiyə həvalə olunmasını vacib sayıram. Zira, əvvəla, təklif olunan toplar Putilov zavodunda ştabs-kapitan Tarnovskinin niyyətinə görə və nəzarəti altında hazırlanır və zabitlərdən heç biri təklif olunan topla hal-hazırkı vaxtda qvardiya ştabs-kapitanı Tarnovski qədər tanış ola bilməz. Və sonrası, həmin batareyaya komandanlıq ona, döyüş təcrübəsi əsasında öz sistemini gələcək təkmilləşdirmə üçün çoxlu qiymətli məlumat gətirər…[1]

* * *

**Türk generalı Xəlil Paşanın (1882-1957) yavəri yüzbaşı Səlahəddinin general Əli ağa Şıxlinski haqqında xatirəsindən**

Gümrüdə olduğumuz günlərdə, çarlıq ordusunda topçu komandanı olmuş general Əli ağa Şıxlinski bizə xidmət etmək üçün gəlmişdi. Əli ağa Şıxlinski Şıxlı kəndindən idi. Yeni qurulan Azərbaycan İslam ordusunda və ya məmləkəti olan Şimali Qafqaz Dövləti ordusunda xidmət etmək istəyirdi. Xəlil Paşa bu adama çox hörmət göstərdi. Əli ağa Şıxlinski bizə gəldiyi zaman əynində hələ də rus hərbi forması və çarın ordenləri vardı. Xəlil Paşa ona bir türk ordeni verdi və rus ordusundakı rütbəsinə bərabər olan tam general (general-leytenant) türk forması geymə səlahiyyəti verdi. Üstəlik, atlarından birini hədiyyə etdi. General Əli ağa Şıxlinski təxminən bir həftə Gümrüdə qaldı. Bir vaxtlar komandanlıq etdiyi şəhəri gəzdi. Bəzən mən də onunla birlikdə gəzirdim. Bir gün Gümrüdə kazarmaların yanındakı hərbi kilsəni gəzərkən mənə belə dedi: "Siz bu kilsədə gəzərkən nə hiss edirsiniz?". "Heç bir şey". "Mən həyatımda iki dəfə çar həzrətlərilə birlikdə bu kilsədə mərasimdə iştirak etdim. Böyük rus imperiyasının varlığını, dəbdəbəsini o mərasimdə görmək

[1] Sənəd 2003-cü ildə (dekabr ayı) Moskvada çıxan "Техника и вооружение" jurnalından götürülüb. Jurnalda "Rus zenit artilleriyasının yenilikçisi" adlı məqalə və general Əli ağa Şıxlinskinin fotoşəkli də verilmişdir – ***Ş.N.***

çox gözəl idi. İndi sanki o günləri yenidən yaşayıram kimi həzz içindəyəm. Çar həzrətləri çox böyük insandı. Heyf ondan…”.

***“Yüzbaşı Səlahəddinin romanı” kitabı, İstanbul, 1984, səh.417-418***

* * *

1919-cu il 2 iyun tarixli sayında “Azərbaycan” qəzeti Əhməd Cavadın “Abbaszadə Mirzə Abbasın yubileyi” məqaləsində yazır:

“Ərəş Türk Müəllimlər İttifaqının və sairənin teleqramı oxunub, alqışlanır. Bundan sonra hərbiyyə nazirinin müavini general Əli ağa Şıxlinski, bələdiyyə rəisi qubernator Xudadat bəy Rəfibəyov, Qazax Müəllimlər İttifaqı nümayəndəsi söz söyləyib, alqışlanır”.

* * *

***General Əli ağa Şıxlinski*** Avropaya oxumağa gedən azərbaycanlı tələbələr haqqında deyir:

“Üç ildir tələbələr Darülfünunsuz qalmışdır. Amerikaya tələbə göndərilir. Qərbə qoşulub müasir həyata hazır qayıtmalı. Qərbə yüksək idealla getməli. Avropa və Amerikaya gedənlər bilməlidirlər ki, niyə və nə üçün gedir. Rusiyada təhsil alanlar milli həyatla yaşamalıdırlar. İlyaslar – İlya, Məhəmmədlər – Mişa, Vəlilər – Vasya və Vladimir olmamalıdırlar. Onlar Vətənə yüksək idealla, milli hislərlə, ziyalı kimi qayıtmalıdırlar”.

***“Azərbaycan” qəzeti, 1919-cu il, 24 yanvar***

## Əli ağa Şıxlinskiyə verilmiş vəsiqə

***31 iyul 1920-ci il***

Bu vəsiqəni təqdim edən Əli ağa Şıxlinski yoldaş Azərbaycan İnqilabi Komitəsi tərəfindən gələcəkdə döyüş cəbhəsinə yola düşmək üçün Moskvaya – RSFSR İnqilabi Hərbi Şurasının sərəncamına göndərilir.

Bütün hərbi və mülki idarələr, ayrı-ayrı şəxslər yolboyu Əli ağa Şıxlinski yoldaşa mənzilbaşına maneəsiz çatmağa və ona qanuni kömək göstərməyə çağrılır.

Əli ağa Şıxlinski yoldaşda olan əşyalar və ərzaq məhsulları müsadirə və rekvizisiya oluna bilməz.

***Azərbaycan İnqilab Komitəsinin Sədri*** ***N.Nərimanov***
***İdarə işlər naziri*** ***imza***

* * *

***Qafqaz cəbhəsi Qoşunlarının Baş Komandanı vəzifəsini icra edən general Y.V.Lebedinskiyə***

**R a p o r t**

İndiki zamanda geyim formasının dəyişdirilməsi, o cümlədən mövcud çiyin poqonlarının klapanlarla (petlisa – ***Ş.N.***) əvəzlənməsi ordumuza yeni zərbə vurar və haradasa azacıq qalan milli ruhun daha da aşağı düşməsinə aparıb çıxarar.

Yenidən formalaşdırılan Müsəlman Korpusu üçün ləğv fəlakətli rol oynaya bilər. Buna görə də Müsəlman Korpusundan ötrü geyim formasının təsdiqi haqqında təkidlə xahiş edirəm.

Ümumi cizgilərlə bu forma belə layihələndirilmişdir:

– baş geyimi – papaq; kokarda əvəzinə – beşguşəli ulduz;

– çərkəzi paltar və başlıq;

– ərəb əlifbası ilə "Müsəlman" şifrli və hərbi hissənin nömrəsi olan çiyin poqonları.

Geyim formasının ətraflı təsviri əlavə təqdim olunacaqdır.

***Müsəlman Korpusunun Komandiri***
***general-leytenant Əli ağa Şıxlinski*** [1]
***9 fevral 1918-ci il***

---

[1] Bu vaxt Azərbaycan Hərbiyyə Nazirliyi yaranmamışdır. 1918-ci il noyabrın birində Hərbi Nazirlik, noyabrın 15-də isə Ümumi Qərargah, 1919-cu ilin mart ayında Baş Qərargahın Baş İdarəsi təşkil edildi – ***Ş.N.***

* * *

## Tam artilleriya generalı Əli ağa Şıxlinskiyə

***Teleqram***

***Gəncədən***

Hərbiyyə naziri Səməd bəy Mehmandarovun və şəxsən öz adımdan tam artilleriya generalı rütbəsi ilə təltif olunduğunuza görə Sizi ürəkdən təbrik edirik.

***General-mayor***
***Həbib bəy Səlimov***[1]

## Qazax general-qubernatoru hörmətli cənab Əmirxan[2]

***№179***
***12 fevral 1920-ci il***
***Bakı şəhəri***

Qəzetlərdə məzmunu təxminən aşağıdakı mövzuda olan yazılar peyda olub:

"Qazaxdan təxribat xarakterli xəbərlər gəlir ki, guya general Əli ağa Şıxlinski, Daxili işlər naziri Məmmədhəsən Hacınski, doktor Qarabəy Qarabəyov və Qarabağ general-qubernatoru

---

[1] Bu tarixsiz teleqram fonda (f.2898, iş 2, 11, səh.221) əlyazması halındadır. Əli ağa Şıxlinski bu ali rütbəyə ***28 iyul 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətinin 339 saylı əmriylə təltif olunmuşdur – Ş.N.***

[2] ***Əmirxan Cahangir xan oğlu Xoyski (1888-1954)*** 1919-cu il oktyabrın 13-dən 1920-ci il aprelin 27-dək Qazaxda qubernator olub. Xarici işlər naziri Fətəli xan Xoyskinin qardaşı oğlu idi. Bolşevik-daşnak təzyiqindən iyun ayında bacısı Sarabəyimlə Türkiyəyə qaçdı. 1954-cü ildə İstanbul şəhərində vəfat etmişdir.

Məktub-teleqram elə bir vaxtda yazılmışdır ki, yerli bolşeviklər və Rusiyadan gələn təxribatçılar həm Milli orduda, həm də yüksəkrütbəli ziyalılar arasında şayiə yayıb onlarda Azərbaycan hökumətinə qarşı inamsızlıq yaradırdılar. Daha doğrusu, hökumət orqanlarının və şəxsiyyətləri birbirinə vuruşdurmaq məqsədi güdürdülər. Məktubun surəti Milli Təhlükəsizlik Nazirliyinin Arxivində (iş №4344, səh.137) saxlanılır – ***Ş.N.***

(Xosrov bəy Sultanov – ***Ş.N.***) hakimiyyəti ələ almaq niyyətilə hərbi çevriliş eləməyə hazırlaşırlar".

Aparılan sorğulardan məlum olur ki, siz bu barədə Ömər Faiq əfəndiyə (Nemanzadə – ***Ş.N.***) və parlamentin üzvü Mustafa bəy Vəkilova demisiniz.

Siz bilirsiniz ki, yüksək vəzifədə olan hərbçinin sui-qəsddə iştirak etməsi necə böyük bir cinayətdir.

Yalnız bircə dəfə mənə Sizi görmək nəsib olub. Mən inanıram ki, ciddi səbəb olmadan Siz məni günahlandırasınız: görünür siz, özünüz inandığınız adamdan bu barədə eşitmisiniz.

Xahiş edirəm, tezliklə mənə bu ağ yalanı Sizə çatdıran adamın kim olduğunu bildirəsiniz ki, bu bədxah şər kələfini açaraq günahkarı məsuliyyətə cəlb edə bilim.

Sizə hörmət edən: ***Əli ağa Şıxlinski.***

* * *

**Azərbaycan Respublikasının**
**Hərb naziri**

**№ 3157, 9 mart 1920-ci il**

**Bakı şəhəri**

Şəxsi təşəbbüslər əsasında yaradılmış Qırmızı Aypara Azərbaycan Cəmiyyəti, eyni zamanda böyük dövlət əhəmiyyətinə malikdir. Müharibə şəraitində vətənin hərbi müəssisələrinə, eləcə də fəlakətə məruz qalmış respublika əhalisinə kömək etmək vəzifəsini üzərinə götürmüş Qırmızı Aypara Azərbaycan Cəmiyyəti xalq kütlələrinin geniş köməyinə arxalanmaq üçün tam əsası olan bir təşkilatdır.

Lakin, respublikanın bütün müəssisə və ictimai təşkilatlarının işlərinin təşkilatçılıq dövrünə nəzər salsaq, görərik ki, başlanğıc işlər zamanı bu cəmiyyətin nə dərəcədə dövlət əhəmiyyəti kəsb etdiyinə kifayət qədər qiymət verilməyə də bilər. Həm də əgər öz müstəqilliyində hələ gənc olan xalq kütlələrinin siyasi dövlət

kamilliyinin zəif olmasını nəzərə alsaq, aydın olar ki, ancaq vətəndaşların zamanlar özünü kifayət dərəcədə doğrultmayacaqdır.

Bununla yanaşı, gənc respublikanın dövlət formalarının və müəssisələrinin öz xalqının inamına və hörmətinə nail olmalarını yadda saxlayaraq, yeni təsis edilmiş Qırmızı Aypara Azərbaycan Cəmiyyətinin işinin ilk çağlarında, təşkilat dövrü üçün maddi təminatının möhkəm əsasını yaratmaq üçün, onun dövlət tərəfindən himayə edilməsi məsələsi irəli çıxır; daha sonra isə, şübhəsiz ki, yaxın gələcəkdə respublikanın həmin xalqının maraqlarının həyata keçirilməsi üçün nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi üçün, xalqın rəğbəti çoxlu ianə axını verəcəkdir.

Bütün bunlar haqqında məlumat verərək və Qırmızı Aypara Cəmiyyətinin Baş İdarəsinin təchizatı və birinci üç ayda onun saxlanması üçün smeta təqdim edərək, 483.490 manat məbləğində hesablanmış pulun buraxılması haqqında Azərbaycan Respublikasının Parlamenti qarşısında vəsatət qaldırıram.

Bu qanun layihəsi mart ayının 10-da Nazirlər Sovetinin qərarı ilə bəyənilmişdir.

**Əlavə:** İzahedici yazı ilə birlikdə smeta və Nazirlər Sovetinin dəftərindən çıxarışın surəti.

***İmza: Hərb naziri vəzifəsini müvəqqəti icra edən*** **tam artilleriya generalı Əli ağa Şıxlinski.**

***İmza: Ordu Qərargah rəisi vəzifəsini müvəqqəti*** *icra edən* **general-mayor Əbdülhəmid bəy Qaytabaşı.**

***İmza: Hərb Nazirliyinin dəftərxana rəisi vəzifəsini müvəqqəti icra edən kollegiya məsləhətçisi.***

* * *

**Azərbaycan Respublikası Hərbi İdarəsinin**
**(Ordu Qərargahı üzrə)**

**197 №-li ƏMR**

**Bakı şəhəri** **8 aprel 1920-ci il**

Səhhətim pozulduğuna görə aprelin 6-da işdən azad edilməyim, istefaya çıxmağım haqqında raport vermişəm.

Bu halda Hərbi İdarə üzrə məlumat verərək, qanun əsasında müvəqqəti olaraq Hərbi Nazir vəzifəsini icra etməyi Hərb Nazirinin müavini, artilleriya generalı Əli ağa Şıxlinskiyə təklif edirəm.

Yeni hərbi nazir təyin edilənə qədər mən xəstə sayılıram.

**Hərb naziri, artilleriya generalı:** **Səməd bəy Mehmandarov**

**Ordu Qərargahı rəisi vəzifəsini**
**icra edən, general-mayor:** **Əbdülhəmid bəy Qaytabaşı**

***P.S.*** Bundan əvvəl də hərbi nazir Səməd bəy Mehmandarov 1919-cu il dekabrın 30-dan 1920-ci il fevralın 12-dək, ayyarım səhhəti ilə əlaqədar hərbi xidmətdə olmamışdır – ***Ş.N.***

* * *

**Azərbaycan Respublikası Hərbi İdarəsinin**
**(Ordu Qərargahı üzrə)**

**222 №-li ƏMR**

**Bakı şəhəri** **24 aprel 1920-ci il**

**§ 1**

Bugünkü gündən mən öz vəzifəmin icrasına başlayıram. Hərb nazirinin müavini, artilleriya generalı Əli ağa Şıxlinskiyə öz vəzifəsini icra etməyə başlamağı təklif edirəm.

**Hərb naziri, artilleriya generalı Səməd bəy Mehmandarov**

**Ordu Qərargahı rəisi vəzifəsini icra edən, general-mayor Əbdülhəmid bəy Qaytabaşı**

* * *

**90 №-li əmrindən**

**20 fevral 1919-cu il**

Vəzifələrdən uzaqlaşdırılmış həkim Hacıqasımov və müşavir Əliyev öz xahişləri əsasında bu yaxınlarda yenidən xidmətə qəbul edilmişdilər. Vəzifələrinin icrasına başlamağa imkan tapmamış onlar yenidən onu icra etməkdən imtina etmişlər. Güman edirəm ki, öz Vətəninin həqiqi övladları qurulmaqda olan dövlətin belə ağır vaxtında, xüsusən də eyni məzhəb və eyni qandan olan yurddaşlarımızdan ibarət ziyalı işçilər bizim üçün belə qiymətli olduğu bir vaxtda bu cür hərəkət etməməlidirlər.

***Azərbaycanlılar həmişəlik yadda saxlamalıdırlar ki, doğma ordu xeyriyyə evi deyildir və ondan ötrü mövcud deyil ki, hər bir azərbaycanlı orada özünə xeyirli olan yeri tutsun. Ordu Vətənin dayağıdır və ora ölkənin ən yaxşı qüvvələri daxil olmalıdır.***

Özünün xırda şəxsi maraqlarını doğma diyarın və öz xalqının maraqlarından üstün tutan adamların qiyməti çox deyil və ordu təəssüf etmədən onlarla vidalaşır. Ancaq qoy beləlı heç olmasa özləri haqqında mənasız yazışmaları ilə ordunun işini artırmasınlar. Belə insanların heç bir dövlət xidmətində faydası olmaya-

cağını güman edərək, bu əmrin surətini Nazirlər Şurasına təqdim edəcəyəm.

*Hərbi nazir vəzifəsini müvəqqəti*
*icra edən general* *Əli ağa Şıxlinski*

**Vaxtilə general Əli ağa Şıxlinskinin kursantı olmuş, mərhum general-mayor Akim Abbasovun (1911-1992) xatirə çıxışı:**

– Ömrümün qırx ildən çoxu ordu sıralarında keçib. Bir zabit kimi yetişməyimdə 30-cu illərin hərbiçi gəncləri – məşhur generallarımız Əli ağa Şıxlinskiyə, Səməd bəy Mehmandarova borcluyam. Bakıda yerləşən Serqo Orconikidze adına Zaqafqaziya hərbi hazırlıq məktəbində general Əli ağa Şıxlinski bizə artilleriya taktikasından dərs deyirdi. O, dərslərdə ciddi və tələbkar idi. Biz gənclərə atalıq qayğısı ilə təlim-tərbiyə verir, yaxşı bilik almağımıza səy edirdi.

Bu gün fəxrlə deyə bilərəm ki, Əli ağa Şıxlinskinin vaxtilə dərs dediyi kursantlar sonralar Böyük Vətən müharibəsi illərində mərdliklə vuruşaraq xalqın sevimli qəhrəmanları olublar. Bu qəbildən mən iki dəfə Sovet İttifaqı Qəhrəmanı tank qoşunları general-mayoru Həzi Aslanovun, iki dəfə Sovet İttifaqı Qəhrəmanı polkovnik Həbibulla Hüseynovun, polkovnik Aslan Vəzirovun və başqa şöhrətli oğullarımızın adını çəkə bilərəm.

General Əli ağa Şıxlinski 50 ildən çox ordudakı xidməti və hərbi-elmi pedaqoji fəaliyyəti ilə xalqımızın adını ucaltmışdır. Bu gün biz xalqımızın sevimli oğlu ilə fəxr edirik. Şəxsən mənim üçün ikiqat sevincdir. Əziz generalımızın, sevimli müəllimimizin xatirəsini əbədiləşdirdiyi üçün qədirbilən Azərbaycan xalqına minnətdaram.

**1984-cü il iyulun 17-də Əməkdar müəllim Mirqasım Omar oğlu Əfəndiyevin (1902-1992) general Əli ağa Şıxlinski haqqında söylədiyi xatirə:**

– 1928-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsində oxuyurdum. O vaxt bizə hərbi dərs keçirdilər. ***General Səməd bəy Mehmandarov*** alçaq boylu, çox gümrah, ağsaqqallı nurani kişi idi. O, bizə ***hərbi taktikadan, Əli ağa Şıxlinski*** artilleriyadan, ***topoqraf-general İbrahim ağa Vəkilov*** isə hərbi topoqrafiyadan dərs deyirdi. Dərslərin rusca keçirilməsinə baxmayaraq generallar bizə hərb sənətini Azərbaycan dilində başa salırdılar. Mehmandarov dilimizi zəif bilsə də onun danışığını çox yaxşı başa düşürdük. Yüksək səviyyəli mədəni insan olan Səməd bəy dilimizi pis bildiyinə görə tez-tez üzrxahlıq edirdi. Əli ağa isə azərbaycanca o qədər təmiz və səlis danışırdı ki, adam onun uzun illər Rusiyada yaşamasına az qala inanmırdı.

Yayda biz tələbləri ikiaylıq Hacıkəndə lagerə təlim-məşqə apardılar. Bir istirahət günü Mehdixan Vəkilovla mən Əli ağanın evinə getdik. Həyat yoldaşı Nigar xanım onda sağ idi. Bizi xoş üzlə qarşılayan Nigar xanım aynabənddə oturan ərini çağırdı:

– Əli ağa, – dedi, – eloğluların gəlib, gəl gör bunlara nə qonaqlıq verirsən.

– A Nigar, – dedi, – uşaqlar yəqin xeyli vaxtdı bozartma yeməyiblər. Bu dağların qoynunda bir Şıxlı bozartması bişirsən, pis olmazdı.

O vaxt Azərbaycan diviziyası manevr keçirdi. Bizim diviziya Çaykənddən başlayıb, Təkgöz dağlı istiqamətində irəliləyib Goranboy stansiyasına çıxdı. Gəncənin yaxınlığında gürcülərə "hücuma" keçdik. Komandirimiz Şahbazov familiyalı mayor idi. Qozlu deyilən yerdə diviziya komandiri Cəmşid xan Naxçıvanski və Əli ağa Şıxlinski aşağı enib, əsgər və zabitlərlə görüşüb hal-əhval tutdular.

Əli ağa dedi:

– Ay yoldaş Şahbazov, sən öz rotanı gətirib düşmənin ağzına verdin. Əsgərin qalmadı, qırıldı. Axı, belə yaramaz, yaxşı ki, bu təlim məşqdi. Sabah müharibə başlasa, onda sənin kimi komandirin vay halına.

Bizim də, gürcülərin də on iki topu vardı. Gürcülər Təkgöz dağını top atəşinə tutmuşdular. Bizim topçuların atəşi sərrast deyildi. Bunu komanda məntəqəsindən müşahidə edən Əli ağa Şıxlinski enib topçuların yanına gəldi. Sərrast olmayan top atəşləri Əli ağanı əsəbiləşdirmişdi. O çox cəldliklə on iki topun on ikisini də yoxladı. Zəhmli komandir səsilə topçulara əmr verdi. On iki topun hamısı hədəfi dəqiq vurdu. Bizimkilər üstünlük qazandılar. Cəmşid xan qucaqlayıb Əli ağa Şıxlinskini öpdü. Fəxrlə dedi:

– Anan ölsün, top allahı Əli ağa, üstünlüyü tarix boyu əldən verməz…

Sonuncu dəfə general Əli ağa Şıxlinskini müalicə xəstəxanasında gördüm. 1941-ci ilin payızında. Səməd Vurğun bizə gəldi. Bərk dilxor idi, bıçaq vursan qanı çıxmazdı. Müharibə hamı kimi onu da əsəbi eləmişdi. Elə bil "müsəlləh əsgərəm, mən də bu gündən" şeirini yazan nikbin ruhlu Səməd deyildi. O vaxtlar səs yayılmışdı ki, çeçenləri, balkarları və Krım tatarlarını köçürürlər. Hələ üstəlik, pıçıltı ilə də olsa, Bakının və bütöv Azərbaycanın da qeyri-rəsmi Orta Asiyaya köçürülməsi haqqında şəhərdə söz-söhbət gəzirdi.

Qanıqara Səməd Vurğun köçürülməkdən çox narahat idi.

– Elə şey olsa, – dedi, – bu millət bədbəxt olacaq. Çoxusu yoldaizdə itib-batacaq. Sağ qalanı da Qazaxıstanın susuz çöllərində məhv olacaq. A Mirqasım, general xəstədi, gedək ona baş çəkək.

O vaxt Məhəmməd ağa Qayıbov həmin xəstəxananın baş həkimi idi. Əli ağanın palatasına o da bizimlə getdi. Görüşdük. O vaxtlar söhbətin mövzusu ancaq müharibədən olardı.

Əli ağa Şıxlinski dedi ki, ruslarda yaxşı sərkərdələr var, niyə geri çəkilirlər, başa düşmürəm. Almanları qarşı-qarşıya çıxıb əzmək mümkün deyil. Ona görə ki, tarix boyu almanların hərbi

taktikasında ən çox qüvvəni birinci eşelona, ön cəbhəyə çıxardırlar. Ruslarda isə əksinədir. Qabağa nisbətən zəif qüvvəni çıxardıb düşmənin gücünü zəiflədə-zəiflədə geri çəkilirlər. Ən çox qüvvəni arxada saxlayırlar, – general kağız götürüb titrək əlləri ilə çertyoj çəkib, bizə izah elədi:

– Faşistlərə yalnız yan xətdən və arxadan zərbə endirib məğlub etmək olar. Müasir texnika ilə indi yaxşı imkan var. Faşistlərin arxasında desant endirmək, partizan hərəkatına başlamaq, yandan və arxadan vurmaq lazımdır. Çünki tarix boyu almanların əsgər və zabitinin sürünüb fənd işlətməkdən, ya da tindən atəş açmaqdan xoşu gəlmir. Onlar ədabazlıqdan döyüşə əlisilahlı ayaq üstə gedirlər. Arxaları və yanları boş qalır. Xalq qisasçılarını arxaya atmaqla faşistləri məhv etmək olar.

Yadımdadır, bu görüşdə general ürəkağrısı ilə dedi ki, mən heç zaman müasirlərimin ayağına baxmamışam. Həmişə onların gözünün içinə dik baxmışam, özümün yaxşı əməlimlə, işimlə… İndi bu müharibədə iştirak edə bilmədiyimə görə çox sıxılıram, çox, lap çox darıxıram. Ürəyim sağlam, hafizəm də yerindədir. Yalnız gözümlə qulağım mənə vəfasızlıq edir. Səməd Vurğun 1942-ci ildə Tiflisdə antifaşist mitinqdə çıxış edib qayıdanda bizə gəldi. Sevinclə dedi:

– A Mirqasım, yadındamı general keçən ilin payızında xəstəxanada yatanda çertyoj çəkib bizə izah elədiyi taktika? İndi ruslar faşistləri Əli ağa Şıxlinskinin dediyi taktika ilə məğlub edirlər. Moskvaaltı döyüşlər, Stalinqrad artıq faşistlərdən təmizlənir.

* * *

***"Qüdrətli filosof, gözəl insan" məqaləsindən***:

…O vaxtkı qaydaya görə Akademiyanın bütün institutlarının kadr məsələlərinin tam həlli axırıncı olaraq prezidentin birinci müavini kimi Heydər Hüseynovdan keçirdi. Onun köməkçisi məqsədimi bildikdən sonra səhərki gün qəbuldan bir saat qabaq gəlməyimi məsləhət gördü və söz verdi ki, onun yanına buraxmağa çalışacaq. Köməkçi qadın öz sözünə əməl edərək səhərisi

gün Heydər Hüseynovdan icazə alıb, məni qəbul vaxtından bir saat qabaq içəri buraxdı. Heydər Hüseynovdan başqa kabinetdə mərhum yazıçımız Mehdi Hüseyn də əyləşmişdi. Onlar çox səmimi söhbət edirdilər. Salam verdikdən sonra heç bir söz demədən ərizəni təqdim etdim. Ərizəni makinada yazdırmışdım. Heydər müəllim ərizəni diqqətlə oxudu və mənə əyləşməyi təklif etdi. Stul çəkib əyləşdim. O, birdən gülümsəyərək mənə müraciətlə dedi: "Əgər əsl tarixçi olmaq istəyirsənsə, söhbətə qulaq as, sonra sənin xahişinə baxarıq".

Onlar Azərbaycanın məşhur generalı Əli ağa Şıxlinski haqda söhbət edirdilər. Birdən Heydər Hüseynov qəflətən məndən soruşdu ki, Əli ağa Şıxlinskini tanıyırsanmı? O, kim olub? Xatirələrini oxuyubsanmı? Mən cavab verməkdə çox tələsdim və dedim ki, xatirələrini oxumamışam, ancaq eşitmişəm ki, çox yaxşı topatan olub. Onlar hər ikisi, xüsusən, H.Hüseynov qəhqəhə ilə gülərək: "Onun yaxşı topatan olduğunu kimdən eşitmisən?" – soruşdu. Mən qulaqlarımın ucuna kimi qızardım. Hiss elədim ki, yersiz danışmışam.

Heydər Hüseynov general-leytenant Əli ağa Şıxlinski ilə görüşlərindən çox fərəhlə danışırdı. O dedi ki, general Şıxlinskinin yaşının 80-ə yaxınlaşmasına baxmayaraq, 1942-ci ildən onun yanına gedib, hərbi vətənpərvərlik işini gənclər arasında yaxşı təbliğ etmək üçün xatirələrini yazmasını xahiş etdim. General gözünün çox zəif görməsinə və qulağının ağır eşitməsinə baxmayaraq, mənim xahişimi yerə salmadı. Həqiqətdə onun yazdığı xatirələri biz müharibə illərində həm Azərbaycan, həm də rus dillərində çap etdirdik və bu, çox yaxşı səmərə verirdi.

Heydər Hüseynov general Şıxlinskinin həyat yoldaşı Nigar xanım haqqında danışaraq göstərirdi ki, yaxşı savadlı və Şıxlinskinin dediyinə görə çox mehriban bir qadın olub. Birinci Dünya müharibəsi illərində şəfqət bacısı kimi yaralı döyüşçülərin müalicə edilməsində yorulmaz fəaliyyət göstərib. Bu zaman Mehdi Hüseyn dilləndi: "Professor, mən təəccüb edirəm, necə olub ki, yaxşı ziyalı ailəsində böyüyən və şəxsiyyətcə gözəl olan

belə cavan qız 50 yaşlı generala ərə getməyə razı olub". Heydər Hüseynov bir az duruxub cavab verdi: "Məsələ elə deyil, əvvəla, Şıxlinski evlənən zaman 50 yox, 44 yaşında olub, ikincisi isə general Şıxlinski Nigar xanımın ikinci əri olub, onun birinci əri[1] vəfat etdikdən sonra dul qadın kimi Şıxlinskiyə ərə gedib". Mehdi Hüseyn onunla razılaşdı, daha bir söz demədi.

H.Hüseynov sözünə davam edərək dedi ki, Şıxlinskidən başqa köhnə rus ordusunda general-leytenantlar Səməd bəy Mehmandarov, Hüseyn xan Naxçıvanskinin də xidməti böyükdür. Lakin xalqımız onları yaxşı tanımır. Müharibə illərində onun Əli ağa Şıxlinski haqqında qəzet və jurnallarda xeyli yazıları çap olunmuşdur, ancaq bu, çox azdır. Onlar haqqında Siz yazıçılar də gərək öz sözünüzü deyəsiniz, bədii ədəbiyyatda onları işıqlandırasınız, bu çox vacib və əhəmiyyətlidir. Mərhum Mehdi Hüseyn gülümsəyərək cavab verdi ki, işıqlandırmağa işıqlandırarıq, ancaq qorxuram sonra keçmişi idealizə etdiyimiz üçün bizi partiya məsuliyyətinə cəlb edəsiniz.

Heydər Hüseynov xeyli duruxdu, sonra dedi ki, sən müəyyən dərəcədə haqlısan, təəssüf ki, bizimlə qonşu xalqlara nisbətən bu sahədə biz çox məhdud hərəkət edirik. Ancaq əminəm ki, vaxt gələcək, bu məhdudiyyət aradan götürüləcəkdir.

Bununla da onların söhbəti qurtardı. Mehdi Hüseyn durub getmək istəyirdi ki, Hüseynov gülə-gülə dedi: "Mehdi müəllim, tələsmə, qoy bu yaxşı topatan yoldaşın ərizəsinə də baxaq, sonra gedərsən". Sonra məndən zaçot kitabçamı istədi və tələsmədən onu vərəqləyib qiymətlərimi nəzərdən keçirərək üzümə baxıb: "Sən lap yaxşı oxuyansan ki", – dedi. Mehdi Hüseyn söhbətə qarışdı: "Professor, yəqin yaxşı oxuyur ki, Sizin yanınıza gəlib, pis oxusa, çətin ki, cürət edə bilərdi".

**Talıb ƏLİYEV,**
**Mərkəzi Müəllimləri Təkmilləşdirmə**
**İnstitutunun baş müəllimi**

[1] Nigar xanımın birinci əri milliyyətcə acar olan Dərviş bəy Məmməd bəy oğlu Palavandov idi. Dini müsəlman idi – ***Ş.N.***

**“Dilin sahibi xalqdır” məqaləsindən**

…Bu yaxınlarda Azərbaycan Elmlər Akademiyasının Əlyazmaları İnstitutunda xalqımızın fəxri, böyük hərbi sərkərdə Əli ağa Şıxlinskinin 1940-cı ildə çapdan çıxmış “Azərbaycan-rusca lüğət” (Heydər Hüseynovun redaktəsi ilə) haqqında yazdığı rəyin əlyazmasına rast gəldim. Həmin materialdan faydalanmaqla bərabər, müəllifin Azərbaycan xalq dilinin sirlərinə nə qədər dərindən bələd olduğuna heyran qaldım. Dilimizin necə də gözəl, necə də mənalı sözləri varmış. General Azərbaycan dili barədə, onun lüğət tərkibinin zənginliyi barədə çox maraqlı fikirlər söyləməklə yanaşı, lüğətin tərtibçilərinin bir sıra sözlərin məna çalarlarını nəzərə almaqda, nəticədə onların ruscaya da düzgün tərcümə etməməkdə təqsirləndirmişdir.

Bizim indiki hərbi mütəxəssislərimizə, hərbi sərkərdələrimizə, hərbi jurnalistlərimizə tövsiyə etmək istərdim ki, ana dilinə münasibəti, ana dilini sevməyi general Əli ağa Şıxlinskidən öyrənsinlər; heç olmazsa, “dislokasiya” (“qoşun dislokasiyaları, dislokasiya etmək”) kimi qəliz terminlərin azərbaycanlaşdırılmasına çalışsınlar. Təxminən yetmiş il bundan əvvəl Əli ağa Şıxlinskinin Azərbaycan dilində yaratdığı hərbi terminlərə də onların münasibətini bilmək istərdik. Mənə belə gəlir ki, vaxtilə generalın yaratdığı hərbi terminlərdən bu gün də istifadə etmək olar.

***Məmməd Qasımov,***
***filologiya elmləri doktoru, professor***
***“Ədəbiyyat qəzeti”, 2 sentyabr 1998-ci il***

* * *

“Rus ordusu generallarından azərbaycanlı Əli ağa Şıxlinski çar Rusiyasının Avropa cəbhəsində xidmət etmək üçün Qafqaz müsəlmanlarından təşkil etmiş olduğu “Vəhşi diviziya”ya mənsub əsgər və zabitlərdən “Tatar alayı” adı ilə altı yüzə yaxın

süvari toplayaraq, erməni qırğınlarının qarşısını almağa cəhd göstərdi. Bu qoşunda bir neçə rus zabiti də vardı".

"Birinci dünya hərbində türk hərbi, Qafqaz cəbhəsi, üçüncü ordu hərəkatı" tarixi əsərindən. Əsər 1993-cü il Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının nəşriyyatında çap olunmuşdur".

* * *

**Заместителю председателя Президиума Азербайджанского филиала Академии Наук СССР, Г.Н.ГУСЕЙНОВУ**

Глубокоуважаемый Товарищ,

Приношу Вам сердечную благодарность за присланные мне два экземпляра брошюры "Али Ага Шихлинский" и переведенный мне по телеграфу гонорар две тысячи рублей, как указано Вами любезно в письме от 11 апреля.

Гонорар получен мною месяц тому назад и я тогда же, заказным письмом 10 апреля искренно поблагодарил Мир Джафар Багирова за этот неожидаемый мною подарок, как и за другие два щедрые подарка из даров богатой природы Вашей прекрасной страны.

Очень рад, если по долгу дружбы с Али Ага я мог оказать посильную помощь в деле издания его интересных и ценных для истории "Воспоминаний" и если составленное мною предисловие настолько понравилось Вам, что оно издано отдельной брошюрой на его родном языке.

Надеюсь получить от Вас в скором времени вышедшие из печати ***"Воспоминания Али Ага Шихлинского" – в знак доброй незабвенной памяти о дорогом моем друге, с которым мы отдали лучшие годы нашей жизни беззаветному служению родной русской артиллерии***. С "Воспоминаниями" Али Ага необходимо основательно познакомиться широкому кругу командования нашей молодой доблестной артиллерии Красной армии. Позволю себе просить Вас прислать

“Воспоминания Али Ага” главному маршалу нашей артиллерии Воронову Николаю Николаевичу и генерал-лейтенантам артиллерии И.С.Прочко, В.И.Хохлову и Ф.А.Самсонову, а также начальнику ГАУ маршалу артиллерии Н.Д.Яковлеву.

От всей души желаю Вам доброго здоровья и успеха во всем. Искренно **Вас уважающий**

**профессор, генерал-майор**
**Евгений Барсуков**
**10.05.1944**
**Москва**

* * *

“…Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində general-mayor Yevgeni Barsukovun M.C.Bağırova göndərdiyi məktubları ilə tanış olmaq mümkündür. General Barsukov Ə.Şıxlinskinin “Xatirələri”nin əlyazması ilə tanış olduqdan sonra yazdığı “Müqəddimə”də azərbaycanlı generalın barəsində ürək sözlərini ifadə etmişdi.

1944-cü il aprel ayının 10-da Moskvadan hərbi elmlər doktoru, professor Y.Z.Barsukov Bakıya göndərdiyi məktubunda yazırdı:

*“Çox hörmətli Mir Cəfər! Mən özümə şərəfli bir borc bildim ki, Sizin xahişinizi yerinə yetirim. Rus artilleriyasında köhnə dostum və sirdaşım Əli ağa Şıxlinskinin “Xatirələrim” kitabına müqəddimə yazdım. Mən bu əməyimə görə cüzi də olsa belə, qonorar almaq fikrində deyildim. Bu gün gözlərimə inanmadım:*

*Siz mənə füsunkar Azərbaycan torpağının təbii zənginliyinin rəmzi olan bir ərməğan göndərmisiniz. Sizdən nə gizlədim, müharibənin törətdiyi fəlakətlər nəticəsində yaranmış ərzaq qıtlığı şəraitində ailəmiz üçün bu misilsiz yardımdır. Mənə sonsuz sevinc bəxş etdiyiniz həmin gün Sizdən ikinci hədiyyəni aldım ünvanıma iki min manat məbləğində pul göndərmisiniz. Sizdən, çox hörmətli Mir Cəfər, nə gizlədim, bu sürpriz mənim üçün bir möcüzədir, qəlbimin dərinliyindən qopan*

*minnətdarlığımı qəbul edin. İndiki bahalıq şəraitində fərdi təqaüdümün məbləği azlıq edir. Stalin mükafatından qəpik-quruş qalıb. Hərbi nəşriyyatla müqaviləyə əsasən qonorarımı ala bilmirəm. Hələ 1941-ci ilin mayında Baş artilleriya marşalı N.N.Voronovun razılığı ilə kitabım nəşr olunmalı idi.*

*Bir daha Sizə minnətdarlığımı bildirirəm.*

***Səmimi hörmətlə:*** ***Yevgeni Barsukov***

***10.IV.1944, Moskva".***

Arxivdə saxlanılan bir teleqramdan aydın olur ki, Mir Cəfər Bağırov moskvalı hərbi təqaüdçünü 1 May bayramı ərəfəsində də yaddan çıxarmamışdır. Azərbaycan K(b)P MK-ya Moskvadan göndərilmiş bir teleqramda deyilir:

*"Bakı. Azərbaycan KP MK katibi Mir Cəfər Bağırova*

*May bayramı münasibətilə Sizi ürəkdən təbrik edirəm. Zəngin bayram hədiyyəsi üçün təşəkkürümü bildirirəm. Vətənimizin çiçəklənməsi naminə Sizə uğurlu fəaliyyət arzulayıram.*

***professor Barsukov***

***30.IV.44"***

SSRİ EA Azərbaycan filialı tərəfindən bilavasitə Heydər Hüseynovun iştirakı ilə ana dilimizdə və rusca 1944-cü il may ayında bu yeddi min beş yüz nüsxə tirajla buraxılmış "Xatirələrim" kitabının yayılmasına da alimin özü rəhbərlik etmişdi. Bundan əlavə, M.C.Bağırovun təklifi ilə Heydər Hüseynov general Y.Z.Barsukovun Əli ağa Şıxlinski haqqında məqaləsini azərbaycanca və rusca ayrıca kitabça halında nəşr etdirmiş, qonorarını müəllifə poçta ilə göndərmişdi. Beləliklə, Azərbaycan alimi ilə rus generalı arasında canlı Bakı-Moskva körpüsü yaranmışdır. Alim, generalın "Xatirələrim" kitabının Moskvada da yayılmasını təşkil etmişdi. Arxiv sənədlərimdən aydın olur ki, Ə.Şıxlinskinin "Xatirələrim" kitabı nəşr edildikdən dərhal sonra Heydər Hüseynov Moskvaya, general Y.Barsukova altı nüsxə göndər-

mişdir. Bir neçə gündən sonra "Müqəddimə" müəllifindən Bakıya aşağıdakı məktub gəlmişdir:

*"Hörmətli yoldaş Heydər Hüseynov! Əli ağa Şıxlinskinin kitabından 6 nüsxə göndərdiyiniz üçün səmimi-qəlbdən təşəkkür edirəm. Həmin kitablardan beş nüsxəsini Voronov, Yakovlev, Proçko, Xoxlov və Samsonov yoldaşlara vermişəm... Əgər mümkünsə, SSRİ EA Tarix İnstitutunun direktoru akademİk Qrekova, bizim şanlı Qızıl Ordunun komandanlığının Əli ağa Şıxlinskinin "Xatirələrim"i ilə maraqlanan bəzi üzvlərinə verməkdən ötrü daha 6 nüsxə göndərməyinizi xahiş edirəm.*

*Sizə səmimi qəlbən hörmət edən professor Yevgeni Barsukov".*

1944-cü il avqustun 18-də alim Heydər Hüseynov general Əli ağa Şıxlinskinin vəfatının bir illiyinə həsr edilmiş xatirə gecəsi keçirmişdir.

"Kommunist" qəzetinin 1944-cü il 20 avqust tarixli sayında dərc edilmiş "Əli ağa Şıxlinskinin xatirə gecəsi" sərlövhəli xəbərdə oxuyuruq: *"Avqustun 18-də rus ordusunun general-leytenantı Əli ağa Şıxlinskinin vəfatı gününün birilliyi tamam olmuşdur. Həmin gün SSRİ Elmlər Akademiyası Azərbaycan filialının böyük salonunda, rus ordusunun görkəmli generallarından biri olan Əli ağa Şıxlinskinin xatirə gecəsi keçirilmişdir. Gecədə Qızıl Ordunun zabitləri, alimlər və ziyalıların nümayəndələri toplanmışlar. Xatirə gecəsini SSRİ Elmlər Akademiyası Azərbaycan filialı Rəyasət Heyətinin sədri professor Heydər Hüseynov başlanğıc nitqi ilə açmışdır. Sonra mayor Hacıağa İbrahimbəyli çıxış edərək Əli ağa Şıxlinskinin həyat və fəaliyyəti haqqında məruzə etmiş və Şıxlinski haqqında öz xatirələrini danışmışdır. General-mayor Tərlan Əliyarbəyov topçuluq sahəsində görkəmli mütəxəssis olan Əli ağa Şıxlinski haqqında öz xatirələrini söyləmişdir. Rus topçuluğunun inkişafında Əli ağa Şıxlinskinin fəaliyyəti haqqında general-mayor Beskrovnov danışmışdır. Xatirə gecəsi münasibətilə Əli ağa Şıxlinskiyə həsr edilən ədəbiyyat, fotoşəkilləri və əlyazmaları sərgisi çox maraqlı idi"* (T.Qurban. "Mir Cəfərin məhkəməsi necə hazırlanmışdır" məqaləsi, "Ekspress" qəzeti, 5-7 sentyabr 2009-cu il).

* * *

**Доктору военных наук**
**профессору Е.З.Барсукову**

Глубокоуважаемый Евгений Захарович,

Приношу Вам искреннюю благодарность за Ваше письмо и добрые пожелания.

Рад, что могу выслать Вам вышедшие в свет мемуары А.А.Шихлинского, которые направляем Вам для передачи маршалу артиллерии Н.Н.Воронову и генерал-лейтенантам артиллерии И.С.Прочко, В.И.Хохлову и Ф.А. Самсонову, а также начальнику ГАУ маршалу артиллерии Н.Д.Яковлеву. Смею думать, что "Воспоминания" Али Аги принесут не малую пользу нашим доблестным командирам.

Примите мои искренние пожелания, Вам доброго здоровья и успеха в делах.

**С глубоким уважением,**

**Гейдар Гусейнов**
**6 июля 1944 года**

***Р.С.*** Прошу, если не явится для Вас затруднительным, подтвердить получение посланных шести экземпляров книги А.А.Шихлинского.

* * *

**Глубокоуважаемый Гейдар Наджаф оглы**

Наши артиллеристы очень интересуются книгой Али Ага Шихлинского "Мои воспоминания". Мне пришлось отдать последний единственный свой экземпляр книги, уступая просьбе одного из командиров бригад гвардейских минометных частей, находящихся на фронте Отечественной войны. Ко мне продолжают поступать просьбы от артиллерий-

ских командиров и с фронта, и от находящихся в тыловых учреждениях.

Будьте добры поручить вверенному Вам Секретариату выслать мне наложенным платежом еще 5 или 10 экземпляров книги Али Аги Шихлинского, если это возможно, – или я переведу деньги, как только получу книги.

Кроме того, прошу выслать фото Али Ага (желательно было бы фото, напечатанное в газете “БАКИНСКИЙ РАБОЧИЙ” от 18.VII.1944 г. № 164; на этом фото Али Ага очень похож, каким он выглядел, когда мы с ним расстались в 1917 г.) для альбома истории Офицерской артиллеристской школы, по адресу: Ленинград, 9. Улица Комсомола 22. Начальнику Ордена Ленина Краснознаменной Высшей Офицерской Артиллеристской школы, генерал-полковнику артиллерии Бесчастнову Тимофею Андреевичу.

Прошу извинить за причиняемое беспокойство, искренне Вас уважающего и всегда Вам признательного.

**С уважением к Вам,**

**Евгений Барсуков**

**14.III.1945**
**Москва, 65.**
**Софийская Набережная, д. 34, кв. 96**

* * *

**Директору Азербайджанского филиала академии наук СССР**

Уважаемый директор, сегодня, читая “Исторический журнал” № 3-1945 года издания института истории Академии Наук СССР, в разделе “Критика и библиография” прочитал рецензию профессора МГУ А.СИДОРОВА “Али Ага ШИХЛИНСКИЙ. Мои воспоминания”, предисловие Лауреата Сталинской премии доктора военных наук, профессора

Е.З.БАРСУКОВА, издательства Азербайджанского филиала Академии Наук СССР.

***Али Ага ШИХЛИНСКИЙ, как известно, старый генерал артиллерист, с большим боевым и жизненным опытом.*** Впервые я услыхал об этом генерале 20 лет тому назад, будучи молодым артиллеристом на курсах усовершенствования артиллерии Красной Армии.

***Убедительно прошу Вас не отказывать в моей просьбе выслать мне один экземпляр "Али Ага ШИХЛИНСКИЙ. Мои воспоминания", ибо нам, артиллеристам в первую очередь крайне ценно и необходимо изучать и знать историю своего славного рода войск артиллерию.***

**С уважением к Вам,**

**ГЕНЕРАЛ-ЛЕЙТЕНАНТ АРТИЛЛЕРИИ:**

**подпись: (ПАРСЕГОВ)**

**26 апреля 1945 г.**

# GENERAL ƏLİ AĞA ŞIXLİNSKİNİN ŞƏRƏFİNƏ YAZILAN ŞEİRLƏRDƏN:

## SALAM, MƏNİM GENERALIM!

***Görkəmli Azərbaycan sərkərdəsi, cəsur general Əli ağa Şıxlinskinin anadan olmasının 130 və vəfatının 50-ci ildönümü münasibətilə***

Salam, mənim generalım,
Sənsiz pisdir mənim halım.
Bu dar gündə sənin kimi,
Sərkərdəni hardan alım?

İncimәsin indikilər,
Sıramızda az deyil nər,
Fəqət, əsil komandana,
Həsrət qalıb bu igidlər.

Dövran çətin, zaman təzə,
Boylanırıq yola, izə.
Kaş sənintək bir general,
Qoşulaydı cərgəmizə.

Əlli ildir həsrətliyik,
Qayğılıyıq, zəhmətliyik.
Unutmarıq heç bir zaman,
Biz səninlə şöhrətliyik.

Bir sözü də gərək deyəm,
Generalın ad günündə.
Gəlib ona raport verək,
Vətənimin şad günündə.

Şıxlinski yatan torpaq,
O vaxt nura qərq olacaq.
Qələbəmiz düşmənlərə,
Özü boyda dərd olacaq.

Bax belə bir arzu ilə,
Qəbrin üstə gəlmişik biz.
Bircə ona yanıram ki,
Qədrini gec bilmişik biz.

Salam, mənim komandanım,
Sənsiz keçir günüm, anım.
Fəxr edirəm, olub bir vaxt,
Sənin kimi generalım
Sənin kimi qəhrəmanım!

***Həmid Abbas***
***16.03.93-cü il***

* * *

**YAZAQ**

Elin şeir yazanları, keçin bu üst yana yazaq,
Yurdumuzun mərd oğlunun adını dastana yazaq.
O, xalqın dostu olub, tərifi dostyana yazaq,
İgidlikdə, kişilikdə bənzəyib astana yazaq,
Şeirimizin surətini Zaloğlu Rüstəmə yazaq.

Rus topunun allahıdı Şıxlinski Əli ağa,
Harda adı çəkilirsə, ürəyimiz dönüb dağa.
Öyrənmək istəyənlər çox düşməsinlər sorağa,
Haqqında çox çalışıb yazıbdı neçə varağa,
Buna görə çox sağ olun, Nəzirli Şəmistana yazaq.

Bir orduya lərzə salıb bircə kəlmə sözü ilə,
Böhtana inanmayıb ta görməmiş gözü ilə.
Ürəkləri isindirib ürəyinin közü ilə,
Öz xalqının şöhrətini gəzdiribdi özü ilə,
Bəlkə daha aşıqların sazları sazdana yazaq.

Azərbaycan torpağına adı şöhrət-şan olubdu,
Kür yadına düşən zaman qara bağrı qan olubdu.
Döyüş günü igidlərin canlarında can olubdu,
Düşməni vecə almayıb neçə milyon san olubdu,
Doğulanda mərd doğulub anadan, düzyana yazaq.

Şair Telman Tovuzlunun coşubdu sinəsi yenə,
Ürəyi sözlə dolub, o olub dinəsi yenə.
Xəstədi həkim yazıb şeirdi kinəsi yenə,
Əli ağa tək oğul gərək atları minəsi yenə,
Gorun nurla dolsun sənin, afərin ustana yazaq.

***Telman Tovuzlu***
***05.07.83***

# GÖRKƏMLİ ADAMLAR GENERAL ƏLİ AĞA ŞIXLİNSKİ HAQQINDA

Hərb elminin araşdırıcıları qəlbən etiraf edə bilərlər ki, bizdə tam artilleriya generalı Əli ağa Şıxlinskidən başqa ikinci hərbi alimimiz yox dərəcəsindədir. Xüsusilə, artilleriyadan söhbət düşəndə Fransa və rus hərbi alimləri, görkəmli sərkərdələri eloğlumuzun misilsiz xidmətlərindən iftixarla söhbət açırlar.

***Hərb elmləri doktoru professor general-mayor, Dövlət mükafatı laureatı Yevgeni Barsukov:***

– Əli ağa Şıxlinski taktika sahəsində dərin nəzəri və əməli bilikli sayca çox olmayan topçulardan biri olub. O, hərb elmini təcrübədə tətbiq etmək sahəsində nadir bir istedada malik idi. Əli ağanın qəhrəmanlığı öz vətəninin şərəf və azadlığını müdafiə edən hər bir şəxs üçün nümunə olmalıdır.

***V.Bertels 1912-ci ildə Varşavada nəşr etdirdiyi "Quru qala qoşunları və ağır səhra artilleriyası tərəfindən atəş açılmasında cihazlardan istifadə edilməsi haqqında məlumatlar" kitabında*** onun elmi fəaliyyətinə yüksək qiymət verərək yazmışdır:

– "Şıxlinski üçbucağı" təkcə rus artilleriyasında deyil, Fransa, İsveçrə, Norvec və Avstriya artilleriyasında da böyük şöhrət qazanmışdır.

***Yazıçı Aleksandr Stepanov:***

– Əli ağada general təkəbbüründən əsər əlamət yox idi… Şıxlinski hərbi akademiyanı bitirməsə də, fitri zəkası, praktik fəhmi topçuluq elmində ona böyük nüfuz qazandırmışdı. General Əli ağa Şıxlinski hünərvərliyi dillərdə dastan olmuşdu.

***Moskva Dövlət Universitetinin professoru Arkadi Sidorov:***

– Keçmiş ordunun general-leytenantı məşhur artillerist Əli ağa Şıxlinskinin adı artilleriya elmində həmişə hörmətlə çəkilir.

***Akademik Heydər Hüseynov:***

– Əli ağa Şıxlinski dünyada şöhrət qazanmış topçuluq elmi sahəsindəki nəşrləri və fəaliyyəti ilə yanaşı, dil və ədəbiyyat məsələləri ilə də məşğul olurdu. Əli ağa Şıxlinski ilə yaxından tanış olanlar, onun maraqlı söhbətlərinə qulaq asanlar bilirlər ki, bu təvazökar və səmimi insan nə qədər ağıllı və ibrətli bir şəxs idi.

***Xalq şairi Səməd Vurğun:***

– Azərbaycanlılar birinci dəfə deyil ki, vuruş meydanlarında (1945-ci ildə olan Rusiya-Yaponiya müharibəsi – ***Ş.N.***) yaponlarla qarşı-qarşıya gəlirlər. Mən Port-Artur uğrunda gedən döyüşlərdə fərqlənmiş məşhur topçu Əli ağa Şıxlinskinin adını çəkə bilərəm. Bu ad rus hərb elmi tarixində böyük şöhrət qazanmışdır.

***Görkəmli Dövlət xadimi, yazıçı-dramaturq Nəriman Nərimanov:***

– Şıxlinski Nikolay ordusunda “artilleriyanın allahı” sayılırdı.

***General-mayor Akim Abbasov:***

– Üç il iki məşhur generalımız Səməd bəyin və Əli ağanın oxuduğu mühazirələrin dinləyicisi olmuşam. Onların hər sözü, hər mühazirəsi biz dinləyicilərin qəlbinə çox asanlıqla yol tapırdı. Hərb elmində və hərbi taktikada qazandığım bütün müvəffəqiyyətlər üçün onlara borcluyam.

***Ordu komandanı İona Yaker (1896-1937):***

– Yoldaş Şıxlinski möhkəm iradəyə və enerjiyə malikdir, vəziyyəti düzgün qiymətləndirməyi bacarır, tabeliyində olanlara qarşı tələbkar, lakin çox ədalətlidir, onlara yoldaşlıq münasibəti bəsləyir. İntizamlıdır, sağlamdır, yaşının çox (1925-ci ildə yazılıb – ***Ş.N.***) olmasına baxmayaraq səfərlərdə çox dözümlüdür. Hərbi Elmi Bilik Cəmiyyətinin ən fəal üzvüdür. Yüksək hərbi elmi biliyə malikdir.

## SÖZ ARDI

*Haqqım əleyhinə söz danışanlar,*
*Əyri pərdə kimi yanlış çalarlar.*
Nizami Gəncəvi

Bəzi nadanlar ötən əsrin doxsanıncı illərində hay-küy saldılar ki, guya general Əli ağa Şıxlinski bolşeviklərin hücumu zamanı Xaçmaz yaxınlığındakı dəmir yolu xətlərini sökdürmək əmrini versəydi, istilaçı bolşevik-daşnak cəlladları Bakıya girə bilməyəcəkdi. Bu yalan nə ayaq tutdu, nə də yeridi. Azərbaycan xalqı bu yalanlara inanmayıb, inanmayacaq da... Xalq dünən də, bu gün də əzəli və əbədi məhəbbətlə sərkərdə oğlu Əli ağa Şıxlinskini sevir və sevəcək də... Bütün bunlara onun hərbi fəaliyyəti, o illərdən qalma xatirələr və arxiv sənədləri şahidlik edir.

Bir daha dırnaqarası alimlərə cavab olmaq üçün 1920-ci ilin təlatümlü mart və aprel aylarından qalma bir xatirəni və bir rəsmi sənədi möhtərəm oxuculara təqdim edirəm. Xatirənin müəllifi ***1918-1920-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyətində əks-kəşfiyyat idarəsinin rəisi vəzifəsində işləmiş Nağı bəy Şeyxzamanlıdır. Nağı bəy həmin xatirəni 1934-cü ildə Türkiyədə mühacirətdə olarkən yazıb.***

* * *

Azərbaycan hökuməti Türkiyədən gələn zabitləri orduya götürməyə əmr vermişdi. Gələnlər parlamentin mühafizə alayına daxil oldular. Ancaq onlar hökumətimizdən aldıqları maaşdan bir neçə dəfə çox maaş fırıldaqçı nümayəndələrdən alırlarmış. Hamısı Moskvanın pulları idi. Hökumətimiz işğal ərəfəsində son bir qərar verir: Hökumət təcili Bakıdan Gəncəyə köçəcək, Qızıl Ordu ilə müharibəyə Gəncədən başlayacaqdı. Bu məsələnin həlli üçün pula ehtiyac var idi. Təcili olaraq Azərbaycan Dövlətinin Mərkəzi Bankı Gəncə şöbəsinə 100 milyon manat göndərilməsinə əmr verdi. Pullar sandıqlara qoyuldu. Stansiyaya gön-

dərilərək vaqonlara yerləşdirildi. Qatar hərəkət edəcəyi vaxt parlamentin mühafizə alayından Xalid adında qısaboylu türkiyəli bir zabit əlli-altmış silahlı nəfərlə qatarı saxladır və hərəkətinə mane olur.

Hökumətimizin daxilində çox məşum rol oynamış Məmməd Həsən Hacınski gizli olaraq Moskva agentləriylə sözləşmiş, hökumətimizin və xalqımızın əleyhinə çalışmışdır. Moskvanın göstərişi ilə hərəkət etmişdir. Əsl xəyanətkar olan bu bədbəxt xainin hərəkəti pula tamahı olmayıb alçaqlığından irəli gəlmişdir. Müdafiə naziri (Müdafiə nazirinin müavini olmalıdır – ***Ş.N.***) general Əli ağa Şıxlinski Birinci Dünya müharibəsində rus ordularının baş müfəttişi olaraq şöhrət qazanmış general fırıldaqçı nümayəndə olan Xəlil paşaya inanıb saflığının və qocalığının qurbanı olmuşdur.

Qızıl Ordu sərhədimizdə toplandığı vaxt hökumətimiz Quba qubernatoruna dəmiryol xətlərinin bir kilometrə qədər sökülməsi əmrini verir. Ertəsi gün qubernator xətləri sökdürür. Lakin Xəlil paşa general Şıxlinskiyə gedib deyir: "Amandır, paşam, hökumət sərhəddə dəmiryol xətlərini sökdürübdür. Qızıl Ordu Anadoluya keçə bilməyəcək, yardım gecikəcəkdir. Tədbir görün". General Şıxlinski dərhal əmr verir və xətlər bərpa olunur.

Aprelin 2-də Qızıl Ordu Bakıya gəlir və hər yanda mühüm nöqtələri tutur. İlk tədbir olaraq mühafizə alayının adını dəyişdirib, "Yardım" alayı qoyurlar. İki gün keçdikdən sonra onu istifadə edirlər. Üçüncü gün Qızıl Ordu "Yardım" alayının əsgərlərindən silahı alıb, "marş evinizə" deyirlər. Alay zabitlərinin isə ələ keçənlərini güllələyirlər. Yaxalanmayanlar isə bir müddət gizlənib, sonra hərəsi bir tərəfə qaçırlar. Artıq bolşeviklərə görə bu alay öz vəzifələrini yerinə yetirmişdir. Bu fırıldaqçılardan Xəlil paşa, Baha Said, Nail və başqaları canlarını qurtarıb Gürcüstana keçə bilmişdilər.

İşğalın ikinci günü idi. "İttihadi-İslam" firqəsinin sədri doktor Qarabəyov ilə safsulu general Şıxlinski Bakıdakı kazarmaları dolaşaraq azəri əsgərlərinə nitq söyləyirdilər. Qarabəyov dindən,

müsəlmançılıqdan bəhs edirdi. Qoca general Şıxlinski isə: "Övladlarım, türk ordusu paşalarının rəhbərliyi altında gələrək bizim Bakımızı düşməndən təmizlədi. İndi yardım etmək növbəsi bizə çatdı. Türklərin İstanbulunu düşmənlər işğal etmişlər. İstanbulu düşməndən təmizləmək lazımdır. Mən də siz əsgərlərimi alıb köməyə gedəcəm. Siz də gedəcəyinizə, savaşacağınıza söz verirsinizmi?" – soruşur. Əsgərlər sevinc göz yaşları içində "gedəcək və öləcək" deyə qışqırırlar. Şıxlinski deyir: "Övladlarım, köməyə gedən yalnız biz olmayacağıq. Ənvər paşa vaxtıylə Rusiyada əsir düşən bütün türk əsgərlərini və bir milyona yaxın tatar könüllüsünü toplayıbdır. Gəlib buradan keçəcək. Biz də onlar ilə gedəcəyik".

Safdil Şıxlinski söylədiyi sözləri səmimi-qəlbdən deyirdi. Bolşeviklərə satılmamışdı. Xainlərin təbliğatına ağılsız kimi inandığından söyləyirmiş. Təbliğat dediyimiz şey ən iti qılıncdır. O vaxt bolşeviklər Ənvər paşa ordusuyla gəlir deyə bir şayiə çıxarırlar və bütün şəhər camaatı stansiyaya toplaşır. Sonra Ənvər paşa bir gün gecikir deyə ikinci bir şayiə çıxır və camaat evlərinə qayıdır.

(Nağı bəy Şeyxzamanlı. "Azərbaycan İstiqlal mücadiləsi xatirələri", "Azərbaycan" nəşriyyatı, 1997, səh.100).

* * *

## Воззвание к гражданам Азербайджана

**16 марта 1920 г.**

Всем известна трагедия турецкого народа в Аидинском вилайете с главным городом Смирной, где коварно и жестоко были истреблены многие тысячи наших единоплеменных братьев.

Весть об этих страшных событиях с быстротою молнии пронеслась по всему мусульманскому миру и до сих пор жжет сердца.

Но нас, азербайджанцев, смирнские события должны волновать и беспокоить больше всех. Освобождением нашей столицы г. Баку от захвата врагов наших мы всецело обязаны тем турецким героям, в серде коих 60% были айдинские уроженцы. эти герои легли костьми на чужбине, лелея надежду по исполнении долга вернуться к родным очагам и ласкать, после продолжительной разлуки, своих детей.

Между тем дети и жены этих героев ныне изнывают под гнетом жестоких событий, обреченные на голод и холод, и наш священный долг всеми мерами и силами прийти на помощь мусульманам, пострадавшим от смирнских событий, настолько же необходима она и беженцам Нахчивани и Зангезура, которые являются неотьеммыми частями Азербайджана.

Ради спасения жизни обреченных на голодную местностей, мы нравственно обязаны уделить из своего состояния посильную лепту.

Необходима, чтобы во всех местах Азербайджана образовались общества для сбора пожертвований в пользу мусульманских беженцев.

Приглашаем всех граждан к участию в пожертвованиях на это не терпеящее отлагательства дело.

***Председатель Центрального Комитета по сбору пожертвований генерал Али Ага Шихлинский***
***газета "Азербайджан",***
***1920 г., 16 марта***

* * *

**Azərbaycan Süvari Diviziyasının Komandirinə**
**Bakı şəhəri, 18 oktyabr 1927-ci il, № 5**
**tərcüməçi Əli ağa Şıxlinskinin**

## MƏLUMATI

Nəşriyyat komissiyasının keçmiş redaksiyanın tapşırığı ilə mən "Hərbi Səhra Nizamnaməsi"ni tərcümə edirəm.

Tərcüməyə görə pul ödənilib, çap olunmaq üçün isə keçən ilin smetasına təxsis edilmişdir.

Rus dilini bilməyən və ya zəif bilən orta və kiçik komandir heyəti üçün daha çox zəruri olan, "Piyadanın Döyüş Nizamnaməsi"nin II hissəsinin çıxması ilə əlaqədar olaraq və "Səhra Nizamnaməsi"ni yenidən işlədikdən sonra gəldiyim nəticələrə görə aşağıdakı təklifləri təqdim edirəm:

1. "Səhra Nizamnaməsi"nin çap edilməsi işləri onun yeni redaksiyası təqdim olunana qədər kənara qoyulsun.
2. Onun çap olunması üçün buraxılmış məbləğ "Piyadanın Döyüş Nizamnaməsi"nin II hissəsinin çap edilməsi üçün keçirilsin.
3. Mən "Səhra Nizamnaməsi"nin yerinə "Piyadanın Döyüş Nizamnaməsi"nin tərcümə etməyə razıyam, eyni zamanda artıq tərcümə etdiyim, hazır hissənin qonorarından imtina edirəm; "Səhra Nizamnaməsi"nin yeni nəşri hazır olduqda isə, mən onu yeni qiymətlərə əsasən tərcümə edərəm.

**Əli ağa Şıxlinski**

* * *

## 7 aprel 1928-ci il 13 №-li PROTOKOL
## Təşkilatçı … iclasın protokolundan

## ÇIXARIŞ

| Dinlənildi | Qərara alındı |
|---|---|
| 2. Hərbi müəssisələrdə xidmət etmiş şəxslərə təqaüd (… və …təqdim edir) İş № 969 | Təşkilatçı … iclasın, cari ilin 15.III tarixli 9 №-li protokolun 3-cü maddəsinə əlavə olaraq və … təqdimata müvafiq olaraq cari ilin fevral ayının 1-dən etibarən… təqaüdçüsü qəbul edilmiş şəxslər üçün aşağıdakı miqdarda təqaüdlər təyin edilsin.<br>18. Əli ağa Şıxlinski – 120 manat.<br>19. Səməd bəy Mehmandarov – 100 manat.<br>Hazırkı zamanda mülkü müəssisələrdə xidmətdə olan şəxslər, yalnız xidmət yerlərini tərk etdikdən sonra yuxarıda göstərilmiş təqaüdü ala bilərlər. Əgər onların xidmət etdikləri yerlərdə maaşları təyin olunmuş təqaüddən azdırsa, onlar əlavə olaraq müvafiq fərqi almaq hüquqları vardır.<br>5. Təqaüdlər mərkəzləşdirilmiş qaydada, … yolu ilə verilsin. |

**Sədr:** **M.D.Hüseynov**
**İşlər müdiri:** **N.Sokolovski**
**Əsli ilə düzdür:** **Qərargahın VI şöbə rəisinin müavini Kotoyans**

**Əsli ilə düzdür:**
**Azərbaycan diviziyası Qərargahının nizami şöbəsinin rəisi**
**imza:** **Barmet**

* * *

**Nizamnamələrin, təlimatların və 1928-1929-cu büdcə ilində türk dilində olan təlimatların nəşr edilməsi ilə əlaqədar görülən işlərə görə mükafatların verilməsinə dair Azərbaycan Süvari Diviziyası Siyasi şöbəsinin nəşriyyat hissəsinin p a y l a m a c ə d v ə l i**

| №№ | Kimə və nəyə görə verilir | Çap vərəq-lərinin sayı | HAQQ | | | Alan şəxsin imzası |
|---|---|---|---|---|---|---|
| | | | I çap vərəqi üçün | cəmi çatmalı-dır | verilir | |
| | | | Manatlar | | | |
| 1. | Yol. Əli ağa Şıxlinskiyə – Terminologiya lüğəti əlavə edilməklə batareya və diviziyaların idarəedilmə taqımları xidməti… "Artilleriya təlimatı"nın tərcüməsinə görə | 3,5 | 50 | 175 | 175 | |
| 2. | Yenə də ona – … 1928-ci il, I hissə Piyada Nizamnaməsinin layihəsinin, terminologiya lüğəti əlavə edilməklə tərcüməsinə görə avans | 5,5 | 50 | 275 | 25 | |
| | Yekunu: | | | | | |

**№ Nəşriyyat hissəsinin rəisi:**
**"___" may 1929-cu il Təlimatçı:**
**Bakı şəhəri**

* * *

**Nizamnamələrin, təlimatların və 1928-1929-cu büdcə ilində türk dilində olan təlimatların nəşr edilməsi ilə əlaqədar görülən işlərə görə mükafatların verilməsinə dair Azərbaycan Süvari Diviziyası Siyasi şöbəsinin nəşriyyat hissəsinin**
**p a y l a m a   c ə d v ə l i**

| № | Kimə və nəyə görə verilir | Çap vərəqlərinin sayı | HAQQ | | | Alan şəxsin imzası |
|---|---|---|---|---|---|---|
| | | | I çap vərəqi üçün | cəmi çatmalıdır | verilir | |
| | | | Manatlar | | | |
| 1. | Yol. Əli ağa Şıxlinskiyə – 1928-ci ildə çap olunmuş … "Səhra Nizamnaməsi"nin (terminologiya lüğəti əlavə edilməklə) tərcüməsinə görə | 12 | 50 | 600 | 600 | |

**№ Nəşriyyat hissəsinin rəisi:**
**"___" ________ 1929-cu il Katib:**
**Bakı şəhəri**

* * *

**"Qızıl Əsgər" qəzetinin**
**məsul redaktor müavini**

**18 dekabr 1930-cu il**

Əli ağa Şıxlinski "Piyadanın əlahiddə komandiri üçün vəsait" kitabını türk dilinə tərcümə etmişdir. Kitab cəmi 279 səhifədir.

Qəbul etdi – Cavadov

**Az.SSR______________________**
**Bakı Soveti Səhiyyə şöbəsinin**
**4№-li həkim-nəzarət komissiyası**
**Bakı şəhəri, 6 yanvar 1929-cu il**

**V ə s i q ə**

Verilir Əli ağa Şıxlinskiyə, ondan ötrü ki, o, həqiqətən də ağ ciyərin emfizeması, arterioskleroz xəstəliklərinə tutulmuşdur, hər iki qulağı çox pis eşidir, ona görə də o, əlilliyin üçüncü qrupuna aid edilə bilər. Arayış Bakı qarnizonu həkim komissiyasının xəstəlik haqqında verdiyi 26 dekabr 1928-ci il, 425 №-li Şəhadətnamə.

**Əslini imza edənlər:**
**Komissiyanın sədri:** **Həkim Baksov və komissiyanın üzvü**

**Əsli ilə düzdür:**
**İmza:** **Azərbaycan Qərargahının atıcı hissəsinin rəisi**

* * *

**A r a y ı ş**

Verilir **Əli ağa Şıxlinskiyə** ondan ötrü ki, o, Semaşko adına xəstəxanada müalicə üçün yatmış və 18 avqust 1943-cü ildə vəfat etmişdir. 1943-cü il, avqust ayı üçün, 3.VIII.43-cü ildən ayın axırına qədər müddət üçün olan çörək kartoçkası xəstəxanaya təhvil verilmişdir.

**Məsul şəxs Kerimaryuk**
**möhür**

**___ №-li Qəbz kötüyü**

Bakı şəhəri, 4-cü milis şöbəsi tərəfindən 4.XI.41-ci ildə vətəndaş Əli ağa İsmayıl oğlu Şıxlinskiyə verilmiş U-LS seriyalı 740862 №-li pasport sahibinin ölməsi ilə əlaqədar olaraq vətəndaş Yekimçevdən qəbul edilmişdir.

**Pasport stolunun rəisi**
**imza**

.....................................................

Maliyyə Xalq Komissarlığı
№ 1/403 20.07.36-cı il
Tiflis şəhəri,
Djuqaşvili küçəsi № 4

**Ünvan:** Bakı şəhəri
Kasıblar küçəsi, № 14 (keçmiş Şamaxinskaya)

***təqaüdçü Əli ağa İsmayıl oğlu Şıxlinskiyə***

Maliyyə Xalq Komissarlığı Katibliyinin mühasibliyi Sizin nəzərinizə çatdırır ki, ...iclasın protokoluna müvafiq olaraq, 1.07.1936-cı ildən etibarən Siz, ... fərdi təqaüdçülərin siyahısından çıxarılmışsınız.

Əlavə: 22.V.36-cı il ... fərdi təqaüdçülərin siyahısına yenidən baxan Komissiyanın iclasının protokolundan çıxarış.

**İmza** **Maliyyə Xalq Komissarlığının baş mühasibi (Mikailyan)**

* * *

**Sığorta kassasına təqdim etmək üçün**
**1073 №-li ölüm haqqında**
**şəhadətnamə**

**Vətəndaş Əli ağa Şıxlinski** 18.08.43-cü ildə ölmüşdür. Bu haqda 1943-cü il üçün vətəndaşların vəziyyətləri haqqında aktların qeydiyyat kitabında ____ №-li müvafiq qeyd edilmişdir.

Ölümün səbəbi – kardioskleroz.
Ölüm yeri – Bakı şəhəri.
Yaşı – **81 (səksən birdir) (*səhvdir: 79 yaşında olmalıdır* – *Ş.N.*)**

İmza ... VVAQ bürosunun müdiri möhür

İmza ... Kargüzar

# TAM ARTİLLERİYA GENERALI ƏLİ AĞA ŞIXLİNSKİ ÖMRÜNÜN ƏSAS TARİXLƏRİ (1865-1943)

***Mən öz keçmişimə təmiz bir vicdanla və müasirlərimin üzünə tam cəsarətlə baxıram.***

***General Əli ağa Şıxlinski***

**1865, 23 aprel** – Gəncə quberniyası Qazax qəzasının Qazaxlı kəndində məşhur mülkədar Hacı İsmayıl ağa Alqazax ağa oğlu Şıxlinskinin və Şahyəmən xanım Mirzə Məhəmməd qızı Qayıbovanın (qız soyadı) ailəsində anadan olub.

**1875, 17 noyabr** – Tiflisdəki ikiillik şəxsi gimnaziyaya daxil olub. Qeyri-adi istedada malik olduğuna görə ekstern imtahan verib, ikiillik gimnaziyanı yeddi aya fəxri fərman və əla diplomla bitirmişdir.

**1876, avqust** – Tiflis hərbi gimnaziyasına qəbul olunub. Sonralar Kadet Korpusu adını almış həmin gimnaziyanı 12 ballıq əla qiymətlərlə bitirib.

**1883, 1 sentyabr** – Peterburqdakı Mixaylov Artilleriya Məktəbinə daxil olub.

**1884, 6 aprel** – unter-zabit, 14 avqustda starşinalıq, 13 oktyabrda (1885-ci ildə) porputey-yunker rütbəsi alıb.

**1886, 11 avqust** – Mixaylov Artilleriya Məktəbini podporuçik rütbəsində birinci dərəcə ilə bitirib. Buraxılış imtahanında qazandığı müvəffəqiyyətlərə görə pul mükafatı və atçapma yarışında birinciliyə görə qızıl saatla mükafatlandırılıb. Qafqazda yerləşən 39-cu Topçu briqadasına həqiqi hərbi xidmətə göndərilib.

**1888, 23 fevral** – poruçik, iyunun 15-də (1894-cü ildə) Əlahəzrətinin əmri ilə ştabs-kapitan, iyunun 19-da kapitan rütbəsi verilib.

**1895-1896-cı** illərdə 39-cu Topçu briqadasında əla xidmətinə görə üçüncü dərəcəli "Stanislav" və üçüncü dərəcəli "Müqəddəs Anna" ordenləri ilə təltif olunub.

**1900-1901-ci illərdə** – Çin hərbi yürüşündə (tarixə "Boksyor üsyanı" kimi daxil olub) iştirak edib.

**1901, 1 may** – çinlilərə qarşı Taoxovyay, Çançunlin və Boluna şəhəri uğrunda döyüşlərdə fərqləndiyinə görə ikinci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla birgə) ordeni ilə təltif olunub.

**1903, 1 iyun** – Dördüncü Şərqi-Sibir atıcı artilleriya briqadasında ikinci batareyaya nümunəvi komandirlik etdiyinə görə ikinci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunub.

**1904, 11 sentyabr** – ikinci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunub.

**1905, 28 sentyabr** – dördüncü dərəcəli "Müqəddəs Georgi", həmin il oktyabrın 23-də dördüncü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və bantla birgə) ordenləri ilə, noyabrın 19-da isə üstü yazılı "İgidliyə görə" qızıl silahla mükafatlandırılıb.

**1905, 26 noyabr** – Port-Artur döyüşlərində göstərdiyi qəhrəmanlığa görə podpolkovnik rütbəsi verilib.

**1906, fevralın 1-dən avqust** ayınadək Çarskoye-Selo şəhərindəki Artilleriya Zabitləri Məktəbində kurs keçib. Əla qurtardığına görə həmin məktəbdə müəllim saxlanılıb.

Məktəb müduriyyəti onun "Xidmət kitabçası"na belə bir dərkənar qoymuşdur: "Topçu Zabitləri Məktəbini əla qiymətlərlə bitirmiş və müvəffəqiyyətlərinə görə padşahın yüksək iltifatına nail olmuşdur".

**1906-cı il** – gözlə görünməyən hədəfi nişan alan "Şıxlinski üçbucağı" hərbi-elmi nəzəriyyəsini kəşf edib.

**1907, 22 fevral** – Rusiya-Yaponiya müharibəsinin xatirə günündə bantlı gümüş medalla təltif olunub.

**1907-ci il** – Riqa şəhərində yerləşən 29-cu topçu briqadasında batareya komandiri olub.

**1908, 26 noyabr** – polkovnik rütbəsi verilib.

**1909, 27 oktyabr** – Nigar xanım Mirzə Hüseyn qızı Qayıbova ilə ailə qurmuşdur.

**1910, 4 avqust** – İyirmi birinci artilleriya briqadasının birinci divizionuna komandir təyin edilib. "Səhra toplarının cəbhədə işlədilməsi" elmi əsərini nəşr etdirmişdir.

**1913, 2 yanvar** – Artilleriya Zabitləri Məktəbinin rəis müavini təyin edilib.

**1913, 14 aprel** – general-mayor rütbəsi ilə təltif olunub.

**1913, 13 sentyabr** – Fransa hökumətinin generallara məxsus "Fəxri Legion" ordeni ilə təltif olunub.

**1915, yanvar** – Şimal-Qərb cəbhəsinə dəvət olunub. Müharibə üçün ağır artilleriya heyətinin təşkilinə rəhbərlik edib.

**1915, 26 may** – "Müqəddəs Anna" ordeninin (qılıncla birgə) birinci dərəcəsilə, həmin il həm də "Müqəddəs Stanislav" ordeninin birinci dərəcəsilə təltif olunub.

**1915, 31 oktyabr** – Ali Baş Komandan yanında tapşırıq generalı vəzifəsinə təyin edilib. Ağır artilleriya divizionlarına və briqadalara rəhbərlik edib.

**1916, 16 aprel** – Qərb cəbhəsindəki ordunun artilleriya müfəttişi təyin edilib.

**1917, 9 sentyabr** – Onuncu Ordunun komandanı təyin olunub.

**1917, 2 aprel** – general-leytenant rütbəsi ilə təltif olunub.

**1917, 15 noyabr** – öz xahişi ilə İmperiya ordusundan tərxis olunmağı haqqında raport verib. Rəsmi olaraq dekabrın 2-də ordu komandanı vəzifəsindən istefaya çıxmışdır.

**1917, noyabr** – Qafqaza qayıdır və azərbaycanlılardan ibarət "Əlahiddə Müsəlman Korpusu"nu təşkil edir. Bununla da Milli Azərbaycan ordusunun təməl daşını qoyur.

**1918, aprel** – Gəncədə ilk Milli Hərbi Məktəb general Əli ağa Şıxlinskinin təşəbbüsü ilə yaradılmışdır.

**1918, 13 dekabr** – Milli Azərbaycan ordusunun yaradılması haqqında "Hərbi layihə" hazırlamışdır.

**1918, 25 noyabr** – Azərbaycan Respublikasının ilk hərbiyyə naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun müavini təyin olunur.

**1919, 3 yanvar** – Milli qoşun hissələrinin, idarələrin və müəssisələrin ştatlarının, maaş cədvəllərinin və Azərbaycan ordusunun şəxsi heyətinin geyim formasının layihəsini hazırlayan komissiyanın rəhbəri təyin edilmişdir.

**1919, 28 iyul** – Azərbaycan Demokratik Cümhuriyyətinin 339 saylı əmri ilə Əli ağa Şıxlinskiyə tam artilleriya generalı rütbəsi verilmişdir.

**1920, 9 mart** – ilk dəfə onun təşəbbüsü ilə Azərbaycan Demokratik Respublikasında Qızıl Aypara Cəmiyyəti təsis olunmuşdur.

**1920, avqust 1921, noyabrın 18-dək** – Moskvadakı Ali Artilleriya Məktəbində gələcəyin artilleriya marşalları L.A.Qovorova, N.N.Voronova, N.D.Yakovlevə və M.N.Çistyakova dərs demiş və Petroqrad Topçu Akademiyasında mühazirələr oxumuşdur.

**1922-ci il** – Azərbaycan Komanda Heyəti Məktəbində topçuluqdan dərs demiş və Hərbi-Elmi Cəmiyyətin sədr müavini seçilib.

**1923-cü il** – "Kommunist" qəzetində (aprel, №9, 10, 11) "Gələcək müharibədə toplar" silsilə məqalələrini dərc etdirmişdir.

**1924-cü il** – Azərbaycan Komanda Heyəti məktəbinin rəis müavini olmuşdur.

**1925-ci il** – Azərbaycan Hərbi tərcümə kollegiyasının baş redaktoru.

**1926-cı il** – Bakıda "Rusca-türkcə qısa hərbi lüğət" əsəri nəşr olunmuşdur. Bu, Azərbaycan hərb tarixində ilk kamil hərbi lüğət idi.

**1927-ci il** – "İşçi-kəndli Qızıl Ordu topçusunun döyüş təlimnaməsi" elmi əsəri nəşr olunmuşdur. Həmin il oktyabrın 18-də "Hərbi Səhra Nizamnamə"si kitabını tərcümə etmişdir.

**1928-ci il** – “Hərbi bilik” jurnalının beş və altıncı saylarında “Alay topları haqqında”, “Topçuların piyada və süvarilərlə qarşılıqlı əməliyyatı” silsilə hərbi-elmi məqalələrlə çıxış etmişdir.

**1929-cu il** – səhhətinə görə istefaya çıxmışdır. Lakin hərbi-elmi pedaqoji fəaliyyətini dayandırmamışdır. “Topların dağlıq yerlərdə əməliyyatı”, “Dağlıq yerlərdə top atəşinin xüsusiyyətlərinə dair”, “Bir maraqlı gecə atışı haqqında”, “Artilleriya döyüşü“ elmi-nəzəri məqalələrini yazmışdır. Ömürlük fəxri təqaüdlə təmin olunmuşdur.

**1930, 18 dekabr –** “Piyadanın Əlahiddə komandiri üçün vəsait” kitabını tərcümə etmişdir.

**1943, 18 avqust** – Bakıda, C.Cabbarlı küçəsindəki 14 saylı binanın 20-ci mənzilində kardiosklerozdan vəfat etmişdir.

**1944, aprelin 9-da** – “Xatirələrim” kitabı nəşr olunmuşdur. Həmin kitab 1984-cü ildə “Azərnəşr”də əlavə və izahlarla kütləvi tirajla (60 min) Azərbaycan və rus dillərində tədqiqatçı Şəmistan Nəzirli tərəfindən nəşr etdirilmişdir.

## BİZİ DÜŞÜNDÜRƏN GENERAL

***General Əli ağa Şıxlinskinin qəhrəmanlığı öz Vətəninin şərəf və azadlığını müdafiə edən hər bir şəxs üçün nümunə olmalıdır.***

*Yevgeni Zaxaroviç Barsukov*
*Dövlət mükafatı laureatı,*
*hərb elmləri doktoru, professor,*
*artilleriya generalı*

Əziz general baba, bu günlərdə arxivdən tapdığım sənin yeganə mülkü geyimdə fotoşəklində necə də fikirlisən. Mənalı, müdrik görüşündən niyə qəm, kədər yağır? Kim də olmasa mən səni çox gözəl başa düşür, anlayıram. Sənin bu fotoşəklin 1942-ci ilin avqust ayında çəkilib. Dünyanın işinə bax, mən elə həmin ili, həmin ayda anadan olmuşam. Taleyin bu təsadüf və xeyirxah işinə nə qədər sevindiyimi bircə Ulu Tanrı bilir. Görünür, sənin unudulmuş ömür və qəhrəmanlıq yolunu öyrənmək də mənə bu tarixdən qismət olub. Axı, indi mənim haqqım, hüququm varmı ki, 1998-ci il avqustun 12-də əlli altı ildən sonra arxivdən tapdığım sənin müqəddəs şəklindən soruşum ki, Əli ağa baba, niyə belə fikirlisən, nədir səni qəm dəryasına qərq edən. Heç kim də olmasa mən az-çox bilirəm, nədir sənin qəmin, kədərin. Ömrünün sonuna cəmi bircə il qalıb.

Qərbi nurla dolmuş görkəmli alim-filosof Heydər Nəcəf oğlu Hüseynov səni akademiyaya dəvət edib tanınmış ziyalılarla görüşünü keçirib. Bu saf ziyalımız sənin könlünü açmaq, yetmiş səkkiz illik mənalı ömür yolunu xalqa bəyan etmək istəyib. Bu fədai elcanlı insan sənin üçün nələr etməyib? “Xatirələrim” kitabını nəşr etdirib, sənin haqqında silsilə dərin məzmunlu məqa-

lələr yazıb. Bütün bunlara görə "yuxarıların" tənə və töhmətinə məruz qalıb.

Niyə belə baxırsan, Əli ağa baba, elə bil min ilin ağrısı-acısı var canında. Olacaq, əlbəttə, sən əlli iki illik ordu həyatında soyuq və nəm səngərlərdən keçmisən. Diviziyalara, alaylara və orduya komandanlıq eləmisən. Bütün döyüşlərdən zərərlə çıxmısan. Hər yerdə – Uzaq Şərqdə, Port-Arturda, Rusiyada başımızı uca etmisən. 1918-ci ildə millətimizin dar günündə ilk dəfə Milli Ordu korpusu yaradıb torpağımızı yağılardan qorumusan. Sənin haqqın var başı uca gəzməyə. Gəzdin də… səni unutmamışıq, unutmarıq da. Bu gün onlarla elmi-publisistik əsərlərin bizə yadigar qalıb. Xalq, millət onu öyrənir, ondan bəhrələnir. Uzaq Fransanın, Norveç və İsveçrənin, Rusiyanın hərbi məktəblərində dərslik kimi keçirilən "Şıxlinski üçbucağı"n bizə şan-şöhrət gətirir.

***1942-ci ildə xatirələrində yazmısan ki, mən elə bir ömür yaşamışam ki, keçmişimə təmiz bir vicdanla və müasirlərimin üzünə tam cəsarətlə baxıram.*** Bəli, əziz general baba, biz səni belə də qəbul edirik, xatirənin də həmişə yaşadırıq. İndi sənin adına Bakıda, Qazaxda, Şəmkirdə, Gəncədə küçə, xatirə lövhəsi və müəssisələrdə büstün var. Sən bunlara layiqsən, çünki xalqımın nadir sərkərdələrindən birisən. Sənin haqqı-sayını biz unutsaq, bu Azərbaycan adlı məmləkətdə yaşamağa haqqımız olarmı? Əlbəttə, yox!

Şəkildə dümağ bığ, çənəndə isə müdrik qocalarımıza məxsus ağ saqqalın var, iri, ala gözlərin isə məchul bir nöqtəyə dikilib. Görəsən fotoqraf sənin ömrünün hansı anını, hansı qəhrəmanlığını yadına salıb xatırlatdı. İlk gəncliyindən ta ömrünün bu anına kimi bütün fotoşəkillərdə hərbi geyimdəsən. Vüqarlı, qartal duruşlu şəkillərin bizə yadigar qalıb. Müasirlərinin dediyinə görə, ağ at üstündə çəkilmiş şahanə duruşlu, əsl sərkərdələrə məxsus bir fotoşəklin də varmış. Heyf, çox heyf, bu günə kimi onun sorağındayam, tapa bilmirəm. Port-Arturda, Çarskoye-Seloda, Peterburqda, Mogilyov cəbhəsində, Tiflisdə Nigar xanımla üzbəüz,

xilaskarımız, türk generalı Nuru Paşa və əsgərlərlə çəkilmiş hərbi geyimli şəkillərin bizə ərmağandı. Bunların hansı birinə baxanda fəxr edib qürurlanırıq. Bizim vüqarımız, başımızın hərb çələngi deyirik sənə…

Axı, bircə bu fotoşəkildə nə olub sənə, yenə soruşuram: niyə belə kədərlisən, general baba? Bəlkə övladsızlıq, bəlkə mühit, totalitar sovet rejimi səni sıxıb. Axı, sən özün yazmısan və dönə-dönə şifahi söhbətlərində dosta-tanışa demisən ki, hər bir Azərbaycan gənci mənim övladımdır. Bəlkə düşünürsən ki, ömrün baharı keçib, qışı gəlib. Nigar xanımsız günlərimdə sevincli heç nə yoxdur?

Bəzi sovet buqələmunları üzünə yalandan hırıldayır, arxanca çar və müsavat generalı deyə hədyan danışırlar. Qədir-qiymətini yaxşı bilən yalnız Heydər Hüseynov idi, səni bu ikiüzlü yaltaqlardan qoruyan. Neyləməli, zaman, dövr başqa idi. İndi biz nəvə-nəticələrin sənin arzusunda olduğun müstəqillik dövründə yaşayırıq. Bu nemətin ilk dadını, tamını bizə 1918-ci ildə silahdaşların general Səməd bəy Mehmandarov, İbrahim ağa Usubov, Əbdülhəmid bəy Qaytabaşı, İbrahim ağa Vəkilov, Qaçar və Yadigarov qardaşları ilə gecəli-gündüzlü çalışıb siz verdiniz. İndi biz yetmiş il "tamamilə məxfidir" qıfıl altında saxlanıb qadağan olunmuş sənin və silahdaşlarının ömür və döyüş yolunuzu sətir-sətir öyrənirik. Hər bir ağsaqqal və gənc səninlə fəxr edir. Adına nəğmələr qoyur.

*Salam mənim komandanım,*
*Sənsiz keçir günüm, anım.*
*Fəxr edirəm, olub bir vaxt,*
*Sənin kimi generalım,*
*Sənin kimi qəhrəmanım.*

# ŞƏXSİYYƏT

(Mirzə Hüseyn əfəndi Yusif oğlu Qayıbzadə)
(1830-1917)

***Mirzə Hüseyn əfəndi Qayıbzadə, Mirzə Fətəli Axundovun çox yaxın dostu idi. O, ərəbcə kitab və təzkirələri oxumaqda Mirzə Fətəliyə kömək edirdi, çünki ərəbcəni o, Mirzə Fətəlidən daha yaxşı bilirdi. Ədəbiyyatı çox sevdiyindən Azərbaycan şairlərinin şeirlərindən ibarət dördcildlik böyük bir külliyyat tərtib etmişdir.***

***General Əli ağa Şıxlinski***
***"Xatirələrim" kitabından***

***Müfti Mirzə Hüseyn əfəndi Qayıbzadə "Azərbaycanın məşhur olan şüərasının əşarına məcmuədir" təzkirəsini düzüb qoşmaqla millətin mənəvi sərvət xəzinəsində iftixar doğuran və təqdirəlayiq olan sənət nümunələrini aşkara çıxarıb nişan verdi.***

***Xeyrulla Məmmədov,***
***professor***

Müfti Mirzə Hüseyn əfəndi Yusif oğlu Qayıbzadə Tiflisdə Zaqafqaziya ruhani idarəsinin müsəlman mədrəsəsində şəriət müəllimi olmuş, ərəb, fars və rus dillərini mükəmməl bilirmiş. Bu dövrdə Mirzə Hüseyn, M.F.Axundov, Adolf Berje, Məmmədağa Şahtaxtlı, Səid Ünsizadə, Aleksey Çernyayevski, Səfərəli bəy Vəlibəyov və gürcü şairi İlya Çavçavadze ilə tanış və dost

olur. Qori Müəllimlər Seminariyasında Azərbaycan şöbəsinin açılması üçün Mirzə Fətəli Axundovla birgə səy göstərir. 1858-ci ildə Tiflis Müsəlman Məktəbində Şərq dilləri müəllimi işləyən Mirzə Hüseyn 1875-ci ildə kasıb balaları üçün xüsusi "Müfti məktəbi" açmışdır. O, 1882-ci ildə "Tövsiyələr", 1906-cı ildə "Ariflərin şəriət qanunları" kitabını nəşr etdirmişdir. Qori seminariyasında işlədiyi illərdə "Nümuneyi-ləhçeyi-Azərbaycan", "Müqəddəs tarix və sərf-nəhv" (Yeniyetmələr üçün elmin əsasları), "Məsaili-Aləmi-hesab" (Dünyəvi hesab elminin məsələləri) adlı dərslik kitablarını yazmışdır.

Mirzə Hüseyn Qori Seminariyasında Şərq və Azərbaycan dillərindən dərs deyib, 1884-cü il yanvarın birində Qafqaz canişininin əmrilə müəllimlikdən azad olub, Zaqafqaziya Sünni Məzhəbi İdarəsinin sədri təyin edilir. Müfti vəzifəsinə seçilərkən Mirzə Hüseyn demişdir: "**Mən heç vaxt ruhani olmamışam və heç bir dini ayin icra etməmişəm. Bundan sonra da icra etməyəcəyəm. Lakin mənə təklif olunan vəzifəni qəbul edirəm. Çünki bu vəzifədə xalqıma daha böyük fayda verə biləcəyimi güman edirəm**". O, bu vəzifədə otuz üç il fəaliyyət göstərmişdir. Yüzlərlə azərbaycanlı gənci maarif və mədəniyyətə cəlb etmişdir. Qadın təhsili və qadın azadlığı məsələsi onu çox düşündürmüş, bu yolda böyük əmək sərf etmişdir. O, "Dəsturi-nisvan", "Qadın və qızlarımızın təlim və tərbiyəsi" adlı məqalələrində sübut edirdi ki, qızların yeni tipli məktəblərdə təhsil almaları heç də şəriət qanunlarına zidd deyildir. Şəriətin qara qanunlarının hökm sürdüyü belə bir ağır vaxtda o, öz həyat yoldaşı Səadət xanıma "Qafqaz Qadınları Xeyriyyə Cəmiyyəti"ndə iştirak etməyə icazə vermiş, qızları Nigar və Gövhəri rus dilində Tiflis Nücabə Qızlar İnstitutunda oxutmuşdur. Həmin İnstitutu Nigar xanım Qayıbova (Şıxlinskaya) 1889-cu ildə, Gövhər xanım Qayıbova (Usubova) 1903-cü ildə qızıl medalla bitirmişdir.

Hər ikisinin həyat yoldaşı hərbçi idi. Nigar xanım 1909-cu ildə tam artilleriya generalı Əli ağa Şıxlinski ilə, Gövhər xanım isə 1911-ci ildə süvari generalı İbrahim ağa Musa ağa oğlu Usubovla ailə qurmuşdur.

Mirzə Hüseyn əfəndi üç oğul atası idi. Oğlanlarının hamısına ali təhsil vermişdir: Nadir bəy (1874-1941) Sankt-Peterburqdakı Yol Mühəndisləri İnstitutunu, Bahadır bəy (1878-1949) Xarkov Universitetinin Tibb fakültəsini qızıl medalla, Cahangir bəy (1882-1938) isə Moskvadakı Lazarev İnstitutunun Şərq dilləri fakültəsini birinci dərəcə ilə bitirmişdir.

Mirzə Fətəli Axundov Adolf Berjeyə 1876-cı il 21 oktyabr tarixli məktubunda açıqlayır: "Biz sizin gəlməyinizi səbirsizliklə gözləyirik. Bu məktubu qurtaran kimi mən şairlərin tərcümeyi-halı haqqında Molla Hüseyn Qayıbovun bu gün Azərbaycan dilində göndərməli olduğu məktubu tərcümə etməyə başlayacağam".

Mirzə Hüseyn dördcildlik toplusunda söz sənətinin mahir ustadı M.P.Vaqifin şeirlərinə geniş yer verilmişdir. Araz Dadaşzadə "M.P.Vaqif" kitabında A.Berje, F.Köçərli, M.Y.Nersesov kimi görkəmli tədqiqatçılara yanaşı, M.H.Qayıbovun da fəaliyyətini yüksək qiymətləndirir: "A.Berjeyə böyük ədəbiyyat həvəskarı, Zaqafqaziya müftisi Hüseyn əfəndi Qayıbovun da müəyyən köməyi olmuşdur" qənaətinə gəlir.

İnqilaba qədər Vaqifin əsərlərinin toplanmasında, onun qeyri-mətbu şeirlərinin aşkara çıxarılmasında M.Y.Nersesovdan sonra ən mühüm rolu Hüseyn Qayıbov oynamışdır. M.F.Axundovun arxivindəki bir məktubdan anlaşılır ki, Hüseyn Qayıbov ondan "Vaqif və digər müasirin" məcmuəsinin göndərilməsini xahiş edir və açıqca göstərir ki, "Məcmueyi-əşar" hazırlamaq fikrindədir.

Mirzə Hüseyn əfəndi Qayıbov bu işə hələ altmışıncı illərdən başlamışdır. Onun tərtib etdiyi dördcildlik məcmuə səksəninci illərdə tamamlanmışdır. O, toplusunda Azərbaycanda tanınmış, məşhur və az tanınan yüz doqquz XVIII-XIX əsr şairlərinin əsərlərindən nümunələr vermişdir. Bu sahədə ilk təşəbbüsü Mirzə Hüseyn göstərmişdir.

Mirzə Hüseyn əfəndi Qayıbov Qori Seminariyasında işləyərkən tələbələrini, Qafqaz müftisi təyin olunarkən ruhaniləri şifahi

xalq ədəbiyyatı toplamağa sövq etmişdir. Onun topladığı materiallar M.F.Axundov tərəfindən tərcümə edildikdən sonra "Aktı" məcmuəsində çap olunmuşdur. Bundan başqa o, uzun illər xalqımızın adət-ənənələri, həyat tərzi, ədəbiyyatı ilə bağlı topladığı məlumatlar əsasında "Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı antologiyasını tərtib etmişdir. Heç şübhəsiz, onun ən böyük xidməti bu antologiyanın tərtibidir. Onun da meydana gəlməsində M.F.Axundovun səyi və təşəbbüsü təqdirəlayiqdir. Onlar möhkəm dost olmuşlar. Axundovun nəvəsi, fransız dili müəllimi Aliyə xanım Sultanova xatiratında yazırdı ki, babası əlyazmalarının surətini gözəl xətt sahiblərinə çatdırardı ki, onlardan biri də Hüseyn əfəndi idi. Qayıbovun arvadı Səadət xanım ömrünün son günlərində belə Mirzə Fətəlini çox yaxşı xatırlayırdı.

1909-cu il yanvarın 30-da Müfti Mirzə Hüseyn əfəndi Qayıbov (1830-1917) Bakıda həkim işləyən oğlu Bahadır bəy Qayıbova yazırdı:

"Rəşid bəy Malixoliyanın "qələbə"sindən sonra məyusluqla özünü tapança ilə qətl elədi. Oğlu Fətəli (Mirzə Fətəli Axundovun adı qoyulan nəvəsi – ***Ş.N.***) bu günlərdə gələsidir. Rəşid bəy məni və Xanbaba xanı (M.F.Axundovun kürəkəni, polkovnik idi – ***Ş.N.***) apekon (qəyyum) təyin edibdir. Bu barədə də kağız yazıbdır.

Bu gün "Kavkaz"dakı cənab Sərdara və qrafinaya oxunan nitqinin (reçinin) müsəlmancəsini mən tərtib edib, sonra Nərimanov ruscasını Sərdara və qrafinaya hüzurlarında oxuduq. Hər ikisi çox razı qaldılar və Sərdar dedi ki, bu on beş nəfər qızların vəsaitimlə Svetaya Ninaya götürtməkləri mənim tərəfimdən bir cüzi nümunədir. Gələcəkdə gücüm çatan qədər müsəlman uşaqlarının təlim və tərbiyələrinə çalışacağam…".

Mirzə Hüseyn ədəbi-bədii irsimizin toplanmasında da böyük və əvəzsiz xidmət göstərmişdir. O, böyük dramaturqumuz M.F.Axundovun məsləhəti ilə XVIII-XIX əsr şairlərimizin əsərlərindən ibarət dördcildlik "Azərbaycanda məşhur olan şüa-

ranın əşarına məcmuədir" adlı kitabın tərtibçisidir. Burda yüz doqquz şairin əsərlərindən nümunələr toplanmışdır. Şərqşünas Adolf Berje 1867-ci ildə Leypsiqdə dərc etdirdiyi "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" və sonralar, Firidun bəy Köçərli "Azərbaycan ədəbiyyatı tarixi materialları" adlı əsərini yazarkən Mirzə Hüseyn əfəndinin dördcildlik məcmuəsindən geniş istifadə etmişlər. Mirzə Hüseyn əfəndi Qayıbzadəni yaxşı tanıyan, onun ailəsinə çox yaxın olan ədəbiyyatşünas-alim Firidun bəy Köçərli haqlı olaraq yazırdı:

"…Cənab Berjenin (Adolf) məcmuəsini tərtib edən Zaqafqaziya Müftisi Hüseyn əfəndi Qayıbzadə olubdur ki, ol cənabın şeir və ədəbiyyata artıq meylü-həvəsi var idi. Bu məcmuə dəxi əlan çox az tapılır" (F.Köçərli. "Azərbaycan ədəbiyyatı" kitabı, Bakı, 1978, 1-ci cild, səh.171).

Mirzə Hüseynin öz əlilə yazdığı dördcildlik külliyyat Respublika Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutunun Fondunda ən qiymətli bir abidə kimi saxlanılır (rəf.S, v. 1091). Külliyyatın birinci cildi 1986-cı ildə, ikinci cildi 1989-cu ildə, üçüncü cildi isə 2002-ci ildə nəşr olunmuşdur.

Qafqaz müftisi Mirzə Hüseyn əfəndi Qayıbov məktəblərin vəziyyətini yoxlamaq üçün 1887-ci il mayın 22-də Şamaxıya gəldi. Ruhani məktəblərində dərslərin keyfiyyəti ilə maraqlanıb, yoxlanış apardı. Çoxdan görüşmək arzusunda olduğu "xoşməzmun və ibrətamiz nağıl və hekayələri ana dilində tərtib edib, öz şagirdlərinə oxuyan" (F.Köçərli) məşhur şair Seyid Əzim Şirvaninin dərs dediyi şəhər məktəbinə də gəlib tanış oldu. Seyid Əzimin nikbin ruhlu qəzəlləri, dərslikləri, "Tarixi-Şirvannamə" adlı əsərindən oxuduğu ayrı-ayrı hissələr Mirzə Hüseyn əfəndi Qayıbzadəni heyran qoydu. Seyid Əzimin köməkliyi ilə Qayıbov, Nişat Şirvaninin, Ağa Məsih Şirvaninin, Ağa Bağırın, Əliqulu bəy Köçməzin, Zülali Şirvaninin, Molla Qədir Nacinin, Vaiz Şirvaninin və başqa şirvanlı şairlərin əsərlərini gələcək məcmuəsi üçün topladı.

Şair "Qəsideyi-türki" mənzuməsində əleyhdarlarından, şəxsi məktəbini bağlatmaq istəyənlərdən əqidə, inam dostu olan Mirzə Hüseyn əfəndi Qayıbzadəyə acı-acı şikayətlənirdi:

*Özün agahsan hər bir kəsin felü ədasından,*
*Bilirsən, kim sədaqət etdi, kim əhli-riya gəldi.*
*Dağıtdı məktəbimi sədri-pakun sui-tədbiri*
*Təmlə hər tərəf kim, atdı ox tiri-xəta gəldi.*

Müfti H.Qayıbovun Şirvana gəlişini alqışlayan Seyid Əzim dostuna həsr etdiyi səksən dörd misralıq qəsidəsində onu ilk dəfə məktəb bina edən peyğəmbər adlandırır:

*Hüseyni-paktinət, müftiyi-Qafqaz kim, anın*
*Vücudundan bu torpağə xəvasi-kimya gəldi.*
*Sanırsan bir yədi-qüdrətdü, oldu qeybdən zahir,*
*Bu Qayıbzadə zahir oldu, dəhrə yüz cila gəldi.*
*Hüseyn namında çün məşhur idi imdadə yetməklik,*
*Vilayət mülkünün şahı "vəliyyü-innəma" gəldi.*
*Vücudun oldu çün öz ülfətinlə mürşidi-kamil,*
*Sənə tədrisdə İdrisdən yüz mərhəba gəldi.*

"Seyid Əzimin Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" adlı toplusundakı əsərlərini H.Qayıbov bilavasitə şairin özündən almışdır. Bu, Seyid Əzim ilə Müfti əfəndi arasındakı görüşün ilk faydalı nəticələrindən idi. İkincisi, "Qəsideyi-türki" mənzuməsində şairin sevimli məktəbdən ayrılması ilə əlaqədar olaraq keçirdiyi həyəcan və iztirablar H.Qayıbova təsirsiz qalmazdı. Çalışqan müəllimin göstərdiyi səylər Qayıbovun da nəzərini cəlb etmişdi. Təsadüfi deyil ki, həmin görüşdən bir qədər sonra müəllim Seyid Əzimin medalla təltif edilməsi məsələsi ortaya atılır. Bu təklifin irəli sürülməsində ilk təşəbbüskarlardan biri də Hüseyn əfəndi Qayıbovun olduğuna

qətiyyən şübhə ola bilməz" (S.Hüseynov. "Seyid Əzim Şirvaninin yaradıcılıq yolu", Bakı, 1977, səh.56).

Mirzə Hüseyn əfəndi Qayıbzadə 1830-cu ildə Qazax qəzasının Salahlı qəryəsində anadan olmuşdur. 1917-ci il fevralın 20-də vəfat edən Mirzə Hüseyn Tiflisdə böyük məsləkdaşı Mirzə Fətəli Axundovun yanında "Nəbatət bağı"nda dəfn olunmuşdur.

Fevralın 21-də Əlahəzrət Qafqaz canişini Qafqaz Maarif Sərdarının popeçiteli N.F.Rudolfa əmr göndərmişdir ki, görkəmli maarifçi, din alimi Müfti Mirzə Hüseyn əfəndi Qayıbzadənin vəfatı münasibəti ilə Tiflis və Bakı quberniyalarındakı təhsil müəssisələrində dərslər dördgünlüyə dayandırılsın. Qori şəhərindəki Seminariyanın şagirdləri də Tiflisə gətirilib Qayıbzadənin son mənzilə yolasalma mərasimində iştirak etsinlər.

Bakıdan "Nəşri-Maarif" Cəmiyyətinin sədri Hacı Zeynalabdin Tağıyev, "Səadət" İlahi Qüvvələr Cəmiyyətinin sədri Axund Hacı Abdulla Rəhim Hadızadə, "Nicat" Cəmiyyətinin sədri Mirzə Əsədullayev və başqa görkəmli şəxslər Mirzə Hüseyn əfəndi Qayıbzadənin yas mərasimində iştirak edib, ailəsinə başsağlığı veriblər.

***Müfti Mirzə Hüseyn əfəndi Qayıbzadə vəsiyyətində demişdir ki, tabutumun üzərinə əklil qoymayın, təmtəraqlı mərasimimə yığılan pulları xeyriyyə və məktəb işlərinə sərf edin. Onun vəfatı ilə əlaqədar "Kaspi", "Kavkaz", "Tərcüman" və başqa qəzetlər yazılar vermiş, mütərəqqi ziyalılar matəm saxlamışlar*.**

Dövrünün çox görkəmli şəxsiyyəti olan Mirzə Hüseynin sağlığında məşhur şairlər onun şərəfinə şeirlər yazmışlar. Seyid Əzim Şirvani (1835-1888), Mirzə Ələsgər Növrəs (1836-1912), şuşalı Mirzə Rəhim Fəna (1841-1929), Qobustan İmamı Molla Zəkəriyyə Qədir Əfəndizadə və başqaları.

Mirzə Hüseyn əfəndi Qayıbzadənin müasiri görkəmli şair Abbas ağa Nazir (1849-1919) də onun maarifçilik və elmi fəaliyyətinin əlliilliyi münasibətilə 43 beytlik "Vücudun fəxri-insandır" adlı şeir yazmışdır. 1908-ci ildə görkəmli alim M.H.Qayıbzadənin

şərəfinə yazılan bu şeir indiyədək oxucu üzü görməmiş, alimin arxivində qorunub saxlanılmışdır.

Azərbaycan Respublikası Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivində, akademik Heydər Hüseynovun şəxsi fondunda general Əli ağa Şıxlinskiyə məxsus çoxlu sənəd və müxtəlif materiallar var.

Beş yüz on dörd nömrəli fondda general Əli ağa Şıxlinskinin bir dəftəri də saxlanılır. Qara meşin üzlü zabit dəftərində generalın öz dəsti-xəttiylə yazdığı şeirləri, bədii parçaları, tərcümə və qeydləri var. Həmin dəftərin 8-ci səhifəsində 1908-ci il fevralın 6-da Rəhim bəy Qayıbovun Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbova göndərdiyi məktubun mətninə rast gəldim.

"Yanvarın otuz birində azərbaycanlıların nəfinə səmərəli fəaliyyətimizin 50 illiyi tamam oldu. Sizin həmişə həyat şüarınız belə olmuşdur: hər şey xalq üçün, özün üçün isə heç nə. Siz hazırkı şəraitdə görüləsi mümkün olan bütün işlərin öhdəsindən gəlmisiniz. Cəsarətlə deyə bilərsiniz ki, nahaq yerə yaşamamışam. Çox faydalı əməyinizin 50 illiyi münasibətilə təbrik edir, Sizə hələ bundan sonra da yaradıcılıq nailiyyətləri arzu edirik".

Mirzə Hüseyn əfəndi Qayıbovun əvəzsiz maarifçilik xidməti müasirlərinin nəzər-diqqətini həmişə cəlb etmişdir. XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaratmış şair Abbas ağa Nazir fəxrlə yazırdı:

*Var idi bir müəllimi-mümtaz,*
*Sözü əlan Müftiyi-qafqaz,*
*Şəxsi-qabil hünərvər adı Hüseyn,*
*Əsl ustadı həm müəllimi-eyn.*

*Hücrədə əyləşib sabah-axşam,*
*Vəxti tədrisə sərf edərdi müdam,*
*…Müxtəsər, ol müəllimi-fazil,*
*Elmi-tədrisdə mahiru-kamil.*

Mirzə Hüseyn əfəndi din alimi olduğuna görə, sovet dövründə onun haqqında var səsimizlə danışa bilməmişik. Tədqiqatçılar, ədəbiyyatşünaslar, tarixçiləri ondan bol-bol bəhrələnsələr də onun xidmətini danmışlar. Təkcə məşhur ədəbiyyatşünas-alimimiz Firidun bəy Köçərli (1863-1920) onun əvəzsiz xidmətini yüksək qiymətləndirmişdir. Biz də bu gün bəyənmədiyimiz, yetmiş il tənqid atəşinə tutduğumuz Çar hökuməti Mirzə Hüseyni 1878-ci ildə "Qızıl Xaç" medalı ilə, Yaxın Şərq xalqları üçün dərsliklər müəllifi olduğuna görə 1884-cü ildə İranın "Şire-Xorşid" ordeni ilə, 1871-ci ildə qeyri-xristianlar üçün təsis olunmuş üçüncü dərəcəli "Müqəddəs Anna", 1876-cı ildə ikinci dərəcəli "Müqəddəs Stanislav", 1879-cu ildə ikinci dərəcəli "Müqəddəs Anna", 1883-cü ildə dördüncü dərəcəli "Müqəddəs Vladimir" ordenləri ilə və dəfələrlə pulla mükafatlandırılmışdır.

# İLK HƏRBİ ŞƏFQƏT BACISI
## (Nigar xanım Şıxlinskaya)

***Mən yalnız bir qadının mehriban nəvazişilə yaşayıb ölmək istərdim.***

***Jül Renar***

*Dadıma çatmışdı şəfqət bacısı,*
*Hörüklü saçları dəydi üzümə.*
*Kövrəldim. Qanımda ağrı, acısı,*
*Dedim: "Burax məni, özünü üzmə,*
*Qoy qalıb can verim, allah xətrinə…"*
*Elə məyus-məyus baxdı ki, mənə,*
*Daha dinlənmədim. Yaramı yudu,*
*Sonra da ehmalca onu sarıdı.*

***Yakob Polonski***[1]

Hər dəfə Nigar xanım Şıxlinskayadan söz düşəndə istər-istəməz Qafqaz tarixinin mahir bilicisi Vasili Veliçkonun "Nəciblik azərbaycanlıların qanındadır, onlar təbiət etibarilə xoşxasiyyət və rəhmlidirlər, mərd və alicənabdırlar" sözlərini xatırlayıram.

Nigar xanımın ömür yolu ilə tanış olanda görürsən ki, nəciblik sözü onun təbiətinə xas olan xüsusi bir keyfiyyət imiş. Bu nəcib və xoşxasiyyət qadınla iyirmi iki il ömür sürmüş məşhur sərkərdəmiz Əli ağa Şıxlinski yazır:

"1909-cu il oktyabrın 27-də qırx dörd yaşında ikən mən Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbovun qızı Nigar xanımla evləndim… Bu dəyişiklik mənim həyatımı işıqlı bir yola, parlaq səadətə yönəltdi. Bir yerdə keçirmiş olduğumuz iyirmi iki illik

[1] Şeiri şair Səyavuş Məmmədzadə tərcümə edib.

həyatın aydın səmasında bir bulud ləkəsi belə görünmədi. Fitrən istedadlı olan, yaxşı təhsil görmüş, mülayim xasiyyətli Nigar xanım ailə səadəti üçün yaradılmış bir qadın idi. Mən bu səadətə tam mənası ilə nail oldum. Lakin 1931-ci il avqustun on beşində Nigar xanımın ölümü mənim üçün ən ağır zərbə oldu. Mənim hər şeyim: həm səadətim, həm də səhhətim onunla getdi".

Nigar xanım 1871-ci il oktyabrın 10-da Tiflisdə ziyalı bir ailədə dünyaya gəlmişdir. Atası şeir-sənət xiridarı, məşhur din alimi Mirzə Hüseyn, anası Səadət xanım isə Qafqaz Qadınları Xeyriyyə Cəmiyyətinin fəxri sədri idi.

İlk təhsilini evdə ata-anasından və məşhur riyaziyyatçı Əbdülkərim ağa Qayıbovdan alan Nigar xanım Tiflisdəki Nücabə Qızlar İnstitutunu 1889-cu ildə qızıl medalla bitirmişdir[1]. Fransız və rus dillərində sərbəst danışan Nigar xanım, ərəb və fars dillərini də kamil bilirdi.

Zaqafqaziya müftisinin qızı Nigar xanım Qayıbova qızıl medalla, Dilşad xanım Axundova və Fərruxa xanım İsmayılova gümüş medalla təltif olundular.

Dilşad xanım böyük dramaturq M.F.Axundovun qaynı, polkovnik Mirzə Mustafa Axundovun (1835-1903) qızı idi.

Fərruxa xanım isə şamaxılı Ağaəli Əkbər İsmayılovun qızı idi. Sonralar Fərruxa xanım polkovnik Şahzadə Xancan xan Qacarın həyat yoldaşı oldu.

Bahadır bəy Qayıbovun akademik Heydər Hüseynova 1946-cı il 30 sentyabr tarixli məktubu:

"***Hörmətli Heydər Nəcəfoğlu!***

Əlbəttə, Sizin unudulmaz Əli ağa və Nigar bacı haqqındakı yazınız həmişə çox uğurlu alınır. Bəli, onları unutmaq olmaz: onların hər ikisi öz Vətənini və xalqını səmimi-qəlbdən sevirdilər.

---

[1] "Tiflisskiy listok" qəzeti 1889-cu il 3 iyun (№124) tarixli sayında yazır ki, ötən həftənin cümə axşamı Zaqafqaziya Qızlar İnstitutunun təntənəli buraxılışı oldu. İnstitutu bitirən 194 nəfər müdavimin 17 nəfəri ali təltifata layiq görüldü. Təltif olunanlar arasında müsəlman qızları da var – ***Ş.N.***

Onlar yalnız təhsil aldığı rus dilini deyil, öz doğma ana dilini də əla bilirdilər.

Heç vaxt unutmaram ki, onların hər ikisinə şəxsən ana dilində təhsil verən, həmçinin Tiflisdə, Qoridə – Müəllimlər seminariyasında yüzlərcə azərbaycanlı uşağını oxudan rəhmətlik atam səbəbkardır.

Rəhmətlik Nigar bacı atamdan daha çox şey əxz etmişdir: o yetkinliyində, nəinki İran klassikləri Sədi, Firdovsi, Hafiz, Cami və başqalarını oxumuş, həmçinin bütün Azərbaycan şairləri – Xaqani, Nizami, Füzuli, Vaqif və başqalarını mütaliə etmiş, ərəb dilini öyrənmiş və ərəb ədəbiyyatı ilə yaxından tanış idi. Heyf ki, Siz onunla tanış deyildiniz – o, həqiqətən rus dili bir yana, bizim və fars ədəbiyyatının bilicisi idi".

1918-ci ildən Bakıda yaşayan Nigar xanım "Yeni fikir" qəzetində Azərbaycan ədəbiyyatına dair silsilə məqalələri ilə çıxış etmişdir. O, 1923-cü ildə "Proletar mədəniyyəti" şüarı altında klassik irsimizə xor baxan, dilimizin saflığını korlayan cığırdaş qələm sahiblərini cəsarətlə tənqid edir və Nizami Gəncəvinin nə üçün farsca yazmasının tarixi səbəblərini elmi izahını əsaslı faktlarla şərh edir, Nizaminin azərbaycanlı olmasına şübhə edənləri kütbeyin, savadsız adlandırır. O, Nizaminin azərbaycanlı olmasını yazan ilk tədqiqatçılardan biridir.

***Nigar xanım Şıxlinskayanın "Yeni fikir" qəzetinin doqquz oktyabr 1923-cü ildə dərc etdirdiyi "Azərbaycan ədəbiyyatına dair" irihəcmli elmi məqaləsində ədəbi problemlərin həlli araşdırılır.***

O yazır: "Yeni fikir" qəzetinin keçən nömrəsindən birində "Ədəbiyyat necə xidmət etməlidir?" ünvanlı məqaləsində Hüseyn bəy Hacınski cənabları deyir ki, "bizim dahi şairlərimiz hələ gəlməyiblər. Fars tayfasının dahiləri: Firdovsi, Sədi, Hafiz, Ömər Xəyyam… yazdıqları ədəbiyyat ilə dünyada məşhur olmuşlar. Bizim bunlar kimi heç bir şairimiz olmayıbdır. Olsa da Molla Rumi, Şeyx Nizami kimi fars dilində gözəl əsərlər qoyub. Öz dillərinə məhəl qoymayıblar. Odur ki, biz onlara türk şairi

deyib fəxr etməməliyik. Farsdan, ərəbdən qafiyə düzəldib dilimizi xan-xarab edərək mədh və ya həcv yazan ədib ola bilməz. İndiki şairlərimizdən Abdulla Şaiq, Hüseyn Cavidə az-çox ədib demək olar, ancaq bunlar dillərini molla dili deyil, camaat dili yapmalı, şeirlərini osmanlı türkcəsilə deyil, Azərbaycanın şivəsinə uyğunlaşdırmalıdırlar”.

Hüseyn bəy Hacınski cənabları deyir ki, “bizim dahi şairlərimiz hələ gəlməyiblər. Biz bu cür ədibləri, şairləri gözləyirik. Onlar bundan sonra gələcəklər”.

Nigar xanım Şıxlinskaya, Hüseyn bəy Hacinskiyə irad tutaraq sonra fikrini belə əsaslandırır:

“İstədiyiniz şair, ədiblər gələcəklərmi – bunu bilmək çətindir. Bu halda şairlərimiz, ədiblərimiz vardır və keçmişdə də var idilər. Bunu yəqin deyə bilərik. Abdulla Şaiq və Hüseyn Cavid cənabları, əlbəttə ki, ədibdirlər və təbii-şairanələri də vardır…”

Nigar xanım məqalələrində bolşevik fitvasına uyanlara, klassik irsimizi inkar edənlərə, zəngin Azərbaycan dilini mükəmməl bilməyənlərə məsləhət verərək yazırdı:

“…Həmişə və hər yerdə camaatın söylədiyi dildə yazmaq olmaz. Hər millətin və camaatın növbənöv şivəsi vardı, amma ədəbi dili birdir. Yazan özü də şivədə danışsa da, yazdığı ədəbi dildə olmalıdır. Dilimizdə olan ərəb, fars sözlərini mümkün qədər əvəz edib Azərbaycan sözlərini işlətmək lazımdır. Çünki öz dilimizdə Azərbaycan sözləri çoxdur. Ərəb və fars sözlərini ancaq azərbaycanca əvəzi olmadıqda izahlarla işlətməliyik.

Dilimizdə köklənmiş ərəb, fars sözləri işlətmək olar, çünki bunları oxumamışlarımız da bilirlər. Rus dilində də əcnəbi sözləri vardır. Başqa dillərdən iqtibas etməmiş heç bir dil tapılmaz. Osmanlı şivəsini bilmək lazımdır, lakin bizim Azərbaycan şivəsini bütün-bütünə tərk etmək böyük səhv və xətadır, çünki osmanlı türkcəsindən isə bizim Azərbaycan türkcəsində əsl türk sözləri artıqdır...

Şeyx Nizami fars dilində gözəl əsərlər qoyub, öz dilinə məhəl qoymuyubdur – demək yersizdir, çünki Şeyx Nizaminin farsca

yazmağı türkcəyə məhəl qoymamağından əmələ gəlməyibdir, səbəbi başqadır. Deyil ki, Şeyx Nizaminin vaxtında, hətta qırxəlli il bundan müqəddimədə farsicə yazan çox idi. Rəsmi kağızlar farsicə yazılırdı, bir möhtərəm kimsəyə məktub yenə də farsicə olurdu. Fars dilinin bizim türklər arasında şöhrəti təbii şeydir. Tarixçə məlumdur ki, mədəniyyətcə geridə olan millət, hətta zor ilə məğlub etdiyi mədəni millətlərin mədəniyyətinə tabe olurlar. Məsələn, qədim zamanlarda rumlular yunanlara qalib olub. Yunanıstanı fəth edəndə külliyyatı əsir götürmüşdülər. Bununla belə, yunan mədəniyyəti onlarınkından artıq olduğuna görə əsirlərinin mədəniyyətinə məğlub oldular. Rumlular başladılar yunan dilini və ədəbiyyatını öyrənməyə... Yunan dilinə və ədəbiyyatına olan şövq o dərəcəyə çatdı ki, rum şair və ədibləri öz dillərini qoyub, yunanca yazdılar... Xeyli müddətdən sonra rumlular yavaş-yavaş yunanca yazmağı tərk edib, öz dillərində yazdılar... Türklər dəxi haman bunlar kimi olublar.

Zorən farslara qalib olmuşlarsa da özlərindən artıq mədəni olan farslara mədəniyyətcə məğlub olublar: farsca yazmaq bir adəti şey olubdur və bu hal uzun müddət davam edibdir. İran ilə həmsərhəd və bir vaxt İrana tabe olan Azərbaycanda, hətta İrandan çox uzaqda olan Krımda və Türkiyədə dəxi şairlərin farsca yazılmış əsərləri az deyil. Zənn olunmasın ki, türk dili vüsətin deyil, elə fikir var ki, onu demək üçün farscada bir tək söz olduğu halda türkcədə iki-üç söz var ki, bir mənada olub və hər biri bir başqa dərəcəni göstərir: məsələn: *ağlamaq* – sıtqamaq, içinmək, sınqarmaq... Yuxarıda dediyimizdən məlum olur ki, Şeyx Nizaminin farsca yazmağı türkcəyə məhəl qoymamaq deyil, zəmanəyə tabe olmağındandır.

Keçmişdə ədiblərimiz və şairlərimiz çox olubdur. Onların əsərlərinin barəsində ətraflı, müfəssəl yazmalı olsaq, neçə cild kitab yazmaq lazımdır.

Mərhum Müfti əfəndi Qayıbzadə Qori seminariyasında müəllim işlədiyi zamanında Azərbaycan şairlərinin şeirlərini yığıb böyük bir məcmuədə əmələ gətirmişdir. Məcmuə dörd bö-

yük cilddir. Bütün Azərbaycan ədəbiyyatını göstərən məcmuə pul olmadığına görə basılmamış qaldı. O məcmuə basılıb camaat arasında yayılmış olsaydı, uşaqlarımız və böyüklərimiz görərdilər ki, biz azərbaycanlıların da şairləri, ədibləri olublar və elə şair və ədiblər ki, onların vücudu ilə fəxr etməkdə haqqımız var".

* * *

1948-ci il noyabrın 28-də gecə saat ikidə dünyadan köçən dahi bəstəkar Üzeyir bəy Hacıbəyovun pianosunun üstündə bitməmiş bir not qaldı. Üzeyir bəy general Əli ağa Şıxlinskinin altıbəndlik "Mənim" şeirinin iki bəndinə romans yazmışdı.

1912-ci ildə Çarskoye-Seloda yazılan bu şeirdə general sonsuz bir məhəbbətlə sevdiyi Nigarını tərənnüm edirdi:

*Ey sevdiyim, ey dilrüba,*
*Səbrim, qərarımsan mənim.*
*Səd mərhəba, səd mərhəba,*
*Nə türfə yarımsan mənim.*

*Görən səni, ey nazənin,*
*Deyər pəh-pəh, səd afərin!*
*Dünyada mislin yox, yəqin*
*Əcəb dildarımsan mənim!*
*Gözəl zahirdə surətin,*
*Gözəl batin, təbiətin.*

*Gözəl, hər işdə qeyrətin,*
*Namusum, arımsan mənim.*
*Mənim baharda bülbülüm,*
*Mənim qızılca sünbülüm.*
*Gülşənlərdə zərif gülüm,*
*Bağlarda barımsan mənim.*

*Səni ziyarət eylərəm,*
*Sənə ibadət eylərəm.*
*Həm çox sədaqət eylərəm,*
*Çün sən Nigarımsan mənim.*

*Mən aşiqin adı Əli,*
*Verdin bu dərsi, bilməli.*
*Eşqindən olmuşam dəli,*
*Sən ahü zarımsan mənim.*

Nigar xanımın fransız dilini mükəmməl bilməsi haqqında mənim bildiyim iki olmuş əhvalat var. Onlardan birini general Əli ağa Şıxlinski xatirələrində ötəri də olsa yazıb.

…1912-ci ilin yayında Çarskoye-Seloya gələn Fransa hərbi nümayəndə heyətinin başçısı general Dezavye general Əli ağa ilə səmimi münasibətdə olur. Bir gün Şıxlinski onu evinə qonaq dəvət edir.

Fransızca çətinliklə danışan Əli ağaya Nigar xanım da arabir kömək edirmiş. Nigar xanımın fransız dilini incəliklərinə qədər bilməsi general Dezavyeni heyrətə gətirdi. O, maraqla soruşur ki, neçə il Parisdə yaşamısınız. Onda Nigar xanım gülümsünüb deyir ki, heç Parisin üzünü görməmişəm. Heç vaxt Rusiya ərazisindən kənara çıxmamışam. Ona təşəkkür edən general Dezavye demişdir:

– Məni heyrətə gətirdiniz, madam, öz gözəl, təmiz Paris ləhcənizlə…

İkinci əhvalatı isə mənə on il əvvəl Nigar xanımın yaxın qohumu, mərhum Zülfüqar Qayıbov danışmışdı.

…Bir dəfə anası Səadət xanımla doğma Salahlı kəndindən Tiflisə gedən Nigar Saloğlu stansiyasında qatar gözləməli olur. Bu vaxt Qarayazı çölündən ekspedisiyadan qayıdan iki fransız da qatarın gəlməsini gözləyirmiş. Fransızlardan biri o birinə milli geyimdə olan Nigar xanımı göstərib deyir:

– Ora bax, gör türk qızı necə gözəldir, amma heyf ki, çox zövqsüz geyinib.

Fransızların Nigara baxıb nəsə dediklərini hiss edən anası Səadət xanım:

– Qızım, – deyir, – onlar deyəsən səndən danışırlar?

– Ana, dinmə, onlar məni və geyimimi təhqir etdilər. Eybi yoxdur, bu saat cavablarını alarlar.

Qatar gəlir. Minirlər. Bir xeyli gedəndən sonra Nigar xanım çölə baxıb fransızlardan təmiz fransız dilində soruşur:

– Cənab, zəhmət olmasa, deyin görək saat neçədir, hələ Naftulluğa çoxmu qalır?

Heyrətdə qalan fransızlar özlərini itirirlər. Dönə-dönə Nigar xanımdan və anasından üzr istəyirlər.

Nigar xanım xalqımızın ilk hərbi şəfqət bacısıdır.

Birinci Dünya müharibəsi başlananda general Əli ağa Şıxlinski Çarskoye-Selodakı Artilleriya Zabitləri Məktəbində rəis müavini idi. Döyüşən orduya gedən müdavimlərin tədris binası, kazarmaları (qışlaları) yaralı əsgərlər üçün hospitala çevrilir. Zabit arvadları yaralı əsgərlərə tibbi yardım göstərmək üçün "Qırmızı Xaç Cəmiyyəti" təşkil edirlər. Nigar xanım həmin cəmiyyətə sədr seçilir.

İmperatorun "Qırmızı Xaç Cəmiyyəti"nin səlahiyyətli nəzarətçisi polkovnik Velçinski bir yoxlama zamanı demişdir ki, Nigar xanım Şıxlinskayanın başçılıq etdiyi hərbi xəstəxana hazırkı müharibədə fövqəladə təşkil olunmuş bütün "Qırmızı Xaç Cəmiyyəti" xəstəxanaları arasında ən yaxşısıdır. Onu da xatırladaq ki, hərbi xəstəxananın rəsmi adı "Topçu zabitləri məktəbi qadın komitəsinin xəstəxanası" olmasına baxmayaraq, hörmət əlaməti olaraq hamı ona "Şıxlinskayanın xəstəxanası" deyirmiş.

Həmin illəri xatırlayan general Əli ağa Şıxlinski yazır:

– Mənim arvadım Nigar xanım həmişə xəstəxanada olurdu. Komitənin sədrliyi vəzifəsini ifa etməkdən başqa əsgərlər üçün rusca, Kazan tatarlarının kazak və özbəklərin dillərində evlərinə məktub yazırdı. Əsgərlər onu ana kimi son dərəcədə sevir və

onu "mamaşa" – deyə çağırırdılar; tez-tez bu xəstəxanaya getdiyimdən mənə də "papaşa" deyirdilər.

1984-cü ilin oktyabrında Sankt-Peterburqdakı Saltıkov-Şedrin adına kütləvi kitabxananın arxivində saxlanan "Artilleriya Zabitləri Məktəbinin Xəbərləri" jurnalının səhifələrində Nigar xanım haqqında xeyli maraqlı faktlara rast gəldim. Jurnalın 1914-cü il oktyabr (30) nömrəsində (səh. 60-61) yazılıb ki, Nigar xanım Şıxlinskaya "Qadın Xeyriyyə Cəmiyyəti"nin sədri seçilib. Digər bir səhifədə isə daha qırx belə qadının adı, familiyası dərc edilib. Bunlar "Qadın Xeyriyyə Cəmiyyəti"nin üzvləri Nigar xanımın tabeliyində işləyənlərdir. Daha sonra jurnalın yetmiş səkkizinci səhifəsində Nigar xanımın "Dul qadınlar, yetim uşaqlar və aşağı rütbəli ailələr üçün" adlı müraciət-məqaləsi dərc olunub.

Məqalədə göstərilir ki, hökumət müharibədə ailə başçısını itirənlərə yardım verib, təqaüd kəsməlidir…

* * *

Sankt-Peterburqun və onun ətraf şəhərlərinin havasını bircə gün yağmursuz təsəvvür etmək çətindir. Çətiri olmayanlar Lisey-muzeyindən çıxan kimi qaçıb özünü avtobusa salırdı. Navalçalardan tökülən aramsız yağış mərkəzi küçənin asfaltını yuya-yuya axıb səssiz gölə qarışırdı. Gün günortadan keçmişdi. Nə hava açılırdı, nə də yağış kəsirdi. Buna baxmayaraq, dəstə-dəstə, ikibir-üçbir şəhər bağını, Yekaterina sarayının ərazisini başı çətirli gəzənlər azalmadı.

Artilleriya zabitləri məktəbini və onun arxivinin yerini soruşdum.

Lisey-muzeydəki növbətçi qız dedi ki, arxivi deyə bilmərəm, amma məktəbin binası durur. Arxiv üçün şəhər muzeyinə müraciət edin. Park küçəsi ilə gedin, muzey yolun üstündədir.

Muzeydə bələdçi qız dedi ki, Əli ağa Şıxlinskinin adını birinci dəfədir eşidirəm. Direktorumuz məzuniyyətdədir, amma bir yana getməyib, şəhərdədir. O, keçmiş Çarskoye-Selo və indiki Puşkin şəhəri haqqında kitab yazır, bilməmiş olmaz. İstəyirsiniz,

ev telefonunu verim, zəng edib soruşun. Məmnuniyyətlə razı oldum. O, "buyurun" deyə ev telefonu, ad və familiya yazılmış balaca bir kağızı mənə verdi.

Telefona Nina Aleksandrovna Trofimovanın özü gəldi. O, Bakıdan olduğumu biləndə:

– Allah xatirinə, heç bir izahat, təqdimat lazım deyil, vaxtınız varsa, gözləyin, indi gəlirəm.

Yarım saat keçər-keçməz Nina Aleksandrovna gəlib çıxdı.

– Bağışlayın, – dedi, – bir az gecikdim, lətifəsi sizdən uzaq, bizim şəhərin yağışı üzlü qonaq kimidi, gəldi, getmək bilmir. "Bakı" sözünü eşidəndə sevindim. Bakılılara, ümumiyyətlə, azərbaycanlılara böyük hörmətim var.

Ürəyim fərəh hissiylə döyündü. Uzaqda yağışlı, soyuq bir havada xalqımızın haqqında eşitdiyim xoş söz canıma hərarət, gözümə nur gətirmişdi.

– Buyurun, eşidirəm, mənə dair qulluğunuz? – Nina Aleksandrovna mehriban gözlərini mənə dikdi.

Mən nə məqsədlə gəldiyimi izah elədim.

O, gülümsəyə-gülümsəyə dedi:

– Əli ağa Şıxlinski general olub, özü də elə-belə general yox, ordudakı misilsiz xidmətinə görə artilleriyanın "allahı" sayılıb. Mən onun haqqında eşitmişəm də, oxumuşam da. Amma çox təəssüf ki, onunla bağlı muzeyimizdə heç nə yoxdur, təkcə ondan yox, heç onun işlədiyi məktəbdən də bir sənəd, fotoşəkil qalmayıb. Məndə bir kitab var, 1911-ci ildə Sankt-Peterburqda çap olunub – "Çarskoye-Selo", müəllifi də Sergey Nikolayeviç Velçikovskidir. O kitabı gətirim baxaq.

Kitabın bir yerində polkovnik Şıxlinskinin adı çəkilir. Məktəb haqqında olan faktları dəftərçəmə köçürdürəm. Arxiv, haqqında isə yenə də heç nə əldə edə bilmirəm.

Nina Aleksandrovna soruşur:

– Yaxşı, qonaq, belə yağışda yolun haradır?

– Məktəbə baxmaq istəyirəm.

– Gedək göstərim, mənim evim də o istiqamətdədir.

Biz məktəbin həyətinə çatdıq. İndi burada "Puşkin şəhər Ali Radiotexnika Məktəbi" yerləşir. Bazar günü olduğundan rəhbər işçilərindən heç biri yoxdur. Nina Aleksandrovna xahiş edib muzeyi açdırdı. Təəssüf ki, general Əli ağa Şıxlinski haqqında heç nə tapa bilmədik. Muzey əsasən 1940-cı ildən bu günlərədək olan eksponatlar əsasında qurulub. Biz siyasi işlər üzrə rəis müavini, keçmiş məktəb zabitlərinin yaşadığı binanın yerini göstərməyi xahiş etdik. O, ikimərtəbəli bir binanı göstərdi.

"Burada məktəbin rəisi, müavinləri, əlbəttə, ailələri ilə birlikdə yaşayıblar". "Məktəb müavininin evi". Deməli, Şıxlinski həyat yoldaşı Nigar xanımla burda yaşayıb. 1906-cı ildən ta 1914-cü ilin yayına kimi isti ocağı, doğma evi bura olub. Burada o, gecədən keçənə kimi qərib-qərib yanan lampa işığında elmi-hərbi məqalələrini yazıb, onu bütün dünyaya tanıdan məşhur "Şıxlinski üçbucağını" tərtib edib. 1912-ci ildə Nigar xanım qışın bir ayını Tiflisdə atası evində olanda general Əli ağa Şıxlinski qəribsəyərək yazmışdı:

*Səni ziyarət eylərəm,*
*Sənə ibadət eylərəm.*
*Həm çox sədaqət eylərəm,*
*Çün sən Nigarımsan mənim.*

*Mən aşiqin adı Əli,*
*Verdin bu dərsi, bilməli:*
*Eşqindən olmuşam dəli,*
*Sən ahü zarımsan mənim.*

Burada, bu evdə general Şıxlinskinin həyat yoldaşı Nigar xanımın bir vaxt bişirdiyi dadlı-tamlı Şərq xörəkləri qraf Baransevi, general Sinitsını, Barsukovu, knyaz Sergey Vasilyeviçi heyran qoyub…

1914-cü ildə məktəbi yoxlamağa gələn qraf Baransev üzünü general Şıxlinskiyə tutub deyir:

– Hamı Sizi tərifləyir. Həyat təcrübəmə görə əgər bir adamı tərifləyirlərsə, deməli, burada bir fırıldaq var.

On gün məktəb heyətinin işilə yaxından tanış olan yoxlama qrupu heç bir qüsur tapa bilmir. Qraf Baransev Əli ağa Şıxlinskiyə nümunəvi rəhbərliyinə təşəkkür etmək üçün general Qaitinovla onun evinə gəlir.

"Qraf Baransev gəldi. O, son dərəcə mehriban idi. Arvadımla tanış oldu, onun əlini öpdü, sonra general Qaitinova müraciət edərək dedi:

– Mən indi inandım ki, belə bir köməkçisi olan hər cəhətdən xatircəm ola bilər.

Görüşüb ayrılarkən qraf Nigar xanıma dedi:

– İzin verin, ərinizi qucaqlayım.

Arvadım ona cavab verdi:

– Nəinki icazə verirəm, ona qarşı səmimiyyətinizə görə təşəkkür edirəm.

Qraf məni qucaqlayıb üç dəfə öpdü".

Çarskoye-Selo xatirələri general-mayor, hərb elmləri doktoru professor Yevgeni Barsukovun da qəlbində unudulmaz izlər qoymuşdu: "1905-ci ildən 1914-cü ilə kimi mən həmişə topçu – general-müfəttiş tərəfindən taktika dərsləri vermək və qrupların təcrübə atışlarına rəhbərlik etmək üçün topçu zabitləri məktəbinə göndərildim. İşi ilə yaxından tanış olduğuma görə, təsdiq edə bilərəm ki, Əli ağa Şıxlinski məktəbi ali akademik topçuluq təhsili görmüş bütün ştatlı rəhbərləri arasında ən görkəmlisi və ən istedadlısı idi…

Əli ağa Şıxlinski arvadını sonsuz bir məhəbbətlə sevirdi, övladı yox idi. Qumara nifrət edirdi, heç bir zaman spirtli içki içməzdi. Pulla kart və başqa bir oyun oynamazdı, çox mehriban və qonaqpərvər idi. Yoldaşlarını tez-tez ləzzətli plova qonaq edərdi…".

Mən bütün bunları Nina Aleksandrovnaya və siyasi işlər üzrə müavinə danışdım. Onlar məni heyranlıqla dinlədilər. Hiss edir-

dim ki, bəzi faktlara şübhə ilə yanaşırlar. Bəlkə ona görə də Nina Aleksandrovna dözə bilməyib soruşdu:

– Məgər general Şıxlinskinin həyat yoldaşı rus olmayıb?

– Xeyr, – dedim, – öz əmisi qızını – Nigar xanım Mirzə Hüseyn qızı Qayıbovanı alıb. Buyurun, baxın, bu da fotoşəkli. Tiflisdəki Nücabə Qızlar İnstitutunda oxuyarkən çəkilib, 1889-cu ildə çəkdirib, həmin institutu qızıl medalla bitirməsi münasibətilə, yaxasındakı banta fikir verin. İnstitutu əla qurtaranların hamısı belə bir bantla təltif olunurdu.

Danışdıqca hiss edirdim ki, kursantları da, Nina Aleksandrovnanı da, siyasi işlər üzrə müavinin özünü də Nigar xanımın sonrakı taleyi, daha doğrusu, inqilabdan sonrakı fəaliyyəti daha çox maraqlandırır. Ona görə də Əli ağa Şıxlinski haqqında söhbətimə yekun vurub, Nigar xanım haqqında bildiklərimi onlara nəql etdim.

Hələ inqilabdan əvvəl Tiflisdə təşkil olunmuş "Qafqaz Qadınlarının Xeyriyyə Cəmiyyəti"nə ömürlük üzv seçilən Nigar xanım Azərbaycan qadınlarının azadlığı və təhsili ilə xüsusi məşğul olmuşdur.

1921-ci ildə Nigar xanım "Yeni fikir" qəzetində Azərbaycan ədəbiyyatına dair sanballı bir məqalə ilə çıxış etmiş, dilin saflığını korlayan cığırdaş qələm sahiblərini tənqid atəşinə tutmuşdu. "Axır vaxtlarda çox yazır və söyləyirlər ki, molla dili, kitab dili ilə yazmaq lazım deyil, yazı el, camaat diliycə yazılmalıdır ki, "hamı onu qansın". Belə sözləri oxuyanda, eşidəndə adam fikir edir ki, kişi doğru deyir, camaat dili ilə yazılsa, hamı başa düşər. Amma bu doğru deyən kişinin dediyini yerinə yetirmək çox çətin işdir. Camaat dili ilə demək asandır. Amma camaat dili – "Azərbaycan oxumamış dili" hansıdır? Hamıya məlumdur ki, Azərbaycan camaatı növbənöv şivədə danışır: Şəki, Şirvan, Gəncə… hər biri başqa şivədə. El dili ilə yazmaq istəyən hansı camaatın şivəsi ilə yazılmışdır? Məsələn: "*bayır*" desin, yoxsa "*eşik*", "*külək*" desin, yoxsa "*yel*", "*necə*" desin, yoxsa "*hancarı*", "*nöşün*" desin, yoxsa "*niyə*", "*ana*" desin, yoxsa "*ciji*", "*cici*", "*dəgil*" desin, yoxsa

"*dögü*", "*deyil*" və i.a. Bu camaatın hansının şivəsində yazılsa, o birinin xoşuna gəlməyəcəkdir. Demək ki, həmişə və hər yerdə camaat söylədiyi dildə yazmaq olmaz. Hər millətin və camaatın növbənöv şivəsi vardır, amma ədəbi dili birdir. Yazan özü hər nə şivədə danışsa da, yazdığını ədəbi dildə yazır".

Nigar xanım Şıxlinskaya zəngin klassik ədəbiyyatımızı, mədəni irsimizi qoruyub saxlamağı gənc nəslə tövsiyə edir, ədəbiyyatımızı, dilimizi yad ləhcələrdən təmizləməyin doğru-dürüst yolunu göstərirdi.

* * *

Çölə baxdım, qaranlıq düşmüşdü. Dərhal xəyalından keçdi ki, görəsən, Əli ağa Şıxlinskinin 1913-cü ildə nəşr olunmuş kitabını arxiv işçiləri tapdımı? Sifarişlərimin cavabı indi necədir? Şəhərə çatana kimi kitabxana bağlanacaqmı? Özümə təsəlli üçün bir el məsəlini xatırladım: axşamın xeyrindən gündüzün şəri yaxşıdır. Ona görə də birbaşa mehmanxanaya qayıtmağı qət elədim.

Ayrılanda Nina Aleksandrovnanı fikirli gördüm. Düzü, əvvəl ürək eləmədim soruşmağa. Nəhayət, dözə bilməyib:

– Niyə belə fikirlisiniz, Nina Aleksandrovna? – soruşdum, – nəsə sözlü adama oxşayırsınız? Bəlkə mənim çıxışımda xətrinizə dəyən söz…

O, gülümsəyə-gülümsəyə başını buladı və soruşdu:

– Hər adın bir mənası var. Nigar nə deməkdir? Mənası nədir?

– Nigar, – dedim, – sevgili, şəkil kimi gözəl deməkdir.

– Onda mümkünsə, Nigar xanımın şəklinin birini yazıb mənə bağışlayın. Bircə qızım var, – dedi, – tale mənə onu qoca yaşlarımda qismət edib. Bir neçə ay olar ki, ərə vermişəm. Nəvəm qız olsa, adını Nigar qoyacağam…

Nədənsə məni qəribə, kövrək bir hiss bürüdü. Özümü cəmləşdirib dedim:

– Çarskoye-Seloda yetmiş il əvvəl kişi qeyrətli bir Nigar yaşayıb. Özünün zərif əllərilə yaralı əsgərlərə şəfa verib. Qoy gözəl Puşkin şəhəri heç vaxt Nigarsız olmasın. Sizin Nigar bizim Nigar

xanımın adına layiq böyüsün, elinə-obasına gərəkli övlad olsun, – deyib xudahafizləşdim.

Həmin ili – 1914-cü ildə Nigar xanım başqa bir mətbuat orqanında çıxış etmişdir. O, "Russkiy invalid"[1] qəzetinin dörd avqust nömrəsində "Əzizlərini müharibəyə yola salan qadınlara" adlı məqaləsini dərc etdirmişdir. Hərbi şəfqət bacısı kimi yaralılara tibbi yardım göstərən xeyirxah Nigar xanım təkcə bununla kifayətlənməmişdir. O, bir ziyalı kimi çıxış edərək demişdir ki, döyüşçünün qadını ağlayıb sızlamaqdansa, sağlamlığını qorumalı, uşaqlarına qayğı göstərməlidir. Qoy Vətən və torpaq uğrunda döyüşən ərin qulağına ailəsi, uşaqları haqqında xoş sədalar yetişsin.

Yetmiş səkkiz il əvvəl xalqımızın fədakar və nəcib ziyalısı Nigar xanım Şıxlinskayanın yazdığı müraciət-məqaləsi bu günümüzlə necə də eyni ruhda səsləşir. Ona görə də həmin məqaləni möhtərəm oxuculara təqdim edirəm:

"Əksər hallarda, zabitin döyüşən orduya təyin olunması haqda çağırış gələrkən, onun ailəsindəki qadınlar ağlaşmağa, ümidsizliyə qapılmağa başlayırlar, qorxurlar ki, onların əzizi müharibədə həlak ola bilər. Zənnimcə, bu məsələnin düzgün açıqlanmamasından irəli gəlir. Hər bir mömin qadın əmin olmalıdır ki, yeri-göyü yaradan ulu Tanrı nə vaxt lazım bilsə, istəkli kişisi də məhz o vaxt ölməlidir. Əgər bəndəsinin məhz bu il ölməsi Tanrının meylindən keçərsə, həmin bəndə müharibədə iştirak etmədən də o dünyalıq olar, yəni ömrünü sizlərə bağışlayar. ***Belə olduqda evdə ölməkdənsə, hər bir igid hərbçinin arzuladığı kimi, döyüş meydanında şəhid olmaq daha yaxşı deyilmi? O, Vətən qarşısında öz borcunu şərəflə yerinə yetirdiyinə görə dünyasını xoş duyğularla dəyişəcək, onun xatirəsi bizim aləmimizdə cəfakeşlik, müqəddəslik haləsi ilə nurlanacaq: o şəhidin adını tanış-bilişləri də, ucsuz-bucaqsız diyarımızın onu əsla tanımayan zümrələri də ehtiramla, pərəstişlə çəkəcəklər***".

1 Çar Rusiyasında Hərbi Nazirliyin rəsmi orqanı idi. Qəzet 1814-cü ildən 1917-ci ilə qədər Petroqradda dərc olunmuşdur – ***Ş.N.***

Döyüşən əzizlərimizin təhlükəsindən səksəkəyə düşməkdənsə, biz onun səhhətinin, sağlamlığının qeydinə qalmalıyıq. Sülh, əmin-amanlıq çağlarına biz ailəmizin kişi xeylağının qulluğunda dayanırıq: çalışırıq hər şeyi elə sahmanlayaq ki, ömrümüzün-günümüzün fərəhi xidmətdən qayıdıb gələndə evdə həm mənəvi, həm də ruhən dincələ bilsin. Əməlli-başlı yeyib-içməyə, istirahət etməyə onun kifayət qədər vaxtı olmadığı üzündən, doğrusu, çoxlarımızın ürəyindən ağrılar keçib. Müharibədə onun vəziyyəti müqayisəolunmaz dərəcədə çətindir. Elə də olur ki, o, mərmi gurultusu, güllə vıyıltısı altında ac-susuz, yuxusuz günlər keçirir. Təsəvvürə gətirəsən gərək – tapşırılan vəzifəni yerinə yetirməkdən ötrü, varlığı titrədən, əsəbləri tarıma çəkən xoşagəlməz şəraitdə öz dəyanətini, zəka aydınlığını qoruyub saxlamaq üçün bizim əzizimizə, görün, nə qədər böyük iradə əzmkarlığı, əsəb gərginliyi lazım gəlir? Bu hələ harasıdır? Təkcə öz fəaliyyətini deyil, idarə olunması ona tapşırılmış qeyrilərinin hərəkətlərinə başçılıq etmək işində də şəxsi təşəbbüs göstərmək tez-tez onun üzərinə düşür.

Mən qəlbimin dərinliyində əminəm ki, hər bir sevən qadın müharibədə könül həmdinimin görəcəyi işin müəyyən hissəsini öz üzərinə götürməyi cani-dildən arzulayır. Təəssüf ki, indiki halda bu baxımdan əlimizdən heç nə gəlmir. İmkan daxilində gücümüz buna çatar – özümüzü elə tutmalıyıq ki, əzizimizin biz sarıdan beli bərk olsun, evin güzəranı, qayğıları onun müharibədə keçirəcəyi hər cür həyəcanlara əlavə olunmasın.

Biz yaxın kimsələrimizi "Hara gedirsən, hara?, Sənsiz vay günüm qara…" deyə-deyə uğurlamamalıyıq: biz təmkinlə xeyir-dua verməli, ona təlqin etməliyik ki, o özünün əvəzinə ailədə, ocaqda zəif, aciz məxluq deyil, ruhən güclü, təhlükənin gözünə düz baxmağı bacaran sadiq, sevən dost qoyub gedir və həmin bu sadiq dost lazım olarsa uçunub gələr onun yanına. Öz nəvazişilə ovundurar, qadasını alar onun…

Ruhdan düşməmək, özümüzü möhkəm ələ almaq üçün, əvəzsiz əzizimizə lazım gələn məqamda şəfqət göstərməyə

imkanınız olsun, deyə sağlamlığımızı həmişəkindən daha çox qorumaq üçün, yola düşənimizə bəslədiyimiz atəşin bizə həyan olsun.

"Qafqaz Qadınlarının Xeyriyyə Cəmiyyəti"ndəki xidmətlərinə görə müfti Mirzə Hüseyn əfəndi Qayıbovun həyat yoldaşı Səadət xanım cəmiyyətin fəxri üzvü, qızı Nigar xanım isə ömürlük üzvü seçilmişlər.

***yanvar, 1993-cü il***

## GECİKMİŞ VÜSAL
**(Sənədli hekayə)**

***Mənim ölüm tariximi sevimli Nigar xanımın vəfatı günü ilə hesablayın.***

***general Əli ağa Şıxlinski***

Nigar xanım Şıxlinskayanın iyirminci əsrin əvvəllərində çəkilmiş bir fotoşəkli var. Şəkildə o, oğlu ilə birgə təsvir olunub. Bizə yaxşı məlumdur ki, general Əli ağa Şıxlinski ilə iyirmi iki illik birgə yaşayışdan Nigar xanımın heç bir övladı olmayıb. Bəs onda Xosrov bəyin atası kimdir? Bunun qısa tarixçəsi var.

Nigar xanımın atası Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbzadə Əli ağanın anası Şahyəmən xanımın əmisi oğlu idi. Zaqafqaziya müftisi kimi məsul vəzifədə çalışan Mirzə Hüseyn on iki yaşından Əli ağanın təlim-tərbiyəsi ilə özü məşğul olmuşdur. Onu Tiflisə gətirib Semyon Monastırsevin şəxsi gimnaziyasına oxumağa qoymuşdur. İllər keçəcək ömrünün son illərində bu əvəzsiz yaxşılığı xatırlayan Əli ağa Şıxlinski yazacaq: "Ata-anam həmişə kənddə yaşadığına görə mən tamamilə Mirzə Hüseyn əfəndinin himayəsinə keçdim. Sonrakı tərbiyəm bütünlüklə onun əlində oldu. Bu adamın nəsihətləri və örnək ola biləcək şəxsi həyatı mənə o qədər böyük təsir bağışlamış və mənim xasiyyət və dünyagörünüşümdə o qədər dərin iz buraxmışdır ki, mən hər cəhətdə diqqətəlayiq olan bu şəxsiyyətə borcluyam".

Əli ağanın təlim-tərbiyəsində əvəzsiz xidmətləri olan müfti ilk vaxtlar qızı Nigarla onun ailə qurmasına razılıq vermişdi. Arada hələ heç bir nişan-filan olmasa da Peterburqdakı Mixaylovski Topçuluq Məktəbində təhsilini davam etdirən Əli ağa ilə qızının yazışmasından da xəbərdar idi. Müdrik müfti Mirzə Hüseyn yaxşı bilirdi ki, qeyri-adi istedada malik olan Əli ağanın çox parlaq bir gələcəyi var. Ona görə bu izdivacın baş tutacağına qəlbən razı idi.

1886-cı ildə Əli ağa Peterburq Topçular Məktəbini də birincilər sırasında bitirdi. Ona əla oxuduğuna görə pul mükafatı və buraxılış imtahanında qızıl saat hədiyyə verdilər. Podporuçik rütbəsində onu 39-cu topçu briqadasına xidmətə göndərdilər.

Aradan beş aydan çox keçsə də Əli ağadan heç bir səs-soraq yox idi. Həmin vaxtlarda milliyyətcə acar olan knyaz Məmməd bəy Palavandovu Qazax qəzasına hakim təyin etdilər. Uzun illər Stavropol ərazisində yüksək rütbədə olan Məmməd bəyi müfti hələ gəncliyindən yaxşı tanıyırdı. O vaxtlar Məmməd bəyin bir neçə qohumu Qori Seminariyasında təhsil alırdı. O səbəbdən də Qoriyə tez-tez gələrdi.

Müfti Qori seminariyasında dərs deyəndə görüşüb dostlaşmışdılar. Dədə-baba Vətəni Qazaxa hakim təyin olunan Məmməd bəyi təbrik etmək üçün ailəsilə birgə Tiflisə qonaq çağırdı. Elə bu qonaqlıqda Nigarı görən Məmməd bəyin arvadı onu oğlu Dərviş bəyə istədi. Qız anası Səadət xanım dönə-dönə işarə vurdu ki, Nigar bibisi oğluna istəklidir. Üstəlik də qızının hələ kiçik olduğunu və təhsil aldığını da xatırlatdısa, mümkün olmadı. Nə Məmməd bəy, nə də inadkar arvadı əl çəkmədilər. Zor-xoş müftidən razılıq aldılar. Müftidən soruşanda ki, Nigarla Əli ağa bir-birilərini çoxdan sevirlər, indi qızı Palavandovlara niyə verirsən. Əli ağada hansı qüsuru gördün? Daxilən əzab çəkən müftinin cavabı yarızarafat, yarıciddi belə olardı:

– Əli ağa hərbçidir, onun şələsi dalındadır. Bu gün bu şəhərdə, sabah o birində yaşayacaq. O həm də ağıllı və istedadlıdır. Harada olsa, xoşbəxtliyini tapacaq. Nigarı mən gözümün nuru qədər istəyirəm. O, mənə yazı-pozu işlərində ən yaxın köməkçidir.

Onu gözümdən qırağa qoya bilmərəm, kəsəsi, istəmirəm gül kimi balam yad şəhərlərdə, gavurlar içində yaşasın.

İllər ötdü, yaşın üstünə yaş gəldi. Amma ilk sevgisini heç cür unuda bilməyən Əli ağa başqa birisinə könül verib evlənə bilmirdi. 1906-cı ildə Port-Artur müharibəsindən ad-sanla qayıdan Əli ağa Şıxlinskini öz xahişi ilə Çarskoye-Seloda yerləşən Artilleriya Zabitləri Məktəbində təhsilini davam etdirməyə göndərdilər. Kursu böyük müvəffəqiyyətlə bitirən podpolkovnik Əli ağa Şıxlinskini məktəbdə müəllim saxladılar. Elmləri asanlıqla mənimsəyən Əli ağanın tərtib etdiyi "Üçbucağı" məktəb heyətində yaxşı mənada səs-küy qaldırıb onun şöhrətini artırdı. Məktəbin rəisi onun elmi işini şurada müzakirəyə qoydu. Müəllim və professor heyəti ona zabitlər üçün yeni məsələ kitabı tərtib etməyi tapşırdı. Məktəbin rəisi tam artilleriya generalı Aleksandr Nikolayeviç Sinitsın əmr etdi ki, nəşr olunan kitabda üçbucağın şərhi "Şıxlinski üçbucağı" kimi yazılsın.

1908-ci il noyabrın 25-də Çarskoye-Selodakı Yekaterina sarayında Georgi Pabedonosev günü qeyd olunacaqdı. İmperatorun əmri ilə buraya dəvət olunanların əksəriyyəti Port-Artur döyüşlərinin iştirakçıları və Georgi kavalerləri idi. Onların arasında Əli ağa da vardı. Kavalerlər sırasında padşaha təqdim olunanda Əli ağa sağ ayağına laklı, qəşəng, sol ayağına isə mahud çəkmə geymişdi. İmperator ona diqqətlə baxıb xoş təbəssümlə gülümsündü:

– Cənab zabit, – dedi, – od-alov içindən çıxmış Georgi kavalerlərindən soruşmazlar ki, niyə axsayırsan? Məgər yaralarınız hələ də sağalmır?

– Əlahəzrət, sol dizimin üstündən aldığım yara sağalmır ki, sağalmır. Qıçım qatlanıb açılmır. Elə hey çirk verir. Həkimlərin dediyinə görə yara xeyli dərinə işləyib.

İmperator xəfifcə gülümsündü:

– Sizə şərəfli Georgi ordeni təqdim edir və altı ay padşah xəzinəsi hesabına Qafqaz sularında müalicə olunmağı tövsiyə edirəm. Baxıram, Siz cavan və sağlam zabitsiniz. Hələ uzun

müddət orduda qulluq edə bilərsiniz. Çalışın ki, tez sağalın, – deyib Əli ağa Şıxlinskinin əlini sıxdı.

Altı aylıq məzuniyyətin iki ayını Yessentuki mineral sularında müalicə olunan Əli ağanın yarası xeyli yaxşılaşdı. Çoxdan qürbət ellərdə dolaşan Əli ağanı könlü doğma eli-obası, qohumları istədi. Onun Qazaxa gəlişi özü ilə bayram əhvali-ruhiyyəsi gətirdi. Hamı onu görməyə gəlir, qonaq çağırırdı. Qəzetlərdə təriflənən Port-Artur qəhrəmanını hamı yaxından görüb həmsöhbət olmağı özünə şərəf bilirdi. Hər gün evləri görüşə gələnlərlə dolu olurdu. Bir gün Tiflisdən Müftinin böyük oğlu Bahadır da Qazaxa gəldi. Aralarında yaş fərqi olsa da Əli ağa Bahadırı çox istəyirdi.

– Əli ağa, – dedi, – anam səni bizə qonaq çağırır.

– Bəs Müfti necə, çağırmır? – Əli ağa zarafat etdi. – Mən dəvətsiz də gələcəkdim. Anam da bir neçə dəfə bu barədə söhbət salıb. Amma bu gəlib-gedənin əlindən imkan yoxdur. Mən özümdə kəndim-kəsəyim üçün darıxmışam. Axı, on ildən çoxdu mən Vətənə gələ bilmirəm.

Neçə illik ayrılıqdan sonra Əli ağa ilk gənclik illərini keçirdiyi Tiflis və heç vaxt unutmadığı Nigarını gördü.

İllər ötsə də Nigar az dəyişmişdi, əvvəlki gənclik təravətini saxlamışdı. İlk görüşdə özünü şən göstərən Nigarın qəlbi kədər və nisgilli idi. İki il əvvəl əri Dərviş bəy Palavandov vəfat etmişdi. Onların Xosrov bəy adlı bir oğlu var idi. O da əmisi ilə Türkiyəyə getmişdi. Yaxın günlərdə qayıtmalı idi. Əli ağa fürsət tapıb Nigarla ayrıca söhbət elədi. Səmimi-qəlblə bildirdi ki, onu unuda bilmir.

Əli ağanın Nigarla evlənmək xəbərini eşidən Şıxlinskilərin bəziləri onu töhmətləndirdi ki, qız tapılmır, sən gedib dul qadın alırsan. O vaxt Qayıbovlar bir qızı da bizə çox gördülər. Müfti tamahının ucundan qızı vəzifəli adamın oğluna verməklə bizi təhqir etdi. İndi sən təzədən onun dul qızını istəyirsən. Əli ağa isə inadından dönmədi:

– Nigar, – dedi, – mənim ilk məhəbbətim, ilk arzumdur. İki dünya bir də olsa, Nigarla evlənəcəm, vəssalam. O ki qaldı qız,

ya dul məsələsinə – mənim üçün nə olsa da qəbuldur. Təki ilk sevgim Nigar olsun…

1909-cu il oktyabrın 27-də, qırx dörd yaşlı Əli ağa Şıxlinski ilk sevgisinə belə qovuşdu.

## ULU VƏSİYYƏTİ FAYDASIZ OLMAZ

***Yarın könlün alaydım,***
***Dərdim yada salaydım.***
***Qismət belə imiş,***
***Gərək yalqız qalaydım.***

***El bayatısı***

***General Əli ağa Şıxlinskinin qadını Nigar xanım Şıxlinskaya hərbi vəzifədə işləyən ilk azərbaycanlı qadınıdır. Nigar xanım birinci imperialist müharibəsində ordu sıralarında yaralılara tibbi yardım göstərən qadın komitəsinin sədri olmuşdur. Şıxlinskayanın "Russkiy invalid" qəzetinin 1914-cü il bir avqust tarixli nömrəsində rus qadınlarına müraciətnaməsi, həm vətənpərvərlik hissi, həm də ifadəsi etibarilə diqqətə şayandır. Nigar xanım Azərbaycan ədəbiyyatı məsələləri ilə çox yaxından məşğul olmuşdur. Bu fədakar qadın geniş məlumata və yüksək mədəni səviyyəyə malik olmaqla, Azərbaycan xalqının ümumi inkişafı və mədəni yüksəlişi uğrunda bacardığı qədər çalışmışdır.***

***Heydər HÜSEYNOV,***
***Azərbaycan EA-nın həqiqi üzvü,***
***fəlsəfə elmləri doktoru***

***Şəxsi həyatında general Əli ağa Şıxlinski sonsuz bir məhəbbətlə arvadı Nigar xanımı sevən sədaqətli bir ər idi. Onun övladı yox idi.***

***Yevgeni BARSUKOV,***
***general mayor, hərb elmləri doktoru,***
***professor, Dövlət mükafatı laureatı***

General Əli ağa Şıxlinskiyə tale övlad qismət eləməmişdi. O, sevimli həyat yoldaşı Nigar xanımın ölümündən sonrakı həyatını tamamilə artıq hesab edirdi. Bu, doğrudanmı belədir, yoxsa şair təbli məşhur sərkərdəmiz ötəri hissəmi qapılmışdı?

1931-ci il avqustun 12-də vəfat edən Nigar xanımdan sonra general on üç il yaşamışdı. Bu on üç ildə tənha yaşayan Əli ağa Şıxlinski həyatının bir anını belə Nigarsız təsəvvür etməmişdi. O, hər cümə axşamı sevimli həyat yoldaşının qəbrini ziyarət etmiş, vəfatının ildönümündə ehsan vermişdir.

Görüşdüyüm Şıxlinskilər nəslinin çoxsaylı nümayəndələri mənə dönə-dönə demişlər ki, generalın ən çox sevdiyi insan yalnız və yalnız həyat yoldaşı Nigar xanım olub. Əli ağa Şıxlinski məşhur "Xatirələrim" əsərində, şeirlərində və məqalələrində bu barədə söhbət açıb. Biz də bu məhəbbətin ülviliyindən oxuculara az-çox çatdırmışıq.

1983-cü ildə Azərbaycan Dövlət Tarix Muzeyinin Arxivindəki "Şıxlinski fondu"nda araşdırmalar apararkən ağzı bağlı bir məktuba rast gəldim. Mavi rəngli zərfin üstündə rus dilində belə yazılmışdır: "Vəsiyyət. Mən öləndən sonra açmalı".

Məktub əlimdə bir müddət kövrək hislərin ağır təsirindən quruyub qaldım. Gözlərimdə yaş dumanı, beynimdə qarmaqarışıq sözlər fırlanırdı: "Açım, açmayım. Bu müqəddəs kişinin ruhu məni lənətlənməz ki…".

Məktubu o biri üzünə çevirib yapışdırılmış tərəfinə dönə-dönə baxıram. Məktub bağlıdır. 1943-cü il avqustun 18-də Bakıda vəfat edən generalın ölümündən isə düz 40 il keçir. Kədərlə köks ötürüb çölə boylanıram. Fevral ayının sazağı, sanki uğultu

ilə içəri dolub varlığımı titrədir. Həyat və fəaliyyətini az-çox öyrəndiyim general Əli ağa Şıxlinski bilirəm ki, çox maraqlı bir insan olub. Güclü müşahidəsi, əla mütaliəsi və geniş dünyagörüşü olan bu adam heç vaxt ötəri və ya başdansovdu iş görməzmiş. Onun şəxsi əlyazmalarını araşdıranda görürsən ki, xırdaca bir qeydi də böyük məna kəsb edir. Mənim yəqinim idi ki, generalın hələ oxumadığım vəsiyyətnaməsində də müdrik sətirlərə rast gələcəm.

Bu anda ağlıma qəribə bir fikir də gəldi. Əgər arxiv işçiləri icazə versəydi, bu ağzıbağlı məktubu götürüb generalın yaxın qohumlarından birinin yanına gedər və onunla birgə açıb oxuyardım. Məlumdur ki, vəsiyyət hər şeydən əvvəl yaxın qohumu üçün yazılır. Mən də istəyirdim ki, bu məktubu generalın doğması müdrik yazıçı İsmayıl Şıxlı ilə birgə oxuyam. Amma bu, mümkün deyil. İndi bu məktub adi kağız parçası deyil. Möhürlənib, qeydə alınıb və tarixi bir sənəd olub. Bəs bu tarixi sənəd nə üçün indiyədək heç kəsi maraqlandırmayıb. Bəlkə, tədqiqatçıların rastına çıxmayıb. Elə isə onda mənim uğurumdur qarşıma çıxıb, açsam heç bir günah sahibi olmaram.

Ehtiyatla qələmin iti ucunu ağzıbağlı məktuba yaxınlaşdırıram. Qırx il qurumuş yapışqan asanca qopur. İçərisindən adi dəftər kağızında yazılmış dörd vərəq çıxır. Birincisinin sərlövhəsi: "Ailə vəsiyyətnaməsi", 30 oktyabr 1933-cü ildə yazılıb. İkincisi: "Əziz Bahadır və Varya" (həmin tarixdə yazılıb). Üçüncü sərlövhəsizdir, yalnız "3 yanvar 1938-ci il" tarixi qoyulub. Dördüncü: "Son rica (xahiş)", 13 mart 1942-ci ildə yazılıb.

General Əli ağa Şıxlinskinin "Vəsiyyətnamə"sinin dördünün də üzünü köçürüb evə qayıdıram. Yol boyu ikinci vəsiyyətnamədəki bir cümləni ürəkağrısı ilə öz-özümə təkrar edə-edə gəlirəm: "Əgər tale mənim bu sevincsiz həyatımı uzun müddət davam etdirərsə, onda mənim "əmlakım" mənim dəfn olunma və ən sadə qəbirdaşı qoyulma xərclərinə belə bəs etməz, bu halda mənim vəsiyyətim gülünc hal almış olar".

Oxucum, general Şıxlinskinin vəsiyyətnamələrindəki kədər təkcə bu cümlədə deyil. Onların dördü də tənha yaşayan insanın

kədər və həsrətilə doludur. Burda onun sevimli Nigarına ülvi məhəbbətinin də şahidi olacaqsan.

Mən on bir il əvvəl ulu generalımızın kədərinə şərik oldum. Vəsiyyətnamələri Sizə təqdim etməkdə bircə məqsədim var: xalqımız üçün əvəzsiz xidmətlər göstərmiş general Əli ağa Şıxlinskinin nikbinliyinə, qayğılarına Siz də şərik olun. Ulu vəsiyyəti faydasız olmaz.

* * *

**Ailə vəsiyyətnaməsi**

Mənim ölümümdən sonra, əmlakımdan nə qalarsa: mebel, qab-qacaq, geyim şeyləri və başqa əşyalar, eləcə də qalmış nağd pul məbləğini – həyatımın kimsəsiz illərində mənə qayğı göstərmiş həkim Bahadır Qayıbova və onun arvadı Qayıbovaya vəsiyyət edirəm.

***Yazılanları öz şəxsi imzam ilə təsdiq edirəm.***
***30 oktyabr 1933-cü il, Bakı***
***Əli ağa Şıxlinski***

* * *

Biz mətnin altında imza atmış şəxslər, aqronom Nəsrulla Əlizadə və texnik Sadiq Əlizadə şahidik ki, Əli ağa Şıxlinski 30 oktyabr 1933-cü ildə bizim iştirakımızla vəsiyyətnaməni tərtib edib imzalayarkən tam sağlam əqlə və yaddaşa malik idi.

***Nəsrulla Əlizadə,***
***Sadiq Əlizadə.***

* * *

***Əziz Bahadır və Varya!***[1]

Əgər tale mənim bu sevincsiz həyatımı uzun müddət davam etdirərsə, onda mənim "əmlakım" mənim dəfn olunma və ən

[1] Bahadır bəy Mirzə Hüseyn Əfəndi oğlu Qayıbov (1878-1949) Əli ağa Şıxlinskinin qaynıdır. 1897-ci ildə Tiflis gimnaziyasının və Xarkov Dövlət Universitetinin tibb fakültəsini (1903-cü il) bitirmişdir. Onlar həm də qonşu olmuşlar.

Varvara Qayıbova doktor Bahadır bəyin arvadı – ***Ş.N.***

sadə qəbirdaşı qoyulma xərclərinə belə bəs etməz, bu halda mənim vəsiyyətim gülünc hal almış olar.

Lakin, ona əvəz olaraq, unudulmaz həyat yoldaşım Nigar xanımın vəfatından sonra, siz məni qayğı ilə hərtərəfli əhatə edərək, onsuz yaşadığım günləri mənim üçün mümkün və dözümlü etdiyinizə görə, mənim Sizə qarşı olan minnətdarlığımın hədd-hüdudu yoxdur.

Bu qəni minnətdarlığı mən özümlə qəbir evinə aparacağam.

Sizin mənə qarşı mərhəmətinizə görə Allah Sizdən razı olsun.

***Sizi sevən Əli ağa Şıxlinski***
***Bakı, 30.X.1933-cü il***

* * *

***3 yanvar 1938-ci il***

Vəsiyyətnamə yazılarkən, mənim bəzi qiymətli şeylərim var idi ki, onlar Bahadır və Varyanın mənə göstərdikləri qayğı və mənəvi köməklikdən əlavə, maddi yardımlarını qismən ödəyə bilərdi.

Lakin mən gözlənildiyindən də artıq yaşadım, satmalı nə vardısa, satıb xərclədim və bununla da vəsiyyətnamə öz mənasını itirmiş oldu.

Əgər evdə qalmış əşyaların dəyəri dəfn mərasiminə və sadə qəbirdaşına kifayət edərsə, ona da şükür. Heç bir ehsan və elan lazım deyil.

Qohumlara telefon vasitəsilə, telefon yoxsa, məktubla xəbər vermək olar.

Qəbirdaşı yalnız onun üçündür ki, mənim adım unudulmaz həyat yoldaşım Nigar xanımın adı ilə yanaşı yazılsın.

***Əli ağa Şıxlinski***

* * *

Son rica (xahiş)

1. Əgər mən yataqda qalası xəstə olsam, məni xəstəxanaya göndərin.

2. Əgər xəstəxanada ölsəm, nəşimi evə yox, xəstəxanadan qəbiristanlığa aparın.

3. Qəzetdə elan verməyin.

4. Dəfnetmə xərclərinin az olmasına çalışın. Yorğan ağına bükülmüş cəsədi rənglənməmiş, üstünə ağ kilim salınmış tabuta qoyun.

5. Heç bir ehsan verməyin, bunu etmək həmişə gərəksizdir, müasir çətinlikləri nəzərə alsaq isə qəbahətdir.

6. Mənə əziz olan Nigar xanımın qəbri ilə yanaşı qəbri yastı tava daşı ilə örtüb, üstünə yazarsınız: Əli ağa Şıxlinski – heç bir tarix lazım deyil.

***Əli ağa Şıxlinski***
***Bakı, 13.03.1942-ci il***

* * *

*Nə tabutun içinə, nə də tabutun üstünə bir dənə də olsun gül qoyulmasın.*

***Əli ağa Şıxlinski***

1943-cü il avqustun 18-də indiki Musa Nağıyev adına xəstəxanada kardiosklerozdan vəfat edən general Əli ağa Şıxlinskinin dəfn olunma mərasimini filosof-alim Heydər Hüseynovun özü təşkil etdi. Generalla heç bir qohumluğu olmayan alimin Ə.Şıxlinski şəxsiyyətinə, onun sərkərdəlik fəaliyyətinə, xüsusilə lüğətçilik sahəsindəki elmi-publisistik yaradıcılığına böyük rəğbəti vardı.

Dəfn mərasimini Bakı Hərbi Qarnizonundan çağırılmış alay orkestrlə müşayiət etdi. Qəbri üstündə topdan və avtomatlardan yaylım atəşi atıldı. "Artilleriyanın allahı"nı görkəmli sərkərdələrə məxsus hərbi qaydada torpağa tapşırdılar. Heydər Hüseynovun özü, generalın yetirmələri və qohumları son vida nitqi söylədilər.

Tam artilleriya generalı Əli ağa Hacı İsmayıl ağa oğlu Şıxlinskinin adı və hərbi quruculuq tariximizdəki misilsiz xidmətləri

bu gün də unudulmamışdır. İndi Bakıda, Gəncədə, İmişli və Qazax rayonlarında abad küçələr onun adını daşıyır.

Respublika Nazirlər Sovetinin 1990-cı il 28 iyul tarixli qərarı ilə Sabirabad rayonundakı altı saylı pambıqçılıq kolxozuna və Bakının yeddinci mikrorayondakı 135 saylı orta məktəbə Əli ağa Şıxlinskinin adı verilmişdir. Vaxtilə yaşadığı Cəfər Cabbarlı küçəsindəki binaya xatirə-barelyefi vurulmuşdur.

1990-cı il iyulun 23-də isə Respublika Prezidentinin fərmanı ilə ali məktəb tələbələri üçün xüsusi general Əli ağa Şıxlinski təqaüdü təsis edildi. Qazax Xeyriyyə Cəmiyyəti cəbhə bölgəsində və orduda fəallıq göstərən əsgər və zabitlər üçün "General Əli ağa Şıxlinski mükafatı" təsis edib. Hər il general Əli ağa Şıxlinskinin doğum və vəfatı günü qeyd olunur. Fəaliyyəti və şəxsiyyəti haqqında kitablar və çoxlu məqalələr yazılır, xatirə günü keçirilir.

Vətənin, doğma Azərbaycanın şərəf və azadlığı yolunda igid bir sərkərdə kimi danılmaz xidmətləri olan tam artilleriya generalı Əli ağa Şıxlinski doğma xalqının ehtiramına tam mənada layiq şəxsiyyətdir.

# GENERAL ƏLİ AĞA ŞIXLİNSKİNİN HƏRBÇİ QARDAŞOĞULLARI

*Ata yurdumuzdan ilham almasaq,*
*Zaman ağac kimi qurudar bizi.*
*Bu gün babaları yada salmasaq,*
*Sabah nəvələr də unudar bizi.*

*Hüseyn ARİF*
*xalq şairi*

Sovet dövründə "qırmızı inqilab"dan əvvəl yaşamış bir çox hərbiçilərimiz haqqında danışmaq bizə yasaq olmuşdu. Xüsusilə də Azərbaycan Xalq Cümhuriyyəti ordusunun general və zabit heyəti barədə. Bəzilərin adını bir yerdə çəksək də, yalan-gerçək yazırdıq ki, filankəs yeni gələn şura hökumətini ürəkdən alqışlayıb.

Beləcə, yetmiş ildən çox bir müddətdə yüzlərlə, minlərlə oğullarımıza, qızlarımıza özümüz öz əlimizlə qara yaxmışıq. Bunların arasında elələri də olub ki, indiyə kimi adını heç yerdə çəkməmişik. Hətta yaxın qohumları belə onların adını çəkməyə ehtiyat ediblər. Bunu dövr, zaman belə tələb edib. Totalitar rejimin ağır təzyiqinə məruz qalmış o qohumları bu gün biz günahlandırmaq iddiasında deyilik. Bir quruluşda ki, ölüyə Quran oxuyan mollanı Sibirə sürgün edirdilər, onda əmini necə günahlandırmaq olar ki, istilaçı IX Qızıl Orduya qarşı vuruşan qardaşın oğlunun adını xatirələrində niyə yazmamısan? Təsəvvür edin ki, "şanlı Qızıl Ordu" – deyə, şəninə nəğmələr qoşduğumuz bir vaxtda o əminin aqibəti necə olardı?

Tam artilleriya generalı Əli ağa Şıxlinski 1942-ci ildə qələmə aldığı "Xatirələrim" kitabının iyirmi ikinci səhifəsində yazır:

"1896-cı ildə briqadanı təftiş edən dairə topçu rəisi general-leytenant Baumqarten mənim komandamı gözdən keçirərkən briqada komandiri knyaz Ximşiyevə göstərib dedi: "Bu zabit çox ağıllı adamdır, onu sənə təqdim edirəm". Knyaz Ximşiyev cavab verərək dedi: "Siz onu yunkerlikdə görmüsünüz, biz isə on ildir ki, onun zabitliyini görür və onu lazımınca qiymətləndiririk". Bu təftişin nəticələri haqqında təlim komandasının rəisi əmrnaməsində yazırdı: "Otuz doqquzuncu topçu briqadasının təlim komandası sevindirici bir vəziyyətdədir…". Sonra o, öz əmrində komandanın başqa komandanlarla olan bütün üstünlüklərini göstərib, mənə təşəkkür elan etdi.

…1895-ci ildə mənim doğma qardaşım oğlu, cavan zabit bizim briqadaya keçdi. Topçu rəisi general-leytenant Parçevski dedi ki, rəislər bu zabit haqqında göstəriş vermək vəzifəsindən azaddırlar. Çünki onun üçün əmisi Əli ağa Şıxlinski kimi bir örnək vardır".

1983-cü ildə generalın "Xatirələrim" kitabını yenidən nəşrə hazırlayanda ona "Qeydlər və izahlar" fəsli yazmalı oldum. İstər-istəməz generalın qardaşı oğlu, həmin cavan zabitin taleyi ilə maraqlandım. Bu barədə Bakıda heç nə tapmadım. Bir dəfə Qazaxa gedəndə ağbirçəklərdən, ağsaqqallardan soruşdum ki, Əli ağa Şıxlinskinin hərbçi qardaşı oğlunun adı nə olub? Onlar da sorğuma sualla cavab verdilər ki, hansı hərbçi qardaşı oğlunu deyirsən, generalın iki hərbçi qardaşı oğlu olub: Cavad bəy və Rüstəm bəy Şıxlinskilər.

Bəli, ortaya bir çətinlik də çıxdı.

Eşitdim ki, polkovnik Rüstəm bəyin qızı Qazaxda yaşayır. Zəng eləyib görüşmək istədim. Ədilə xanımla telefon söhbətimiz görüşməyə körpü salmadı. Mətbuat işçilərindən giley-güzar elədi. Dedi ki, "Dəli Kür" filmi çəkiləndə bir rejissor bizdən xeyli şəkil apardı, hələ də geri ala bilmirik, hətta, Əli ağa babamın ağ at üstündə çəkilmiş yeganə şəkli belə it-bata düşdü.

Haqlı giley idi. Bu söhbətdən sonra mən də Ədilə xanımla görüşməyə inad eləmədim. O, telefonda elə qəmli danışırdı ki,

əzizlərinin nadir fotoşəkillərinin onun üçün nə qədər ağır itki olduğunu çox gözəl başa düşdüm. Bir də hiss elədim ki, Cavad bəy Şıxlinski haqqında danışmağa ehtiyat edir…

Az sonra Şıxlinskilər nəslinin cavan nümayəndəsi ilə tanış oldum. Sözarası həmin cavan zabitin adını soruşdum. O, inamla bildirdi ki, Əli ağa babamın ehtiyat edib adını çəkmədiyi cavan zabit Cavad bəy Şıxlinski idi. Onun dediyinə inanıb, "Xatirələrim" kitabının 211-ci səhifəsinə belə bir izahat yazdım: "Həmin cavan zabit sonralar general-mayor rütbəsinə qədər yüksələn Cavad bəy Məmməd ağa oğlu Şıxlinski olub".

General Cavad bəy və polkovnik Rüstəm bəyin atası Məmməd ağanın hansı illərdə yaşadığını dəqiqləşdirmək üçün Əli ağa Şıxlinskinin yaddaşı köməyinə gəldi: "Buma (Qəbələ rayonunda kənddir – ***Ş.N.***) və Qutqaşenə gəldikdə eşitdim ki, İsmayıl bəy Qutqaşenə şair, həm də məşhur, şanlı bir adammış, özü də qutqaşenli imiş. Bu məlumatı mənə o zaman Şəkidə uyezd naçalnikinin müavini olan doğma, həm də məndən iyirmi beş yaş böyük olan qardaşım Məhəmməd ağa Şıxlinski söylədi" (Ə.Şıxlinski. Qutqaşınlı haqqında, Əlyazmalar İnstitutu, arx. 38, Q-11 [250]).

Məhəmməd ağa Şıxlınski haqqında yenə generalın "Xatirələr" kitabından: "Atam rus dilini bilməzdi. Məndən iyirmi beş yaş böyük olan qardaşım çar konvoyuna göndərildi. Atamdan aldığı pulları o, o biri konvoyçular kimi kefə deyil, oxumağa sərf edərdi. O, özünə müəllim tutub rus dilini öyrəndi: üç ildən sonra o zamankı asan proqramlar üzrə zabitliyə imtahan verdi və süvari korneti adını aldı. Halbuki onun yoldaşları ancaq bir ildən sonra milis praporşiki ola bilmişdilər. Məndən iyirmi iki yaş böyük olan ikinci qardaşım az savadlı olub, rusca pis danışırdı. O biri qardaşlarım isə uşaqkən ölmüşdülər" (səh.14-də, 1984-cü il nəşri).

Burdan məlum olur ki, böyük qardaş Məmməd ağa 1837-ci ildə, kiçik qardaş Osman ağa isə 1841-ci ildə anadan olmuş, 1908-ci ildə isə vəfat etmişdir. Poruçik Məhəmməd ağa isə 1889-cu ildə dünyadan köçüb.

Generalın yaxın qohumuna inansam da, özümdə bir inamsızlıq, narahatçılıq vardı. Arxivlərdə işləyəndə Cavad bəyin adına rast gəlmirdim. Heç olmasa fotoşəklini belə tapa bilmirdim. Axtarışlarımın bəhrəsizliyi bəzən belə bir hərbçinin olması haqda məndə şübhə də doğururdu. Digər tərəfdən, general Əli ağa Şıxlinskinin ensiklopedik biliyinə, dəqiq yaddaşına inanmaya bilmirdim. Generalın iki yüz səhifəlik "Xatirələrim" kitabında onlarca hərbçinin və müxtəlif peşə adamlarının vəzifəsini, adfamilini dönə-dönə hərbi ensiklopediyalarla tutuşdurmuşdum. Səksən yaşlı qoca generalın yazdığı kitabda zərrəcə səhv tapa bilməmişdim.

General xatirələrini yazanda 1942-ci il idi. Otuz yeddinci il hələ davam edirdi. 1920-ci ildə istilaçı XI Qızıl Orduya qarşı Gəncədə üsyanın fəal başçısı olan general Cavad bəy Şıxlinski İrana qaçmışdı. Ona görə də general onun adını yazmağa cəsarət etməmişdi.

Bəs nə etməli? Haradan, necə öyrənməli general Cavad bəy Şıxlinskinin fəaliyyətini? Bir tərəfdən də fikirləşirdim ki, onun haqqında yazacağım məqalənin dərcinə heç kəs yaxın durmayacaq.

Qazax ağsaqqalları isə məni şirnikləndirirmiş kimi xeyir-şər məclislərində onu tərifləyirdilər. Dəqiq hərbi fəaliyyətini öyrənmək istəyəndə "qalsın gələn dəfəyə" – deyib, söhbətin mövzusunu dəyişirdilər. Sözün tam mənasında oxunu atıb, yayını gizlədirdilər. Hiss edirdim ki, qorxurlar, ehtiyat edirlər. Onlar hardan biləydilər ki, dövr dəyişəcək, tarixin qaranlıqlarına işıq düşən gün gələcək. İndi həmin vaxt gəlib, amma çox təəssüf ki, o yaxşı məlumatlı kişilər yoxdur. Onlar general Cavad bəy və onun polkovnik qardaşı Rüstəm bəy haqqında söz-söhbəti də özləri ilə o dünyaya apardılar. Onlardan yalnız Abdulla Babanlı müəyyən mətləblərdə mənə kömək etdi.

Yadımdadır, elə oradaca söhbət polkovnik Cahangir bəy Şıxlinskidən düşdü. Bir neçə ağsaqqal onun 1918-1920-ci illərdəki fəaliyyətindən fəxrlə söhbət açdı. Dedilər ki, bu illərdə Daşsalah-

lı Məmməd Koxa Mahmudov, Söyün bəy Sübhanverdixanov, Mədəd bəy Vəkilov, Əskiparalı Mikayıl ağa, Cahangirbəylə çiyin-çiyinə verib erməni daşnaklarına, gürcü menşeviklərinə qarşı vuruşaraq torpağımızı qorudular.

Mən də "Azərbaycan tarixi" kitabından oxuduğum bir epizodu onlara danışdım.

– Orada yazılır ki, 1915-ci ildə fabrik fəhlələri (məlum deyil hansı fabrikin – ***Ş.N.***) gündəlik əmək haqqının artırılması üçün tətil eləyirlər. Bu təzyiqdən sahibkar əmək haqqını 5 qəpik də artırır. Lakin bunun sədəqə kimi qəbul edən fəhlələr yenə imtina edirlər. Tətilçilərin qətiyyətini görən qəza rəisinin müavini Cahangir bəy Şıxlinski fəhlələrin beş nəfər nümayəndəsini yanına çağırıb onları həbslə hədələyir. Əmr edir ki, işə başlasınlar. Polislər də fabriki mühasirəyə alırlar. Lakin tətilçilər inadla öz tələblərinin ödənilməsinə nail olurlar, onların əmək haqqı beş qəpikdən on beş qəpiyə qədər artırılır, üstəlik də iş günü yarım saat azaldılır…

Bu yerdə dözə bilməyən ağsaqqal maarifçi Abdulla Babanlı dedi: – Yalandı, oğul, büsbütün yalan epizoddur. Əvvəla, bizim Qazaxda elə bir fabrik olmayıb. Bizdə indi də, o vaxt da xırda xalça, kəlağayı, dondurma və konfet sexləri var. Bizdə inqilabdan əvvəl belə sexlərin və dükanların sahibkarları Hacı Rəsul uşağı adı ilə tanınan Məmmədəli, Əbdüləli, Mirzəvəli və başqa qardaşlar vardı. Onlar da xeyirxah, kasıba, yetim-yesirə əl tutan oğullar idi. Dükanlardan biri kəlağayı alanda, birini də bağışlayırdılar. Onlar xırda-para şeylərin alverçisi deyirdilər, əsl tacir idilər. Mən əsrdən (XX əsr) böyüyəm, nə təhər olub ki, bu boyda tətili nə görmüşəm, nə də eşitmişəm. Yalan yazır o oxuduğun "Azərbaycan tarixi" kitabı…

Yaxşı tanıdığım bir tarixçi professorun kitabından aşağıdakı cümlələri oxuyanda o vaxt mən də general Cavad bəy Şıxlinskinin xalqının düşməni olduğuna inanmışdım. Eləməyib tənbəllik bu cümlələri də Abdulla müəllimə oxudum: "Müsavat generalı Cavad bəy Şıxlinski, polkovnik Cahangir bəy Kazımbəyov, ge-

neral Məhəmməd Mirzə Qacar, məşhur müsavatçı Xan Xoyski qardaşları və başqaları qiyamın bilavasitə təşkilatçıları olmuşlar. Əksinqilabçı ünsürlərdən təşkil edilən qiyamçılar on-on iki minlik böyük dəstəyə və üç artilleriya batareyasına malik idilər. Mayın 26-da qiyamçılar hərbi cəbbəxananı ələ keçirdilər, dəmiryol vağzalını tutdular. Müsavatçılar şəhər əhalisi içərisində bolşeviklər, qızıl əsgərlər əleyhinə hər cür böhtanlar yayır, guya bolşeviklər əleyhinə bütün Azərbaycan üsyan etmişdir, – deyə fitnə-şayiələr yayırdılar".

Cümlələri oxuyub qurtaran kimi Abdulla müəllim titrək, arıq barmaqlarını sətirlərin üstündə gəzdirə-gəzdirə dedi:

– Bu cümlələrdəki "böhtan, fitnəkar, şayiə", "əksinqilabçı" sözlərini pozsaq, "qiyam və qiyamçıları" isə igid, üsyankar sözləri ilə əvəz etsək, professorun fikirləri düz olar.

Əlbəttə, on səkkiz il əvvəl Abdulla müəllim bu iradları mənə ikilikdə, özü də astadan, ehtiyatla deyirdi. Onda nə demokratiya vardı, nə də aşkarlıq.

1991-ci ildə arxivdə rast gəldiyim bir kitab məni çox sevindirdi. Sevindim ki, nə general Əli ağa Şıxlinskinin yazdığı, nə də onun qohumunun dediyi səhv olmadı. 1912-ci ildə Qafqaz canişinliyinin mətbəəsində nəşr olunmuş "Kavkazski kalendar" sorğu kitabı bunu bir daha təsdiq etdi. Kitabın 489-cu səhifəsində belə bir qeyd var: "Otuz doqquzuncu artilleriya briqadasının komandiri general-mayor Kalin, birinci rotanın komandiri isə kapitan Cavad bəy Şıxlinskidir".

Yeri gəlmişkən həmin kitabdan müəyyən səhifələri qısaca olaraq oxuculara təqdim edirəm. Ona görə ki, orada xalqımızın görkəmli hərbçi oğulları haqqında məlumat verilir.

***Dörd yüz yetmiş səkkizinci səhifədən:***

– Birinci Qafqaz ordusu korpusunun artilleriya müfəttişi general-leytenant Səməd bəy Mehmandarov, əlli ikinci artilleriya briqadasında birinci divizionun komandiri Əsəd bəy Talışxanov, Qafqaz canişinliyinin hərbi qərargahında ştalmeyster (orduda süvari zabiti – ***Ş.N.***) Bəhram xan Naxçıvanski xidmət edirlər.

***Yüz otuz altıncı səhifədən:***

– Cavanşir qəzasının Tərtər qəryəsində praporşik Gəray bəy Vəkilovun, Qarasaqqalda İsfəndiyar bəy Muradovun (general Ə.Şıxlinskinin bacısı oğludur. Az müddət Qazax qəzasının rəisi olub. 1920-ci ilin mayında Gəncə üsyanının iştirakçısı adı ilə məçhur ədəbiyyatşünas Firidun bəy Köçərli, doktor Məcid bəy Vəkilov, müəllim Nadir bəy Dağkəsəmənski ilə birgə bolşeviklər tərəfindən Gəncədə güllələnib – ***Ş.N.***) Qazax qəzasında starşina köməkçisi Cahangir bəy Şıxlinski və Məcid bəy Şıxlinskinin fəaliyyətindən danışılır.

Beş yüz iyirmi doqquzuncu səhifədə isə Əli ağa Şıxlinskinin iyirmi ikinci artilleriya briqadasında birinci polkun komandiri olduğu göstərilir.

"Kavkazski kalendar"dakı bu tapıntılarımdan sonra cəsarət edib 1990-cı ilin sentyabrında "Bizim generallar" verilişində general Cavad bəy Şıxlinski haqqında sorğu ilə çıxış elədim. İki gün keçməmiş bir nəfər zəng elədi. Dedi ki, çıxışınıza qulaq asdım. Çox sağ olun ki, mənim babalarım Cavad bəy və Rüstəm bəy Şıxlinskilər haqqında az-çox məlumat verdiniz. Amma heç birinin şəklini göstərmədiniz.

– Yoxdur, – dedim, – qardaş, heç bir arxivdən şəkillərini tapmaq mümkün olmadı. Mən də ona görə sorğu elədim ki, kimdə onların şəkli varsa, bizə göndərsin. Əgər doğrudan da o kişilər sənin babandırsa, kömək elə, şəkillərini tapaq.

– Var, – deyə xəttin o başındakı adam inamla bildirdi.

Mən sevinclə:

– Harda, kimdə? – soruşdum.

– Qazaxda, anamda. Siz bir neçə il əvvəl anamla bu barədə telefonla danışmısınız. Anam isə əmisi Cavad bəyin adı gələndə həmişə ehtiyat edir. Bir də itkin şəkillərdən sonra anam heç kəsə inanmır. Sizin verilişə baxıb, indi özü Qazaxdan zəng eləmişdi ki, qəzetdə dərc olunan yazılarını oxuyuram, verilişinə də baxdım, şəkilləri ona etibar eləyə bilərəm…

Danışan Ədilə xanım Şıxlinskayanın oğlu Rüstəm idi. On ildən sonra bu görüşün baş tutması üçün polkovnik Rüstəm bəyin nəvəsi Rüstəmə təşəkkür edib, Qazaxa getdim. Gedəndə özümlə Respublika Kino-Foto-Sənədlər Arxivindən tapdığım iki nadir şəkli də götürmüşdüm. 1919-cu ildə çəkilən bu şəkillərdə Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun general və zabitləri təsvir olunmuşdu. Hər iki şəkildə cavan bir zabitin ad-famili yazılmışdı: Bahadır bəy Vəkilov.

* * *

Elə ilk görüşdən bir-birimizdən üzrxahlıq elədik. Ədilə xanım yanıqlı-yanıqlı dedi ki, gözüm qorxub, ay oğul, iyirminci, bir də otuz yeddinci illər bizim ailəyə heç nədən çox ağır zərbələr vurub. Sənin on il bundan qabaqkı telefon zəngində isə yara hələ isti idi. Şəkillərin yarasını deyirəm, ən çox məni yandıran da, Əli ağa babamın ağ at üstündə çəkilmiş yeganə fotoşəkli idi. Günah məndə oldu, heç olmasa üzünü çıxartdırıb özümdə saxlamadım. Rüstəm dönə-dönə gedib o rejissoru axtarıb. Deyiblər rəhmətə gedib. Şəkillər də itdi-batdı. Nə isə, olan-oldu, keçən-keçdi… Məndə qalan şəkillər bunlardı, – deyib, Ədilə xanım “Nikolaydan qalma” bir albomu stolun üstünə qoydu. Albomun ilk səhifəsində çərkəzi geyimli cavan bir zabit şəkli... İri ala gözləri necə də tanış və doğmadır. Mənim şəklə diqqətlə baxdığımı görən Ədilə xanım: – Dayımdı, – dedi, – müsavat zabiti olduğuna görə iyirminci ildə bolşeviklər onu da güllələyiblər.

Onun səsindəki təsvirəgəlməz kövrəklik, həzin bir qəm dalğası varlığımı titrətdi. Adam, belə anlarda qarşısındakına təsəlli verməkdən də məhrum olur. Daxili təlatüm, vicdanın səsi olub keçmiş ədalətsizliyi, vəhşiliyi ittiham edir. Dərindən köks ötürüb, “heyf” deməkdən başqa əlindən bir şey gəlmir. Çünki nahaq qan tökənləri, heç nədən insan güllələdənləri ittiham etmək gecdir. O vəhşiləri indi tarix mühakimə edir. Tarix öz səhifələrində onlara amansız cəza verir, gec də olsa əyrini – əyri, düzü – düz yazır.

Ağır qəm yükünün altından qurtarmaq xatirinə soruşdum:

– Dayınızın adı necədir, Ədilə xanım?

– Bahadır bəy Vəkilov, Milli Orduda rütbəsi kapitan...

– Ola bilməz, – dedim. Özümdən asılı olmayaraq səsim bərkdən çıxdı. – Onda bu şəkillərə baxın, zəhmət olmasa…

Mən özümlə gətirdiyim bir qrup milli ordu əsgərinin iki fotoşəklini ona göstərdim.

– Bu, tən ortada oturan Bahadır dayımdı, – dedi. İkinci şəklə baxır: – Bu da odu, dayımdı… Bu şəkillər bizdə yoxdu. Sizdə hardandı? – soruşdu.

– Arxivdən tapmışam, – dedim.

– Oy, nə yaxşı iş görmüsünüz, çox sağ olun… Mənim anam Böyükxanım Vəkilovlardandır. İbrahim ağa Vəkilovun qızıdır. General-topoqraf İbrahim ağanın yox, o, Paşa ağanın oğludur. Mənim babam isə Pənah ağa Vəkilovun oğludur. İkicə dayım vardı: böyüyü İsfəndiyar bəy, kiçiyi isə Bahadır bəy idi. İsfəndiyar dayım 1907-ci ildə Qori seminariyasını qurtarmışdı. Bir müddət Bakıda rus-tatar məktəbində müəllim işləyib. 1910-cu ilin yayında görkəmli maarifçi Əhmədağa Mustafayevin Dilicanda ədəbi fəaliyyətinin iyirmi beş illiyi keçirilib. Dayım yubileyin təşkilatçısı olub. Böyük şairimiz M.Ə.Sabirin "Hophopnamə"sinin nəşri üçün ianə toplayıb. 1918-ci ildə Qazax Seminariyası açılanda Firidun bəy Köçərli onu Qazağa dəvət edib. Səməd Vurğunun, Seyfulla Şamilovun, Mirqasım Əfəndiyevin, Osman Sarıvəllinin, Mehdi Hüseynin, Mehdixan Vəkilovun və yüzlərcə seminaristin müəllimi olub. Bolşevik hökuməti qurulanda əksinqilabçı-müsavatçı fəaliyyətinə görə Solovki konslagerinə sürgün etdilər. Ana tərəfimdən Solovki adalarında əzab çəkənlər çox olub. Müsavat parlamentinin üzvü Rəhim bəy Vəkilov, maarifçi Zəkəriyyə Vəkilov, Məmmədhəsən Vəkilov-Baharlı, Bakı Darülmüəllimatının direktoru Mədinə xanım Vəkilova-Qiyasbəyli isə otuz yeddinci ildə güllələndi. Azərbaycan parlamentinin üzvü, partiyanın ikinci lideri Mustafa ağa Nadir bəy oğlu Vəkilov 1920-ci ildə Türkiyəyə mühacirətə getdi… Solovki konslagerində on il

həbs cəzası çəkən dayım İsfəndiyar bəy Vəkilov 1936-cı ilin noyabrında qayıtdı. Ömrünün axırına kimi müəllimlik etdi. 1960-cı ildə vəfat edən dayımın indi bir qızı, bir oğlu qalır. Oğlu İbrahim Vəkilov istefada olan polkovnikdir. Kiçik dayım Bahadır bəy Vəkilov idi. Bayaq dediyim kimi, iyirminci ildə cavankən bolşeviklər güllələdilər, heç evlənməmişdi də. Sizin tapdığınız şəklin arxasında yazılıbmı, neçənci ildə çəkilib?

– 1919 -cu ildə çəkilib, – cavab verdim.

– Mənimlə yaşıddı, dayımın şəkli, – deyib Ədilə xanım qəmli-qəmli köksünü ötürür. Ovcundakı xırdaca güllü dəsmalla nəmli gözlərini sildi.

– Ədilə xanım, bolşeviklər ana tərəfinizdən ona görə çox adamı güllələyib, sürgün ediblər ki, Rəhim bəy Vəkilov müsavat parlamentinin üzvü olub və nəslinizdə bəylik varmış. Əslində maarifçilər daha çox olub. Tiflisdəki Qori seminariyasının arxivində işləyəndə bir dəfə maraqlandım ki, görüm neçə Vəkilov oxuyub. Saydım on bir nəfər idi. Hələ Qazax Seminariyasını qurtaranlar da olub… Bəs, ata tərəfinizi niyə incidiblər?

– Ata tərəfimdən də ağalıq var idi. "Ağalıq" yeri adlanan Şıxlinskilərə məxsus torpaqlar indi də qalır. Birinci Şıxlıya çatmamış, Kürqırağı yerlər Şıxlinskilərin olub. İndi orda üzüm bağı salınıb… Polkovnik atam Rüstəm bəy Şıxlinskini də 1920-ci ildə bolşeviklər güllələdilər. Bizim ailə Bakıdan Qazaxa köçdü. Sonra Gəncə üsyanı oldu. Cavad əmim İrana getdi. Evimizdə başıpapaqlı qalmadı. Anam Qazaxda arteldə dərzi işləyirdi, birtəhər dolanırdıq. 1932-ci ildə olan bir hadisə heç vaxt yadımdan çıxmır. "Çistka" vaxtı idi. Bir gün anamı komsomolçular kluba çağırdılar. Belə yerlərdə heç vaxt olmayan anam getmək istəmirdi, utanırdı. Dedilər ki, Bakıdan "çistka" aparmağa nümayəndə gəlib, getməsən, vəziyyətin daha da pis olar. "Kulak" kimi sürgün edərlər, körpələrinə yazığın gəlsin. Onda anam məni də özü ilə apardı. Yığıncaq başlandı. Səsə qoydular ki, Böyükxanım İbrahimağa qızı Şıxlinskayanın səsi alınsın, yoxsa yox. Yerdən: – Qadındı, köməksizdi, əri, qayını və bir qardaşı güllələnib, bir

qardaşı isə sürgündədir, bağışlansın, – deyənlər çox oldu. Bu vaxt bizim keçmiş nökərimizin komsomolçu oğlu söz alıb kürsüyə çıxdı. Anam ürəkləndi. Utancaq anam ilk dəfə başını qaldırıb ümidlə kürsüyə tərəf baxdı. Nökərimizin komsomolçu oğlu Lenindən, Stalindən, proletariatdan və yeni qurulan kolxozdan odlu-odlu danışırdı. Bəyləri, ağaları təhqir edə-edə birdən üzünü anam tərəfə tutub, əlini irəli uzatdı: – Bu, o Vəkilovlardan, o Şıxlinskilərdəndir ki, proletariatın qanını su yerinə axıdıb. Səsi alınmalıdır. Vəssalam! – deyib kürsüdən fəxrlə düşdü. Anamı işdən çıxardıb, “səsini” aldılar. Ailəmiz hökumət yanında gözükölgəli oldu. Dinə bilmədi, yazıq anam.

Dünya yaxşı adamlardan xali deyilmiş, ay oğul. Bir xeyli sonra anam o vaxtın nüfuzlu adamları Həmid Əfəndiyevə və Sayad Bəhərzalova müraciət etdi. Onlar kommunist olsalar da, vicdanlı adamlar idilər. Anamın səsini qaytarıb, özünü də işə bərpa etdilər. O vaxt əmim Cavad bəy İranda sağ idi. Onda sərhəd çox da möhkəm deyildi, gedib-gələnlər vardı. Xəbər gətirmişdilər ki, general Cavad bəy Şıxlinski Ərdəbil qarnizonunun komandanıdır. Əmimə Azərbaycan Demokratik ordusunda general-mayor rütbəsi verilmişdi. Səhv eləmirəmsə, on doqquzuncu ildə verildiyini anam danışardı. Əmim də, atam da Birinci Dünya müharibəsində tatar polkunun tərkibində vuruşublar, hər ikisi “Müqəddəs Georgi” və “Müqəddəs Vladimir” ordenləri ilə təltif olunublar. Otuz-qırxıncı illərdə o taydan, Cavad bəydən, onun qoçaqlığından yaxşı sədalar gələndə bizim qocalar pıçıltı ilə, ehtiyatla danışırdılar ki, Cavad bəy hərbi işdə atamdan da mahir olub. O, əmisi Əli ağa Şıxlinski qədər qoçaq imiş. 1946-cı ilə qədər eşidirdik ki, əmim sağdır, evlənib iki oğlu – Çingiz, Nəzir və Gövhər adında qızı var.

– Cavad bəy böyük idi, yoxsa atanız Rüstəm bəy?

– Cavad əmim 1874-cü ildə anadan olmuşdu. Yaşı qırxı keçsə də evlənməmişdi. Bizim Şıxlinskilərin arasında gec evlənənlər var.

– Ədilə xanım, elə general Əli ağa Şıxlinski buna canlı sübutdur. O da gec, qırx dörd yaşında evlənib.

– Anam danışardı ki, boy-buxunda, bacarıqda, xasiyyətdə də Cavad bəy əmisi Əli ağa Şıxlinskiyə oxşayırdı. Atamı da, əmimi də Əli ağa babam Tiflisdəki zadəgan balalarına məxsus kadet korpusuna qoymuşdu. Oranı bitirəndən sonra hər ikisini Peterburqa aparır, vaxtilə özünün oxuduğu Mixaylov topçuluq məktəbinə oxumağa qoyur (Cavad bəy bundan əvvəl Konstantin hərbi məktəbini birinci dərəcə ilə bitirmişdi – ***Ş.N.***). Atam, əmim Cavad bəydən iki yaş kiçik idi. Atam Rüstəm bəy 1877-ci ildə anadan olub. Hər ikisi də Qazaxda anadan olub. Sizə danışdıqlarımın hamısını anam yazmışdı, ordan oxumuşam, hara qoymuşam, harda gizlətmişəm tapa bilmirəm… Anam bu yazıları müharibədən qabaq yazmışdı. Deyirdim ki, ay ana, at getsin, bu yazılar nəyinə lazımdır.

Birdən nə olar… Bunlara görə başımız bəlalar çəkər. Anam da arxaçıyınlıqla: "Yox, qızım, – deyərdi, – vaxt gələcək lazım olacaq, belə kişilərin adı batmamalıdır".

– Ədilə xanım, nə general əminiz Cavad bəyin, nə də polkovnik atanız Rüstəm bəyin Azərbaycan milli ordusundakı əvəzsiz xidmətləri itib-batmayıb. Xalqımızın görkəmli oğlu Mirzəbala Məmmədzadənin "Azərbaycan milli ordusunun keçdiyi yollar" məqaləsində onlar barədə məlumat var: "Ağdamda (1918-ci ildə) pulemyot bölüyünə məxsus hazırlıq məktəbi açıldı. Sonralar bolşeviklər tərəfindən edam edilən mərhum miralay (polkovnik) Şıxlı Rüstəm bəyin idarəsi altında topçu hissəsi təşkil edildi". Müəllif yazırdı ki, yenicə yaradılan Müsavat ordusunun birinci diviziyasına mirliva (general-mayor) Cavad bəy Şıxlinski komandan təyin edildi…

* * *

Rusiya Mərkəzi Hərbi Tarix Arxivindən aldığımız rəsmi sənəddə Cavad bəy və Rüstəm bəy Şıxlinski qardaşları haqqında məlumat verilir. Bu sənədlərdən hər iki sərkərdənin 1917-ci ilə qədərki fəaliyyəti göstərilir.

1914-cü il yanvarın 12-də tərtib olunmuş "Xidmət kitabça"-sında podpolkovnik Cavab bəy Şıxlinskinin 1874-cü ildə yanvarın 3-də Gəncə Quberniyasının Qazax qəzasında ağalıq nəslində anadan olduğu göstərilir. İbtidai hərbi təhsilini Tiflis kadet korpusunda aldıqdan sonra yunker Cavad bəy Peterburqdakı Konstantin hərbi məktəbini 1892-ci il avqustun 28-də birinci dərəcə ilə bitirdikdən sonra podporuçik rütbəsi alır. Təhsilini davam etdirmək üçün Artilleriya Zabitləri Məktəbinə daxil olur.

Az müddət Kremençuk şəhərindəki artilleriya batareyasında xidmət edir. 1895-ci il mayın 9-da 39-cu artilleriya briqadasına ezam olunur. O, briqadada tədris işləri üzrə müəllim vəzifəsinə təyin olunur. 1896-cı il avqustun 18-də Qazax qəzasına ezam olunan Cavad bəy süvari ordusuna at toplamaq üçün göndərilir. Sonrakı illərdə Qars və Aleksandropol şəhərlərində xidmətdə olan Cavad bəy Şıxlinski 1901-ci il avqustun 19-da ştabs-kapitan rütbəsi alır.

1904-cü ildə Qars şəhərində beşinci batareyanın komandiri olan Cavad bəy həmin il martın 28-də xidmətdə fərqləndiyinə görə üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunub.

Xidmət yeri tez-tez dəyişdirilən Cavad bəy İranda, İrəvanda, Tiflis quberniyasının Qombarı, Muxrovan ərazilərində, Çarskoe-Seloda müxtəlif hərbi vəzifələrdə ləyaqətlə qulluq etmişdir. 1913-cü il fevralın 21-də ona Romanovlar sülaləsi çarlığının 300 illiyi münasibəti ilə xatirə medalı və podpolkovnik rütbəsi verilir.

Sənədlərdə göstərilir ki, xidmətə başlayan gündən həmişə nümunəvi zabit kimi qulluq etmiş, heç vaxt töhmət almamışdır. Öhdəsinə düşən tapşırığı vaxtında və ləyaqətlə yerinə yetirmişdir.

1913-1914-cü illərdə podpolkovnik Cavad bəy Şıxlinski 23-cü İri Çaplı artilleriya divizionuna komandir təyin olunur. 1916-cı il fevralın 10-da Cavad bəy 45-ci artilleriya briqadasında dördüncü batareyanın komandiri olur. 1917-ci il aprelin 22-də isə Cavad bəy Şıxlinskiyə polkovnik rütbəsi verilir.

İyirmi üç illik imperiya ordusundakı nümunəvi xidmətinə görə polkovnik Cavad bəy Məmməd ağa oğlu Şıxlinskinin döyüş xidmətləri layiqincə qiymətləndirilmişdir. O, üçüncü dərəcəli "Müqəddəs Anna" (16.03.1908), ikinci dərəcəli "Müqəddəs Stanislav" (02.03.1911), ikinci dərəcəli "Müqəddəs Anna" (15.02.1914), dördüncü dərəcəli "Müqəddəs Vladimir" (31.01.1915), dördüncü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və bantla birgə, 29.09.1915), iki dəfə Ali Baş Komandanlığın mükafatı ilə (05.03.1916; 14.10.1916), ikinci dərəcəli "Müqəddəs Anna" (qılıncla birgə, 21.10.1916), ikinci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla birgə, 02.12.1916), üçüncü dərəcəli "Müqəddəs Vladimir" (03.10.1917) ordenləri ilə təltif olunmuşdur.

* * *

Zəngəzurda məskun olan ermənilər İrəvan daşnaklarının təhriki ilə bu vilayəti özlərinə ilhaq etmək niyyətilə Azərbaycan hakimiyyətini tanımırdılar. 1919-cu ilin oktyabr ayında general Cavad bəy Şıxlinskinin komandanlığı altında Zəngəzur ermənilərinə qarşı hərbi yürüş oldu. Bu səfər bir aydan artıq davam etdi.

Zəngəzurdakı erməni milli hissələrinə qarşı hərbi əməliyyatlar aparan Cavad bəy Dığ kəndi ərazisində düşmənin möhkəmləndirilmiş istehkamlarını dağıdır və kəndi onlardan təmizləyir. Az sonra ingilislərin işə qarışması ilə hücum dayandırılır. Noyabrın iyirmi üçündə olan barışığa əsasən erməni hərbi hissələri Zəngəzur ərazisini tərk edir.

General Cavad bəy Şıxlinskinin 1919-cu il noyabrın səkkizində həmin döyüşlər barədə Hərbi Nazirliyə göndərdiyi bir teleqram Mərkəzi Dövlət Arxivində saxlanılır.

"Adamların həddindən artıq yorulduqlarını və Dığ kəndini əldə saxlamağın mümkün olmayacağını müəyyənləşdirdikdən sonra, mən qrupu Zabıx çayının şimal sahilinə çəkməyi və əlverişli mövqe tutmağı qərara aldım.

Bütün hissələr çayı sağ-salamat keçib müəyyən olunmuş mövqeyi tutdular. Enişi enərkən toplardan biri yoldan çıxdı və dərəyə düşdü, onu çıxartmaq mümkün olmadı. Həmin topun açarını, təkərlərini və mühüm hissələrini söküb götürdük. Top bizim mövqeyimizin yaxınlığındadır, çalışıram ki, ayın doqquzuna kimi çıxarıb aparaq. Mənim bütün göstərişlərimi yerinə yetirmək üçün Yadigarovun dəstəsi Abdallara gəlib.

Qəhrəmanlıqla həlak olan Cavanşir alayının podpraporşiki Muradovun və Zaqatala alayının praporşiki Qazıyevin böyük cəsurluğunu xüsusi qeyd etməliyəm. Bizim artilleriyada əla döyüş xidmətləri olan podpolkovnik Novruzovun məharətini də unuda bilmirəm. Bizim itki belədir: Zaqatala alayından həlak olan və itkin düşən qırx nəfərdir, əlli nəfəri isə yaralanıb. Cavanşir alayından beş nəfər həlak olub, iyirmi nəfər yaralanıb. Şəki alayından iki nəfər yaralanıb, Qarabağ alayından isə ikisi və artilleristlərdən bir nəfər yaralanıb. Zabitlərdən üçü həlak olub, dördü isə yaralanıb. İtkilərimizin sayını əlavə olaraq yenə Sizə bildirəcəm.

***General Cavad bəy Şıxlinski,***
***Abdallar kəndi"***

1920-ci ilin martında erməni daşnakları güclü silahlı qüvvə ilə Qarabağa hücum edəndə general-mayor Cavad bəy Şıxlinski də həmin döyüşlərdə inamla vuruşmuşdur. O günlərdə onun Nazirlər Sovetinin və Dövlət Müdafiə Komitəsinin sədri Nəsib bəy Usubbəyliyə vurduğu üç təcili teleqram saxlanılır.

***"23 mart 1920-ci il***[1]

Bu gün dan ağarmamış ermənilər Əsgərana hücum edib, qalanın bir hissəsini alıblar. Teleqraf xəttində mənim verdiyim məlumat poçtda kəsilir. Mən təsadüfən buraya gəlmişəm. Fövqəladə hadisə barədə Sizə məlumat verməyi özümə borc bil-

[1] Bakıdan alınan günü qoyulan tarixdir. Hər üç teleqramda eyni tarix qoyulub – ***Ş.N.***

dim. Yerli qəza rəisi ilə birgə köməkçi qoşun dəstələri yığırıq. Bu məlumatı Bərdə və Tərtərə də çatdırmışam.

***General Cavad bəy Şıxlinski,***
***Ağdam".***

***"Nəsib bəy Usubbəyliyə***

Əsgəranı ermənilər artıq zəbt ediblər. Aldığım məlumata görə ermənilər bütün yüksəklikləri ələ keçiriblər. Əsgərandan qaçıb gələn uryadnik və strajnikin dediklərinə görə Xankəndi istiqamətində döyüşlər səhər tezdən başlayıb. Hələlik atəş kəsilib. Hava bərk dumanlıdır. Bizim partizanlar Əsgəran və Ağdam mövqelərini ələ keçirdilər. Artıq ermənilərə qarşı döyüşlər davam edir. Parlamentin üzvü Qara bəy Əliverdiyevin təşkilatçılığı sayəsində Müdafiə Komitəsi və yaralıları müalicə şöbəsi təşkil edilib.

***General Cavad bəy Şıxlinski,***
***Ağdam."***

***"Nəsib bəy Usubbəyova***

Əsgəran qalasının bir hissəsini döyüşlə geri almışıq. Burada hökumət nümayəndələrindən heç kəs yoxdur. Qəza rəisini tapa bilmədik. Özüm köməkçi dəstələr təşkil edirəm. Yerli partizanlara gözətçilər göndərdim. Başımızdan keçəcəyik, amma Əsgəranı düşmənə verməyəcəyik.

***General Cavad bəy Şıxlinski."***

Cavad bəy Şıxlinskinin komandanlıq etdiyi birinci piyada diviziyası 1919-cu ilin sonlarında Gəncədə yerləşirdi. Diviziya üç alaydan və üç taburdan (batalyon) ibarət idi: Cavanşir alayının komandiri podpolkovnik Səməd bəy Rüstəmbəyov Zaqatala alayının komandiri, polkovnik Əhməd və Dibirov və Gəncə alayının komandiri Cahangir bəy Kazımbəyov idi.

***Təcili teleqram***
***1920-ci il 27 aprel***
***Gəncə. Birinci piyada diviziyasının rəisi, general Şıxlinskiyə[1].***

"Bolşeviklər Yalama stansiyasına hücum etdilər. Onlar dayanmadan irəliləyirlər. Xudatı ələ keçiriblər. Çıxılmaz vəziyyətdəyik. Günü bu gün Qızıl Buruna Qazaxdan bir batalyon və Gəncədən bir batalyon göndərmənizi əmr edirəm. Hər bir batalyonda ən azı 500 süngü və pulemyot olmalıdır. Yük qatarını artıq göndərmişik. Həmin hissələrin gəlməsi vaxtını teleqrafla bildirin. Biz batalyonları sabaha gözləyirik.

***Hərb naziri artilleriya generalı***
***Səməd bəy Mehmandarov".***

Respublika Mərkəzi Dövlət Arxivində saxlanılan daha bir sənəd. Hərbi Dəniz komissarı Çingiz İldırımın və Respublika bolşevik ordusunun müvəqqəti Qərargah rəisi general-mayor Əbdülhəmid bəy Qaytabaşının 30 aprel 1920-ci ildə verdiyi əmrdə oxuyuruq:

"Birinci piyada diviziyasının rəisi, general-mayor Cavad bəy Şıxlinskinin tabeliyində olan, Gəncə və Zaqatala quberniyalarında yerləşən bütün hərbi hissələrə, habelə Qarabağ bölməsinin döyüşçülərinə təcili olaraq XI Qızıl Ordunun komandanlığına hərbi əməliyyatlar zamanı tabe olmasını əmr edirəm.

Bütün başqa hallarda bu hərbi hissələr əvvəlki kimi mənim tabeçiliyimdə qalır".

Nə igid Cavad bəy, nə də onun mərd əsgər və zabitləri bolşeviklərin bu ədalətsiz əmrinə boyun əymədilər. Onlar son gülləni qurtarana kimi Gəncə üsyanını davam etdirdilər…

---

[1] Bu teleqramı bəzi müəlliflər səhvən ***tam artilleriya generalı Əli ağa Şıxlinskinin*** adına dərc edirlər. Əvvəla, Əli ağa Şıxlinski heç vaxt birinci piyada diviziyasının rəisi olmayıb. İkincisi də Əli ağa Şıxlinski 1913-cü ildən 1917-ci ilədək general-mayor rütbəsində olmuşdur. Teleqram, haqqında söhbət açdığımız, onun ***qardaşı oğlu general-mayor Cavad bəy Məmmədağa oğlu Şıxlinskiyə vurulub*** (1874-1959) – **Ş.N.**

İyirminci il aprelin iyirmi yeddisində bolşeviklər Azərbaycanı zəbt edəndə Gəncə qaynar qazana dönmüşdü. Hamı silaha sarılmışdı. O günlərin hadisələrini alay komandiri, polkovnik Cahangir bəy Kazımbəylinin mühacirətdə yazdığı "Gəncə üsyanı haqqında xatirələr"ində daha real görürük. O yazır: "...Mayın iyirmi üçündə səhər saat altıda növbəti fəaliyyət planını və birgə işləri müəyyənləşdirmək üçün şəhərdə olan birinci Azərbaycan diviziyasının rəisi general Cavad bəy Şıxlinskini, Azərbaycan Ordusunun baş intendantı general Məhəmməd Mirzə Qacarı və süvari diviziyasının rəisi general Teymur bəy Novruzovu müşavirəyə dəvət etdim. İlk iki general onların arxasınca göndərilmiş polk adyutantının müşayiəti ilə gəldilər. Küçələrə çıxan əhalinin sevincini xüsusi qeyd etmək lazımdır. Əhali polkun qərargahına gələn hər iki generalı "Yaşasın" sədaları ilə qarşıladı. Onları qərargaha əllərinin üstündə apardılar. Uzun müddət küçələrdə sevinc qışqırtısı eşidilirdi. Yalnız mənim təkidli xahişlərimdən sonra kütləni sakitləşdirmək mümkün oldu. Xalq evlərinə dağılmışdı.

Bu müşavirədə general Məmməd Mirzə Qacar yerli hökumətin ümumi rəhbəri və təşkilatçısı seçilir. Artilleriya generalı Cavad bəy Şıxlinski həm bolşeviklərdən alınmış artilleriyanı, həm də bolşeviklərin pozub-dağıtdıqları Azərbaycan artilleriyasını yenidən təşkil edir.

Mən öz polkuma və partizan dəstələrinin fəaliyyətinə rəhbərlik edirəm".

Ədilə xanımla köhnə albomu yenidən vərəqləyirik. İllərlə arxivlərdə axtardığım general Cavad bəyin və polkovnik Rüstəm bəy Şıxlinskilərin fotoşəkillərinə ilk dəfə burda rast gəlirəm. Sevincimin həddi-hüdudu yoxdur. Yetmiş ildən çox adı, fəaliyyəti hərb tariximizdən yoxa çıxan iki görkəmli sərkərdəmizin qaytarılması üçün Ədilə xanıma təşəkkür edib ayrılıram.

İnqilabın ilk günlərində Müsavat generalı "damğası" ilə təqib olunan məşhur hərbi xadimlərimiz Əli ağa Şıxlinskinin, İbrahim ağa Vəkilovun, Səməd bəy Mehmandarovun, Həbib bəy Səli-

movun, Mirkazım xan Talışxanovun, Firidun bəy Vəzirovun, İbrahim ağa Usubovun, Qalib bəy Vəkilovun, Daniyal bəy Həlləcovun, Əhməd bəy Dibirovun başına nələr gətirilməyib? Vaxtlı-vaxtsız qapıları döyülüb, onlara ağla gəlməyən suallar verilib: bəy baban nə vaxt ölüb, niyə köhnə orduda qulluq eləmisən?. Türkiyədə, İranda neçə qohumun var?

Azərbaycan Demokratik hökumətinin polkovniki Əhməd bəy Dibirovun qızı Nəcibə xanım Abdullayeva hazırda (1995-ci ildə) Bakının Qaqarin küçəsindəki səkkiz nömrəli evdə yaşayır. O, ağrılı-acılı illəri Nəcibə xanım kədərlə xatırlayır:

Atam general Əli ağa Şıxlinski ilə yaxın dost idi. Onların ən böyük arzusu bu dostluğu qohumluğa çevirmək idi. General məni qardaşı oğlu Cavad bəyə istədi. Bu izdivaca atam məmniyyətlə razılıq verdi. 1920-ci ilin mart ayında bizə nişan gəldi. Həmin ilin payızında toyumuz olmalı idi. Gəncə üsyanından sonra hər şey tar-mar oldu. Cavad bəy xaricə mühacirətə getdi. Evlənmək bizə qismət olmadı…

Atam Əhməd bəy general Əli ağa Şıxlinski ilə fəxr edirdi. Onu böyük qardaş, görkəmli sərkərdə kimi çox sevirdi. Hətta generalın 1906-cı ildə Tiflisdə çəkilmiş fotoşəklini böyük ölçüdə çərçivəyə saldırıb evimizdən asmışdı. Atam tutulandan sonra nənəm həmin fotoşəkli zirzəmidə gizlətdi. Şəkil indi də Mahmalardakı evimizdə qalır. (1993-cü ildə polkovnik Əhməd bəy Dibirovun nəvəsi, polkovnik Əhməd Dibirov xeyirxahlıq edib general Əli ağa Şıxlinskinin iriölçülü həmin fotoşəklini Bakıya gətirdi – ***Ş.N.***)

– İstefaya çıxan atam Balakən rayonunun Mahamalar kəndində yaşayırdı. Otuzuncu illərdən başlayaraq çox get-gələ saldılar. Amma onu həbs etmək üçün bir əsas tapa bilmirdilər. Nəhayət, həyat yoldaşım – 1917-ci ildən partiyanın üzvü olan Əmir Abdullayevi həbs etdilər. Səbəbi də bu oldu ki, müsavat polkovnikinin qızına evlənmisən.

…Atam kəndin mərkəzində ağsaqqallarla söhbət edirmiş. Bu vaxt bir xoruz onların yanındakı kötüyün üstünə çıxıb dalbadal

banlayır. Səbri tükənən atam zəhlə tökən xoruza zarafatla: "Ay xoruz, – deyir, – sən də komsomol kimi nə qışqır-bağır salmısan". Xırdaca bir daş atıb xoruzu qovur. Bir azdan evə qayıdan atamı yarıyoldan qaytarıb orqana apardılar. Sorğu-suala tutdular və günahlandırdılar ki, sən nə haqla komsomolu təhqir etmisən. Onu Sibirə sürgün etdilər. Atam o gedən oldu. O gündən mən "xalq düşməni"nin qızı və "xalq düşməni"nin həyat yoldaşı oldum. İki ay sonra bizə xəbər verdilər ki, atanız türmədə ürək partlamasından vəfat etdi.

* * *

İyirminci ildə rusca dərc olunan "Kommunist" qəzeti generallarımızın və ziyalılarımızın təqib olunması barədə kifayət qədər yazılar verib. Azərbaycan bolşeviklər partiyasının orqanı olan bu qəzetin səhifələrini vərəqləyəndə Azərbaycan və onun övladları haqqında ürəkaçan heç nəyə rast gəlmirsən. Əgər iyirminci ilə qədər Azərbaycan tarixindən bixəbər olan adam bu qəzeti vərəqləsə, istər-istəməz düşünər ki, bu xalqda ziyalı yox imiş, bu xalq quldur, sərgərdan, əksinqilabçı, rüşvətxor və oğru imiş.

Yeni bolşevik hökuməti Azərbaycanda özünü möhkəmlətmək üçün XI Ordunun gücü ilə hər cür alçaqlığa əl atıb. Evləri müsadirə, ziyalıları həbs edib, güllələyib, qəddar və vəhşi hərəkətlərini həyata keçirib.

Qəzetin 1920-ci il 29 iyun tarixli nömrəsində oxuyuruq:

"Gəncə Quberniyasının Fövqəladə Komissiyası elan edir: Gəncə Quberniyasının Fövqəladə Komissiyası aşağıda adı çəkilən ailələri girov saxlayır: Qacarlar, Kazımbəyovlar, Şıxlinskilər, Xanxoyskilər ailəsini və Gəncədə iki yüzə yaxın görkəmli burjuaziya sinfindən olan şəxsləri.

Əgər bunlardan kimsə üsyan qaldırmaqda, ya da sui-qəsddə yaxalanarsa, həmin şəxs dərhal sorğu-sualsız güllələnəcəkdir".

"Kommunist" qəzetinin 1920-ci il 30 iyun tarixli nömrəsində yazılır: "Gəncə. İyunun 28-də Tiflisdən gələn yoldaşlar xəbər

verirlər ki, Azərbaycan əksinqilabçılarının hamısı Tiflisin küçələrində veyllənirlər. Hazırda Rəfiyevlər ailəsinin hamısı, general Cavad bəy Şıxlinski, Teymur bəy Novruzov və bütün Şamxor bəyləri də oradadırlar.

Nəsib bəy Yusifbəyov Konstantinopola gedib. Tiflisdə belə bir şayiə də gəzir ki, Gəncə üsyanındakı uğursuz təşkilatçılığına görə Xan Xoyski müsavatçılar tərəfindən qətlə yetirilib[1]. Həm də xəbər verilir ki, Gürcüstanda sovet qoşunları ilə toqquşmada Zaqatala dairəsindəki gürcü əsgərləri onlara güllə atmaqdan imtina ediblər. Ona görə ki, güllələnən zabitlərin yeddi nəfəri gürcü olub".

"Kommunist" qəzeti, 6 iyun 1920-ci il tarixli nömrəsində:

"General Şıxlinski həbs olundu. Gəncə, 3 iyul. Məşhur əksinqilabçı və Gəncə üsyanının təşkilatçısı general Cavad bəy Şıxlinski cinayət axtarış idarəsinin milis rəisi tərəfindən həbs olunaraq Tiflisdəki xüsusi dəstənin sərəncamına verilmişdir.

Gürcülər həbs olunan general Cavad bəy Şıxlinskini ona görə günahlandırırlar ki, o, Azərbaycan Respublikasına gələn gündən (1918-20-ci illər nəzərdə tutulur – ***Ş.N.***) gürcü zabitlərini zorla hərbi işə cəlb etmişdir.

Axırıncı cümlə tamamilə yalan və iftiradır. Əvvəla, tam məsuliyyətlə demək olar ki, "gürcü zabitləri zorla hərbi işə cəlb edilmişdir" sözləri gürcü və Azərbaycan xalqı arasında təfriqə, iğtişaş salmaq naminə işlədilmişdir. İkincisi, heç vaxt 1918-1920-ci illərdə gürcülər zorla Azərbaycan ordusuna çağrılmamışlar. Əksinə, onlar könüllü olaraq Azərbaycan Milli Ordusunda xidmət etmişlər. Hazırda Respublika Mərkəzi Dövlət Arxivində saxlanan sənədlər arasında onlarca gürcü əsgər və zabitlərinin bizim orduda könüllü qulluq etmək haqqında ərizə və raportları

[1] Əslində Azərbaycan Respublikasının Xarici işlər naziri Fətəli xan Xoyski 1920-ci il iyunun 19-da bolşeviklərin muzdla tutduğu erməni qatili Aram Yevkanyan və Misak Qriqoryan tərəfindən Tiflisdə arxadan atdıqları güllə ilə öldürülmüşdü – ***Ş.N.***

saxlanılır. Onların arasında yüksək rütbəlilər də var: Azərbaycan hərbiyyə məktəbinin rəisi, general-mayor Konstantin Davudoviç Çxeidze, 1919-cu ildə birinci süvari diviziyasının Qərargah rəisi Amaşukelli, general-kvartirmeyster V.D.Karqaleteli, general knyaz Makayev, general-mayor Aleksandr Purselidze və başqaları.

Hətta V.D.Karqaleteli 1920-ci il martın 20-də bizim ordudakı nümunəvi hərbi xidmətinə görə 167 nömrəli əmrlə general-mayor rütbəsi ilə təltif olunmuşdur.

O dövrün tarixçisi Cahangir Zeynaloğlu "Müxtəsər Azərbaycan tarixi" kitabında mart hadisəsindən danışanda gürcü piyada bölüyünün təmənnasız köməyini unutmur. O yazır: "O, Tiflisdəki Mavərayi-Qafqaz hökumətinin lütf və mərhəmətilə müsəlman ordusu adı altında ancaq kiçik bir dəstə təşkil edib, düşmən qarşısına, Kürdəmirə göndərildi. Dəstə birinci tatar (Azərbaycan – ***Ş.N.***) süvari alayı ilə yenidən təşkil edilmiş ikinci süvari alayı, bir gürcü piyada bölüyü və bir Gəncə topçu batareyasından ibarət idi. Gürcü bölüyü Bakı məsələsində gürcülərin müsəlmanlar ilə birlikdə hərəkət etmələrinə bir əlamət və müsəlmanlara kömək olaraq göndərilmiş idi".

O vaxtkı Azərbaycan-Gürcüstan münasibətlərindən onlarca belə fakt söyləmək mümkündür. Lakin yeni gələn bolşevik hökumətinin general Cavad bəy Şıxlinski və gürcü zabitləri barədə yazdığı fakt isə iki millət arasında suyu bulandırmaqdan başqa bir şey deyil.

Rusca "Kommunist" qəzetinin bundan sonrakı nömrələrində nə general Cavad bəy Şıxlinski, nə də Teymur bəy Novruzovun haqqında heç bir məlumat verilmir. Bundan sonra Cavad və Teymur bəylərə əli çatmayan bolşeviklər Azərbaycanı tərk etməyən hərbçi oğullarımızın tutatutuna başlayıblar.

Qəzet 19 iyul 1920-ci il tarixli nömrəsində yazır:

"Azərbaycan Sovet Sosialist Respublikasının İnqilabi Səhra Məhkəməsi iyulun 17-də general-qubernator Teymur bəy Məlik

Aslanovun məhkəmə işinə baxmışdır. On dörd nəfər kommunistin şahidliyi ilə Teymur bəyin evindən 280340 rubl pul məbləğində əşya müsadirə olunmuşdur. Teymur bəyin günahı ondan ibarət idi ki, o, müsavata qulluq göstərib və bolşeviklərə qarşı döyüşdə fəal iştirak edib. Ona görə də inqilabi məhkəmə Azərbaycan Dəmiryolu İdarəsinin rəisi, keçmiş müsavatçı olan Teymur bəy Məlik-Aslanova ən ağır cəza verərək, ona ölüm hökmü kəsir. Məhkəmənin qərarı qətidir, şikayət qəbul olunmur".

Qəzetin dörd gün sonra verdiyi bir xəbər isə general Cavad bəy Şıxlinskinin əmisi oğlu haqqındadır:

"23 iyun 1920-ci il. Hərbi Səhra Məhkəməsi Şərif Abdulla oğlu Şıxlinskinin komandiri olduğu fəhlə-kəndli batalyonunda yoxlama aparmışdır. Məlum olub ki, Şərif Şıxlinski 22.600 rubl məbləğində pul və yeməyi mənimsəyib. O, bu pulları hara xərclədiyini söyləsə də inandırıcı olmadı. Müsavatçı olduğunu boynuna aldı. Nəslən bəy və burjuy qalığı olan bu zərərli elementə ona görə də üç il həbs cəzası verilir".

Qarşımda arxivdən çıxarılmış, üz qabığı solmuş, qırx ildən də əvvəl Şıxlinskilərin bir qoluna qarşı tərtib edilmiş kiçik bir qovluq var. Bu işin içində 1949-cu il mayın on yeddisində Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyinin birinci şöbəsinin əməkdaşı mayor Siplis tərəfindən yazılmış və o vaxt üçün tamamilə məxfi sayılan bir arayış var. Həmin arayış Şıxlinskilərin əzab və əziyyətləri üçün əsas olmuşdur. Heç bir şeyə əsaslanmayan və sübuta yetməyən bu saxta sənədin tam mətni belədir. Türkiyədə siyasi mühacir Şıxlinski Qiyas bəy Cahandar bəy[1] oğlu 1895-ci ildə doğulmuşdur. Azərbaycan SSR Qazax rayonu Şıxlı kəndinin sakini, Qazax rayonunun keçmiş nüfuzlu bəyi, Müsavat hökuməti zamanı Gəncədə pristav olmuşdur. 1930-cu ildə siyasi banda yaratmış (?) və Azərbaycanın bir sıra rayonlarında əməliyyatlar keçirmişdir. Sonra qardaşları və quldur dəs-

[1] Xalq yazıçısı İsmayıl Şıxlının "Dəli Kür" romanındakı Cahandar ağadır – ***Ş.N.***

tələri ilə (?) Türkiyəyə mühacirət etmişdir. Müsavat liderlərinin göstərişi ilə Türkiyənin SSRİ ilə həmsərhəd rayonlarında bizim əraziyə göndərilmək üçün quldur dəstələri təşkil etmişdir. Azərbaycan SSR-də gizli antisovet təşkilat yaratmaq məqsədilə həmin quldur dəstələrinin köməyi ilə emissarların göndərilməsi həyata keçirilmişdir. İstər özü, istərsə də Türkiyədə yaşayan yaxın qohumları müsavatçı dairələrlə sıx bağlıdır və SSRİ-yə qarşı təxribat işi aparırlar.

Bu, ağ yalan idi, çünki Şıxlinskilər Türkiyədə olarkən ancaq sovet rejiminə müxalifətdə idilər və öz xalqına qarşı təxribat aparmırdılar. Fransada və digər ölkələrdəki rus mühacirləri kimi bolşevizm diktaturası metodlarını ifşa etməkdə idilər.

Buna görə də Azərbaycan Demokratik Respublikasının süqutundan sonra bolşeviklərin təqibindən mühacirət etmək məcburiyyətində qalan müsavat partiyası liderinin xaricdə olması totalitar rejimə rahatlıq vermirdi. Qiyas bəy Şıxlinski qardaşları və yaxın qohumları ilə onların arasında idilər. Onları Azərbaycan xalqının gözündən salmaq məqsədilə rejim ifşaedici materiallar uydurur, onları "xalq düşməni" kimi göstərməyə çalışır, Azərbaycanda qalan qohumlarını isə ailəlikcə Qazaxıstanın soyuq çöllərinə, Sibirin və Uzaq Şərqin ucqar tayqasına sürgün edirdi.

Bu faciələri oxuyanda istər-istəməz general Cavad bəy Şıxlinskinin vətəni tərk edib İrana mühacirət etməsinə haqq qazandırırsan. İstilaçı XI Orduya qarşı son gülləsinə qədər vuruşan, torpağını yadlardan qoruyan yüzlərlə mərd, igid oğlumuz qürbətdə Vətən, el-oba həsrətiylə dünyasını dəyişdi. Onlardan biri də milli ordu generalımız, Gəncə üsyanının başçısı Cavad bəy Məmmədağa oğlu Şıxlinski idi. O, 1959-cu ildə Türkiyədə vəfat etmişdir.

## Ştabs-kapitan Qiyas bəy Şıxlinski və…

***Vətənə vurulmuş yaranı bizim hər birimiz öz ürəyimizin dərinliklərində hiss etməliyik.***

***Viktor Hüqo (1802-1885)***
***fransız yazıçısı***

Otuz beş yaşında qürbətə düşən Qiyas bəy son nəfəsinə qədər Azərbaycan sevgisi ilə yaşadı, ona qayıtmağa can atdı. Ölkəsində meydan sulayan bolşevik-daşnak düşmənlərinə nifrətini də unutmadı. Gecə-gündüz at belində süvari dəstəsi ilə sovet sərhədlərinə gah Qars və Sarqamış tərəfdən, gah da Başkeçid, Maymaq dağlarından basqınlar etdi. Qiyas bəyin ən ümdə vəzifəsi sovet totalitar rejimində kolxoz və sovxozlarda qul kimi işlədilən həmyerlilərini xilas etmək idi.

1918-1920-ci illərdə Ərəş qəzasının pristavlığında ikinci sahənin rəisi, ştabs-kapitan Qiyas bəy Cahandar ağa oğlu Şıxlinski 1895-ci ildə Qazaxda anadan olub. Aprel çevrilişindən sonra 1930-cu ilə qədər Qazax qəzasında milis rəisi işləyən Qiyas bəy həmin ili bolşeviklərin ədalətsizliyi ilə barışmayıb Türkiyəyə mühacirətə getmişdir. M.C.Bağırovun məhkəməsi sənədlərindən: "Bağırovun antisovet ünsürləri qorumağına və onlara himayədarlıq etməsinə daha bir nümunə keçmiş müsavat pristavı və siyasi bandit, çar zamanı xidmət etmiş Qiyas bəy Cahandar bəy oğlu Şıxlinskinin üzə çıxarılmasıdır. Bağırov onu nəinki üzə çıxartdı, hətta Qazax qəzasında milis rəisi vəzifəsinə də təyin etdi.

O illərdə Azərbaycan Baş Siyasi İdarənin işçiləri arasında Şıxlinski daima Bağırovla yaxınlığını qeyd edirdi.

1930-cu ildə Şıxlinski öz qohumları ilə birgə Türkiyəyə qaçdı. Orada türk kəşfiyyatı ilə əlaqə yaradıb, SSRİ ərazisinə silahlı basqınlar etdi.

İstintaq zamanı M.C.Bağırov təsdiq etdi ki, Qiyas bəy Şıxlinskini o, üzə çıxarıb. Ancaq ona himayədarlıq etmək və müdafiə

etmək faktını dandı. Bağırovun bu ifadələrini 1954-cü ilin 28 avqustunda dindirilmiş şahidlərdən Əliyev Zeynal Mehrəli oğlu təkzib etdi: "Bağırov çox vaxt keçmiş müsavat fəallarını öz tərəfinə çəkir və məsul vəzifələrə təyin edirdi. Belə ki, Bağırovun Qazax qəzasında milis rəisi vəzifəsinə keçmiş müsavat pristavı Qiyas bəy Şıxlinskini təyin etməsi mənim yaxşı yadımdadır. Milis rəisi işləyərkən Şıxlinski sovet hökumətinə heç bir yardım göstərməyib və heç bir xeyirli iş görməyib.

Bağırov Şıxlinskiyə hər cür himayədarlıq göstərirdi. Bundan istifadə edən Şıxlinski yerli sovet hakimiyyəti orqanları ilə hesablaşmır, yalnız Bağırova tabe olduğunu bildirirdi.

Təqribən 1930-cu ildə yerli hökumət cinayətkar fəaliyyətini ifşa etməyə başlayanda Şıxlinski silahlı dəstə ilə Türkiyəyə qaçdı".

Bu ifadələri istintaq zamanı müttəhim T.M.Borşev də təsdiq etdi: "Şıxlinskinin sözlərindən mənə aydın oldu ki, Bağırov onu yaxşı tanıyır. O vaxtlar Qiyas bəy Şıxlinski bununla fəxr edirdi.

İndi yadıma düşür ki, o illərdə Şıxlinski Azərbaycan Baş Siyasi İdarəsinin rəhbər işçiləri arasında dəfələrlə Bağırovla yaxın münasibətindən danışırdı".

Bağırovun Şıxlinskiyə himayədarlıq etməsi sənədlərlə də sübut olunur.

Gəncə vilayət şöbəsi rəisi Qiyas bəy Şıxlinskinin ağır cinayətlərdə iştirakı ilə bağlı məlumat versə də o, məsuliyyətə cəlb olunmamışdır. Bundan əlavə, Qiyas bəy Şıxlinski 1930-cu il mayın 12-də müttəhim Bağırova şəxsi məktub yazıb, onu sıxışdırdıqlarından və antisovet fəaliyyətdə şübhələndiklərindən şikayətlənəndə, Bağırov həmin məktuba aşağıdakı dərkənarı qoyur:

"Yoldaş Neverova. Bir daha vilayət şöbəsi vasitəsilə bu biabırçılıqlara son qoyun. Nəticəsi barədə mənə mayın 21-dək məlumat verin".

Bu məktubdan sonra 1930-cu ilin 29 iyulunda həmin Şıxlinskiyə o vaxtlar Azərbaycan Baş Siyasi İdarəsi Gəncə vilayət şöbəsinin keçmiş rəisi Quliyevin imzası ilə 1345 saylı arayış verildi. Həmin arayışda Qiyas bəy Şıxlinskinin yeddi nəfər silahlı

yoldaşı ilə birlikdə Gəncəyə tərəf hərəkət etməsi göstərilir və ona heç bir maneçilik göstərilməməsi tövsiyə olunurdu.

Çox keçmədi ki, qohumları və həmin silahlı dəstə ilə birlikdə Qiyas bəy Şıxlinski Türkiyəyə qaçdı".

Qiyas bəy Şıxlinski 1909-1914-cü illərdə Qori şəhərindəki Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini bitirmişdi.

* * *

Sovet çekistləri tərəfindən daima təqib olunan Qiyas bəy dəstəsilə Gəncəbasar və Dilican dağlarında gəzib-dolanır. Nəhayət, 1931-ci ilin yanvar ayında Qazax, Dilican və Allahverdi rayonlarından olan səksən beş nəfərlik dəstəsilə Türkiyəyə keçir. Dəstədə onun yaxın qohumu Əmiraslan bəy Tomtiyev, qardaşı Həsən ağa, əmisi oğlu Alay bəy Şıxlinskilər, həmkəndliləri İsrafil bəy, Mustafa ağa, Süleyman ağa və Həmzə bəy Borçalı kimi Sovet hökumətinə nifrət edən oğullar vardı.

Qiyas bəyin Türkiyəyə keçməyindən xəbər tutan Qazax rayonunun xüsusi idarəsinin rəisi Xoren Qriqoryan Şıxlinskilər nəslinə qənim kəsilir. O, bu nəslin yaxın və uzaq qohumlarının əksəriyyətini həbs edib sürgünə göndərir. Qiyas bəyin anası Dürlü xanım, oğlu Kamil həbsxanada vəfat etdilər. Qiyas bəyin iki qardaşını isə güllələdilər. 1935-ci ildə Qiyas bəyin arvadı Badisəba xanım Sadəddin əfəndi qızı, onun yeddi yaşlı qızı Əzizə xanım və 1915-ci il təvəllüdlü oğlu Qiyasla birgə sosial təhlükəli ünsür kimi noyabrın 11-də üç il müddətinə Qazaxıstana sürgün edildilər.

Sürgünlər və həbslər Qiyas bəyin əmisi oğlu Alay bəy Şıxlinskinin ailəsindən də yan keçmədi. Qazax enkevedesi Xoren Qriqoryan Alay bəyin oğlu İsfəndiyarı, qızı Əminəni və Alay bəyin əmisi qızı Şəkər xanım Adil bəy qızını (xalq yazıçısı Mehdi Hüseynin analığı) sürgünə göndərdi.

İkinci Şıxlı kəndində 1883-cü il aprelin 20-də ağalıq ailəsində anadan olan Alay bəy İsfəndiyar bəy oğlu Şıxlinski ibtidai təhsilini kənd məktəbində almışdı. 1897-ci il sentyabrın 1-də Qori

Müəllimlər Seminariyasına daxil olan Alay bəy 1902-ci ildə oranı əla qiymətlərlə bitirmişdi. Müsavat dövründə Zaqatala Quberniya İdarəsinin katibi vəzifəsində işləyən Alay bəy iyirminci illərdə Qazax seminariyasında riyaziyyat müəllimi olmuşdur. 1926-cı ildə sovet hökuməti Alay bəyi, Məhəb bəy Vəkilovu və Məcid ağa Şıxlinskini "keçmişin qalığı" kimi səsvermədən məhrum etdi.

"Yuxarılara" şikayətlər yazan Alay bəy və dostlarına Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin katibi Tağı Şahbazi (1892-1937) zəmanət vermişdir ki, hər üç nəfər uzun illərdir xalq müəllimi kimi xidmət edirlər. Keçmişdə onları polis orqanlarında işləməyə qəza seçki komissiyası təyin etmişdir. Sovetləşmədən sonra onların əməllərində hökumət əleyhinə əsaslı heç nə yoxdur.

1926-cı il iyunun 28-də Tağı Şahbazinin Mərkəzi Komitənin katibliyinə "məxfidir" dərkənarı ilə yazılan bu məktubdan sonra onların səsvermə hüququ özlərinə qaytarılmışdır.

Lakin 1929-cu ildə yerlərdən yazılan danoslara əsasən Alay bəyi yenidən get-gələ saldılar. Yerli-yersiz dindirilmələrdən bezib cana doyan Alay bəy Şıxlinski başına dəstə toplayıb Altıntaxt yaylağına gedib qaçaqlara qoşuldu. Bir il sonra əmisi oğlu Qiyas bəylə birgə Türkiyəyə mühacirətə getdi. Ömrünün axırına kimi İqdırda yaşadı.

Qazax seminariyasında riyaziyyat müəllimi işləyən Alay bəy xalq şairi Səməd Vurğunun, Osman Sarıvəllinin, xalq yazıçısı Mehdi Hüseynin, professor Mehdixan Vəkilovun, görkəmli maarifçi Mirqasım Əfəndiyevin və onlarca seminaristin müəllimi olmuşdur. 1924-cü il buraxılışında müəllim və tələbələrlə birgə çəkilmiş fotoşəkildə Alay bəy də var.

Müəllim Alay bəy Şıxlinskinin dərslərini dərhal mənimsəyən, çətin məsələ və misalları alıcı quş kimi göydə tutan Səməd Vəkilovun haqqında Alay bəy demişdir:

– Bu uşaq ya gora salamat baş aparmayacaq, ya da bundan görünməmiş bir şey çıxacaqdır.

1924-cü ildə seminariyanı müvəffəqiyyətlə bitirən Səməd Vəkilova ən yaxşı xasiyyətnaməni də Alay bəy Şıxlinski vermişdir.

Alay bəy məşhur Qazax qazisi Sadəddin əfəndi Müftizadənin (1837-1916) qızı Gülәndam xanımla ailə qurmuşdu. Əmisi oğlu Qiyas bəylə bacanaq idi. Qiyas bəyin arvadı Badisəba xanım da qazi Sadəddin əfəndinin qızı idi.

Qiyas bəyin Türkiyədəki fəaliyyəti haqqında məlumatı hazırda İqdırda yaşayan qardaşı oğlu Turan Həsən bəy oğlu Alqazaxdan almışıq[1].

Turan Həsən bəy oğlu Alqazax yazır ki, Qiyas bəy dəstəsi ilə Qarsa gəldi. Bir az sonra əmisi oğlu İqdır Milli Əmniyyət müfəttişi Hüsnü Bingölün köməyi ilə İqdırda yerləşdi.

Rus-sovet hökumətinin şikayətindən sonra Qiyas bəy və dostları Vana sürgün edildi. Van yolunda yerləşən Karaköşedən Qiyas bəy Atatürkə zəng etdi. Aralarında belə bir dialoq oldu:

– Sayın Paşam, İqdırdan sürgün edilməyimizin səbəbini bilmək istəyirəm.

Atatürk:

– Başınızın salamat olması üçün bunu etməlisiniz.

– Paşam, ya bizi geri qaytarın, ruslar güllələsin, ya da icazə verin Karaköşedə qalaq.

Atatürk:

– Tamam. Orada qalmağınız üçün Sizə kömək edəcəyəm.

---

[1] Sıxlinskilər nəslinin qədim soyadıdır. Bu barədə Əli ağa Şıxlinski "Xatirələrim" kitabında geniş məlumat verir. O yazır: "Atam İsmayıl ağa Alqazax oğlu Şıxlinski əsli 1537-ci ildən başlayan igid bir nəslə mənsub idi. Bizim ulu babamız Ağdolaq Məmməd ağa Qazax qəzasına Şəmkirdən köçüb gəlmişdir. Onun iki oğlu vardı, böyük oğlu Şıxı – çox ağıllı və sakit, kiçiyi Alqazax – çox igid, amma dəlisov bir adam idi. Mən Alqazaxın nəslindənəm... Böyük oğlundan olan övladlar Şıxızadə familiyasını aldılar, kiçik oğuldan olan bizim nəsil isə Alqazax oğlu familiyasını qəbul etdi. Azərbaycan Rusiya tərkibinə daxil olduqdan sonra bütün yerlilər özləri üçün rus familiyalarına bənzəyən familiyalar qəbul etməyə başladılar, bizim nəslin hər iki qolu Şıxlinski familiyasını qəbul etdi".

Qiyas bəy:

– Sağ olun, Paşam.

Atatürkün əmri ilə yerləşdirmə və əmlak məmurları Qiyas bəyə köməyə gəldi. Qiyas bəy bu yardımdan imtina etdi və öz gücünə yaşamağa üstünlük verdi.

İkinci Dünya müharibəsinin qızğın çağında, 1943-cü ildə Almaniya və Türkiyə arasında gizli saziş bağlandı. Bu müqaviləyə əsasən Qiyas bəy Şıxlinskinin başçılığı ilə Türkiyədə yaşayan Qafqaz xalqları geri qayıdıb Sovet İttifaqını daxildən dağıtmaq üçün yeni bir cəbhə açmalı idilər. Lakın Qiyas bəyin “dostlarından” İman Bolluq adlı birisi bu məlumatları ruslara 20000 (min) lirəyə satmışdır. Qiyas bəylə mühacirlər Doğubəyaziddə silahları ilə bərabər həbs edilmişdilər. Rus hökumətinə xoş olsun deyə, Qiyas bəy mühakimə olundu. Ona edam cəzası kəsildi. Bu hadisədən xəbər tutan Almaniya hökuməti Türk hökumətinə belə bir ultimatum verdi:

– Ya Qiyas bəy azad olunur, ya da Türkiyəyə hücum edəcəyik.

Bundan sonra Qiyas bəy Şıxlinskinin edam qərarı ləğv olunur. O, Gümüxanaya sürgün edilir. Qiyas bəy 1949-cu ildə yenidən Qarsa, 1955-ci ildə Ağrıya gəlir. 1965-ci ildə isə Bandırmada yerləşmişdir. 1970-ci ildə el-oba, qohum-qardaş həsrətli Qiyas bəy vəfat etdi. Qiyas bəy Şıxlinski Ağrıda yaşayanda evləndi, üç oğlu və iki qızı oldu.

Şıxlinskilər Türkiyədə ulu babaları Alqazaxın adını soyad kimi daşımışlar. Qiyas bəyin övladlarından biri Çingiz Alqazax (1938-1992) polkovnik rütbəsində hərbi təyyarəçi kimi şöhrət qazanmışdır.

1990-cı ilin qışında sevimli xalq yazıçısı İsmayıl Şıxlı ilə mənzilində söhbət edirdim. Söhbətimizin əsas mövzusu general Əli ağa və onun general qardaşı oğlu Cavad bəy Şıxlinskilər idi. Həmin illərdə general Əli ağa Şıxlinskinin iki cildini çapa hazırlayırdım. Ona görə də İsmayıl müəllimlə tez-tez görüşürdük, onun köməyinə ehtiyacım var idi. Söhbətarası bığaltı xoş təbəssümlə gülümsünən İsmayıl Şıxlı:

– Sənə mənim bir hədiyyəm var, – dedi. – Dur, o kitab rəfinin üstündəki qovluğu bura gətir.

Qovluqdan çıxan nəsli haqqında nadir bir sənədi və iki fotoşəkli İsmayıl müəllim mənə bağışladı.

Fotoşəklin birində Qiyas bəy 1952-ci ildə Türkiyədə ailəsi ilə birgə çəkilmişdir. Digər şəkildə isə polkovnik Çingiz Alqazax təsvir olunmuşdur.

– Çingiz bəy, – dedi, – Türkiyədə Hərbi Aviasiya Məktəbini bitirib, paraşüt-desant idmanı üzrə Avropa çempionu olub. Türkiyə Silahlı Qüvvələrində şərəflə xidmət edən Çingiz bəy Alqazax yüksək vəzifələr tutmuşdur. Əlli dörd yaşında vəfat edib. Sonuncu vəzifəsi Hərbi Aviasiya Eskadrilyasının komandiri olmuşdur.

Dayısı Qiyas bəylə bağlı kövrək bir epizodu İsmayıl Şıxlı 1989-cu ildə qələmə alıb. Bu təsirli hadisə 1952-ci ildə tənqidçi Məsud Əlioğlugildəki qonaqlıqda olub.

"...Mir Cəlal müəllim hiss edilmədən qabağıma pivə qoymuşdu. Mən hərdənbir qurtum alırdım. Bunu Səməd Vurğun gördü.

– Ə, o nədir, içirsən? Kişi araq içər, araq iç. Neyləyim, yorğun vaxtıma düşübsən, yoxsa sənə necə içməyi göstərərdim.

Mənə araq süzdü.

Hiss etdim ki, gözü üzümdədir. Amma xəyalı hardasa uzaqlardadır. Onu da başa düşdüm ki, mənim üzümə baxa-baxa uşaqlıq dünyasına qayıtmışdır. Bəlkə də bu saat Kür sahilində, Qarayazı meşəsində gənclik dostları ilə gəzir, bəlkə...

Birdən elə bil dirçəldi. Qamətini düzəldib qarmon çalan Feyruza baxdı:

– Ə, a bala, bir "Motanı" çal.

Ayağa durdu. Məni də qaldırdı. Qabaq-qənşər oynamağa başladıq. Burada da gözünü üzümdən çəkmirdi. Ortada bir xeyli fırlanandan sonra gördüm ki, oynaya-oynaya məni küncə doğru aparır. Ev böyük idi. Köhnə binaların hamısında olduğu kimi tavan hündür, qapı-pəncərə genişdi. Küncə çatanda dayanıb

boynumu qucaqladı, üzümdən öpdü. Pıçıltı ilə: "Ə, Qiyas qağama yaman oxşayırsan" – dedi. Gözləri yaşardı. Bildim 30-cu illərdə Türkiyəyə getmiş dayımı deyirdi. Eşitmişdim ki, dost olublar. Amma dayımın adını çəkmək olmazdı. Ona görə xəlvətdə, pıçıltı ilə sözünü deyirdi. Görünür, mənim dayıma oxşamağım onu kövrəltmişdi. Mənim də gözlərim doldu. Başımı vaxtsız qocalmış şairin köksünə sıxıb xeyli dayandım. Bu ani haldan sonra qollarını yenə qaldırdı, heç nə olmamış kimi, oynaya-oynaya geri qayıtdıq. (İsmayıl Şıxlı. "Namərd gülləsi", 1991, səh.141-142)

***Pristav Hüseyn bəy Şərif bəy oğlu Şıxlinski*** (1886-1920) Goranboy və Əhmədli nahiyəsinin pristavı olub. 1920-ci il mayın 13-də Müsavat rejiminin məmuru və Gəncə üsyanının iştirakçısı kimi həbs edilib güllələnmişdir. Əslində isə 1919-cu ilin fevral-mart aylarında bolşevik Qatır Məmmədin quldur dəstəsinin darmadağın edilməsində fəal iştirakına görə Fövqəladə Komissiyasının sədri Semyon Pankratovun göstərişi ilə komissar Qriqoryevin qrupunu həbs etmişdir.

Kar Hüseyn bəy adı ilə bolşeviklərə qarşı əzazil bir şəxsiyyət kimi tanınan pristav Şıxlinski istiqlal hərəkatının fəal mücahidi kimi ad-san qazanmışdı. O, 1886-cı ildə Qazax qəzasının Şıxlı kəndində anadan olmuşdur.

1941-ci ilin ağır günlərində institutda təhsil alan İsmayıl Şıxlını kulak oğlu kimi dövlət imtahanına buraxmaq istəmirlər. Onda imtahan komissiyasının sədri Mikayıl Rəfili köməyinə gəlir. Sonralar – 1988-ci ildə İsmayıl Şıxlı "Ayrılan yollar..." xatirə məqaləsində belə bir epizodu qələmə alıb:

"Bilirsənmi, sənə bu hörməti niyə etdim?" Çiynimi çəkdim. O isə sözünə davam etdi: "Əlbəttə, müəllimlərin də sənə kömək etdi. Özündən də xoşum gəldi. Amma əsas səbəbi odur ki, Müsavat vaxtı məni Gəncədə tutmuşdular. Yəqin sənin qohumlarından olan Sıxlinski familli bir pristav (Hüseyn bəy – ***Ş.N.***) məni azad etdi. İstədim yaxşılığın əvəzini verəm". Pristavın kim olduğunu bilmirdim. Həmişə bu familin əziyyətini çəkirdik. İlk

dəfəydi ki, yaxşılığını gördüm. O, sözlərini astaca dediyi kimi, mən də təşəkkürümü astaca söyləyib çıxdım.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının ordusunda Şıxlinskilər nəslinin nüfuzlu oğulları ləyaqətlə xidmət etmişlər.

***Polkovnik Rüstəm bəy Məmmədağa oğlu Şıxlinski*** 1912-1913-cü illərdə Birinci Qafqaz atıcısı artilleriya divizionunda ştabs-kapitan rütbəsində xidmət edib. 1918-ci ildə Topçu hissəsinin və Ağdamdakı pulemyot məktəbinin rəisi idi.

1919-cu il fevralın beşindən Əlahiddə ağır top divizionunun və 1920-ci ilin əvvəlində İkinci Artilleriya briqadasının komandanı, 1920-ci il iyunun 11-də şübhəli şəxs kimi Az.ÇK-nın əməkdaşları Troyan və Polyakov tərəfindən Bakıda həbs edilib güllələnmişdir. Məşhur generalımız Əli ağa Şıxlinskinin qardaşı Məmmədağanın kiçik oğludur. 1877-ci ildə Qazaxda anadan olub. Tiflisdəki kadet korpusunun və Peterburqda Mixaylovski Ali Topçuluq Məktəbini bitirib. Birinci Dünya müharibəsində birinci Qafqaz atıcı artilleriya divizionunda kapitan rütbəsində döyüşüb. Cəbhədəki döyüş xidmətləri IV dərəcəli "Müqəddəs Anna" (üzərində "İgidliyə görə" yazısı ilə) və IV dərəcəli "Müqəddəs Vladimir" (qılınc və bantla birgə) ordenləri ilə qiymətləndirilib.

***Poruçik İsrafil bəy Ağa oğlu Şıxlinski*** 1918-ci ildə Gəncədə Hərbi Məktəbi bitirib. Məktəbdə ikinci rotanın praporşiki vəzifəsində işləyib. 1897-ci il sentyabrın 10-da Qazaxda zadəgan ailəsində anadan olub. Qori şəhərindəki seminariyanın Azərbaycan şöbəsini bitirib. İyirminci ilin aprelində bolşeviklər gələndə Az.ÇK-nın yanında qısa müddət xüsusi təyinatlı dəstənin komandiri olub. Müsavatın tərəfdarı və Sovet hökumətinin qatı düşməni olduğuna görə ittiham edilib. 1926-cı ildə Solovetsk həbs düşərgəsinə sürgün olunub.

***Əli ağa oğlu Şıxlinski*** İkinci Zaqatala piyada alayında Hərbi təhsil komandasının praporşiki.

***Abdulla ağa Omar ağa oğlu Şıxlinski*** 1899-cu il yanvarın 5-də Qazaxda anadan olub. 1918-ci il aprelin 6-da Bakı Realnı Məktəbini bitirib. Həmin ili atası Omar ağa qəflətən vəfat etdiyinə görə əmisi general Əli ağa Şıxlinskinin himayəsində yaşayıb. Azərbaycan Milli Ordusunda yunker rütbəsində xidmət edib. Sovet tibb elmində görkəmli mütəxəssis, tibb elmləri namizədi kimi məşhur idi. Abdulla ağa 1970-ci il mayın 23-də Bakıda vəfat edib.

# ŞIXLİNSKİ NƏSLİNİN ŞAİRLƏRİ
## (Kazım ağa Salik, Mustafa ağa Arif, Abdulla ağa, Mirzə Məhəmməd Fədai və Əli ağa Şıxlinski)

***Firidun bəy Qafqazın hər yerini özünə vətən bilirdi, hər yerinə təfavütsüzcəsinə məhəbbəti var idi. Hətta bəzi yerləri, məsəla, Qazaxı doğma yurdu Qarabağdan artıq sevərdi… Hər halda burası inkar ediləsi deyil ki, Firudin bəy Qazaxı çox sevərdi, çünki Azərbaycanın bir çox şairləri burdan törəmişdi.***

***Fərhad Ağazadə (Şərqli) (1880-1931)***
***görkəmli maarif xadimi***

Əgər Firidun bəy Köçərli kimi ədəbiyyatşünas-alim, mahir toplayıcı olmasaydı, XVIII-XIX əsrlərdə yaşayıb-yaratmış şairlər haqqında biz çox az məlumata malik olardıq. Təkcə qazaxlı şairlərin üzə çıxarılmasında yox, eləcə də Şirvan, Qarabağ, İrəvan, Şəki, Quba, Gəncə və başqa bölgələrin klassik şairlərinin ədəbiyyat tariximizdə yer alması Firidun bəyin əvəzsiz xidməti sayəsində olmuşdur.

Mustafa ağa Arif (1774-1845), Kazım ağa Salik (1781-1842), Şıxlinskilərin, Əbdürrəhman ağa Dilbazinin (1755-1806), Mirzə Məhəmməd Fədainin, Mustafa ağa Nasirin (1850-1890), İsgəndər ağa Qiyasbəyovun (1820-1873), Mirzə Nəbi əfəndi Qayıbovun (1810-1869), Şahnigar xanım Rəncur Qiyasbəyovanın (1850-1890), Hacı Rəhim ağa Dilbazovun (1823-1875), Yəhya bəy Məhəmməd ağa oğlu Qazağinin (? – 1841) Abbasağa Nazirin (1849-1919) barəsində ilk dəfə cəfa çəkib yazan, xalqımıza tanıtdıran Firidun bəy Köçərli olmuşdur. Demək, Fərhad Ağazadə kimi alim şəxs çox doğru deyir ki, Firidun bəy Qazaxı çox sevərdi.

Kazım ağa Şıxlinski özünə Salik (ərəbcə "düz yolla gedən" deməkdir) təxəllüsü götürmüşdür. Firidun bəy Köçərli yazır ki, Molla Pənah Vaqifdən sonra mərhum Kazım ağa Salik nəinki vahid Qazax mahalında, bəlkə, tatami Zaqafqaziyada zühur edən şairlərin müqtədirlərindən birisi hesab olunur.

1781-ci ildə Şıxlı kəndində ağalıq ailəsində anadan olan şair ev təhsili almışdı. Həmin illərdə Şıxı ağanın, Ağdolaq Məhəmməd ağanın və Alqazax ağanın övladları əsasən Kür çayının sahilindəki Qazaxlı, birinci və ikinci Şıxlı kəndlərində sakin idilər. Böyük sərkərdə Əli ağa Şıxlinski də 1865-ci il martın 3-də ulu babasının adını daşıyan Qazaxlı kəndində anadan olmuşdu. Həmin kənd 1927-ci ildə Kür çayı bərk daşdığına görə əhalisi Aşağı Salahlıya, Qazaxbəyliyə, Şıxlıya və qəza mərkəzi Qazaxın özünə köçüblər. Kənd xəritələrdən belə silinib, indi yurd yeri qalıb.

Kazım ağa Şıxlinski öz nəsli haqqında bir şeirində belə məlumat verir:

*Şeyxzadə deyərlər bizlərə, gəlmiş Qazaxlıdan,*
*Şıxlı qəryəmizdir, həm bizik ol qəryə ezazi*[1]*.*

Anası nəcib Dilbazilər nəslindən olan Kazım ağa Şıxlıda dünyaya gəlib, altmış bir il ömür sürmüşdür. Qəbri Şıxlı kəndindədir. Zəmanəsinə görə kamil biliyi olduğuna görə Kazım ağa fars, türk və cığatay dillərində qəzəl, qoşma və müxəmməslər yazmışdır.

Şair farsca yazdığı bir beytində deyir ki:

*Şeir qoşanda Salik qəvvas olarsa,*
*Qəzəl dənizindən gövhərlər çıxarar.*

Kazım ağa Şıxlinskinin böyük qardaşı Mustafa ağa rus ordusunda mayor rütbəsində xidmətdə idi. 1826-1830-cu illərdə Qaf-

[1] E z a z i – hörmətli-izzətli

qazda istilaçı ruslara qarşı tez-tez üsyanlar olduğuna görə nüfuzlu bir şəxs kimi Mustafa ağadan şübhələnir və dekabristlər üsyanının təsiri qorxusu ilə vahiməyə düşən canişin general-leytenant A.P.Yermolov Mustafa ağanı Sibirə sürgün etdir. Həmin illərdə Şıxlı qəriyəsindən mindən çox kəndli üsyan edib vergi verməkdən boyun qaçırır. Sürgündən Molla Vəli Vidadinin oğlu, alim və fazil bir şəxs olan Osman Əfəndiyə (1785-1850) nəzmlə məktub yazıb rica edir ki oğlu Əli ağanın təhsilində göz olsun, onu məktəbi buraxmağa qoymasın.

*Olma tarik dərsdən, ey nuri-canım Əli!*
*Pəndimi eylə qəbul, ey xanü-xaqanım Əli!*
*Var ümidim etməyə zaye Əfəndi səyini,*
*Qoyma dərsdən bir kəm-kəsir Osmanım Əli!*
*Mən səninçün eylərəm xeyir-dualar ruzu şəb,*
*Saxlasın hifzü himayətində sübhanım Əli!*
*Gərçi, ey dil, mən Əbubəkrü Ömər, osmaniyəm,*
*Həqq imamımdır mənim ol şiri-mərdanım Əli!*
*Olsun, Arif, həşrdə əvvəl şəfin Mustafa,*
*Sonra Əbubəkrü Ömər, Osmanü aslanım Əli!*

Şair, Mustafa ağa Arifin oğlu Əli ağa sonralar məşhur Muğan alayının polkovniki olub. Mirzə Fətəli Axundov 1857-ci ildə yazdığı "Müxəmməs"ində (M.F.Axundov. Əsərləri, I c., səh. 344) belə xatırlayır:

*Tiflis müsəxxər sənə, ey duxdəri-tərsa!*
*Aşiqlərinə məbəd olub deyrü kəlisa!*
*Məndən sənə vəsf istədi Şıxlı Əli ağa,*
*Dedim səni vəsf etməyə mənəndi-Məsiha,*
*Rühulqüdüs imdadı gərək nitqi-Məsiha.*

Bəzi tədqiqatçılar Mirzə Fətəli Axundov "Müxəmməs"ində adı çəkilən Əli ağanı məşhur general Əli ağa Şıxlinski hesab edir.

Bu fakt tamamilə səhvdir. Çünki Əli ağa Şıxlinski 1865-ci ildə anadan olub. Hələ anadan olmayan Əli ağa Şıxlinski Mirzə Fətəli ilə necə görüşə bilərdi?

Mustafa ağanın "Arif" təxəllüsü ilə sürgündən yazdığı qoşmaları və oğlu Əli ağaya qəzəlləri az da olsa qalmışdır.

Dərdli şair Kazım ağa Şıxlinski qardaş həsrətli şeirində yazırdı:

*Biri Arif, ona cövr etdi dövran*
*Ki, qürbətdə şəhidü-mübtəladır.*

Gürcüstan Mərkəzi Dövlət Arxivində saxlanan sənədlərdən məlum olur ki, Mustafa ağa Arif Şıxlinski 1845-ci ildə Kazan şəhərində vətən həsrəti ilə şəhid olub.

1993-cü ildə görüşdüyüm görkəmli geoloq, şairin təxəllüsünü ad kimi daşıyan, nəvə Arif Şıxlinskinin (1929-1995) yaddaşından:

– Nənəm Aişə xanım həmişə babam Mustafa ağa Arifi kədərlə yad edərdi. İllaha, evdə mənim adım çəkiləndə nənəm dərhal vaxtı ilə babamın Sibirdən göndərdiyi qoşmasının bir bəndini qəmli-qəmli zümzümə ilə oxuyardı:

*Üstümə gələydi bir pak müsəlman,*
*Üzümə örtəydi ağı, ey fələk.*
*Sibir yolunu fikr eyləməkdən,*
*Əridi ürəyin yağı, ey fələk.*

Rusiyada sürgündə olanda Mustafa ağa Arif ən çox məktublaşdığı qardaşı Kazım ağa Şıxlinski olmuşdur. Bu məktublar nəzmlə yazılıb:

*Din qönçəsi qan olub, açılmaz,*
*Yüz min gər ola bahar, sənsiz.*

*Ey gül, gecə-gündüz Arif ağlar,*
*Bülbül kimi zar-zar sənsiz.*

Kazım ağa Şıxlinskinin cavabından:

*Canım çıxar oldu həsrətindən,*
*Ömrüm gedər oldu badə sənsiz.*

*Çəkmiş həvəsin şikəstə Salik,*
*Nə qövmə baxar, nə yadə sənsiz.*

Mustafa ağa Arifin Respublika Əlyazmalar İnstitutun arxivində saxlanan "Düşmüşəm" qoşmasında qohum-qardaşını, ömrünün əlli yaşı ötdüyünü qubar hissi ilə yad edir. Şair bircə arzu ilə yaşayır. Qürbətə nifrət, vətənə məhəbbətin ülviliyi ona inam aşılayır. Ümid edir ki, bircə tezliklə obası Qazaxı görsün, ondan sonra ölsün, onda bilərəm ki, haqq məkana düşmüşəm.

*Başına döndüyüm elim, ulusum,*
*Nə müddətdi pisilyanə[1] düşmüşəm.*
*Gülüstan içində ömür sürmüşdüm,*
*On ildir ki, zimistanə düşmüşəm.*

*Diyari-qürbətdə dərdim bilən yox,*
*Ağlayanda göz yaşımı silən yox,*
*Ömür keçdi, bir yanıma gələn yox,*
*Elə bil ki, qəbristanə düşmüşəm.*

*Biqeyrətlər durdu mənim qəsdimə,*
*Utanmayıb böhtan atdı üstümə.*
*Odlanıram, gələn yoxdu tüstümə,*
*Baş götürüb biyabanə düşmüşəm.*

*Çoxdandı əllini ötübdü yaşım,*
*Tutulub qıçlarım, ağarıb başım.*

[1] P i s i l y a n – "поселение" sözünün təhrif olunmuş formasıdır, "sürgün" deməkdir – **Ş.N.**

*Əlimdən gedibdi yarü yoldaşım,*
*Qan-yaş dolu bir ümmanə düşmüşəm.*

*Mən Arifəm, bir Qazağı göreydim,*
*Camaatla halallaşa bileydim.*
*Elə o gün obamızda öleydim,*
*Deyəydim ki, haqq məkanə düşmüşəm.*

### *Kazım ağa Salik Şıxlinskinin bayatı boğçası*

Hər dəfə Respublika Əlyazmalar İnstitutunda işləyən dostum Seyfəddinin yanına yön salanda maraqlı bir faktın şahidi oluram.

…Təxminən on-on iki il əvvəlin söhbətidir. Bir günortaüstü yenə dostuma baş çəkməyə gəldim. İş otağı bağlı idi. Geniş foyenin açıq pəncərəsindən onun məşhur alim Məmmədağa Sultanovla yanaşı oturduğunu gördüm. Həyətə düşüb onlarla görüşdüm. Məmmədağa müəllim Seyfəddinə ötən illərdə görüşdüyü xas kişilərdən maraqlı söhbətlər edirdi. Belə söhbətlərin vurğunu olduğumdan cınqırımı çıxarmadan mən də oturub diqqət kəsildim. Bu nurani kişi, gözəl alim elə dəqiqliklə və yığcam danışırdı ki, adam istər-istəməz ona həsəd aparırdı. Fasilə vaxtı olduğundan o, bir-iki dəfə ötəri saatına baxıb ayağa durdu. Bir neçə addım atar-atmaz zəndlə mənə baxıb:

– Seyfəddin, – dedi, – səni qonağın gözləyir, məni də hökumət işi. Gedək...

Seyfəddin əlini çiynimə qoyub:

– Qonağım jurnalistdir, – dedi, – tarixi əhvalatlarla, Sizin haqqında danışdığınız kişilərin söhbətlərilə çox maraqlanır.

Məmmədağa müəllim təəccüblə mənə baxıb:

– Suyu şirindi, tanış gəlir, – dedi, – harada görmüşəm anlaşdıra bilmirəm.

– Mənim dostumdu. Tez-tez gəlir bura. Televizorda çıxış eləyəndə görə bilərsiniz. Ən çox da hərbi verilişlərdə çıxış edir.

– Generallardan, sərkərdələrdən danışır, eləmi?

– Özüdür ki, var. – Seyfəddin sevinclə cavab verdi.

Mən ürəklənib:

– Məmmədağa müəllim, – dedim, – təkcə generallarla yox, həm də keçmiş şairlərlə maraqlanıram. Xüsusilə, XIX əsrin və XX əsrin əvvəllərində yaşayıb-yaratmış sənətkarların həyatından mütaliə eləməkdən çox xoşum gəlir. Sizin bu sahədə xidmətiniz çox böyükdür. Amma icazə verin soruşum, niyə indiyədək Abbasqulu ağa Bakıxanovun tam külliyyatı nəşr olunmayıb? Siz bu sahə ilə neçə illərdi ki, məşğul olursunuz. Nə vaxtadək təkrar-təkrar bir cildliyi oxuyacağıq? Orada əsərlərinin əksəriyyəti də ixtisarla nəşr olunub. Qarşıdan Abbasqulu ağa Qüdsinin 190 illiyi gəlir, heç olmasa, onda oxuya biləcəyikmi?

– Haqlı sualdı, haqlı tələbdi, oğul. Hələ bir neçə il əvvəl (o dəqiq dedi, amma mən unutmuşam) Abbasqulu ağanın əsərlərinin tam külliyyatını nəşrə hazırlayıb təqdim etmişəm. Nəşriyyata gedib-gəlməkdən daha utanıram. Hələ dəqiq bir şey hasil olmur. Yüz doxsan illiyinə söz verirlər, amma bilirəm ki, yalan deyirlər. Üzüm də gəlmir deyəm ki, ay nəşriyyat işçisi, oğul, mənə niyə yalan danışırsan? Görək, ya qismət, amma laqeyd millətik, klassiklərimizə laqeyd… Sən ondan dissertasiya yazırsan-nədi?

– Yox, – dedim, – sadəcə olaraq yaradıcılığının vurğunuyam. Bir də mənim ən çox xoşuma gələn şair Abbasağa Nazir Qayıbzadədir. Siz onun rübailərini "Keçmişimizdən gələn səslər" almanaxında dərc etdirmisiniz. Məndə bir "Bəyani-halım" adlı poeması və xeyli də şeirləri var. İstəyirəm, onun və inqilabdan əvvəl yazıb-yaratmış qazaxlı şairlərin əsərlərini toplu halında nəşr elətdirəm. Bir xeyli toplamışam. Amma sizin köməyiniz olmasa, bu işin öhdəsindən çətin gələm…

– Yaxşı fikirdi, xüsusilə, Nazir inqilabdan sonra tədqiqatsız qalan şairdir. Bilirsənmi, Nazir harda dəfn olunub?

– Bilirəm, Qazaxda, doğma kəndi Salahlıda, qəbrini ziyarət də eləmişəm. 1919-cu il dekabrın 31-də vəfat edib. Onun ölümü Firidun bəy Köçərlini yandırıb-yaxıb.

Getməyi unudan Məmmədağa müəllim həvəsə düşüb:
– Qulaq as, gör bir Nazir yana-yana nə deyir:

*Nazir, bədənin xakilə yeksan olacaq,*
*Dərda ki, vücudun evi viran olacaq.*
*Tən rifğət edib əslinə xak olsa nə qəm,*
*Səd heyf ki, gənci-nəzm pünhan olacaq.*

Buradan oxucu elə başa düşməsin ki, Nazir hər şeydən əlini üzmüş, həyatdan küskün bir insandır. Xeyr. Nikbin bir şair olan Nazir bu rübaisində deyir ki, mən öz ölümümə heyfsilənmirəm. Heyfsilənirəm ki, məndən sonra şeir xəzinəsi pünhan olacaq. Məndə şair Abbasağa Nazir Qayıbzadənin şeirləri, qəzəl və tərcümələri çoxdur. Bu günlərdə Kazım ağa Salik Şıxlinskinin də bayatılarını tapmışam. Gələrsən yanıma verərəm, sal onları da kitaba.

Müdrik söhbətlərindən doymasam da, onun ayaq üstə qalmağına qıymırdım. Məmmədağa müəllim pillələnin yanına kimi ötürdüm. O, ayaq saxlayıb:

– Gələn çərşənbə gözləyəcəyəm, – deyib asta addımlarla mərmər pillələri qalxdı.

Onun dediyi vaxtda görüşünə gəldim.

– Otur, mən deyim, sən yaz, – dedi.

…Xalqımız üçün qiymətli poetik söz xəzinəsi qoyub getmiş görkəmli şairimiz Kazım ağa Salik Şıxlinskinin (1781-1842) bayatılarını möhtərəm oxucularımıza təqdim edirəm.

Heç vaxt oxucu nəfəsi görməyən, bu dadlı-tamlı söz incilərində doğma Qazağın füsunkar təbiəti və Salikin vüsalına yetmədiyi ilk məhəbbəti vəsf olunur.

Bayatıları mənə təqdim edən mərhum professor Məmmədağa Sultanova Allah rəhmət eləsin. Qoy, müqəddəs torpaq ona qu tükü qədər yumşaq olsun.

*Yol düşdü Didivana,*
*Ərzini de divana,*
*Salik, gəldi həmdəmin,*
*Aqilən de divana.*

*Zəmin nədir, səma nə,*
*Daşa tutar zəmanə,*
*Qəm xərmənində Salik,*
*Axır döndü samanə.*

*Görünən Qaraçaldı,*
*Canım qaraçı aldı,*
*Sinəndən öpdü Salik,*
*Ağzını qara çaldı.*

*Guş etmə hər ədnayə,*
*Gəl gedək hər adnayə,*
*Sana kim dedi, Ceyran,*
*Yoldaş ol hər ədnayə.*

*Dərya var, yazı vardır,*
*Kağızda yazı vardır,*
*Salik, hicran qışının,*
*Demək ki, yazı vardır.*

*Görünən Haçaqaya,*
*Şir ver ha bu çağaya,*
*Salik, günəş camalın,*
*Dəyişər haçaq aya.*

*Yapışıb yüzmə zəli,*
*Danışır yüz məzəli,*
*Salik dost ətəyindən,*
*Ölüncə yüzməz əli.*

*Xədəngin yay iləndir,*
*Xasilar yayiləndir,*
*Ceyran, zülfün həlqəsi,*
*Ya əqrəb, ya ilandır.*

*Kamanın ox ilandır,*
*Həriflər oxilandır,*
*Geysu*[1] *deyil yüzündə,*
*Ceyran qaç, ox, ilandır.*

*Çəkməsin mərdim azar,*
*Mərd deyil, mərdiməzar,*
*Bulud zülfündə Ceyran,*
*Gəzməsin mərdiməzar.*

*Məclisin nə şamı var,*
*Nə Bağdad, nə Şamı var,*
*Salik, dəli Ceyranın,*
*Nə sübhi, nə şamı var.*

### *Abdulla ağa Şıxlinski*

XIX əsrin ortalarında yazıb-yaradan Şıxlinski şairlərindən biri də Abdulla ağa Şıxlinski olmuşdur. O, çar ordusunda 1830-1860-cı illərdə mayor rütbəsində xidmət etmişdir. Görkəmli şair Mustafa ağa Arifin oğludur. Doğum və ölüm tarixi haqqında heç bir məlumat yoxdur. Klassik şeirin ənənələrinə dərindən bələd olan Abdulla ağanın əlimizə yalnız bir qəzəli gəlib çatmışdır. Vaqif təxəllüsü ilə yazdığı həmin qəzəl onun parlaq, şairlik istedadından, dövrünün ziyalı şəxsiyyətlərindən biri olmasından xəbər verir.

*Bil ki, bu çərxi-fələk heç kimə yar olmaz,*
*Olsa nadana məgər, aqilə zinhar olmaz.*

1 G e y s u – zülf, hörük, saç

*Qızarıb şamü-səhər etdiginə şərm etməz,*
*Açulur hər gün özü, munda namus, ar olmaz.*

*Dolanır leylü nahar, yıxmaq üçün tikdiyini,*
*Əməyi puç, dizi sıyrıq, belə memar olmaz.*

*Bir deyən yox ki, buna bu nədir, ey xanəxarab,*
*Bari tut xəlvətidə qəhbəlik, aşkar olmaz.*

*Çək qələm, çəkmə cəfa, getdi tamam ariflər,*
*Vaqifə, agah degil Salikə izhar olmaz.*

## *MİRZƏ MƏHƏMMƏD QAYIB oğlu QAYIBOV – təxəllüsü FƏDAİ*

Molla Vəli Vidadinin atası Məhəmməd ağa 1725-ci il müharibəsində həlak olduğundan Poyludan olan anası Xədicə xanım on səkkiz yaşlı oğlunu da götürüb Şəmkirdən Şıxlıya qayıtmışdır. Hələ Şəmkirdə yaşayanda ərəb-fars dillərini öyrənən və kamil dini təhsil alan Molla Vəli Şıxlıda yaşasa da Poyluda məktəbdarlıq etmişdir. Burda da Molla Vəli Qayıbovlar nəslindən olan Molla Cəbrayılın qızı Tükəzban xanımla evlənmişdir. Sonralar Molla Vəli Vidadi qızı Cəvahiri Mirzə Məhəmməd Qayıbova ərə vermişdir.

Gürcü çarı II İraklinin sarayında xidmətdə olanda Molla Vəli kürəkəni Mirzə Məhəmməd Qayıbovu da özü ilə Tiflisə aparmışdır. Mirzə Məhəmməd sarayda müstövfi[1] vəzifəsində çalışmışdır. Dövlət xidmətində müstövfi Qazağı, şair kimi Fədai təxəllüsü ilə eldə-obada böyük nüfuza malik olmuşdur.

Məşhur sərkərdəmiz Əli ağa Şıxlinski (1865-1943) "Xatirələrim" əsərində yazır ki, anam Şah Yəmən xanım Qayıbova Azərbaycanın məşhur şairi Molla Vəli Vidadinin qız nəvəsidir, yəni Mirzə Məhəmmədin qızıdır.

[1] M ü s t ö v f i – sarayın təsərrüfat işlərini idarə edən məmur – ***Ş.N.***

Klassik şairimiz Molla Pənah Vaqifin müasiri Kazım ağa Salik Şıxlinskinin (1781-1842) Mirzə Məhəmməd Qayıbova "Fədai" təxəllüsülə nəzmlə yazılan dörd məktubu bizə gəlib çatıb.

Birinci məktubdan:

*Olma, ey Mirzə Məhəmməd, zəmmi-şeirimdən məlul,*
*Əhli-dil, əhli-dilin azarını eylər qəbul.*

İkinci məktubdan:

*Saliki, ancaq Fədaidir sana həmdəm olan,*
*İstərəm səndən səva bir qeyri-həmdəm olmasın.*

Zəmanədən və çərxi-fələkdən şikayət edən Salik üçüncü məktubunda yazırdı:

*Ey Fədai, bu cahan bidad ilən bünyad olub,*
*Aqil oldur kim onun bidadinə münqad olub,*
*Ol Hüseyni-şahi-məzlum macərasın fikir qıl,*
*Aqibət gör bu rəna mülkündə kim dilşad olub.*

Yenə Mirzə Məhəmmədə həmin məzmunda Salik yazırdı:

*Ey əzizim, istərəm cismində azar olmasın.*
*Nərgisi-bimarın olsun, özgə bimar olmasın.*
*Təbiniz olsun guşadə daima hər tərhilə,*
*Saliki xoş təb binəzmü əşar olmasın.*

Təəssüf ki, Mirzə Məhəmməd Fədainin cavablarını tapmaq bizə qismət olmadı. Fədainin doğum və ölüm təvəllüdünü də hələlik dəqiqləşdirə bilmədik. Firidun bəy Köçərli yazır ki, Fədai ilə Kazım ağa Salikin aralarında mehri-ülfət və səmimi dostluq olub. Bu onların bir-birinə yazdıqları şeirlərdən də görünür. Yaşca Kazım ağa Fədaidən kiçik imiş. Salahlıda doğulan şair Fədai orada da vəfat edib. Onun cəmisi iki qəzəli bizə gəlib çatıb: "Olmaz" və "Bu imiş".

## OLMAZ

*Nədəndir, ey Bəyim, əşarıma sizdən cavab olmaz,*
*Bu gündən böylə dəxi şeiriniz gəlsə, hesab olmaz.*

*Sədayi-qafiyəyə bir qəzəl yox suyi dilbərdən,*
*Necə səbr eyləsin dil, bundan artıq kim, əzab olmaz.*

*Keçib ol növcavanlıq, kimsə yad etməz məni hərgiz,*
*Qocalıq damənim tutmuş, dəxi zövqi-şəbab olmaz.*

*Gərək yad eyləsin səyyadi-tazə köhnə səyyadı,*
*Təsəvvür etməsin tərlan kim, üstündə üqab olmaz.*

*Rəqibi-kəcrovü gər yad ilə işrət qılır hər dəm,*
*O yerdə şəbpərə pərvaz edər kim, afitab olmaz.*

*Tikilmiş bir hədəfdir lövhi-sinəm tiri-müjganə,*
*Xədəngi-qəmzədən üşşaqlərdə ictinab olmaz.*

*Fəraqi-kuyi-canan odu bədtər nari-düzəxdən,*
*Neçə hicrani-rüsxarında yanmaz dil kəbab olmaz.*

*Fədai gəlsə yarın kuyinə, didarı mən, etmiş,*
*Neçün kim, aşiqü məşuq arasında hicab olmaz.*

## BU İMİŞ

*Dilbərə, künci-ləbində məks edən hinduyimiş,*
*Bilməyib sehrinə düşmüş xalların caduyimiş.*

*Gənci-ruyin üzrə əfi zənn edib qıldım həzər,*
*Məh yüzün dövründə hər du həlqəyi-kəysuyimiş.*

*Ey cəbinin mihrə tən eylər çəharom çərxdə,*
*Gün yanında ol nazik düşmüş hilal əbruyimiş.*

*Hər zaman umdum vəfa gördüm cəfa səndən şəha,*
*Aşiqə məşuqəsi qövr eyləmək bu xu imiş.*

*Vədəyi-vəslinə can verdi Fədai, ey nigar,*
*Dəfnim et əl hökmilləh çün ki, vədə bu imiş.*

# GENERAL ƏLİ AĞA ŞIXLİNSKİNİN ŞEİRLƏRİ

***Əli ağa Şıxlinski Tiflisdə gimnaziyaya girdiyi ilk gündən elmləri mənimsənilməkdə böyük səy göstərmiş, ikiillik kursu yeddi ay ərzində başa çatdıran yeganə şagird olmuşdur. Hətta o, 1876-cı ildə daxil olduğu kadet korpusunun 1883-cü ildə qurtarıncaya qədər birinciliyi əldən verməmişdir. Peterburqda Mixaylov topçuluq məktəbində Əli ağa dərslərində müvəffəqiyyətinə görə ilk üç əlaçı kursantlardan biri olaraq diqqəti cəlb etmişdir.***

*Hərb elmləri doktoru, professor,*
*general-mayor, Dövlət Mükafatı laureatı*
*Yevgeni BARSUKOV*

Tam artilleriya generalı Əli ağa Şıxlinski təkcə hərbçi olaraq qalmamışdır. O, hərbi-elmi publisistik məqalələrin, artilleriyaya aid dərsliklərin və şeirlərin də müəllifi olmuşdur. Onun "Divizion miqyasında topçu manevrlərin təşkili üçün təlimat", "Dağ və səhra artilleriyası üçün məsələ və misallar məcmuəsi" (1913-cü ildən 1916-cı llədək üç dəfə nəşr olunub), 1910-cu ildə "Səhra toplarının cəbhədə işlədilməsi" və "Topçu zabitləri məktəbində polkovnik Şıxlinski tərəfindən oxunmuş mühazirələrin xülasəsi" kimi sanballı kitabları Peterburq və Luqa şəhərində çap olundu. Həmin əsərlərin surətini 1983-cü ildə Sankt-Peterburqdakı Saltıkov-Şedrin adına kütləvi kitabxananın nadir fondundan çıxarıb gətirmişəm. Əsərlər tərcümə olunub, şəxsi arxivimdədir.

1906-cı ildən 1914-cü ilə kimi Əli ağa Şıxlinski Çarskoye-Selodakı Artilleriya Zabitləri Məktəbində müəllim və rəis müavini işləyib. 1912-ci ildə generalın təşəbbüsü ilə "Artilleriya Zabitləri Məktəbinin jurnalı" nəşr olunmuşdur.

1913-cü ilin payızında Artilleriya Zabitləri Məktəbinin rəisi, artilleriya generalı A.N.Sinitsın qocalığına görə istefaya çıxır. Jurnal bu münasibət ilə Sinitsının portretini və ikinci səhifədə haqqında böyük bir yazı verib. Əli ağa Şıxlinskinin iki bəndlik vida şeirini də dərc edib:

*Yorulmaq bilmədən sən uzun illər,*
*Öz ağır topuna sükançı oldun.*
*Hər dəfə əmrinlə birləşdi əllər,*
*Bir ailə kimi sənin mərd ordun.*

*Toplardır əbədi məktəbimiz də;*
*Siz onun atası, tarix yazanı.*
*Ürəkdən salamlar göndərib sizə,*
*Hörmətlə önündə baş əyir hamı…*

Həmin ilin payızında – 1914-cü ilin oktyabr ayına kimi Artilleriya Zabitləri Məktəbinin rəisi vəzifəsini general-mayor Əli ağa Şıxlinski aparmışdır.

General Şıxlinski bədii yaradıcılıqla da məşğul olmuşdur. Çoxlu şeirlər, tərcümələr və bədii parçalar müəllifi olan bu təvazökar insan heç vaxt onları dərc etdirməmişdir. Azərbaycan Tarix Muzeyindəki şəxsi qovluğunda və Respublika Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivində, akademik Heydər Hüseynovun şəxsi fondunda general Əli ağa Şıxlinskiyə məxsus çoxlu sənəd və materiallar var.

Beş yüz on dörd nömrəli fondda generala məxsus bir dəftər də saxlanılır. Muzeydə və arxivdə saxlanan Şıxlinskinin "Zabitin yaddaşı" dəftərində şeirlərə, bədii parçalara, tərcümə və qeydlərə rast gəldik.

1900-cü il oktyabrın 21-də tərtib olunmuş "Zabitin yaddaşı" dəftərindəki qeydlərdən aydın olur ki, görkəmli dramaturqumuz Cəfər Cabbarlının yaradıcılığına generalın xüsusi məhəbbəti olub, Cəfər Cabbarlının vaxtsız ölümü onu hədsiz dərəcədə

kədərləndirib. General ədəbiyyatımızın görkəmli nümayəndələri Səməd Vurğunun “Böyük ədib” və Osmanlı Sarıvəllinin “Yaşar” şeirlərini məharətlə rus dilinə tərcümə edib.

General Əli ağa Şıxlinskinin şəxsi fondunda şair Osman Sarıvəlliyə yazdığı məktubların surəti və poçt qəbzi saxlanılır. O, şair Osman Sarıvəlliyə yazır ki, mən cəsarət edib böyük dramaturq Cəfər Cabbarlıya yazdığınız “Yaşar” və “Ölüm” şeirlərini türkcədən ruscaya tərcümə etdim. Xahiş edirəm, tərcümə ilə tanış olun, xoşunuza gəlsə, dərc etdirmək üçün rüsxət verin.

Generalın şəxsi fondundakı məktublar arasında şairin heç bir cavabına rast gəlmədim. Ona görə də 1980-ci ilin qışında Osman müəllimin görüşünə getdim. Yazılan məktubların tarixini, ilini ona xatırlatdım.

– Osman müəllim, – dedim, – Sizin cavablarınızı tapa bilmədim. Bəlkə, generalın məktubları Sizə çatmayıb.

Osman Sarıvəlli narahatçılıqla:

– Mənim, – dedi, – generalın məktublarını almağım yadıma gəlir. Tərcümələrini də oxuyub bəyənmişdim. Sən nə danışırsan, a bala, mən o vaxt çar və müsavat generalına hansı cəsarətlə məktub yaza bilərdim. Axı, o vaxtlar otuzuncu illərin repressiyası tüğyan eləyirdi… – Sonra təəssüflə: – Heyf ki, generalın mənə yazdığı məktubları da elə o vaxtlarda cırıb atmışam… Onlar çox məzmunlu və zərif xətlə yazılmışdı.

Generalın “Zabitin yaddaşı” dəftərində onun həyat və məslək yoldaşı, ilk azərbaycanlı hərbi şəfqət bacısı Nigar xanım Mirzə Hüseyn əfəndi qızına yazdığı “Ey sevdiyim, ey dilrüba”, “Ana və onun əziz Nigarına”, “Adi povest”, “Vitse-admiral S.Makarovun xatirəsinə”, VII əsr yapon şairi Ş.Munetodan “Sən mənə vəhşi dedin” şeirlərinin rus dilinə tərcüməsi və başqa parçalar saxlanılır.

1948-ci ilin noyabrın 28-də gecə saat ikidə dünyadan köçən dahi bəstəkarımız Üzeyir bəy Hacıbəyovun pianosunun üstündə bitməmiş bir not qalıb. Üzeyir bəy general Əli ağa Şıxlinskinin həyat yoldaşına 1912-ci ildə yazdığı altıbəndlik “Ey sevdiyim, ey

dilrüba" şeirinin yalnız iki bəndinə romans yaza bilmişdi. Ömür ancaq buna vəfa edib…

Klassik şairlərimiz Molla Vəli Vidadinin (1707-1808), Mustafa ağa Arif (1781-1842) və Kazım ağa Salik Şıxlinskilərin (1781-1842) nəvəsi olan tam artilleriya generalı Əli ağa Hacı İsmayıl oğlu Şıxlinski iki dildə – rus və Azərbaycan dillərində şeir yazmaq, tərcümə etmək qabiliyyətinə malik olub.

**MƏNİM**

Ey sevdiyim, ey dilrüba,
Səbrim, qərarımsan mənim.
Səd mərhəba, səd mərhəba
Nə türfə yarımsan mənim.

Görən səni ey nazənin,
Deyər pəh-pəh, səd afərin!
Dünyada mislin yox, yəqin,
Əcəb dildarımsan mənim!

Gözəl zahirdə surətin,
Gözəl batin, təbiətin.
Gözəl hər işdə qeyrətin,
Namusum, arımsan mənim.

Mənim baharda bülbülüm,
Mənim qızılca sünbülüm.
Gülşənlərdə zərif gülüm,
Bağlarda barımsan mənim.

Səni ziyarət eylərəm,
Sənə ibadət eylərəm.
Həm çox sədaqət eylərəm.
Çün sən Nigarımsan mənim.

Mən aşiqin adı Əli,
Verdin bu dərsi bilməli.
Eşqindən olmuşam dəli,
Sən ahü zarımsan mənim.

*1912-ci il*

## ANA VƏ ONUN ƏZİZ NİGARINA

Dənizin üstündə bir ulduz yandı,
Dalğalar vuruldu işartısına.
Oxudu, ağladı, qəmli dayandı,
Yalnız əzabları qalmışdı ona.

Kədərli qayalar, dumanlı sahil,
Gecənin qoynunda inləyirdilər.
Fikirli dayanıb onlar elə bil,
Qəmli dalğaları dinləyirdilər.

Fəryada dönmüşdü dənizin səsi;
Ulduzlar sularda yırğalanırdı.
Tənha məhəbbətin qəmli nəğməsi,
Qaya-qulaqlarda sırğalanırdı.

O uzaq göylərin dərinliyində,
Sözlü dodaq kimi səyridi ulduz.
Həsrət mənzilində, əzab dilində,
Sanki öz dərdini deyirdi ulduz.

O mavi göylərdən silinməyib iz,
Uzaq bir həsrətin ağrısı qalıb.
Kədərlə dinləyir göyləri dəniz,
Hıçqırır, inləyir, gözləri dolub…

## ADMİRALIN XATİRƏSİNƏ[1]

Yat, igid qəhrəman, yaşayır adın;
Yuxu qalasını tez aldın, dostum.
Şöhrət çələngi yox, sən əzab aldın,
Cəsur dəstən ilə min səddi pozdun.

O soyuq məzarın zirehli, dərin…
Matroslar çətin ki, ora baş vura.
Sulara kədərlə baxan əsgərin,
Az qalır heyrətdən bağrı yarıla.

Dəniz cəsurları qısqanır-nədir,
Onları torpağa vermək istəmir.
Okeanın dibi – o sirli qəbir,
Susub… Eşidilmir nə səs, nə səmir.

Külək için-için hıçqırır indi,
Yağışla ağlayır buludlar sənə.
Göydə top səsitək ildırım dindi,
Matəm atəşitək sərkərdəsinə…

*Çarskoye-Selo, 1906-cı il*

## N İ G A R  O L S A …

Nə lazımdır mənə dünya,
Əgər yanımda yar olsa.
Kim istər mali-dünyanı,
Əgər yarı Nigar olsa.

[1] 1904-cü il aprelin 13-də Port-Artur döyüşlərində "Petropavlovsk" zirehli gəmisində yaponların qəfil mərmi partlayışından həlak olmuş görkəmli donanma xadimi, vitse-admiral Stepan Osipoviç Makarovun (1848-1904) şərəfinə yazılıb – ***Ş.N.***

* * *

Başına dönüm, dolanım,
O boyun qadasın alım.
Niyə türkü çeşmi-məstin,
Oxu, bu nişanə gəlməz?!

*Çarskoye-Selo,*
*1909-cu il*

**Самед Вургун**

## ВЕЛИКИЙ ПИСАТЕЛЬ

### *На смерть Джафара Джаббарлы*

Постучалось к нам в дверь злое ненастье:
Не бьется ум сердца – умер поэт.
Так это ли твое в людях участье,
Природа? На вопрос дай мне ответ.

О, ты сего края писатель – гигант –
Где твои писанья, твое перо.
Горюет – плачет родной Азербайджан,
Скорбит весь Кавказ по тебе герой.

Застыл смех, молви, на увядших губах?
Лилось, много ли слез из любимых глаз?
Твой вдумчивый мозг обратился во прах?
Взглянул ты на жизнь в последний то раз?

Заплачет всяк, знаю, вспомнив о тебе,
Потонет он в горе безысходном;
Туманные горы Араксу, Куре
Ручьи слез пошлют с ветром холодным.

Цветы его жизни завяли хоть вдруг,
Взяла его хоть безвременно смерть,
Мир будет хоть полон, хоть пусть весь вокруг –
В легендах вечно жив будет поэт.

*Перевел с тюркского*
*Али ага Шихлинский*

**Осман Сарывелли**

**ЯШАР**

***Памяти Джафара Джаббарлы***

В жизни сей кто не оставит следа,
Тот вскоре будет забыт навсегда.
Умершим себя не считай Джафар!
Вечно будет жив твой герой "Яшар".
А "Севиль" твоя вечно – любима;
С ними жить будет и твое имя!

*Перевел с тюркского*
*Али ага Шихлинский*

*Ш.МУНЕТО*

*(Японский поэт VII века)*

Ты говоришь, что я дикарь
Что не культурный я и темный
Что я брожу среди лесов,
Что я босяк, босяк бездомный
За то в кустах лишь для меня
Поэт про волю нежно, птицы,
За то к полям лишь для меня.

Цветов пестреют вереницы.
Как я богат: сквозь небеса
Мне солнце золото бросает,
Как я богат: сквозь облака
Мне серебро луна свивает
На небе утреннем заря
Мне шлет кровавые рубины
Алмазы ночью для меня
Плетут по небу паутины
Я не хочу культурным быть!
Им не понять душою темной,
Что счастлив я, что я богат,
Бродяга дикий и бездомный…

*Перевод: Алиага Шихлинский*
*1906 год, село Царское.*

## ОБЫКНОВЕННАЯ ПОВЕСТЬ

Была чудесная весна, они на берегу сидели,
Река была тиха, ясна, вставало солнце, птички пели.
Тянулась за рекою даль, спокойно-пышно зеленела,
Вблизи шиповник алый цвел, стояла темных нить алея.

Была чудесная весна, они на берегу сидели,
Во цвете лет была она, ее усы едва чернели.
О, если бы кто встретил их тогда, при утренней их встрече,
И лица бы высмотрел у них иль подслушал бы их речи, –
Как был бы мил ему язык – язык любви первоначальной!
Он верно бы сам на этот миг
Расцвел на дни души печальной…

* * *

Живой и правдивый я видела сон,
Казался мне жизнью он.
Проснулась – все мертво и месиво кругом:
И жизнь показалась мне сном…

* * *

Помоги! Для головки твоей не могу
Из любимых цветов приготовить убор,
Их так много цветет на зеленом лугу,
Что неволь теряется взор.
Я ревниво смотрю, как успел мотылек
Твой задумчивый взгляд на минуту привлечь…
Помоги же мне связать и дивный венок.
И страстную безумную речь!

***28.11.1908, Тифлис***
***Али ага Шихлинский***

* * *

Я в свете встретил их, потом
Она была жена другого,
Он был женат и о былом
В помине не было ни слова.
На лицах виден был покой,
Их жизнь текла светло и ровно.
Они, встречаясь меж собой,
Могли смеяться хладнокровно.
А там, на берегу реки,
Где цвел тогда шиповник алый,
Одни простые рыбаки,
Ходили к лодке обветшалой.

И пели песни. И темно,
Осталось, для людей закрыто,
Что было там говорено,
И сколько было позабыто!..

***27.11.1908, Тифлис***
***Али ага Шихлинский***

* * *

Как в волнах пугливо-диких
Бледный диск луны трепещет,
А сама она спокойно
По небу плывет и блещет. –
Так в моем дрожащем сердце,
Образ твой дрожит прекрасный,
Между тем, как ты приходишь
Равнодушно и бесстрастно.

***27.11.1908, Тифлис***
***Али ага Шихлинский***

* * *

Зима не даром злится –
Пришла ее пора,
Весна в окно стучится
И гонит со двора

* * *

Когда утром иль поздно ночью,
Пред иконой головку склоняя,
Ты лепечешь святую молитву, –
Помолись, милый друг за меня!
И любовь и горячая вера,
Что глядят в твоих коротких очах.

Пусть сольются в молитву за друга
На младенческих чистых устах.
И души непорочной рыданья
Пусть летят высоко к небесам!
О, быть может, тогда мое имя
Милосердно примется там…
Много в жизни пришлось мне кружиться,
Но теперь в сердце лишь лесть тая,
Сам не в силах я больше молиться, –
Помолись, милый друг за меня!

***Али ага Шихлинский***

***Abbas ağa Nazir Qayıbzadə***
***(1849-1919)***

## OSMAN AĞA ŞIXLİNSKİNİN TARİXİ – VƏFATI

Cahana olma ey huşyar məğrur,
Görüb beş gün səfasının, olma məsrur.

Nə dərvişü gəda, nə şahü sultan,
Yeridi cümləsinin aqibət gur.

Bu mərqəd əhli Şeyxizadə Osman,
Həm axır məskənindən oldu məhcur.

Açıldı çün üzünə babi-qüfran,
Onun tarixi Nazir oldu "məğfur".

## UNUDA BİLMƏRƏM

***"Bizim Vurğunun dolaşdığı diyarları qarış-qarış gəzib onun əfsanəvi hekayətlərini toplayıb əbədiləşdirən Şəmistana ən xoş arzularla".***

***İsmayıl Şıxlı***
***"Xatirəyə dönmüş illər"***
***kitabına yazdığı avtoqraf***
***16 iyun 1980-ci il***

Mən İsmayıl Şıxlının yoxluğuna inanmıram. O, cismən aramızdan getsə də ruhən həmişə, hər an bizimlədir. Necə ki, "Dəli Kür" var, onun səhifələrindən sərt baxışlı Cahandar ağanın zəhmli səsi gəlirsə, İsmayıl Şıxlı yaşayır və yaşayacaqdır.

Məgər onun biz gənclərə yetmişinci illərdə elədiyi köməklikləri, yaxşılıqları unutmaq olarmı? Mənim cızma-qaralarımı səbir və təmkinlə oxuyub verdiyi ağıllı məsləhətlərdən, göstərdiyi doğru yoldan qazandığım nailiyyətlərin sevincini unuda bilərəmmi?

O, qızıldan qiymətli vaxtını təkcə mən arxasıza, köməksizə yox, Azərbaycanın onlarca gəncinə sərf etmişdir. Mənim kimi onlarca azərbaycanlı indi iftixarla deyir ki, ədəbi aləmdə mənim müəllimim İsmayıl Şıxlı olmuşdur. Onun yetirmələrinə heç kəs irad tutub şübhə ilə baxa bilmir. Çünki İsmayıl Şıxlı adı saflıq, təmizlik mücəssəməsidir.

Görkəmli yazıçı-alim Qulu Xəlilli İsmayıl Şıxlı saflığından danışanda deyərdi: "Bizim çoxumuz ali məktəb müəllimləri zamanın havasına uyduq, təmiz adımızı qoruya bilmədik. İsmayıl Şıxlı isə bu adı ürəyi kimi təmiz saxladı".

Bu gün şəxsi arxivimdə saxladığım onun mürəkkəbli qələmlə yazdığı qeydlərinə baxır və istər-istəməz kövrəlirəm. Onun ağayana, zəhmli səsi varlığımı titrədir: "Burda cızığından çıxdın",

"Uydurmusan", "Yenə deyirəm, obraz şişirdilib, özü də üfürməli danışır", "Qız, qadın yanında Səməd Vurğun belə danışa bilməzdi". Onun bu qeydləri tənqid yox, mənim üçün iftixar idi, baş ucalığı idi. Hələ neçə il əvvəl telefonda İsmayıl Şıxlının dediyi sözlər mənim üçün nə qədər əziz və doğmadır: "Oxudum əsərini, sabah səhər saat 12-də gəl kafedraya, bir neçə məsələdə "dərsini verim". Bəli, elə bu dərslər məni böyük şairimiz Səməd Vurğun, məşhur generalımız Əli ağa Şıxlinski və Azərbaycan generalları haqqında kitabların müəllifi elədi. Bütün bunlar üçün ancaq və ancaq xeyirxahım İsmayıl Şıxlıya ömürlük minnətdaram.

Ötənilki – 1994-cü il söhbətlərimizin birində deyəndə ki, İsmayıl müəllim, general Əli ağa Şıxlinskinin hərbi elmi əsərlərini çapa hazırlayıram, kitabda nələri verəcəyimi dinləyəndən sonra sevinə-sevinə öz təkliflərini də əlavə etdi. Bu xoş xəbərdən xəstəliyini belə unutdu. Onda kimlərin söhbətlərini xatırlamadı, atası Qəhrəman əfəndinin, dayısı Qiyas bəyin, Alay bəyin və nüfuzlu Şıxlinskilərin bir çoxunun... Mənim sevincimin üstünə bir sevinc də əlavə etdi İsmayıl müəllim: "Allah qoysa, ayağa durum, yaranalın (bu sözü deməyi yaman xoşlardı) kitabına müqəddiməni özüm yazacağam".

Ümidə xanım: "İsmayıl, çay buza döndü" – dedi, qalın qaşlar gah çatılır, gah da yarğan kimi yarılırdı. Sanki yaraşıqlı üzündə Kür nəhri axırdı. Belə anlarda adam ona baxmaqla doymurdu... Xəyal İsmayıl Şıxlını hara aparmışdı, onu bir Allah bilirdi... Mən də başımızın tacı, ömrümüzün varlığı İsmayıl Şıxlını sevindirə bildiyimlə özlüyümdə iftixar edirdim. Handan-hana əlini kreslonun dirsəyinə vurub:

– Nə gözəl fikrə düşübsən. Generalın kitabını bu gün biz nəşr etdirməsək, gələcəkdə heç kəs məşğul olub, tədqiqat aparmayacaq.

Bundan sonrakı söhbətlərimizdə, telefon zənglərində ilk sorğusu general haqqında olardı:

– Yaranalın kitabı nə yerdədi? –soruşardı. – Tələs, bir az tələsmək lazımdı, mən o kitabı görmək istəyirəm...

Ürəyinə nəsə daman İsmayıl Şıxlının "tələsmək lazımdı" sözlərində dərin bir kədər vardı...

***iyul, 1995-ci il***

# QƏRİBƏ TALE

*Batan günəş soruşdu:*
*– Ehey, burda kim var, mənim işimi davam etdirsin?*
*Saxsı çıraq cavab verdi:*
*– Mən əlimdən gələni edirəm, ey hökmdar.*

*Rabindranat TAQOR,*
*məşhur hind yazıcısı*

***Topoqraf-general İbrahim ağa Vəkilov Zaqafqaziyada yeganədir – nə özündən əvvəl və sonra, nə də müasirləri arasında bu sahə üzrə belə ali hərbi rütbəli mütəxəssis olmayıb.***

***Müəllif***

Qaş qaraldı, uzaqlar yavaş-yavaş görünməz oldu. Axşam düşürdü. Örüşdən qayıdan mal-qaranın mələşməsi kəsildi. Yal gözləyən itlər zəncir gəmirir, dartınıb gah hirslə, gah da yazıq-yazıq zingildəyirdi. Yenicə doğmaqda olan Ay Kürün sularında "yuyunurdu".

Salahlı obasına qərib bir axşam düşmüşdü. İbrahimin səbri tamam kəsilmişdi. Tez-tez torpaq dama girib çıxır, dinclik tapa bilmirdi. Gözü o tayda qalmışdı. Pənah kişi isə görünmürdü. İbrahim bir neçə dəfə gəlib Pənah kişinin xalxalına baxıb məyus qayıtmışdı. Atasının dostu ilxıçı Pənah sözünə düz adam idi. Paşa ağanın ölümündən sonra ilxıçı bu dostluğu ailənin böyüyü İbrahimlə davam etdirdi. "Nə oldu, görəsən, Pənah əmi niyə gəlmədi, bəlkə..." Öz-özünə verdiyi suallar İbrahimin intizarını daha da artırırdı.

Şəmmətli meşəsinin bərabərində bir at kişnədi. Üstündəki adam ata acıqlandı. At şappıltı ilə suya girdi. Bir göz qırpımında payızın bulanıq sularını yarıb bu taya keçdi.

İbrahim sahildə atlı ilə üzbəüz gəldi. Ürkək və zəif bir səslə:

– Pənah əmi, sənsənmi? – dedi.

İlxıçı duruxdu. Qəfil zərbə dəymiş adam kimi əvvəlcə özünü itirdi. Sonra özünə gəlib:

– Mənəm, oğul, – dedi, – sən deyəsən getməyi lap doğrulamısan, yaxşı hazırsanmı? Burda gözlə, evə dəyib gəlirəm.

Atını cığıra salıb, bir az aralandı. Birdən yarı yolda geri dönüb:

– Ayə, a İbi, – dedi, – barı evə bir söz demisənmi?

– Deməmişəm, Pənah əmi, amma əmioğlu Yusifə bərk-bərk tapşırmışam ki, işdi, gördün çox axtarırlar, anam çox ağlayıbsızlayır, onda deyərsən ki, dünən Qazaxda idim, eşitdim İbrahim Tiflisə oxumağa gedib.

– Onda get Bala bərənin yanında gözlə, birdən buralara hərlənən olar, indi gəlirəm, bir az da orda fikirləş.

Pənah kişi atını mahmızladı.

İbrahim qamışlıqda xeyli gözlədi. O, Pənah kişinin "bir az da gözlə" deməyindən şübhələndi. "Yəqin anamdan qorxur, qarğış sahibi olmaq istəmir". Kür aşıb-daşanda gətirib sahilə çıxartdığı qarağac kötüyünün üstündə oturub, ağzı qaralan evlər arasından Pənah kişinin evini tapdı.

Gündüzlər ayaqyalın, başıaçıq oynadığı hay-küylü sahil gecə yuxusunda uyuyurdu. Səssizlik onun qulağını batırır, qorxusunu artırırdı. Sakit çay da elə bil gündüzün haray-həşirindən yuxuya getmişdi. Daş atmasan, onun səsini eşitməzdin. Qamışlıq xışıldadı. İbrahim diksinib əlini yerə uzatdı. Qamışlığı yara-yara ona tərəf nəsə gəlirdi. Qaranlıqda iki göz od kimi yanırdı. İbrahim "a kafir" – deyib qorxa-qorxa daş atdı. Çaqqal sivişib qamışlıqda yox oldu. "Yaxşı ki, dovşan deyil, nənəm deyərdi yola çaqqal uğurludu".

İbrahim yenidən Pənah kişinin evini axtarıb tapdı. İlxıçının qara damının qapısı cırıltı ilə açıldı. Əvvəl Pənah kişi, sonra da əli xurcunlu arvadı çıxdı.

– A kişi, uşaqlara tuman-köynək almağı unutma.

– Rəhmətliyin qızı, mən at satmağa gedirəm, yoxsa tuman-köynək almağa, – deyə Pənah kişi arvadına hirsləndi: – Axşama kimi kor Baqrat tuman-köynək satır, ondan alsan, belin qırılarmı?

– Onda, sən atanın goru, bir az mampası al, uşaqlar neçə gündü sevincək olublar ki, dədəmiz şəhərdən mampası alacaq.

Pənah kişi könülsüz "yaxşı, yaxşı" deyib, xurcunu atın belinə aşırdı. Atı yedəkləyib xalxaldan çıxartdı. İbrahimin yanına qədər ata minmədi. Atı qamışlığın arxasına çəkib sağrısını, boynunu sığalladı, oxşadı.

– Əlimdən möhkəm tut, indi atıl min.

İbrahim bir göz qırpımında ata sıçradı.

– Geri otur, – Pənah kişinin səsində arvadla danışdığı əsəbilik qalmışdı. O, birdən fikrini dəyişib: – Yox, yox, a İbi, qabağa otur, bu üzülmüş xamdı, birdən çayın ortasında ürküb eləyər, yıxar səni. Yalmanından bərk tut, çətini çayı keçənə kimidi.

İlxıçı "ya Allah" deyib ata mindi. Xam at çayın dərin-dayaz yerinə baxmayıb suyu yarır, fınxıra-fınxıra o taya tələsirdi.

Sahilin o tayı başdan-başa meşə idi. Şəmkirdən başlayan qədim Qarayazı meşəsi Kürün sahili boyunca yaşıl kəmər kimi Gürcüstan sərhədlərinə doğru uzanırdı. Çayın sağ sahilindəki Salahlı, Şıxlı obalarının dolanacağı da bu meşə idi. Əhali otu, odunu buradan aparır, mal-qarasını burada otarırdı. Pənah kişi də burada ilxı saxlayırdı. Hər ilin payızında beş-altı dilibozu Tiflisə aparıb satır, pulunu dolanacağına sərf edirdi.

O taya çıxan kimi at tanış cığırda yerişini artırdı. Meşə bir az seyrələndə duruxub kişnədi və birdən götürüldü. Pənah kişi atın başını çəkdi:

– Əyə, üzülmüşün boynunu sığalla, gecə vaxtı nə hay-küy salır.

İbrahim atın yalmanını sığallaya-sığallaya:

– Pənah əmi, – dedi, – bu nə dəli atdı, bunnan heç oğurluğa-zada getmək olmaz.

– Təzə tutmuşam, a bala, hələ, yaxşı öyrəşməyib. Sən niyə bu gecə vaxtı tərs atın üstündə tərs söz danışdın. Allaha şükür,

nəsil-nəcabətində oğurluq eləyən də yoxdur. Oğurluq haradan ağlına gəldi?

İbrahim nə ağ dindi, nə də qara.

– A İbi, sən Mirzənin evini tanıyırsanmı?

Kişi İbrahimin yaralı yerinə toxundu. Odur ki, kefsiz-kefsiz:

– Yox, – dedi.

– Əyə, bə nə təhər gedib çıxacaxsan? Heç şəhərdə olubsanmı?

– Ötən yay Mirzə kəndə gələndə bir kağız yazıb verdi. Ünvanı da var orda.

– A bala, səndən qorxuram, gedib o dinsizlərin içində itib eləyərsən, mən qanda qalaram. Sonra anan Tükəzbanın əlindən qurtara bilmərəm.

– Qorxma, Pənah əmi, məndən sonra evdə anamın on balası var. Ürkütməsə, saya bilmir. Mən heç yada düşməyəcəyəm.

– Elə demə, a bala, ana ürəyidi, yoxluğundan əsim-əsim əsəcək. Bir də, nə var o şəhərdə, bilmirəm, qaçıb gedirsən ora. Gərək qalıb kənddə işləyəydin, evin də böyüyü sən idin, anana da kömək olardın.

– Yox, Pənah əmi, gedib oxuyub bir sənət qazanacağam, adam olacam.

– Burada, kəndimizdə Molla Mustafanın məktəbi səni adam olmağa qoymur? Oxu, molla ol, ya da Abbas ağa kimi özünnən şeir quraşdır. Elə o da molla kimi bir şeydi.

– Şairlik mollalıq döyül, Pənah əmi, Abbas ağa kişi şairdi.

– Niyə o boyda Vidadiyə, Vaqifə mollalıq yaraşdı, Abbas ağaya yaraşmadı.

– Pənah əmi, Vidadiynən Vaqif sən deyən o Mustafa kimi molla döyül ey. O vaxtlar babalarımız onlara savadlarına görə molla deyiblər.

– Yaxşı, bunlar bir yana qalsın, sən gedib şəhərdə nə olacaxsan, nə oxuyacaxsan? – Pənah kişi hirslə soruşdu. İbrahimin canına qorxu düşdü ki, birdən cavabımdan razı qalmasa, bu dəli Pənah məni qaytarar ha... Özünü ələ alıb:

– Mən başqa şey oxuyacam, – dedi, – voyenni olacam.

– O nə sözdü, əyə, olmaya, əfsər olacaxsan?

İbrahim qorxa-qorxa:

– Hə, – dedi.

– Dilini bilirsənmi? Urusun deyirəm.

– Mampassatan Baqratdan bir-iki söz öyrənmişəm, qalanını da orda öyrənəcəm.

– Ay öyrəndin ha, axşama kimi gürcü çobanlarıynan bir yerdəyəm, qoqodan, bicodan artıq kəlmə bilənin dədəsi tünbətün olsun. Dil öyrənmək su içmək döyül, oğul.

İbrahim istədi desin ki, sənin savadın, fərasətin yoxdu, mən neyləyim. Qorxdu ki, dəli Pənah elə buradaca onu dəli atından düşürər, qalar dizinə döyə-döyə.

Meşə yolu qurtardı. Onlar sonu görünməyən Ceyrançöl düzünə çıxanda Ay Avey dağının bərabərində idi. Çöl bulud arxasında girib-çıxan Aydan gah nurlanır, gah da qaralırdı. Xeyli uzaqda otlayan ilxı qəbirdaşları kimi qaralırdı. Onların mindiyi at ilxını görəndə bir neçə dəfə kişnədi. Atların bir neçəsi başını qaldırıb fınxırdı. Birdən yaxındakı kolun dibindən bir adam qalxdı. Vahimələnən İbrahim atın yalmanından yapışdı. Pənah kişi bunu dərhal hiss edib:

– Qorxma, – dedi, – mənim ilxıçı yoldaşımdı, bunu gördüyünü heç yerdə danışma ha, yazıq bir gürcüdü, xozeynini öldürüb qaçıb. Mənə pənah gətirib. Goda kəndində bir dəmirçi dostum var, onun qardaşı oğludu. Zalım oğlu qorxu nə olan şeydi bilmir. Deynən get qəbiristanda yat, yatajax, eymənmək-zad yoxdu. Bunda urusca qəzet də var, gündə çıxarıb oxuyur. Məni günortadan gözləyir...

– Qatso, o kimdi, sənnən gələn?

– Paşa ağanın oğludu, İbidi, bu da şəhərə gedir.

– Xeyir ola, bu uşağın Tiflisdə nə işi var?

– Nə bilim, Nikolaz, deyir gedib oxuyub, voyennidi, əfsərdinədi ondan olajam.

Nikolaz qayğılı-qayğılı:

– Qatso, dəlisən-nəsən, – dedi. – Xalqın uşağını aparıb itirərsən.

– Niyə itir, on dörd yaşında cavan da şəhərdə itərmi?

* * *

...İbrahim həmkəndlisi Mirzə Hüseyn Qayıbzadənin Şeytanbazar yanındakı evini asanlıqla tapa bildi. Çünki o vaxtlar Tiflisdə çoxlu azərbaycanlı yaşayırdı. Mirzə Hüseyn əfəndi də çox hörmətli və məşhur şəxs idi.

O, Tiflisdə rus-tatar məktəbində Şərq dilləri müəllimi, Zaqafqaziya Müftisi vəzifələrində işlədiyindən böyük nüfuza malik olmuşdu. Oxumaq istəyən kasıb balalarına kömək əli uzatmağı, onların bu işıqlı arzularının həyata keçməsinə şərait yaratmağı Mirzə Hüseyn əfəndi ən nəcib, ən şərəfli vəzifə hesab edirdi.

Müftinin həyat yoldaşı Səadət xanım İbrahimi görəndə gözlərinə inanmadı. Bu gözəl və nəcib qadın heyrətdən, təəccübdən az qala qışqıracaqdı. O, İbrahimi bağrına basıb doğma balası kimi öpdü, oxşadı. Kəndi, qohumları soruşdu. Atası Paşa ağanın vaxtsız ölümünə heyfsiləndi. İbrahimin oxumaq dalınca gəlməsini eşidəndə ona elə bil dünyanı bağışladılar.

Hüseyn əfəndi ağır-ağır soruşdu:

– Səadət xanım, İbrahimin haraya qəbul olunmaq istədiyindən xəbərin varmı?

– Xeyr!

– Ot kökü üstə bitər. Praporşik Paşa ağanın oğlu hərbi qulluqçu olmaq istəyir.

– Hə, – qadın xeyli duruxdu, – demək mənim kəndimin, Salahlının ilk savadlı hərbi qulluqçusu olacaqsan. Çox yaxşı, çox gözəl, oğul! – Səadət xanım onu yenidən qucaqladı.

– Kadet korpusunda yer yoxdur, bir az gec gəlib, bu gün sentyabrın altısıdır. Amma Hüseyn əmisi onu məyus qaytarmaz.

Mirzə ipək kimi yumşaq və dümağ saqqalını sığallayıb ani olaraq susdu:

– Bəxtindən üçüncü Mejevoy Hərbi Gimnaziyasında bir yer var. Bu məktəbin direktorunun mənimlə dostluğunu bilirsən. Mənə belə gəlir ki, burda İbrahim üçün çətin olmayacaq. Direktor milliyyətcə Kazan tatarıdır. Bizim dilə yaxşı bələddir. Ona həm rus dilini öyrədər, həm də təhsil verər.

# TOPOQRAF-GENERAL İBRAHİM AĞA VƏKİLOV

***Şeirimiz, sözümüz, elimiz də var,***
***Arif yaşamışdır bizim babalar.***
***Lakin xoş olsa da, söz ilə sənət,***
***Böyük sərkərdələr yetirən millət***
***Yalnız qalibiyyət çələngi taxar,***
***Gələcək günlərə vüqarla baxar.***

***Səməd VURĞUN***

Xalqımızın yetirdiyi elə şəxsiyyətlər var ki, onların adına ancaq müxtəlif mənbələrdə, arxiv sənədlərində rast gəlmək olar. Yaşadığı dövrdə, illərdə bunların fəaliyyəti geniş işıqlandırılsa da, zaman keçdikcə onlar məlum səbəbdən unudulub. Xalqımız üçün gördükləri əvəzsiz işlər ört-basdır edilib. Totalitar rejimin "müsavat generalı" damğası vurduğu onlarca belə qeyrətli sərkərdələrimiz yaddaşlardan qeyb olub. Böyüməkdə olan gənc nəslin, demək olar ki, adı ara-sıra çəkilən bu şəxsiyyətlərdən xəbəri yoxdur. Halbuki, onların keçdiyi mübariz həyat yolu bu gün bizim üçün böyük məktəbdir.

Topoqraf-general İbrahim ağa Paşa ağa oğlu Vəkilov da belə unudulmuş şəxsiyyətlərdən biridir.

1853-cü il mayın 7-də keçmiş Yelizavetpol quberniyası Qazax qəzasının Qıraq Salahlı kəndində anadan olan İbrahim ağa Vəkilov on bir yaşında atadan yetim qalıb. Atası Paşa ağa 1864-cü ildə vəfat edib. On nəfərlik ailəni güc-bəla ilə saxlayan anası Tükəzban xanım Yusif ağa qızı İbrahimin fəhmi, fərasəti ilə daha çox öyünür, qürrələnirdi.

General İbrahim ağa Vəkilovun ata və babaları barədə arxiv sənədi:

1900-cü ilin mart ayının 15-ci günü! Qazax Qəza Rəisi cənablarının 1900-cü il 7 yanvar tarixli 80 nömrəli yazılı müraciəti əsasında mən Qazax Qəzası ikinci sahəsinin pristavı vəzifəsinin icraçısı poruçik Kolomeytsev bu tarixdə gizir Paşa Xəlil ağa, mayor Əli Vəkil Qazaxlı və Pənah bəy Vəkilov Qazaxlının nə vaxt və hansı valideynlərdən doğulduqlarını aydınlaşdırmaq məqsədilə dindirilmə aparmaqla Salahlı kəndinin uzunömürlü sakinləri Molla Nəsib Oruc oğlunu, Mustafa Hacı oğlunu, Molla Əli Malik oğlunu, İbrahim Əfəndi oğlunu, Məmməd Pambıq Bəşi oğlunu, Əmirxan Hacı oğlunu, Yaqub Hacı Vəli oğlunu, Vəli Umud oğlunu, yerli ruhanilər Molla Usub Əfəndini, Məmməd Əfəndi oğlunu və Molla Məmməd Zərif oğlunu dəvət etmişəm. Onların şəhadətləri inandırıcıdır və qabaqcadan şəhadətlə gətirilərək dindirmişəm və yuxarıda ərz olunan məsələ ilə əlaqədar onlar bunları demişlər: bizə dürüst məlum olduğu kimi gizir Paşa ağa qanuni valideynləri – atası Xəlil ağa, mayor Əli ağadan və Şəhriyar xanım Hacı Qasım ağa qızından doğulmuşdur; mayor Əli ağa Pənah ağadan və Zöhrə xanım Abdulla ağa qızından, Pənah bəy isə Məmməd Şərif ağadan və anası Yetər xanım Yolçu qızından doğulmuşlar. Fəqət, onların məhz nə vaxt anadan olmalarını doğulduqları dövrdən xeyli ötüşdüyünə görə bilmirik. Yuxarıda ərz olunanlarla əlaqədar mən, pristavın vəzifələrinin icrasını qərara aldım: hazırkı protokolu tərtibləyərək siz Qazax Qəza rəisi cənablarına təqdim etmək.

***İkinci sahənin pristavı Kolomeytsev***

Hazırkı surəti əsli ilə düzdür, dövlət rüsumu ödənilmiş və hərbi topoqraflar korpusunun kapitanı İbrahim bəy Vəkilova onun xahişi əsasında təhvil verilmişdir. Bunu da Zaqafqaziya Sünni Ruhani İdarəsi imza və dövlət möhürü ilə təsdiq edir. Dekabr ayının 12-ci günü, 1901-ci il, Tiflis şəhəri.

***İdarənin rəisi Zaqafqaziya Müftisi:***
***Mirzə Hüseyn əfəndi Qayıbzadə***
***Möhür.***
***katib: imza,***
***katibin köməkçisi: imza.***

Azərbaycan Dövlət Tarix Muzeyinin Elmi Arxivində saxlanılan əlli altı nömrəli qovluqda İbrahim ağa Vəkilovun 1866-cı il sentyabrın 6-da Tiflisdəki üçüncü Mejavoy Hərbi gimnaziyasına daxil olduğu göstərilir. Orta məktəb həcmində təhsil verən bu məktəbdə doqquz il oxuduqdan sonra həmyerlisi Mirzə Hüseyn əfəndi Qayıbzadənin məsləhətilə İbrahim Peterburqdakı hərbi topoqrafiya məktəbinə daxil olur.

1879-cu ildə İbrahim ağa Vəkilov həmin məktəbi müvəffəqiyyətlə bitirib, praporşik rütbəsi alır. Qulluq üçün Tiflisə göndərilən gənc zabit bir müddət Qafqaz hərbi dairəsinin topoqrafiya qərargahı şöbəsində çalışır.

Xidmətinin ilk illərində Dağıstanda topoqrafik çəkilişlərlə məşğul olan İbrahim ağa Vəkilov 1883-cü ildə Rusiya-İran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edir. Belə bir ciddi işi vaxtından əvvəl – iki ilə müvəffəqiyyətlə yerinə yetirdiyinə görə İbrahim ağa Vəkilovun xidməti İran hökumətinin ən yüksək “Şire-Xorşid” ordeninə layiq görülür. Beş il Qafqaz hərbi dairəsinin topoqrafiya şöbəsinə rəhbərlik edən İbrahim ağa Qafqazın və Krımın müxtəlif rayonlarında topoqrafik çəkilişlərlə məşğul olur. 1891-ci ildə Türkiyəyə ezam olunan İbrahim ağa Vəkilov dörd il rus səfirliyində yaşayaraq xüsusi tapşırığı yerinə yetirir. Mayor rütbəsində yenidən Qafqaz hərbi dairəsində mühüm işlər icraçısı işləyir.

1901-ci ildən şöbə rəisi podpolkovnik İbrahim ağa Vəkilov Qars vilayətinin Rusiya-Türkiyə sərhədlərində topoqrafik çəkilişə rəhbərlik edir və Bosforun hərbi xəritəsini hazırlayır.

1912-1913-cü illərdə Rusiya-İran hökumətinin danışıqlarına əsasən polkovnik İ.Vəkilov Cənubi Azərbaycanın Təbriz, Urmiya və Xoy şəhərlərində keçirilən topoqrafik çəkilişlərə də başçılıq edir. Birinci Dünya müharibəsi illərində döyüşən ordu qərargahında fəaliyyət göstərən polkovnik İbrahim ağa Vəkilov 1917-ci il inqilabından sonra Tiflisə qayıdır. Onun xidmətləri “Müqəddəs Stanislav”, “Müqəddəs Anna” və dördüncü dərəcəli “Müqəddəs Vladimir” ordenlərinə layiq görülür.

İbrahim ağa Vəkilov Qafqazda hərbi topoqrafiya üzrə general-mayor rütbəsinə layiq görülmüş yeganə şəxsiyyətdir.

Bir müddət Tiflisdə Zaqafqaziya Federasiyasında və Zaqafqaziya Xeyriyyə Cəmiyyətinin sədri vəzifəsində çalışan İbrahim ağa sonralar Bakıda və Gəncədə fəaliyyət göstərir.

1918-ci ildə o, Azərbaycan Milli Ordusunun təşkilində fəal çalışanlardan olmuşdur. Bundan əvvəl Azərbaycan hökuməti onu Qazax qəzasına kənd və şəhər sovetlərinin seçkilərinə rəhbərlik etməyə göndərmişdi. Vəkilovun nüfuzu yeni yaranan Azərbaycan Demokratik Cümhuriyyətinin bölgədə dərinləşməsinə güclü təkan vermişdi.

1918-ci il iyunun 23-də Respublika Daxili işlər nazirinin əmrilə polkovnik İbrahim ağa Vəkilov Gəncənin general-qubernatoru təyin olunur. Goran mahalında və ayrı-ayrı kəndlərdə sığınacaq tapmış daşnak tör-töküntülərinə divan tutan qubernator onları tərksilah etmişdi. Onun daxili işlər nazirinə göndərdiyi 1919-cu il 23 mart tarixli məlumatında bildirirdi ki, Gəncə qəzasında daşnak irticasının və xarici müdaxiləçilərin törətdiyi fitnə-fəsadlar aşkar edilmişdir. Yerli bolşeviklərlə birləşən ermənilər müsəlmanlar arasında qırğın törətmək istərkən yaxalanmışlar. Onların başçısı qolçomaq Cümşüd Voskanov həbs edilmişdir.

1919-cu ilin martında Novruz bayramı münasibətilə Milli Ordunun paradı keçirilirdi. Respublika hərbiyyə naziri Səməd bəy Mehmandarov və bir qrup parlament üzvü parad-nümayişdə iştirak etmək üçün Gəncəyə gəlmişdi. Gəncə qarnizonundakı səliqə-sahmana və nümunəvi qayda-qanuna görə hərbiyyə naziri İbrahim ağa Vəkilova səmimi təşəkkürünü bildirmişdi.

Azərbaycan hökumətinin 1919-cu il 30 mart tarixli qərarı ilə uzun illər ordudakı nümunəvi xidmətinə görə İbrahim ağa Paşa ağa oğlu Vəkilova general-mayor rütbəsi verilmişdi.

Ayyarım sonra (1919-cu il martın 14-də) general İbrahim ağa Vəkilov hökumətin 248 nömrəli əmri ilə Baş Qərargahda hərbi topoqrafiya şöbəsinin rəisi təyin olunmuşdu. O, rusların aprel işğalına qədər bu vəzifədə qeyrət və vicdanla çalışmışdı.

1919-cu ilin dekabr ayında ilk hərbi bayrağımızın təsdiq olunması haqqında Baş Qərargah İdarəsi qərar verdi. Bayrağın yaradıcısı hərbi topoqrafiya şöbəsinin rəisi general-mayor İbrahim ağa Vəkilov idi. İpək sapla işlənmiş bayrağın bir üzündə əski əlifba ilə "Azərbaycan", o biri üzündə isə Müqəddəs Qurandan: "Allahdan kömək və qələbə yaxındadır" ayəsi yazılmışdı. Baş Qərargah İdarəsinin verdiyi beş saylı qərarda göstərilir ki, süvari, piyada alaylarında, əlahiddə tabor və hərbi məktəblər üçün vahid formada bayrağın yaradıldığı elan olunur.

Hələ əsrin əvvəllərində Tiflis ədəbi mühitində yaxından iştirak edən İbrahim ağa Vəkilov böyük dramaturqumuz Cəlil Məmmədquluzadə ilə dostlaşmışdı. Onların ikisi də xalqımızın nicatı üçün birgə çalışırdı. Bu fakta Mirzə Cəlilin həyat yoldaşı Həmidə xanımın "Mirzə Cəlil haqqında xatirələrim" kitabında da rast gəlmək olar. Həmidə xanım yazır: "1907-ci ildə Qarabağda çəyirtkə və aclıq gözlənirdi... Tiflisdə Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri İbrahim ağa Vəkilov, katibi Mirzə Cəlil bizim rayonun qaldığı çıxılmaz vəziyyətdən xəbər tutduqda zərərçəkənlərə paylamaq üçün poçt ilə mənim adıma altı yüz manat pul göndərmişdi".

Polkovnik İbrahim ağa Vəkilov 1906-cı ilin yanvarın səkkizində Qafqaz kənd təsərrüfatı cəmiyyətinin zalında Müsəlman Xeyriyyə Cəmiyyətinin ilk sədri seçilir. Azərbaycanın qabaqcıl ziyalıları polkovnik İbrahim ağa Vəkilovu səsə qoyulmadan xeyriyyə cəmiyyətinin idarə heyətinə sədr təyin edirlər.

Cəmiyyətin katibi Cəlil Məmmədquluzadə, üzvlüyə namizədlər isə Əlimərdan bəy Topçubaşov, Səməd ağa Qayıbov, Osman bəy Müftizadə, Rəşid bəy İsmayılov, İmadəddin Sübhanqulov, Kamal əfəndi Ünsizadə, Məmmədhəsən İmanov, Adil-Girey Daidbəyov, Əbdürrəhman bəy Əfəndiyev və başqaları seçilir.

Bizdə Mirzə Cəlillə general İbrahim ağa Vəkilovun birgə fəaliyyətini təsdiq edən daha bir etibarlı sənəd var. O da 1909-cu il martın 22-də çap olunan "Molla Nəsrəddin" jurnalının on ikinci sayındadır. Həmin sayda İbrahim ağa haqda iki dostluq şarjı

verilib. Birinci şarjda küçədə İbrahim ağaya rast gələn ziyalı müsəlmanların hamısı ona baş əyir, xoş təbəssümlə təzim edirlər. Onlar deyirlər ki, sən Xeyriyyə Cəmiyyətini təşkil et, biz sənə maddi cəhətdən kömək göstərəcəyik. İzof Rotterin məharətlə çəkdiyi bu şəklin altında belə yazılıb: "İbrahim ağa Vəkilov Müsəlman Xeyriyyə Cəmiyyətinin sədri seçilməmişdən əvvəl".

İkinci şarjda isə İbrahim ağa küçənin ortasında tək dayanıb. Ondan baş götürüb qaçan ziyalı müsəlmanlara baxıb, acı-acı gülümsəyərək, "Bunlara nə oldu?" – deyir. Bu "ziyalı" müsəlmanların kimisi qaçır, kimisi də gizlicə tindən, dalandan qorxa-qorxa İbrahim ağaya baxır. Hərbi formalı İbrahim ağanın indi küçədə əlləri təəccüblə açıq qalıb. Şəklin altında oxuyuruq: "Xeyriyyə Cəmiyyətinin sədri seçiləndən sonra".

Əsrin əvvəllərində İbrahim ağa bir topoqraf kimi çox məşhur olub. Qırx ilə yaxın hərbi topoqraf kimi fəaliyyət göstərən İbrahim ağa Vəkilovun xidmətləri "Müqəddəs Anna" ordeninin üçüncü dərəcəsilə (1886), İranın "Şire-Xorşid" ordenilə (1888), "Müqəddəs Stanislav" ordeninin ikinci dərəcəsilə (1894), "Müqəddəs Anna" ordeninin ikinci dərəcəsilə (1897), "Müqəddəs Vladimir" dördüncü dərəcəsilə (1903) qiymətləndirilib.

1902-ci ildə Tiflisdə nəşr olunmuş "Rus imperatorluğunun coğrafi birliyinin Qafqaz şöbəsi xəbərləri" kitabının (XV cild) iki yüz əlli səkkizinci səhifəsindəki xəbər eloğlumuzun fəaliyyəti barədə xoş təsəvvür yaradır: ***"Podpolkovnik İbrahim ağa Vəkilovun rəhbərlik etdiyi dördüncü bölmə Qars qalası rayonunun yarımverstlik miqyası (məsafədən) çəkilişini davam etdirmək tapşırığını almışdı. İndiyə kimi çəkiliş şöbə tərəfindən əla aparılmışdı. Podpolkovnik İ.Vəkilovun coğrafi çəkiliş şöbəsində kollec assesoru Baqdanov, podyesaul Borisenko, podporuçik Bekleşov və üç torpaq ölçən iştirak etmişdir"***.

1920-ci ildə Azərbaycanın ilk coğrafi xəritəsinin müəllifi və respublikamızda topoqrafiya məktəbinin yaradıcısı da general-mayor İbrahim ağa Vəkilov olmuşdur. O, 1918-ci il mayın 28-də Azərbaycanın istiqlalını bəyan etmiş Milli Şuranın üzvü idi.

1922-ci il dekabrın 3-də Xalq Komissarlığının və Hərbi Dəniz Donanmasının əmrində oxuyuruq:

"Hərbi topoqrafiya şöbəsinin rəisi İbrahim ağa Vəkilov yoldaş hərbi topoqrafiya kurslarının təşkili və rəhbərliyi sayəsində misilsiz xidmətlərinə, eləcə də yeni topoqrafların yetişdirilməsinə səmimi vicdanla yanaşmasına görə, topoqrafçıların birinci buraxılışının təntənəsi günü, *ümumi iclasın qərarlarına əsasən hərbi topoqrafiya kurslarının fəxri kursantı seçilmişdir.*

***Hərbi Dəniz Donanmasının Xalq Komissarı Qərargah rəisi".***

Yeni gələn Şura hökuməti onu "müsavat generalı" kimi gözümçıxdıya salsa da, İbrahim ağa hərbi-elmi, pedaqoji fəaliyyətini dayandırmayıb. Ehtiyac içində yaşayan general ömrünün son günlərində hökumətə yazdığı ərizəsində bildirirdi: "Dulam. (Həyat yoldaşı 1923-cü ildə vəfat etmişdi. Tiflisdə dəfn olunub. – ***Ş.N.***). Bir çarpayıdan, bir mizdən və bir arakəsmədən savayı heç nəyim yoxdur. Oğlumun darısqal evinin kiçik bir küncündə yaşayıram..."

Ədalətsizliyə bax ki, arxivdə saxlanan "Hərbi xidmət kitabçası"nın "rütbəsi" yazılan qrafasında Sovet hökumətinin hansısa xəbis ürəkli bir nümayəndəsi general-mayor sözlərinin üstündən tuşla qara xətt çəkib.

Onun çox böyük topoqraf təcrübəsi inqilabdan sonra yalnız milli diviziyalarda deyil, həm də Respublika Xalq Torpaq Komissarlığı Topoqrafiya-Geodeziya İdarəsinin rəisi vəzifəsində, Azərbaycanın Qədim Dövr İncəsənət Abidələrini və Təbiəti Mühafizə Komitəsində işləyəndə karına gəlmişdi.

General İbrahim ağa Vəkilov zəngin arxivi ilə tanış olduqca şəkil və sənədlərdə fədakar, vicdanlı, xalqını, millətini sevən bir insanın dolğun obrazını açıq-aydın görmək olur.

İstər hərbi topoqrafiya, istərsə də tariximizin ayrı-ayrı ziddiyyətli, mürəkkəb dövrünü öyrənmək üçün generalın məqalələri kifayət qədər material verir. Onun Azərbaycan Dövlət Tarix Muzeyinin Arxivində mühafizə olunan əlyazmasında sovet dövründəki məqalə və məruzələri qeydə alınıb. Əlbəttə, bu, general İbrahim ağa Vəkilovun inqilabdan əvvəlki, həmçinin 1918-1920-ci illərdə Milli Azərbaycan Ordusundakı misilsiz xidmətinin yalnız bir hissəsidir. Hətta, onun sovetlər dövründəki elmi-tədqiqi xidmətinin də tam əksi deyil:

1) Hərbi idarə üzrə 3 dekabr 1922-ci il 373[a] nömrəli əmrin surəti, 4-cü § təsdiq edir ki, mən doğrudan da topoqrafiya kurslarının fəxri kursantı seçilmişdim.

2) Azərbaycan SSR Xalq Torpaq Komissarlığının Mərkəzi İcra Komitəsinə 8 may 1929-cu il 2406 nömrəli məlumatını hazırlamışam.

3) Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 23.XI.1922-ci il tarixli jurnal qərarının çıxarışını yazmışam.

4) Azərbaycan Hərbi Komissarlığının 1923-cü il 8 may tarixli 1347 nömrəli vəsiqəsini tərtib etmişəm.

5) Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1922-ci il 1 aprel tarixli qətnaməsinin çıxarışını yazmışam.

6) Köçərilər haqqında məqaləm "Azərbaycanı Tədqiq Edən və Öyrənən Cəmiyyətin Xəbərləri" jurnalının üçüncü nömrəsində dərc edilib.

7) "Yeni kənd" jurnalında Ağamalı oğlu adına Torpaq Ölçmə Texnikumunun yaradıcısı kimi mənim fotoşəklim verilib.

8) T.Q.Sultanovun "Naxçıvan Diyarı və onun iqtisadiyyatı" kitabı mənim tərtib etdiyim xəritə ilə birlikdə nəşr olunub.

9) a) Azərbaycanın, b) bütün Qafqazın, c) Avropanın, ç) Asiyanın, d) Amerikanın (Şimali və Cənubi), i) Türk xalqlarının Asiya və Avropada məskunlaşmasının xəritələrini tərtib etmişəm.

## Alim sözü

*Qoca tarix ilham almış, mərd əllərin yazısından.*
***Səməd VURĞUN***

Topoqraf-general İbrahim ağa Vəkilovun sərkərdəlik fəaliyyətindən başqa ayrı-ayrı sahələrdə də xalqımız qarşısında xidmətləri çox olmuşdur. "Azərbaycan Respublikasının siyasi və fiziki xəritəsi"nin ilk tərtibçisi də İbrahim ağadır.

Bu dəyərli xəritənin taleyi necə olmuşdur? Bu milli xəritə nə az, nə də çox, yetmiş ildən artıq istifadə olunmamışdır. Yaddaşlardan qeyb olunan xəritənin yeganə nüsxəsini qeyrətli alim, coğrafiya elmləri namizədi, dosent Malik Mirzəyev qoruyub bu günümüzə qədər saxlaya bilmişdir.

– Malik müəllim, general İbrahim ağa Vəkilovun kartoqrafik xəritəsi sovet xəritələrindən hansı keyfiyyətlərinə görə fərqlənir?

– Generalın tərtib etdiyi "Azərbaycan Respublikasının siyasi və təbii xəritəsi" kartoqrafik bir əsərdir. O, məşhur dünya alimlərinin və kartoqraflarının tərtib etdikləri xəritələrlə müqayisədə nəinki onlardan geri qalmır, hətta, onlardan çox-çox üstündür. Adətən, xəritə tərtibçiləri bir sahəni (relyef, siyasi, iqtisadi, fiziki və s.) əks etdirməklə kifayətlənirlər. Bir xəritədə iki sahəni birləşdirmək ideyası ilk dəfə general İbrahim ağa Vəkilova müyəssər olmuşdur. O, bir xəritədə həm siyasi, həm də təbii məkanları birləşdirmiş və nəticədə dərin məzmunlu, zəngin təfsilatlı, asan oxuna bilən orijinal kartoqrafik əsər yaratmışdır. Xəritənin təhlilindən aydın olur ki, müəllif onu tərtib etmək üçün gərgin elmi axtarışlar aparmış, topoqrafiya, toponimika, tarix, onomastika, eləcə də coğrafiya elmlərinin öyrənilməsinə xüsusi diqqət yetirmişdir. Xəritə qırmızı rəng çaları ilə işlənmiş, ay-ulduz bayrağı ilə birgə çap olunmuşdur. Onun üçün 1:420000 miqyas seçilmişdir. O dövr üçün hər yerdə – ölkədə ondan asanlıqla istifadə etmək üçün ingilislərin işlətdiyi miqyasın da (verst) verilməsi onun praktik əhəmiyyətini xeyli artırmışdır. Xəritədə verilən

marşrut işlərinin yığcamlığı xüsusi əhəmiyyət kəsb edir. Bunların sayı indiki xəritələrlə müqayisədə xeyli azdır. İnşa olunmuş, inşa olunan ensiz dəmir yolları, araba, şose yolları və axan çay aydın nəzərə çarpan şəkildə çəkilmişdir. Onun təhlili göstərir ki, müəllif topoqrafiyanı əla bildiyindən iri yaşayış məntəqələri ətrafında, ayrı-ayrı sahələrdə bağları, şoranlıqları, bataqlıqları da göstərmişdir. Xüsusilə, Xocavənd, Lənbəran, Kvartaboy-Əhmədli ərazilərində bağlıq sahələr daha çox qeyd olunmuşdur.

– Malik müəllim, bəs, təbii yer adları necə işlənmişdir? Onlar rus xəritə və mənbələrindəki kimi dəyişdirilmiş, yoxsa türkcəsi saxlanılmışdır?

– General İbrahim ağanın xəritəsinin ən böyük dəyəri yer adlarının türkcə işlənməsidir. Məsələn, Kür-Araz ovalığında Muğan bozqırı, Mil bozqırı, Şirvan bozqırı kimi adlar saxlanılmışdır. Təbii coğrafi yer adları isə indikilərdən az fərqlənir. Məsələn, Dəli Məhəmmədli.

Xəritədən kifayət qədər maraqlı məlumatlar almaq olar. Xüsusilə, tarixi adların verilməsi onun dəyərini daha da artırır (Qarabulaq, Əbdəllər, Gorusu, Tərtər, İrəvan, Tiflis). Salyan və Sabirabad ərazisində bir çox qalaların adları (Mahmud qala, Cavad qala, Şin qala, Əbul qala) tarixi məna kəsb edir. Xəritədə bu qalaları yaradan Arazdan ayrılan bir qolun, Yeni Arazın çəkilməsi, göstərilməsi də elmi cəhətdən çox maraqlıdır. Xəzər dənizi boyu – Dərbənddən Astaraya qədər çoxlu burunların və ətəklərin hamısı türk – Azərbaycan adı ilə göstərilmişdir. Müəllifin *silsiləni – sıralar, aşırımı – aşma, çölü – bozqır, kəndi – köy* kimi yazması da dilçilik baxımından çox maraqlıdır.

Son illər erməni millətçiləri bir çox coğrafi adları əsassız olaraq dəyişdirmiş və təhrif etmişlər. Həmin başabəla "tədqiqatçılara" İ.Vəkilovun xəritəsi tutarlı cavabdır. Oxçu, Ağstafa, Alagöl, Qaragöl, Bazarçay və s. türk mənşəli adlar bunlara əyani misaldır. Xəritədə coğrafi adların düzgün verilməsi (oronimlər, hidronimlər, oykonimlər) hazırda böyük elmi əhəmiyyətə ma-

likdir. Saxtakar erməni tədqiqatçılarını ifşa etmək üçün bu xəritə tutarlı mənbə hesab oluna bilər.

İbrahim ağa Vəkilovun xəritəsi onun əlimizdə olan yeganə kartoqrafik əsəridir. ***Xəritənin tarixçi, dilçi, coğrafiyaçı alimlər və siyasətçilərin dərindən təhlilinə ehtiyacı var. İndiki dövrdə bəzi mübahisəli məsələlərin (ad, sərhəd) aydınlaşdırılmasına ondan istifadə etmək vacibdir. Xəritədə göstərilmiş, indi isə unudulmuş türk mənşəli adların bərpa olunmasında bu xəritənin çox böyük rolu ola bilər.***

Azərbaycan Respublikasının qonşu dövlətlərlə sərhədlərinin xəritədə göstərilməsi (xüsusən, Ermənistan, Dağıstan) müəllifin Qafqazı yaxından tanımasından irəli gəlir.

İbrahim ağa Vəkilovun "Azərbaycan Respublikasının siyasi və təbii xəritəsi" adlı məzmunlu kartoqrafik əsəri qəza sərhədlərini (siyasi vəziyyəti) çox əyani göstərən bir xəritədir.

İstedadlı topoqrafik-xəritəçi İbrahim ağa Vəkilovun bu xəritəsinin üzərində kiçik əl gəzdirməklə yenidən çap olunması vacibdir. Mənə belə gəlir ki, İbrahim ağa Vəkilovun əlimizə gəlib çatmayan çoxlu əsəri hələ də müxtəlif arxivlərdə öz tədqiqatçısını gözləyir.

Azərbaycan Respublikasının müstəqillik yolunda atdığı addımlar bizi unutdurulmuş məşhurlarımızla daha yaxından tanış olmağa, onların əsərlərinin toplanıb çap olunmasına köməklik göstərəcəkdir.

İbrahim ağa Vəkilovun topoqrafiya və kartoqrafiya sahəsində apardığı işlər onun həmvətənlərinə layiqincə çatdırılmalıdır. Bunun üçün gənclərə Vətən təəssübkeşliyi, milli hiss, keçmişimizə qayğı kimi mənəvi keyfiyyətlər aşılanmalıdır.

Təəssüf ki, belə bir görkəmli alim-general haqqında Azərbaycan Ensiklopediyasında bir sətir belə yoxdur.

# AİLƏNİN BƏXT ULDUZU

*Arvadla kişini bağlayır kəbin*
*Bu işə yol verir şəriət, ayin.*
*Mənimsə kəbinim bir rübaidir,*
*Varmı bu kəbinə yol verən bir din?*

*Məhsəti GƏNCƏVİ,*
*XII əsrin məşhur şairəsi*

Arxiv sənədlərində general İbrahim ağa Vəkilovun hərbi topoqrafiya sahəsində qeyrət və vicdanla çalışmasına aid maraqlı sənədlər, rəylər vardır.

Bir şəhadətnamə də diqqətimi cəlb edir: o, 1928-ci il iyulun 30-da Azərbaycan SSR Xalq İctimai Təminat komissarı Muxtar Hacıyev tərəfindən verilib:

***"Bununla təsdiq edirəm ki, hərbi-topoqraf İbrahim ağa Vəkilov, mən Azərbaycan MİK-in sədri olarkən, bir neçə dəfə müxtəlif komissiyalara üzv seçilib, eləcə də Azərbaycan və Ermənistan respublikalarının sərhədi təyin ediləndə və ümumiyyətlə, Azərbaycan MİK yanında müxtəlif işlərdə iştirak etmişdir. Yoldaş Vəkilov ixtisasını qəlbən sevir, üzərinə düşən vəzifəni vicdanla, ləyaqətlə və səliqəli yerinə yetirirdi".***

Şair Mənsur Vəkilovun yaddaşından:

1952-ci ildə Azərbaycan Respublikasının Səhiyyə nazirinin müavini işləyən atam Fəxri Məmmədrza ağa oğlu Vəkilovla bağlı maraqlı bir hadisəni indi də unuda bilmərəm. Gecə yarısı qəfildən qəbuluna çağıran Stalinin qəddar silahdaşı Mircəfər Bağırov elə qapının astanasında sərt səslə atamdan soruşmuşdur: "General Vəkilov sənin qohumundur?" Bu qəfil çağırışdan yaxşı heç nə gözləməyən rəngi saralmış atam "bəli" cavabını verir. ***Bir az mülayimləşən Bağırov səsinin ahəngini yumşaldıb demişdir: "Niyə həyəcan keçirirsən? Belə qohumla ancaq fəxr etmək olar. Bu yaxınlarda bizim sərhədlərimiz haqqında mən ermənilərlə***

***mübahisə edirdim. Vəkilovun xəritəsini tapıb əyani olaraq onlara sübut etdim ki, sizin mübahisə etdiyiniz torpaqlar bizimdir".***

Bu, əlbəttə, o dövrün dəhşətli möcüzəsi idi: bunları o adam deyirdi ki, general İbrahim ağa Vəkilovun iki oğlundan birini – polkovnik Qalib bəyi güllələtmişdi, mühəndis Faris bəyi isə on səkkiz illik Sibir sürgününə göndərmişdi.

1933-cü il noyabrın 29-da qocaman generala Azərbaycan SSR Xalq Komissarlığı fərdi təqaüd kəsmişdir.

* * *

Ömrünün çoxunu Tiflisdə yaşayan və işləyən İbrahim ağa Vəkilov 1884-cü ildə rus qızı Yelena Yefimovna Yermolayeva ilə ailə həyatı qurmuşdur. Bir-birini sevərək xoşbəxt ailə həyatı quran gəncləri imperator Üçüncü Aleksandrın ədalətsiz qanunu çıxılmaz vəziyyətdə qoymuşdu. Çarın qanununda deyilirdi ki, müsəlmanın rus qızına evlənməyi qəti qadağan olunur. Əks təqdirdə müsəlman oğlanı rus qızına evlənərsə, o, mütləq öz islam dinindən çıxıb, xristianlığı qəbul etmirsə, valideynlik hüququndan məhrum olunur. Vəziyyətdən çıxış yolu axtaran İbrahim ağa Vəkilov imperator III Aleksandrın müqəddəs Sinoduna, yəni ruhanilər məclisinin oberkuryerinə – məşhur Pobedonostyevə müraciət etməli olur. O, xahiş edir ki, xristian dinini qəbul etməyi ona məcbur etməsinlər və kəbini qanuniləşdirsinlər. Çarın sadiq nökəri Pobedonostyev qəti etirazını bildirir, hətta onun üzərinə hücum edib təqsirləndirərək deyir ki, siz rus qızı ilə kəbin kəsdirməyi heç xəyalınıza belə gətirməyin. Biz sizdən uşaqları belə alacağıq, sizin onlara atalıq etməyə hüququnuz yoxdur.

Nəhayət, 1891-ci ildə bu gənc ailənin bəxt ulduzu doğdu. Tale sanki özü onların xoşbəxtliyini himayəçiliyinə götürdü. Həmin ili kapitan İbrahim ağa Vəkilov çarın xüsusi əmri ilə ən yaxşı topoqrafiya mütəxəssisi kimi Türkiyəyə ezam olundu.

İki il sonra, 1893-cü ildə İbrahim ağa ilə Yelenaya bolqarıstanlı keşiş Georgi Misarov qanuni kəbin kəsdi. Bu vaxt ər otuz doqquz, arvad isə otuz iki yaşında idi. Artıq onun ailəsi də böyü-

müşdü: ailənin böyük oğlu Boris bəyin yeddi, kiçik oğlu Qleb bəyin isə altı yaşı vardı.

General İbrahim ağa Vəkilov böyük şairimiz Səməd Vurğunun əmisi oğludur. Şairin qardaşı Mehdixan Vəkilov "Mənim qardaşım" xatirə povestində yazır:

***"Səməd Vurğunun general İbrahim ağa ilə axırıncı söhbəti*** *(general İ.Vəkilov 1934-cü il iyunun 2-də vəfat edib –* ***Ş.N.)*** ***onun arvadı Yelena Yefimovnanın öz oğlanlarının islam dinini qəbul etmələrinin mümkünlüyü barədə L.N.Tolstoydan məsləhət istəməsi haqqında göndərdiyi məktub və aldığı cavab ətrafında olmuşdur".***

## Lev Tolstoya məktub

*Qəlbimizdə Allahın nuru vardır.*
*Onun da adı vicdandır.*
*Lev Tolstoy*

Aradan altı il keçdi. Ancaq nə İbrahim ağanın ata ürəyi sakit olur, nə də Yelena Yefimovnanın ana qəlbinin narahat döyüntüləri kəsilirdi. Onların intizarının əsas səbəbi oğlanların hansı dinə qulluq etmələri idi. Tale onlara üçüncü övlad da bəxş etmişdi. Reyhanın artıq on üç yaşı vardı. Hara gedib, kimdən ağıllı bir məsləhət almalı? Rəsmi dövlət idarələri və din xadimləri çıxılmaz vəziyyətdə qalan ailəyə bu barədə kömək edə bilmirdilər.

Generalın Peterburq Texnologiya İnstitutunda təhsil alan böyük oğlu Borisi, Moskvadakı Alekseev Hərbi Məktəbində oxuyan Qlebi də bir sual düşündürürdü: Mən kiməm, hansı millətə məxsusam? Bu izahedilməz sual qarşısında qalan hər iki qardaş tez-tez ana-ataya müraciət edirdilər.

Faris bəy Vəkilovun söhbətindən:

– Mənim on doqquz yaşım tamam oldu. Dərs məşğələləri ilə bərabər Məhəmmədin dininə keçmək fikri də məni tərk etmirdi. 1904-1905-ci illərdəki şərait bu niyyətimin həyata keçməsinə kömək etməli idi. Bədniyyətli Rusiya-Yaponiya müharibəsi, xalq

kütlələri arasındakı inqilabi əhvali-ruhiyyə çar hökumətini bəzi liberal qərarlar verməyə məcbur etdi.

1904-cü ildə "Din azadlığı haqqında manifest" nəşr olundu.

Orada hər hansı bir səbəbdən ata-baba dinindən dönmüşlərə yenidən o dinə qayıtmalarına icazə verilirdi. Adama elə gəlirdi ki, müvafiq ərizə vermək kifayətdir ki, bununla da məsələ həll olunsun. Təcrübəli adamlar, o cümlədən mənim valideynlərim Peterburqa gəlişimin birinci ilində pravoslav dininin müdafiəçilərinin bilavasitə yaxınlığında bu məsələni qaldırmağı məsləhət görmədilər. Anamın Lev Tolstoya məktubunda da bu ehtiyat öz əksini tapmışdı. Xoşagəlməz hadisələrdən yaxa qurtarmaq məqsədilə mənim niyyətimin həyata keçirilməsini bir qədər ləngitməli olduq.

Ata – İbrahim ağa Vəkilov və ana – Yelena Yefimovna belə qərara gəldilər ki, müdrik yazıçı Lev Tolstoydan başqa heç kəs bu ciddi ailə məsələsinə ağıllı cavab verə bilməz. Ona görə də 1909-cu il martın ikisində Tiflisdən Yelena Vəkilova yazırdı:

**Bizim dərin istəkli müəllimimiz**
**Lev Nikolayeviç!**

Öz məktubumla Sizi narahat etdiyimə görə, Sizin qarşınızda üzrxahlıq üçün söz tapa bilmirəm. Bilirəm ki, mənim kimi Sizdən məsləhət almaq istəyənlər çoxdur, bütün bunlara baxmayaraq mən də sizə müraciət edirəm. Çünki həyat mənim qarşımda gücüm çatmaz bir məsələ qoymuşdur.

Mən çalışacam ki, istədiyimi qısaca izah edim. Mənim əlli yaşım var, üç uşaq anasıyam, ərim müsəlmandır, ancaq kəbinimiz qanunidir. Uşaqlarımız pravoslav (xristian) dininə etiqad edirlər. Qızım on üç yaşındadır. Oğlanlarımdan birinin iyirmi üç yaşı var. O, Peterburq Texnologiya İnstitutunun tələbəsidir. O birinin iyirmi iki yaşı var. Moskvadakı Alekseyev Hərbi Məktəbinin yunkeridir. Bax, bu oğullarım atalarının dini etiqadına, daha doğrusu, müsəlmanlığa keçmək üçün məndən icazə istəyirlər. Mən nə etməliyəm? Mən bilirəm ki, indi bu, mümkündür və

həmçinin bizdə yaşayan yadellilərə pis münasibəti də bilirəm. Onlarda bu fikrin oyanmasına səbəb xırda həyati məsələlər deyil: nə maddi təminat, nə də mənsəbpərəstlik onları bu işə təhrik edir. Ancaq qaranlıqda qalan tatar (Azərbaycan – ***Ş.N.***) xalqına kömək etmək məqsədini güdürlər. Xalqa qovuşmağa, xalqa yanaşmağa din onlara mane olur. Amma mən qorxuram ki, bu dar düşüncəli məsləhətimlə onları pis məqsədə təhrik edəm. Mən öz dərdlərimlə tənhayam. Ah, əgər mən əzablarımı və mübarizəmi yaza bilsəydim... Mən məktubumu öz övladlarını dəlicəsinə sevən bir ananın göz yaşları ilə yazıram. Budur, əzabdan ağlımı itirmiş halda sizdən məsləhət almaq qərarına gəldim. Siz, yalnız Siz öz ağlınızla həyatımızın hazırkı şəraitində bunun nə ilə nəticələnəcəyini duya bilərsiniz. Sizə mənim dərdim kiçik və xırda görünə bilər. Ancaq bu, mənə dəhşətli əzablar verir.

Lev Nikolayeviç, Siz bizə, biz balaca adamlara heç vaxt ürəkdən gələn dəyərli məsləhətlərinizi əsirgəməmisiniz. Bunu bildiyim üçün cəsarət edib Sizi öz xahişimlə narahat etdim. Məni təsəlli oduna atın.

Çox-çox üzr istəyirəm ki, Sizin qiymətli vaxtınızı aldım. Bu addımı atmağa məni məcbur edən dəlicəsinə analıq sevgisidir.

***Bütün qəlblə Sizə sadiq olan***
***Yelena Yefimovna Vəkilova.***
***Tiflis şəhəri, Uçebnıy pereulok 1, ev 8***[1]

1909-cu il martın on beşində Yasnaya Polyanadan göndərdiyi cavab məktubunda dahi sənətkar yazırdı:

**Yelena Yefimovna Vəkilovaya**

Sizin oğullarınızın Tatar xalqının maariflənməsinə kömək etmək arzusunu təqdir etməyə bilmərəm. Belə olduğu halda Məhəmmədin dinini qəbul etməyin nə dərəcədə lazım olduğunu da deyə bilmərəm. Ümumiyyətlə, Sizə deməliyəm ki, hökuməti etiraf etmədən, adamın hansı dinə mənsub olması barədə kimə

[1] Hazırda həmin küçə Uş.Çxeidze adlanır – ***Ş.N.***

olursa olsun, məlumat verməsini artıq hesab edirəm. Elə buna görə də Sizin oğullarınızın islam dinini pravoslavdan üstün tutaraq qəbul etmələri, yəni bir dindən başqa dinə keçmələri barədə kiməsə məlumat vermələri gərək deyildir.

Bəlkə bu, zəruridir, lakin mən bu haqda bir şey deyə bilmərəm, ona görə də Sizin övladlarınız bu haqda lazımi hökumət orqanlarına xəbər verib-verməmələri barədə özləri qərar qəbul etməlidirlər.

Müsəlmançılığın pravoslavlıq qarşısındakı üstünlüyünə və xüsusilə Sizin övladlarınızın xidmət etdikləri məqsədin alicənablığına gəlincə, bu hərəkətə bütün qəlbimlə rəğbət bəsləyirəm.

Xristian idealı və təlimini onun həqiqi mənasında hər şeydən üstün tutan bir adam üçün bunu demək nə qədər qəribə olsa da deməliyəm ki, müsəlmançılığın öz xarici formasına görə kilsə pravoslavlığından müqayisəolunmaz dərəcədə yüksəkdə durması məndə heç bir şübhə doğurmur. Belə ki, əgər bir kəsin qarşısında kilsə pravoslavlığına, yoxsa ki, islam dininə sitayiş etmək yollarından hansını seçmək məsələsi qoyularsa, onda hər bir ağıllı adam, mürəkkəb və anlaşılmaz ilahiyyatın – üçsifətli allahın, günahın bağışlanması mərasiminin, dini ayinlərin, İsanın anasına yalvarışının, müqəddəslər və onların şəkillərinə saysız-hesabsız ibadətlərin əvəzinə bir ehkamı vahid Allahı və peyğəmbəri olan islam dinini, şübhəsiz ki, üstün tutar. Bu, başqa cür ola da bilməz, çünki xristian təliminin mahiyyətini qaranlıqlaşdıran və kilsəyə daxil olan bir çox mövhumi mərasimlərin olmaması baxımından və xristianlıqdan 600 il sonra meydana çıxması baxımından müsəlmançılıq xristianlıqdan üstün durmaya bilməz. Ayrı-ayrı fərdlərin, bütün insanlığın və bütün insanların həyatının əsasını təşkil edən dini şüurun təkmilləşdiyi kimi, həyatda hər şey inkişaf edir və təkmilləşir. Dinin təkmilləşməsi isə onun sadələşməsindən, aydınlaşmasından və onu müəmmalı edən hər şeydən azad olmasından ibarətdir. Dini həqiqətin onu əmmalı edən hər vasitədən azad edilməsi ən qədim zamanlardan bəri, bütün böyük dinlərin əsasını qoyan bəşər mütəfəkkirləri

tərəfindən həyata keçirilmişdir. Beləliklə, bizə məlum olan bütün dinlərin hamısından əvvəl belə yüksək, uca din anlayışı Vedının (Hindistanda) kitablarında, sonralar Moiseyin, Buddanın, Konfutsyanın, Lao-Tsenin, Xristian və Məhəmmədin təlimlərində verilmişdir. Dini onun köhnə, kobud mənasından azad edib, daha dərin: sadə və həqiqətlərlə əvəz edən bütün bu təzə din xadimləri böyük adamlar olublar, lakin məhz böyük adamlar olublar, lakin məhz böyük adam olduqlarındandır ki, həqiqəti olduğu kimi, bütün aydınlığı, dərinliyi və saflığı ilə keçmiş yanlış fikirlərindən azad şəkildə ifadə edə bilməyiblər. Bu adamların səhv edə bilməyəcəkləri, onların bütün dediklərinin təkzibolunmaz əsl həqiqət olduğu güman edilsə də, onların özlərindən çox-çox aşağıda duran şagirdləri həqiqəti bütün dərinliyi ilə dərk etmədən, təbiidir ki, onu daha dəbdəbəli və hamı üçün mütləq etmək arzusu ilə ona çoxlu lazımsız əlavələr, ələlxüsus, əcaib ünsürlər daxil etdiklərindən, əksəriyyət üçün həqiqəti vacibliyi ilə görmək çətin olur. Həqiqətin din tərəfindən belə təhrifi nə qədər çox etiraf edilmişdirsə, bu təhriflər o qədər də çox artmış, nəticədə din xadimləri tərəfindən kəşf olunmuş əsl həqiqət qaranlıqlaşmışdır. Elə buna görə də ən qədim dinlərdə həqiqəti gizləyən möcüzə və mövhumatlar hər şeydən çoxdur: bu, ən çox, ən qədim dində, Oramin dinində, ondan az yəhudi dinində, ondan da az Budda Konfutsiya, Taosist dinlərində, daha az Xristian dinində, nəhayət, lap az və axırıncı böyük din olan İslam dinindədir. Odur ki, müsəlmanlıq bu baxımdan ən əlverişli şəraitdədir.

İslam dini onda xarici, qeyri-təbii nə varsa, hamısını atsa və öz bünövrəsinə Məhəmmədin dini – mənəvi təlimin əsaslarını qoysa, təbiidir ki, bütün böyük dinlərin əsasları, ələlxüsus, həqiqəti etiraf edən xristian təliminin əsasları ilə birləşir. Sizə belə uzun-uzadı ona görə yazıram ki, siz mənim fikirlərimi oğullarınıza çatdıracaqsınız və bu fikirlər onların gözəl məramlarının həyata keçməsinə yarıya bilərlər. Dinin mahiyyətini təşkil edən həqiqətlərin böyük onu qaranlıqlaşdıran hər şeydən təmizlənməsinə təsir etmək insan fəaliyyətinin ən yaxşı növlərindən biri-

dir. Əgər Sizin övladlarınız bu fəaliyyəti həyat məqsədləri hesab etsələr, onda onların həyatı dolu və tam olacaq.

Bilmirəm, müsəlmançılıqda mənə məlum olan, ali əsas həqiqətləri gizlədən yanlış fikirlərdən və mövhumatlardan azad edilməsinə xidmət edən iki təlim Sizə və Sizin övladlarınıza məlumdur, ya yox. Buna görə, hər iki təlim təqibə məruz qalıb, indi də məruz qalır. Bu təlimlərdən biri İranda yaranmış, sonra Türkiyəyə keçmiş və orada təqibə məruz qalan Babistlər təlimi indiki Akkedə yaşayan Baqo-Ullanın oğluna səfərbər olub.

Ancaq bütün insanlıq üçün vahid olan məhəbbət dinini qəbul edən bu təlim, ibadətin heç bir xarici formasını qəbul etmir. İkinci təlim Kazanda meydana çıxıb. Onun tərəfdarları özlərini banilərinin adıyla, Allahın alayı və yaxud da Vaisovçular adlandırırlar. Bu adamlar da inamın mahiyyətini məhəbbətdə görürlər və məhəbbətə zidd gedən bütün tədbirlərdən kənarda qalırlar. Bu sekta da təqib olunur və bu günlərdə onun rəhbərləri tutulub həbsxanaya salınıblar.

Əgər mənim məsləhətlərim heç olmasa bir şeyə yarasalar, Siz yaxud da Sizin oğullarınız özlərinin sonrakı fəaliyyətləri haqqında qərarlarını mənə bildirsinlər, çox şad olaram.

**_Lev Tolstoy_**[1].

Görünür böyük Tolstoyu ananın məktubu bərk həyəcanlandırıb. Bunu dörd səhifəlik və demək olar ki, təcili yazılan cavab məktubundan da hiss etmək olur. Tolstoyun: "Müsəlmançılığın öz xarici formasına görə kilsə pravoslavlılığından müqayisəolunmaz dərəcədə yüksəkdə durması məndə heç bir şübhə doğurmur" cümləsi onların ailə intizarına son qoydu. Məktub ailədə hökm kimi oxunub, qanun kimi qəbul olundu.

Lev Tolstoyun məktubundan sonra Tiflisdəki Zaqafqaziya Ruhani İdarəsi general-mayor İbrahim ağa Vəkilovun övladlarını müsəlmanlığa qəbul etmiş və bu barədə Müfti Mirzə Hüseyn

[1] Lev Tolstoyun məktubu makinada yazılıb. Müəllif cümlənin altından xətt çəkib və sonra "Lev Tolstoy" sözlərini öz dəsti-xətti ilə yazıb – ***Ş.N.***

əfəndi Qayıbzadənin imzası ilə rəsmi sənəd verilmişdir. Uşaqların adını da dəyişdirmişlər: Boris Faris olmuş, Qleb isə Qalib kimi rəsmiləşmişdir.

Lev Tolstoyun Yelena Yefimovna Vəkilovaya yazdığı məktubun əslini oğlu Faris bəy 1978-ci ildə Moskvadakı Lev Tolstoy adına Muzeyə vermişdir. Surəti isə bu sətirlərin müəllifindədir.

Dahi Tolstoy müsəlman dininə etiqadını təkcə bu məktubla izhar etməmişdir. Onun çoxminli qələm və qəlb dostları Tolstoyun İslam dininə, Məhəmməd peyğəmbərin şəxsiyyətinə ülvi məhəbbəti barədə yazır, söhbət açırlar. Tolstoyun özünün birbaşa etirafı isə, ilk dəfə möhtərəm oxuculara təqdim etdiyimiz aşağıdakı söhbətində aydın görünür.

Milliyyətcə slovak olan D.P.Makovitski altı il Lev Tolstoyun şəxsi həkimi olmuş və çoxsaylı qonaqların Tolstoyu ziyarət etməsi barədə "1904-1910-cu illərdə Tolstoyun yanında" adlı monumental bir əsər yazmışdır.

1979-cu ildə həmin dördcildlik "Yasno Polyana qeydləri" adı ilə Moskvada ilk dəfə nəşr olundu. Kitabın üçüncü cildinin üç yüz əlli altıncı səhifəsində Tolstoyun ailəvi söhbəti verilib. Oxucu orada dahi yazıçının general İbrahim ağa Vəkilovun həyat yoldaşından qayğısının və İslam dinini qəlbən sevməsinin bir daha şahidi olur.

Duşan Petroviç Makovitski yazır:

***"1909-cu il martın 13-də Lev Nikolayeviç söhbət zamanı dedi: "Bir anadan məktub almışam, yazır ki, uşaqlarımın atası müsəlmandır, özüm isə xristianam. İki oğlum var: biri tələbədir, o biri zabit. Hər ikisi də müsəlman dininə keçmək istəyir".***

**Sofya Andreyevna:** – Yəqin ki, oğlanları müsəlman dininə çoxarvadlı olmaq xatirinə keçmək istəyir.

**Lev Nikolayeviç:** – Nə olar ki... Məgər bizdə çoxarvadlılar azdır?

Sonra Lev Nikolayeviç dedi ki, bu məktub haqqında fikirləşərkən mənim üçün çox şey aydınlaşdı. Məhəmməd həmişə Yevangelini üstələyir. O, İsanı Allah hesab etmir və özünü də

Allaha bərabər tutmur. Müsəlmanların Allahdan başqa Allahı yoxdur və Məhəmməd onun peyğəmbəridir. Burada heç bir müəmma və sirr yoxdur. Hansı yaxşıdır: xristianlıq, yoxsa müsəlmançılıq? Mənim üçün aydındır ki, müsəlman dini daha yaxşıdır, daha üstündür. Qısa müddət susduqdan sonra Lev Nikolayeviç təkrar etdi:

– Müsəlmançılıq müqayisəolunmaz dərəcədə xristianlıqdan üstündür. Müsəlmançılıq mənə çox kömək etmişdir.

**Mixail Vasilyeviç:** – Zaporojyeli nekrasovçular[1] müsəlman dininə keçmişlər.

**Lev Nikolayeviç:** – İnsan inkişaf etdikdə dinin əsasları da: taosizm, buddizm, xristianlıq da inkişaf edir. Bunların da hamısının dini əsasları birdir. Zaman keçdikcə bu da birliyə və sadəliyə gətirib çıxardır".

## Gecikmiş cavab

Düz səksən iki il keçəndən sonra "Literaturnaya qazeta" yeddi nömrəli dosyesində (1991-ci il) general İbrahim ağa Vəkilovun ailə məktubu haqqında məlumat verdi. Dosye İslam dininin bütün doğmalarını özündə birləşdirən dahi kitab – Qurani-Kərimə həsr olunmuşdu. Bu təşəbbüs İslam dininin əsasları barədə çoxmilyonlu rus oxucularına açıq, mübaliğəsiz məlumat vermək üçün gözəl bir başlanğıc idi. +

Yazıçı Lev Tolstoyun Yelena Vəkilovaya yazdığı məktubdan hissələr dərc edən qəzet həm də sorğu vermişdi ki, çox təəssüf edirik, Vəkilovanın şəxsiyyəti haqqında heç bir məlumatımız yoxdur.

Azərbaycanda bu sorğuya cavab verən bircə adam tapıldı – generalın yeganə nəvəsi, professor Leyla Qalib qızı Vəkilova. Cavabında bu məsələni dəqiq açıqlayan Leyla xanım yazır:

[1] 1708-ci ildə Bulavin üsyanı yatırıldıqdan sonra ataman İqnat Nekrasovun rəhbərliyi ilə Türkiyəyə köçən Don kazakları. – *Ş.N.*

***"Əhvalat belə olmuşdu: Qızlıq famili Yermolayeva olan Yelena Yefimovna hərbçi-zadəgan ailəsində doğulmuşdur. Tiflisdə zabit toplanışlarının birində o, gənc zabit İbrahim ağa Paşa ağa oğlu Vəkilovla görüşüb tanış olur".***

Bizim Vəkilovlar nəsli Azərbaycanın qəza şəhəri Qazaxdandırlar. Zadəgan silkinə məxsus olan nəslimiz rəsmi olaraq üç yüz əlli ildən çoxdur ki, davam edir. Bizim nəsil öz xalqına, vətəninə bir çox görkəmli hərbçi, alim, yazıçı və sair bəxş etmişdir ki, onların arasında müasir Azərbaycan ədəbiyyatının korifeyi şair Səməd Vurğunun adını çəkməmək olmaz.

İki gənc – Yelena Yefimovna və İbrahim ağa Paşa ağa oğlu bir-birini sevirlər. Lakin onların birgə səadətlərinə din ayrılığı mane olurdu. Azərbaycanlı İ.Vəkilov islam, Y.Yermolayevna isə pravoslav dininə məxsus idi. Rusiya imperiyasının o vaxtı qanunlarına görə kəbin kəsdirmək üçün ikisindən biri öz dinindən imtina etməli idi. Ancaq onların heç biri tərbiyə olunduqları dini ehkamlara qarşı çıxa bilmir. Belə olduğu halda mənim babam İbrahim ağa Vəkilov imperatora müraciət edir. Əlahəzrətdən xahiş edir ki, onların dinlərini dəyişdirmədən kəbin kəsdirmələrinə icazə versin. Uzun çəkişmələrdən sonra bu icazə verildi. Lakin Rusiya imperiyasının qanunlarına görə belə kəbindən sonra dünyaya gələn uşaqlar pravoslav dinində tərbiyə almalı idilər.

Beləliklə, Yelena Yefimovna hər üç uşağını – qızı Reyhanı, oğlanları Boris və Qlebi xaç suyuna salır. Lakin atalarının, dost və qohumlarının təsiri ilə uşaqlar islam dininə daha çox meyil və rəğbət göstərirdilər. Analarını çox sevən hər üç uşaq böyüyəndə ondan xahiş edirlər ki, onların müsəlman dininə keçmələrinə razılıq versin.

Məhz bu səbəbə görə də mənim nənəm onu üzən "nə etməli?" sualı ilə "xristian dininin vicdanı" sayılan yazıçı Lev Tolstoya müraciət etməyə məcbur olur.

Lev Tolstoy dördsəhifəlik geniş məktubla nənəmə cavab yazır. Həmin məktubdan bəzi parçaları Siz qəzetinizin yeddinci nömrəsində – dosyedə dərc etmisiniz.

Tolstoyun məktubundan sonra Yelena Yefimovnanın və İbrahim ağa Paşa ağa oğlunun uşaqlarının üçü də müsəlman dinini qəbul edir. Oğlanları adlarını belə dəyişdirirlər – Boris – Faris, Qleb isə Qalib olur.

Yelena Yefimovna bütün həyatını sadiq ərinə və sevimli uşaqlarına sərf etmişdir. Hərbi vəzifəsinə görə ərinin hara göndərilməsindən asılı olmayaraq (babam qərargah generalı rütbəsinə qədər yüksəlmişdi) nənəm həmişə onu müşayiət etmişdir. O, çox savadlı qadın olmuş, bir neçə dil bilmiş, ədəbi-bədii tərcümələrlə məşğul olmuş, maraqlı xatirələr yazmışdır. Nənəm 1923-cü ildə Tiflisdə vəfat etmişdir.

Mənim babam və onun hər iki oğlu öz xalqına, Vətəni Azərbaycana böyük inam və sadiqliklə qulluq etmişlər. Xüsusilə, 1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulmasında onların əvəzsiz xidmətləri olmuşdur.

Babam İbrahim ağa hərbi topoqraf idi. O, İran, Türkiyə və Zaqafqaziyanın xəritəsini yaratmışdı. Azərbaycanın ictimai həyatında görkəmli yer tuturdu. Azərbaycanda Demokratik Respublika olduğu zaman o, Gəncənin general-qubernatoru idi. Türk, İran və Rusiya ordenləri ilə təltif olunmuşdu.

Atam Qalib bəy İbrahim ağa oğlu Vəkilovun hərbi-texniki təhsili vardı. Birinci Dünya savaşında iştirak etmişdi. Hərbi xidmətlərinə görə bir sıra ordenlərlə, o cümlədən "Müqəddəs Georgi" xaçı ilə təltif olunmuşdu.

Əmim Faris bəy İbrahim ağa oğlu isə ixtiralarına görə bir sıra patent qazanmış, istedadlı mühəndis idi. Təəssüf ki, bizim ailəmiz də siyasi təzyiq tədbirlərindən kənarda qalmadı.

1931-ci ildə atam birinci dəfə həbs olundu, sonra səhhətinə görə həbsdən azad edildi. 1937-ci ildə onu ikinci dəfə həbs etdilər və günahsız olmasına baxmayaraq, keçmiş çar və müsavat zabiti kimi noyabrın 15-dən 16-na keçən gecə güllələdilər...

Əmim isə on səkkiz il Karaqanda, Maqadan və Sibir sürgünü çəkmişdi. Atamdan xatirə olaraq məndə yalnız onun (ölümündən sonra) bəraət alması haqqında olan arayışlar qalmışdır.

Sizin dosyenin səhifəsində adını çəkdiyiniz Y.Y.Vəkilovanın ailəsi haqqında mənim demək istədiyim bunlar idi.

*Hə, bir neçə kəlmə də özüm haqqında demək istəyirəm. Mən – Leyla Qalib qızı Vəkilova – pedaqoji elmlər doktoru, M.F.Axundov adına Pedaqoji Rus dili və "Ədəbiyyatı İnstitutunun professoru, Azərbaycanın ali və orta məktəbləri üçün rus dili üzrə bir sıra dərsliklərin müəllifiyəm. Bütün şüurlu həyatımı gənclərin tərbiyəsinə və təhsilinə sərf etmişəm".*

## Qürbətdən gələn məktub

General-topoqraf İbrahim ağa Vəkilovun ailəsində iki qardaşın yeganə bacısı Reyhan xanım idi. Atasından və əmisindən fərəhlə danışan Leyla xanım bibisi haqqında heç bir məlumat vermir. Əlbəttə, bu, səbəbsiz deyil. 1919-cu ildə Azərbaycan nümayəndəsi kimi Fransada işləyən Abbas bəy Ataməlibəyov həyat yoldaşı Reyhan xanımı da özü ilə aparmışdı. 1920-ci il Aprel çevrilişindən sonra onlar geri qayıtmadılar. Şübhəsiz ki, Reyhan xanım "Vətən" deyib, bolşevik-daşnak rejimilə yaşayan o vaxtkı Azərbaycana qayıtsaydı, bəy nəsilli, müsavat generalının qızına da qardaşları Qalib bəy və Faris bəy kimi acı tale qismət olardı. Yetmiş ildə Vəkilovlar kimi digər ziyalı nəsillərimizin nümayəndələrinin nələr çəkdiyi hamımıza yaxşı məlumdur. Otuz yeddinin qara, məşum günlərində doqquz yaşlı uşağa on bir il həbs cəzası kəsən, ata-anasını, hətta uzaq qohumlarını güllələdən sovet totalitar hakimiyyətinə etibar edib qayıtmaq mümkünmü idi? Əlbəttə, yox. Bütün bunları – sürgün və güllələnmələri onlar Okeanın o tayında yaşasalar da, bilirdilər.

Yadımdadır, yetmişinci illərdə Faris bəylə tez-tez görüşəndə bir neçə dəfə bacısı Reyhan xanımın adını çəkib ağladı.

– Faris bəy, bacınız sizdən böyük idi, yoxsa kiçik? – deyə soruşdum.

– Ailəmizin ən kiçiyiydi, – dedi. – Şən, şıltaq bircə bacımız vardı. O, 1896-cı il iyunun 20-də Tiflisdə anadan olmuşdu. İki oğuldan sonra dünyaya gələn bacımın şərəfinə atam bir qoç qur-

ban kəsdi. Bacım ilk təhsilini Tiflisdəki Nücabə Qızlar Məktəbində almışdı. 1917-ci ildə onun toyu oldu. Əri Abbas bəy Ataməlibəyov əslən Şamaxıdan olan, lakin çoxdan Bakıda yaşayan Seyfulla bəyin oğlu idi. Onlar varlı-dövlətli, həm də ali dərəcədə ziyalı bir nəsil idi. Abbas bəy Üzeyir bəyin qardaşı Ceyhun bəy Hacıbəyli, Əlimərdan bəy Topçubaşovla yaxın dost idi. Onlar Fransaya da birgə getdilər, bir daha qayıtmadılar. Atamın sağlığında, qardaşım və mən həbs olunmamışdan əvvəl məktublaşırdıq. İndi isə nə öldüsündən, nə də qaldısından xəbərimiz yoxdur...

Nə az-nə də çox, yetmiş yeddi ildən sonra general ailəsinin yeganə varisi Leyla xanım Amerikadan məktub və fotoşəkil aldı. Məktub və fotoşəkli ona bibisi oğlu Qalib göndərib. Təbii ki, belə məktubu oxumaq nə qədər sevindirici olsa da, həyəcanı ondan qat-qat artıqdır. Professor Leyla xanım Vəkilova ingilis dilində yazılmış məktubun mətni ilə məni tanış edir.

– Bibim Reyhan xanım 1923-cü ildə anadan olan oğluna mənim atamın, yəni kiçik qardaşı Qalib bəyin adını qoyub. Mənə uşaq vaxtı babam demişdi ki, sənin bibin oğlu var. Hətta onun balaca vaxtı çəkilmiş iki fotoşəklini də göstərmişdi. 1934-cü ildə babam İbrahim ağa vəfat etdikdən sonra nə bibim Reyhan xanımdan, nə də onun oğlunun taleyi haqqında heç bir məlumatım yox idi. İki min birinci ilin iyun ayında mənə xəbər verdilər ki, bibin oğlu Qalib Ataməlibəyov sizi axtarır. Mən ona ev telefonumu və ünvanımı göndərdim.

– Leyla xanım, 1919-1920-ci illərdə Reyhan xanım və ailəsi Fransada yaşayıb. Bəs necə olub ki, indi Amerikadan məktub gəlib?

– Bibim oğlunun yazdığına görə 1920-ci ildən sonra onlar çox çətin və əzablı günlər yaşayıblar. Bu əzablara baxmayaraq, Qalib yaxşı təhsil alıb, dünyanın bir neçə böyük ölkəsini dolaşıb. Hələ Parisdə yaşayanda o, Sarbonna Universitetini bitirib. Müharibə vaxtı fransızların işğalçı qoşunlarının tərkibində Almaniyada hərbi qulluqda olub.

1946-cı ildə onlar ailəlikcə Cənubi Amerikaya, Çiliyə köçüblər. Qalib farmakologiya mütəxəssisi kimi firmada işləyib. Onun Tayvanda, Çilidə, Hindistanda, Yuqoslaviyada və Misirdə filialları olub. Nəhayət, altmışıncı illərin sonunda Amerikada daimi yaşayıb. Bibim Reyhan xanım 1966-cı ildə Çilidə, əri Abbas bəy isə 1971-ci ildə Amerikada vəfat edib.

Yuqoslaviyada bibim oğlu milliyyətcə serb, sənəti kimyaçı olan bir qızla tanış olub, ailə qurub. Onların indi iki övladı var – oğlu Abbas – Dominik və qızı Tamar – Mariya adlı. Məktubunda Qalib söz verir ki, 2002-ci ildə dədə-baba Vətəni Azərbaycana ziyarətə gələcək.

## Tiflisdəki izimiz

***Azərbaycanlı seminaristlər Qoridə özlərinin gənclik illərini keçirmişlər. Onlar Gürcüstan və gürcülər haqqında ən yaxşı təəssüratlarla gedirdilər. Gürcüstan Azərbaycanın bir çox mədəniyyət xadimlərinin mənəvi vətəni olmuşdur. Belə vətəni unutmaq olarmı? Mən Gürcüstan və Qori şəhərinin sakinlərinə səmimi münasibətlər üçün dərin minnətdarlığımı bildirirəm.***

***Firidun bəy Köçərli,***
***1918-ci ildə "Qruziya" qəzetinin***
***müxbirinə verdiyi müsahibədən.***

XIX əsrin əvvəllərindən başlayaraq Tiflisdə bizim mütərəqqi fikirli ziyalılarımız daha çox məskən salıblar. Ona görə də inqilabaqədərki ziyalılarımızın hansının ömür yoluna nəzər salırsansa, istər-istəməz Tiflislə bağlılığına rast gəlirsən. Təəssüf ki, belə görkəmli şəxsiyyətlərimizin adları əbədiləşdirilmir. Olub-qalan nişanələr isə bir yandan silinib itirilir.

General-topoqraf İbrahim ağa Vəkilovun on doqquzuncu əsrin sonlarında tikdirdiyi şəxsi mülkü Uş.Çxeidze küçəsində əsl memarlıq abidəsi idi. İki göz istəyirdi tamaşa etsin. Bu evi mən 1985-ci ildə generalın oğlu Faris bəyin çəkdiyi sxem vasitəsilə axtarıb tapmışdım. Bakıya qayıdanda Faris bəyə dedim ki, eviniz sağ-salamatdı, getdim, Tiflisdə ziyarət elədim. Onda Faris bəyin necə sevindiyinə bir Allah, bir də mən şahidi oldum. Doxsan dörd yaşlı tənha qoca durub qara şkafın enli siyirməsində saxladığı həmin evin fotoşəklini tapdı, dönə-dönə öpdü, uşaq kimi kövrəldi.

İkimərtəbəli mülkdə iki gürcü, bir erməni ailəsi yaşayırdı. Soruşdum ki, bilirsiniz bu mülk kimin olub? Cavab verdilər ki, bir tatar generalının.

Budəfəki gəlişimdə də dözməyib, yenə həmin evə baş çəkmək istədim. Hansı gözəgörünməz qüvvəsə məni ora çəkirdi. Elə bilirdim orda – o mülkdə, qarşısındakı o cənnətəbənzər bağda Azərbaycanın bir parçası öz oğlunun həsrətindədir. Üstəlik də Faris bəy danışmışdı ki, qapımızdakı ağacların hamısını atam Qarayazıdan, Salahlıdan gətirmişdi. Atam o ağaclarla həmişə həmsöhbət olardı. Onları sığallaya-sığallaya, hər bir ağacın boyunu sevə-sevə böyüdərdi. Uzaq şəhərlərə topoqrafiya çəkilişlərinə gedəndə onlara da salam yazırdı. Anama, bizə dönə-dönə tapşırardı ki, ağaclar amanatı, onlara vaxtında su verin, korluq çəkməyə qoymayın.

Veriyski körpüsünü keçib balaca dikdirə çıxanda gözlərimə inanmadım. Generalın mülkü yox idi, yer üzündən silinmişdi, sanki heç burda belə şey olmayıbmış. Yalnız sahibsiz bağın ağacları qalmışdı. Məni qınamayın, mənə elə gəldi ki, o ağaclar yetim uşaq kimi ağlaşırdılar. Yaxınlaşıb oxşadım onları. Əlimi gövdələrinə çəkdim. Generalın ruhuna rəhmət oxudum, yaxşı tanıdığım mərhum Faris bəyi yada saldım. Kövrəldim. “Eh, dünya, niyə belə vəfasızsan” – pıçıldadım. Başım üstündə göyə yüksələn ağacların yarpaqları xışıldadı. Küləkmi tərpətdi onları, yoxsa mənim gəlişimə sevinclə pıçıldaşdılar? Deyə bilmərəm, bircə

şeyi bilirəm ki, canıma od saldı o ağacların qürbətdə yetim qalmağı...

Xeyli aralıdakı qonşulardan soruşdum ki, bu mülkü niyə uçurublar? Cavab verdilər ki, guya yanından keçən yolu genişləndirmək istəyiblər, yol-zad da çəkməyiblər. Evi uçurduqlarına da peşman olublar...

Beləcə, bir tarixi abidəmiz, tariximiz keçmiş Tiflisdən silinib. Acınacaqlı haldır ki, bu da bizim səlahiyyətli vəzifə adamlarımızı narahat etmirdi. O vaxt, 1985-ci ildə ev salamat olanda Bakıda rəsmi idarədə, bir rəsmi vəzifə sahibinə dedim ki, Tbilisidə generalın evi qalır.

– Nə demək istəyirsən? – deyib boz-boz üzümə baxdı.

– Yaxşı olar, – dedim, – Gürcüstan hökuməti ilə danışıb mülkə bir lövhə vurdurasınız. Axı, o evdə xalqımızın yeganə topoqraf-generalı İbrahim ağa yaşayıb. General İbrahim ağa Vəkilov tarixi şəxsiyyətdir...

Məni axıra qədər dinləməyən rəhbər şəxs etinasızlıqla:

– Fikirləşirik, – dedi, – indi vaxt yoxdu.

Bizim "ağıllı rəhbərimiz" fikirləşməyə vaxt tapana kimi "dəli çayı vurub keçdi"...

Həmin il – 1985-ci ilin iyununda Tbilisidə şahidi olduğum bir hadisəyə azərbaycanlı kimi hədsiz sevindim. İndi də unuda bilmirəm. Bir küçədən keçəndə kitab mağazası görüb içəri keçdim. Satıcı yaraşıqlı cavan bir oğlan idi. Mən rusca soruşdum ki, sizdə tarixi mövzuda yaxşı kitab varmı? Saxlancın varsa, ver, neçəyə desən alaram. Oğlan üzümə baxıb, təmiz Azərbaycan dilində:

– Var, – dedi, – buyurun alın, cavan yaşında Gəncədə vəfat etmiş şair Nikoloz Barataşvilinin həyatından sənədli povestdir. Alsanız, peşman olmazsınız. Burda o dövrün Gəncəsi haqqında maraqlı epizodlar var.

– Azərbaycanlısanmı? – sevinclə soruşdum.

– Yox, – dedi, – gürcüyəm. Meydanda yaşayıram. Bizim Meydanda yaşayan bütün millətlər Azərbaycan dilində mənim kimi

təmiz danışırlar, hələ sizin mahnıları da oxuya bilirəm, hər bazar günü saat ikidə "Muğam saatı"nı səbirsizliklə gözləyirəm.

Dünən general İbrahim ağa Vəkilovun mülkünün uçurulmağı qanımı qaraltmışdısa, bu gün dilimizə, musiqimizə olan hörmət məni göyün yeddinci qatına qaldırdı. Kitab mağazasından sinədolusu sevinclə çıxdım.

## UZUN ÖMRÜN SƏHİFƏLƏRİ

***Qarayazı,***
***Kür qırağı Qarayazı,***
***Ömrə çox da bel bağlama***
***Birdə gördün qara yazı.***

***El bayatısı***

Məni çox kefsiz və bir az da könülsüz qarşıladı. Əvvəlcə başa düşə bilmədim, bu etinasızlıq mənim gəlişimə görədir, yoxsa qoca xəstəhaldır. Elə-belə, nəzakət xatirinə "keçin əyləşin" – dedi. Bu tənha yaşayan qocanın tərtəmiz geyimindən, ev şəraitindən hiss etmək olurdu ki, çox səliqəli adamdır.

Qoca əvvəl eynəyini çıxartdı, sonra da dizinin üstündəki kitabı qatlayıb kənara qoydu. İri şkafın enli siyirməsini çəkib dərindən nəfəs ala-ala, qara məxməri parçaya bükülmüş bağlamanı açdı. Balaca bir şəkil tapıb işığa tərəf tutdu. İri ala gözlərini geniş açıb "budur, atam, – dedi, buyur, bax!" "Atam" deyəndə səsi qırıldı. Bu qocanın bütün varlığını qəribə, təsvirolunmaz bir kövrəklik titrətdi. Udqunub üzünü yana döndərdi.

Mən şəkli alıb baxdım. Bu, cavan, çox yaraşıqlı bir zabitin on doqquzuncu əsrin sonlarında çəkilmiş şəkli idi.

– Faris baba, – dedim, – bəs sənədləri? Təkcə bu şəkillə nə eləmək olar? Mümkünsə, sənədləri də tapın, birgə baxaq, elə buradaca... Heç yerə aparmayacağam.

O, könülsüz geri döndü, ağır addımlarla yenidən şkafa yaxınlaşdı. Xeyli əlləşdi. Bayaq oxuduğu kitabı o küncdən bu küncə qoyur, dəftəri açıb baxır, arasından heç nə tapa bilməyib əsəbiləşirdi...

Səbrim tükənmişdi, onun əhvalı mənə də təsir etmişdi. Nəhayət, şkafın tək gözündən götürdüyü qalın bir qovluğu mənə verib titrək, kövrək səslə soruşdu:

– Cavan oğlan, sənin nəyinə lazımdı mənim atamın sənədləri?

– Faris baba, atanız xalqımızın hərbi topoqrafiya tarixində yeganə general olub. İstəyirəm qəzetdə, jurnalda onun barəsində bir yazı ilə çıxış edim, qoy bugünkü gənclik xalqımızın belə bir şöhrətli generalı olduğunu bilsin.

– Mənim atam çoxdan unudulub, – deyə incik halda əlini yellədi. Ani fasilədən sonra əlavə etdi: – Bəlkə, elə belə yaxşıdı. Müsavat generalı kimin nəyinə lazımdır?.. – İndi başa düşdüm ki, qoca məni nəyə görə könülsüz qarşıladı. – Bir vaxt özüm çox çalışdım ki, üzə çıxsın, generallar arasında onun da adı çəkilsin. O da Azərbaycan üçün, xalqı üçün can qoyub, cəbhələrdə vuruşub, gecəsi-gündüzü topoqrafiya çəkilişlərində keçib. Hələ 1883-cü ildə Rusiya-İran komissiyasının tərkibində Xəzər dənizindən Əfqanıstana qədər olan sərhədlərin dəqiqləşdirilməsində iştirak edib. Belə bir ciddi işi vaxtından əvvəl yerinə yetirən atamın xidməti İran hökumətinin ən yüksək "Şire-Xorşid" ordeninə layiq görülüb. O, Krımın, Dağıstanın və bütün Qafqazın topoqrafik xəritəsini tərtib edib. 1892-ci ildə Türkiyəyə ezam olunan atam Qars vilayətinin rus-türk sərhədlərində topoqrafiya işlərinə rəhbərlik edib. Cənubi Azərbaycanın Təbriz, Xoy, Urmiya və başqa şəhərlərinin də topoqrafik çəkilişinə atam rəhbərlik edib. Hər gələn bir sənədini, şəklini istədi, elə o gedən oldu. – Kövrək-kövrək: – Mən də ki belə, gördüyün kimi, qocaldım, əldən düşdüm. Sənəd, şəkil aparanların da ünvanını, telefonunu itirdim. O, insafsızlar da nə atam haqqında yazdılar, nə də şəklini qaytardılar.

– Mən burda baxacam, heç nəyi heç yerə aparan deyiləm. Qeydlərimi də burada eləyəcəm...

– Yaxşı, onda aç qovluğu, söhbət eləyək. Əvvəla, de görüm, atamın sorağını sənə kim verib? – zəndlə üzümə baxıb soruşdu.

– Bir marşalın "Mənim xatirələrim" adlı yeni kitabı çıxıb. Orda atanız, polkovnik İbrahim ağa Vəkilovun Sərdarabad, Baş Abaran əməliyyatındakı fəaliyyətindən geniş məlumat verir. Qərargah rəisi polkovnik İbrahim ağa Vəkilovun hərbi döyüşlərdə məharətini marşal bütün ordu heyətinə nümunə göstərir, – dedim.

Üz-gözündən gördüm ki, bu fakt onu hədsiz dərəcədə sevindirdi. Məndən qabaq əl uzadıb qovluğu özü açdı.

...1978-ci ilin yazında Faris bəy İbrahim ağa oğlu Vəkilovla tanışlığım belə oldu. Həmin il atası haqqında "Azərbaycan" jurnalında çıxış etdikdən sonra yenidən onun görüşünə getdim.

Faris baba jurnalı aldı, yazını o üz-bu üzə vərəqlədi. Divanda yanaşı əyləşdik.

– Oxu, – dedi, – görüm nə yazmısan?

Yarıya çatmamış sərlövhəsini bir də soruşdu.

– "Qəribə tale", – dedim və dönüb ona baxdım. Onun ağıllı, iri gözlərində yaş damcıları görüb dayandım.

– Daha oxuma, özüm oxuyacam, – deyib buz kimi əlilə biləyimdən yapışdı, – atamı yad etdiyiniz üçün hamınıza minnətdaram...

* * *

Yol boyu tənha qocanı düşünürdüm. "Mənim bu uzun ömrümün qarası ağından çox olub". Bu sözlər onun dilindən elə belə çıxmamışdı. Sonralar onun həyat tarixçəsi ilə yaxından tanış olanda heyrətə gəldim ki, bütün bu əziyyətlərə necə dözüb? Qəribə burasıdır ki, həmişə başı qovğalarda olan, çox əziyyətlər çəkən bu insanın yaddaşı zərrəcə zəifləməmişdi.

Faris bəy nə az-nə çox, ömrünün on səkkiz ilini doğma Azərbaycandan uzaqda, əzab-əziyyətlə Sibir və Karaqanda sür-

günündə keçirmişdi. Neçə inqilabın, neçə müharibənin sınaqlarından sayıq çıxmışdı. Çünki amalı düz, əqidəsi pak olmuşdu. Harda, hansı şəraitdə olmasına baxmayaraq, qəlbində bir çırağın işığı yanmışdı. O çırağın da adı Azərbaycan idi. Lakin bir acı ilin sərt küləyi onun üzünü elə qarsımışdı ki, qapısını elə bərk çırpmışdı ki, o, hələ də özünə gələ bilmirdi.

Birinci Dünya müharibəsi başlananda Texnologiya İnstitutunun beşinci kurs tələbəsi Faris bəy Vəkilov Petroqradın Putilov zavodundakı top emalatxanasının müdafiəsinə səfərbər olunur. Gənc mühəndisin bu zavoddakı yaxşı fəaliyyəti onu pillə-pillə ucaldır.

1916-cı ildə yaxşı xasiyyətnamə ilə Petroqraddakı məşhur "Feniks" zavodunda baş mühəndis təyin olunur. Bir il sonra oktyabr tufanları zamanı bu səhmdar idarə öz fəaliyyətini dayandırır. Faris bəy Tiflisə – ailəsinin yanına qayıdır. O, bolşevik Əliheydər Qarayevlə birgə ictimai-siyasi işlə məşğul olur. Onlar Peterburqda fəaliyyət göstərən "Azərbaycan Həmyerliləri Cəmiyyəti"ndə tanış olmuşdular.

1918-1920-ci illərdə Faris bəy Azərbaycan Respublikasının Gürcüstan hökuməti yanında səlahiyyətli nümayəndəsi kimi mühüm vəzifədə çalışır.

Azərbaycanda aprel işğalından sonra təqib olunan ziyalılardan biri kimi Fransaya mühacirətə gedir. Parisdəki "Reno" zavodunda konstruktor işləyir.

Beş il Paris şəhərində işləyən Faris bəy Vəkilov mühacirətdə olan həmyerlimiz şərqşünas-alim general-mayor Məmmədsadıq bəy Ağabəyzadə ilə görüşür, texniki biliyini artırır. Lakin Vətən həsrəti, ata məhəbbəti onu Azərbaycana qayıtmağa məcbur edir.

"Parisdə müvəqqəti qaldığıma əmin idim, tez-tez Azərbaycanda qalmış atamla əlaqə saxlayırdım. 1925-ci ildə atam yazırdı ki, məni Peterburqdan şəxsən tanıyan Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi Əliheydər Qarayev təklif edir ki, Vətənə qayıdım və hadisələr zamanı da-

ğılmış təsərrüfatların bərpa edilməsində iştirak edim. Mən bu təklifdən çox məmnun oldum.

Sovet konsulluğundan lazım olan sənədləri aldım və 1926-cı ilin fevral ayında öz həyat yoldaşım ilə birlikdə Bakıya qayıtdım.

Əliheydər Qarayev məni səmimi qarşıladı. Mənzil almağa kömək etdi və leytenant Şmidt adına zavoda işə göndərdi".

...Axşam qonşusu mənə zəng eləyib dedi ki, Faris baba sabah sizi görmək istəyir. Mümkünsə, ona baş çəkin.

İşdən bir az tez çıxıb onun yanına gəldim. Biz neçə ilin dostu, hətta deyərdim, qohum kimi görüşdük.

– İndi mənim sənə işim düşüb, – dedi. – Xəbərin varmı, atamın dayısı oğlu İbrahim ağa Usubov da general olub. Ondan da yazmaq lazımdır.

Həmin günü mənə çoxlu şəkil, sənəd göstərdi. Səxavət əli açılan Faris babanın mənə hədiyyə verdiyi şəklin biri 1901-ci ildə Qarsda çəkilib. Burda atası İbrahim ağa Vəkilov topoqrafiya çəkilişi zamanı təsvir olunub. Hər iki şəklin orijinalı indi də məndədir. Anası Yelena Yefimovna Vəkilovanın 1909-cu il martın 2-də böyük rus yazıçısı Lev Tolstoya öz övladlarının islam dinini qəbul etmələrinin mümkünlüyü barədə yazdığı məktubdan söhbət açdı.

Faris baba bu məktubun fotosurətini və öz əlilə rus dilində yazdığı xatirələrini avtoqrafla mənə verdi.

– Oğul, – dedi, – mənim ömrüm qurtarır, səninki isə başlayır, qoy bunlar səndə qalsın. Amma mən tənha qocaya tez-tez baş çək, sənə lazım olan çoxlu materiallar verərəm...

# SÜVARİ GENERAL-MAYOR İBRAHİM AĞA USUBOV

***Qatar səhər saat doqquzda Gəncəyə çatdı. Bayraqlar, xalı-xalca… Hər yer camaatla dolu idi. Hərbiyyə naziri Səməd bəy Mehmandarov və müavini general Əli ağa Şıxlinski, Gəncə qubernatorunun müavini Hüseynqulu xan Xoyski və başqalarına "xoş gəldiniz" rəsmi əda edildi.***

***Rəsmi keçid başlandı. Rəsmi keçidi hərbi nazir müavini general Əli ağa Şıxlinski və ərkani hərbi rəisi general Həbib bəy Səlimov idarə edirdilər. General İbrahim ağa Usubov komanda verirdi. O, gözəl at üstündə oturub əlində üryan qılınc nərəli bir səda ilə komanda verirdi.***

***1919-cu il martın 23-də Novruz bayramı münasibəti ilə keçirilən parad-nümayişdən***

Bu dəfə söhbətimizin əsas mövzusu Faris babanın əmisi İbrahim ağa Usubov oldu. General-mayor İbrahim ağa Usubov 1875-ci il martın altısında Qazax qəzasının Qıraq Salahlı kəndində dünyaya gəlib. Sənədlərdən öyrənirəm ki, generalın atası Musa ağa da rus ordusunun zabiti olub. XIX əsrin əvvəllərində azərbaycanlılardan təşkil olunmuş müsəlman süvari alayında Musa ağa və əmisi Süleyman ağa Usubovlar Qazax süvari dəstəsində mərdliklə vuruşmuşlar. Sonralar Polşa müharibəsində və dağlılara qarşı döyüşlərdə nümunəvi xidmətinə görə Musa ağa Molla Yusif oğlu poruçik rütbəsinə qədər yüksəlib.

Musa ağa praporşik rütbəsini 1839-cu il iyulun 2-də alıb. 1845-ci il noyabrın 28-dən general-adyutant knyaz Vorontsovun ko-

mandan olduğu Əlahiddə Qafqaz korpusu yanında müsəlman ayında rəis köməkçisi olmuşdur. Həmin ilin dağlılara qarşı döyüşlərdə Darqo kəndi və Gerzer yaşayış məntəqəsi uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa və şücaətə görə üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif olunmuşdur.

Musa ağaya 1848-ci il iyulun 9-da podporuçik, 1854-cü il dekabrın 4-də isə qüsursuz xidmətinə görə poruçik rütbəsi verilmişdir. 1891-ci il iyulun 22-də istefaya çıxan poruçik Musa ağa Usubova dövlət gümüş pulla ildə 97 manat 50 qəpik pensiya kəsmişdir. Həmin il avqustun 1-də vəfat etdiyinə görə o zabit heyəti siyahısına çıxarılmışdır.

Faris baba sənədlərindən birini açır, titrək barmağını üstündə gəzdirə-gəzdirə:

– Fikir ver, əmim də Əli ağa Şıxlinski və atam kimi Tiflisdəki kadet korpusunu bitirib, özü də əla qiymətlərlə, – deyir, – 1892-ci ildə İkinci Konstantinovsk hərbi məktəbini bitirir. Bir il sonra unter-zabit rütbəsi alır. 1902-ci ildə ştabs-kapitan rütbəsində əsrimizin əvvəllərində başlayan Rusiya-Yaponiya müharibəsində iştirak edir. Port-Artur döyüşlərində mərdliklə vuruşan əmim "Müqəddəs Vladimir" ordeninin dördüncü dərəcəsilə və "Müqəddəs Stanislav" ordenin üçüncü dərəcəsilə (qılınc və bantla birgə) təltif olunur.

1914-cü ilin payızından podpolkovnik rütbəsi alır.

Həmyerliləri, artilleriya generalı Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarovla çiyin-çiyinə vuruşan podpolkovnik İbrahim ağa Usubov Birinci Dünya müharibəsində az şücaət göstərmir. Müharibədən sonra Xarkov şəhərində yerləşən 122-ci Tambov süvari alayında hərbi xidmətə başlayır. 1910-cu ildə İbrahim ağa Usubov Tiflisdə yaşayan qohumu, Zaqafqaziya müftisi Mirzə Hüseyn əfəndi Qayıbzadənin kiçik qızı Gövhər xanımla ailə həyatı qurur. Onun anası Böyükxanım Nəsib ağa qızı Vəkilova idi.

Müsahibimdən soruşdum:

– Generalın oğlu, qızı qalırmı?

– Bu saat hamısını deyəcəyəm, – Faris baba yenidən əl-ayağa düşür. Köhnə cib dəftərçələrinin birini götürüb, o birini qoyur. – İki adamla görüş, söhbət elə. Əmim qızı Nigar xanım Usubova və generalın qardaşı qızı Gövhər xanım Usubova ilə.

Elə həmin günü Mirzə Şəfi küçəsinin altı nömrəli mənzilində yaşayan Gövhər xanıma baş çəkdim. General-mayor əmisinin adını eşidən kimi səksən yaşlı qadının da gözlərində, sifətində qəribə bir işıq yandı. Sonra o işıq qəfildən çəkildi və yerində təəccüb qaldı: "Nə əcəb? Haradan yada düşüb".

Gövhər ana əlini dizlərinə vurub yana-yana dedi:

– Fələyin gözü tökülsün, bircə əmin oğlu vardı, o da 1940-cı ildə qəflətən vəfat etdi. Yeganə kişi nişanəsi idi əmim ocağının. Atam İsmayılı zorla xatırlayıram, 1910-cu ildə vəfat etdikdən sonra əmim İbrahimin himayəsinə keçdim. O, Xarkovda hərbi qulluqda olsa da doğma kəndi Salahlını unutmurdu. 1914-cü ildə məni Bakıya gətirib Hacı Zeynalabdin Tağıyevin Qız məktəbinə qəbul etdirdi. 1917-ci ilədək bu məktəbdə oxudum. Əmim bir il sonra Azərbaycan Demokratik Hökumətinin dəvətilə Xarkovdan Bakıya köçdü.

Adətən hərbçi zəhmi ağırdı, deyirlər. Əlbəttə, işdə, qulluqda necə olmağını deyə bilmərəm, amma evdə, ailədə əmim xoşxasiyyət, həssas qəlbli insan idi. Təhsil və tərbiyə məsələsinə ciddi fikir verərdi. "Gövhər, – deyərdi, – səni atanın arzusu ilə müəllimliyə qoymuşam. Sənin qarşında mədəni insan yetişdirmək kimi nəcib bir vəzifə durur. Gərək elə şagird yetişdirəsən ki, onunla həmişə iftixar edə biləsən". Yadımdadı, general Əli ağa Şıxlinski tez-tez bizə gələrdi, hər iki bacanaq Port-Artur döyüşlərindən, Birinci Dünya müharibəsindəki fəaliyyətlərindən söhbət açardılar.

İbrahim ağa Usubov görkəmli dövlət xadimi Nəriman Nərimanovla, Əliheydər Qarayevlə, Mixail Frunze və başqaları ilə yaxın idi. 1915-ci il avqustun birində döyüş meydanlarında göstərdiyi şücaətə görə ona polkovnik rütbəsi verilmişdi.

Bu müharibədə onun göstərdiyi şücaət haqqında "Kaspi" qəzetinin 26 fevral 1916-cı il sayında Ceyhun Hacıbəyli yazır: "Yüz iyirmi ikinci Tambov süvari alayının zabiti, üçüncü dərəcəli "Müqəddəs Vladimir" (1916-cı ildə), ikinci dərəcəli "Müqəddəs Stanislav", ikinci dərəcəli "Müqəddəs Anna" ordenli, kavaler İbrahim ağa Usubov bu alaya təyin olunandan sonra polkovnik rütbəsi almışdır. 1914-cü il oktyabrın on dördündə Mizines kəndi ətrafındakı yüksəkliyə hücum zamanı İbrahim ağa batalyona komandirlik edərkən düşməni iki cərgə səngərdən vurub çıxarmış və üç gün bu yüksəkliyi avstriyalıların əks hücumlarından qoruyub saxlamışdır".

Polkovnik İbrahim ağa Usubov artilleriyası ilə öz alayına himayədarlıq etmiş və Peremışl qalasından düşməni vurub çıxarmışdır. Bu döyüşlərdə göstərdiyi igidliyə görə 1915-ci il aprelin 19-da "Müqəddəs Georgi" ordeninin dördüncü dərəcəsi ilə təltif olunmuşdur.

***1917-ci il iyulun birində 133-cü süvari diviziyasında briqada komandiri təyin olunan İbrahim ağa Usubova general-mayor rütbəsi verilmişdir.***

1918-ci ilin may ayında İbrahim ağa Usubovu milli Azərbaycan diviziyasında işləmək üçün dəvət etdilər. O, Əli ağa Şıxlinski, Səməd bəy Mehmandarov, Əbdülhəmid bəy Qaytabaşı, Cavad bəy Şıxlinski və başqa hərbçilərlə birgə Azərbaycan Demokratik hökumətinin Milli Ordusunun təşkilinə başladı. On səkkizinci ilin aprelində Gəncədə praporşik məktəbi açdılar. Burada azərbaycanlı gənclər təhsil alırdılar. Bir il sonra həmin məktəb Bakıya köçürüldü və Azərbaycan Hərbiyyə məktəbi adlandırıldı. ***1919-cu il yanvarın 9-da milli hökumət xalqına sidq-ürəklə xidmət etdiyinə görə hərbiyyə naziri yanında İbrahim ağa Usubovu tapşırıq generalı vəzifəsinə təyin etdi.***

Milli hökumət İbrahim ağanı on doqquzuncu ildə Azərbaycan ordusu üçün hərbi ləvazimat və hərbi geyim alıb gətirmək məqsədilə İtaliyaya ezam etmişdi. İbrahim ağa Usubovun xarici ölkəyə ezam olunması təsadüfi deyildi. O, fransız, ingilis, alman

və polyak dillərini mükəmməl bilirdi. Respublika Mərkəzi Dövlət Arxivində saxlanan bir sənəd Müsavat dövlətinin İtaliyadakı nümayəndəsinin Müsavat ordusuna geyim və təchizat əşyaları almaq üçün hərbi nazirliklə danışıqları barəsində teleqram bunu təsdiq edir.

*2 dekabr 1919-cu il*

*Özünün sərəncamında olmadığından İtaliyanın hərbi nazirliyi paltar və silah verə bilmir. O avtomobillər, aeroplanlar, projektorlar, dizliklər, mələfələr və adyallar verir. Geyim əşyaları göndərilməsi Gellə tapşırılıb. İlk partiya dekabrın axırlarında Batuma gələcək. Keyfiyyətli köhnə paltar tapmaq mümkün deyil. Əgər qiyməti əl versə, bu əşyaların əvəzinə parça almaq barəsində fikirləşərəm. Parçanın bizdəki qiymətini bildirməyinizi xahiş edirəm.*

*General İbrahim ağa Usubov*

– Əmim çox zarafatcıl idi, – deyən Gövhər xanım söhbətini davam etdirir. – Bir dəfə süfrə başında olan bir əhvalat yadıma düşdü. İbrahim əmim köksünü ötürüb:

– Of, – dedi, – balalarım, kaş hər şeydə: ağılda, kamalda, şöhrətdə özümə oxşasınlar. Amma bircə şeydə mənə yox, dayılarına oxşasalar yaxşıdı.

Həyat yoldaşı – bibim tez üstünə düşdü.

– De görüm, o nədi elə?

Əmim bığaltı gülümsünüb:

– Boyumu deyirəm, – dedi, – bircə boy-buxundan kəm-kəsrim var.

Əmim orta boylu idi. Ona işarə vururdu.

Əlağa Şıxlinski də buna zarafatla cavab verdi.

– Eybi yoxdu, – dedi, – İbrahim, qəm eləmə, o da igidə bir yaraşıqdır.

– Gövhər xanım, general əminizin son taleyi necə olub?

– İyirminci ilin aprelində XI Ordu gəldi. Əli ağa Şıxlinski, İbrahim ağa Vəkilov, Səməd bəy Mehmandarov, Firidun bəy Vəzirov, əmim və bütün azərbaycanlı hərbçilərə, generallara ilk günlər toxunmadılar. Xüsusi əmr verdilər ki, poqonlarınızı çıxarın, indi Qızıl Orduda xidmət edəcəksiniz. Onlar da dinib-danışmadılar. Dedilər, təki xalqa toxunmasınlar, biz də xalqa xidmət edərik. Səhv etmirəmsə, hətta, onlara əmək haqqı da təyin etmişdilər. Əmimə vəsiqə də vermişdilər ki, o, diviziya komandiri kimi xidmət edir. Yadımdadır, iyul ayının ilk günləri idi. Evimizdə Qazaxdan gələn qonaq da vardı. Əli ağa əmim, İbrahim dayım da (general İbrahim ağa Vəkilov – ***Ş.N.***) bizə gəlmişdi. Hamı kəndi, qohumları, uşaqlıq dostlarını soruşur, deyib-gülürdülər. O vaxt bütün hərbçilər indiki İstiqlal küçəsindəki beş nömrəli evdə yaşayırdılar. Gecə on ikiyə işləyəndə hər kəs öz evinə getdi. Yenicə yatmağa hazırlaşırdıq ki, küçədə bir yük maşını dayandı. Maşından tökülən əsgərlər qaça-qaça bloklara doldular. Tüfənglərin qundağı ilə qapıları döyüb içəri soxuldular. Əsgərlər içəri girən kimi əmimi əhatəyə aldılar. Mən əmimə tərəf atılıb zorla əlindən yapışıb ağladım. Əsgərlər ev əşyalarını siyahıya aldılar. Əmimin orden-medallarını və özünü də apardılar. O gecə azərbaycanlı generalları – Əli ağa Şıxlinskini, Səməd bəy Mehmandarovu, Murad Gəray bəy Tlexası, Firidun bəy Vəzirovu, general-qubernator Nərimanbəyovu, polkovnik Rüstəm ağa Şıxlinskini, kapitan Bahadır bəy Vəkilovu, əmim İbrahim ağa Usubovu – hamısını yük maşınına doldurub apardılar. Dallarınca çox gedib-gəldik, bir xəbər öyrənə bilmədik. Onları həbs etdirən İlya adlı hərbçi idi. O, yarı erməni, yarı yəhudi idi. ***Əmimi, on iki azərbaycanlı generalı və zabiti 1920-ci il iyunun on altısında gecə ilə Nargin adasına aparıb orada güllələyiblər. Çox get-gəldən sonra əmim arvadı Gövhər bibimə əl boyda kağız verdilər ki, onları səhvən güllələyiblər. Şura hökuməti ailənizdən üzr istəyir.***

Əli ağa Şıxlinski və Səməd bəy Mehmandarov isə ayrı kamerada olublar. Xoşbəxtlikdən, onların Nəriman Nərimanova

göndərdikləri məktub çatıb və onlar xilas olublar. Orduya soxulan terrorçu-daşnaklardan ehtiyat edən Nərimanov ona görə də 1920-ci il avqustun 1-də Əli ağa Şıxlinskini və Səməd bəy Mehmandarovu Moskvaya göndərdi.

General İbrahim ağa Usubovdan çox az nişanə qalıb. Bir neçə şəkil, bir də qızı – Azərbaycan Dövlət Konservatoriyasının müəllimi, Əməkdar incəsənət xadimi, professor Nigar xanım Usubova… Mübarizələrdə keçən ömrün anları indi saralıb-soldurduğunu çox az şəkil və sənədlərlə yaşayır. General-mayor İbrahim ağa Usubovun qızı Nigar xanım atasından fəxrlə söhbət açır:

– Əli ağa əmim deyirdi ki, atan İbrahimin hərbçi istedadı Birinci Dünya müharibəsi dövründə özünü parlaq şəkildə göstərdi. Döyüş zamanı çevikliyi, piyada qoşunlardan məharətlə istifadə etməsi, xüsusilə əsgərlərlə səmimi rəftarı İbrahimi rus ordusunda mahir bir sərkərdə kimi tanıtdı. Əli ağa əmim bir də danışırdı ki, M.V.Frunze atanı yaxşı bir insan kimi tanıyırdı. Birinci Dünya müharibəsindəki fəaliyyətini, hərbi sənətkarlığını çox yüksək qiymətləndirirdi.

Mən Xarkovda anadan olmuşam. Uşaq olsam da, bəzi əhvalatları yaxşı xatırlayıram. Yadımdadır, nə münasibətləsə evimizdə qonaqlıq vardı, məclisdə yüksək rütbəli zabitlərlə yanaşı sıravi əsgərlər də iştirak edirdi. Əsgərlərdən biri atam haqqında dedi: – Baxmayaraq ki, o, rus deyil, azərbaycanlıdır, ancaq bizim üçün doğma atadan da yaxındır.

Atam həqiqətən də əsgərlərlə zabit arasında sərt sədd çəkməyən adam idi. Əsgərin bütün hüquqlarını əlindən alan zabitlərlə o, heç vaxt razılaşmazdı. Məhz bu keyfiyyətlərinə görə onu əsgərlər ata kimi sevir, hörmət edirdilər.

…Faris baba ilə görüşlərimin birində gördüm ki, o, lüğətlə bir Azərbaycan yazıçısının romanını oxuyur.

– Faris baba, – dedim, – indən belə dil öyrənmək gec deyilmi?

– Öyrənirəm ki, İbrahim əmim kimi dünənə sabah deməyim.

– O nə deməkdir?

– Bu saat danışacam, – deyib qoca iri gözlərilə gülümsündü. – Xatirimdədir, 1914-cü ilin yazında atam məni də götürüb kəndimiz Salahlıya gətirmişdi. Hələ müharibə başlamamışdı. Atam doğma kəndinə getməyi, qohumlara baş çəkməyi çox sevirdi. Ali rütbədə, yüksək bir yerdə işləməyinə baxmayaraq, ildə bir neçə dəfə kəndə gedərdi. "Bu kənd, – deyirdi, – oğul, harda olsam mənimlədi, adam nə qədər böyük şəhərlərdə, uzaq ellərdə olsa da doğmasını, anadan süd əmdiyi yeri unuda bilmir. Buna haqqı da yoxdur".

Atam eşidir ki, İbrahim ağa Usubov da ailəsi ilə kəndə gəlib. Abdulla əmimlə onun görüşünə gedirlər. Abdulla əmim İbrahim əmimdən soruşur ki, nə vaxt gəlmisən?

İbrahim əmim cavab verir ki, "sabah".

Atam təəccüb edir ki, bu nə danışıqdır. Abdulla əmim işin nə yerdə olduğunu başa düşür. Gülə-gülə deyir:

– İbrahim, əgər sabah gəlmisənsə, yəqin ki, dünən də qayıdıb gedəcəksən. – Qoca əhvalatı danışıb kədərlə gülümsündü. – İbrahim əmim, – dedi, – uzun müddət Rusiyada qulluq etdiyindən Azərbaycan dilini bir az yadırğamışdı. Məni də tale ölkədən-ölkəyə, şəhərdən-şəhərə atıb. Fransız, ingilis və bir neçə dildə sərbəst danışıb yaza bilirəm. Amma hiss edirəm ki, o qədər yadlarla oturub-durmuşam ki, doğmamı unutmaq ərəfəsindəyəm.

Faris baba çoxillik ömründə bitib-tükənməyən hadisələrin, əhvalatların şahidi olmuşdu. Heyf ki, bu səmimi, mehriban qoca ilə görüşüm onun həyatının son günlərinə təsadüf etdi. O, bizim işıqlı dünyamızdan ömrünün doxsan dördüncü ilində köçdü.

Minillik ədəbiyyata, mədəniyyətə malik xalqımızın minillik də qəhrəmanlıq tarixi var. İgid Cavanşirin, əyilməz Babəkin, köhlən at belində yadellilərə qarşı vuruşan Koroğlunun, Nəbinin adı həm öz xalqımızın, həm də bütün bəşər tarixinin səhifələrində yaşayır. Onların hər biri öz doğma torpağını, öz yurdunu, öz xalqının əsrlərdən bəri yaratdığı mədəniyyəti qəsbkarlardan mərdliklə müdafiə ediblər.

Hər əsr tarixə öz qəhrəmanlarını verib, hər igid özünün şücaəti ilə gələcək nəslə örnək olub. Zaman keçib, illər ötsə də, onlar yenə unudulmur, tarixin əbədi yaddaşında, sənədlərdə həmişəyaşar qalırlar.

İnanırıq ki, hərbi qüdrət tariximizin səhifələrində general-mayor İbrahim ağa Usubov da beləcə yaşayacaqdır.

## YARALI SÖHBƏT

***Bizim işimiz müqəddəs, haqq işidir, bizim ölməyimizlə o məhv olmayacaq. – Qalibiyyət yolunda bizim qanımız hələ çox töküləcək, ancaq göstərilən fədakarlıqla, verilən qurbanlarla böyük ideyalar qalib gəlir. Biz ölməklə, al-qanımıza boyanmış azadlıq və bərabərlik bayrağını intiqam və qalibiyyət irsini gələcək nəsillərə qoyub gedirik.***

***Spartak***

Topoqraf-general İbrahim ağa Vəkilovun qəribə taleyi ilə bağlı axtarışlar aparıb mətbuatda çıxış etdikdən sonra onun doxsan iki yaşlı oğlu Faris baba ilə dostluğumuz başlandı. Bir neçə dəfə görüşdükdən sonra qoca mənə etibar edib öz həyat yolundan, general-mayor İbrahim ağa Usubovdan danışdı. Hər dəfə görüşəndə günahsız olaraq həbs edilib, əvvəl Mordaviyada, sonra Karaqandada on səkkiz il çəkdiyi əziyyətlərdən, iztirablardan yana-yana, bir-birindən dəhşətli əhvalatlar söyləyirdi.

Eşitmişdim ki, Faris babanın kiçik qardaşı polkovnik Qalib bəy Vəkilovun 1918-ci ildə yaranan Milli Orduda böyük xidmətləri olub. Onu da otuz yeddidə həbs ediblər. Arabir qardaşı haqqında soruşurdum. Hər dəfə də o, söhbətin yönünü dəyişir və bu barədə danışmaq istəmirdi. Yüzü haqlayıb, uşaq kimi kövrək olan qocanın qəlbinə dəyməyə qıymırdım. Bir dəfə söhbəti Çingiz İldırımdan saldım. Bilirdim ki, Çingiz İldırımla Qalib bəy dost olublar. Qoca məcbur olub ötəri əhvalat danışdı. Mən əl

çəkməyib: – Qalib bəy niyə tutulub? – soruşanda qoca qəmli-qəmli üzümə baxıb xeyli dinmədi. Bu an divardakı qədim saatın səsi bizi diksindirdi. Hər ikimiz dönüb ona baxdıq. Əqrəblər düz on birin üstündə dayanmışdı. Bu gün Faris baba ilə söhbətimiz həmişəkindən daha çox olmuşdu. Həqiqətən onu bərk yormuşdum. Durub getmək istəyəndə qoca əlimdən yapışıb:

– Bərk yorulmuşam, – dedi. – Qoy qardaşım Qalib bəy haqqında söhbət sonraya qalsın, onun faciəsi çox uzundur. Bu, illərlə ürəyimdə gəzdirdiyim yaralı bir söhbətdir.

Yazıq görkəm alan qoca üzrxahlıq elədi:

– İncimə, gələn şənbə-bazar gözləyəcəyəm...

Təəssüf ki, Faris baba mənə görüşmək üçün vəd etdiyi bazar gününə kimi yaşamadı...

Sonralar Qalib bəy Vəkilovun doğma qızı Leyla xanımla bir neçə dəfə görüşdüm. Pedaqoji elmlər doktoru, professor Leyla xanım Vəkilova M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunda işləyirdi.

General Əli ağa Şıxlinskinin onlarda saxlanan nadir şəkillərinin üzünü çıxartdıranda, general babası İbrahim ağa Vəkilov haqqında veriliş hazırlayanda arabir atası haqqında da soruşdum. O da əmisi kimi suallarıma çox qısa cavab verir və nədənsə, bu mövzunun üstündən sükutla keçirdi.

***"...Bu gün bütün bunlar qəribə görünür, ancaq o illər repressiya olunanların, hətta uşaqları da bəzən öz ata-analarının günahkar olmasına inanır və açıq-aşkar onlardan üz çevirirdilər. Bu, nə ilə əlaqədar idi? Qorxaqlıqla, yoxsa öz şəxsi həyatını qorumaqla? Bu da vardı, amma əsas səbəb yalnız kor-koranə, fanatik inam idi".***

Professor Nikolay Truşenkonun bu sətirlərini "Smena" jurnalında (1988, №9) oxuyanda dərhal Leyla xanımı xatırladım. Susmağının səbəbini sanki bu sətirlərdə tapmışdım. Elə ki, atası haqda danışmağa başladı, bir daha gördüm ki, Leyla xanımdan qorxu hissi, doğrudan da, çox uzaqdır. Zarafat deyildi, doğma atadan danışmaq, yazmaq əlli ildən çox idi yasaq edilmişdi.

O, heç vaxt "xalq düşməni" atasından üz döndərməmişdi. Nə kor-koranə, fanatikcəsinə "ellər atası Stalinə", nə də cəllad M.C.Bağırova özünün pənahı kimi pərəstiş edə bilməmişdi. O illərdə incidilmiş əlli bir min "gözükölgəli" azərbaycanlı ailəsindən biri kimi dərdini ürəyində çəkmişdi və bəlkə də Leyla xanımın ağlına gəlməzdi ki, vaxt gələcək, aşkarlığın, demokratiyanın işığında hər şey açıq-aydın etiraf ediləcək. Bütün gümanlar, şübhələr ürəklərdən silinib atılacaq, haqq-nahaq öz yerini tapacaq.

– Təəssüf ki, mən atamı babam İbrahim ağadan daha az görmüşəm, – Leyla xanım söhbətinə general babasından başlayır. – İlk dəfə atam Qalib bəy həbs ediləndə mənim cəmisi altı yaşım vardı. İkinci dəfə isə on üç yaşında idim. Ona görə də atam haqqında anamın söhbətlərindən yadımda qalanlar çoxdur.

– Bəs general babanız İbrahim ağa Vəkilov atanız həbs ediləndə sizə onun haqqında heç nə danışmayıb?

– Yox. Babam heç vaxt oğlunun günahsız həbs olunması haqqında söhbət salmazdı. Sonralar mənə məlum oldu ki, babam atamın tutulmasını ürəyində sağalmaz yara kimi gəzdirirmiş. Mənim kimi körpə qız uşağına xalqının, Vətəninin rifahı üçün çalışan atamın xidmətlərini və onun günahsızlığını başa salmaq iqtidarında deyilmiş. Atam tutulandan sonra babamın qəddinin əyilməyini indi də gözüm önünə gətirəndə kövrəlirəm. Babam o ağır illərdə qanadları qırılmış quş kimi gəzirdi.

General-topoqraf İbrahim ağa Vəkilovun ailəsində üç övlad böyüyürdü. 1866-cı il iyunun 20-də tale bu ailəyə yeganə qız payı – Rəna xanımı bəxş etmişdi. Xoşbəxt ailənin bircə nigarançılığı vardı: ata müsəlman, ana isə xristian dininə mənsubdur. Bəs övladları hansı məzhəbə qulluq etməlidir? – sualı ailəni keçilməz sədd, dibigörünməz qaranlıq qarşısında qoymuşdu.

Qleb sənətində atanın yolunu seçdi. O, hərbçi olmaq məqsədi ilə Tiflis kadet korpusunu müvəffəqiyyətlə bitirib Xarkovdakı üçüncü Aleksandr adına Ali Hərbi-Texniki İnstituta qəbul olundu. İkinci kursdan sonra Qleb Vəkilov könüllü olaraq həmin ins-

titutu tərk etdi. Sonralar Moskvadakı Alekseev Hərbi Məktəbində təhsilini davam etdirdi.

Əsrin əvvəllərində fəhlə sinfi ayağa qalxıb mütləqiyyətin rədd olunmasını tələb edirdi. Qanlı bazar hadisələrindən hiddətlənən xalq hərəkatı coşmuşdu. İmperiyanın hər yerində çarizmin qanlı cinayəti nifrətlə qarşılandı. Belə təlatümlü, qarışıq bir dövrdə ananın da, atanın da əzabı onlara dinclik vermirdi. Peterburqda təhsil alan böyük oğlu Borisi, Moskvada yunker məktəbində oxuyan Qlebi də bir sual düşündürdü. Mən kiməm, hansı millətə məxsusam? Bu izahedilməz sual qarşısında qalan hər iki qardaş tez-tez ata-anaya müraciət edirdilər.

***Faris bəy Vəkilovun söhbətindən*:** – Mənim on doqquz yaşım tamam oldu. Dərs məşğələləri ilə bərabər Məhəmmədin dininə keçmək fikri də məni tərk etmirdi. 1904-1905-ci illərdəki şərait bu niyyətimin həyata keçməsinə kömək etməli idi. Bədniyyətli Rusiya-Yaponiya müharibəsi, xalq kütlələri arasındakı inqilabi əhvali-ruhiyyə çar hökumətini bəzi liberal qərarlar verməyə məcbur etdi.

1904-cü ildə “Din azadlığı haqqında manifest” nəşr olundu. Orada hər hansı bir səbəbdən öz ata-baba dinindən dönmüşlərə yenidən o dinə qayıtmalarına icazə verilirdi. Adama elə gəlirdi ki, müvafiq ərizə verməк kifayətdir ki, bununla da məsələ həll olunsun. Təcrübəli adamlar, o cümlədən mənim valideynlərim Peterburqa gəlişimin birinci ilində pravoslav dininin müdafiəçilərinin bilavasitə yaxınlığında bu məsələni qaldırmağı məsləhət görmədilər. Anamın Lev Tolstoya məktubunda da bu ehtiyat öz əksini tapmışdı. Xoşagəlməz hadisələrdən yaxa qurtarmaq məqsədilə mənim niyyətimin həyata keçirilməsini bir qədər ləngitməli olduq.

Ona görə də çıxılmaz vəziyyətdə qalan anam Yelena Yefimovna Vəkilova 1909-cu il martın 2-də yazıçı Lev Nikolayeviç Tolstoya məktubla müraciət etməli olub.

1910-cu ildə yunker Qalib bəy Vəkilov Moskvadakı Alekseyev hərbi-texniki məktəbini bitirib xidmətə başladı. Birinci Dün-

ya müharibəsi başlananda o, Qərb cəbhəsindəki mühəndis alayında döyüşürdü. Molodeçnıy şəhəri uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə podpolkovnik Qalib bəy Vəkilov ikinci dərəcəli "Müqəddəs Georgi" xaç ordeni ilə təltif olundu. Hərbi-texniki mütəxəssis kimi Qalib bəy Vəkilovun ən başlıca vəzifəsi düşmənin qəfil hücum edəcəyi bərə və keçidlərin möhkəm qurulması, səngərlərdə piyada və tank əleyhinə mərmilərin dəqiq yerləşdirilməsi idi.

Leyla xanımın stolun üstünə qoyduğu müxtəlif sənəd və fotoşəkillərin hamısı inqilabdan əvvələ məxsusdur. Onların arasında çox da qalın olmayan bir kitab var. Bu, məşhur ədəbiyyatşünas Firidun bəy Köçərlinin ilk "Azərbaycan tatarlarının ədəbiyyatı" kitabıdır. Onu müəllif 22 oktyabr 1903-cü ildə avtoqrafla Leyla xanımın general babasına hədiyyə verib. *"Hörmətli İbrahim ağa Vəkilova böyük məhəbbət nişanəsi ilə Firidun bəy Köçərlidən. Qori şəhəri".*

Şəkillərdən ikisi daha maraqlıdır. Onlar general-leytenant Əli ağa Şıxlinskiyə məxsusdur. İndiyədək heç kəsə məlum olmayan və heç yerdə dərc edilməyən bu şəkillər 1915-ci ilə aiddir. Bir qrup zabit və üç nəfər şəfqət bacısı ilə birgə Əli ağa Şıxlinski həyat yoldaşı Nigar xanımla birgə dayanıb.

– Nigar xanımla yanaşı əyləşən anam Aleksandra İvanovna Vəkilovadır. Anam da atam Qaliblə birgə Birinci Dünya müharibəsi illərində döyüşən orduda xidmət edib. Anamın rütbəsi leytenant olub. O da Nigar xanım kimi hərbi səhra hospitalında şəfqət bacısı işləyib. Oktyabr inqilabı başlananda onlar Minsk ətrafındakı cəbhədə olublar. Atam üç ay ordu sıralarında komandir kimi xidmət etdikdən sonra komandanlıq onu qulluğunu davam etdirmək üçün Bakıya ezam edir. O, yeni yaranan Azərbaycan Milli Ordusunda hərbi-mühəndislər idarəsinin rəisi təyin olunur. Podpolkovnik rütbəsində Azərbaycan ordusunun süqutuna qədər işləyir. Sonra atam XI Ordunun Ənzəli şəhərindəki mühəndis qoşunları hissəsinin rəisi vəzifəsində qulluq edir. Anam da bu yürüşdə atamla birgə olub. Atam bu yürüşdə ağır xəstələnib. O, malta qızdırmasına tutulub. Xəstəliyinə baxmaya-

raq, 1922-ci ildə yenidən Azərbaycan Baş Hərbi Mühəndislər İdarəsinin rəisi vəzifəsində işə başlayıb. Sonra Zaqafqaziya Qızıl Ordu Hərbi İnqilab Şurasının Hərbi Sənaye Komitəsinin direktoru olub. Bu vəzifədə beş il işləyib.

– Leyla xanım, bayaq dediniz ki, atanız iki dəfə həbs edilib. otuz yeddinci ildən əvvəl nə vaxt həbs olunmuşdu?

– Atam ilk dəfə 1931-ci ildə həbs edilib. O, inşaatçı-mühəndis sifətilə Belomor-Baltik kanalının tikintisində dustaq kimi işləmişdi. 1933-cü ildə o, həbsxanadan gəldi. Qocalıb əldən düşmüş, xəstəhal atamın saçı tamam ağarmış və dinib-danışmaz olmuşdu. O, tək bircə dəfə mənimlə həbs olunması haqqında söhbət edəndə dedi: "Kim mənim haqqımda sənə nə deyir desin, bilmirəm. Bircə onu yadında saxla ki, mən nə Vətənimin, nə xalqımın qarşısında, nə sənin, nə ananın, nə də heç kəsin qarşısında günahkar deyiləm".

Belemor-Baltik kanalı tikintisindən qayıdandan sonra atam Bakıda məişət-tikinti trestində direktor müavini işlədi.

Yadımdadır, çox tez-tez xəstələnirdi. Semaşko adına xəstəxanada, dəmiryolu xəstəxanasında, sonra da Bayıldakı xəstəxanada müalicə olunurdu. Onu operasiya elədilər. Anamla yanına çox çətinliklə gedib-gəlirdik. Bir xeyli sonra atamın səhhəti yaxşılaşdı. Ailəmizin güzəranı da pis deyildi. O, işini dəyişmişdi. İndi Kür üstündəki Bankə qəsəbəsində işləyirdi. Sən demə, ən dəhşətlisi geridə imiş. Otuz yeddinci il gəlib çatdı. Laxa ağzını açan bu dəhşətli qara il yüzlərcə saf Azərbaycan ziyalısı ilə birlikdə atamı da uddu...

1956-cı ildə atamın günahsız məhv edilməsi haqqında iki bəraət məktubu aldım. Biri 1931-ci ilə görə, biri də 1937-yə görə. Sonuncuda yazılmışdı ki, polkovnik Qalib Vəkilov 19 dekabr 1937-ci ildə həlak olub. Anamla mən isə otuz yeddinci ildən əlli altıya qədər onu həbsxanalarda axtarırdıq.

Leyla xanım Vəkilovanın stolunun üstündə daha bir tarixi şəkil var: süfrə arxasında altı nəfər işləyib. Ovdan qayıdıb nahar edirlər. Məşhur sovet sərkərdəsi Mixail Frunze sol əli çənəsində dərin düşüncələrə dalıb. Onun sağ yanında dayanmış Əliheydər

Qarayevlə Qalib bəy Vəkilov da fikirlidirlər. Təkcə diviziya komandiri Məmməd Veysov məşğuldur. O, əlindəki çəngəl-bıçaqla qarşısındakı qabda nəyisə doğrayır. Qalan iki nəfərin kimliyi məlum deyil. Leyla xanım deyir ki, bu şəkil 1925-ci ilin qışında M.V.Frunze ikinci dəfə Azərbaycana gələndə Xaçmaz rayonunun ərazisindəki keçmiş Neruçev (indiki 1 №-li sovxoz) malikanəsində çəkilib.

Altı ay keçməmiş bu sıradan biri – M.Frunze qəfil vəfat etdi. Əliheydər Qarayev, Qalib bəy Vəkilov otuz yeddinin qurbanı oldular. Məmməd Veysov isə doqquz illik həbs cəzası çəkib vətənə qayıtdı. 1957-ci ildə vəfat etdi.

– Leyla xanım. atanızın dostlarından kimləri xatırlayırsınız?

– Hələ uşaq idim, yadıma gəlir ki, M.V.Frunze, Əli ağa Şıxlinski, Serqo Orconikidze və ən çox Çingiz İldırım qonağımız olardı. Çingiz İldırım mənim üçün "Çi dayı" idi.

Onun ailəsi yox idi. Vaxtının çoxunu atamla bizdə keçirərdi. "Çi dayı" uşaqlara xüsusi məhəbbət və hörmətlə yanaşardı.

Onun danışdığı yarımfantastik hekayətlər də yaxşı yadımdadır. O, nəql edərdi ki, bir dəfə qatar gedə-gedə atılıb ona mindim, ordan da hoppanıb uçan təyyarənin üstünə qondum, bunları danışır, özü də mənimlə birgə gah təəccüblənər, gah da uğunub gedərdi.

O danışırdı ki, yadıma gəlir bir dəfə Lənkəran tərəfdə ov eləyəndə qamışlıqdan qəfil çıxan atanı qaban zənn edib, az qala qanına qəltan eləmişdim. "Çi dayı" hər gəlişində mənə rəngli uşaq kitabları gətirərdi. Bir dəfə ağacdan yonulmuş qaban heykəli gətirdi. Pəncəsində anama avtoqraf yazdırmışdı.

Həmin heykəl – qaban budur. İndi də saxlayıram.

Atamın yazı stolunun üstündə "Çi dayı"nın Qırmızı Bayraq ordeni alandan sonra çəkilmiş fotoşəkli qoyulmuşdu. Onu Çingiz əmi avtoqrafla atama bağışlamışdı.

Birdən-birə "Çi dayı" yoxa çıxdı. Bir müddət bizə gəlmədi. Hər dəfə mən atamdan soruşanda ki, "Çi dayı" niyə bizə gəlmir, onlar susardılar. Mənim sualım cavabsız qalardı. Xeyli sonra mən başa düşdüm ki, o qara illərin qorxunc əli onun da yaxasın-

dan yapışıb. Çingiz İldırım cəllad Bağırovdan yaxasını qurtarmaq üçün əvvəl Maqnitoqorsk, 1934-də isə Krivoy Roqa gedir. Amma cəllad Bağırov orda da onu axtarıb tapdırır və güllələtdirir.

Leyla xanım stolun üstündəki şəkli götürüb kədərli səslə:

– "Çi dayı"nın atama bağışladığı bu şəkil qeyri-adi bir təsadüf nəticəsində bizdə qalıb, – deyir. Atam həbs olunanda onun kitabları, bağışlanmış şəxsi silahı, sənədləri hamısı müsadirə olundu. "Çi dayı"nın bu şəkli isə sonralar lazımsız bir kitabın arasından çıxdı. Atam Çingiz İldırımdan sonra həbs olunacağını gözləyirdi. O, hətta, "Çi dayı"nın həbs olunmasını eşidəndə anama deyib ki, indi növbə mənimdir.

Görünür, atam bilə-bilə "Çi dayı"nın şəklini lazımsız kitabın arasına qoyub ki, ələ düşməsin.

Çingiz İldırıma bəraət veriləndən sonra bu nadir şəkil o gözəl insandan demək olar ki, yeganə yadigar idi. Bizim muzeylər bu şəklin surətini çıxartdılar. Adını daşıyan Politexnik İnstitutu qarşısındakı büst də bu şəkil əsasında qoyuldu.

İndi hər dəfə yolum Nərimanov prospektinə düşəndə o büst qarşısında istər-istəməz baş əyir, sanki canlı "Çi dayı"yla salamlaşıram.

## ƏZABKEŞ İNSANIN XATİRƏLƏRİ

***Xatirə tarix elmi kimidir. Belə halda gərək hər şeyi olduğu kimi nağıl edəsən, artırıb-əskiltməyəsən. Düzgün xatirə yazmaq üçün gündəliyin əhəmiyyəti böyükdür. Çox təəssüf ki, bu gözəl mədəni adət bizdə az qala tamamilə unudulmuşdur.***

***Məmmədcəfər Cəfərov,***
***akademik***

Sovetlər dövründə hər adam xatirə yazmağa, gündəlik tutmağa cəsarət eləmirdi. Çünki xatirəni dövlət xadimi, müdrik adamlar yazır. Vəzifədə olan azərbaycanlılar totalitar rejimdə o

qədər sıxışdırılıb, o qədər "döyülüblər" ki, əksəriyyəti bu xeyirxah işdən vaz keçiblər. Əgər yazmalı da olsaydılar, mütləq dövrün onların səsini içində boğduğunu, ədalətsizliyi yazmalı idilər.

Faris bəy Vəkilovdan bəzi yadigar qalan gündəlik yox, yığcam xatirədir. Ömrün doxsan birinci ilində yaddaşına arxalanan bu saf ziyalı inamla demək olar ki, heç bir tarixi faktda, ildə təhrifə yol verməyib. N.Yejov kimi qaniçənin 1936-1937-ci illərdə hökmranlığı dövründə biliyinə və bacarığına görə Moskva yaxınlığındakı "Beş saylı zavodda" direktor işləyən Faris bəyi türk olduğuna görə təqib ediblər. O acı illəri xatırlayan Faris bəy yazır: "Mənim orda nələr çəkdiyimi yazan olsa, həcmcə böyük, məzmunca çox təsirli bir əsər yaranırdı. Rusların təsəvvüründə "türk" sözü "düşmən" anlayışı ifa edirdi. Bir neçə həftə, işdən evə qayıdarkən, soyunmadan yatırdım, hər an həbs olunacağımı gözləyirdim. "Nə üçün" sualını vermək çox gülməli idi".

Nəhayət, vətəni Azərbaycana qayıtmağa məcbur olan Faris bəyin işdən getməsinə bircə nəfər – zavod partiya təşkilat katibi Aleksandr Dudetski təəssüflə deyir:

– Siz niyə gedirsiniz? Biz Sizin büllur kimi təmiz adam olduğunuza əminik.

Xatirələrdə Faris bəy 1917-ci ildən birbaşa 1923-cü ilə keçir. Bu da təbiidir. Yetmişinci illərdə hələ sovet orqanlarının, senzorun qadağaları mövcud idi. Həyatının müsavat dövrünü, Fransada yaşadığı illəri ötəri təsvir edir. Halbuki 1922-1926-cı illərdə Parisdə mühacirətdə olan alim-general Məmmədsadıq bəy Ağabəyzadə Fransadan xalası oğlu, məşhur alim Əli bəy Hüseynzadəyə 1922-ci ildə yazdığı məktublarda şəhərdə Faris bəy Vəkilova rast gəlib, vətən haqqında dərdləşdiklərindən yanıqlı epizodlar yazır.

Əlbəttə, bütün bunları yazmamaq Faris bəy Vəkilovun günahı deyil. Günah zamanın sərt abı-havasında idi. "İlan vuran alı çatıdan qorxar" – deyib atalar. Faris bəy 18 illik sürgündə gözü ilə od-alov görüb gəlmişdi.

Atalar yaxşı deyib ki, qismətdən artıq yemək mümkün olmadığı kimi, bəladan da qaçıb qurtarmaq olmaz. Vətəndə Faris bəyi pis qarşılamadılar.

Mütəxəssis kimi o, lazım idi. Amma müsavatçı kimi də gözdən iraq buraxmadılar. "Rəhbərlik məni zavoddan çıxardıb, Baksovet sisteminə keçirməyi qərara aldı. Baksovetin müəssisələrinin səmərəli işinə rəhbərlik etmək, ruhlandırmaq isə, üçüncü şəxs "sayıq göz" xüsusi şöbənin rəisi Arsen Arakelova həvalə edildi. Onun peşəsini nə olduğunu bilmirdim. Ancaq onun nə üçün orada olduğunu yaxşı bilirdim. Köhnə mühəndis, partiyaçı olmayan, bəy ailəsindən olan Faris bəy Vəkilovu nəzarətsiz qoymaq olmazdı".

Nəhayət, 1942-ci ilin yayında Faris bəy Vəkilovun həyatının qara bir səhifəsi açılır. Onu addımbaşı izləyən orqan işçiləri Medvedyev və İşxanov həbs edirlər.

İlk dindirilmədə müstəntiq İşxanov (İşxanyan – ***Ş.N.***) kinküdurətlə deyir:

– Sizin istehsalat fəaliyyətiniz bizə yaxşı bəllidir – o, nöqsansızdır (bu onun dediyi sözlərdir), ancaq siz düşüncə tərzinizə görə cəzalanmalısınız.

Burda istər-istəməz məşhur türkoloq Lev Nikolayeviç Qumilyovun (oğul) başına gətirilən oyunlar yada düşür. Lubyanka türməsində XDİK-nın xüsusi müşavirəsinin qərarını L.N.Qumilyova təqdim edən prokuror demişdir: "Siz savadlı olduğunuz üçün təhlükəlisiniz. Ona görə də on il həbs cəzası alacaqsınız".

Yalnız düşüncə tərzinə görə on səkkiz il həbsxanalarda, sürgündə olmazın əzab çəkən Faris bəy vətənə qayıda bilir. Sonralar Dövlət təhlükəsizlik şöbəsinin polkovniki Veliçenko ona bəraət verərkən demişdir:

– Sənədlər və faktlar göstərir ki, sənin heç bir günahın yoxdur. Müstəntiq İşxanovun sənin haqqında topladığı ikicildlik sənədlər heç bir çürük yumurtaya da dəyməz.

Zənnimcə, Faris bəy Vəkilovun ən böyük "günahı" 1918-1920-ci illərdə Gürcüstan hökuməti yanında Azərbaycanın

səlahiyyətli nümayəndəsi, müsavat generalının oğlu olması və bir də əla mühəndis kimi şöhrət qazanması idi. Namərd erməni İşxanov bunların üçünü də yığcamlaşdırıb "düşüncə tərzi" adı ilə siyasi rəng verib.

Faris bəy Vəkilovun 1977-ci ildə səliqə-sahmanla yazdığı xatirələri 1914-cü ildən başlanır. Maraqla oxunan bu xatirələr şəxsi xarakter daşımır. Burda elə epizodlar, elə hadisələr var ki, onları həyəcansız oxumaq mümkün deyil.

Faris bəyin acılı-şirinli xatirələrinə mən çox qulaq asmışam. Nüfuzlu nəsli, atası haqqında, tələbəlik, mühacirət illərindən, xüsusilə türmə həyatından danışdığı çoxlu epizodları günlərlə üzbəüz oturub dinləmişəm. Onun burda qələmə almadığı bir epizod-söhbəti heç vaxt yadımdan çıxmır.

O nəql edirdi ki, türmədə olanda bir dəfə yeməkxanada dustaqlar arasında dava düşdü. Mənimlə yanaşı oturan dustağın başına qəflətən armaturla elə bir zərbə vurdular ki, onun beyninin qanqarışıq iliyi mənim yeməyimə qarışdı. Mən iliyi qaşıqla kənara atıb iyrənmədən yeməyimi davam etdirdim. Ona görə ki, bərk ac idim. Əlavə yemək tələb eləməyə də ixtiyar verilmirdi. Bir dəqiqə keçər-keçməz nəzarətçi komanda verdi ki, durun çıxın.

Nə gizlədim, birnəfəsə oxudum bu saf qəlblə, şirin qələmə yazılmış xatirələri. Oxuduqca fransızların müdrik bir xalq deyimini xatırladım: "Yazanda vicdanla, Allah dərgahına üz tutaraq, bir də bəşəriyyətin istəkləri naminə yazmaq lazımdır". Ömrü əzablardan keçən mərhum Faris bəy xatirələrinə sənətinə münasib belə bir epiqraf seçib:

"Unudulmuş qəbirlərin birinin üstündə yazılıb:

Ey mühəndis, rahat yat,
Vətən üçün çəkdin cəfa.
Zəhmətinin misli yox,
Ömür qalmadı vəfa".

## HƏRBÇİ VƏKİLOVLAR

***Zatından bir hünər görünsə səndə,***
***Səni yaşadacaq özün ölsən də.***

***Əmir Xosrov Dəhləvi,***
***məşhur hind şairi***

İstər imperiya dövründə, istər 1918-1920-ci illərdə Azərbaycan Demokratik Cümhuriyyətinin Milli Ordusunda və Aprel çevrilişindən sonra da Vəkilovlar nəslinin silah tutan cəsur övladları hərbi sahədə layiqincə qulluq etmişlər.

Azərbaycanın Rusiya işğalından sonra sevimli şairimiz Səməd Vurğunun mənsub olduğu Vəkilovlar nəslindən imperiya ordusunun sıralarında igidlik göstərən hərbçi oğullar olmuşdur. 1855-ci il sentyabrın 12-də Qafqaz Əlahiddə Ordusunun komandanı general N.N.Muravyovun verdiyi əmrdə oxuyuruq:

***"Üçüncü müsəlman-süvari (****Azərbaycan –* ***Ş.N.) alayındakı qazaxlılardan ibarət bölüyün komandiri, kapitan Mənsur ağa Vəkilova "İgidliyinə görə" və üstü yazılı dördüncü dərəcəli "Müqəddəs Anna" ordeni, Qazax bəy polusotniyasından olan milis praporşiki Mir Mirzə Məhəmməd Şərif oğluna podporuçik rütbəsi, Borçalı bəy polusotniyasının vəkili Məmməd şah Ağasultanova gümüş temlyak gəzdirmək hüququ və yunker rütbəsi, Qazax bəy polusotniyasından Mustafa ağa Mirzə Əli ağa oğlu Vəkilova gümüş temlyak gəzdirmək hüququnda yunkerlik rütbəsi verilsin"*** *(Bax: "Kavkaz" qəzeti, № 85, 24 sentyabr 1855-ci il).*

1889-cu ildə Tiflisdə nəşr olunmuş Qafqaz Hərbi-Tarix Muzeyinin "Soraq kitabçası"nda belə bir məlumata rast gəldim: "Polkovnik Mirzə Xudadat bəy Vəkilov 1822-ci ildə Salahlı kəndində

anadan olub. İlk zabit rütbəsini 1847-ci il iyunun 2-də, polkovnik rütbəsini 1879-cu il dekabrın 14-də alıb. Hazırda Qafqaz Əlahiddə ordusunda xidmətdədir. İgidliyə görə təltif olunduğu ordenlər: dördüncü dərəcəli “Müqəddəs Anna” (1847), üçüncü dərəcəli “Müqəddəs Anna” bantla birgə (1851), “Müqəddəs Stanislav” (1858), İmperatorun tacqoyma mərasimi münasibətilə orden (1860), ikinci dərəcəli “Müqəddəs Anna” qılıncla birgə (1861), dördüncü dərəcəli “Müqəddəs Vladimir” bantla birgə (1875), üçüncü dərəcəli “Müqəddəs Vladimir” (1883) və 1862-ci ildə İranın üçüncü dərəcəli “Şire-Xorşid” ordeni.

Polkovnik Mirzə Xudadat bəy Vəkilov Tiflisdəki hərbi gimnaziyanı bitirib. Qafqaz Əlahiddə Ordusunda Şərq dilləri üzrə tərcüməçi işləyib. O, məşhur tibb alimi doktor Məmmədrza ağa Vəkilovun əmisi oğlu, müsavat lideri Əlimərdan bəy Topçubaşovun isə dayısıdır.

“Tiflisski listok” qəzeti 1889-cu il 3 iyun sayında yazır ki, bu günlərdə vəfat etmiş polkovnik Mirzə Xudadat bəy Vəkilov Qafqaz Əlahiddə ordusunun ümumi siyahısından çıxarılır.

* * *

**Allahın mərhəməti ilə biz ümumrusiya imperatoru və hökmdarı birinci Aleksandr Bizə sədaqətli qazax xalqına**[1]

Bizim gürcü çarlığının Baş rəisi general A.P.Tormasovun[2] məlumatına görə, keçən 1809-cu ildə çoxsaylı İran qoşunlarının Bizim sərhədlərə basqını zamanı Gürcüstanda yaşayan[3] Qazax camaatı misilsiz şücaət göstərmiş. Bizim taxt-taca sədaqətli olmuşlar.

---

[1] Gürcüstanla qonşu olan yazılmalıdır. Qazax sultanlığı 1801-ci ildə Şərqi Gürcüstanla birgə Rusiyaya ilhaq olunmuşdu. Şübhəsiz ki, bu səhv ordan yaranıb – ***Ş.N.***

[2] A.R.Tormasov 1809-cu ildən 1811-ci ilə kimi rus qoşunlarının Qafqazda Baş komandanı olub – ***Ş.N.***

[3] Səhvdir. Qazax xalqı yox, Qazax camaatı olmalıdır. – ***Ş.N.***

Qazax süvarilərinin bu şücaətini və Bizə göstərilən sədaqətini nəzərə alaraq (Qazax camaatına) Bizim hökmdarın təşəkkür və ehtiramını bu Fərmanla bildirməyinizi lazım hesab edirik.

***Sankt-Peterburq***
***Bizim Çarlığımızın onuncu ili.***
***İmperator Birinci Aleksandr.***
***Daxili işlər naziri: Kozodoyev.***
***7 may 1810-cu il.***

* * *

**Allahın mərhəməti ilə biz Ümumrusiya imperatoru və çarı İkinci Aleksandr**

Qoy, hər kəsə aydın və məlum olsun ki, hamımızın sevimlisi imperator Nikolay Pavloviç, Ümumrusiya padşahı, bizim çar atamız, kornet Kazım Hüseynqulu oğluna, onun xidmətdə göstərdiyi çalışqanlıq və səylərə görə, ən mərhəmətlimiz, min səkkiz yüz əlli birinci il, avqustun otuzuncu günü ona podporuçik rütbəsi vermişdir. Ona görə də biz bütün təbəələrimizə bildirərək əmr edirik ki, Kazım Hüseynqulu oğluna podporuçik rütbəsi təsis edib bağışlayırıq və onu Bizim Podporuçik kimi lazım olan qaydada tanıyıb hörmət edin. Biz inanırıq ki, O, ən mərhəmətli tərəfindən ona verilmiş rütbəyə layiq, sadiq və mehriban, zabitə yaraşan kimi hərəkət edəcək. Buna əsasən, Biz Hərbi Nazirliyin Müfəttişlik Departamentinə imzalayıb Bizim dövlət möhürü ilə təsdiq etməyi tapşırdıq.

Sankt-Peterburqda 1855-ci il dekabrın 26-cı günü verilmişdir.

*İmperator Həzrətlərinin Baş Qərargahının*
*növbətçi generalının köməkçisi Əlahəzrətin*
*məiyyəti general-mayor ______*
*Vitse-direktor vəzifələrini yerinə yetirən*
*polkovnik ______*
*Hərbi Nazirliyin Müfəttişlik Departamentində*
*9218 sayla təsvir edilmişdir.*
*Xarici İşlər Nazirliyində 1519 sayla möhürlənmişdir.*

* * *

Bu rəsmi sənədlərdə imperator Birinci Aleksandrın təşəkkürünü və ehtiramını qazanan qazaxlılardan ibarət süvari dəstənin kapitanı Mənsur ağa Vəkilov, Vəkil Alı ağa oğlu Hacı Məmmədxan ağa, Xan Şıxlinski, mayor Mustafa ağa Arif Şıxlinski, Alqazax oğlu Əli ağa, Nəsrulla bəy, poruçik Mehralı bəy Söyünbəyli, Allahyar ağa Dilbazov, Süleyman ağa Usubov, Həsən ağa Kəsəmənli, Şərif Zaloğlu, Molla İmamverdi Tüklübaşoğlu, Çopur Nəsib və başqaları olmuşlar.

İmperator fərmanının əsli hazırda polkovnik Mənsur ağa Vəkilovun nəvəsi şair Mənsur Fəxri oğlu Vəkilovda saxlanılır.

Tarixi mənbələrdə belə bir fakt da var ki, 1837-ci ilin yaz-yay aylarında Qafqazda olan çar Birinci Nikolay ayrı-ayrı şəhər və mahalları gəzmişdir. Avqustun 18-də Dilicandan Tiflisə qayıdan çarı nüfuzlu şəxs və etibarlı ağa olan Məmmədqulu ağa Vəkilov müşayiət etmişdir.

Bu barədə 1912-ci ildə Tiflisdə nəşr olunmuş "Kavkazski sbornik" (I hissə, XXII cild, səh.329) məcmuəsi daha dəqiq məlumat verir:

"...Mülkü qubernator ikinci dəfə Əlahəzrət imperatoru Dilicanda Yelizavetpol vilayətinin və Şəmsəddin məntəqəsinin ağalarından ibarət otuz doqquz nəfərlə qarşıladı. Onların iyirmi nəfəri poruçik Təhsi xanın komandanlığı ilə İstibulaq kəndinə qədər əlahəzrəti müşayiət etdilər. Burada əlahəzrət imperatoru otuz nəfərdən ibarət Qazax ağaları qarşıladı. Burdan da iyirmi süvari podpolkovnik Həsən ağanın komandanlığı ilə müşayiətçi təyin edilərək Əlahəzrəti Qırmızı körpüyə qədər yola saldılar. Sonra Sıqnax qəzasının hörmətli sakinləri öz başçıları ilə Əlahəzrəti qarşılayaraq əvvəlki qayda ilə knyaz və zadəganlardan ibarət iyirmi nəfər onu Muğanlıya qədər müşayiət etdilər. Muğanlı dayanacağında Əlahəzrəti Borçalı məntəqəsindən otuz nəfər qarşıladı. Onların iyirmi nəfəri nüfuzlu Məmmədqulu ağa Vəkilovun komandanlığı ilə Əlahəzrəti Tiflis qəzasının Alget məntəqəsinə qədər müşayiət etdi".

Birinci Cahan savaşında və ondan əvvəlki müharibələrdə Vəkilovlar nəslindən döyüşən orduda xidmət edib ad-san qazananlar da az olmamışdır. Polkovnik Əsəd ağa Vəkil ağa oğlu Vəkilov (1853-1921), Abbasqulu bəy Məmmədhəsən oğlu Vəkilov (1844-1927), Gəray bəy Abbasqulu bəy oğlu Vəkilov (1884-1952), praporşik Lütfəli bəy Abbasqulu bəy oğlu Vəkilov (1890-1932) və başqaları imperiyanın orden, medalı ilə təltif olunmuşlar.

Onlardan biri – *polkovnik Abbasqulu bəy Vəkilov* imperiyanın kavaler ordenləri ilə təltif olunmuşdur. 1867-ci il oktyabrın 10-da zabit rütbəsi alan Abbasqulu bəy uzun müddət Qars şəhərində yerləşən yüz əlli beşinci Quba süvari alayında xidmət edib. Tiflis hərbi gimnaziyasını bitirən Abbasqulu bəy Vəkilov 1884-cü il martın 6-da podpolkovnik rütbəsi ilə təltif olunmuşdur. O, qırx ilə yaxın xidmət illərində Hərbi fərqlənmə ordenilə (1861), üçüncü dərəcəli "Müqəddəs Stanislav" (1873), dördüncü dərəcəli "Müqəddəs Vladimir" (bant və qılıncla birgə, 1873), ikinci dərəcəli "Müqəddəs Stanislav" (qılıncla birgə, 1879), ikinci dərəcəli "Müqəddəs Anna" (1888) və başqa orden, medalla təltif olunmuşdur.

Polkovnik Abbasqulu bəy Məhəmmədhəsən oğlu Vəkilov 1927-ci ildə yetmiş üç yaşında Bakıda vəfat etmişdir.

1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətində Parlamentin üzvü, Bakıda ilk poliklinikaların təşkilatçısı və 1900-cü ildən Qafqaz Tibb Cəmiyyətinin həqiqi üzvü Məmmədrza ağa Vəkilov (1864-1944), daxili işlər naziri Mustafa bəy Vəkilov (1899-1943), Rəhim bəy Vəkilov (1897-1934), Parlamentdə Dəftərxana İdarəsinin rəisi Məmməd ağa Vəkilov (1863-1939) dövlət xadimi kimi fəaliyyət göstərmişlər.

Respublika Mərkəzi Dövlət Tarix Arxivində bir siyahı saxlanılır. Orada Birinci Cahan savaşı başlayanda Qazax qəzasından könüllü olaraq 1915-ci ilin iyun ayında cəbhəyə getmək üçün Tatar-Azərbaycan süvari alayına yazılanların adı, soyadı göstərilir.

Həmin siyahıda Qazax qəzasının ayrı-ayrı kəndlərindən 67 nəfər könüllünün adı yazılıb. Salahlı kəndindən olan doqquz

nəfərin beşi Vəkilovlar nəslindəndir: Əhməd ağa Qasım ağa oğlu Vəkilov, Mustafa ağa Abdulla ağa oğlu Vəkilov, Mustafa ağa Əbdülkərim ağa oğlu Vəkilov, Saleh ağa Əhməd ağa oğlu Vəkilov, Vəli ağa Nəbi ağa oğlu Vəkilov.

## POLKOVNİK GƏRAY BƏY VƏKİLOV

***Hər bir həqiqi insan öz irsiyyəti ilə fəxr etməlidir.***

***Səməd VURĞUN,***
***Xalq şairi***

1918-ci ildə yeni yaranan süvari rotalarının təşkilatçılarından olub (1919-cu il fevralın 3-də). Birinci Azərbaycan süvari alayında ştab-rotmistr rütbəsində Gəncədə, Tərtər və Bakıda xidmət edib. 1920-ci ilin əvvəllərində isə Bakıdakı birinci kadet korpusunda hərbi təhsil idarəsinin rəisi idi.

Polkovnik Gəray bəy 1884-cü ildə Abbasqulu bəy Məhəmmədhəsən oğlu Vəkilovun ailəsində anadan olub. Tiflisdəki kadet korpusunu bitirib. Rusiya-Yaponiya və Birinci Cahan savaşlarında döyüşən orduda iştirak edib. Döyüş xidmətlərinə görə "Müqəddəs Georgi" ordeninin üçüncü dərəcəsi ilə təltif olunub. İyirminci ildən sonra Şəkidə yerləşən ikinci qırmızı kadet korpusunda xidmət edib.

Çar və Müsavat zabiti olduğuna görə şübhəli şəxs kimi dəfələrlə həbs edilib. Xalq şairi Səməd Vurğunun məşhur "Komsomol poeması"ndakı Gəray bəy obrazının müsbət keyfiyyətlər baxımından prototipidir. Heç təsadüfi deyil ki, ölkədə havanın "tutqun" olduğu tutatut illərində yazdığı poemada Səməd Vurğun daxili bir vüqarla Gəray bəyin mərdliyini, tarixi faciəsini də verə bilmişdir:

*Keçdi o günlər ki, Gəray bəy vardı,*
*Mahaldan-mahala at oynadardı...*
*Elə zəni etmə ki, yenə mən sağam,*
*At sürüb ellərə səs salacağam.*

Səksəninci ilin əvvəllərində professor Fatma xanım Vəkilova ilə tez-tez görüşərdim. Görüşümün səbəbləri çox idi. O vaxtlar "Qoridən gələn qatar" sənədli povestimi işləyir, lazımi materiallar toplayırdım. Əsərin əsas qəhrəmanı məşhur ədəbiyyatşünasımız Firidun bəy Köçərli idi. Arxivlərdə, xüsusilə Gürcüstan Dövlət Maarif Arxivinin sənədlərində daha çox iki şəxsin adına rast gələrdim. Məmmədağa və İsmayıl ağa Vəkilovlar. Xeyirxah insan Mirqasım Əfəndiyevdən öyrəndim ki, hər iki Vəkilovlar qardaşdırlar, Firidun bəyin seminariya yoldaşı və sonralar qaynı olublar. Fatma xanım İsmayıl ağa Vəkilovun qızı idi.

Fatma xanımla Yusif Məmmədəliyev küçəsindəki mənzilində ilk dəfə 1983-cü il aprelin üçündə görüşdüm. Bu tarix qeyd dəftərçəmdə indi də qalır. Mənə məşhur sərkərdəmiz Əli ağa Şıxlinskinin müasirlərimizdən heç kəsin bilmədiyi ailə şəcərəsi haqqında geniş məlumat verdi. Onun anası Növrəstə xanım, generalın bacısı Bədircahan xanımın qızı, generalın bacısı oğlu, qəza pristavı İsfəndiyar bəy Muradov Fatma xanımın doğmaca dayısı imiş.

1912-ci il təvəllüdlü Fatma xanım, Vəkilovların və Şıxlinskilərin ailə, kök, nəsil qohumluğunu, necə deyərlər, saçaq-saçaq bilirdi. Bir sözlə, hər iki nüfuzlu nəslin ensiklopediyası idi. O vaxtlarda Fatma xanım əmisi Məmməd ağa və atası İsmayıl ağa haqqında da mənə maraqlı epizodlar danışıb nadir fotoşəkillər bağışladı. Onlardan "Qoridən gələn qatar" povestində istifadə elədim. Haqqında çox az məlumatım olan, yalnız adını eşitdiyim polkovnik Gəray bəy Vəkilov barədə də ondan məlumat öyrənmək istədim. Professor Fatma xanım mehriban ana qayğısı ilə:

– Oğul, – dedi, – Nazim İbrahimovu tanıyırsanmı? Tanımamış olmazsan?

– Respublika Mətbuat və Nəşriyyat Komitəsinin sədri Nazim İbrahimovu deyirsiniz?

– Bəli!

– Tanıyıram, – dedim, – kitab nəşri sahəsində bütün peşəkar yazarların taleyi ondan asılıdır. Xüsusilə, yazıçılar onun qayğısından razıdırlar. Amma aramızda vəzifə, yaş fərqi var... Fatma xanım, Nazim müəllimi nə münasibətlə yada saldınız?

– Söhbətimin canı var. Sən bilirsənmi ki, Nazim İbrahimovun həyat yoldaşı Nazimə xanım polkovnik Gəray bəy Vəkilovun nəvəsidir? Nazimə xanımın anası Sona xanım indi də sağ-salamatdır. Sona xanım da polkovnik Abbasqulu bəy Vəkilovun nəvəsidir. Yəni polkovnik Gəray bəyin doğma qızıdır. Bizim Vəkilovların bir qolu inqilabdan çox əvvəl İrəvanda, Naxçıvanda, digəri isə Qarsda və Tiflisdə yaşayıb, Gəray bəy də Qarsda anadan olub. Ona görə də Sona xanımla da görüşməyin yaxşı olardı...

Aradan nə az, nə də çox, yeddi il keçəndən sonra “Topoqraf-general İbrahim ağa Vəkilov” kitabını nəşrə hazırlayanda o illərki qeyd dəftərçəmi vərəqlədim. İstər-istəməz mehriban ana, mərhum Fatma xanımın nurlu sifətini xatırladım. Hər iki nüfuzlu nəsil haqqında mənə qiymətli faktlar söylədiyi üçün ona dönə-dönə rəhmət dilədim. Qeyd dəftərçəmi vərəqlədikcə gördüm ki, onun dediklərindən bir çoxuna hələ əməl etməmişəm. Onlardan biri də polkovnik Gəray bəyin qızı ilə görüşmək idi.

* * *

...Aylarla bir kamerada olan dustaqlar başlarına gələn qəzavü-qədəri danışmaqdan yorulmuşlar. Üç gündən bir müstəntiqin sorğu-sualı olurdu:

– Gəncə üsyanında harada olmusan? Nuru Paşa ilə sonuncu dəfə nə vaxt görüşmüsən? Zaqatala üsyanına kim başçılıq edirdi? İttihadçılardan kimləri tanıyırsan, onların təşkilatına nə vaxt qəbul olunmusan?

Belə sorğuların sonu yox idi. Dustaqlar da yaddaşına güc verib altı il əvvəl harada, kiminlə nahar etdiyini xatırlamağa məcbur idilər.

Axşamdan xeyli keçmişdi. Ştabs-kapitan Fərhad bəy Əlibəyovla bir kamerada olan polkovnik Gəray bəy bikef halda oturmuşdu. O, evi, ailəsini fikirləşirdi. Özünün güllələnəcəyini də düşünürdü:

– Onsuz da bir can borcluyam. Gec-tez bu dünyanı tərk etməliyəm. Məndən sonra Sitarənin dörd uşaqla qalması, ona ömürlük əziyyət olacaq...

...Hər gün şər qarışanda elə bil kameraya yığın-yığın qəm-qüssə ələnirdi. Uşaqların hərəkəti, danışığı, illah da axşam işdən qayıdanda bircə qız balası Süfiyyənin onun qucağına atılmasını, şaqraq səsini yadına salanda dəli-divanə olurdu. Dustaq Gəray bəyin iztirab dolu qəlbinin ən dərin guşəsində əziz anasının adını daşıyan Süfiyyəyə ayrıca ata məhəbbəti vardı. Bu sonsuz övlad məhəbbəti bir il idi dustaq polkovnik Gəray bəy Vəkilova əzab verirdi.

Ürəyi köksündə sürətlə döyünən Gəray bəy bikef halda:

– Fərhad bəy, – dedi, – görünür, bizim qismətimizə belə yazılıbmış...

Tavanda tor məftilə salınmış işıq getdikcə zəiflədi. Onun ancaq közərtisi qaldı. Bu, dustaqlara yatmaq üçün işarə idi. Bundan sonra növbətçini, ya da komendantı çağırmağa icazə verilmirdi.

– Aha, – dedi, – Fərhad bəy, qismət dedin, işığımız da söndü.

– Mən bir şeydən qorxuram, Gəray bəy, qorxuram.

Fərhad bəy sağ əlini uzadıb şəhadət barmağını açıb qatladı.

– Qorxuram qisas alalar...

– Axı nəyə görə, biz nə günahın sahibiyik? – Gəray bəy hüznlü səslə soruşdu.

– Bəs altı ildi güllələnən yüzlərlə azərbaycanlı ziyalısı, zabit və əsgəri məgər günahkardı? Sən də, mən də Müsavat zabitiyik,

vəssalam! Azərbaycanda meydan sulayan daşnak-bolşeviklərə elə bu bəhanə bəsdi.

– Düz deyirsən, vallah, hər şey ola bilər, – Gəray bəy bikef halda təsdiq etdi.

– Dayan, – deyib Fərhad bəy onun biləyindən yapışdı. Sol əlilə qapını göstərdi. – Kimsə gəlir, yəqin nəzarətçidir.

Şişpapaq bolşevik zabiti gözlüyü açıb-bağladı. Kamerada işıq yenidən artdı. Nəzarətçi şişman qarnı üstündəki kəmərini sığallaya-sığallaya içəri girdi. Hər iki dustaq dərhal ayağa durdu.

– Polkovnik Gəray bəy Vəkilov hansınızdır? – deyə nəzarətçi xəbər aldı.

– Mən, – deyib Gəray bəy qəddini düzəldib əsgəri qaydada dimdik durdu.

Nəzarətçi onu ilk dəfə görürmüş kimi laqeyd nəzərlərlə başdan-ayağa süzdü. Özü ilə gələn əsgərə işarə etdi:

– Çox yaxşı, "hədiyyənizi" götürə bilərsiniz.

Gəray bəy irəli addım atanda nəzarətçi əlini qaldırıb, sərt səslə dilləndi:

– Elə yox, elə olmaz, şələ-külənizlə, əmr belədir.

Fərhad bəy qolunu geniş açıb geriyə dönən Gəray bəyi bərk-bərk qucaqladı. Yaman kövrəlmişdi:

– Allah amanında, qardaş, bu nə iş idi...

Bikef Gəray bəy:

– Niyə narahat olursan, – dedi, – bəlkə başqa yerə dəyişirlər, bəlkə sürgünə...

– Artıq söhbəti kəsin, dustaq Vəkilov, şələ-küləni götür, haydı, – deyə nəzarətçi onlara təpindi.

Sonra qıyğacı baxışlara Fərhad bəyi süzdü:

– Siz dostunuz üçün narahat olmayın, o, çox yaxşı yerə gedir.

Onun ikibaşlı danışığından daha da şübhələnən Fərhad bəy:

– Hara gedir? – deyə dərhal soruşdu.

– Hara gedə bilər ki, evə, əzizim, evə, vəssalam!

Nəzarətçiyə inanmayan, onu dodaqaltı söyən Fərhad bəy üzünə bağlanan qapıya baxa-baxa quruyub qalmışdı. Kamerada işıq yenidən zəiflədi...

Şamaxı yolundakı həbsxananın komendantı əlini zəif yanan peçdə qızdıra-qızdıra:

– Hə, polkovnik Vəkilov, belə-belə işlər... – deyə ona müraciət etdi.

Stolun üstündəki əl boyda kağızı göstərib:

– Buyurun, hələlik sizin bolşevik hökuməti yanında günahınız sübut olunmadı. Ən yaxın adamınız üzünüzə dursa da, ittihadçılar bunu inkar etdilər.

– Siz də hərbçisiniz, bilməmiş olmazsınız, peşəkar hərbçilər həmişə siyasətdən uzaq olublar. Bu, tarixən belədir, daha doğrusu, əsgəri qaydadır...

– Oho, Vəkilov, sən çox ağıllı, düşüncəli adamsan. Görünür, bəy titulunu nahaq yerə daşımırsan. – Komendant iri bir dəftərxana kitabını ona tərəf itələdi: – Burdan qol çəkin, hələlik azadsınız, evinizə buraxılırsınız. Bundan sonra fəxrlə deyə bilərsiniz ki, bolşevik gülləsi sizdən yan keçdi. Amma siz... – kinli-kinli Gəray bəyə baxıb: – Bolşeviklərə çox güllə atmısınız, bolşeviklərin qanını su yerinə axıtmısınız, elə deyilmi?

Gəray bəy dinmədi...

Bu epizodu mənə ilk görüşümüzdə Gəray bəyin qızı Sona xanım danışdı. 1926-cı ildə qarlı qış axşamı gecədən xeyli keçəndən sonra Sitarə xanımın qapını açması və atası Gəray bəyin qəfil gəlişini Sona xanım çox yaxşı xatırlayır.

– Bu gözlənilməz gəlişdən özünü itirən anam hey təkrarən atamdan soruşdu ki, a kişi, nə yaxşı səni buraxdılar.

Atam isə sevinclə bizi öpür, qucaqlayırdı. O, qardaşım Böyükağanın, Rüstəmin dərslərini soruşdu. Balaca Fərruxu və məni dizinin üstündə oturtdu. Ata məhəbbətini, həmin gecənin sevincini mən indi də unuda bilmirəm. Həmin gecə evimizin işığı səhərə kimi sönmədi. Birdən atam anama sərt səslə dedi:

– Elə deyirsən ki, nə yaxşı buraxdılar. Axı mənim nə günahım var ki, buraxmayaydılar. Namərd bir qohumla məni üzləşdirdilər. O mənə nə qədər şər atdısa da faydası olmadı. Onda namərd dedi ki, sən Gəray bəy ağqvardiya ordusunda qulluq etmisən.

Mən də cavab verdim ki, əvvəla, Müsavat ordusu ağqvardiyaçılardan ibarət deyildi. Əgər sən deyən kimidirsə, onda ikimiz də birgə qulluq etmişik. Müsavat ordusunda sən praporşik, mən isə polkovnik olmuşam. Mənim qismətimə insaflı müstəntiq düşmüşdü. O, milliyyətcə Həştərxan tatarı idi. Növbəti istintaqın birində məndən soruşdu ki, 1924-cü ildə harada olmusunuz? Şəkidə Qırmızı Kadet korpusunda işləmişəm, – dedim. Həmin ili kursantların buraxılışı münasibətilə 1924-cü il noyabrın 7-də Moskvada kursant heyətilə birgə Nərimanovun qəbulunda olmuşam. Bu görüşdən fotoşəklimiz də var.

Bunu eşidən müstəntiqin əhvali-ruhiyyəsi tamam dəyişdi. Dedi ki, 1918-ci ildə Nərimanov Həştərxanda olanda məni müalicə edib. Məni ölümdən xilas edib, həyata qaytarıb. Ona görə də rəhmətlik Nərimanova böyük hörmətim var.

Atam sonralar da danışırdı ki, sağ-salamat buraxılmağımın səbəbkarı həmin müstəntiqin Nərimanova olan hüsn-rəğbətindən irəli gəlib. Ona görə də atam Gəray bəy ömrünün sonuna kimi Nərimanova rəhmət oxuyardı.

– Sona xanım, atanız Gəray bəy Müsavat ordusunda Gəncədə, Tərtərdə hərbi qulluqda olub. 1920-ci ildə Şəkidə Qırmızı Kadet Məktəbinin rəisi işləyib. Bəs o həbs olunan ili – 1926-cı ildə harada yaşayırdınız?

– Həmin ili Bakıda Çadrovı küçəsindəki onuncu dalanda (indiki M.Əliyev – ***Ş.N.***) yaşayırdıq. Mən 1920-ci il fevralın 11-də Bakıda anadan olmuşam. Atam Gəray bəy bu xəbəri eşidəndə deyib ki, anam Süfiyyə xanım yenidən dünyaya gəlib. Atamın eyhamını dərhal anlayan anam Sitarə xanım Məmməd qızı Bədəlova mənə nənəmin adını qoyub. Sonralar necə olubsa, məni Sona deyə çağırıblar. Atam heç vaxt ikinci adımı dilə gətirməzdi, acığı gəlirdi. Həmişə məni Süfiyyə deyə çağırardı. Anamın əsli Şəkidən olub. Atam kimi nəcabətli nəsildən olan anamın ailəsi o vaxt Tiflisdə yaşayırmış. Onlar 1913-cü ildə evləniblər. Ana babam Məmməd məşhur tacir olub. Tiflisdə xüsusi mülkü, mağazaları varmış. Anam ali təhsilli həkim idi.

– Sona xanım, Tiflis dediniz yadıma atanızın arxivdə saxlanılan bir teleqramı düşdü. Onu poruçik Gəray bəy Vəkilov 1901-ci il oktyabrın 7-də ilk qız məktəbinin açılışı münasibətilə Hacı Zeynalabdin Tağıyevə vurub. Atanız Gəray bəy yazır ki, Ünasiyə məktəbinin güşadı günü ilə Sizi təbrik edib, tofiq istəyirəm.

– Siz poruçik deyəndə atamın kinayə ilə tez-tez işlətdiyi bir məsəli yadıma düşdü. O, acığı gələn zabitə deyərdi:

– Praporşik zabit olsa, toyuq da quş olar.

1926-cı ildə tutulanda onun üzünə nahaqdan duranın rütbəsi praporşik olub. Ömrünün son illərində atam süvari generalı Hüseyn xan Naxçıvanskini tez-tez xatırlardı. Hüseyn xan Port-Artur döyüşlərində atamın komandiri olmuşdu.

Yadımdadır, danışardı ki, 1905-ci ildə yaponlarla döyüşdə Hüseyn xan əmr verdi ki, xəncəri dişimizə alaq, qılıncı sağ əlimizə, tüfəngi isə sol əlimizə. Belə yaraqlanıb hücuma keçdik, yaponlar mövqelərini qoyub qaçdılar. Biz bir güllə belə atmadan cəbhəni aldıq.

* * *

Polkovnik Gəray bəy Vəkilovun üç oğlu son illərə kimi sağ idi: Böyükağa (1914-1995), Rüstəm (1916-1998), Fərrux (1921-1998). Bu sətirlərin müəllifi onların hər üçü ilə görüşüb söhbət etmişdi.

Böyükağa EA-nın Geologiya İnstitutunun laboratoriya rəhbəri, geologiya-mineralogiya elmləri namizədi, Rüstəm əməkdar mühəndis, Fərrux isə baş ədliyyə polkovniki və fəxri prokurorluq işçisi idi.

1992-ci ildə görüşlərimizin birində Böyükağa müəllim mənə iki nadir fotoşəkil göstərdi. İlk dəfə gördüyüm bu tarixi şəkillər atmış səkkiz il əvvəl – 1924-cü il noyabrın yeddisində çəkilmişdi. Şəkildə xalqımızın görkəmli oğlu Nəriman Nərimanov və Zaqafqaziya Hərbi Hazırlıq Məktəbinin kursant və zabit heyəti Moskvada təsvir olmuşdu. Böyükağa Vəkilov da həmin kursant-

lar arasında olduğuna görə fotoşəklin çəkilmə tarixini mənə nəql etmişdi:

– 1922-ci ilin yazında atam məni Qırmızı kadetlər korpusu məktəbinə oxumağa qoydu. Onda mənim səkkiz yaşım vardı. Həmin məktəbə yeddi yaşından on dörd yaşınadək olan uşaqları götürürdülər. Məktəb beynəlmiləl idi. Orda müxtəlif millətlərdən olan uşaqlar oxuyurdu. Azərbaycanlılar əksəriyyət təşkil edirdi. 1923-cü ildə bizim məktəbin adı dəyişdirilib Zaqafqaziya Proletar Hərbi Məktəbi, bir il sonra isə Hərbi Hazırlıq Məktəbi adlandırıldı.

Yadımdadır, məktəbin tədris korpusu Bakıda, indiki 1 nömrəli orta məktəbdə, yataq korpusu isə indiki Zabitlər evinin binasında yerləşirdi. Təlim, siyasi-tərbiyə işləri və mədəni-kütləvi tədbirlər tədris korpusunda keçirilirdi. Bu, Zaqafqaziyada yeni-tipli nümunəvi hərbi məktəb idi. Məktəbimiz 1921-ci ilin oktyabrında Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun təşəbbüsü ilə yaradılmışdı. Ona görə də həmişə Nərimanovun diqqət mərkəzində idi.

Hələ birinci kursda oxuyanda Nərimanov tərəfindən qəbul edilməyimiz də yaddaşıma həmişəlik həkk olunub.

Nəriman Nərimanov bir ata kimi bizimlə xeyli səmimi söhbət etdi. Təhsilimizlə, dolanacağımızla maraqlandı, kefimizi xəbər aldı. O, bizim hər birimizdən dönə-dönə soruşdu ki, məktəbdə nə üçün, hansı məqsəd naminə oxuduğumuzu bilirikmi? Biz də onun bütün suallarına ürəkdən, cəsarətlə cavab verirdik ki, komandir olmaq istəyirik. Bizi ata qayğısı ilə dinləyən Nərimanov şad bir halda “mərhəba, balalarım, sağ olun!” – deyirdi.

1924-cü ildə paradda iştirak etmək üçün məktəbimizin yüz iyirmi altı nəfər kursant və zabit heyətini Moskvaya dəvət etdilər. Noyabrın üçündə yola düşdük. Rostova qədər yük vaqonlarında getdik. Gecikdiyimizə görə bizi ordan sürət qatarında yola saldılar. Noyabrın yeddisində səhər Qızıl meydana çatdıq.

Bizi Moskvaya aparan komandirlərimizi yaxşı xatırlayıram. Zaqafqaziya Hərbi Hazırlıq Məktəbinin kurs komandiri Həqqi

Kəngərlinski, siyasi rəhbər Allahqulu Mehdiyev, məktəbin rəisi Hacıağa İbrahimbəyli, tədris hissəsinin rəisi, atam Gəray bəy Vəkilov və başqaları bizimlə getmişdilər.

Qızıl meydandan keçəndə tribunada dövlət rəhbərləri arasında dayanan Nəriman Nərimanovu görüb daha gur səslə "Ura!" – deyə qışqırdıq. Rəsmi keçiddən sonra bizim batalyonu tribunanın önündə saxladılar. Dövlət rəhbərləri bizim yanımıza enib salamlaşdılar. Mənim kimi 10-12 yaşlı balaca kursantları səmimiyyətlə dindirir, bəzilərini də atıb-tutur, öpürdülər.

Səhərisi bizi SSRİ MİK-in Sədri Nəriman Nərimanov Kremldəki klubda qəbul etdi. Xeyli səmimi söhbət edən Nəriman Nərimanovun sevincinin həddi-hüdudu yox idi. O dedi ki, tapşırıq vermişəm, sizin hər birinizə Xalq Komissarları Sovetinin hesabından iyirmi manat pul ayırsınlar. Bu pul sizə gündəlik xərclik və valideynlərinizə hədiyyə alıb aparmaq üçün verilir.

Sonra bizim kursant batalyonu Kremldə yerləşən hərbi komandirlər heyəti məktəbində oldu.

Bu görüşlərdən sonra Nəriman Nərimanov, MİK Rəyasət Heyətinin katibi Avel Yenikidze bizimlə birgə Kremlin həyətindəki "Çar zəngi"nin yanında şəkil çəkdirdi.

Bu tarixi fotoşəkildə görün kimlər var. O vaxt kursant olanların əksəriyyəti indi görkəmli alim, hərbçidirlər. Polkovnik Əli ağa Babayev, Respublika EA-nın keçmiş prezidenti, akademik Rüstəm İsmayılov, əməkdar elm xadimi, elmlər doktoru Məmmədtağı Nağıyev, SSRİ Neft Sənayesi Nazirliyinin idarə rəisi Əlövsət Qarayev, irriqator-alim Karrar Əliyev, Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirov, SSRİ xalq artisti, məşhur dirijor Niyazi, Çingiz Hacıbəyov, akademik Şəfayət Mehdiyev, əməkdar mühəndis Böyükağa Məmmədov, elmlər doktoru Məmməd Fərzəliyev, məşhur şairimiz M.Ə.Sabirin oğlu Məmmədsəlim Tahirli, professor, hüquq elmləri doktoru Əyyub Əsgərov, polkovnik Səttar Hacıyev, Fərhad Ağayev, müharibə veteranı Əsgər Mirzəyev, fizika-riyaziyyat elmləri doktoru Kamal Məmmədov, batalyon komandiri Hüseyn Rəhimov və başqaları.

Onların əksəriyyəti dünyasını dəyişib. Bu nadir fotoşəkil isə o günlərdən nəsillərimizə yadigar qalıb.

Gəray bəyin oğlu Rüstəm Vəkilov:

– Atam 1920-ci ilə kimi şərəfli ömür yaşadığını tez-tez xatırlardı. Amma Müsavat dövründəki döyüş yolunu xatırlamaq ona çox çətin idi.

Yadımdadı, otuzuncu illərdə Səməd Vurğun bizə tez-tez gələrdi. Onların ikilikdə elədikləri söhbət gecədən xeyli keçənə qədər davam edərdi. Bəzən mübahisələri qızışıb, səsləri ucalanda anam Sitarə zarafatla deyərdi:

– Balam, bu sinfi düşmənlərin söhbəti qurtarmır ki, qurtarmır.

O da yadımdadır ki, bir dəfə çay aparanda atamın 1924-cü ildə Moskvada Nəriman Nərimanovla görüşündən danışdığını eşitdim.

Qorxu hissiylə bunu anama bildirdim.

Anam narahatlıqla dedi:

– Bu kişinin gözünü qan örtüb, yenə bizi işə salacaq.

Axı, o illərdə Nəriman Nərimanovun şəxsiyyətinə haqsız olaraq qara kölgə salmışdılar. Onun silahdaşları həbs edilirdi.

1924-cü ildə ordudan tərxis olunan Gəray bəy ömrünün axırınadək Respublika Maliyyə Nazirliyində işləyib. 1952-ci il martın on dördündə Bakıda vəfat edib.

Görkəmli müğənnimiz Rəşid Behbudovun anası, maarifçi qadın Firuzə xanım Vəkilova (1889-1933) polkovnik Gəray bəy Vəkilovun doğma bacısı idi.

Ştabs-kapitan Nəsib ağa Əsəd ağa oğlu Vəkilov 1899-cu ildə Qazaxda anadan olub. Qori Seminariyasının Azərbaycan şöbəsini bitirib. 1919-cu ildə Gəncədə praporşiklər məktəbində hərbi təhsil alıb. Müsavat zabiti olduğuna görə 1940-cı ildən 1955-ci ilə qədər Maqadan və Norilskiyə sürgün edilib. 1954-cü il mayın səkkizində qohumu, xalq şairi Səməd Vurğuna məktub yazıb, Vətənə qayıtması üçün ondan kömək istəyib. Şair günahsız həbs olunmuş əmisi oğlu Nəsib ağanın ailəsinə maddi kömək etmişdir. Yeri gəlmişkən onu da qeyd edək ki, otuzuncu illərdə

Vəkilovlar nəslindən bir çoxları repressiyaya uğramışdır. Səməd Vurğun onlardan yalnız birini – xalq müəllimi Teymur bəy Vəkilovu həbsdən azad etdirə bilmişdi.

Nəsib ağa Vəkilov Norilsk sürgünündən yazırdı:

***"Hörmətli və əziz Səməd!***

***On altı il ayrıldıqdan sonra sən mənim məktubumu alıb, yəqin ki, təəccüblənəcəksən. Mən qohumlardan heç kəsə məktub yazmırdım ki, onları narahat etməyim. Onlara xətər gəlməsindən qorxurdum. İndi mən demək olar ki, yarı da olsa azad vətəndaşam. Ona görə də məktub yazıb, özümü xatırlatmağa cürət edirəm. Bu məktubu sənə Norilskidən evə qayıdan, bizim ümumi tanışımız Əli Səbri[1] çatdıracaq.***

***Əli Səbri mənim haqqımda məlumat verəcək. Xahiş edirəm, əgər sənin üçün çətin olmazsa və mümkünsə uşaqlarımın xatirinə mənim Vətənə qayıtmağıma imkan daxilində kömək edəsən.***

***Mən çox qocalmışam, ömrümün son illərini uşaqlarımın yanında, doğma diyarda keçirmək istəyirəm. Mənə elə gəlir ki, sən mənim xahişimi rədd etməzsən, çünki indi zaman o zaman deyil. Burdan qohumlarının və tanışlarının vəsatətinə əsasən çoxları evə qayıdırlar. Mehdixana və Xavər xanıma mənim ürəkdən gələn salamımı çatdır. Öpürəm səni, Mehdixanı, Yusifi və Vaqifi. Xoşbəxtlik və əmin-amanlıq arzulayıram.***

***Hörmətlə Nəsib ağa"***

1955-ci ildə Vətənə qayıdan Nəsib ağa Vəkilov 1963-cü ildə Bakıda vəfat edib. O, polkovnik Əsəd ağa Vəkilovun oğlu idi.

* * *

1919-cu il fevralın on dördündə praporşik Lütfəli bəy Vəkilov Azərbaycan süvari alayının komandirinə belə bir məlumat göndərmişdir:

***"Sizin nəzərinizə çatdırıram ki, 1918-ci il iyunun on səkkizində dördüncü Borçalı alayının polkovniki Tuqanov Birinci***

[1] Əli Səbri (1892-1983) nasir, tərcüməçi.

***Dünya müharibəsi illərində döyüş xidmətlərimə görə min beş nömrəli əmrlə mənim "Müqəddəs Georgi" xaçı ordeninin bütün dörd dərəcəsi ilə təltif olunmağım haqqında sənəd təqdim etmişdi və buna əsasən mənə birinci Mozdok Dağ-Kazak alayı min yüz qırx altı nömrəli attestat da verilmişdir. Orada ordenlərin hər birinin nömrəsi də yazılıb. Həmin döyüşlərdə mən dörd dəfə yaralanmışam və kontuziya olmuşam. Bunların hamısı Sizə göndərdiyim şəxsi işimdə göstərilib"***.

Vərəqin o biri üzündə praporşik Lütfəli bəy Vəkilovun dəstixəttilə yazılmış qeydi də var: ***"Mənim şücaətlərimin və təltifatlarımın cəbhədə şahidi olan rotmistr Çayevski idi. O, hazırda Hərbi Nazirliyin Baş Qərargahında baş zabit kimi xidmətdədir"***.

Əlbəttə, praporşik Lütfəli bəy Vəkilovun bu məlumatı müasir oxucuya adi ərizə kimi görünə bilər. Lakin unutmaq olmaz ki, o dövrdə belə bir yüksək ordenlə zabitlər çox nadir hallarda təltif olunurdu. Qeyri-adi igidlik göstərən, "Müqəddəs Georgi " ordeninin bütün dərəcəsinə layiq görülən oğullarımızı barmaqla saymaq olar. Rotmistr Teymur bəy Novruzov (1919-cu il, avqustun 2-də general-mayor rütbəsi almışdır – ***Ş.N.***), praporşik Sayad bəy Zeynalov, poruçik Osman ağa Gülməmmədov.

Yüz qırx birinci səhifədə Lütfəli bəyin silahdaşı Çayevskinin Baş Qərargaha təqdimatı saxlanır. O yazır ki, dördüncü Borçalı süvari alayının praporşiki Lütfəli bəy Vəkilovla Birinci Dünya müharibəsinin ilk günlərindən 1918-ci ilin sentyabrınadək birgə döyüşlərdə olub. Onun bütün qəhrəmanlıqlarının canlı şahididir. Qazaxda, Lori dərəsində, Borçalıda erməni daşnaklarına qarşı döyüşlərdə, Bakı, Qarayazı və Şamxorda bolşeviklərlə vuruşmalarda onun cəsur süvari kimi igidlik göstərdiyinə zəmanət verir. Belə bir igid zabitin yüksək rütbəyə layiq olduğunu tamamilə qanuni hesab edir.

Rotmistr Çayevskinin Baş Qərargaha iftixarla yazdığı təqdimatı iki general məmnuniyyətlə təsdiq edib, dərkənar qoyublar: süvari diviziyanın rəisi, general-mayor şahzadə Əmir Kazım Qacar və qərargah rəisi general Zaxar Amaşukeli.

Çox təəssüf ki, sənədlərin izi elə burdaca itir. 1890-cı il təvəllüdlü praporşik Lütfəli bəy Abbasqulu bəy oğlu Vəkilovun bundan sonra hansı rütbəyə layiq görüldüyü məlum olmur.

Polkovnik Gəray bəy Vəkilovun kiçik qardaşı, praporşik Lütfəli bəy Vəkilovu Zaqafqaziya Baş Siyasi İdarəsi 1932-ci il fevralın 2-də antisovet ruhlu zabit kimi həbs edib beşillik sürgünə göndərmişdi. Minlərlə günahsız Azərbaycan zabiti kimi qırx iki yaşlı Lütfəli bəyin də ömrünün hansı həbs düşərgəsində sona yetdiyi məlum deyil.

Podporuçik Sadıq Əsgər oğlu Vəkilov 1895-ci ildə Qazax qəzasının Salahlı kəndində anadan olub. Müsavat ordusunda üçüncü Gəncə piyada alayında kiçik zabit kimi xidmət edib. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının Tatar-Azərbaycan şöbəsini və 1918-ci ildə Gəncədəki praporşiklər məktəbini bitirib.

Azərbaycan Milli Ordusunun kapitanı Bahadır bəy İbrahim ağa oğlu Vəkilov da bu nüfuzlu nəslin nümayəndəsidir. 1889-cu il martın 24-də Qazaxda zadəgan ailəsində anadan olub. İlk təhsilini Tiflisdə birinci kişi gimnaziyasında alıb. 1918-ci il mayın 15-də yeni yaranan Müsəlman korpusuna könüllü daxil olub. Sentyabrın 1-dən piyada qoşunlarında kiçik yunker, baş yunker rütbəsində xidmət edib, noyabrın 18-də isə Gəncədəki praporşiklər məktəbini birinci dərəcə ilə bitirib. Məktəbi əla qiymətlərlə bitirdiyinə görə o, hərbi məktəbdə rota komandiri vəzifəsində saxlanılıb. Məktəbin rəisi polkovnik Şirin bəy Kəsəmənski 28 fevral 1919-cu ildə gənc zabit Bahadır bəyə verdiyi xasiyyətnamədə qeyd edir ki, əla davranışa və yüksək əxlaqa malikdir. Zabit kadrlarının yetişdirilməsinə tam layiqdir. Siyasi hazırlığı var. Martın iyirmi ikisində hərbi nazir, tam artilleriya generalı Səməd bəy Mehmandarov Gəncə praporşiklər məktəbinin rəisinə belə bir əmr göndərib:

***"Gəncə praporşiklər məktəbinin əlli nəfərdən çox məzununa əziz Novruz bayramı ərəfəsində praporşik rütbəsi verilsin. Onlar xidmət üçün birinci Azərbaycan süvari diviziyasına, üçüncü Gəncə süvari alayına, Əlahiddə Zaqatala batalyonuna yüngül***

***artilleriya divizionuna göndərilsin. Gəncə praporşiklər məktəbini əla bitirdiklərinə görə podpraporşik İsrafil ağa Şıxlinskiyə, Bahadır bəy Vəkilova, Musa bəy Şəmşəddinskiyə, Həşim bəy Sultanova, Həmid Mustafayevə, Mahmud Mustafayevə, Əli ağa Şıxlinskiyə və Süleyman xan Sultanov-İlisuluya bayram münasibətilə pul mükafatı verilsin"*.**

Həmin ilin mart ayında bacarıqlı zabit Bahadır bəy Vəkilov üçüncü Gəncə süvari alayının tərkibində ölkənin Şərq-Qərb cəbhəsinə ezam olunur. O, Ordubad rayonunda yerləşən hərbi dəstənin komandanı təyin olunur. Naxçıvan və Şərur qəzasının komandanı rotmistr Kəlbalı xan Naxçıvanski 1919-cu il mayın 9-da Baş Qərargahın rəisinə göndərdiyi raportda praporşik Bahadır bəy Vəkilovun İran quldur dəstələrinə və daşnak generalı Andronikə qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlığı haqqında məlumat verir.

O yazır: ***"Martın 17-də Yaycı kəndinə hücum edən səksən nəfərlik İran quldur dəstəsi yerli əhalinin iki yüz yetmiş beş iribuynuzlu mal-qarasını oğurlamışdı. Praporşik Vəkilov mənim əmrimlə otuz nəfər süvari dəstə ilə onların dalınca gedib quldurları Araz sahilində yaxalamışlar. Güclü döyüşlərdən sonra mal-qara geri alınmış və on beş nəfər quldurun meyiti Araz sahilində qalmışdır.***

***Martın 26-da Parağa kəndinə hücum edən ermənilər iki yüz iribuynuzlu mal-qaranı aparmışlar və yeddi müsəlman kəndlisini öldürmüşlər. Səhərisi erməni kəndini süvari dəstəsilə mühasirəyə olan praporşik Vəkilov tələb etmişdir ki, mal-qara qaytarılsın və cinayətkarlar cəzalandırılmaq üçün bizə verilsin. Lakin ermənilər atəşlə cavab vermişlər. Praporşik Vəkilovun cəld və bacarıqlı komandanlığı sayəsində üç saatlıq döyüşdən sonra ermənilər mal-qaranı və cinayətkarları qaytarmışlar. Döyüşdən sonra məlum olur ki, praporşik Vəkilovun üç nəfər əsgəri yaralanmışdır.***

***Aprelin 10-da ermənilərin "qəhrəmanı" Andronik ingilislərlə danışdıqdan sonra Gorusdan Ordubadın 25 kilometrliyindəki***

***Karçevan kəndinə gəldi. Nizami erməni dəstəsi Ordubadın ayrı-ayrı kəndlərini zəbt etmək üçün Nüsnüs kəndinə hücum etdi. Praporşik Vəkilovun bacarıqlı döyüş əməliyyatı sayəsində Nüsnüs kəndi ermənilərdən təmizləndi. Digər müsəlman kəndləri də erməni hücumundan xilas oldu.***

***Aprelin 15-də ermənilərin nizami hərbi dəstəsi Ordubadın səkkiz verstliyindəki darvazaya yenidən hücum etdi. Erməni hərbi dəstəsinin güclü qüvvə ilə hücum etməsinə baxmayaraq, beş saatlıq ara verməyən döyüşdə düşmənin əksər qüvvəsi öldürüldü, qalanları isə qaçmağa məcbur oldu. Bu döyüşdə praporşik Vəkilov Bahadır bəyin yeddi əsgəri həlak oldu, on iki nəfər isə yaralandı.***

***Bütün göstərilənlərdən sonra xahiş edirəm ki, üçüncü Gəncə süvari alayının praporşiki Bahadır bəy döyüşlərə yüksək səviyyədə komandanlıq etdiyinə və qəhrəmanlığına görə ona podporuçik rütbəsi verilsin".***

Bundan sonra Respublika Mərkəzi Dövlət Arxivinin sənədlərində mərd kapitan Bahadır bəy İbrahim ağa oğlu Vəkilovun heç bir sənədinə rast gəlmək mümkün olmadı. Lakin Milli Təhlükəsizlik Nazirliyinin arxivində Bahadır bəy Vəkilova məxsus 21392 saylı çox nazik bir qovluq var. 1920-ci il iyunun 25-də həbs olunan Bahadır bəyin istintaq işini müstəntiq Akopcanov və Levitski aparıb. Sorğu-sual qısa və yığcamdır. Həbs vərəqində "cinayət xarakteri" qrafasının qarşısında oxuyuruq: "Müsavat ordusunun zabiti və rota komandiri olub. Güllələnsin!"

İstər-istəməz düşünürsən və təəccüb edirsən: öz xalqının milli ordusunda qulluq etmək nə vaxtdan cinayət sayılıb? Bu da XI Ordunun xüsusi şöbə rəisi, cəllad Semyon Pankratovun təsdiq etdiyi dərkənar: "Güllələnsin, hökm dərhal yerinə yetirilsin. 3 iyul 1920-ci il".

Bəli, torpağını yağılardan qoruyan iyirmi bir yaşlı mərd kapitan Bahadır bəy Vəkilovun ömrü belə bitdi.

Bu məşhur soyadın oğlunu Bakıda heç kəs tanımadı. Qazaxda ulu nəslin hərbçi, maarifçi oğulları haqqında səbirlə söhbət

edən Ədilə xanım Şıxlinskaya "nikolaydanqalma" bir albomu stolun üstünə qoydu. Albomun ilk səhifəsində çərkəzi geyimli cavan bir zabit şəkli... İri, ala gözləri necə də tanış və doğmadır. Mənim şəklə diqqətlə baxdığımı görən Ədilə xanım:

– Dayımdı, – dedi, – müsavat zabiti olduğuna görə bolşeviklər iyirminci ildə güllələyiblər.

Onun səsinə hopan təsvirəgəlməz kövrəklik, həzin bir qəm dalğası varlığımı titrətdi. Adam belə anlarda qarşısındakına təsəlli verməkdən də məhrum olur. Daxili təlatüm, vicdanın səsi olub keçmiş ədalətsizliyi, vəhşiliyi ittiham edir. Dərindən köks ötürüb, "heyf" deməkdən başqa əlindən bir şey gəlmir. Çünki nahaq qan tökənləri, heç nədən insan güllələdənləri ittiham etmək gecdir. O vəhşilikləri indi tarix mühakimə edir. Tarix öz səhifələrində onlara amansız cəza verir, gec də olsa əyrini – əyri, düzü – düz yazır.

Ağır qəm yükünün altından qurtarmaq xatirinə soruşdum:

– Dayınızın adı necədir, Ədilə xanım?

– Bahadır bəy Vəkilov, rütbəsi kapitan...

– Ola bilməz, – dedim. Özümdən asılı olmayaraq səsim bərkdən çıxdı. – Onda bu şəkillərə baxın, zəhmət olmasa...

Mən özümlə götürdüyüm bir qrup Milli Ordu əsgər və zabitinin iki fotoşəklini ona göstərdim.

– Bu, tən ortada oturan Bahadır dayımdı, – dedi. İkinci şəklə baxır: – Bu da odu, dayımdı... Bu şəkillər bizdə yoxdu. Sizdə hardandı? – deyə kədərlə soruşdu.

– Arxivdən tapmışam, – dedim.

– Oy, nə yaxşı iş görmüsünüz, çox sağ olun... Heyf dayımdan, cavankən, cəmi iyirmi bir yaşında güllələnib, heç evlənməyibmiş. Sizin tapdığınız şəklin arxasında yazılıbmı neçənci ildə çəkilib?

– 1919-cu ildə çəkilib, – deyə cavab verdim.

– Mənimlə yaşıddı dayımın şəkli, – dedi.

Ədilə xanım qəmli-qəmli köksünü ötürür. Ovcundakı xırdaca güllü dəsmalla nəmli gözlərini silir.

– Ədilə xanım, dayınız Bahadır bəyin nişanlısı, istəklisi olubmu?

– Mən bilmirəm, rəhmətlik anam danışardı, deyəsən olub.

– Mən bilirəm, – dedim, – olub. Dayınıza məxsus həbs qovluğunda dörd əl boyda məktub var. Onların da üzünü çıxartdırmışam. Sonuncu məktubu sevgilisi iyunun 24-də yazıb. Həmin gecə Bahadır bəyi Milyutin küçəsindəki dörd saylı evin üçüncü mərtəbəsində həbs ediblər. Orqan işçiləri əşyayi-dəlil kimi məktubları da işə tikiblər. İcazə verirsinizmi sonuncu məktubu oxuyum.

– Buyurun, əlbəttə...

***"Bahadır, sən niyə narahatsan? Neçə dəfə soruşdum, araya söz qatdın. Mən heç vaxt səni belə qəmli görməmişdim. Axı, sən özün dünən mənə yalvardın ki, görüşək. Mən bütün gecəni yata bilməyib sənə məktub yazıram. İndi mən sənə yalvarıram. Sabah mütləq görüşə gəl. Başa düşə bilmirəm, son günlər niyə sənin varlığın qəm-kədərlə doludur. Xüsusilə kədərli gözlərin məni yandırıb-yaxdı.***

***Dözəcəm, bütün gecəni Allahıma dua edəcəm ki, səhər tez açılsın, səni yenidən görüm, amma kədərsiz, qəmsiz. Həmişəki kimi təbəssümlü, gülərüz.***

***Dəryada çıraq yanır,***<br>
***Baxdıqca iraq yanır.***<br>
***Sevgi şirin şərbətdir,***<br>
***İçdikcə ürək yanır.***

***Sənin Səfurən".***

Təəssüf ki, açılan səhər onlara xoşbəxtlik nədi, heç görüş də qismət eləmədi. Kapitan Bahadır bəy Vəkilovun səhəri bolşevik zirzəmisində açıldı...

**MƏMMƏD AĞA MUSTAFA OĞLU VƏKİLOV** (1863-1939) Gürcüstan Mərkəzi Dövlət Arxivinin 1920-ci ilə qədərki sənədlərində adı hörmət və ehtiramla çəkilən Məmməd ağa

Vəkilov əsrin əvvəllərində – 1905-1906-cı illərdə Azərbaycan dilində qəzet açmaq üçün təşəbbüs göstərmişdi. O, "İqbal" adlı qəzeti dostu Cəlil Məmmədquluzadə ilə birgə nəşr etmək istəyirdi.

***"... Qafqazda türklərin mətbuatı ölü, bəlkə də yox bir halda idi. Onunçün biz tək öz dərdlərini qələmlə meydana qoymağa həris olan yazıçılar – gah bizim millətdən, gah qonşu millətlərdən – hökumətdən qəzet icazəsi istəməyə başladılar. Biz türklərdən bu icazəni istəyən – Bakıdan Əhməd bəy Ağayev idi, Tiflisdən belə icazə istəyən Məmməd ağa Vəkilov, Rəşid bəy İsmayılov idi və yenə bir Nuxa əhli idi ki, onun adı gərək Mustafayev ola: Batumidən Məmməd bəy Sancaqbəyzadə idi və Tiflisdən də mən idim"*** (*Cəlil Məmmədquluzadə. Xatiratım. Əsərləri, 3-cü cild, 1967, səh.666*).

Uzun yazışmalardan sonra Məmməd ağa "İqbal" adlı qəzeti buraxmağa dövlətdən icazə ala bilmişdi. Lakin qəzeti buraxmamışdır. Həmin dövrdə Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalını nəşr etmək təşəbbüsünü alqışlamış və demişdi ki, mən rəsmi dövlət qulluğunda çalışdığıma görə "İqbal"da xalqımızın nəfinə cəsarətli yazılar verə bilməyəcəyəm. Belə qəzetin də millətə, xalqa heç bir faydası olmayacaq. Yaxşısı budur ki, "Molla Nəsrəddin"i qoruyub saxlayaq.

Qafqaz canişinliyinin nəşr etdiyi kitab və məcmuələrdə göstərilir ki, Məmməd ağa Mustafa ağa oğlu Vəkilov Qori Seminariyasını bitirdikdən sonra az müddət kənd müəllimi işləyib. Bilik və bacarığına görə saray müşaviri vəzifəsinə də dəvət olunur. Məmməd ağa Baş Hərbi İdarədə türk dili tərcüməçisi, 1901-1917-ci illərdə isə Qafqaz canişinliyinin Dəftərxanasında Şərq dillərinin baş mütərcimi vəzifəsində işləyir. Məmməd ağa Vəkilov 1904-cü ildə "Xalq qanmağa asan olan füqəra əhalilərə məxsus vəba azarı haqqında bir inşadır" kitabını Azərbaycan dilinə tərcümə edir.

Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundovdan sonra Qafqaz canişinliyində yüksək vəzifədə çalışan üçüncü azər-

baycanlı Məmməd ağa Vəkilov olmuşdur. Məmməd ağa Vəkilov həm də Tiflisdəki Şərq dilləri üzrə zabit hazırlığı məktəbində türk dilindən dərs deyir. 1914-cü ildə həmin məktəbin müəllimi, general-mayor M.D.Qutorla müştərək "Türk dilinin qısa qrammatikası"nı tərtib edir.

1918-ci ilin mayında Azərbaycan Demokratik hökuməti yarananda Məmməd ağa Bakıya köçür. 1920-ci ilin aprel çevrilişinə qədər Respublika Parlamentində Dəftərxana İdarəsinin rəisi vəzifəsində işləyir.

## AZƏRBAYCANIN İLK ADMİRALI

***İnsanın ata-anası olmayanda ona yetim deyirlər. Daha böyük fəlakətdir ki, millət yetim qalsın. Yetim millət kimə deyirlər? Öz tarixini bilməyən millət yetimdir. Öz dahilərindən, böyük adamlarından xəbərsiz yaşayanlar yetim hesab edilirlər.***

***Biz elə bir xalqıq ki, böyük dahilər, dünya miqyasında şöhrət tapan adamlar yetirmişik, amma başqa millətlər ona sahib olmaq istəyiblər.***

*Əkrəm CƏFƏR,*
*professor*

### Bələdçi qızın dedikləri

İlk dəfə onun adını 1976-cı ildə Sevastopol şəhər muzeyində eşitdim. Bələdçi qız nəhəng bir kreyser şəkli önündə dayanıb 1853-1856-cı illər müharibəsinin qəhrəmanları haqqında məlumat verirdi:

– 1854-cü ilin mart ayında İngiltərə və Fransa Rusiyanın Balkanlarda güclənməsindən bərk narahat olmuşdu. Onların məqsədi Qara dəniz boğazlarını ələ keçirmək və Rusiyanın ticarət yollarını bağlamaq idi. Ona görə də hər iki ölkə müharibəyə qoşulub, Krıma qoşun çıxartdı. Sevastopol mühasirəyə alındı. O vaxtdan da Sevastopolun qəhrəmancasına müdafiəsi başlandı. Admiral İstomin, Naximov, Aslanbəyovun (axırıncı famili Aslambekov kimi tələffüz edilirdi) və rus əsgərlərinin qəhrəmancasına vuruşmasına baxmayaraq, ingilis və fransız qoşunları şəhəri aldılar. Təhkimçi Rusiyanın gücsüzlüyü və çürüklüyü ölkəyə baha başa gəldi. Bax, bu gördüyünüz şəkildəki vitse-admiral Aslanbəyov 1871-ci ildə üçüncü donanma ekipajının rəisi olanda Sevastopola dəmir yolu çəkilməsinə rəhbərlik etmişdi.

## Sənədlərdən soraq aldım

Bələdçi qız sözünə ara verib bildirdi ki, indi də o biri salona keçək. Tamaşaçıların bəzisi irəli durub admiralın portretinə baxıb keçirdilər. Mən isə şəklin önündə xeyli dayandım… Onun üzündə, gözündə qafqazlıya, daha doğrusu, azərbaycanlıya oxşarlıq axtarırdım. Etiraf edim ki, sövq-təbii bir hiss onun bizim xalqın oğlu olmasına məndə şübhə yaratmırdı. Əzəmətli duruşu, qafqazlılara məxsus burma bığları bəy nəsilli olmağından nişan verirdi. Çərçivənin aşağındakı qısa məlumatı oxudum: “Vitse-admiral A.B.Aslambekov. 1820-1900-cü illər”.

Bayaqkından daha geniş bir salona keçdiyimizdən hərə bir tərəfə çəkilib eksponatlara baxırdı. Bir nəfər sualları ilə bələdçi qızı bezikdirmişdi. Mən isə sual vermək üçün fürsət gözləyirdim. Bələdçi qız ondan canını qurtarmaq üçün deyirdi:

– Ay yoldaşlar, bir az yaxın gəlin, eksponatlara əl vurmayın, belə olmaz. Suallarınızı axırda verməyinizi xahiş edirəm…

Üçüncü, axırıncı salona keçməyimizi bildirəndə, mən dözə bilməyib ona yaxınlaşdım:

– Möhtərəm xanım, sizinlə bir məsələni aydınlaşdırmaq olarmı? – soruşdum.

Qu quşu kimi zərif olan bu incə məxluq heysiz halda:

– Buyurun, – dedi, – amma qısa olsun.

– Vitse-admiral Aslanbəyovun milliyyəti məni maraqlandırır, başqa heç nə…

– Bilmirəm, – deyib təəccüblə üzümə baxdı. – Necə məgər, rus deyil? Siz hardansınız?

– Bakıdanam, – dedim. – Zənnimcə, rus deyil.

– Deyilənə görə, bakılı da deyil. Onun erməni olduğunu deyənlər də var. Əgər sizi maraqlandırırsa, bir azdan otağa gələrsiniz. Otaqda aydınlaşdırarıq. Gərək ki, onun sənədləri saxlanılır…

Həmin gün əsas fond bağlı oldu. Yelena ilə səhər görüşmək üçün vədələşdik. Əsas fondun bu gün bağlı olmağı onu da narahat etmişdi. Ona görə də mənə belə bir məsləhət verdi:

– Vaxtınız varsa, bu gün “Sevastopol şəhər panoramı”na da baş çəkin. Admiral Aslanbəyov haqqında orada da məlumat olmalıdır.

…Panoram-muzeydə məni pis qarşılamadılar. Amma gəlişimin məqsədini biləndə dodaq büzdülər. Dedilər ki, admiral azərbaycanlı ola bilməz, o illərdə sizinkilərdən orduya, donanmaya götürmürdülər.

– Niyə götürməyiblər, – dedim, – götürüblər. Bu müharibədə (1853-1856-cı illər) hər birində beş yüz döyüşçü olan azərbaycanlı süvari alayları və ayrıca Qarabağ süvari alayı vuruşurdu. Məhz rus hərb tarixçiləri yazırlar ki, Rusiyanın Qafqaz cəbhəsində əldə etdiyi qələbələrdə Azərbaycan süvariləri xüsusilə fərqlənirdi. Onların bu qələbəsi Krım uğrunda gedən döyüşlərdə vəziyyəti bir qədər yüngülləşdirirdi. Bu müharibədə üç yüz əllidən çox azərbaycanlı zabit və əsgər təltif olunmuşdu. Vuruşanların da əksəriyyəti bəy, xan və ağa nəslindən olan oğullar idi.

Onlar barədə “Kavkaz” qəzeti 1849, 1852, 1855 və 1858-ci il nömrələrində kifayət qədər məqalələr verib. Hətta Peterburqda nizami orduda qulluq edən bir qrup azərbaycanlı döyüşçünün və zabitin siyahısını da dərc edib. Zadəgan nəslindən olan süvari korneti Məmmədəli Eyvaz Əli oğlu, Əliskəndər ağa Süleyman ağa oğlu, kornet Fərzəli Fətəli ağa oğlu, Abdulla Əsgər ağa oğlu, Murtuzəli Məhəmmədəmin oğlu, Əhməd Ağa oğlu, Miryusif bəy, Mir Məşədi bəy oğlu, Nəsrulla bəy Hüseyn bəy oğlu, Adəm Məhəmməd Hacı Məhəmməd oğlu, Əli Hacı Abbas oğlu, Hacı Əlhəngü oğlu, Hacı Məhəmməd oğlu və praporşik İsgəndər oğlunun döyüş yolu barədə qısa da olsa məlumat verilir.

Qəzetin 1855-ci il (№48) və 1858-ci il (№83) saylarında göstərilir ki, azərbaycanlı poruçik Əli Şaban oğlu Varşavadan Peterburqa ezam olunub. ***Polkovnik Ziya xan Mirzə Nəbi xan oğlu*** Sankt-Peterburqda yaşayır. Kornet İdris bəy Ağalarov Varşavada Əlahiddə Müsəlman alayında xidmət edir. Bundan başqa, “Kavkaz” qəzeti general İsmayıl bəy Qutqaşınlı, general-leytenant Cəfərqulu ağa Bakıxanov və onun hərbçi qardaşları barədə yazılar da verib.

* * *

Təəssüf ki, burada admiral Aslanbəyov haqqında heç bir sənəd tapılmadı. Amma muzey işçilərinin göstərdiyi ədəbiyyatdan öyrənə bildim ki, 1855-ci ildə Sevastopolda güclü döyüşlər zamanı admiral Naximov ağır yaralanıb.

Mərkəzi kitabxanaya gedib, admiral Naximovla bağlı kitabların hamısını sifariş verdim. Yazıçı Yuri Davıdovun "Naximov" sənədli povestində admiral haqqında belə bir epizoda rast gəldim: "Konsilium müəyyən etdi ki, Naximovun vəziyyəti ümidsizdir. Həkimlər onun bundan sonra yaşamasına inanmırlar. Ölüm yatağında Naximovun əzabı qırx saat çəkdi. Qırx saat tamam olanda canvermə başladı. Həmin anlar şahid kapitan-leytenant Aslanbəyovun gündəliyində dəqiq yazılıb: "İyunun 30-da saat on birə yaxın onun nəfəs alması daha da gücləndi. Otaqda sakitlik hökm sürürdü, həkimlər mübahisəni kəsdilər və otaqdakılar çarpayıya yaxınlaşdılar. Sokolov ucadan və çox aydın şəkildə dedi: "Budur, ölüm yaxınlaşır…"

Müəyyən an ötdükdən sonra Voyevodskinin sualına Sokolov bərkdən "keçindi" cavabını verdi. Hamı saata baxdı, saat on bir on dəqiqə idi".

Sonra yazıçı Yuri Davıdov izah edir ki, admiral Naximovun ən yaxın adamı kimi kapitan-leytenant Aslanbəyovun qeydlərində heç bir fantaziya yoxdur. Məhz ona görə də admiral Naximovdan yazan bütün rus tədqiqatçıları – akademik Y.V.Tarle, məşhur hərbi cərrah və həkim müharibənin iştirakçısı N.Piroqov və başqaları Aslanbəyovun qeydlərinə əsaslanırlar.

Sonralar "Naximovun bioqrafiyası" adlı əsərin müəllifi Aslanbəyov yazır ki, admiral Kornilovun həlak olmasını eşidən Naximov ona son borcunu verməyə getdi. Mən içəri girəndə Naximov ağlaya-ağlaya artıq ölmüş dostu Kornilovu öpürdü.

Sabahkı günü həyəcanla gözləməyə başladım.

Uzun bir dəhlizdən keçib, həyətə çıxdıq. Dolama pilləkənlərlə aşağı düşüb, qapısına "İnqilabaqədərki mühafizə otağı" sözləri yazılmış qapını açdıq. Yelena hər şeyi ağsaçlı qadına təfsilatı ilə

danışdı. Onun üzünə donuq bir ifadə çökdü. Əlindəki qələmi oynada-oynada təəccüb və kinayə ilə məni ötəri süzdü. Dodaqaltı nəsə mızıldanıb yerində qurcalandı. Qadının əhvalının pozulduğunu duyan Yelena öz işi üçün xahiş edən adamlar sayağı: "Rica edirəm, həm öz adımdan, həm də uzaq yol gəlmiş bu yoldaşın xətrinə etiraz etməyəsiniz. Görünür çox lazımdır…"

Yerindən durmaq istəməyən müdir ağır-ağır başını qaldırıb rişxəndlə:

– Bunun üçün Bakıdan buraya gəlmisiniz? – xeyli duruxub: – Axı, Aslambəyov erməni admiralıdır. Sizin axtarışınız, məncə, mənasızdır.

– Ola bilməz, – dedim, – əvvəla ona görə ki, admiralın familiyası Aslambəyov deyil, Aslanbəyov ola bilər. İkincisi də əgər erməni olsaydı, Aslanyan olardı.

– Siz bunları hansı mənbədən və nəyə əsaslanıb deyirsiniz?

– O illərdə heç bir erməni familiyasında "bəy" sözü ola bilməzdi. "Bəy", "xan" və "ağa" titulları ancaq müsəlman xalqlarına məxsusdur. Ermənilərin isə bircə titulu olub, "məlik", o da sonradan.

Fondun müdiri nə Yelenaya, nə də mənə bir söz demədən durub sol tərəfə buruldu, sonu görünməyən rəflər arasında yoxa çıxdı. Yelena əyilib arxasınca baxdı. Əlini dodaqlarının üstünə qoyub astadan yeniyetmə qızlara məxsus şıltaqlıqla:

– Dənizçilər demişkən, sükanı belə də tutun, hələlik biz onu məğlub eləmişik. Bircə, Allah eləsin, familiya məsələsi siz deyən kimi olsun.

Təxminən on-on beş dəqiqədən sonra əlində qədimi, boz bir qovluq geri qayıdan mühafizəçi yerində oturub, bizi heç görmürmüş kimi qovluğu özü vərəqləməyə başladı. Dərin, sükutlu bu yarımzirzəmi otaqda arabir açılan vərəqin səsi mənim intizarımı daha da artırırdı.

Handan-hana:

– Baxaq görək, – dedi, – Sizin sözlərinizdə həqiqət varmı? Şəxsən mən şübhə edirəm ki, belə bir görkəmli admiral müsəlman ola…

Mən daha dözə bilməzdim. Düzü, qorxurdum, özü baxıb, sonra da götürüb geri aparsın və desin ki, sizin dediklərinizdən əsər-əlamət yoxdur. Ayağa durdum. Əlimi cibimə salıb, pasportumu və vəsiqəmi çıxardıb stolun üstünə qoydum.

– Buyurun, – dedim, – mən bu iki sənədimi Sizə etibar edirəm. Siz də əvəzində qovluğu verin, özüm baxım.

Hiss elədim ki, mənim bu səbirsizliyim Yelenanın da xoşuna gəlmədi. O, astadan, narahatlıqla:

– Axı, belə olmaz… – dedi.

Müdir də dözə bilməyib bir az əsəbi:

– Nə deyirəm, buyurun, – deyib, qovluğu mənə verdi.

Admiralın şəxsi işinə baxır və gözlərimə inanmıram. İlahi, bu qədər saxtakarlıq etmək olarmı? Nəfəsim təngiyir, həyəcandan şəxsi iş əlimdə əsir. Dözə bilməyib sevincimi onlara da bildirmək istəyirəm.

– İcazə verin, Sizin üçün admiralın ad-familiyasını oxuyum.

Müdir dinmir, amma Yelena, mənim qələbəmi, sevincimi duyan Yelena:

– Buyurun, oxuyun, – deyə şən səslə cavab verir.

Oxuyuram:

***– Aslanbəyov İbrahim bəy Allahverdi bəy oğlu. Əsli belədir. Lakin qara tuşla bu ad-familiyanın üstündən xətt çəkilib, düzəliş edilib: Aslambeqov Avramiy Boqdanoviç, 1822-ci ildə Bakıda anadan olub. Əsl-nəcabəti isə ağalıqdır (zadəgan). Dini müsəlmandır. Sonuncu iki sözün üstündən də xətt çəkilib, əvəzində “pravoslavnıy” yazılıb. Əgər mümkünsə, icazənizlə admiralın şəxsi işindən qeydlərimi götürüm…***

Yelena sevinclə:

– Əlbəttə, olar, buyurun, əyləşib qeydlərinizi edin, mənə isə icazə verin mürəxxəs olum.

Mənim səmimi təşəkkürümü məmnuniyyətlə qəbul edən Yelena gedən kimi, müdir sərt səslə bildirir:

– Yoldaş, qeydlər götürmək olar, amma nadir fondda saxlanan şəxsi işin fotosurətini çıxartmağa icazə verilmir.

– Çox sağ olun, – dedim, – mənə bu qeydlər də bəs eləyər.

Belə bir qadağanın olmamasını mən çoxdan bilirdim. Lakin bu dar macalda mübahisəyə girişməyi artıq hesab etdim. Bir də ki, bu, mənə heç lazım deyildi. Başlıcası o idi ki, mən həmyerlim haqqında, ilk azərbaycanlı vitse-admiral barədə nadir tapıntı ilə üzləşmişdim. Bu sevinc mənə bəs idi.

## Mənbələrdən gələn səslər

***Bakı limanı getdikcə yararlı hala salınırdı… Gəmi heyətinin əksəriyyəti bakılılardan olurdu. Gəmiçiliyin inkişafı bakılıların çoxunu dənizə həmişəlik bağlayırdı. O illərdə şəhərə nadir ailələrə rast gəlmək olardı ki, dənizçi olmasın. Gəmilərdə qara fəhlə işləyən də çox idi. 1820-ci illərdə Bakı sularında artıq altmışa qədər yelkənli gəmi üzürdü.***

*Qılman İlkin,*
*xalq yazıçısı*

Azərbaycan Hərbi Dəniz Donanması tarixində ilk admiralımız Dərgahqulu bəyin oğlu Birinci Mirzə Məhəmmədxan olmuşdur. Təəssüf ki, hələlik onun fotoşəklinin əldə etmək və ömür yolunu tam öyrənmək mümkün olmamışdır. Lakin Hərbi Dənizçilik tariximizin səhifələrində Mirzə Məhəmmədin fəaliyyəti barədə az da olsa məlumat var. İyirmi yaşında Bakı xanlığına hakim olan Mirzə Məhəmmədxan atası Dərgahqulu bəydən sonra bərbad hala düşmüş iqtisadiyyatı qaydaya salmaqla yanaşı, Xəzərdə gəmiçiliyin inkişafına xüsusi qayğı göstərdi. İlk dəfə Bakı limanında gəmiçiliyin inkişafına da o başlamışdır. Bu məqsədlə Avropada gəmiqayırma təcrübəsini öyrənmək üçün səfərə də çıxmışdır. Sevimli yazıçımız Qalman İlkinin "Bakı və bakılılar" sənədli əsərindəki bir epizod tarixi fakt kimi qiymətlidir.

"Bir gün Mirzə Məhəmmədxan oğlu Məlik Məhəmmədi yanına çağırıb dedi:

– Qulaq as, Məlik Məhəmməd, gör nə deyirəm. Biz dəniz sahilində oturmuşuq, ancaq öz gəmilərimiz yoxdur. Balıqçı gəmiləri ilə iş aşmaz. Bizə elə gəmi lazımdır ki, üstümüzə düşmən gələndə onun qabağına çıxa bilək.

Atıcının sözlərindən heç bir şey başa düşməyən Məlik Məhəmməd gözlərini döyə-döyə ona baxırdı.

– Bunun üçün mən Avropaya getməliyəm, – deyib Mirzə Məhəmməd xan dərindən nəfəs aldı. – Yaxşı gəmiləri ancaq oralarda düzəldirlər.

– Bəs burada kim qalacaq? – Məlik Məhəmməd təəccüblə soruşdu.

– Necə yəni kim qalacaq? Sən!

Məlik Məhəmməd bəzi işlərə qarışaraq atasına kömək edirdisə də özünə qarşı bu cür etibarı heç gözləmirdi.

Həmin illərdə Bakıda olmuş səyyah Lerx yazırdı ki, Bakı xanı admiral Mirzə Məhəmməd xan tez-tez Langertə gedərək orada gəmi inşasına rəhbərlik edirdi.

O doqquzuncu əsrin əvvəllərinə məxsus başqa bir mənbə də mövcuddur. 1804-1806-cı illərdə Azərbaycana işğalçılıq məqsədilə gələn rus qoşunlarının burnunu Xəzərdəki hərbi dənizçilərimiz ustalıqla ovmuşdular. İran tarixçisi Nəsir Nəcimi yazır ki, Abbas Mirzənin cəsarətli sərkərdəsi, Bakının igid komandiri (əslində valisi) Hüseynqulu xan toplardan birini rus gəmilərindən azacıq aralı olan yerə çəkib, heyrətləndirici cəldlik və fədakarlıq göstərərək düşmənin bir neçə gəmisini top mərmisiylə dənizə qərq etmişdi.

Şübhəsiz ki, on yeddi yaşlı İbrahim bəy Aslanbəyovun Peterburqda Hərbi Dəniz Korpusunu bitirməsi də ilk admiralımız Mirzə Məhəmmədin arzu və istəyi ilə bağlı olmuşdur. Bakıxanovların ailə şəcərəsində Allahverdi adlı bir şəxs vardı. Bəlkə, İbrahim bəy Aslanbəyov həmin Allahverdi bəyin oğludur? Təəssüf ki, yüz yetmiş üç illik zaman məsafəsində bunu dəqiqləşdirmək

mümkün olmadı. Ancaq xatırlamaq istədik ki, o vaxtlar aşağı təbəqəyə məxsus ailənin on üç yaşlı oğlu Rusiyada oxumaq imkanına malik ola bilməzdi. Demək, ilk vitse-admiralımız İbrahim bəy Aslanbəyov Bakı xanlarının nəslinə mənsubdur. Şəxsi işindən zadəgan nəslinə mənsub olması barədə qeyd də bunu sübut edir.

Adətən ensiklopediyaya düşən hər hansı görkəmli fərdin, şəxsiyyətin harada doğulduğunu, hansı millətin oğlu olduğu yazılır. Nə məşhur naşir İ.D.Sitinin 1911-ci ildə nəşr olunmuş çoxcildli "Hərbi ensiklopediya"sında, nə də sovet dövründə çıxan hərbi dəniz ensiklopediyalarının heç birində admiral Aslanbəyov haqda bu cür məlumatlar yoxdur. Görünür, Rusiyanın hərbidəniz donanması tədqiqatçılarına belə görkəmli bir sərkərdəni özününküləşdirmək sərfəli olub. Niyə də olmayaydı? Axı, vitse-admiral Aslanbəyov həm də hərbi donanma tarixində görkəmli alim kimi tanınıb!

## Admiralın ömür yolu

Bəzi mənbələrdə, xüsusilə sovet dövründə nəşr olunan əsərlərdə Aslanbəyovun təvəllüdü 1820-ci il göstərilir. Fikrimizcə, bu da səhvdir. Çünki, 1917-ci il inqilabından əvvəl nəşr olunan mənbələrdə admiral İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyovun 1822-ci il sentyabrın 10-da Bakıda anadan olduğu göstərilir. Üç il Peterburqdakı Dənizçilik məktəbində təhsil alan İbrahim bəy oranı 1837-ci ildə (adı "Qırmızı lövhə"yə yazılmaqla) bitirmişdir. Baltik dənizində "Aleksandr Nevski" və "Prozergin" hərbi freqatlarında üzən miçman Aslanbəyov iki il "İmperator I Pyotr" sürətli hərbi gəmisində Daqerord yaxınlığında keçirilən təlimlərdə iştirak etmişdir.

1842-ci ildə Dənizçilik məktəbi zabitləri sinfini bitirən İbrahim bəy Qara Dəniz Donanmasının hərbi nəzarət gəmilərində üzmüş, Qara dənizin Şərq sahillərində baş verən toqquşmalarda iştirak etmişdir.

"Elbrus" hərbi gəmisinə komandirlik edən leytenant Aslanbəyov 1854-cü ildə düşmənin ticarət gəmilərini darmadağın etmək üçün dörd dəfə (30 iyun, 7 iyul, 3 və 6 avqust tarixlərində) dənizə çıxmış, avqust ayında isə desant gəmisinin döyüşən batareyasına komandirlik etmişdir. Bu xidmətinə görə ona kapitan-leytenant rütbəsi verilmişdir. Həmin il sentyabrın 13-dən müharibənin axırına kimi Sevastopol qarnizonunda olmuş, avqustun 27-də sonuncu hücumu dəf edərək kontuziya almışdır. Şərq müharibəsindən sonra Nikolayev limanında 36-cı donanma ekipajına komandirlik etmişdir.

Aslanbəyov 1860-1861-ci illərdə "Sokol" pərli korvet gəmisinin komandiri kimi Aralıq dənizində üzmüş və həmin gəmini Kronştadta gətirmişdir. 1863-cü ildə həmin korvetlə Nikolayev şəhərinə qayıdan İbrahim bəy iki ildən sonra "Retvizan" gəmisinə komandir təyin edilmişdir. Bir müddət məşhur vitse-admiral Butakovun zirehli eskadrilyasında qərargah rəisi olmuşdur.

Aslanbəyov 1869-1872-ci illərdə dəfələrlə müxtəlif ümumdövlət əhəmiyyətli məsələləri öyrənmək üçün toplanmış komitələrə sədr təyin edilmişdir. Estoniyaya ezam olunan İbrahim bəy gəmiçilik məktəblərinin yaradılması və ticarət gəmilərinin düzəldilməsi üçün yaranan komitənin üzvü olmuşdur.

1878-ci il yanvarın 1-də kontr-admiral rütbəsi veriləndə İbrahim bəy Aslanbəyov səkkizinci donanma ekipajının rəisi idi.

Onun tərcümeyi-halı həm admiral kimi, həm də hərbi dəniz tarixçisi kimi çox zəngindir. Əgər başqa hərbçinin ömür yolu ilə müqayisə etməli olsaq, ancaq general Əli ağa Şıxlinskinin artilleriya tarixindəki xidmətləri ona bərabər ola bilər. Ona görə ki, azərbaycanlı generallarından hərb elmi ilə məşğul olan ancaq Əli ağa Şıxlinski idi. Fərq bircə ondan ibarətdir ki, Əli ağa Şıxlinskinin elmi və hərbi fəaliyyəti Azərbaycanla daha çox bağlı olmuşdur. Admiral Aslanbəyovun elmi tədqiqatları isə rus hərb elmində geniş istifadə olunsa da, bu günə qədər bizə gəlib çatmamışdır. Daha doğrusu, özümüzdə nə tədqiqat olmuşdur, nə də təbliğat…

1872-ci ildə Birinci Pyotrun anadan olmasının 200 illiyi Rusiyada böyük bayram şənliyi kimi keçirilirdi. Bu münasibətlə ümumrus texniki sərgisində iştirak etmək və imperatorun kiçikavarlı gəmi dəstəsinə Moskvaya kimi rəhbərlik etmək həmyerlimiz Aslanbəyova etibar olunmuşdu.

1879-1882-ci illərdə İbrahim bəy gəmi heyətilə dövri-aləm səyahətinə çıxmışdır. O, Sakit okeanda dəmir zirehli hərb və buxar yelkənli itigedən gəmilərdən ibarət hərbi heyətə ("Minin", "Knyaz", "Pojarskiy", "Hersoq Edinburskiy", "Asiya" və "Afrika") rəhbərlik etmişdir. Aslanbəyov okeanda sürətlə hərəkət edən kreyserlərin və "uçan eskadrilya"nın orduda tətbiq edilməsinin təşəbbüskarıdır. O, məşhur admiral A.A.Popovun xahişi ilə sonuncu layihədə nəzərə almaq məqsədilə tələb və qüsurlarını, siyahısını tərtib etmişdir.

Admiral İbrahim bəy Aslanbəyov Sakit okean adalarında üzmüş, hətta Poleneziyanın xırda adalarını da dolaşmışdır. Onun şəxsi işində saxlanan rəy və xatirələrdən, xüsusilə dənizçiliyə aid inqilabdan əvvəlki ədəbiyyatdan məlum olur ki, Aslanbəyov öz heyəti və ümumiyyətlə, tabeliyində olanların arasında yüksək hörmət qazanmışdır. İllərin soldurduğu sənəddə ad-familiyasını oxuya bilmədiyimiz bir kontr-admiral yazır ki, rus adını yüksək tutan Aslanbəyov xarici ölkələrdə də yaxşı tanınırdı. O, gəmi heyətində ruh yüksəkliyi yaratmağı məharətlə bacarırdı. Hətta kiçik rütbəlilərin də şəxsi təşəbbüsünü qiymətləndirirdi. Açıq ürəkliliyi və qətiyyəti ilə çoxlarından fərqlənirdi. Aslanbəyovun gəmiylə səfərləri haqqında çoxlu lətifələr, eləcə də özünün danışdığı məzəli Şərq əhvalatları hələ də məşhurdur. Bu onun məşhur şəxsiyyət kimi nə qədər sevildiyini bir daha göstərir.

1884-cü ildə kontr-admiral İbrahim bəy Aslanbəyov Baltik komandasının kiçik flaqmanı təyin olunur. Üç il sonra – ***1887-ci il sentyabrın 22-də hərbi-dəniz donanmasındakı misilsiz xidmətlərinə görə ona vitse-admiral rütbəsi verilir.*** Bu ali rütbədən sonra Baltik donanması üzrə flaqman vəzifəsinə təyin olunan Aslanbəyov 1901-ci il dekabrın 7-də Peterburqda vəfat edir.

O, həmyerlimiz, böyük şərqşünas alim Mirzə Kazım bəylə dost olmuş dahi rus yazıçısı Lev Tolstoy isə onu axtarıb tapmış, admiral Naximovun həlakolma səhnəsini ona danışmasını xahiş etmişdir. Lev Tolstoy məşhur "Sevastopol hekayələri"ni yazarkən admiral Aslanbəyovun xatirələrindən bəhrələnmişdir. Ömrünün əlli ildən çoxunu hərbi dəniz donanmasında nümunəvi xidmətdə keçirən admiral İbrahim bəy Aslanbəyov Rusiyanın və xarici ölkələrin yüksək ordenləri ilə təltif olunmuşdur. Həmyerlimizin xidmətləri Serbiyanın "Takova" (1879), Rusiyanın "Müqəddəs Vladimir" (1854), I dərəcəli "Müqəddəs Stanislav" (1881), I dərəcəli "Müqəddəs Anna" (1883), "Ağ qartal" (1888), Yaponiyanın "Günəşin doğması" (1882), Havay dövlətinin II dərəcəli "Kalakiya" (1982) ordenlərinə layiq görülmüşdür.

1881-ci ildə imperator III Aleksandrın tacqoyma mərasimində iştirak edən Aslanbəyova hədiyyə olaraq qılınc verilmiş və birillik məvacibi həcmində pul mükafatı ayrılmışdır.

Hələ sağlığında – 1882-ci ildə Saxalində bir yarım ada, Oxot dənizində isə bir körfəz Aslanbəyovun adı ilə adlandırılmışdır.

Boris Maslenikovun 1986-cı ildə nəşr olunmuş "Dəniz xəritəsi nəql edir" kitabının 28 və 253-cü səhifələrində həmyerlimiz haqqında verilmiş qısa bioqrafik göstərici çox böyük əhəmiyyət kəsb edir. Əsaslı mənbələrdən topladığı faktları müəllif ilk dəfə oxucuya təqdim edir:

"***Aslanbəyov yarımadası.*** Oxot dənizi, Saxalin adası, 1882-ci ildə ekipaj kliper təsvir edilib. Sakit okean komandanı, eskadrilya kontr-admiralı İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyov soy adı ilə adlandırılıb. Soyadları xəritə üzərində hərif səhvi ilə yazılıb".

***Aslanbəyov körfəzi***. Oxot dənizi, Saxalin adası, 1882-ci ildə kəşf edilib və xəritəyə ekipaj, kliper "Plaston" kimi yazılıb. Elə həmin vaxtda da İ.A.Aslanbəyov soyadı ilə adlandırılıb.

***Aslanbəyov İbrahim bəy Allahverdi bəy oğlu (1822-1900)***. Dəniz korpusu məktəbini bitirib. 1837-1842-ci illərdə Baltik

dənizində üzüb. 1842-1861-ci illərdə Qara dəniz donanmasında "Selafail", "Varşava" gəmilərində, "Femistokol" briqində və başqalarında qulluq edib. 1865-1868-ci illərdə "Retvizan" gəmisinin komandiri, 1879-1882-ci illərdə Sakit okean eskadrilyasının komandiri olub. 1887-ci ildə vitse-admiral rütbəsi alıb.

**Qəribə və xoş bir təsadüf**

Min doqquz yüz doxsan üçüncü ilin sentyabr ayında Qax rayonuna ezamiyyətə getmişdim. Marsan kəndində Eldar Hacı oğlu Məmmədov soyadlı bir cavanla tanış oldum. İşi, sənəti ilə maraqlandım.

– Mühəndisəm, – dedi, – on dörd ildir ki, Saxalində neft çıxarıram, indi məzuniyyətə gəlmişəm.

– Təsadüfən orada "Admiral Aslanbəyov" adasına rast gəlməmisən?

– Elə mən o adada yaşayır və işləyirəm, – dedi.

– Nə yaxşı təsadüfdür, azərbaycanlı admiralın adını daşıyan adada həmyerlisi yaşayır və işləyir.

– Admiral Aslanbəyov məgər azərbaycanlıdır? Siz bunu dəqiq bilirsiniz?

– Bəli, – dedim, – o, xalqımızın ilk vitse-admiralıdır.

– Bu barədə bizim ada sakinləri arasında, qeyri-millətlərlə tez-tez mübahisəmiz olur. Familiya oxşarlığına əsaslanaraq mən və həmyerlilərim "admiral bizim xalqın oğludur" deyiriksə də, əlimizdə heç bir əsas yoxdur. Bilmirik nə vaxt yaşayıb, nə vaxt ölüb… Bir-iki dəfə məzuniyyətə gələndə rayonumuzun tanınmış ziyalılarından bu barədə soruşdum. Hamısı dedi ki, bizim elə admiralımız yoxdur.

Mən sevinclə:

– Var, – dedim, – Eldar, Saxalinə qayıdanda yolunu Bakıdan sal, görüşək, sənə admiralın fotoşəkillərini və bioqrafiyasını yazıb verim. Aslanbəyovun bizim xalqın oğlu olması haqqında əlində əsas dəlil olsun.

Məndən də artıq sevinən Eldar:

– Çox sağ olun, – dedi, – mən də admiral Aslanbəyovun haqqında qəsəbə kinoteatrında bir guşə düzəldəcəyəm.

## Admiral həm də alimdir

…Admiral İbrahim bəy Aslanbəyovdan yazan rus tədqiqatçısı onun haqqında "Admiral Naximovun bioqrafı kimi daha çox məşhurdur" sözlərini iftixarla qeyd edir. Təsadüfi deyil ki, İbrahim bəyin "Naximovun bioqrafiyası" adlı oçerki kitab kimi bir neçə dəfə nəşr olunmuşdur.

Admiral Aslanbəyovun elmi-publisistik əsərləri isə ayrıca tədqiqata layiqdir. Hərbi-dəniz donanmasının on doqquzuncu əsr tarixini araşdıran tədqiqatçıların əksəriyyəti mənbə kimi bu gün istifadə edirlər. Heç təsadüf deyil ki, 1889-cu ildə Sankt-Peterburqda "Vitse-admiral Aslanbəyovun yarıməsrlik yubileyi" adlı kitab da nəşr olunmuşdur. V.Fridriksin "Kontr-admiral Aslanbəyovun bayrağı altında üzən "Afrika kreyseri" adlı kitabı isə hələ 1880-ci ildə yenə Sankt-Peterburqda işıq üzü görmüşdür. Q.İ.Syominin "Sevastopol" tarixi oçerkləri kitabında (1955-ci il) isə admiral Aslanbəyovun gündəliyindən geniş istifadə olunmuşdur.

Knyaz-admiral V.İ.Baryatinski isə həmyerlimiz haqqında yazdığı xatirələrində qeyd edir ki, Şərq və Qafqaz lətifələrini o qədər maraqla danışardı ki, mühasibi qəşş edənə qədər gülərdi. Bu lətifələr indi də dənizçilərin dillərində gəzir.

On doqquzuncu əsrin altmışıncı illərindən başlayaraq admiral İbrahim bəy Aslanbəyovun "Morskoy sbornik" jurnalında silsilə elmi-publisistik məqalələri dərc olunmuşdur: "Sokol" üçdorlu hərb gəmisinin Aralıq dənizindən Kronştadta səfəri" (1861), "Admiral Naximov" (bioqrafik oçerk, 1868), "Admiral A.S.Qreyq" (1873), "Admiral A.İ.Panfilov" (1874), "Dəniz akademiyasının 50 illiyinin bayram edilməsi münasibətilə nitqi" (1877), "Kontr-admiral Aslanbəyovun səfərləri haqqında məlumatlar"

(1881) və başqa məqalələrdən tədqiqatçılar bu gün də bəhrələnirlər.

Şübhəsiz, admiral İbrahim bəy Aslanbəyov Rusiyada yaşayıb işləməsəydi, belə ali rütbəyə çata bilməzdi. Yüz altmış ildən sonra onun bizim üçün qaranlıq qalan ömür yoluna, hərbi fəaliyyətinə az da olsa işıq sala bildik. Bu isə son dərəcə vacibdir. Yoxsa, qeyri-millətlər, xüsusilə naxələf qonşularımız bizim unutduğumuz məşhur oğullarımızı özününküləşdirir, üstəlik də..: “Sizin tarixiniz kasıb olub, görkəmli hərbçi oğullarınız yoxdur” – deməklə xalqımızı təhqir edirlər.

…Hərbi Donanma tariximiz onsuz da kasıbdır. Bu sahədə fəaliyyət göstərən oğullarımız az qala barmaqla sayılacaq qədərdir: Kontr-admiral Cəlil Cavadov (1916-1980) və vitse-admiral Həmid Qasımbəyov (1923-2005), kontr-admiral Rafiq Əsgərov (1949), Eduard Hüseynov (1938-1993), vitse-admiral Şahin Sultanov. Vəssalam!

Nə yaxşı ki, bu boşluğu müəyyən qədər də olsa doldurmaq üçün İbrahim bəy Aslanbəyov kimi admiralımızı gec də olsa tapa bilmişik.

## GENERAL SƏMƏD BƏY MEHMANDAROV BİRİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ

***Əsgər komandirinə, zabit generalına oxşamalıdır. Komandir döyüşkəndirsə, əsgəri də ona oxşayır, zabit zəifdirsə, əsgəri də əfəldir.***

***Səməd bəy MEHMANDAROV,***
***tam artilleriya generalı***

Sərkərdə kimi ümumxalq şöhrəti qazanmış Səməd bəy Mehmandarov və Əli ağa Şıxlinskidən danışanda talelərində oxşarlıq olan iki məşhur musiqi xadimlərimizi də yada salmamaq olmur.

Üzeyir bəy Hacıbəyli və Müslüm Maqomayev. Onların hər ikisi bir ildə anadan olub, eyni seminariyanı bitiriblər. Müəllim işləyiblər, musiqi yazıblar. Tale Üzeyir bəyə övlad qismət eləməyib. Üzeyir bəylə Müslümün taleyindəki oxşarlıqları hər iki görkəmli hərb xadimlərinin həyatında da görmək olar. Əli ağa Şıxlinski də övlad həsrəti ilə dünyadan köçdü. Mehmandarova və Müslüm Maqomayevə tale övlad da verdi, şöhrət də. Amma Əli ağa və Üzeyir bəyə nisbətən onlar dünyadan tez köçdülər.

Hər ikisi on səkkiz yaşından əsgər çəkməsi geyindi, Peterburqda oxudu, Port-Arturda, Birinci Dünya müharibəsində vuruşdu. 1918-ci ildə ilk milli Azərbaycan ordusu yaratmaq kimi şərəfli iş də hər iki şöhrətli generala qismət oldu. Tam artilleriya generalı ali rütbəsi aldılar.

Azərbaycanın dörd qartalı XIX əsrin sonlarından ötən əsrin ilk illərinədək daima xalqına sidqi-ürəklə xidmət etdi.

Birinci Dünya müharibəsi başlananda Mehmandarov Vladiqafqazda yerləşən 21-ci piyada diviziyasının komandanı idi. Bu vaxta kimi həyatında çox hadisələr olmuşdu. Əsirlikdən qayıdan kimi yeddinci Şərqi-Sibir artilleriya briqadasının komandanı təyin edildi, az sonra ona daha məsul vəzifə verildi – üçüncü Sibir ordusunun korpusunda artilleriya rəisi oldu. 1908-ci il Səməd bəyə bu yüksək vəzifədən başqa daha iki böyük sevinc bəxş etdi. Həmin il iyulun on üçündə ona general-leytenant rütbəsi verildi. İkinci, ən çox yadda qalan sevinc isə İrkutsk şəhərində noyabrın 18-də qismət oldu. Tale uzun intizardan sonra ona oğul payı göndərdi. Səməd bəy ona Pir adı verdi. Sonralar İqor adını daşıyan Mehmandarov otuzuncu illərdə general ataya görə çox ağrılar, əzablar çəkdi. 1988-ci ildə Bakıda görüşdüyüm İqor Mehmandarovun danışdığı bir epizodu heç vaxt unuda bilmirəm.

– Atamdan sonra tez-tez anamı və məni ÇK-ya çağırardılar. Min cür hədələyici suallar verirdilər. Suallara düzgün cavab versək də, verməsək də bizi döyüb incidirdilər. Bir dəfə lap cana doyub soruşdum ki, axı, məni niyə incidirsiniz, niyə döyürsü-

nüz? Bu sualların cavablarını mən həqiqətən də bilmirəm, yalandan nə deyim? Mənə əzab vermək, ağa qara demək kimi bir şeydir. Mənim günahım nədir?

– Günahınız ondan ibarətdir ki, özünüzə yaxşı valideyn seçməmisiniz.

Qəribə məntiqdir, nə vaxtdan övlad özünə valideyn seçib ki?..

Amansız təqiblərdən, yersiz sorğu-suallardan xilas olmaq üçün 1930-cu ildə, keçmiş Azərbaycan Demokratik Respublikasının Hərbi naziri olmuş general atanın ölümündən sonra ana Yelizaveta Nikolayevna və oğul İqor Azərbaycandan Sankt-Peterburqa köçməyə məcbur olurlar. Lakin Sovet ÇK-sı burda da onları təqib edirdi.

"…1937-ci ildə Mehmandarovlar ailəsi Peterburqdan Saratova sürgün edilir. Lakin İqor Mehmandarov burda da təqiblərdən yaxa qurtara bilmir. Adi yaşayış şəraitinin olmaması, ağır maliyyə çətinlikləri, günaşırı XDİK-ə çağırış onların həyatını burda katorqadan da dözülməz edir.

Lakin bütün bunlarla kifayətlənməyən cəlladlar Mehmandarovlar ailəsindən yenə də əl çəkmirlər. 1941-ci ildə Y.N.Mehmandarovanı oğlu ilə birgə yenidən Sibirə sürgün edirlər. Bu dəfə o, alman faşistləri tərəfindən partladılan qatarda həlak olur. Oğlu isə sürgündən sonra uzun illər Kalininqradda yaşayır. 1977-ci ildə isə Azərbaycanın hökumət rəhbəri onu Bakı şəhərinə dəvət edir.

…Azərbaycan Respublikası Baş Prokurorluğunun vəsatətinə əsasən vaxtilə Mehmandarovların yaşadığı Sankt-Peterburq və Saratov vilayət prokurorluqlarına sorğu göndərildi. Həmin işlər öyrənildi və nəhayət, İqor Səməd bəy oğlu Mehmandarova, anası Yelizaveta Nikolayevna Mehmandarovaya rəsmi sənəd aldıq. Gec də olsa xalqımızın tarixindən qara ləkələrin biri də silindi" (E.Hacıyev. "Bir qara ləkə də silindi" məqaləsi, "Xalq qəzeti", 8 iyun 1993-cü il).

* * *

1910-cu ilin ılıq may günlərindən birində uzun ayrılıqdan sonra doğma Qafqaz Səməd bəyi qəhrəman oğul kimi qoynuna aldı. O, mayın 24-də Tiflisdə yerləşən Birinci Qafqaz ordusunun korpusunda artilleriya rəisi təyin edildi. İyulun 31-də həmin korpusda artilleriya müfəttişi, 1913-cü il dekabrın 31-də isə iyirmi birinci süvari diviziyasının rəisi oldu.

Birinci Dünya müharibəsinin ilk günlərindən Səməd bəy Mehmandarovun diviziyası Üçüncü Qafqaz ordu korpusunun sıralarında döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə rus ordusu heyətində böyük şöhrət qazandı. Bu döyüşlərdə onun rəhbərlik etdiyi səksən birinci Abşeron və səksən üçüncü Samur süvari alayları xüsusilə fərqləndi.

1914-cü il dekabrın on birində İkinci Qafqaz ordu korpusunun komandiri təyin olunan Səməd bəy Mehmandarov Sane çayı sahillərində, Prasnışa, Xolma və Vilno yaşayış məntəqələri uğrunda alman qoşunları ilə ağır və müvəffəqiyyətli döyüşlər apardı. Bütün müharibə boyu onun rəhbərlik etdiyi korpus düşmənə bir ədəd də olsa top itkisi vermədi.

Səməd bəyi yaxından tanıyan mayor Hacıağa İbrahimbəyli 1946-cı ildə çap etdirdiyi "Səməd bəy Mehmandarov" adlı kitabçasında iftixarla yazır: "Rəsmən hərbi akademiya təhsili almayan bir zabit yalnız böyük bacarığı sayəsində, hərbi xidməti çox sevdiyinə, döyüşlərdə misilsiz qoçaqlıq və hərbi məharət göstərdiyinə, işinə can yandırdığına və son dərəcə təmiz adam olduğuna görə bu qədər böyük rütbə sahibi ola bilərdi. Səməd bəy Mehmandarov da belə bir zabit idi.

Əla səviyyəli topçu olan Səməd bəy Mehmandarova rəsmən topçu akademiya təhsili olan bir artillerist, həmçinin görkəmli qoşun generalı olan hər bir ərkani zabiti həsəd apara bilərdi".

Birinci Dünya müharibəsi illərində general Səməd bəy Mehmandarov alman diviziyalarını bir neçə dəfə ciddi surətdə məğlub edən istedadlı sərkərdə kimi ad-san qazanmışdı.

1914-cü il sentyabrın on beşində keçirilən Lodz döyüş əməliyyatında general Mehmandarov xüsusilə şöhrət qazandı. Alman generalı Makenzenin qoşunları güclü hücumla İvanqorod şəhərini alıb sürətlə Lodz şəhəri uğrunda əməliyyata başladı. Güclü təzyiqlə geri çəkilən rus qoşunları çox ağır vəziyyətdə idi. Bütün mövqelərdə hücuma keçən almanlar dayanmadan irəliləyərək geri çəkilən rus qoşunlarının bir hissəsinin qarşısını kəsib mühasirəyə almağa çalışırdı.

Səməd bəy Mehmandarovun iyirmi birinci piyada diviziyası səksən birinci Abşeron, səksən ikinci Dağıstan, səksən üçüncü Samur və səksən dördüncü Şirvan polklarından təşkil olunmuşdu. Bu polkların hərəsinin özünəməxsus döyüş ənənəsi vardı.

Korpus komandanı öz bölmələrinin müqəddəratı üçün təşvişə düşərək Mehmandarovun diviziyasının nə vəziyyətdə olduğunu telefonla ondan xəbər aldı. Səməd bəyin telefonda komandirlərə məxsus mərd, qısa cavabı belə oldu: “Vəziyyət ağırdır. Hücuma keçirəm!”

İki rus diviziyasının geri çəkildiyi belə bir ağır vaxtda Mehmandarovun diviziyası böyük bir iştahla irəliləyən düşmənə ağır zərbələr vurub onu geri oturtdu. Üçgünlük ağır döyüşlərdən sonra İvanqorod şəhərinin hüdudlarına çatıb onu həmləyə aldı. Birinci Dünya müharibəsi tarixində Səməd bəy Mehmandarovun bu müvəffəqiyyətli əməliyyatı alman generalı Makenzenin sürətli planlarını puça çıxartdı. Geri çəkilən iki rus diviziyasını isə mühasirəyə düşmək rüsvayçılığından xilas etdi.

Həmin əməliyyat zamanı general Əli ağa Şıxlinski Ali Baş Komandan tərəfindən səhra toplarının baş müfəttişi yanında xüsusi tapşırıq generalı vəzifəsini daşıyırdı. Sonralar o yazırdı:

“O zaman rus ordusunda yeni bir silah olan ağır səhra toplarının vəziyyətini yoxlamaq və bu sahədə fəaliyyətə istiqamət vermək üçün Qərb cəbhəsinə çağırıldım. Mən yeddi korpusu gəzdim və müəyyən etdim ki, yalnız Səməd bəy Mehmandarovun korpusunda ağır topların vəzifəsi düzgün başa düşülmüş və bu toplar həmin vəzifələrə uyğun yerləşdirilmişdir. Bu iş kor-

pus top müfəttişinin yox, məhz, mahir topçu olan Mehmandarovun şəxsi təşəbbüsünün nəticəsi idi”.

***Bu müharibədə misilsiz qələbələrə görə Səməd bəy Sadıq bəy oğlu Mehmandarova 1915-ci il martın 22-də tam artilleriya generalı rütbəsi verildi. Onun qəhrəmanlığı 1914-cü il sentyabrın 27-29-da apardığı müvəffəqiyyətli döyüşlərə görə üçüncü dərəcəli “Müqəddəs Georgi”, 1915-ci il yanvarın 2-də ikinci dərəcəli “Müqəddəs Vladimir” (qılıncla birgə) ordenlərinə və 1915-ci il sentyabrın 9-10-da İvanqorod şəhəri uğrunda apardığı döyüşlərə görə brilyantla bəzədilmiş “Georgi silahı” ilə təltif olunub.***

General Səməd bəy Mehmandarovun döyüşlərdə göstərdiyi igidliyi və əsgərlərlə xoş rəftarı haqqında onun müasirləri iftixarla söhbət açırlar. Mayor Hacıağa İbrahimbəyli yazır ki, general Mehmandarov Birinci Dünya müharibəsi zamanı olduqca çox şöhrət qazanmışdı. Vuruşmaların ən qorxulu dəqiqələrində onun misilsiz soyuqqanlılığı və hədsiz qoçaqlığı rus ordusunda məşhur olmuşdu.

Mehmandarov ədalətli, namuslu, düz danışan adamları sevir, onlara kömək göstərir, ürəyi düz olmayanlara qarşı isə amansızlıq edirdi. Mehmandarovu şəxsən görənlərin hamısı təsdiq edir ki, ona tabe olanların hamısı ondan oddan qorxan kimi qorxar, lakin onu sevər, ona inanardılar.

Səməd bəy Mehmandarov həmişə əsgərlərlə xoş rəftar edərdi və daim onların qayğısına qalardı***. “Mehmandarov nadir artilleriyaçıdır”. Bu üç kəlmə söz Qırmızı Bayraqlı Qafqaz Ordusunun komandanı İ.E.Yakirə məxsusdur.*** Onu 1925-ci ildə Birləşmiş Azərbaycan Hərbi Məktəbində müəllim işləyən Səməd bəyin şəxsi işinə komandan İona Yakir öz dəst-xəttilə yazıb. İnqilab illərində Mehmandarovun həyatı çox təlatümlü keçib. Nə yeni hökumət, nə də onun adamları ona inam gətirməyiblər. Hər yerdə “Çar generalı”, “Müsavat naziri” kəlmələri sərt sillə kimi onun və silahdaşlarının üzünə çırpılırdı. Həmin o narahat illərdən – 1920-ci il iyunun 4-də Səməd bəy Mehmandarovun öz əli ilə doldurduğu iki vərəq kağız qalıb. Bolşeviklərin tələbi ilə doldurduğu “Həbs vərəqləri” Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanılır.

## General Mehmandarovun anketi

Həyatda o, boyca balaca, iki yerə daranıb ayrılmış ağsaqqallı bir adam idi. Həmişə kiçik ayaqlarına görə xüsusi dəridən tikilmiş yüngül çəkmə geyərdi.

Deyirlər ki, 1923-cü ildə ağsaqqallı generalı… əlində süpürgə Bakıda görüblər. Altmış yeddi yaşlı general, Müsavat hökumətinin hərbi naziri kimi iki il keçdiyi həmin bu küçəni süpürüb adamlardan utanaraq, Azərbaycan Fövqəladə Komissiyasına qeyd olunmağa tələsirdi. Özü də həmin gün. Qoy görsünlər ki, o yerindədir, heç hara getməyib, heç yana qaçmayıb.

Deyirlər ki, belə olub. Hər ehtimala qarşı, bizim əlimiz çatan nəşrlərdə bu yoxdur, ancaq adamların yaddaşında bu qalıb. Uzun müddət belə hesab edirlər ki, öz tariximizi, onun bütün keçidlərində bilmək bizə o qədər də lazım deyil, əgər biz onu bütün ziddiyyətləri ilə – lap həqiqət olsa belə – yazsaq, "düz başa düşmərik". Lakin oxşarlığın şüası, çəkilmələr zamanı sualtı daşlar təmizlənən kimi, həqiqəti üzə çıxardaraq bütün qaranlıq künclərə işıq saçır.

1999-cu ilin oktyabr ayında tədqiqatçı axtarışı məni çekistlərin arxivinə gətirib çıxartdı. Burda "keçmiş adamlar"ın anketləri arasında illərin soldurduğu və Mehmandarovun xırda hərflərlə yazdığı ikiqat bir vərəq saxlanılır. O illərin qoxusunu verən bir vərəq…

Səməd bəy Sadıq bəy oğlu Mehmandarov xidmət illərini necə və harada keçirib, anketdən bunu müəyyən etmək olmur. Ancaq anketin "təltiflər" sütununa görə mühakimə yürütsək, məlum olur ki, o üçüncü və dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni, brilyantla bəzədilmiş qızıl silah, birinci, ikinci və dördüncü dərəcəli Stanislav ordeni, birinci, ikinci və üçüncü dərəcəli "Müqəddəs Anna" ordeni, ikinci, üçüncü, dördüncü dərəcəli Vladimir ordeni, "Ağ qartal"[1], "Aleksandr Nevski" ordeni və s.

[1] Rusiyanın ali "Ağ qartal" ordeni ilə birinci dəfə azərbaycanlılardan 1888-ci ildə ilk vitse-admiral İbrahim bəy Allahverdi bəy oğlu Aslanbəyov (1822-1900), ikinci dəfə tam süvari generalı Hüseyn xan Kəlbalı xan oğlu Naxçıvanski (1863-1919), sonuncu – üçüncü dəfə isə Səməd bəy Sadıq bəy oğlu Mehmandarov təltif olunmuşdur – ***Ş.N.***

təltif olunub. Burda sütunda yer qurtarıb, aşağıda yazılıb "və başqaları…". Aydın məsələdir ki, ordenlər də əla hərbi xidmətə və qəhrəmanlığa görə verilirdi.

Sonra isə anketdə bir yığın sual var. Köhnə ***orduda sonuncu rütbəniz və vəzifəniz? Tam artilleriya generalı, İkinci Qafqaz korpusunun komandiri.*** 1917-ci il fevral inqilabı zamanı harda olmusunuz? Alman cəbhəsində. Bəs Oktyabr inqilabı zamanı? Petroqradda, 1917-ci ilin mayında üzv seçildiyim yaralıların Aleksandrovsk komitəsində. 1918-ci ildə altmış iki yaşlı generala Azərbaycan Demokratik Respublikasının müsavatçılar kabinetində hərbi nazir vəzifəsini təklif eləyirlər və Mehmandarov bu təklifi qəbul eləyir. 1920-ci il iyunun dördündə onu həbs eləyib iki aydan sonra general Əli ağa Şıxlinski ilə birgə Moskvaya göndərirlər. Moskvaya çatan kimi hər ikisini həbs edib, Butursk həbsxanasına salırlar. Qatarı qarşılayan Azərbaycanın Moskvadakı səlahiyyətli nümayəndəsi Behbud bəy Cavanşir, Nəriman Nərimanova təcili teleqram vurur ki, sizin dediyiniz qatar gəldi, lakin generallar yoxdur. Stalinlə telefon əlaqəsi saxlayan N.Nərimanov onları tapdırır.

Hazırda bizim Milli Təhlükəsizlik Nazirliyinin arxivində saxlanan Stalinin məktubu (surəti) generalları xilas edir. Stalin o vaxtkı Ümumittifaq Fövqəladə Komissiyasının birinci müavini H.Q.Yaqodaya 1920-ci il 12 noyabr tarixli məktubunda yazır:

***"Yoldaş Yaqoda! Hərtərəfli yoxlamadan sonra məlum oldu ki, Azərbaycan generalları S.Mehmandarov və Ə.Şıxlinski heç nədə günahkar deyillər. Xahiş edirik onların həbsxanadan buraxılmasına nail olasınız. İ.Stalin"***

Ad gününü həbsdə "qeyd eləyir". Yeddi gündən sonra azad edilib Daimi Artilleriya Komissiyasının üzvü kimi səhra qərargahına göndərilir. Burda Səməd bəy Mehmandarovun əliylə yazılıb:

"Bir dəfə də istintaq aparmadılar, heç bir ittiham irəli sürmədilər". Bəs nəyə görə?! Rus qanı tökməyib, bolşeviklərə qarşı çıxış eləməyib, hərbi andı qəbul eləyib. Əsgərdən generala kimi

yüksəlib. Sədaqətlə xidmət edib. 1921-ci il noyabrın on səkkizində Səməd bəy Sadıq bəy oğlu və Əli ağa Şıxlinski Nərimanov və Qarayevin xahişi ilə Bakıya – Hərbi Dəniz Xalq Komissarlığına qaytarılır.

1923-cü ildə yazılmış anketində göstərir: "İndiki vaxtdan tapşırıqçı və pul kağızlarının bölgüsü üzrə komissiyanın sədriyəm".

Bildiyimiz kimi, pul isə hər adama etibar edilmirdi. Deməli, təmiz adam olub.

Əgər Oktyabr inqilabına rəğbət bəsləmişsinizsə, bunun səbəbi nə olub? (Həmin dövrdə sizin etiqadınız?)

**Cavab**: – Bu suala ən yaxşı cavab – aprelin iyirmi səkkizində, yəni çevriliş günündə mənim Azərbaycan ordusuna verdiyim əmrdir. Bu əmr və eyni dərəcədə hərbi hissə rəislərinə göndərilmiş teleqramlar Qərargah arxivində qorunur və onlar mənim Sovet hakimiyyətinə münasibətimi müəyyənləşdirə bilər.

**Otuz doqquz nömrəli sual**: – Hansı səpgili fəaliyyətə daha çox meyil edirsiniz?

**Cavab:** – Mənim yaşımda sakit və dinc fəaliyyətə…

Bəli, əsrin əvvəllərindən başlayan müharibələr, inqilab turanları ağsaqqal generalı yormuşdu. Üstəlik də ölkəmizə varvarcasına soxulan istilaçı bolşeviklərin poqonunu daşımaq istəmirdi.

## Təlatümlü günlərdə

"1923-cü ildə ağ saqqallı general Səməd bəy Mehmandarovu əlində süpürgə Bakıda görüblər". Anketdən bu sözləri oxuyanda istər-istəməz adamın ürəyi ağrıyır. Orduda minlərlə əsgərə, zabitə silah tutmağı öyrədən igid bir sərkərdəni bu qədər alçaldan kimlər idi? Şöhrəti Rusiyanın sərhədlərini aşan Port-Artur, Birinci Dünya müharibəsinin qəhrəmanı ilə ömrünün ağsaqqal çağında belə "ciddi zarafat" edən şəxsdə vicdandan əsər-əlamət vardımı?

1920-ci ildən şahid qalmış bir sənədlə bu sualların cavabını tapmaq olur. Orada oxuyuruq:

"Qızıl Ordu demək olar ki, bütünlüklə döyüş qabiliyyətindən məhrum və daşnak zabitlərinin komandası altında olan erməni könüllülərindən ibarət idi. Bu dəstələr ətraf kəndləri qarət edir, bununla müsəlman kəndlərinin qəzəbinə səbəb olurdular".

– Bax, bu "könüllülər" Bakıya varid olandan sonra cəmi il yarım Azərbaycan Demokratik Respublikasının hərbi naziri olmuş Səməd bəy Mehmandarovu xalqın gözündən salmaq üçün əlinə süpürgə verib küçə süpürtdürmüşlər. Bu "könüllü" düşmənlərimiz yaxşı bilirdilər ki, Səməd bəy Mehmandarovu xalq sevir və inanırdılar ki, onları "azadlıq gətirən könüllülərin" zülmündən məhz Səməd bəy Mehmandarov kimi generallar qurtara bilər. Bu ümidlə də hələ 1919-cu il iyunun altısında Qusar, Quba, Xaçmaz, Dəvəçi əhalisinin keçirdikləri mitinqin qətnaməsində deyilirdi:

"Biz əminik ki, hökumətimiz (Azərbaycan Demokratik Respublikası – ***Ş.N.***) döyüş meydanında özünün son üzvünü itirənədək ona etibar etdiyimiz qadın və qızlarımızı qara generalların əlinə verməyəcək. Nikolayın mənafeyi naminə Port-Artur civarlarında fərqlənmiş şücaətli hərbi nazirimiz Mehmandarov bizim mahalda olduğu vaxt gözündə yaş damlaları süzüldüyü halda, vətən, qadın və qızlarımızın, ana və bacılarımızın namusunun müdafiəsi yolunda canından belə keçməyə hazır olduğunu bildirmişdi".

Lakin işlər elə dəyişdi ki, dünyanın çərxi sanki tərsinə fırlandı. Dindarla dinsizin müharibəsi başlandı. Bu döyüşlərdə biz çoxlu tələfat verdik. Azərbaycanı içəridən "yeyən" S.Şaumyan, T.Amirov, S.Lalayev, Avakyan kimi daşnaklar quzu cildində qurd olmuşdular. Onların quldur dəstələri gecələr müsəlman evlərinə hücum edir, kəndlilərin silahını əlindən alır, vəhşicəsinə döyürdülər. "Azərbaycan" qəzeti (17 mart 1919, №67) yazırdı ki, Qafqaz cəbhəsindən türk orduları geri çəkilərkən Türkiyə erməniləri Qafqaz erməniləri ilə birləşdilər və birlikdə həmin hissələrə qarşı hücuma keçərək, onlara zərbə vurmağa başladılar. Bir tərəfdən Andronikin, digər tərəfdən isə erməni generalla-

rı Dro, Keri, Muradın dəstələri hərəkət edirdilər. Tərk edilmiş bütün müsəlman kəndləri qarət olunmuş və yerlə yeksan edilmişdi. Məhz bu vaxt Şaumyanın və Avakyanın fitnəkarlığı sayəsində Şamaxı hadisələri başlandı. Şaumyan tərəfindən bu hadisələrlə əlaqədar yazılmış məktub Gəncə komendantının əlinə düşdü. Bu məktubdan Şaumyan və Avakyanın daşnak olduqları açıq-aydın görünürdü… Bu faciələrin hamısı on səkkiz-on doqquzuncu illərdə olmuşdu. 1920-ci ilin aprelində isə qırx minlik milli Azərbaycan Ordusu yetmiş iki minlik XI Ordunun qarşısında tab gətirə bilmədi. Ona görə ki, otuz minlik piyadası, on min süvari qoşunu olan milli Azərbaycan Ordusu Zəngəzurda, Qarabağda, Qazax və başqa qəzalarda daşnak quldurları Hamazaspın və Andronikin dəstələrinə qarşı vuruşurdu.

On birinci ordu ilə Azərbaycana gələn marşal S.A.Krasovski "Жизнъ в авиации" kitabının (1960) yetmişinci səhifəsində bu barədə yazır: "XI Ordu hissələri Azərbaycan sərhədinə, Yalama stansiyasına yaxınlaşanda Bakıda müsavat hökumətinin iclası gedirdi. Bu iclasda hərbi nazir general Səməd bəy Mehmandarovdan hökumət başçısı Nəsib bəy Yusifbəyov soruşur: "Müsavat ordusu düşmənin hücumunun qarşısını ala biləcəkmi?" Nazir də sualı sualla qarşıladı: "Hansı düşməni nəzərdə tutursunuz? Daşnakları, yaxud menşevikləri? Menşevikləri deyirsinizsə, ümid var. Hərgah XI Ordunu nəzərdə tutursunuzsa, onda bizim gücümüz yalnız birdəqiqəliyə kifayətdir, cənab nazir".

General S.Mehmandarovun "Gücümüz birdəqiqəliyə kifayətdir" – deməkdə haqlı idi. Yeni gələn bolşevik hökuməti Azərbaycana hücum edən ordusunun sayının 72 min olduğunu elan etmişdi. Lakin 1921-ci ilin fevral ayında məlum olmuşdur ki, Azərbaycana hücum edən bolşevik-daşnak ordusunun sayı 300 min nəfərdir. Bu da o zamankı Azərbaycan əhalisinin hər beş, yaxud altı nəfərindən birinə iki nəfər əlisilahlı rus əsgəri düşürdü. Leninin rəhbərlik etdiyi sovet imperiyası beynəlxalq hüquq normalarını kobud şəkildə pozduğunu başa düşərəkdən Azərbaycana hücum edən ordunun sayını gizlətmişdir.

Şübhəsiz ki, hərbi nazir general Səməd bəy Mehmandarov gələn istilaçı ordunun sayının 72 min yox, 300 min olduğunu kəşfiyyat vasitəsilə öyrənmişdir.

Sual olunur, hələ sayı 40 minə çatmayan, üstəlik də həmin vaxtlarda Qarabağ, Naxçıvan, Qazax və başqa bölgələrdə erməni-daşnak ordusu ilə döyüşlər aparan Azərbaycan ordusu, həm də 300 minlik istilaçı bolşevik-daşnak ordusu qarşısında tab gətirə bilərdimi? Əlbəttə, yox!

"Sovet tərəfinin xahişi ilə xüsusi olaraq Bakıya dəvət olunmuş türk hərbi generalı Xəlil Paşanın (1882-1957) da daxil olduğu XI Qızıl Ordu 1920-ci il aprelin 28-də döyüşsüz Bakıya daxil oldu. Xəlil Paşa Dərbənddən bu tərəfə yol boyu bütün dayanacaqlarda çıxış edib əhalini Sovet hakimiyyətini müdafiə etməyə çağırırdı. İstanbul hərbi muzeyində Xəlil Paşanın RSFSR, MİK tərəfindən təltif olunduğu gümüş xəncər saxlanılır" (Z.Bünyadov. "Elm və həyat" jurnalı, 1988, №10).

Bu yaxınlarda Türkiyədə səfərdə olmuş oyma işləri üzrə sənətkar dostumuz Firidun Seyfəddinoğlu 1976-cı ildə İstanbulda çap olunmuş "Azərbaycan" adlı bir kitab da gətirmişdi. Kitabın müəllifi Kərim Odər xalqımızın ədəbiyyatından, tarixindən, iqtisadiyyatından və Azərbaycan Demokratik Hökumətinin fəaliyyətindən məhəbbətlə söhbət açır. Kitab həm də xalqımızın görkəmli oğullarının nadir fotoşəkilləri ilə bəzədilib. Orda Səməd bəyin on səkkiz-iyirminci illərdəki fəaliyyəti haqqında məlumat və bizə məlum olmayan fotoşəkli də verilib. Kərim Odər yazır:

"Cümhuriyyət hökuməti əsgəri işlərə əhəmiyyət vermişdir. Hərbiyyə nəzarətə general Səməd bəy Mehmandarov təyin olunmuşdu. Onun müavini rus artilleriyasının "Allahı", general-leytenant Əli ağa Şıxlinski, baş qərargah rəisi isə Məmməd bəy Sulkeviç idi. İyirmi dörd min piyada, süvari, topçu və digər siniflərdən ibarət hər cür silahla yaraqlanmış bir ordu qurulmuş və Xəzər dənizində kiçik bir flot hazırlanmışdır. Bakıda, Lənkəranda və Qarabağda milli hökuməti tanımaq istəməyənlərdən

acı bir vəziyyət yaranmışdır. Rus və digər düşmən qüvvələri itaət və nizam altına alınmışdır".

İyirminci illərdə general Səməd bəy Mehmandarovun təlatümlü keçən günlərini o vaxtlar on iki yaşı olan oğlu Pir daha yaxşı xatırlayırdı: "Atam aprelin iyirmi yeddisində parlaman iclasından qayıdıb özümüzlə aparmaq üçün anamın hazırladığı çamadanları gördükdə dedi ki, bunları boşalt, heç yerə gedəsi deyilik. Anam: "Nə danışırsan? Necə gedəsi deyilik? Bilirsən ki, səni güllələyəcəklər?"

Atam cavab verdi ki, parlamanın son iclası qurtaranda "Hümmət" fraksiyası lideri Əliheydər Qarayev mənə yaxınlaşıb əmin etdi ki, Səməd bəy, getmə, qal! Heç yerə getmə. Söz verirəm ki, başınızdan bir dənə də tük əskik olmayacaq. Qal bizimlə işlə…

Anam isə etiraz edib dedi: "Ola bilər ki, sənə heç nə eləməzlər, amma oğlunun taleyi, gələcəyi, mənim vəziyyətim?.."

Atam qəti səslə: – Heç yerə getməyəcəyik, – dedi. Anam inadla: – Axı, qatar Biləcəridə gözləyir…

Atam: – Bizsiz də gedərlər. Vətəndən ayrılmağa heç bir əsasım yoxdur, – cavabını verdi.

Doğrudan da Biləcəridə müsavat hökumətinin başçılarını Tiflisə aparacaq qatar atama görə saat yarım gözləmişdi".

Tədqiqatçılar Səməd bəy Mehmandarovun tərcümeyi-halından danışanda iyirmi birinci ildən iyirmi dördüncü ilə kimi olan fəaliyyətindən, demək olar ki, sükutla keçirlər. 1920-ci ilin avqustun birindən Səməd bəy Mehmandarov Əli ağa Şıxlinski ilə birlikdə baş qərargahda işləmək üçün Moskvaya göndərilir. Şıxlinski Ali Artilleriya Məktəbində gələcəyin marşalı L.A.Qovorova, N.D.Yakovlevə, M.N.Çistyakova, baş artilleriya marşalı N.N.Voronova və başqalarına dərs deyir. Səməd bəy Mehmandarov da Artilleriya Nizamnaməsi hazırlayan komissiyanın tərkibinə daxil edilir, həm də Hərbi Akademiyada taktikadan dərs deyir. İyirmi birinci ilin payızında Azərbaycana qayıdan hər iki general Respublika Hərbi Komissarlığının sərəncamında saxlanılır. Əli ağa Şıxlinski bu barədə daha dəqiq məlumat verir: "İyulun on

səkkizində biz ikimiz də Bakıya yola düşüb, iyulun iyirmi ikisində gəlib Bakıya çatdıq. Bakıda biz Azərbaycan Sovet Qoşunları Qərargahına daxil edildik. Bundan başqa hər ikimiz Azərbaycan Komandirlər Məktəbində topçuluqdan – Mehmandarov rus, mən isə Azərbaycan dilində dərs deməyə başladıq. Qarnizon rəisi öz sədarəti altında olaraq, "Bakı Qarnizonu Hərbi-Elmi Cəmiyyətinin təşkili haqqında" əmr verdi. Mən sədr müavini təyin edildim. Qarnizon rəisi özü sədrlik etmirdi, adətən iclasları mən aparırdım. Mehmandarov isə bu cəmiyyətin üzvlüyünə təyin edilmişdi".

Bəs iyirmi üçüncü ildə general Səməd bəy Mehmandarovun əlinə süpürgə verib küçə süpürtdürən kimlər idi? Mərkəzdə oturan Stalin əmr vermişdi ki, müsəlman ziyalıları arasında təmizlənmə aparılsın. Bakıda solların mövqeyini möhkəmlədən, Nərimanovun məsləkdaşlarına qarşı mübarizəni gücləndirən AK(b) P Bakı Komitəsinin katibi L.Mirzoyan, S.Orconokidze, A.Mikoyan, A.Qutin onun əlaltıları və içərimizi qurd kimi gəmirən bir qrup keçmiş daşnak havadarları Stalinin əmrini canla-başla yerinə yetirirdilər. Həmin ildə onlar Nərimanovu da Bakıdan perik salmışdılar. Onlar yaxşı bilirdilər ki, Nərimanov general Səməd bəy Mehmandarovu sərkərdə kimi çox yüksək qiymətləndirir.

***Mərhum general-mayor Akim Əli oğlu Abbasov:***

– Mənim bəxtim gətirib ki, üç il məşhur sərkərdə, Rusiya-Yaponiya və Birinci dünya müharibələrinin qəhrəmanları Mehmandarovun və Şıxlinskinin tələbəsi olmuşam. Onların mühazirələri o qədər maraqlı olurdu ki, diqqət kəsilirdin, çalışırdın ki, bir sözü də buraxmayasan. Hərb işinə dərindən bələd olmaları heyrətə gətirirdi adamı. Artilleriya və riyaziyyat biz kursantların ən çox sevdiyi fənlər idi. Niyə? Əlbəttə, ona görə ki, bu fənlərdən mülahizələri sevimli müəllimlərimiz general Səməd bəy Mehmandarov və general Əli ağa Şıxlinski oxuyurdu. Onların erudisiyası, hərbi işin, xüsusilə də artilleriyanın nəzəriyyə və praktikasının ən mürəkkəb məsələlərini son dərəcə aydın və hərtərəfli başa salmaq qabiliyyətləri dinləyiciləri heyrətləndirir, vəcdə

gətirirdi. Elə bir kursant tapılmazdı ki, döyüşlərdə dəqiq komandir əmrləri, igidliyi ilə hər bir əsgəri və zabiti qəhrəmanlığa ruhlandıran bu şanlı sərkərdələrin həyat və fəaliyyətini dərindən öyrənməsin.

Bu qoca generallar ağlasığmaz dərəcədə zəhmətsevər idilər, özlərinin ağır peşələrini ürəkdən sevirdilər, sadiq idilər sənətlərinə və qibtə ediləcək bir səbirlə hisslərini gələcəyin gənc zabitlərinə aşılamağa çalışırdılar.

## SƏMƏD BƏY MEHMANDAROV CÜMHURİYYƏT DÖVRÜNDƏ

*Ağqvardiyaçı general Denikin 1919-cu ildə sərhədlərimizə yaxınlaşaraq cümhuriyyətimizə hədə-qorxu gəlirdi. Dövlətimiz və xalqımız onların təhdidlərinə əhəmiyyət vermirdi. Bir ziyafət vaxtı general Denikinin təhdidlərindən söhbət açılmışdı. Dövlətimizin, xalqımızın və ordumuzun fikirləri eyni idi: gələcəkləri varsa, görəcəkləri də var. Ziyafətdə onların hamısı müdafiə naziri general Mehmandarlıya qulaq asırdılar. Möhkəm iradəli 63 yaşlı qoca aslan ayağa qalxır. Ətrafına baxıb deyir: "Əziz övladlarım, general Denikinin təhdidlərinin nə mənası var, nə də qiyməti. Denikin məni rus millətindən, çardan və ordusundan yaxşı tanıyır. Və çox yaxşı bilir ki, mənim rəhbərlik etdiyim rus ordusu daimi digər rus ordularından üstün olmuşdur. Övladlarım, mən bütün gəncliyimi, gücümü rus ordusuna sərf etdim.* ***Nə xoşbəxt insanam ki, ixtiyar yaşımda millətimin ordusunu yaratmaq mənə nəsib oldu. Qurduğumuz orduya komandanlıq edirəm. Mənim komandanlıq etdiyim orduya qarşı Denikin cəsarət edib vuruşmaz. Narahat olmayın və işinizlə məşğul olun.***

***Nağı bəy ŞEYXZAMANLI,***
***1919-cu ildə Azərbaycan***
***hökumətinin***
***əks-kəşfiyyat idarəsinin rəisi***

Qırx altı il çar ordusuna xidmət edən Səməd bəy Mehmandarov 1917-ci ildə martın 28-də tam artilleriya generalı rütbəsində istefa verdi. Onun sonuncu vəzifəsi İkinci Qafqaz ordusuna korpuslar qrupunun komandanı idi. Mütəxəssislərin fikrincə, bu,

ordu komandanı vəzifəsinə bərabərdir. Birinci Dünya müharibəsində iki ildən çox korpusa komandanlıq edən Səməd bəy o qədər məharətli döyüşlər aparırdı ki, İkinci Qafqaz ordu korpusu "General Mehmandarovun qrupu" kimi şöhrət qazanmışdı. Xüsusilə, Vilno (Vilnüs şəhəri) istiqamətindəki əməliyyatlar onu şöhrətin zirvəsinə qaldırmışdı. On il ərzində (1904-1915-ci illərdə) Səməd bəy əla xidmətinə görə üç dəfə general rütbəsi almışdır: 1904-cü il oktyabrın 22-də general-mayor, 1908-ci il iyulun 13-də general-leytenant və 1915-ci il martın 22-də tam artilleriya generalı. Qısa müddətdə generallıq pillələrini keçmək və sürətli təltifat hərb aləmində çox nadir hadisədir.

Hərbi akademiya təhsili olmayan eloğlumuzun imperiya ordusunda belə sürətlə irəliləməsinin ilkin səbəbi qoçaqlığı və güclü hərbi-elmi məharəti olmuşdur. Səməd bəy Mehmandarov tam artilleriya generalı kimi ali rütbəyə layiq görülən ilk azərbaycanlı idi.

Səməd bəy Mehmandarova məxsus Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədlərində (f.407, s.1, iş 51) göstərilir ki, o, iki dəfə Ali Hərbi Akademiyada təhsil almaq üçün təşəbbüs göstərmişdir. Birinci dəfə 1879-cu il aprelin 16-da Peterburqdakı Mixaylovski Artilleriya Akademiyasına, ikinci dəfə isə 1881-ci il avqustun 1-də Baş Qərargahın Nikolayev Akademiyasına qəbul imtahanı vermişdir. Hər ikisində də qəbul oluna bilməmişdir.

Həmin illərdə şovinist N.İ.İlminskinin (1822-1891) ruslaşdırma siyasəti imperiyada çox güclü idi. Qeyri-rəsmi də olsa ali məktəblərə belə dini müsəlman olanları götürmürdülər. Şübhəsiz ki, Səməd bəy də rus olmadığına görə imtahandan keçməmişdir.

Bu siyasətdə məqsəd Kazan, Orenburq, Ufa tatarlarının, Orta Asiya, Qafqaz türklərinin və Krım tatarlarının yaşadıqları quberniyalara təbliğatçılar göndərib ruslaşdırmanı təbliğ edirdilər. Xristianlığı yaymaq yalnız hərbi sahədə deyil, maarifçilikdə də aparılmasına baxmayaraq İlminskinin üsulu, yəni müsəlmanları xaçpərəst eləmək fayda vermədi.

Görkəmli ədəbiyyatşünas-alim Firidun bəy Köçərli yazır ki, doğrudur, Kazan şəhərində və onun həvalisində tatarlardan bəziləri pravoslav dinini qəbul elədilər. Amma onlar həqiqi müsəlman olmadıqları kimi, həqiqi rus da olmadılar, əbədi mürtəd oldular, böyük səhvlərə düçar qıldılar.

Xalis zadəgan ailəsində Azərbaycan tərbiyəsi almış Səməd bəy Mehmandarov cavan olmasına baxmayaraq ali təhsil almaq naminə nə dinini, nə də dilini xaçpərəstə dəyişmədi.

Bunların hamısı general Səməd bəyin fevral burjua inqilabına qədərki fəaliyyətidir. İmperiya dağılandan sonra Vladiqafqaz şəhərinə gələn Mehmandarov 1917-ci il avqustun 7-də yaralılara yardım edən "Aleksandr komitəsi"nin üzvü seçilir. Ömründə ilk dəfə hərbi xidmətə son qoyub dinc həyat sürməyə başlayır. Cəmi bir neçə ay sakit yaşayan Səməd bəy 1918-ci il avqustun əvvəllərində Vladiqafqazı tərk etməli olur. Şimali Qafqazda Sovet hakimiyyəti quran bolşeviklərlə işləməkdən imtina edən Səməd bəy Mehmandarov hərbi Gürcüstan yolu ilə Bakıya gəlir.

1918-ci il noyabrın 1-də Azərbaycan hökuməti Hərbi Nazirliyin yaradılması haqqında qərar verir: "Respublika hökuməti yanında Hərbi Nazirlik təsis edilsin. Nazir portfeli Nazirlər Şurasının sədrinə təqdim edilsin. Ona müavin isə general Səməd bəy Sadıq bəy oğlu Mehmandarov təyin edilsin".

Milli ordu quruculuğunda əsas vəzifə və çətinliklər barədə general Səməd bəy Mehmandarov həmin il noyabrın 7-də bir saylı əmrini verir:

"Azərbaycan Respublikası Nazirlər Şurasının qərarı ilə mən Hərbi Nazirin müavini təyin edilmişəm. Bu barədə Hərbi Nazirliyə elan edirəm. Vəzifələrimin icrasına başlayarkən mənim görməli olduğum o böyük işin bütün ciddiliyini, mürəkkəbliyini və çətinliyini yaxşı anlayıram. Ancaq bu iş görülməlidir və Hərbi Nazirliyin qarşısına çıxan bütün çətinlikləri birgə fəaliyyət və vəzifəyə təmiz münasibət bəslənildiyi halda aradan qaldırmaq mümkündür.

Döyüşən ordunun yaradılmasının uğuru bütünlükdə bu işin düzgün qurulmasından asılıdır. Hamını birgə, səmimi fəaliyyətə dəvət etməklə mən bütün səviyyələrdə olan rəislərin əsas diqqətini qoşunlarda təlim və tərbiyəyə, onlarda möhkəm intizamın aşılanmasına, işə məsuliyyət və məhəbbət hisslərinin, xidməti mülkiyyətə marağın oyadılmasına, qayda-qanuna riayət edilməsinə və nəhayət, tabeçilikdə olanlara qayğıkeş və mehriban münasibət göstərilməsinə çağırıram.

Yalnız bu keyfiyyətlərin varlığı ordunun yaradılmasını, gənc respublika tərəfindən ona böyük xərclər çəkilməsini doğrulda bilər və belə bir ordunun yaradılması üçün mən heç bir çətinlikdən çəkinməyəcəyəm. Qoşunların bütün təminat və təchizatının vaxtında ödənilməsi mənim daimi diqqətim altında olacaqdır".

1918-ci il dekabrın 25-də Azərbaycan Demokratik hökumətinin qərarı ilə tam artilleriya generalı – Səməd bəy Mehmandarov Hərbi nazir, dekabrın 29-da isə general-leytenant Əli ağa Şıxlinski Hərbi nazirin müavini təyin edildi. Həmin il dekabrın 24-də nazir hərbi salamlaşma barəsində belə bir əmr verir:

***"Sırada, eləcə də sıradan kənarda olarkən əsgərlərin azərbaycanca salamlaşması – bir sözlə "Salam", cavabı isə "Əleyküm salam" olmasını bütün zabitlərə əmr edirəm.***

***Təltif zamanı əsgərə deyilməlidir: "Mərhəba!", əsgər cavab verməlidir: "Çox sağ ol!"***

**Hərbi nazir, tam artilleriya generalı**
**Səməd bəy Mehmandarov.**
**Baş qərargah rəisi polkovnik Həbib bəy Səlimov".**

* * *

Görkəmli sərkərdəmizin Azərbaycana gəlişini, dar gündə xalqın dayağı olmasını əsgərlər böyük sevinclə qarşılamışdır. İl-yarım fəaliyyətdə olan milli ordumuzda iyirmi bir azərbaycanlı general xidmət etmişdir. Onlardan yalnız ikisinə – Teymur bəy Novruzova və Səməd bəy Mehmandarova əsgərlər şərqi qoşmuşlar:

Qafqaziyaya şan gəlir,
Dərdlərə dərman gəlir.
Aç köksünü, qarlı Qafqaz,
Sevdiyin Səməd gəlir.

* * *

Çoxdan bəri gözlədik,
Qafqaziyanı əfv et, yaşa.
Onun sizə salamı var,
Minlər yaşa, Səməd paşa.

* * *

Aslan ürəkli Səməd paşamız,
Şanlı komandan, sənsən babamız.
Sənə qurban olsun ata-anamız
Al bir düşməndən türkün qanını.

* * *

Yetmiş il əl vurmadığımız üzümüzə “tamamilə məxfidir” qrifilə bağlanan Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində generalımız haqqında belə şərqilər çoxdur. Bu şərqilərdən hiss olunur ki, xalq öz xilaskarını gözləyirmiş.

Səməd paşa sərdarımız,
Qan axıdar xəncərimiz.
Düşmənləri qəhr edərik,
Yurdlarını məhv edərik,
Biz bir tabor əsgərlərik,
Pək şanlıyıq.

* * *

Sağ ol, Səməd paşa, səni min yaşa,
Vətənin üstündə oldun tamaşa.
Səməd paşa əsgərlərin padəri,
Çağırır silah başına irəli.

Azərbaycanın taleyi həll olunduğu bir vaxtda müdafiə naziri kimi məsul vəzifəyə gələn Səməd bəy Mehmandarov qarşıda duran çətinlikləri çox yaxşı dərk edirdi. Yüz illərlə əsgəri qüvvəsi olmayan bir xalqa qısa vaxtda nizami ordu yaratmaq ağır və məsuliyyətli iş idi. Bir tərəfdən də bu dar gündə Azərbaycanın ətrafı düşmənlərlə əhatə olunmuşdu. Dağılan imperiyadan Azərbaycana heç nə qalmamışdı. Nə silah, nə əsgəri qüvvə, nə də qışlalar vardı. Tərəddüd, şübhələr, bəzən də inamsızlıq altmış iki yaşlı ixtiyar generala əzab verirdi. Amma qəlbindəki inamı, güclü vətənpərvərliyi hər şeydən üstün idi. Bu inam güclü dağ seli olub tərəddüd və şübhələri yuyub aparırdı. Ana vətənə olan sonsuz bir məhəbbətlə o, kürsüyə qalxmışdı.

Səməd bəyin səlis danışığı, mərd siması, vətən təəssübkeşliyi ilə yana-yana danışması ziyalı qadınlarımızdan birinin – Məryəm xanım Bayraməlibəyovanın yaddaşında əbədi qalmışdır:

– Kürsüdə, gözqamaşdırıcı şüaların düşdüyü yerdə general Səməd bəy Mehmandarov dayanmışdı. Ağarmış saçları, nurani sifəti daxili kamillikdən xəbər verirdi. Bu gün o, hərbi nazir vəzifəsinə təyin edilməyinə razılıq verməli idi. Respublikanın fəaliyyətinin elə ilk günlərindən generala təkidlə müraciət etmişdilər ki, belə bir məsuliyyətli vəzifəni öz üzərinə götürsün. O isə hər dəfə qətiyyətlə bu təklifi rədd etmişdi. Ona görə yox ki, çətinlik çəkəcəkdi. Dərk edirdi ki, indiyə qədər çarın etibarsız saydığı müsəlmanları, hərbi mükəlləfiyyətə layiq görmədiyi xalqı indi yeni sənətə hazırlamalı idi. Bu ona bənzəyirdi ki, yaşlı, ahıl bir adama yazı yazmağı öyrədəsən. Yox, yox, yüksək təşkilatçılıq keyfiyyətinə malik olan keçmiş çar generalını belə çətinliklər qorxuda bilməzdi.

***...Səməd bəy Mehmandarovu bu addımı atmağa vadar edən isə qarşısı alınmaz, çox qüvvətli bir hiss idi – Vətən məhəbbəti. Azca həyəcanla dediyi "Üzərimə götürdüyüm bu müqəddəs vəzifəni yerinə yetirməyim üçün bütün gücümü və bacarığımı sərf edəcəyəm!" – sözləri yerdən alqışlarla qarşılandı. Onun yan-yörəsində parıldayan günəş şəfəqləri bu günün bayram əhvali-***

***ruhiyyəsini daha da artırırdı. "Generalın bu müdrikliyi təzimə layiqdir. Allah özü onu bizə xilaskar yollayıb", – deyə hörmət əlaməti olaraq başımı endirdim.***

* * *

Tapılan hər bir sənəd, fotoşəkil yenidən yazılacaq Azərbaycan tarixinin sanballı səhifəsi olacaq. Xüsusilə, hərbi tariximizdəki boşluğun doldurulması suveren dövlətimizin özülünü qoyan gənclərimizdə daha çox maraq doğurur. Çünki bu sahə uzun illər araşdırılmamış, "tamamilə məxfi" qalmış və hətta lazımsız bir tarix kimi öyrənilməmişdir. Öyrənilən və öyrədilən isə yalnız "böyük qardaşımızla", bir də nankor qonşumuzla "dostluq səhifələrimiz" olub.

Yetmiş il əl vurmadığımız 1918-1920-ci illərin arxiv qovluqları açıldıqca bizə məlum olur ki, il yarım fəaliyyətdə olan Milli Ordu tariximiz çox zəngin olmuşdur. O da məlum olur ki, hərb tariximizi zənginləşdirən general Səməd bəy Mehmandarov, Əli ağa Şıxlinski, Həbib bəy Səlimov, Məmməd bəy Sulkeviç, şahzadə Əmir Kazımxan Qacar, topoqraf-general İbrahim ağa Vəkilov… bir də Azərbaycanın əsgər və zabitləri idilər.

Şöhrətli generalımız Səməd bəy Mehmandarovun bu illərdəki (1918-1920) fəaliyyəti xüsusilə böyükdür. Onun yeni ordunun yaradılmasındakı müstəsna rolu, 1918-ci il dekabrın 25-də Azərbaycan xalqına müraciəti, əsgər, zabitlər qarşısında ata nəsihətli çıxışları və nəhayət, güclü Vətən təəssübkeşliyi qırx minə yaxın əsgəri olan nizami ordu yaratmağa səbəb oldu.

Həyatı və fəaliyyəti hələ də lazımınca tədqiq olunmamış general Mehmandarovun haqqında araşdırmalar apardıqca təkcə o illərin sənədlərində yox, qəzetlərin də səhifələrində çıxış və nitqlərinə rast gəlmək olar.

İlk hərbiyyə nazirimiz Səməd bəy Mehmandarov belə bir nitqlərdən birini 1919-cu il fevralın 25-də Azərbaycan Məclisi-Məbusanında da söyləmişdir. Generalın nitqi həmin il martın 7-də "Azərbaycan" qəzetində (131-ci nömrəsində) dərc olunmuşdur.

**Səməd bəy öz nitqində bugünkü ordumuzda da mənfi hal kimi qəbul edilən fərarilikdən söhbət açır və o vaxtlar orduda onun olmasını xüsusi qeyd edir: *"...Gəncədə son zamanlar bir adam qaçmışdır. Əhali özü qaçanlara nifrət edir və hətta çox vaxt olmuşdur ki, əsgərlikdən qaçanı döyüb geri gətirmişlərdir. Güman var ki, müsəlmanlarda olan fitri nizam və ədəbə görə vaxtilə heç kəs qaçmayacaqdır".***

Ümumi məzmunu vətənpərvərlik ruhi ilə dolu olan Səməd bəy Mehmandarovun nitqi bugünkü ağrı-acılarımızla tam səsləşir:

***"Cəbhədə bulunmuş bütün zabitan ordu tərəfindən onlara verilmiş əşya, yer və başqa ləvazimatı hərbiyyə deyil, kəndi əşyalarını dəxi tamamən qeyb etmişlər. Bu qisim şeyləri yenidən düzəltmək üçün birmanatlıq nəsnəyə 30-dan 100 manata qədər pul verilməlidir".***

Parlamentdə mülahizələrini sərt şəkildə bildirən nazir bahalığın tüğyan etdiyi ölkədə ordu quruculuğuna mane olanları cəzalandırmağı tələb edir. Axı, əlli ilə yaxın nizami orduya qulluq edən Mehmandarov heç vaxt görməmişdi ki, zabit əsgərin yeməyini, paltar və silahını satıb cibxərcliyi eləsin. İliyinə qədər təmiz adam olan Səməd bəy indi gördüklərinə heyrət edir və dəhşətə gəlirdi. O, zabit adını, zabit şərəfini qorumağı hər şeydən üstün tuturdu. Ona görə də Məclisi-Məbusandakı nitqində xüsusi vurğuyla qeyd edilir ki, əsgəri təlim və ölümə kimi varmağa hazırlıq tərbiyəsi üçün dəvət olunmuş zabitan əsgər nəzərində sahibi-nüfuz və şərəf olmalıdır. Bunun üçün zabitan yalnız mərifət cəhətincə deyil, zahiri dəxi əsgərə hüsni-təsir bəxş olmalıdır. Onun geyiminin daimi təmiz və faxir olması vacibdir.

Səməd bəy Mehmandarov Azərbaycana müharibə şəraitində gəlmişdi. Hələ imperiya dağılmamış ölkədə anarxiya, başıpozuqluq hökm sürürdü. Ayrı-ayrı qəzalarda qaçaq-quldur dəstələri yaranmışdı. Bakıda bolşevizm hökmranlıq iddiasında idi. İrandan və Qafqaz cəbhəsindən qayıdan rus əsgərləri, erməni-

daşnak dəstələri ilə birləşib "Şura bayrağı" altında təkcə Bakıda on iki min nəfərə yaxın azərbaycanlını qanına qəltan eləmişdi.

Bu talan və qırğınlar yalnız Bakıda deyil, Quba, Şamaxı, Gəncə, Qarabağ, Muğan bölgələrində də olmuşdu. İrəvan və Zəngəzurda dağılan kəndlərin, öldürülən soydaşlarımızın sayı yüz mini keçmişdi.

Azərbaycan hökumətini tanımaq istəməyən əldəqayırma Muğan Respublikası, ingilis qoşunlarının gəlişi, ağqvardiyaçı general Denikin təhlükəsi, müxtəlif siyasi "Hümmət", bitərəf sosialist, daşnak partiyaları, portfelsiz nazirlər elə hey çoxalırdı. Sərhəd bölgələrində erməni hücumları, məhəlli toqquşmaları yeni yaranan orduya dirçəlməyə imkan vermirdi. Belə şəraitdə hərb naziri və onun tabeliyində olanlar gərgin işləməli olurdu. Əsgəri qışlaları gəzib yoxlayan Səməd bəy Mehmandarov, hələ ki, könülaçan heç nə görmürdü. Nə nizam-intizam, nə geyim və silahlanma, nə də hərbi hazırlıq peşəkar hərbiçi olan naziri qane etmirdi.

**Parlamentdə "Türklər külli miqdarda ərzaq şeyləri qoyub getmişlərdir. Onlardan külli miqdarda taxıl, heyvan və s. məkulat qalmışdır" –** deyən hərb naziri din və dil qardaşımızın xeyirxahlığı ilə yanaşı qüsurlarını da söyləməkdən çəkinməmişdir.

**"Əlbəttə, heç kəs inkar etməz ki, türklər bizim millətimizə nicat verməklə bizə böyük xidmət etmişlərdir. Amma burası onların hərəkətini tənqid etməyimizə də mane olmaz. Hərbiyyə nəzarəti Gəncəyə köçənədək bizə xəbər verdilər ki, əsgəri işlərimiz yaxşıdır..., lazım olan kimi məşq verilir və ilaxır. Hər yeri gəzdim, qətaəti-əsgəriyyəmizə baxdım. Fəqət, iş heç də yaxşı deyildi. Əsgərlərimiz əzgin, düşkün bir halda, yeməkləri pis, mənzilləri fəna bir halda, yorğan-döşək yox, onların çoxu xəstə idi. Xəstə əsgərlərin həpsini sağlamları ilə dəyişməyə məcbur olduq. Qoşun yığmaq işləri yaxşı getmirdi. Rəislər və moqif komandaları öz vəzifələrindən sui-istifadə edirlərdi. Çox bir külfətin yeganə çörək gətirəni əsgərə alırdılar. Bu iş də camaatı narazı salıb, qoşun yığmaqdan nifrətləndirirdi. Nuru**

**paşa Azərbaycandan gedərkən özü mənim yanıma gəldikdə boynuna aldı ki, əsgərlik barəsində Azərbaycan fəna bir halda qoyulmuşdur".**

1918-ci il dekabrın 25-də Azərbaycan Respublikasının hərbi naziri general Səməd bəy Mehmandarov öz xalqına yanıqlı dəyanətlə müraciət etmişdir.

Bəyanatın əsas mövzusu o vaxtlar milli orduda yaranan hərcmərclik və özbaşınalıq idi. Həmin illərdə nazir Səməd bəy Mehmandarovun müavinləri Əli ağa Şıxlinski, Məmməd bəy Sulkeviç və Həbib bəy Səlimov, İbrahim ağa Vəkilov kimi məşhur generallar olsalar da, yenə də orduda fərarilik və xoşagəlməz hallar baş verirdi. Lakin onlar zəngin hərbi təcrübələrinin, biliklərinin və əsil hərbçi dəyanətlərinin sayəsində tam nizami ordu yaratmağa nail olmuşlar.

Zaman, dövr dəyişib. Səksən beş ildən sonra tarix təkrar olunur. O vaxtkı ümumi vəziyyət bu gün yeni yaranan ordumuzda qismən də olsa var: bəzi nadanların fərariliyi və min bir bəhanə ilə Vətənin müdafiəsindən yayınmaq…

Bəs o vaxtkı məşhur sərkərdələrimiz, xüsusilə nazir Səməd bəy Mehmandarov fərariliyin qarşısını necə almışdır? Məhz tələbkarlığı və sərt bəyanatı ilə 1918-ci ildə Səməd bəy Mehmandarov orduda yaranan çatışmazlığın qarşısına keçilməz bir sədd çəkmişdir.

Xalqımızın dar günündə hərbi nazir Səməd bəy Mehmandarovun on səkkizinci ildə yazdığı "Azərbaycan vətəndaşları" adlı müraciəti bu günümüzlə tam səsləşir. Onu da xatırladım ki, aşkarlığın işığı ilə açılan "tamamilə məxfidir" qrifli sənəd oxuculara ilk dəfə təqdim olunur. Bu maraqlı əlyazmasını Respublika Yeni Tarix Mərkəzi Dövlət Arxivində araşdırmalar apararkən əldə etdik.

"Cari ilin yazından etibarən Azərbaycan müstəqil dövlət oldu. Bu müddət ərzində cəmi hökumət adamlarının bütün səyləri ölkədə anarxiyanın qarşısını almaq oldu və qanunçuluq pozulan yerlərdə onun bərpasına yönəldilmişdir. Bu məqsədə

nail olmaqdan ötrü hökumətin başqa tədbirlərinin arasında özümüzə məxsus hərbi qüvvələrin yaradılması, yəni Azərbaycan qoşunlarının təşkili haqqında qərar qəbul olunmuşdur.

…Hal-hazırda qoşunlarımızın təşkilini öz öhdəmə götürmüşəm.

***İndi ölkəmizin bütün vətəndaşları – istər kasıb, istər dövlətli, eyni şəkildə hərbi qulluğu çəkəcəklər. Və əgər haçansa, kimsə dövlətliləri hərbi qulluqdan azad etsə, günahkarlar ağır cəzalanacaqlar.***

Hərbi hissələrdə əsgərlər yaxşı geyinəcək. Onların ərzaqlarının keyfiyyətcə yaxşı olmasına xüsusi fikir verib, bu barədə ciddi elan etmişəm. Göstəriş verilib ki, otaqlar təmir olunsun, qızdırılsın, bütün əsgərlərin fərdi yorğan-döşəyi olacaqdır.

Mən tədbir görmüşəm ki, əsgərlərə qarşı bütün qeyri-qanuni hərəkətlər ciddi töhmətlənsin və xüsusi ilə əsgərlərin döyülməsi halları ciddi cəzalandırılsın.

…Bütün bu tədbirləri həyata keçirib, üzümü ilk növbədə sizə, hərbi hissələri tərk etmiş Azərbaycan vətəndaşlarına tuturam və bəyan edirəm ki, sizin böyük xətanızı, əsgərlikdən qaçmağınızı bağışlayıb öz hissələrinizə köhnə təqvimlə, yanvar ayının birindən gec olmayaraq qayıtmağa çağırıram. Lakin, əlavə edirəm ki, bu müddət üçün kim öz bölüyünə qayıtmasa, o hərbi dövrün qanunlarına görə ağır cəza alacaq.

Bundan sonra, ölkəmizin bütün əhalisinə əziz Vətənimiz adından müraciət edərək xahiş edirəm ki, gözəl Vətənimiz Azərbaycan eşqinə, yüksək vətənpərvərlik hissimiz naminə mənə bizim qoşunumuzun təşkili işində yardım göstərəsiniz, bu qoşun bizə ölkəmizdə qanunçuluğu qorumaqdan ötrü vacibdir və yenə də xahiş edirəm ki, bütün o şəxslər ki, çağırış yaşları çatıb, əsgərlik etməlidirlər. Torpaqlarımızı qorumaq üçün özlərini çatdırsınlar. Qoy Vətən qarşısında borcunu unudan hər kəs Vətən qarşısında böyük günah işlətdiyi üçün qohum-qardaş qınağı altına düşsün və əlbəttə, qanun üzrə cəzalandırılsın.

Mənim bu bəyanatım ölkənin hər yerində yayılacaq və qoy savadlılar onu oxuyub mənasını savadsızlara çatdırsınlar".

## Sənədlərin izilə

***Yalnız azərbaycanlılardan təşkil olunmuş hərbi qüvvələrimiz, dünya tarixinə yazılmış və bütün Avropa xalqlarının bizə nisbətən daha çox bildikləri, danışdıqları qəhrəmanlıqlardan ibarət şanlı hərb tariximizi bilməlidir. Yüzillik rus hakimiyyətindən azad olmuş türk xalqına xatırlatmaq lazımdır ki, biz həmişə boyunduruq altında olmamışıq. Hətta Avropa və Asiyaya öz tələblərimizi etmişik.***

***...Belə zənn edirəm ki, türk tarixini yaxşı bilən kiməsə, bugünkü mühüm hadisələr də daxil olmaqla bizim xalqın tarixinə dair əsər yazmağı tapşırmaq lazımdır. Bu əsərdə xalqımızın keçmiş şöhrəti və yad hakimiyyəti dövründəki əzabları güzgüdə olduğu kimi öz əksini tapmalıdır.***

*Səməd bəy Mehmandarov*
*2 aprel 1919-cu il*

İnciyənədək arxivdə generalın imzaladığı yüzlərlə sənədə, raporta və müraciətə rast gəlmişəm. Onların hamısı makinada yazılıb, ya da mətbəədə nəşr olunub. Yalnız bu yaxınlarda əlyazması olan bir sənəd tapdım. O, hərb naziri Mehmandarovun öz dəst-xəttilə Azərbaycan hökumətinin ünvanına yazılıb. 1919-cu il aprelin ikisində yazılan ikisəhifəlik məruzə mənim üçün qeyri-adi tapıntı oldu. Nə gizlədim, bu tapıntıma hədsiz dərəcədə sevindim. Ona görə sevindim ki, müharibə aparan ölkənin generalının xalqının hərb tarixini yazdırmaq təşəbbüsünü vətənpərvərliyin zirvəsi kimi qiymətləndirdim.

Yuxarıda epiqraf kimi istifadə etdiyimiz cümlələr də həmin məruzədəndir. Belə tarixi sənədlərdən bixəbər olduğumuza görə bəzi "sapı özümüzdən" olan nadanlar keçmiş sərkərdələrimiz barədə artıq-əskik danışırlar. Onlar hətta "hücuma" keçərək ya-

zırlar ki, niyə Mehmandarovun, Şıxlinskinin və başqa sərkərdələrimizin Napoleon, Kutuzov, Suvorov kimi müdrik fikirləri, hərbi elmi əsərləri qalmayıb. Bir sözlə, özümüzünkülərə qeyri-vətənpərvər damğası vururlar. Onda belələrinə cavab vermək çox ağır və əzablı olur. Bu müasir "vətənpərvərlərə " başa salmaq lazımdır ki, totalitar rejim yetmiş ildən çoxdu onların 1918-1920-ci illərədək fəaliyyətinə "tamamilə məxfidir" möhürünü vurub. İndi budur, aşkarlığın sayəsində səksən beş ildən sonra belələrinə Səməd bəy Mehmandarovun yazdığı tarixi sənəd cavab verir:

*"Düşmənə qarşı mübarizə tədbirlərindən biri də xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Bu vəziyyət Azərbaycan Respublikasının yaranmaqda olan gənc ordusu üçün xüsusilə zəruridir. Yuxudan yenicə oyanmış xalqda sağlam, milli hiss oyatmalıyıq. Biz müsəlmanlar ancaq indi şüurlu həyat və milli yaradıcılıq dövrünə ayaq basmışıq… Xalq arasında türk irsinin milli hisslərini və vüqarını qaldırmaq üçün xalqı, qoşunlarımızı onun tarixi keçmişi ilə tanış etməliyik.*

*Yazılacaq məşhur tarixi əsərlər xalq içərisində və qoşunlarda geniş yayılmalı, hər bir kənd müəllimi və hər bir azərbaycanlı zabiti ondan istifadə etməlidir.*

*Gələcəkdə hökumətinköməkliyi ilə türk xalqının dahi xadim və rəhbərləri üçün müvafiq abidələr qoymaqla, onların xatirələri əbədiləşdirilməlidir".*

Zənnimizcə, general Səməd bəy Mehmandarov belə sağlam, milli düşüncəsi ilə heç bir publisistdən geri qalmır. Sənətini, dövrünü nəzərə alsaq, bəlkə də o, müasiri olan ən yaxşı yazıçı-publisisti bir neçə addım ötüb-keçir.

Azərbaycan Dövlət Arxivində saxlanılan iki nömrəli qovluqda general Səməd bəy Mehmandarovun daha bir vətənpərvərliyinin milli qürurunun şahidi oluruq. Orada yazılır ki, 1918-ci ildə ingilis qoşunlarının[1] Azərbaycanda öz ərazilərində olduqları

[1] 1918-ci il noyabrın 17-də general V.M.Tomsonun komandanlığı ilə Bakıya gələn ingilis qoşunları 1919-cu ilin avqustunda Azərbaycan ərazisindən çıxdı – ***Ş.N.***

kimi etinasız ağalığı hərb naziri Səməd bəy Mehmandarovu qəzəbləndirmişdir. Nazir onların istilaçı hərəkətlərinə etiraz əlaməti olaraq, vaxtilə (Birinci Dünya müharibəsi illərində – *Ş.N.*) ingilis komandanlığı tərəfindən təltif olunmuş ordenləri geri qaytararaq qəzəblə demişdir:

***– Torpağımı, xalqımı fəth edən ikiüzlü bir ölkənin ordeni mənə lazım deyil. Xalqıma silah qaldıran bir ordunun ordenini gəzdirmək mənim üçün ən böyük təhqirdir.***

***Azərbaycandan çıxan ingilis qoşunlarının komandanı general Tomson şayiələr yayırdı ki, Azərbaycan bundan sonra özünü idarə edə bilməyəcək.***

***Azərbaycan ordusu yox dərəcəsindədir. Orada qayda-qanun da yoxdur. Guya Azərbaycanı yağılardan qoruyan, onu idarə edən Tomsonun min ingilis və səkkiz yüz nəfərlik balağıaçıq hind əsgəri olmuşdur. Bu şayiələrdən sonra Azərbaycanda olan ingilis hərbi jurnalisti Skotlend-Liddel İngiltərə qəzetləri üçün hazırladığı xəbərlərdə yazırdı ki, Transqafqaz şayiələr ocağıdır. Burada şayiələr külək təpələr arasında yayılan kimi yayılır. Bir çox şayiələr Moskvada quraşdırılır və dövriyyəyə buraxılır. Bakıda ingilis ordusuna ehtiyac yoxdur. Azərbaycan özü özünə qayğı göstərə bilər. Mən bura iki gün əvvəl gəlmişəm və açığını deyim ki, bütün gördüklərim məndə dərin təəssürat yaradıb. Mənim şəhərdə olmadığım dörd həftə ərzində burada çox təəccüblü dəyişikliklər olub. Mən buraya gəldim ki, hamının mənə dediyi qarışıqlığı görüm, lakin onu tapa bilmədim. Tam qayda-qanun var. Mənə dedilər ki, mən ordu əvəzinə pozğunlaşmış kütlə görəcəyəm, lakin mən yaxşı, nümunəvi, güclü, odlu-alovlu gənclər gördüm. Doğrudan da mən indi Bakıda elə qayda-qanun gördüm ki, müharibə başlayan vaxtdan bugünədək Bakıda olmamışdım… Qayda-qanun ancaq Bakıda hökm sürmür, son dəyişikliklər bütün respublikada vəziyyəti aydınlaşdırmışdır. Qarabağ şuluqluğunu sülh əvəz etmişdir. Ermənilər və azərbaycanlılar sazişə gəlmişlər. Lənkəranda bolşeviklər Azər-***

***baycan ordusu tərəfindən məğlubiyyətə uğradıldılar. Onlar bütün silah və sursatlarını Azərbaycan hökumətinə təhvil verdilər, adamlar isə xahiş etdilər ki, onları Azərbaycan hökumətinin tabeliyinə götürsünlər… Bütün bunlar şübhəsiz sübut edir ki, Azərbaycan qarmaqarışıqlıqdan qorxmur və bolşeviklərdən çəkinmir. Azərbaycan dövləti indi Transqafqazın bütün qalan xalqları üçün nümunəyə çevrilmişdir*[1].**

İngilis hərbi jurnalisti Skotlend-Liddelin Azərbaycan ordusunun ünvanına dediyi xoşməramlı sözlərə görə xalqımız ilk növbədə iki görkəmli sərkərdəmizə, 1918-ci ildə ordumuzun təməl daşını qoyan Əli ağa Şıxlinskiyə və Səməd bəy Mehmandarova borcludur. Nizami və döyüşən ordu yaradan hər iki sərkərdə ilk hərbi nümayişin keçirilməsini, hərbi məktəblərin açılmasını, hərbi geyim formasının təşkilini və başqa gərəkli işləri həyata keçiriblər. İlyarım fəaliyyətdə olan Azərbaycan ordusu Lənkəranda bolşeviklərin üsyanını yatırdıb. Zəngəzurda, Əsgəranda erməniləri məğlubiyyətə uğradıblar.

1919-cu ilin sonlarında Azərbaycan Respublikası üçün üç təhlükə vardı: şimaldan ağqvardiyaçı general Denikin, Zəngəzur və Qarabağdan daşnak erməniləri, ordunun daxilində isə bolşevik təbliğatı. Bu təhlükənin ikisinin qarşısını hərbçi dəyanəti ilə alan nazir Səməd bəy Mehmandarovu ən çox narahat edən "bolşevik" xəstəliyi idi. Qırmızı bolşeviklərin təbliğatı orduda olduğu kimi fəhlə-kəndli arasında da yayılmışdı. Bu təsir az da olsa əsgər və zabitlərə də keçmişdi. Ona görə də nazir Səməd bəy Mehmandarov əsgərlərlə görüşəndə təkrar-təkrar deyərdi ki, qoşun torpağımızı yağılardan qorumaqdan ötrü vacibdir. Qoşunun əsgəri siyasətlə maraqlanmalı, beynəlxalq aləmdə nələr baş verdiyindən hali olmalıdır. Amma nə zabit, nə də əsgər heç bir partiyanın, ya da cəmiyyətin qulu olmamalıdır.

[1] RMDA, f. 894, siy. 10, iş 82, vər. 2-10

**Bolşevizmə qarşı mübarizədə**

***Hökumətin fəaliyyətinin əsasında Azərbaycanın müstəqilliyi durur və mən şübhə etmirəm ki, bolşeviklərin dağıdıcı cəhdlərinə qarşı zəruri tədbirlər görüləcəkdir. Mən öz tərəfimdən bolşeviklərin Bakı qarnizonu qoşunlarına partlayıcı təsirindən ehtiyat edirəm. Belə ki, Bakı indi Zaqafqaziya bolşeviklərinin fəaliyyət mərkəzi hesab edilir.***

***General Səməd bəy Mehmandarovun Nazirlər Kabinetinin sədrinə 1919-cu il 21 aprel tarixli raportundan.***

***Rotmistr İlyas Əliqulu oğlu Şahtaxtinskinin 29 iyun 1920-ci ildə bolşeviklərə verdiyi istintaqın protokolundan:***

*"–…Hərbiyyə naziri Səməd bəy Mehmandarova gəldikdə deyə bilərəm ki, o da bolşeviklərə və Sovet hakimiyyətinə düşmən kimi münasibət bəsləyirdi. Ona görə belə deyirəm ki, o, bolşevikləri həbs etdirərdi. Məsələn, Babayev Cəfəri göstərə bilərəm, onu Mehmandarovun şəxsi əmrinə əsasən təkadamlıq kamerada gündəlik bir parça quru çörək və bir parça su ilə saxlayırdılar. Habelə Mehmandarovun bolşevizmdə əli olanların hamısını həbs etmək və ciddi rejim altında saxlamaq barədə sərəncamı da vardı".*

Həmin bolşevik Cəfər Babayev 1960-cı ildə "Canlı xatirələr" adlı 69 səhifəlik bir kitabça nəşr etdirib. Onun xatirələrindən belə məlum olur ki, Bakını və Azərbaycanı daşnak ermənilər, istilaçı ruslar daha çox sevirmiş, nəinki müsavatçı azərbaycanlılar. Özünü bolşevik qəhrəmanı kimi təqdim edən C.Babayevin oturub-durduğu adamlar A.Mikoyan, S.Şaumyan, M.Babayan, T.Qəhrəmanyan, Ə.Qarayev, R.Axundov və başqaları olub. Onun yazılarında müsavatın əsgəri də, zabitləri də savadsız və amansız təsvir edilir. Bircə epizodda Babayev həqiqətdən qaça bilməyib:

***"Bakının general-qubernatoru Murad Gəray bəy Tlexas dişlərini qıcıdıb bolşevikin üstünə elə təpindi ki, səsinin zərbəsindən pəncərələrin şüşələri cingildədi".***

Zənnimcə, general Tlexas vətənini düşmənə satmaq istəyən bolşevik Məmmədağa İbrahimovla sərt rəftar etməkdə çox haqlı idi.

Bütün bunlardan sonra 1919-cu il avqustun 15-də əsgəri xidmətə çağırılan bolşevik C.Babayev yazır: "…Mənə hərbi çağırış vərəqəsi gəldi. Müsavat ordusuna çağırıldım. Bir işə bax, düşmən bildiyim, gecə-gündüz əleyhinə mübarizə apardığım müsavat partiyasının ordusunda xidmət etmək üçün əsgər çağırıldım. Mən kimə qarşı vuruşmağa göndərilirdim? Öz xalqıma qarşımı? Mən bir ovuc bəyin, mülkədarın mənafeyini qorumaq üçün müsavat ordusuna əsgər getməli idim.

Məni dəhşət götürmüşdü. Acığımdan az qala çağırış vərəqəsini cırıb, Bakıdan qaçmaq və ilim-ilim itmək istəyirdim. Mən Bakı partiya təşkilatımızın rəhbərinə bu məsələni danışdım və bildirdim ki, fərari olacağam.

– Yox, sən orduya getməlisən, – deyə Anastas İvanoviç Mikoyan heç gözləmədiyim halda sözümü kəsib dilləndi.

Mən özümü saxlaya bilməyib tez cavab verdim:

– Nə üçün? 1918-ci ildə müsavatçılar məni Gəncə Hərbi Məktəbinə aparanda bolşevik partiyamız etiraz edirdi. Deyirdilər ki, necə olursa olsun orduya getməməlisən. İndi isə…

– Bəli, o vaxt bambaşqa idi. Onda sənin inqilabi təcrübən yox idi. Müsavatçılar səni yoldan döndərə bilərdilər. Sən indi orduda əsgərlər arasında partiya təbliğatı apara bilərsən, onları bolşeviklərin tərəfinə çəkməyi bacararsan.

Bir azdan məni Qusardakı dördüncü Tatar süvari alayına yazdılar. Poqonu əlimə alanda elə bil ki, məni ilan vurdu. Onu çiynimə vurmaq istədim. Elə o dəqiqə bu hərəkətim alay zabiti Amloxvarinin gözünə dəydi. O mənə elə bir sillə çəkdi ki, əlimdəki şeypur yerə düşdü… "

Bolşevik "vətənpərvəri" C.Babayevin öz millətinə "xidməti" göz qabağındadır. Hərbi nazir Səməd bəy Mehmandarov onu

həbs edib təkadamlıq kamerada bir parça quru çörək və bir parça su ilə saxlamaqda tamamilə haqlı idi.

Burada S.Mehmandarovun "günahı" ondadır ki, gərək ideya düşməni olan bolşevik C.Babayevi güllələtdirəydi. Onda xalqımıza qara yaxanın, orduda zərərli bolşevik təbliğatı aparanın heç olmasa biri də əskik olardı.

* * *

İstər Səməd bəy Mehmandarov, istərsə də Əli ağa Şıxlinski uzunillik ordu həyatında siyasi partiya və qurumlardan uzaq olmuşlar. Onların ən ümdə vəzifəsi Vətəni, torpağı yağılardan qorumaq üçün nizami qoşun yaratmaq idi. İyirmi səkkiz aprel çevrilişinin səhəri onları dindirən bolşevik çekistləri hər ikisinə: ***"Hansı siyasi partiyanın və ya inqilabın mənafeyini müdafiə edirsiniz? " – sualını vermişdir.***

***General Səməd bəy Mehmandarovun cavabı: "Bütün ömrüm boyu mən hər cür siyasətdən uzaq olmuşam".***

***General Əli ağa Şıxlinskinin cavabı: "Hər bir inqilaba əksinqilab kimi yanaşmışam, heç vaxt belə şeylərə qoşulmamışam, qoşulmazdım da…".***

Bolşeviklərin Azərbaycana hücumuna düz bir il qalmış və onların ordudakı zərərli siyasətini əvvəlcədən hiss edən nazir S.Mehmandarov 1919-cu il aprelin 20-də Nazirlər Sovetinin sədrinə yazırdı: **"Yaxşı olardı ki, Azərbaycan ordusundan azad olunmuş rus zabitləri, etibarsız element kimi Azərbaycan hüdudlarından kənar ediləydi. Lakin ümumi siyasi vəziyyətin bu məsələyə münasibətini bilmədiyimdən, xahiş edirəm, bu haqda mənə məlumat verəsiniz. Sizin qərarınızın nəticəsini bilmək istərdim".**

Sovet hakimiyyəti illərində Səməd bəy Mehmandarov haqqında cəmi iki: 1946-cı il mayor Hacıağa İbrahimbəylinin "Səməd bəy Mehmandarov" (18 səhifəlik) və 1977-ci ildə polkovnik, tarix elmləri namizədi Əli Abbasovun "General Səməd bəy Mehmandarov" (80 səhifəlik) kitabçaları nəşr olunmuşdur. İndiyənədək

1918-1920-ci illərin sənədləri nə tarixçilərin, nə də S.Mehmandarov tədqiqatçılarının sərəncamına verilmədiyindən şöhrətli generallarımızın həmin illərdə daxilən hansı hisslər keçirdiyindən, ən başlıcası, azərbaycanlı kimi vətəndaşlıq təəssübkeşliyindən bixəbər olmuşuq.

Demokratiyanın sayəsində yeni açılan arxiv sənədləri arasında ilk hərb nazirimizin çoxlu teleqramları, əmr və raportları işıq üzü gördü. Bu sənədlər o vaxtkı ordumuz, zabit və əsgər heyətimiz haqqında qiymətli məlumatlar verir.

* * *

**Lənkəran qəzası sakinlərinə müraciətnamə**

*Vətəndaşlar!*

*Azərbaycan Respublikası Dövlətinin xahişi ilə mən Lənkəran qəzasına dəstə göndərirəm. Vətəndaş müharibəsinə birdəfəlik son qoymaq, qayda-qanun yaratmaq, Sizi dinc əhaliyə əzab verən zorakı dəstələrdən və qatillərdən azad etmək işi bu dəstəyə tapşırılıb.*

*Azərbaycanın ayrılmaz bir hissəsi olan qəzada məskunlaşmış bütün millətlərə ədalətli münasibət bəsləyən Azərbaycan qoşunları Sizə qanun daşıyıcıları kimi göndərilirlər.*

*Silahlı qüvvələrin himayəsi ilə ölkənin bütün sahələrinin idarə olunmasında təcili mülki idarəetmə bərpa ediləcək. Mən əminəm ki, Siz özünüz də Azərbaycan Respublikasının gələcək tamhüquqlu vətəndaşları kimi sülh şəraitində birgə yaşamağın möhkəm əsasının qoyulması marağındasınız və görəcəyiniz bütün tədbirlər ölkədə qanun-qaydanın bərpa olunmasında hökumətin bütün qanuni əmrlərinin könüllü surətdə yerinə yetirilməsində və Azərbaycan Respublikası Dövlətinin nümayəndələrinə öz xeyirxah münasibətinizlə imkan daxilində köməklik göstərəcəksiniz.*

*Bununla bərabər, Sizi əmin edirəm ki, Sovetlər, Komitetlər və ya "Muğan Respublikası" adı altında heç bir sərbəst təşkilatların yaradılmasına yol verilməyəcək.*

*Lənkəran qəzasında yeganə – Azərbaycan Respublikası hakimiyyəti tanınır və onun verdiyi qanunlara qulaq asmayan hər bir şəxs müharibə dövrünün qanunlarına əsasən qiyamçı kimi məsuliyyətə cəlb olunacaq.*

*Dəstə rəisinin göstərişi ilə əhali silahları təhvil verməlidir, kim əmri yerinə yetirməsə, hərbi-səhra məhkəməsinin sərəncamına veriləcək.*

*Xəbərdar edirəm ki, rus əhalisinə qarşı hər hansı bir zorakarlığa və soyğunçuluğa yol verməyəcəyəm, çünki qəzada yaşayan başqa millətlərin nümayəndəsi kimi onları da Azərbaycan Respublikasının vətəndaşı sayıram.*

*Amma rus əhalisinin şəxsiyyətinə və toxunulmazlığına təminat verərək, mən onlardan da yerli hakimiyyətin verdiyi qanunların yerinə yetirməsinə əməl etmələrini tələb edirəm.*

*Hər bir silahlı müqavimət ölüm cəzası ilə cəzalanacaq və belə hallarda qoşunlara amansız olmaları haqda əmr olunub.*

*Bu və ya digər bəhanələrlə xalqı ordu və hökumət əleyhinə qaldıranları bu haqda xəbərdar edirəm.*

*Mən də öz növbəmdə dəstə rəisinə[1] əmr etmişəm ki, qoşunun əhaliyə heç bir xətər toxundurmaması haqda ölçü götürsün və dinc əhaliyə qarşı hər cür zorakılıq göstərən günahkarlar ciddi cəzalansınlar.*

***Azərbaycan Respublikasının hərb naziri,***
***Tam Artilleriya generalı Səməd bəy Mehmandarov.***
***General-leytenant Məmməd bəy Sulkeviç.***
***23.07.1919-cu il, Bakı şəhəri***

**21 oktyabr 1919-cu il Lənkərandan teleqram**

*Lənkəran Şəhər duması əhalinin istəyi ilə 15 oktyabr tarixli yığıncağında hərb naziri general Səməd bəy Mehmandarovu Respublika parlamentinə üzv seçmişdir.*

**Şəhər Dumasının üzvləri**

[1] General-mayor Həbib bəy Hacı Yusif oğlu Səlimov (1881-1920) – ***Ş.N.***

# TÜRK İRSİNİ ÖYRƏDƏN GENERAL

Şöhrətli generalımız Səməd bəy Mehmandarovun 1918-1920-ci illərdəki fəaliyyəti xalqımız qarşısında əvəzsizdir. Onun Milli Ordunun yaradılmasındakı müstəsna rolu, 1918-ci il dekabrın 25-də Azərbaycan xalqına müraciəti, əsgər və zabit heyəti qarşısında ata nəsihətli (həmin ili Səməd bəy Mehmandarovun 63 yaşı vardı – ***Ş.N.***) çıxışları və nəhayət, güclü Vətən təəssübkeşliyi qırx minə yaxın əsgəri olan nizami ordu yaratmağa səbəb oldu.

Səməd bəy Mehmandarov haqlı olaraq yazırdı ki, düşmənə qarşı mübarizə tədbirlərindən biri də xalq içərisində sağlam milli hisslərin yaradılmasıdır. Bu vəziyyət Azərbaycan Respublikasının yaranmaqda olan gənc ordusu üçün xüsusilə zəruridir. Yuxudan yenicə oyanmış xalqda sağlam, milli hissi oyatmalıyıq… Xalq arasında türk irsinin milli hisslərini və vüqarını qaldırmaq üçün xalqı, qoşunlarımızı onun tarixi keçmişi ilə tanış etməliyik.

Səksən ilə yaxın əl vurmadığımız 1918-1920-ci illərin arxiv qovluqları açıldıqca bizə məlum olur ki, ilyarım fəaliyyətdə olan Milli Ordu tariximiz çox zəngin olmuşdur. O da məlum olur ki, hərb tariximizi zənginləşdirən tam artilleriya generalı Səməd bəy Mehmandarovun və Əli ağa Şıxlinskinin rəhbərliyi ilə, onların silahdaşları general Həbib bəy Səlimovun, Məmməd bəy Sulkeviçin, şahzadə Əmir Kazım Mirzə Qacarın, Cavad bəy Şıxlinskinin, Murad Gəray bəy Tlexasın, Əbdülhəmid bəy Qaytabaşının, Teymur bəy Novruzovun, Süleyman bəy Əfəndiyevin, topoqraf-general İbrahim ağa Vəkilovun misilsiz fəaliyyəti olmuşdur.

Port-Arturda, Birinci cahan savaşında və 1918-1920-ci illərdə şərəfli döyüş yolu keçən general Səməd bəy Mehmandarovun haqqında araşdırmalar apardıqca o illərin sənədlərində və qəzetlərində onun çıxışlarına, nitqlərinə rast gəlmək olur.

Belə tarixi sənədlərdən bixəbər olduğumuza görə bəzi "sapı özümüzdən" olan nadanlar keçmiş sərkərdələrimiz barədə artıq-əskik danışırlar. Onlar hətta "hücuma" keçərək yazırlar ki, niyə

Mehmandarovun, Şıxlinskinin və başqa sərkərdələrimizin Napoleon, Kutuzov, Suvorov kimi müdrik fikirləri, hərbi-elmi əsərləri qalmayıb. Bir sözlə, özümüzünkülərə qeyri-vətənpərvər damğası vururlar. Onda belələrinə cavab vermək çox ağır və əzablı olur. Bu müasir "vətənpərvərlərə" başa salmaq lazımdır ki, totalitar rejim səksən ilə yaxın onların Aprel çevrilişindən əvvəlki fəaliyyətinə "tamamilə məxfidir" möhürünü vurub. İndi budur, aşkarlığın sayəsində səksən beş ildən sonra belələrinə general Səməd bəy Mehmandarovun Azərbaycan Hərbiyyə Məktəbinin ikinci buraxılışında, 1926-cı il sentyabrın 15-də elədiyi tarixi çıxışı cavab verir.

Həmin ili Azərbaycan Hərbiyyə Məktəbində Səməd bəy Mehmandarov topçuluqdan rusca, Əli ağa Şıxlinski isə Azərbaycan dilində mühazirələr oxuyurdular.

Onlar həm də 1921-ci ildə öz təşəbbüsləri ilə yaratdıqları Bakı Qarnizonu Hərbi-Elmi Cəmiyyətinin üzvü idilər.

Çıxış Azərbaycan oxucularına ilk dəfə təqdim olunur.

**Azərbaycan hərbi məktəbinin ikinci buraxılışı haqqında**

Yoldaşlar! Bu gün biz yeni qırmızı komandirlər kimi sizi təbrik edirik.

Qırmızı komandir kimi siz daha müstəqil yola çıxdınız. Bu müstəqil yolda sizi çətin və məsul iş gözləyir. Həmin işin bacarıqla və vicdanla yerinə yetirilməsi sizin tabeliyinizdə olan adamların döyüş hazırlığı səviyyəsindən asılıdır. Öz xidməti və döyüş təcrübəmdən istifadə edərək sizin üçün bu əlamətdar gündə həmin iş haqqında bir neçə söz demək istəyirəm.

Azərbaycan hərbi məktəbini qurtaran sizlər, yoldaşlar, möhkəm yadda saxlamalısınız ki, heç bir məktəb, hətta ali məktəb də olsa, tam bilik vermir, gəncləri gələcək özünütəkmilləşdirməyə hazırlayaraq buraxır. Bu cəhəti biz hərbi qulluqçular xüsusilə yadda saxlamalıyıq, çünki, ümumiyyətlə, hərbi işdə, əsasən də qüdrətli mübarizə vasitəsi olan artilleriyada öz əksini tapan hərbi texnika böyük müvəffəqiyyətlərə nail olmuşdur.

Texnika və taktika bir-birilə ayrılmaz surətdə əlaqədardır və texnikanın inkişafı taktika sahəsində böyük dəyişikliklərə səbəb olur. Daimi yeni hərbi-texniki kəşflər sayəsində artilleriya atəşinin gücü ilbəil artır, döyüşün üsullarını və taktiki xüsusiyyətlərini, hücum və müdafiə formalarını əsaslı surətdə dəyişdirir. Buna görə də müasir tələblərdən geri qalmamaq üçün, yoldaşlar, siz yorulmadan öz üzərinizdə ciddi çalışmalı, geri qalmamaq üçün cari hərbi əməliyyatı diqqətlə izləməlisiniz, başqa sözlə, yenə də öyrənmək və öyrənmək lazımdır. Bu tələblərə əməl etsəniz, siz öz yerinizə layiq olacaqsınız və tabeliyinizdə olanların hüsn-rəğbətini qazanacaqsınız.

Texnikanın inkişafı və artilleriya atəşinin artan gücü ilə yanaşı, mən deməliyəm ki, irəli getmək coşqunluğu ideyası ilə ruhlanan qoşunlarda əsas amil insandır, texnika isə ikinci dərəcəlidir, çünki texnikanı da insan idarə edir.

Hərbi-elmi cəmiyyətdəki məruzələrimdən birində, yoldaşlar, mən demişdim ki, hərbi iş yaradıcı işdir, bu işdə təcrübə və praktikanın böyük əhəmiyyəti vardır, bu təcrübə və praktika bir çox nəzəri müddəaları üstələməlidir. Bunu deməklə mən nəzəriyyənin əhəmiyyətini heç də azaltmıram, çünki hərbi sənət nəzəriyyəsi həmin praktikadan doğmuşdur. Əgər bu belədirsə, onda bacarıq, təcrübə və praktikanı hansı vasitələrlə mənimsəmək olar?

Müharibə dövründə bacarıq və təcrübə şəxsi praktika ilə, sülh dövründə isə sülh və müharibə dövrlərində göstərişlərini rəhbər kimi qəbul etdiyimiz nizamnamələrini əsaslı surətdə öyrənməklə, texniki tapşırıqla çölə çıxmaqla, ikitərəfli manevrlərlə, komanda heyətinin çöl təlimləri ilə, hərb tarixini öyrənməklə və b. üsullarla qazanılır.

Bunları mən geniş izah etməyəcəyəm, öyrənilməsinə böyük əhəmiyyət verdiyim hərb tarixi üzərində dayanacağam.

***Hərb tarixini öyrənmək dünya görüşünü genişləndirir, tənqidə qabil olan adamın zəkasını, fərasətini və bacarığını inkişaf etdirir. Hərb tarixini öyrənməklə siz ovcunuzun içi kimi bu və ya o tərəfin səhvini görürsünüz. Görürsünüz ki, nə etmək olar və nə***

***etməmək lazım deyil. Hərb tarixini öyrənməklə siz çox mürəkkəb vəziyyətdən baş çıxarmaq, həmin vəziyyətə uyğun bu və ya digər qərar qəbul etmək vərdişləri qazanırsınız. Hərb tarixini öyrənməklə siz qoşunların müharibədə çəkdikləri əziyyətlərin qarşısını almağa təminat verirsiniz.***

***Mən belə fikirləşirəm ki, hərb tarixini öyrənməyin əhəmiyyətini başa düşmək üçün bu deyilənlər də kifayətdir.***

***Buna görə də mən belə hesab edirəm ki, sizin özünüzü həsr etdiyiniz sahədə müvəffəqiyyət qazanmağınız üçün hərb tarixi kitabı hər bir hərbi qulluqçunun stolüstü kitabı olmalıdır.***

Sizin hər bir müvəffəqiyyətiniz sizin keçmiş rəisinizi sevindirəcək, çünki onlar sizin müvəffəqiyyətinizdə öz zəhmətlərinin və öz məsləhətlərinin bir hissəsini görəcəklər.

Sizinlə vidalaşanda sizə demək istədiyim bunlardır. İndi isə, yoldaşlar, mənim ən xoş və səmimi arzularımı qəbul edin.

***Səməd bəy MEHMANDAROV***
***15 sentyabr 1926-cı il***

İki il sonra səhhətinə görə istefaya çıxan general Səməd bəy Mehmandarova dövlət yüz manat pensiya kəsmişdir. 1931-ci ilin fevralın 12-də Bakıda vəfat edən S.Mehmandarov keçmiş Çəmbərəkənd qəbiristanlığında (indiki Şəhidlər xiyabanında – ***Ş.N.***) dəfn olunmuşdur. Sonralar – 1939-cu ildə bolşevik S.M.Kirova heykəl qoyulanda həmin qəbiristanlıq dağıdılmışdır. O illərdə generalın ailəsi sürgündə idi. Qəbri başqa yerə köçürülmədiyindən yerlə yeksan edilmişdir.

* * *

Uzun müddət yad ölkədə – Rusiyada yaşayıb qulluq etməsinə baxmayaraq, böyük sərkərdəmiz Səməd bəy Mehmandarov milli hisslərdən, milli varlığından uzaqlaşmamışdır. O, 1892-1894-cü illərdə “Novoye obozreniye” qəzetində “İslam dini və onun əhəmiyyəti barədə”, “Necə edək?”, “Müsəlmanların geridə qalmalarının səbəbləri”, “Şiələrin yeni misteriyaları”, “Müsəlman-

ların öz-özlərinə işgəncə verməlıəri haqqında" və "Şiələrdə dini misteriyanın mənşəyi" adlı silsilə məqalələri ilə çıxış etmişdir. İslam dininin çox yayıldığı bir ölkədə ona tənqidi yanaşmaq, əlbəttə, öz dövründə böyük cəsarət tələb edirdi. Özünün dini baxışlarında ardıcıl və barışmaz olan Səməd bəy Mehmandarov ilk növbədə xalq maarifini inkişaf etdirməyə və ruhani başçılarını müftəxorluq azarından uzaqlaşmağa çağırırdı: "***İslamın keçmişinə müraciət etmək, onun tarixini diqqətlə öyrənmək, bu tarixdə diqqətəlayiq nə varsa hamısını toplamaq lazımdır***".

Polkovnik Səməd bəy Mehmandarov "Necə edək?" silsilə məqalələrində Quranın tərtib edilməsi tarixindən və Məhəmməd Peyğəmbərin şəxsiyyətindən geniş söhbət açır. O yazır ki, Quran üçün hamıdan əvvəl və hamıdan çox Məhəmməd Peyğəmbər tarix qarşısında məsuliyyət daşıyır. Tarixi mənbələr göstərir ki, Məhəmməd çox ağıllı, yaradıcılıq dühasına və gözəl danışıq qabiliyyətinə malik bir adam idi. Həyat tərzində sadəlik, düzlük, ədalətlilik, mərdlik, alicənablıq, hamı ilə rəftarında səmimilik və bərabərlik dağınıq və pərakəndə ərəb qəbilələrini birləşdirən bu din və dövlət islahatçısının xarakterik xüsusiyyətləri idi… Məhəmməd Peyğəmbər ömrünün axırına kimi öz dövrünün ən nəcib şəxsiyyətlərdən biri olaraq qaldı.

Həmin illərdə Varşava Hərbi Dairəsində qulluq edən polkovnik Səməd bəy Mehmandarov "Tərcüman" qəzetinin redaktoru İsmayıl bəy Qasprinskidən, Qoridəki Zaqafqaziya Müəllimlər Seminariyasında müəllim işləyən ədəbiyyatşünas Firidun bəy Köçərlidən, lənkəranlı müəllim Teymur bəy Bayraməlibəyovdan və tarixçi-alim Əhməd bəy Cavanşirdən polemik cavablar almışdı.

Firidun bəy Köçərli Səməd bəy Mehmandarovu dinə tənqidi münasibət bəslədiyinə və buna görə də guya dindarların hisslərinə toxunduğuna görə tənqid etmişdi.

Firidun bəy Köçərli "Tərcüman" qəzetinin redaktoru İ.Qasprinskiyə "hücum" edir, onu Səməd bəy Mehmandarovun "Necə edək?" məqaləsinə tənqidi münasibət bəsləməməkdə günahlandırırdı. "Tərcüman"ın abunəçisi kimi F.Köçərli həmin

qəzetin səhifələrində S.Mehmandarova həsr olunmuş məqaləni oxumuşdu. Lakin İsmayıl bəy Qasprinski "Necə edək?" məqaləsinin müəllifini nəinki tənqid etmişdi, hətta, "Novoye obozreniye" redaksiyasına göndərdiyi məktubda onun bəzi fikirlərinə müəyyən qədər tərəfdar çıxmışdı.

Səməd bəy Mehmandarovun Məhəmməd Peyğəmbərin şəxsiyyətindən müsbət danışdığına görə İsmayıl bəy Qasprinski əvvəlki məktubundakı kimi onu hirslə tənqid etməyir, İslam dinini islah etmək məsələsində onun fikrinə şərik çıxır. O, Səməd bəyə razılığını bildirib yazır ki, artıq İslam dini haqqında ümidsiz məqalələr yazmır. Bu dindən barışdırıcı tonda danışır, müsəlmanın cəhalətini və durğunluğunu müalicə etmək tədbirlərini irəli sürür.

Səməd bəy Mehmandarovun həmin məqalələri yazdığı dövrdən yüz on ildən çox bir vaxt keçir. Lakin onlar bu günlərimiz üçün də əhəmiyyətlidir. Həmin yazılarda qaldırılan məsələlər – xüsusilə, xalqın geriliyini görən ziyalı "müsəlmanlara" mədəni tərəqqi yolunu tutmaq vəzifəsini tövsiyə etməsi onun islam dinini incəliklərinə qədər bilməsinə dəlalət edir. O, cəsarətli çıxışları ilə müsəlman cəmiyyətindəki bəlalardan xalqı xilas etməyə çağırır. Səməd bəy Mehmandarov təhsil və maarifdə qızların və gələcək anaların təhsil almalarına xüsusi əhəmiyyət verirdi. Müsəlman geriliyinin səbəbini İslamdakı bəzi ehkamların məhvedici təsirində axtarırdı. O, Firidun bəy Köçərliyə cavab məktubunda yazırdı ki, ayrı-ayrı şəxslər və silklər əksər hallarda eqoist niyyətlərlə xalq kütlələri içərisində mövhumatın qorunub saxlanılmasına və inkişaf etdirilməsinə çalışmışlar. Çünki onlar öz nüfuzlarını, qüdrət və sərvətlərini həmin mövhumat hesabına əldə etmişlər. Bunun da nəticəsində dini təmayüllər amansız təhriflərə məruz qalmışdır.

Yad mühitdə yaşamasına və hərbiçi olmasına baxmayaraq Səməd bəy Mehmandarov müsəlmanın tutulduğu azarı görür və dərk edirdi. Şəxsi mənafeyini dövlət mənafeyindən üstün tutanlara qarşı çıxış edərək vətəndaş yanğısı ilə qeyd edirdi ki,

müsəlmanları bekar, müftəxor, pozğun intriqa azarına tutulmuş geniş hüquq və güzəştlərə malik olan, hökumət yanında sözləri keçən, lakin buna baxmayaraq, heç bir işdən yapışmayaraq öz şəxsi mənafelərini güdən, ictimai və dövlət mənafeyini də öz xeyirləri ilə ölçən, canlı, azad fikrin hər bir təzahürünə qarşı çıxan ləyaqətsiz qəyyumların (bəzi din xadimlərinin) pəncəsindən xilas edə biləcək qüvvəni haradan tapmalı?

## AZƏRBAYCAN OĞULLARI STALİNQRAD DÖYÜŞLƏRİNDƏ

***"Azərbaycan! Əziz Vətən, ana torpaq! Sən bizi bəslədin, böyütdün, bizdən heç nə əsirgəmədin. Sən bizi sevirsən, bizim üçün bu sevgi çox əzizdir, dünyada heç bir şey bu sevgini əvəz edə bilməz. Biz böyük nizamilər, babəklər, koroğlular ölkəsi olan sənə, sənin bu sevginə and içirik ki, tapdalanmış torpaqlarımız və təhqir edilmiş, vəhşicəsinə divan tutulmuş hər bir vətəndaşımız üçün düşməndən amansız intiqam alacağıq. Bu yolda canımızı və qanımızı əsirgəməyəcəyik".***

***1942-ci ildə Stalinqrad uğrunda döyüşdə həlak olmuş naməlum Azərbaycan əsgərinin cibindən tapılmış məktubdan***

Bu məktub yetmiş il əvvəl yazılmış olsa da, zənnimizcə, bu gün də məzmununu itirməyib. Yağı düşmənlə üzbəüz durduğumuz bir vaxtda müasir gəncliyimizi Vətən, Azərbaycan və Qarabağ sevgisi naminə daha fəal və mübariz olmağa çağırır. Bu cümlələrdəki sözlər hər bir Azərbaycan oğlunun ən ümdə arzusuna çevrilməlidir.

Yetmiş il əvvəl şəhid olmuş vətənpərvər eloğlumuzun düşmənə nifrət hissi ilə yazdığı qısaca məktubdan görünür ki, azadlıq yolunda ulu babalarımızın andına sadiq qalmış və onların layiqli nəslindəndir.

Stalinqrad uğrunda döyüşlərdə əbədi şöhrət qazanan Azərbaycan oğulları çox idi. Bir döyüşdə altmış səkkiz faşisti məhv edən lənkəranlı balası Baloğlan Abbasov mahir snayperçi olub. Cəmi əlli bir gün döyüş cəbhəsində mərdliklə vuruşan baş serjant yüz altı faşist qırmışdı. "İgidliyə görə" medalı ilə təltif olunan Baloğlan Abbasov iyirmi üç yaşında 1942-ci ilin noyabr hücumlarında qəhrəmanlıqla həlak oldu.

"Volqanın o tayında faşistlərə yer yoxdur. Onların ayağı Stalinqrada dəyməyəcək. Burdan Bakıya getmək iştahını faşistlərin gözündə qoyacağıq" amalı ilə döyüşən, sərrast atıcı Baloğlan Abbasov qəhrəmanlıqla həlak olandan sonra "Qırmızı Bayraq" ordeni ilə təltif olundu.

Məşhur rus yazıçısı Pyotr Pavlenkonun 1943-cü ildə Moskvada "Baloğlan Abbasov" adlı çox maraqlı kitabçası nəşr olundu. Eloğlumuzun qəhrəmanlığından iftixar hissi duyan müəllif əsərin sonunda yazırdı:

"***Əgər azərbaycanlı şair qəhrəman haqqında mahnı demək istəyirsə, qoy bu mahnını Baloğlan Abbasova həsr etsin. Həmin mahnı öz müəllifinə sonsuz şöhrət gətirər.***

***Əgər azərbaycanlı sədaqət andı içmək istəsə, qoy o, cəsarətlə Baloğlan Abbasovun adına and içsin.***

***Əgər o, bənzəmək istədiyi qəhrəmanın adını çəkmək istəsə, qoy cəsarətlə Baloğlan Abbasovun adını çəksin.***

***Rəssamlar! Mən sizdən Baloğlan Abbasov haqqında tablolar yaratmağı xahiş edirəm.***

***Heykəltəraşlar! Mən sizdən bu sadə igidin heykəlini yaratmağı xahiş edirəm.***

***Ey insanlar! İyirmi üç yaşında əbədiyyətə qovuşan Baloğlan Abbasovu unutmayın.***

**İgidlik göstərib onunla kifayətlənən adam hələ qəhrəman deyildir; əsil qəhrəman o şəxsə deyirlər ki, başqalarını da Baloğlan Abbasov kimi özünə bənzəməyə öyrətsin**".

Düşünürəm ki, yad bir millətdən olan yazıçının Azərbaycan oğlunun misilsiz qəhrəmanlığını, şəxsiyyətini necə də ölçüyəgəlməz dərəcədə təsvir edib. Oçerki oxuyanda istər-istəməz qürur hissi duyursan ki, mənim xalqımın Baloğlan Abbasov kimi qəhrəmanı var. Qeyri-ixtiyari ürəyindən keçən bu sözləri deməyə bilmirsən: "Eşq olsun, Baloğlanı doğan anaya!"

Baloğlan Mirzağa oğlu Abbasov 1919-cu il dekabrın 15-də Lənkəran rayonunun Sütəmurdov kəndində anadan olub. Kənddə ibtidai təhsil aldıqdan sonra o, 1939-cu ildə ordu sıralarına çağırılıb. Müharibə başlayanda Ukraynada döyüşlərdə yetkinləşdi, snayperlik sənətini səylə öyrəndi. Az müddətdə atıcı alayında ən yaxşı nişançılardan biri oldu.

1942-ci ilin yayında serjant Baloğlan Abbasovu ən mühüm cəbhə olan Stalinqrad şəhərinin müdafiəsinə göndərdilər. Vzvod komandiri təyin olunan Baloğlan Azərbaycan oğulları ilə birgə qəhrəmanlıqla vuruşur, əla snayperçinin atdığı güllələr boşa çıxmırdı. Sərrast atıcı kimi diviziyada ad-san qazanan Baloğlan Abbasov həlledici əks-hücum zamanı 1942-ci il noyabrın 19-da ağır yaralanıb həlak oldu. Stalinqrad cəbhəsi Hərbi Şurasının qərarı ilə müharibə qəhrəmanı kimi Baloğlan Abbasovun adı əbədi olaraq qvardiyaçı diviziyasının şəxsi heyətin siyahısına daxil edildi.

Əlbəttə, 1942-ci ildə Stalinqrad uğrunda döyüşlərdə Vətən sevgisi ilə faşistlərə qarşı mübarizə aparan təkcə serjant Baloğlan Abbasov deyildi. Arxiv sənədlərindən məlum olur ki, bu misli görünməyən vuruşmada iki mindən çox Azərbaycanın əsgər və zabit oğlu igidliklə döyüşmüşdür. Ən əvvəl, iki general eloğlumuzun Həzi Aslanovun və şuşalı general-mayor Yaqub Quliyevin xidmətini xüsusi qeyd etməliyik. Onlar Stalinqrad döyüşlərində yüksək komandirlik məharəti və şəxsi igidlikləri ilə daha böyük şöhrət qazanmışlar. Hər iki generalımızın – Həzi Aslanovun 55-ci Əlahiddə Tank alayı və süvari korpus komandirinin

müavini Yaqub Allahqulu oğlu Quliyevin 222-ci süvari alayı faşist feldmarşalı Manşteynin tank ordusunun darmadağın edilməsində qeyri-adi döyüş məharəti göstərmişlər. Bu döyüşlərdəki əvəzsiz komandirlik rəşadətinə görə general-mayor Yaqub Quliyev Lenin ordeninə, Həzi Aslanov isə Sovet İttifaqı Qəhrəmanı kimi şərəfli ada layiq görüldü.

"Stalinqradın müdafiəsinə görə" medalı və "Qırmızı Ulduz" ordeni ilə iki min nəfərdən çox Azərbaycanın oğul və qızı təltif olundu. Onların sırasında mayor Teymur Nağdəli oğlu Bünyadov (sonralar general-mayor rütbəsinə layiq görüldü), kəşfiyyatçı Şamil Hüseynov, 51-ci qvardiya diviziyasının baş rabitəçisi Əyyub Həmidov, qvardiya polkovniki Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayev, təyyarəçi Nuru Əliyev, Tacəddin Əfəndiyev, pulemyotçu-zabit Abdulla Axundov, topçu Qasım Hacıyev, Davud Səfərov, avtomatçı Mikayıl Qəribov, Həmzə Sadıqov, zirehdələn Əli Hüseynov, təyyarəvuran topçu İbrahim Məmmədov, sanitar-həkim Bəhram Əsgərov Azərbaycan xalqının adına layiq qəhrəmanlıqla vuruşmuşlar.

Görkəmli dövlət xadimi, yazıçı-dramaturq Nəriman Nərimanovun yeganə oğlu, qvardiya baş leytenantı Nəcəf Nərimanov (1919–8.09.1943) Stalinqrad döyüşlərində igidlik göstərmiş, birinci dərəcəli "Vətən Müharibəsi" ordeni və "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olunmuşdur.

Əfsanəvi partizan Mehdi Hüseynzadə – Mixaylo 1942-ci ildə Stalinqrad cəbhəsindən ailəsinə göndərdiyi məktublarından birində yazırdı: "Bu məktubu düşmən güllələri altında yazıram, burada şiddətli döyüşlər gedir, faşistlərin törətdiyi cinayətlərin həddi yoxdur. Biz hücuma hazırlaşırıq. Söz verirəm ki, son nəfəsədək vuruşacağam, sizin başınızı ucaldacağam, ölsəm də qəhrəman kimi öləcəyəm. Mənim barəmdə eşidərsiniz. Hələlik sağ olun. Bu, mənim son məktubumdur!"

1942-ci ilin avqustunda Mehdi Hüseynzadə Stalinqrad yaxınlığındakı Kalaç rayonu uğrunda gedən döyüşlərdə ağır yaralanaraq əsir alınmışdır. Sonralar həbs düşərgəsindən qaçan Mehdi

Hüseynzadə – Mixaylo İtaliya və Yuqoslaviya dağlarında partizan hərəkatına rəhbərlik edərək minlərlə faşisti məhv etdi. Özü isə qəhrəmanlıqla həlak oldu və ölümündən sonra 1957-ci il aprelin 11-də Sovet İttifaqı Qəhrəmanı kimi şərəfli ada layiq görüldü.

O ağır müharibə illərində məşhur Azərbaycan şairi Seyid Məhəmmədhüseyn Şəhriyar “Stalinqrad qəhrəmanları” poemasını yazdı. Poemada şücaətlə döyüşən əsgər və zabitlərin qəhrəmanlığı böyük məhəbbət və səmimiyyətlə tərənnüm olunur.

Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahiminin və Əhməd Cəmilinin yazdığı silsilə şeirləri də Stalinqradda faşist qoşunlarının darmadağın edilməsinə həsr olunmuşdur.

## HƏZİ ASLANOVLA GÖRÜŞ

Tırtıllı tankların gur səsindən sonra dalbadal qumbara atıldı. Qumbaraların gurultusu torpağı lərzəyə gətirdi. Kazarmanın qapıları və şüşələri cingilti ilə yerə töküldü. Yuxudan sərsəm oyanan əsgərlər komandirin gur səsini eşitdilər: – Müharibə! – deyə qışqıran gənc leytenant: – Silaha sarılın! – komandasını dalbadal təkrar etdi.

1941-ci il iyul ayının 26-da Kiyev şəhəri yaxınlığında yerləşən dördüncü mexanikləşdirilmiş korpusun tərkibində iyirminci tank alayının əsgər və zabitləri yağı düşmənlə döyüşə girdi. Bu ölüm-dirim savaşında mərdliklə vuruşan alayda bircə nəfər həmyerlimiz vardı. O, iyirmi bir yaşı yenicə tamam olan bərdəli Qaçay Allahqulu oğlu Aslanov idi. Artıq ikinci il növbəti hərbi xidmətdə olan Qaçayı alayda hamı nizam-intizamlı bir zabit kimi yaxşı tanıyırdı.

Bütün Avropanı ayağa qaldıran Hitler Almaniyası ilk vaxtlar çox sürətlə irəliləyirdi. Yaxın Şərqə yol açmaq istəyən faşizm özünün “məğlubedilməz” ordu gücünü Stalinqrada yönəltmişdi. Ona görə də Ali Baş Komandanlıqdan gələn əmrə əsasən leytenant Qaçay Aslanovun döyüşdüyü alay da Stalinqrad cəbhəsinə

göndərildi. Onların alayı şəhərin qərb hissəsindəki Uşakovka kəndi yanında yerləşirdi. Döyüşlər beş ay idi ki, davam edirdi. Nə gecə, nə də gündüz vuruşma ara vermirdi. Tapşırıq çox qəti verilmişdi. Düşməni şəhərə buraxmamaq! Bir neçə döyüş əməliyyatında igid zabit kimi döyüşən Qaçay Aslanovun sinəsini "Qırmızı Ulduz" ordeni bəzəyirdi. Onu hamı "leytenant Aslanov" deyə çağırırdı.

Bir axşam Qaçayı alay komandiri podpolkovnik Vladimir Litvinov torpaq qazmaya yanına çağırdı. Onun yanında orta boylu, suyuşirin qaraşın bir zabit də vardı. Litvinov gülümsünüb:

– Hə, həmyerlilər, Aslanovlar, tanış olun, – dedi və əlini Qaçayın çiyninə toxundurub, – bu da bizim igid Azərbaycan oğlu Aslanovumuzdu, – deyə podpolkovnikə təqdim etdi.

Yanağı sərt şaxtadan azca allanıb qızarmış qonaq podpolkovnik Aslanov əlini Qaçaya uzadıb:

– Tanış olaq, – dedi, – eloğlu, mən Həzi Aslanovam. Hər dəfə komandirinlə görüşəndə səni bolluca tərifləyir. Hətta zarafatla deyir ki, Həzi, sənin qardaşın leytenant Aslanov alayımızın fəxridir. Gəldim ki, səninlə tanış olum. Çox sağ ol ki, xalqımızın başını uca edirsən.

Qaçay utancaq baxışlarını bilmədi harada gizlətsin, utandığından qızardı. Həzi Aslanov isə elə hey onu tərifləyirdi. Söhbətinə ara verər-verməz komandiri Litvinov onun şücaətindən danışırdı:

– Həzi Əhəd oğlu, – deyirdi, – noyabrın 10-da, iki gün əvvəl, bizim leytenant Aslanovu səhər saat səkkizdə bölüyü ilə Plodaviti kəndi istiqamətində kəşfiyyata göndərdim. Üç saata yaxın apardığı döyüş əməliyyatında düşmənin demək olar ki, bir rotasını yarıbayarı məhv edib geri oturtdu.

Həzi Aslanov bu dəfə doğma ana dilində, canıyananlıqla dedi:

– Özünü gözlə, eloğlu, sən hələ çox cavansan. Neçə yaşın var?

– İyirmi iki, yoldaş podpolkovnik, – Qaçay nizami əsgəri qaydada cavab verdi.

– Axı biz hələ sənin toyunda oynamalıyıq. Sənə bir böyük qardaş məsləhətim, çalış döyüş vaxtı bölüyünün arxasını boş qoyma, onda daha arxayın vuruşarsan, döyüş uğurun da artıq olar. Yaxın günlərdə bir cəbhədə vuruşacağıq. Mən çayın o tayında müdafiədə duran 55-ci əlahiddə tank alayının komandiriyəm. Mənim alayımda da sənin kimi qoçaq həmyerlilərimiz çoxdur. Amma sən burda, bu alayda tək-tənhasan. Darıxmırsan ki?

– Nə danışırsınız, yoldaş podpolkovnik, heç bu frislərin əlindən darıxmağa vaxt var… İcazə verin, yoldaş podpolkovnik, bir söz də mən deyim.

Həzi xoş təbəssümlə:

– Buyur! – dedi, – eşidirəm səni.

– Bax, siz məni tərifləyirsiniz. Mən yalnız alayımızda tanınıram. Sizi axı bütün ölkə, bütün Azərbaycan tanıyır, fəxr edir. Sizin Moskvaətrafı döyüşlərdə göstərdiyiniz qəhrəmanlığı bütün Azərbaycan mətbuatı qızılı hərflərlə yazır. Mən Vətəndən aldığım qəzetlərdə Sizin haqqınızda bolluca yazılar var.

– Qaçay, eloğlu, nə poetik danışığın, nə də ləhcən bizim Lənkəran, Astara bölgəsinə bənzəmir. Bilmək istərdim mənim həmfamilim olan igid hansı bölgədəndir? Bilirsən niyə soruşuram? Alayıma qayıdanda mənim "uşaqlarım" belə şeyin çox marağındadırlar, bilirəm ki, məni sorğu-suala tutacaqlar.

– Qarabağlıyam, yoldaş podpolkovnik, Aran Qarabağın Bərdə rayonundanam. Kəndimin də adı Kələntərlidir. Xanlıq dövründə bizim kənd Cavanşir xanlarının şəxsi mülkü olub. Tarixə Batmanqılınc adı ilə düşən igid Məmməd bəy Mehrəli bəy oğlu Cavanşirin kəndi olub.

Podpolkovnik Həzi Aslanov gülümsünüb:

– İcazə ver, səndən soruşmadan özünə deyim ki, sənin şeir yazmaq qabiliyyətin var. Bir də Qarabağlı olasan, yaxşı səsin olmaya, bunlar da varmı?

– Yeri gələndə, şair Səməd Vurğun demişkən, az-az uydururam…

– Səmədlə tanışlığın varmı?

– Yox, heç üzünü görməmişəm. Amma "Vaqif"ini və qoşmalarını əzbərdən bilirəm.

– Ancaq mən yaxşı tanıyıram, ötən il Moskvada təsadüfən görüşdük. Restoranda birgə nahar etdik. Mən ona bir məktub da yazıb verdim. Özü şəxsən aparıb anam Nuşuya çatdırıb. Sağ olsun, anam yazır ki, Həzi, oğlum, Səməd Vurğunun bizə gətirdiyi məktub bizə xeyli təsəlli verdi sənin barəndə… Qaçay, Allah qoysa, bu frislərin axırına çıxaq, müharibə qurtarsın, sənin toyuna Səmədlə gələrik… İndi mən getməliyəm, axşam toranı düşür. Sənə ən vacib tövsiyəm – döyüş vaxtı özünü qoru…

Podpolkovnik Litvinov gülə-gülə:

– Həzi Əhəd oğlu, sizin dili bilməsəm də danışığınızın abıhavasından belə başa düşdüm ki, qohum çıxdınız. Mən buna çox şad oldum.

Ayağının birini qaçaraq qoyub getmək istəyən Həzi Aslanov geriyə dönüb gülə-gülə dedi:

– Biz azərbaycanlılar harada yaşayıb işləməyimizə baxmayaraq, bir ananın, bir atanın övladlarıyıq. Vladimir Pavloviç, çox sağ ol, məni həmyerlimlə tanış etdin. Sənə çox-çox təşəkkür edirəm. Yaxın günlərdə səndən bir dost xahişim olacaq. Belə maraqlı zabit cəbhədə azdı. Mən uşaqlıqdan şeir, musiqi vurğunuyam. Vətənimdən də xeyli vaxtdı ayrılmışam. Oraya ancaq iki ildən bir məzuniyyət vaxtı gedə bilirəm. Əgər mümkün olsaydı, gənc leytenant Aslanovun mənim alayıma keçməsinə icazə verərdin. Onunla bu qısaca söhbətimizdən hiss etdim ki, Azərbaycan tarixini, incəsənətini yaxşı bilir.

Podpolkovnik Litvinov dedi:

– Narahat olmayın, Həzi Əhəd oğlu, sənədlərini hazırlayıb günü sabah göndərərəm. Açığını deyim, belə qoçaq, nizam-intizamlı zabiti hər komandir əlindən verməz. Neyləmək olar, arada dost xahişi var, ona əməl etmək borcumuzdur.

Pəhləvan cüssəli, qaraşın Həzi Aslanov kefi durulmuş halda bir-iki addım geriyə atıb dostu Litvinovun əlini sıxıb təşəkkür etdi.

– Çox sağ ol ki, – dedi, – dost xahişini yerə salmırsan. Hələlik, görüşənə qədər.

Həzi Aslanov gedəndən sonra podpolkovnik Litvinov fikirli-fikirli qazmaya göz gəzdirdi. Elə bil iki aydan çox yaşadığı komandir qazmasını ilk dəfə görürdü:

– Hə, kiçik Aslanov, – dedi, – bəxtin açıldı, gedirsən eloğlunun yanına, bunun hamısı sənin əla xidmətinə görədir. Həzi Əhəd oğlu qoçaq komandir və gözəl insandır. Gördün, beş-üç kəlmə kəsməklə elə ilk görüşdən sənə həm zabit, həm də insan kimi rəğbət bəslədi. İnanıram, sən leytenant Aslanov, orada həm bizim, həm də Həzi Əhəd oğlunun alayının adını şərəflə doğruldacaqsan. İcazə verirəm, sabahdan hazırlaş. Həzinin alayında qulluq etməyə yola düşəcəksən. Nə fərqi var, orada da Vətəni müdafiə edəcəksən. Bu barədə elə bu axşam rota komandirinə məlumat ver. Gedə bilərsən! – deyib podpolkovnik Litvinov ona bir daha uğur dilədi. Birdən gülümsünüb: – Hələ bir an ayaq saxla görüm, Aslanov, amma müharibədən sonra Həzi Əhəd oğlu ilə məni Azərbaycan plovuna qonaq etməyi unutma ha…

Leytenant Qaçay Aslanov:

– Oldu, yoldaş komandir, – deyib, sağ əlini gicgahına aparıb əsgəri qaydada xudahafizləşməyə icazə istədi. – Allah qoysa, frislərin axırına çıxaq, müharibə qurtarsın. Süfrədə Gəncə konyakı olmaq şərtilə Azərbaycanda qonağımız olarsınız, – deyib yeraltı qazmadan çıxdı.

# GENERAL HƏZİ VƏ QAÇAY ASLANOVLAR STALİNQRAD DÖYÜŞLƏRİNDƏ

*"Biz Stalinqrad altındakı döyüşlərdə tanış olduq. O vaxt Həzi tank alayının komandiri idi. Həzi Aslanovun alayı feldmarşal Manşteynin qoşun qruplaşması ilə ölüm-dirim mübarizəsi aparırdı. Bu döyüşdə Həzi Aslanovun alayı hünərlə, bacarıqla vuruşaraq düşmənin 17 tankını, çoxlu döyüş texnikasını və piyadasını məhv etmişdi. Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ad Həzi Əhəd oğluna həmin vaxt verilmişdi".*

***A.İ.BELOV,***
*SSRİ Rabitə Qoşunları Marşalı*

*Həzi Aslanovun tankçıları zirzəmisində faşist diviziyasının qərargahı yerləşən binanı tutdular. Biz, aslanovçular, bir neçə zabiti əsir alıb, mühüm sənədlər əldə etdik. Faşist diviziyasının komandiri öldürülmüşdü.*

*Podpolkovnik Həzi Aslanov düşmən birləşməsinin qərargahında stulda əyləşərək bizə dedi: "Qiyamət etdiniz, qardaşlar! Əhsən, sizlərə!" Bizə qələbə qazandıran bu sözlərdəki etibar, coşqun məhəbbət idi. Bu tükənməz hünər və cəsarət idi. Düşmənin 20 yaralı, 75 zədələnmiş tankını, 100 avtomaşınını, 6 uzaqvuran topunu, çoxlu minomyot və avtomatlarını ələ keçirmişdik. Bundan əlavə ərzaq və döyüş sursatı ilə dolu iki anbar tutmuşduq. Onlarca əsgər və zabiti əsir almışdıq.*

***A.Xarin,***
*Ehtiyatda olan qvardiya*
*baş leytenantı, Aslanovçu*

Stalinqraddan söhbət düşəndə 1942-ci il dekabrın 17-də və 18-də olan həlledici döyüş günlərini ehtiyatda olan qvardiya mayoru Qaçay Aslanov heç cür unuda bilmirdi.

Müharibədən sonra həmin döyüş günlərini yada salan veteran Qaçay Aslanov şöhrətli generalımız, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovla həmin həlledici döyüşlərdə olan epizodu qısaca yazdı. O yazırdı: "Əməliyyat başlamazdan bir neçə saat əvvəl məni briqada komandiri polkovnik N.N.Belıy yanına çağırdı:

– Yoldaş baş leytenant, – dedi, – siz ixtisasca həkimsiniz və aldığım məlumata görə pis zabit-döyüşçü deyilsiniz. Komandanlıq sizə belə bir tapşırıq verir. Növbəti başlanacaq döyüş vaxtı komandiriniz podpolkovnik Həzi Aslanovu addım-addım izləyib onun müdafiəsinə başınızla cavabdeh olursunuz.

– Oldu, yoldaş polkovnik, – dedim, – icazə verin tapşırığı yerinə yetirmək üçün mürəxxəs olum.

Əlbəttə, bu tapşırıq mənim ürəyimcə idi. Bu günə qədər şöhrətli eloğlum Həzi Aslanovla ara-sıra görüşürdümsə, indi onunla birgə addımlamaq mənə qismət oldu. Bu barədə Həzinin yavərinə məlumat verdim. Yavər gülümsünüb dedi ki, sizə qərargah rəisinin təklifi ilə bu məsul vəzifə tapşırılır.

Dekabrın 17-də döyüş meydanında düşmən ordusundan çoxlu öldürülən və yaralanan olmasına baxmayaraq, faşistlər üzərimizə yeni qüvvə göndərməkdə davam edirdi. Texnika cəhətdən sayı çox olan düşmən qoşun hissələrimizi mühasirəyə almaq xəyalına düşmüşdü. Vəziyyətimiz qorxulu anlara yaxınlaşırdı. Ona görə də briqada komandiri polkovnik Belıy ehtiyatda saxlanan 55-ci tank alayının komandiri, podpolkovnik Həzi Aslanova belə bir əmr verdi:

– İndi sizin növbənizdi, – dedi. – Bizi bu ağır vəziyyətdən çıxarmağa yalnız sizin komandanlıq etdiyiniz alay qadirdir. Ümidimizi sizə bağlamışıq. Çünki bizəköməyə gələn ikinci zərbə artilleriyası (həmin artilleriyanın komandanı o vaxt general-polkovnik Radion Malinovski idi) hələ də gəlib çatmayıb. Alayınızda olan 35 tankın hamısı texniki cəhətdən tamamilə sazdı.

Alayımız dördüncü mexanikləşdirilmiş korpusun sərəncamında olduğuna görə komandan, general-leytenant Viktor Timofeyeviç Obuxova bu barədə məlumat verdilər. Razılıq alınandan sonra qarşıdakı çətin, əzablı, həm də çox məsuliyyətli döyüşə girməyə əmr verildi. Həmin anlarda mən QAZ-67 markalı zirehli maşının yanında dayanmışdım. Komandanlığın məntəqəsində nə danışılırdısa, hamısını aydınca eşidirdim.

Podpolkovnik Həzi Aslanov həmişə olduğu kimi komandir tankına mindi. Əlindəki kiçik göy və qırmızı bayraqlarla alayın və tankların arxasınca irəliləməsinə işarə verdi. Həzinin işarəsi ilə alay ön cəbhəyə irəliləmək əvəzinə döyüş meydanının sol cinahına doğru hərəkət etdi.

Faşistlər ilk vaxtlar bizi sox sıxışdırırdılar. Hər yer top və pulemyot atəşinə tutulurdu. Bizdən tələfat get-gedə çoxalırdı. Artıq bir neçə tankımızı da yandırmışdılar. Hamımız ölümün gözünə dik baxırdıq. Sanki canımızda qorxu hissi ölmüşdü. Andımız belə idi: əsir düşməmək, mövqedən bir addım da geri çəkilməmək. Bu, komandirimiz Həzi Aslanovun əmri idi. Dalınca da sərt səslə belə dedi: Əlbəyaxa döyüşə hazır olun!

Alayımız komanda məntəqəsindən xeyli uzaqlaşıb Salsk çölünün qərb istiqamətinə çatdı. Düşmən burda dayanmışdı. Çöllər dizə qədər qarla örtülü idi. Əsgər və zabit heyətinin hamısı ağ plaş-çadır geyinmişdi. Bəzi açıq yerlərdə sürünə-sürünə gedirdik. Topların lülələri ağ rənglə boyanmışdı. Qarın üzərində qara cığır qalmamaq üçün tankın keçdiyi yolu, ləpirləri və izləri qarla örtürdük. Bunların hamısı düşmən təyyarələrindən gizlənmək üçün komandirin əmrilə olunurdu. Faşist təyyarələri göylərə nərə salır, havanı yararaq arabir mərmi tökürdü. Tez-tez atılan fişənglər də göydə cövlan edirdi. Bizim alaya və qonşu hissələrə tapşırılmışdı ki, Fon Paulsun Stalinqrad yaxınlığında mühasirəyə düşmüş qoşunlarına köməyə gəlmək istəyən feldmarşal Fon Manşteynin böyük tank və motorlu qüvvələrinin qabağını kəssin. Hitler yeni göndərdiyi canlı qüvvə ilə bərabər 300-dən çox “Pələng” adlı ağır tanklar və xeyli zirehli maşınlar da buraya yeridilmişdi. Kəşfiyyat xəbər gətirmişdi ki, hər iki faşist qoşunla-

rının cəhd edib birləşmək istədikləri ara məsafəsi qırx beş-əlli kilometr idi. Bizim alay və bir neçə başqa hərbi qüvvələr bu məsafədə döyüş aparmalı və onlara birləşməyə imkan verməməliydi. Burada, Salsk çölündə düşmənlə ölüm-dirim savaşı gözlənilirdi.

Komanda məntəqəsindən hey çağırırdılar: "Çayka, çayka, cavab ver, hardasan?" Bu, komandirimiz Həzi Aslanovun məxfi adı idi. Nədənsə, komandir susur, hiss olunurdu ki, bərk fikirlidir, nəyisə ölçüb-biçir.

Düşmən uzaqlardan arabir onlara tərəf atırdı. Həzi Aslanov sakit səslə dedi:

– Əclaflar deyəsən gəlişimizdən duyuq düşüblər.

O, zabit heyətini çox da böyük olmayan yarğana yığdı. Burada yarı yerə batmış qayanın altını özümüzə sığınacaq elədik. Komandir: – Hə, – deyə üzünü zabitlərə tutdu. – Vəziyyət belədi. Əgər biz düşmənlə üzbəüz döyüşə girsək, sayca çox olan faşistlər bizim alayı məhv edə bilər. Ona görə də belə fikirləşirəm ki, düşmənə yalnız sağ cinahdan və arxadan hücum etmək lazımdır. Çünki alman tanklarının yan zirehləri cinahdan zəif olur. Həm də motor yerləşən hissə sağ cinahdan daha asan nişangaha gəlir. Xəbərdarlıq edirəm, mənim işarəm olmadan heç kəs atəş açmasın. Vəziyyət çox mürəkkəb və məsuliyyətlidir. Tanklarımızın əsas qrupu sağdan düşmənin arxasına keçəcək. Bu qrupa özüm rəhbərlik edəcəm.

Volkov soyadlı mayor Həzi Aslanova müraciət edib dedi:

– Yoldaş podpolkovnik, icazə verin soruşum. Siz nə üçün cinah atəşinə üstünlük verirsiniz?

Həzinin güləş sifəti bir anda ciddiləşdi. Ayağını bərkdən daşa vurub üstünün qarını təmizlədi.

– Bilirsiniz, – dedi, – mən ilk hərbi təhsilimi Bakı hərbi məktəbində almışam. Orda bizim müəllimlərimiz məşhur general Səməd bəy Mehmandarov, Əli ağa Şıxlinski və topoqrafiya generalı İbrahim ağa Vəkilov idi. Başqa müəllimlərimiz də vardı. Artilleriya generalı Əli ağa Şıxlinski bizə döyüş taktikasından mühazirə oxuyanda həmişə deyirdi:

– Cinahdan atılan bir top öndən atılan iki topun işini görə bilər. Ona görə də döyüş vaxtı topları və tankları elə yerləşdirmək lazımdır ki, hər bir hədəfə ya cinahdan, ya da çəpinə atəş açmaq mümkün olsun.

General Şıxlinski Port-Arturda, Dünya müharibəsində iştirak eləmişdi. "Artilleriya allahı" kimi ad-san qazanmışdı, böyük təcrübəsi vardı. Onu da xüsusi qeyd edərdi ki, almanlar cinah döyüşündən çox zəifdirlər. Onlar üstünlüyü həmişə ön xəttə verirlər. Bu da onların lovğalığından irəli gəlir. Cinahı və arxanı isə boş qoyurlar. General həmişə deyərdi ki, müharibədə cinah döyüşü yüz faiz olmasa da, səksən faiz qələbə deməkdir.

Alay katibi Qolovaşşenko:

– Yoldaş komandir, – dedi, – nə qədər ki, ayazlı günəş var, qar yağmır. İcazə verin, biz zabitlər xəritəni yenə gözdən keçirək.

– Buyurun, – deyib geri çəkilən Həzi bilmədən mənə toxundu. Qolumdan yapışıb çox səmimi gülümsündü. Onun yaraşıqlı, qaraşın üzünə elə bil işıq seli yayıldı. Bir az əvvəlki fikirli Həzi Aslanovdan indi əsər-əlamət yox idi. – Necəsən, eloğlu, qorxmursan ki? Axı bu, sənin ilk döyüşün deyil…

Mən əsgəri qaydada farağat vəziyyətdə dayanıb:

– Yox, – dedim, – yoldaş komandir, qorxmuram. Qorxan zabitin burda nə işi var…

– Hə, balaca Aslanov, unutma ki, Vətən uğrunda, Azərbaycan naminə döyüşə gedirik. Onu da bil ki, faşist köpəkləri burdan Bakıya, Qafqaza girmək ümidindədirlər. Əlindəki silah ana və bacılarımızın namusunu qorumaq üçün sənə verilib. – Əlini qurşağımdakı xəncərin üstünə qoyub: – Sənə bu xəncəri nahaq yerə bağışlamamışam. Güllən qurtaranda bax, bu xəncəri dəstəyinə qədər faşistin ürəyinə soxmamış döyüşdən çıxma. Xoşum gəldi cavabından. Çox ürəkdən dedin ki, qorxmuram. Həmişə belə nikbin və cəsur ol! Onu bil ki, qorxu ilə düşmən üstünə gedən istər zabit, istərsə də əsgər olsun, heç vaxt qələbə qazana bilməz. Müdriklərimiz haqlı deyiblər ki, qorxaq gündə yüz dəfə ölər, mərd isə bir dəfə həlak olar. Di, Allah amanında…

* * *

***Üzbəüz həmlə nə qədər cazibədar olsa da, mən düşmənin cinahlarına zərbə endirməyi həmişə üstün tuturam… Məlumdur ki, alman maşınlarının yan zirehi ön zirehindən xeyli kövrəkdir. Buna görə də hitlerçiləri məcbur etmək lazımdır ki, tankların kövrək yerlərini bizə tərəf çevirsinlər…***

***Düşmənin cinahlarını axtarmaq və ona həmişə ən zəif yerindən zərbə endirmək asan iş deyildir, bunun üçün hər bir komandir böyük zəhmət çəkməli, zirək və təmkinli hərəkət etməlidir.***

***Sovet İttifaqı Qəhrəmanı, qvardiya podpolkovniki Həzi Aslanovun "Faşistlərə cinahdan zərbə endirmək döyüşdə əsas məqamdır" məqaləsindən, "Pravda" qəzeti, 27 dekabr 1942-ci il***

Döyüş mövqeyi sağ cinahda yerləşən "Səkkiz mart" sovxozu yaxınlığındakı Aksay və Mışkov çayları istiqamətinə çıxarıldı. Oradan da faşist tanklarına, arxadan və sağ cinahdan qəflətən hücuma başladıq. Hücuma rəhbərlik edən Həzinin üzü ciddiləşmişdi. O, səbir və təmkinlə gah xəritəyə baxır, gah da rota komandirlərinə əmr verirdi. "Çayka" – Həzi döyüşün uğurlarından razı qaldığı onun yaraşıqlı simasında oxunurdu. Ona görə də ilk dəfə döyüşün uğurları haqqında korpus komandirinə məlumat verdi. Artıq faşistin iri gövdəli, ağır "Pələng" tankları yanırdı. Faşist əsgər və zabitləri bağırışa-bağırışa o yan-bu yana qaçırdılar. Düşmənin pis və çıxılmaz vəziyyətə düşməsi açıq-aydın Salsk çölündə görünürdü. Döyüşün üçüncü günü bizim alay düşmənin xeyli canlı qüvvəsini əsir götürüb on yeddi tankını yandırmışdı. Yadımdadı, əsir frislərdən biri rusca qışqıra-qışqıra yalvarırdı: "Ey rus, mən soyuqdan donuram. Al avtomatı, mənə papaq ver" – deyirdi.

Biz inamla irəliləyib atəşi daha da gücləndirdik. Yandan artilleriya, arxadan və öndən düşmənə qarşı atəşi bir an da olsa dayandırmırdıq. Döyüş meydanı alov və tüstüyə bürünmüşdü. Düşmənin yanan tankı, hərbi sursatı məşəl kimi alov saçırdı. Qarlı çölün hər addımında faşist meyiti vardı.

Sevinirdik ona görə ki, nal şəklində mühasirəyə alınmış Stalinqradı düşmən ala bilməyəcək. Kiçik fasilə vaxtı hava radiosunda Həzinin yenə səsi eşidildi. "Çayka" Aslanov səkkizinci briqadanın "Sokol"una raport verirdi. O deyirdi ki, artıq üçüncü gündür vuruşuruq. Bu gün axşamüstü mənim tankımı vurdular. Onun bu xəbərinə general-leytenant B.Obuxovun bir az acığı tutdu. General dedi ki, nə üçün özünü nişangah etmisən? Sənin vəzifən komandanlıq etməkdi. İndi bu uzaq məsafədən sənə necə kömək edək? Həzi cavabında dedi ki, narahat olmayın, tankımın döşəməsində olan qapı salamatdı, onu açıb təmir edəcəyik. Elə də oldu. Düşmən mərmisi Həzinin tankının sağ tırtılının təkərini vurub sıradan çıxartmışdı. Ona görə də tankın döşəməsində olan qapını açıb tırtılı çıxartdıq. Bir fraksionla "Səkkiz mart" sovxozuna kimi getdik, orda əsaslı təmir etdik.

Döyüşün dördüncü günü alayımız çoxlu döyüş sursatı və qənimət ələ keçirdi. Hitlerin sədaqətli feldmarşalı Manşteynin tank qoşunları, general Qotun tank qrupu Azərbaycanın otuz iki yaşlı igid oğlu, podpolkovnik Həzi Əhəd oğlu Aslanovun qeyri-adi komandanlığı ilə darmadağın edildi.

1942-ci il dekabrın 18-də alayımız Verxne-Kumsk xutoru ətrafında daha bir yaddan çıxmaz döyüş apardı. Salsk çölündən qaçıb canını qurtaran faşist əsgər və zabitləri general Qotun başçılığı ilə gəlib burda cəmləşmişdilər. Beş gün gecə-gündüz Həzinin burda apardığı döyüşlər daha uğurlu oldu. Ağ qarlı çöldə faşistlərin meyitinə, yandırılmış tankın və zirehli maşınların burulub göyə qalxan alovunun qalın qara tüstüsünü lap uzaqlardan görmək olurdu.

Bununla da Stalinqrad cəbhəsində zəfər çalınmasının labüd olduğu bir daha öz təsdiqini tapdı. Həmin gün – 1942-ci il dekab-

rın 18-də ***Ali Baş Komandan Stalinqrad döyüşçülərinə belə bir teleqram göndərdi: "Sizin inadlı döyüşlərinizlə fəxr edirəm. Bir addım da geriyə çəkilməyin. Döyüşdə fərqlənən əsgər, zabit və komandirləri Dövlət mükafatına təqdim edin. İ.Stalin"*** *(Sitat Böyük Vətən müharibəsi illərində Stalinqrad Vilayət Partiya Komitəsinin birinci katibi və şəhər partiya komitəsi katibi A.S.Çuyanovun "Stalinqrad gündəliyi" (1941-1943) kitabından götürülüb. Volqoqrad, 1979-cu il, səh. 332).*

Qvardiya mayoru Qaçay Aslanovdan az da olsa çox səliqəli arxiv qalıb. Sənədləri, fotoşəkilləri, general Həzi Aslanovla görüşlərini və xatirələrini ötəri də olsa yazıb saxlayıb. Amma bəzi veteranlar kimi özünün qəhrəmanlığını heç yerdə şişirtməyib. Halbuki araşdırmalardan məlum olur ki, o, Kiyev, Stalinqrad və Belarusiya döyüşlərində şücaətlə vuruşub.

Təvazökarlıqdan sağlığında da bu barədə mətbuatda çıxış etməyib. Yalnız döyüş dostu mayor Boris Qradusdan aldığı məktubdan sonra müharibə haqqında xatirələrini yazıb. Bu sənəd və xatirələr arasında Qaçay Aslanovun Ali Baş Komandan Stalin haqqında böyük məhəbbətlə yazdığı bir epizoda da rast gəldik. O yazır:

"…Stalinqrad faşistlərdən tamam təmizləndikdən sonra seçmə qvardiyaçı zabitlərdən bir rota təşkil etdilər. Məni də təlimatlandırıb bu rotaya göndərdilər. Məlumat verdilər ki, Ali Baş Komandan şəhərə baxmağa gələcək. Yeni təşkil olunmuş rota Stalinin mühafizəsində dayandı.

Tehran Konfransından qayıdan Stalin Bakıdan keçib yolüstü Stalinqrada gəldi. Stalin dağılmış şəhərə, Paulyusun keçmiş qərargahına və küçələrə tökülüb qalmış yığın-yığın faşist dəbilqələrinə baxdı. Dərindən köksünü ötürüb:

– Eh, bədbəxt qaliblər… Bu dəbilqələr də hansısa başda olub? Amma biz şəhəri əvvəlkindən də gözəl, yenidən tikəcəyik. Xalqımızla birgə hər şeyi yenidən yaradacağıq!

Stalinin maşını uçub dağılmış küçələrlə və çoxlu yandırılmış faşist texnikasının qalaqları arasından irəliləyirdi. Ali Baş Ko-

mandanın maşını sərt döngələrin birində qarşıdan gələn yük maşını ilə toqquşdu. Yük maşınının sürücüsü yerə düşəndə gördük qadındır. Biz yük maşınını və sürücü qadını dərhal mühasirəyə aldıq. Stalin də maşınından düşdü. Stalini tanıyan sürücü qadın qorxusundan əsə-əsə ağlamağa başladı. Stalin yaxınlaşıb onu sakitləşdirdi, təsəlli verib dedi:

– Siz ağlamayın… bizim maşın zirehlidir, ona heç nə olmadı. Siz çalışın öz maşınınızı düzəldin. – Ağlayan qadının başını sinəsinə sıxıb onun saçını tumarladı.

Bu vaxt hardansa bir milis işçisi gəlib çıxdı. Stalin milisin qadına hirslə baxdığını görüb:

– Sizin onunla işiniz olmasın, ona toxunmayın. Sürücü qadın günahkar deyil, ona kömək edin maşınının əzilən yerini düzəltməyə… – deyib maşına oturdu. Şəhərin başqa küçələrinə baxmağa getdi”.

İstefada olan qvardiya mayoru Qaçay Aslanovun şəxsi arxivində qayğı ilə qoruyub saxladığı bir cəbhə qəzeti də var: “Сталинское знамя” qəzeti 1942-ci il dekabrın 29-da öz səhifələrində Həzi Aslanovun rəhbərlik elədiyi alayın fəaliyyətinə səxavətlə yer verib. Qəzetdə oxuyuruq: “Stalinqrad cəbhəsinə hücum başlandıqdan sonra Həzi Aslanovun tankçıları düşməni əzərək və təqib edərək döyüşdə daha böyük şöhrət qazandılar. Bir aya qədər davam edən döyüşlərdə podpolkovnik Həzi Aslanovun alayı faşistlərin 45 tankını, 9 minaatan batareyasını, 14 tankvuran topunu, 12 səhra topunu, 42 taxta-torpaq atəş nöqtəsini və müxtəlif yüklə dolu 50 avtomobilini məhv etmişdir. Düşmənin 2000-ə qədər əsgər və zabitini qırmış, 700 hitlerçini əsir götürmüşdür. Tankçılar alayı 125 yük avtomobilini və traktoru, 12 minik avtomobilini, 30 motosikletini, 80 araba müxtəlif yükünü, bir araba döyüş sursatını, bir anbar ərzağı, çoxlu sayda hərbi geyim və başqa hərbi ləvazimatı ələ keçirmişlər”.

1942-ci il dekabrın 22-də podpolkovnik Həzi Aslanovun 55-ci əlahiddə tank alayının bir qrup əsgər və zabiti dövlət mükafatı ilə təltif edildi. Komandir H.Aslanova Sovet İttifaqı Qəhrəmanı

kimi yüksək ad verildi. O, həm də polkovnik rütbəsi ilə təltif olundu.

Generalın sadiq zabiti baş leytenant Qaçay Aslanov isə Stalinqrad döyüşlərindəki hərbi fəaliyyətinə görə 1942-ci il dekabrın 18-də "Qırmızı Ulduz" ordeni və "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olundu.

Müharibədən neçə illər keçməsinə baxmayaraq Həzi Aslanovun 55-ci Əlahiddə tank alayının Verxne-Kumski yaşayış məntəqəsi uğrunda apardığı ağır döyüşlər unudulmadı. Marşal S.S.Biryuzov 1966-cı ildə "Ağır illər" kitabının 116-cı səhifəsində yazır: "Aslanovçuların hər bir döyüşçüsü əsil pəhləvan idi. Onlar öz mövqelərini bir neçə gün idi ki, qəhrəmanlıqla müdafiə edirdilər. Əlli beşinci Əlahiddə tank alayının, habelə onlara kömək edən topçuların və minomyotçuların mətanəti sayəsində ordumuzun ön hissələri düşməni altı saat qabaqlayıb dekabrın 18-də axşamüstü Mışkova çayına çatdılar və onun şimal sahilində qabaqcadan hazırlanmış müdafiə mövqeyini tutdular. Dekabrın 19-da sübhçağı isə Mışkova xəttində döyüşlər öz kulminasiya nöqtəsinə çatdı".

Həmin günlərdə hadisələrin iştirakçısı, Cənub-Şərq cəbhəsində siyasi idarənin rəisi, general-mayor P.İ.Popov yazır: "Podpolkovnik H.Ə.Aslanovun komandanlıq etdiyi 55-ci Əlahiddə tank alayının tankçıları müstəsna rəşadət göstərdilər. Dördüncü mexanikləşdirilmiş korpusun başqa hissələri ilə birlikdə alay düşmənin on iki həmləsini qəhrəmanlıqla dəf etdi. Faşistlərin qüvvələri alayın qüvvələrindən üç-dörd qat üstün idi. Lakin mərd "Aslanovçular" davam gətirdi" (P.İ.Popov. "Söz də döyüşçüdür". "Stalinqrad vuruşması" məqalələr məcmuəsi, Volqoqrad, 1970, səh. 117).

Yüz qırx gün fasiləsiz davam edən Stalinqrad döyüşlərində düşmənin 22 diviziyası, iki tank korpusu məhv edildi. Doxsan bir min hitlerçi, iki min beş yüz zabit, iyirmi üç faşist generalı və Hitlerin güvəndiyi feldmarşal Paulyüs əsir alındı.

## SÜVARİ GENERALI YAQUB QULİYEV

***Ölümümdən sonra da mən insanlar üçün ulduz və cəsarət rəmzi olacam. Mənim adım onlar üçün çağırış, məqsəd və ümid simvoluna çevriləcəkdir.***

***Napoleon Bonapart (1769-1821)***
***fransız imperatoru və sərkərdəsi***

***Azərbaycanlılarla türkmənlər eyni anadan doğulan əkiz övladlardır. Əsrlər boyu məqsədimiz, muradımız da bir olubdur.***

***Berdı Kerbabayev (1894-1974)***
***türkmən xalq yazıçısı***

Stalinqradın azərbaycanlı qəhrəmanlarından biri də bu günə qədər xalqımızın yaxşı tanımadığı – süvari general-mayoru Yaqub Allahqulu oğlu Quliyevdir. Həmin döyüşlərin qəhrəmanı qvardiya mayoru Qaçay Aslanov təsvir etdiyi döyüşlərdə general həmyerlimizlə eyni cəbhədə vuruşub. Xatirələrinin yalnız bir yerində Qaçay Aslanov onun adını və döyüş fəaliyyətini yada salır. Görünür, məlumatı az olub, şəxsən onu tanımayıb.

Əlbəttə, general Yaqub Quliyevi o vaxtlarda tanıyan olsa-olsa ancaq general Həzi Aslanov olardı. Ona görə ki, Həzi Aslanov da, Yaqub Quliyev də ali zabit heyəti dəstəsinə məxsus idi. Onlar müşavirələrdə, həlledici döyüş planının müzakirəsində, ordu komandanının məsləhət və məşvərətində, şübhəsiz ki, görüşüb tanış olmuşdular.

Təəssüf ki, Həziyə müharibədən sağ çıxmaq qismət olmadı. O, 1945-ci il yanvarın 24-də qədim kəhrəba diyarı Litvanın Yelqava şəhəri uğrunda döyüşlərdə qəhrəmanlıqla həlak oldu.

Müharibədən yazılan çoxsaylı memuarlarında, xüsusilə Stalinqrad döyüşləri barədə süvari generalı Yaqub Quliyev haqqında Sovet İttifaqı Marşalı S.S.Biryuzovun "Toplar atəş açmağa başlayanda", Sovet İttifaqı Qəhrəmanı, ordu generalı, professor S.P.İvanovun "Ordu qərargahı, cəbhə qərargahı", general-leytenant Həsən Xaraziyanın "Mərdlik yollarında", Yakob Melkumovun "Türküstanlılar" kitablarında, S.Skoroboqatovun, B.Qudcalovun, general M.Y.Qryaznovun, A.S.Kibalnikovun məqalə və xatirələrində general həmyerlimiz Yaqub Quliyevin milliyyətcə türkmən olduğu bildirilir. Hətta, 1942-ci il dekabrın 22-də Stalinqrad yaxınlığındakı Liski çayı uğrundakı ağır döyüşlərdə qəhrəmanlıqla həlak olan, 4-cü süvari korpusunun komandir müavini, general Yaqub Quliyevin cəbhədaşları dəfn mərasimindəki mitinqdə and içmişlər ki, "Türkmən ulduzu" heç vaxt sönməyəcəkdir. Əzizimiz Yaqub bizim qəlbimizdə həmişə nur saçacaqdır, əbədi şölə saçıb ürəklərdə yaşayacaq.

Müharibədən iyirmi beş il keçəndən sonra türkmən tarixçisi Roza Bazarova general haqqında yazdığı monoqrafiyasında ilk dəfə etiraf etmişdir ki, general Yaqub Quliyev azərbaycanlıdır. Tarixçi R.Bazarova 1970-ci il yanvarın 25-də "Ədəbiyyat və sənət" qəzetində monoqrafiyadan bir parçanı dərc etdirmişdir. Tarixçi R.Bazarova yazır: "O, Azərbaycan torpağında – Şuşa şəhərində anadan olmuşdur. Milliyyətcə azərbaycanlıdır. Onun həyat yolu sıravi döyüşçüdən generaladək yüksəlmiş həqiqi insanın həyat yoludur".

Bəli, apardığımız tədqiqat və araşdırmalardan məlum olur ki, general, doğrudan da, azərbaycanlıdır. Bizim xalqın oğludur. Sevindirici haldır ki, türkmən tarixçisi R.Bazarova da bu faktı etiraf etmişdir. Hələ 1982-ci ildə biz generalın Gəncədə toxuculuq kombinatında işləyən bacısı qızı Xədicə Abbasova ilə görüşüb, ondan dayısı haqqında müəyyən faktları öyrənib, fotoşəkillərini almışdıq. O vaxtlar "Hünər" televiziya proqramında veriliş də hazırladıq…

Generalın türkmən xalqının oğlu kimi təqdim olunması və indiyədək xalqımızın onu tanımaması səbəbsiz deyil. Qısa da olsa, bu tarixçəni oxuculara çatdırmaq borcumuzdur. ***Dahi rus yazıçısı Lev Tolstoy çox gözəl demişdir: "Əsl nəşə həqiqəti kəşf etməkdə deyil, gec də olsa onu axtarıb həyata keçirməkdədir".***

* * *

Yaqub Allahqulu oğlu Quliyev 1900-cü il yanvarın 25-də füsunkar Qarabağın Şuşa şəhərində dünyaya gəlib. Həmin vaxtlarda Şuşada erməni-müsəlman qırğını başlamışdı. Aclıq, səfalət və təhlükə tüğyan edirdi. İmperiya canilərinə arxalanan daşnak erməniləri havadarlarından silah alıb azərbaycanlıları qırırdılar. İnsanların üz-gözündən bədbəxtlik, fəlakət yağırdı. Güzəran Şuşada ağır idi. Çörək qıtlığı ərşə qaxmışdı. Hamı ölümdən, aclıqdan qaçıb qurtarmaq istəyirdi.

Həmin illəri tərcümeyi-halında təsvir edən məşhur yazıçı Yusif Vəzir Çəmənzəminli (1887-1943) ürəkağrısı ilə yazırdı: "Çar hökuməti Şuşadakı erməni kilsəsinə məxsus əmlakı almışdı. Bizim vəqf əmlakı da alınmış və indiyə qədər geri verilməmişdi. Bizimlə hesablaşan kim idi ki?.. Rusiya-Yaponiya müharibəsi və inqilab iğtişaşlarından istifadə edərək daşnak firqəsi terrora başladı: günün günortaçağı hökumət məmurlarını küçələrdə öldürməyə başladılar. Şuşada da az adam qırmadılar.

Ermənilər bərk hazırlaşır: bol tüfəng, tapança, patron alırdılar. Daşnak fədailərinin əlindən şəhərdə yer yoxdur. Şuşanın iqtisadi vəziyyəti fəna olduğu üçün sənət və işi olmayanlar çəkilib kəndlərə və başqa şəhərlərə gedirdilər. Əhalinin ziyalısını Bakı və bir qismini də Aşqabad cəlb edirdi".

Bu bəladan qurtarmaq üçün Allahqulu kişi köçüb Türkmənistanın Mərv şəhərinə gəldi. Onda oğlu Yaqub altıaylıq körpə idi. Az müddət burada yaşadılar. Onlardan əvvəl Türkmənistanın şəhər və kəndlərinə xeyli Qarabağlı ailəsi köçüb gəlmişdi. Şəhərdə dolanmaq çətin olduğu üçün Allahqulu kişi həmyerlilərinin məsləhəti ilə köçüb Yolötən qəsəbəsində əbədi məskən saldı.

O, ailəni saxlamaq üçün torpaq aldı, tərəvəz əkib-becərməklə günü-güzəranı xeyli yaxşılaşdı. Yolötəndə Yaqubun bacısı Badisəba və qardaşı Qulam dünyaya gəldi. Ailənin böyük oğlu kimi Yaqub atasına bazarda göy-göyərti satmağa kömək edirdi. Burda nə azərbaycanca, nə də türkməncə məktəb yox idi. Ona görə də həddi-büluğa çatan Yaqubu atası rus məktəbinə qoydu. İlk vaxtlar oxumaq çətin olsa da, Yaqub gecə-gündüz çalışır, sinif yoldaşları ilə ayaqlaşırdı. Boş vaxtlarını Murqab çayının sahilində rus uşaqları ilə hərbi oyunlarda keçirirdi. Yolötən sərhəddə yerləşdiyinə görə burada çoxlu rus sərhədçisi vardı. Yaqub da onların uşaqları ilə dostluq edirdi. Rus dilini az da olsa öyrənə bilmişdi.

1916-cı ilin yazında atası Allahqulu kişi bərk xəstələndi, sətəlcəm olmuşdu. Öləcəyini hiss edən kişi balalarını çağırıb vəsiyyət elədi: "Halal əməklə məşğul olun, ananızın qayğısına qalın" – deyib bir daha yerindən durmadı.

Dolanacaq çətinləşdiyindən Züleyxa ana evdən bəzi şeyləri satmağa məcbur oldu. Bu ağır vəziyyəti görən Yaqubun ürəyi dözmədi. Məktəbi atıb əvvəlcə Yolötəndə, sonra Marıdakı (keçmiş Mərv şəhəri – ***Ş.N.***) pambıqtəmizləmə zavodunda işə düzəldi. Amma sərhədçi uşaqları ilə yenə dostluq edirdi. Tez-tez hərbi hissəyə gedir, rus sərhədçilərinin atlarını sulayır, onlara yem verirdi.

Bir gün evə həyəcanla gələn Yaqub qardaşı Qulama dedi:

– Eşitdin şəhərdəki nümayişi? Çar yıxıldı. Sən anamızdan muğayat ol, mən uşaqlarla iki-üç günlüyə Mərvə gedirəm…

Dediyi vaxtdan bir neçə gün keçdi, gəlib çıxmadı. Gəlib çıxanda anası Züleyxa onun başında qırmızı lentli papaq, əlində tüfəng görüb mat qaldı.

– Bıy, bu ki, qurban olduğum Yaqubdur, sənə nə yaman yaraşır, ay bala, bu paltar... – deyə anası sevincək onu qucaqladı, o üz-bu üzündən dönə-dönə öpdü. Bu nə deməkdi, ay oğul?

– Mən daha qızıl qvardiya əsgəriyəm, ana! – deyib qımışdı.

Qonum-qonşular da bu qaraşın, suyu şirin gənc əsgərə həsədlə baxırdı.

Yaqub Quliyevin hərbi həyatı həmin gündən başladı.

* * *

1918-ci ilin yazında Mərv şəhərində orduya yeni gələnlər üçün ikiaylıq hərbi kurs açılır. Hərbi işə güclü marağı olan Yaqub Quliyev əlaçı əsgər olduğuna görə həmin kursa oxumağa göndərilir. O, burada hərbi təlimlər keçir, müxtəlif silahları həvəslə öyrənir.

Yenidən rotaya qayıdan Yaqub ağqvardiyaçılara qarşı döyüşlərdə iştirak edir. Həmin illərdə onunla birgə xidmət edən S.Skoroboqatov sonralar Yaqub haqqında yazırdı: "Ordu sıralarında sinfi düşmənlərə qarşı cəsarətlə döyüşən qvardiyaçı Yaqub son dərəcə cəsur və qorxmaz idi. Bir dəfə ağqvardiyaçılara əsir düşmüşdü. O, əsirlikdən qaçaraq Yolötənə, ordan da piyada Bayram-Əliyə gəldi və yenidən ordu sıralarında vzvod komandiri kimi düşmənlərlə mübarizəyə başladı. Yaqub əsirlikdən bir qrup yoldaşlarını da xilas eləyib gətirmişdi".

1924-cü ildə Yaqub Daşkənddəki Orta Asiya milli hərbi məktəbə təhsil almağa göndərilir. Məktəbi əla qiymətlərlə bitirən Y.Quliyev orada müəllim saxlanılır və eskadron komandiri vəzifəsinə təyin olunur. Beş ildən sonra – 1929-cu ildə gənc zabit Yaqub Quliyevə daha mühüm vəzifə tapşırılır. O, ikinci Türkmənistan süvari alayının nəzdindəki hərbi məktəbin rəisi təyin olunur.

General Yaqub Quliyevin haqqında yazılan çoxsaylı xatirələrlə, istər Orta Asiya dövrü, istərsə də Böyük Vətən müharibəsi illərindəki fəaliyyəti ilə tanış olanda onun igidliyinə və peşəkar hərbçiliyinə heyran qalmamaq mümkün deyil. Cəmi qırx iki il ömür sürmüş istedadlı sərkərdə əsgər və zabit heyəti arasında böyük nüfuza malik olub.

Otuzuncu illərdə Yaqub Quliyevin komandalıq etdiyi eskadron Qızıl-Arvatda, Qaraqum səhrasının ənginliklərində, Ağ-Zila çöllərində, Qırx quyu ərazisində basmaçılara və ağqvardiyaçı tör-töküntülərinə qarşı müvəffəqiyyətli əməliyyatlar aparıb.

1932-ci ildə Yaqub ikinci Türkmənistan süvari alayının qərargah rəisi təyin olunub. Bir il sonra o, M.Frunze adına Hərbi

Akademiyaya oxumağa göndərilib. Deməli, Orta Asiya komandirləri arasında ilk ali hərbi təhsil alan həmyerlimiz Yaqub Quliyev olmuşdur.

***Akademiyada Yaqub Quliyevin keçmiş kursant dostu, general-mayor Mixail Qryaznovun xatirəsindən:***

Otuz il əvvəl Hərbi Akademiyada Yaqub Quliyevlə birgə təhsil almışam. O, qrupumuzun starşinası idi. Yaqub yaxşı oxuyurdu. Bacarıqlı komandir idi. Ona görə də təlim qrupumuzun rəisi general Pavel Alekseyeviç Kuroçkin Yaqub Quliyevi həmişə bizə nümunə göstərirdi. Həssas, təvazökar gənc komandirə hamı hörmət edərdi. İlk baxışdan sakit görünən qaraşın zabit təlim qrupları arasında keçirilən yarışlarda od-alova dönərdi. Onun başçılıq etdiyi eskadron həmişə birinci yeri tuturdu. Yaqub geridə qalan kursantlara elə kömək göstərirdi ki, o özünü təhqir olunmuş hesab etməsin.

Elə dostluğumuzun təməli də akademiyada oxuyanda qoyuldu, çətinliyə düşəndə Yaqub həmişəköməyimə çatardı. 1936-cı ilin payızında təhsilimizi başa vurduq. Moskvada keçirilən paradda iştirak elədik. Yadımdadı, 1936-cı ilin noyabr ayında ayrıldıq. Yaqub özünün Qafqaz qılıncını mənə hədiyyə verdi: “Al, – dedi, – yadigar qalsın ki, xatırlayasan. Amma unutma ki, dədəbaba Vətənimin əl işidir. Qafqazdandır”. O, qılıncı indi də evimdə saxlayıram. Ordu sıralarında xidmətdə olanda dostum az olmayıb. Yaqub Quliyev onların arasında xüsusi yer tutur. Belə dostun itkisi çox ağır olur. Heyf, çox heyf ki, nə qələbəni gördü, nə də qocaldı. Qırx iki yaşında istedadının çağlayan vaxtı həlak oldu…

* * *

***Sovet İttifaqı Marşalı, dörd dəfə Sovet İttifaqı Qəhrəmanı Georgi Jukov da general Yaqub Quliyevi müharibədən çox sonra da xoş sözlərlə xatırlayırdı.*** “Sovet Türkmənistanı” qəzetinin müxbiri Boris Paromanovski ilə müsahibəsində Stalinqrad uğrunda döyüşlərdə faşistlərin darmadağın edilməsində Türkmən

döyüşçülərinin iştirakından danışan görkəmli sərkərdə bildirmişdir ki, onların sırasında çox qabiliyyətli komandir, sonrakı döyüşlərin birində qəhrəmancasına həlak olmuş general-mayor Yaqub Quliyev da var idi ("Sovet Türkmənistanı", 1966, 8 dekabr).

1941-ci ilin may ayında polkovnik Yaqub Quliyev Orta Asiyadakı şöhrətli iyirmi birinci süvari diviziyasının komandiri təyin oldu. İyulun 14-də Baş Qərargahdan əmr gəldi: diviziya eşelonlara dolub, cəbhəyə yola düşdü. Qatar Orta Asiya torpağını arxada qoyub qərbə doğru irəliləyirdi. Faşistlər Bryansk və Oryolu bombalayırdılar. Baş komandalığın sərəncamı ilə onun diviziyası cəbhə komandanlığının sərəncamına verilmişdi. Onlar Surac şəhərinin iyirmi kilometrliyindəki meşədə yerləşdirildi. Kəşfiyyat xəbər gətirmişdir ki, diviziyanın irəliləyəcəyi istiqamətdə düşmənin güclü tank və mexanikləşdirilmiş qrupları yerləşir. Polkovnik Yaqub Quliyev düşmənlə üzbəüz döyüşə girməyi məsləhət görmədi: ancaq düşmənin kiçik bölmələrini mühasirəyə alıb qəfil zərbə ilə onları məhv etmək olardı.

Tez-tez faşist təyyarələri alçaqdan uçur, diviziyanın yerini öyrənməyə çalışırdı.

***Generalın döyüşçü dostu, podpolkovnik Aleksandr Kibalnikovun xatirəsindən:***

"Meşədə gizlənməyimizə baxmayaraq, düşmənin qırıcı təyyarələri tez-tez diviziyamızı atəşə tuturdu. Ağır dəqiqələr idi. Düşmənin qırıcısı növbəti dəfə hücum edəndə Yaqub özü yaxınlıqdakı əl pulemyotunun arxasına keçib faşist təyyarəsinə atəş açdı. Arxadan gələnlər atəşi görüb dərhal geri döndülər. Komandir Yaqub Quliyevin bu şücaəti bizim süvariləri cəsarətə gətirdi. Bir az aralanan düşmən təyyarəsi tüstülənə-tüstülənə meşəyə düşüb partladı. Bu, vurduğumuz ilk düşmən təyyarəsi idi.

Bizim diviziya Roslavla gedən yolla irəliləyirdi. Avqustun 2-də gecə saat üçdə kəşfiyyatçılardan məlumat gəldi: Kriçyov-Roslavl şosesi ilə general Quderianın qoşununun 24-cü tank korpusu irəliləyir.

Yarım saat keçər-keçməz diviziyamız düşmənlə üz-üzə gəldi. Möhkəm vuruşma oldu. Bu, bizim ilk əsil döyüşümüz idi. Diviziyamız böyük itki versə də, döyüş müvəffəqiyyətlə keçdi. Bizim diviziya düşmənin sürətlə irəliləyən 24-cü tank korpusunu bir sutkadan çox ləngitdi, bir neçə tankını məhv etdi.

Döyüş qabiliyyətini, təcrübəsini və xidmətlərini nəzərə alaraq, Bryansk cəbhəsinin Hərbi Şurası polkovnik Yaqub Quliyevi 21-ci, 52 və 55-ci süvari diviziyalarından təşkil olunmuş birləşmiş süvari qrupuna komandir təyin etdi. Bu birləşmiş süvari qrupu xüsusi hərbi əməliyyatları həyata keçirmək üçün yaradılmışdı və biz sonralar Yampol və Oryol şəhəri uğrunda döyüşlər apardıq".

* * *

Polkovnik Yaqub Quliyevin 21-ci Dağ-süvari diviziyası müharibənin ilk aylarından Belarusiyanın meşəli və bataqlıq ərazilərində vuruşaraq alman-faşist qoşunlarına sarsıdıcı zərbələr endirmişdir.

Bu müvəffəqiyyətli əməliyyatların şahidi olan ***Sovet İttifaqı Marşalı Sergey Semenoviç Biryuzov sonralar "Toplar atəş açmağa başlayanda" hərbi memuarlarında general Yaqub Quliyevin döyüş fəaliyyətindən və insani keyfiyyətlərindən geniş söhbət açıb***.

Marşal yazır: "O zaman 21-ci Dağ-süvari diviziyası Orta Asiya Hərbi Dairəsindən cəbhəyə yenicə gəlmişdi. Diviziyaya qarabəniz, qaragöz, çox cəld və cəsur polkovnik Yaqub Quliyev komandanlıq edirdi. Quliyevin qarşısına tapşırıq qoyulan kimi o dərhal dedi:

– Bircə bu bataqlıqdan açıqlığa çıxsaydıq… Orda heç nədən qorxumuz olmaz.

Bu döyüşlərdə biz süvarilərlə dostlaşdıq. Məlum oldu ki, onlar vətənpərvər və yaxşı yoldaşlardır. Bu dostluq döyüşlərarası fasilələrdə yox, döyüşün çətin anlarında özünü xüsusilə göstərirdi. Mən cəsur döyüşçüləri və onların komandiri polkovnik Yaqub Quliyevi indiyədək minnətdarlıqla xatırlayıram".

1942-ci il yanvarın axır günlərində polkovnik Yaqub Quliyevi Moskvaya çağırıb, onu Dördüncü Türküstan süvari korpusunun müavini təyin etdilər. Həmin il fevralın 11-də ona SSRİ Xalq Komissarları Sovetinin əmri ilə general-mayor rütbəsi verilmişdir.

Onu da xatırladaq ki, Böyük Vətən müharibəsi illərində ilk dəfə general-mayor rütbəsi ilə təltif olunan azərbaycanlı Yaqub Quliyev olmuşdur. Həmin il noyabrın 10-da Heybət Heybətov, 1944-cü il fevralın 9-da Tərlan bəy Əliyarbəyov və 1944-cü il martın 13-də isə Həzi Aslanov general-mayor rütbəsinə layiq görülmüşlər.

* * *

Cəbhələrdə vəziyyət ağırlaşmışdı. Ölkənin içərilərinə soxulan faşist ordusu geniş Don çöllərini keçib Stalinqrada can atırdı. Yaqub Quliyev də həmin cəbhəyə göndərildi.

1942-ci il noyabrın 19-da general-leytenant Timofey Şapkinin və general-mayor Yaqub Quliyev düşmənin arxasına keçib qəflətən zərbə endirmək üçün neçə yuxusuz gecələr keçirərək həlledici hücuma hazırlaşdılar. İlk hücum çox uğurlu oldu. Süvari korpusu Abqanerovo stansiyasını, Aksay şəhərini və xeyli yaşayış məntəqəsini düşməndən azad etdi. Həmişə cəbhənin ön xəttində olan general Yaqub Quliyev cəsurluğu, misilsiz şücaəti ilə süvarilərinə şəxsi nümunə göstərirdi.

Dördüncü süvari korpusun komandiri general-leytenant T.T.Şapkinin imzaladığı təltif təqdimatında qeyd edilir: "General-mayor Yaqub Quliyev ən təhlükəli sahələrdə olaraq, özünün cəsarəti və igidliyi ilə komandir və döyüşçüləri qəhrəmanlığa ruhlandırmışdır. 23 noyabr 1942-ci ildə general Yaqub Quliyev şəxsən döyüşçülər sırasında olmuş və onları Solyanıy kurqanını ələ keçirməyə irəli aparmışdır. Vəziyyət bunu tələb edirdi və Solyanıy kurqanı alınmışdı. General-mayor Yaqub Quliyev 222-ci süvari alayını düşmən üzərinə aparmışdır. Tank döyüşlərində artilleriyanın atəş mövqelərində olaraq artilleriyaçıların uğuruna kömək etmişdir. Alman işğalçıları ilə mübarizədə Stalinqrad

cəbhəsi komandanlığının fərdi tapşırığını yerinə yetirdiyinə görə və bu zaman döyüş meydanında şəxsi igidlik və cəsarət nümayiş etdirdiyinə görə, general-mayor Yaqub Quliyev "Qırmızı Bayraq" ordenilə təltif olunmağa tam layiqdir".

Beşinci zərbə ordusunun tərkibində həmin günlərdə iki mərd həmyerlimizin süvariləri Kotelnikova rayonunda yanaşı vuruşurdu: podpolkovnik Həzi Aslanovun tank alayı və general Yaqub Quliyevin komandir müavini olduğu dördüncü süvari korpusu.

Dekabrın 16-da quduzlaşmış Manşteyn qoşunları Hitlerin göndərdiyi "Pələng" tanklarına arxalanıb inadkarlıqla vuruşurdular. Onların məqsədi feldmarşal Paülüsun qoşunlarını mühasirədən qurtarmaq idi. Nəyin bahasına olursa olsun düşmənin bu niyyəti pozulmalı idi. Bu tapşırıq 4-cü süvari korpusun əsgər və zabitlərinə də verilmişdi. Onlar general R.Malinovskinin 61-ci Qafqaz diviziyası gələnədək zirvəni müdafiə edib əldə saxlamalı idilər. Bu döyüşlər zamanı general Yaqub Quliyev cəbhənin lap ön xəttində vuruşurdu. Stalinqrad cəbhəsində qəti qələbəyə az qalmış – 1942-ci il dekabrın 22-də faşistlərin atdığı top gülləsi mərd general Yaqub Allahqulu oğlu Quliyevi ölümcül yaraladı. Mərd Azərbaycan oğlu və "Türkmən ulduzu" kimi şöhrət qazanmış Yaqub Quliyev Volqa sahilində əbədi yuxu tapdı. Onun rəşadəti ölümündən sonra da dövlət tərəfindən yüksək qiymətləndirildi. Təəssüf ki, Lenin ordenini sinəsində gəzdirmək generala qismət olmadı.

Xalqımızın mərd oğullarına sevgi və məhəbbət bəsləyən, ***Sovet İttifaqı Marşalı Sergey Biryuzovun səmimi sözləri yada düşür. Stalinqrad döyüşlərinin iştirakçısı olan marşalın Həzi Aslanov haqqında da ürək açan sətirləri var. Marşal general Yaqub Quliyev və onun döyüşçülərinin qəhrəmanlığı haqqında yazır***: "Bizdən ön cəbhədə olan 51-ci ordunun hissələri bir neçə gün idi ki, gecələr də arasıkəsilməyən döyüşlərdə iştirak edirdilər. Sağ qonşumuzun – beşinci zərbə ordusunun vəziyyəti xüsusilə ağır idi. Həmin orduya daxil olan dördüncü süvari korpusu böyük

itkilərə məruz qalmışdı. Onlar Şərqə tərəf çəkilmişdilər. Süvari korpusunun bir neçə komandiri həlak olmuşdu. Korpus komandirinin müavini general-mayor Yaqub Quliyev ölümcül yaralanmışdı. O, mənim Bryansk cəbhəsində döyüş yoldaşım idi. Mehriban insan, qayğıkeş komandir kimi şöhrət qazanmışdı. Yadımdadır, Belarusiyada olanda o, operativ sahəyə çıxmağa, süvarilərə məxsus tərzdə vuruşmağa can atırdı. Süvarilər general Yaqub Quliyev kimi komandirlərin sayəsində hitlerçi işğalçılara qarşı sovet xalqının mübarizəsində misilsiz hünərlər göstərmişlər. Stalinqradın Mamay təpəsində digər iştirakçılarla birlikdə mərd və heç vaxt unudulmayan general Yaqub Quliyevin də adı qranit lövhə üzərində həkk olunmuşdur".

* * *

İstefada olan general-leytenant Həsən Laqustanoviç Xaraziya 1984-cü ildə nəşr olunmuş "Mərdlik yollarında" kitabında döyüş yoldaşı general Yaqub Quliyevi unutmamışdı. Müharibədən əvvəl o, iyirmi birinci Dağ-süvari diviziyanın tərkibinə daxil olan alayların birində mayor rütbəsində qərargah rəisi vəzifəsində xidmət edirdi. Həsən Xaraziya yazır: "1941-ci il iyunun əvvəlində diviziya komandiri general Aleksey Semyonoviç Jadov yeni təyinat aldı, onun yerinə isə dairə qərargahında idarə rəisi olan Yaqub Quliyev təyin olundu. Bəli, belə əvəzlənmə A.S.Jadovla ayrılığın acısını müəyyən dərəcədə azaldırdı. Bizim çoxumuz polkovnik Yaqub Quliyevi tanıyırdıq və hörmət edirdik. O, millətcə türkmən (!? – ***Ş.N.***) idi, 1900-cü ildə Azərbaycanda anadan olmuşdur. Yaqub Allahqulu oğlu Quliyev A.S.Jadova layiqli əvəz idi. Bu, bizi ruhlandırırdı".

General-leytenant Həsən Xaraziya xatırlayır ki, diviziyanın yeni komandiri ciddi və tələbkar idi, lakin yumor hissindən də məhrum deyildi. Diviziyanın cəbhəyə göndərilməsindən bəhs edərkən o, belə bir epizodu yada salır: "Budur, çoxdan gözlədiyimiz gün çatdı. Eşelonlara yüklənmə ərəfəsində alaya polkovnik

Yaqub Quliyev gəldi. O, alayın şəxsi heyət və hərbi texnika ilə komplektləşdirilməsini diqqətlə yoxladı, süvarilərin əhvali-ruhiyyəsilə maraqlandı. Sonra şəxsi heyəti toplamağı əmr etdi. Onun ürəkdən gələn sözləri indiyə kimi yadımdadır: "Yoldaşlar! Partiya, dövlət və xalq qarşısında verdiyimiz andı icra etmək vaxtı, sovet silahını şöhrətləndirmək zamanı çatıb. Qüdrətli sosialist Vətənin layiqli övladları olun". Sonra Yaqub Allahquliyeviç komandirlərə yaxınlaşıb dedi: "Nəhayət, dostlar, bizim zamanımız yetişdi. Vətəni qorumağa gedirik!". Hər yandan:

– Yoldaş polkovnik, bizi hara göndərirlər? Hansı cəbhəyə? – sualları səsləndi.

– Bax bunu indi deyə bilməyəcəyəm, özünüz başa düşürsünüz, hərbi sirdir, – diviziya komandiri Yaqub Quliyev gülümsədi. Və zarafatla dedi: – Onu bilin ki, maşinist yolu yaxşı tanıyır, hara lazımdır çatdıracaq".

* * *

1990-cı ildə Moskvada "Hərbi memuar" seriyasından nəşr olunmuş bir kitab aldım. Dörd yüz səksən səhifəlik kitabın müəllifi, Ordu generalı, Sovet İttifaqı Qəhrəmanı, professor S.P.İvanovdur. Kitabda general həmyerlimiz Yaqub Quliyevin fotoşəklini və döyüş qəhrəmanlığından səhifələri oxuyub sevindim. Stalinqrad döyüşlərindən əlli il keçməsinə baxmayaraq, ordu generalı iki həmyerlimizin – Yaqub Quliyevin və Həzi Aslanovun qəhrəmanlığını hələ də unutmayıb. Yeri gəlmişkən, general Yaqub Quliyevin haqqında xatirə yazan rus generallarından yalnız Semyon İvanov onun türkmən yox, qafqazlı olduğunu bildirir.

"…Şimal qrupuna rəhbər təyin etməkdə komandanlığın fikirləri haçalandı, ordu komandanı general A.M.Qorodnyanski oraya 307-ci atıcı diviziyanın komandiri polkovnik Q.S.Lazkonu, amma qərargah rəisi general-leytenant A.V.Petruşevski general Y.A.Quliyevi təyin etməyi məsləhət gördü. Müzakirə zamanı general Yaqub Quliyevin daha bacarıqlı olmasını yüksək rütbəli zabitlər xüsusi qeyd etdilər.

Faktiki olaraq ordu komandanının müavini vəzifəsini icra edən Yaqub Quliyevin namizədliyində dayandılar. Ona görə ki, onun belə birləşmələrə rəhbərlik etmək təcrübəsi vardı. General Yaqub Quliyev əvvəllər 21, 52 və 55-ci süvari diviziyalarının tərkibində olan qruplara rəhbərlik etmişdi. On üçüncü ordunun veteranı olan Yaqub Quliyev çox səciyyəvi xüsusiyyətlərə malik idi. Bu ehtiraslı qafqazlının qarabəniz sifətini kömür kimi qara və ağıllı gözləri daha da işıqlandırırdı. Demək olar ki, onun bütün həyatı alovlu və ehtiraslı keçmişdir. Onun kasıb kəndli ailəsindən olmasına baxmayaraq, qırx ildən bir qədər artıq ömründə çox əziyyətlər görmüşdü.

On səkkizinci ilin baharından öz həyatını Qızıl Ordu ilə həmişəlik bağlamışdır. O, Xəzəryanı cəbhədə ağqvardiyaçılara və ingilis müstəmləkəçilərinə qarşı cəsarətlə döyüşmüş, sonralar isə Qaraqum səhralarında basmaçılarla mübarizədə polad kimi bərkimişdi. Cəsarət və hünərinə görə ordenlə təltif olunmuşdur. Müharibədən əvvəl M.V.Frunze adına Hərbi Akademiyanı və Baş Qərargahın nəzdində olan Hərbi Akademiyanın təkmilləşdirmə kursunu da müvəffəqiyyətlə bitirmişdir.

Böyük Vətən müharibəsinin ilk günündən on üçüncü ordunun tərkibində olan İyirmi birinci Dağ Süvari diviziyasına komandanlıq etmişdir. General Yaqub Quliyevin süvariləri düşmənə cəsarətli və sürətli zərbələr vurmuşdur.

Ordu komandanı, general A.M.Qorodnyanski əmr etdi ki, nəyin bahasına olur olsun gələcək əks zərbələr naminə əlverişli mövqeləri itirməmək üçün düşmən qoşununun şimal istiqamətində irəliləməsinə yol verilməsin. Məhz bu zaman general Yaqub Quliyevin əla döyüş keyfiyyətləri üzə çıxmışdır. Hitlerçilərin şimal həmlələrinin qarşısını almaq üçün ordu komandanı Yaqub Quliyevə Trosno istiqamətində düşmənə zərbə vurmağı əmr etmişdir. General Y.Quliyev qısa vaxtda bu hücumu təşkil edib, müvəffəqiyyətlə başa çatdırmışdır. Bundan əlavə Quliyevçilər düşmənin atəş məntəqələrini, tankların çoxluq təşkil etdiyi yerləri aşkar etmiş və onlara sarsıdıcı zərbələr vurmuşlar. Bu da

yalnız Quliyevçilərə deyil, bütöv cəbhə üçün əlverişli şərait yaratdı.

İyirmi birinci süvari diviziyasının qəhrəmanlıqla həlak olmuş döyüşçülərinin şərəfinə Ponyatovka stansiyasında əzəmətli abidə qoyulmuşdur. Quliyevçilər general Yaqub Quliyevin qeyri-adi sərkərdəlik bacarığı ilə hər yerdə, hər cəbhədə qəhrəmanlıqla vuruşmuşlar. Onlar bu şərəfə layiqdirlər.

Şəxsən mən general Yaqub Quliyevin bir çox döyüşlərdə fərqləndiyinin şahidi olmuşam. Heç təsadüfi deyil ki, o, Qırmızı Bayraq ordeninə, general-mayor rütbəsinə layiq görülmüşdür. Dördüncü süvari korpusunun komandir müavini kimi yüksək vəzifə tutmuşdur. Əsasən onun Orta Asiya respublikalarının əhalisindən təşkil olunmuş döyüşçüləri hitlerçilərə qarşı böyük cəsarətlə vuruşurdular. 1942-ci ilin dekabr ayında altmış birinci süvari diviziyasının ön döyüş xəttində qəhrəmanlıqla vuruşan general-mayor Yaqub Quliyev Stalinqrad ətrafı döyüşlərin birində ölümcül yaralandı. Həlak olandan sonra Lenin ordeni ilə təltif olundu".

* * *

Süvari general-mayoru Yaqub Quliyev haqqında oçerki yazıb qurtaranda vaxtilə özüm üçün tərtib etdiyim "Çox bilmək istəyənin dəftəri" adlı qeydlər kitabçamı vərəqlədim. Dəftərdə xalqımızın görkəmli ziyalıları, sərkərdələri haqqında nadir faktları, müdrik fikirləri toplamışam. Üç eloğlumuz haqqında nə vaxtsa yazdığım belə bir qeydə rast gəldim.

***– Taciklərin ilk qəzetlərinin naşiri və redaktoru Mirzə Cəlal Yusifzadədir (1862-1931);***

***– Özbəklərin ilk xalq şairi, professor Maqsud Məsum oğlu Şeyxzadədir (1908-1967);***

***– Türkmənlərin ilk generalı Yaqub Allahqulu oğlu Quliyevdir (1900-1942).***

Türkmənistanda general Yaqub Quliyevin xatirəsi əbədiləşdirilib. 1960-cı ilin aprel ayında Marı şəhər bağında ona bürünc

heykəl qoyulub, muzey açılıb. Onun adına küçə və kolxoz var. Türkmən xalqı onu öz oğlu kimi qəlbən sevir, ona bizim ulduzumuz və Türkmən ulduzu fəxri adı veriblər. Orduya gedən çağırışçılar generalın heykəli önündə andiçmə mərasimi keçirirlər. Türkmənistanda onun adı cəsarət rəmzinə dönüb.

İnanırıq ki, süvari generalı Yaqub Quliyevin adı təkcə Türkmən xalqının yox, bundan sonra həm də doğma Azərbaycan xalqının ümid simvoluna çevriləcək. Xalqımızın hərb tarixində adı iftixarla çəkiləcəkdir.

## MÜNDƏRİCAT

Hərb tarixinə həsr olunmuş ömür – general-leytenant Çingiz Məmmədov ..........

BİRİNCİ HİSSƏ

Alim-general ..........
Milli Ordu quruculuğunda ..........
Port-Arturun azərbaycanlı qəhrəmanları ..........
General Əli ağa Şıxlinski Birinci Dünya müharibəsi illərində ..........
İyirminci ildə Qarabağ döyüşləri (Sənədli povest) ..........
Generala alim qayğısı ..........
Milli hərbi lüğətimizin banisi ..........
Yadların etirafı ..........
Azərbaycan oğlu, Rusiya generalı ..........
"Heç kim güllələnməsin…" (bunu Nəriman Nərimanov qəti şəkildə tələb etdi) ..........
Azərbaycana etibar olunmur ..........
Vətəni candan əziz tutan general (Sənədli hekayə) ..........
Dilçi – alim – general ..........
Darılmaq istəməz ..........
İlk hərbi memuarımız ..........
Sankt-Peterburqda iyirmi iki gün ..........
Ömrün son günləri (Sənədli hekayə) ..........
General Əli ağa Şıxlinskinin müdrik fikirlərindən ..........
Danışan sənədlər ..........
Görkəmli adamlar general Əli ağa Şıxlinski haqqında ..........
General Əli ağa Şıxlinski ömrünün əsas tarixləri ..........
Bizi düşündürən general ..........

## İKİNCİ HİSSƏ

Şəxsiyyət (Mirzə Hüseyn əfəndi Yusif oğlu Qayıbov) .............
İlk hərbi şəfqət bacısı ...........................................................
Gecikmiş vüsal (Sənədli hekayə) ...............................................
Ulu vəsiyyəti faydasız olmaz ....................................................
General Əli ağa Şıxlinskinin hərbçi qardaşoğluları ..................
Şıxlinski nəslinin şairləri ..........................................................
General Əli ağa Şıxlinskinin şeirləri ..........................................
Unuda bilmirəm ........................................................................

## ÜÇÜNCÜ HİSSƏ

Topoqraf-general İbranim ağa Vəkilov.......................................
Ailənin bəxt ulduzu ..................................................................
Uzun ömrün səhifələri ..............................................................
Süvari general-mayor İbrahim ağa Usubov .............................
Yaralı söhbət..............................................................................
Əzabkeş insanın xatirələri..........................................................
Hərbçi Vəkilovlar .......................................................................
Polkovnik Gəray bəy Vəkilov .....................................................
Azərbaycanın ilk admiralı .........................................................
General Səməd bəy Mehmandarov Birinci Dünya
müharibəsində.........................................................................
Səməd bəy Mehmandarov Cümhuriyyət dövründə ...............
Türk irsini öyrədən general ......................................................
Azərbaycan oğulları Stalinqrad döyüşlərində..........................
Həzi Aslanovla görüş ................................................................
General Həzi və Qaçay Aslanovlar Stalinqrad döyüşlərində...
Süvari generalı Yaqub Quliyev.................................................



***"Şöhrət" ordenli, texnika elmləri doktoru Qasım İsrafil oğlu, uzun illər üzərində işləyib ömür sərf elədiyim "General Əli ağa Şıxlinski və silahdaşları" kitabımın nəşrinə dəstək oldunuz.***

Bu, Sizin doğulduğunuz və təhsil aldığınız Qazax rayonu Muğannı kənd orta məktəbindən başlanan vətənpərvərliyinizdən, Azərbaycan ədəbiyyatına və hərb tarixinə tükənməz məhəbbətinizdən irəli gəlir.

Qoy doğma Azərbaycan torpağının yetirdiyi mərd oğulların müqəddəs ruhu Ülkər xanımla ocağınızda böyütdüyünüz İsrafil bəylə Lamiyə xanımın həmişə yardımçısı olsun.

**Şəmistan Əmiraslan oğlu Nəzirli**
**"General Əli ağa Şıxlinskiy və silahdaşları"**


Redaktor: ***Pərinaz Səmədova***

Kompyuter səhifələnməsi: ***Allahverdi Kərimov***

Çapa imzalanmışdır 22.05.2012
Formatı 60×90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 31
Sifariş . Tiraj 300

"Şərq-Qərb" Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az